Crossref
ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2024
№6 (84)

BAKI-2024

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Cahangir Cahangirli (Azərbaycan)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2024
№6 (84)

BAKU-2024

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Jahangir Jahangirli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 32
https://doi.org/10.30546/3006-0346.2024.6.84.010

# AZƏRBAYCAN RESPUBLİKASI DÜNYA MÜSTƏVİSİNDƏ QLOBAL ÇAĞIRIŞLARIN KEŞİYİNDƏ

**İRADƏ HÜSEYNOVA**

*Bakı Dövlət Universiteti*
*Qafqaz xalqları tarixi kafedrasının müdiri,*
*tarix elmləri doktoru, professor*

*E-mail: prof.irada.huseynova@gmail.com*

Azərbaycan nadir təbiətə və ekoloji zənginliyə, rəngarəng landşafta malikdir. Azərbaycanın təbii gözəlliyi və zənginliyi haqqında geniş məlumatlar müxtəlif qədim, orta əsr yazılı mənbələrində, səyyahların xatirələrində və alimlərin əsərlərində əks olunub. Azərbaycan çoxşaxəli flora və faunaya malikdir. Təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ekoloji tarazlığın, suyun, torpağın və havanın qorunması dünyanı düşündürən qlobal problemlərdəndir. Azərbaycan Respublikasının daxili siyasətində ekoloji təhlükəsizliyin təmin edilməsi, Xəzər dənizinin və havanın çirklənməsinin qarşısının alınması prioritet məsələlərdəndir. Heydər Əliyevin Azərbaycana rəhrbərlik etdiyi dövrlərdə - istər Sovet İttifaqı zamanı, istərsə də müstəqillik illərində ölkədə ekoloji problemlərin həlli istiqamətində, ətraf mühitin qorunması və bu sahə ilə bağlı müntəzəm olaraq müvafiq işlər həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə ekoloji problemlərin həlli, ətraf mühitinin yaxşılaşdırılması kimi məsələlər ölkənin uzunmüddətli inkişaf strategiyasına hesablanmışdır. Sözügedən problemlərin həlli ilə bağlı vacib tədbirlər Heydər Əliyev tərəfindən hələ sovet rəhbərliyi dövründə həyata keçirilmişdir. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda ekoloji siyasət geniş vüsət aldı. Heydər Əliyev hər zaman təbiətin keşiyində duran bir ölkə rəhbəri idi. O söyləyirdi: "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir" [16].

1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət və siyasi xadim Heydər Əliyev ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəsi ilə bağlı 8 əsas qanun və 32 qərar qəbul etmişdir [11].

Azərbaycana ilk rəhbərliyi dövründə Bakı şəhərinin yaşıllaşdırılması Heydər Əliyevin ekoloji siyasətində prioritet yer tuturdu. 1971-ci il sentyabrın 7-də Heydər Əliyev Bakı şəhərinin yaşıllaşdırılması haqqında qərar verdi. Bakı şəhərinin yaşıllaşdırılması məsələlərinin müzakirəsi məqsədi ilə geniş müşavirə keçirildi. Bakıda geniş yaşıllaşdırma işləri aparıldı [11].

Heydər Əliyev ekoloji problemlərin həllinə yönəlmiş 5 milli dövlət proqramı hazırlamışdır. Ölkənin flora və faunasının qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə respublikada Şirvan (1969), Ağ göl (1978), İsmayıllı (1981), Bəsitçay (1974) təbiət qoruqları və milli parklar yaradıldı. Ekoloji siyasət beynəlxalq səviyyədə də həyata keçirilirdi. Azərbaycan beynəlxalq təşkilatlarla fəal əməkdaşlığa başladı. 1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına, 2000-ci il iyulun 18-də Kioto Protokoluna, 2002-ci ildə uzunmüddətli transsərhəd havanın çirklənməsinə dair beynəlxalq konvensiyaya qoşuldu.[17]

Ulu öndər Heydər Əliyevin ekoloji siyasətinin uğurlu kursu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 20 ildə Azərbaycanda ekoloji problemlərin həlli, əlverişli təmiz mühitin yaradılması istiqamətində mütərəqqi tədbirlər həyata keçirilib. Qeyd edək ki, ətraf mühitə mənfi təsir göstərən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" təsdiq edilib. Ölkə Prezidenti 2010-cu ili "Ekologiya ili" elan edib. "Ekologiya ili" çərçivəsində Bakı şəhərində havanın təmizlənməsi üçün üç milyondan çox ağac əkilib.[12]

Bu gün "yaşıl iqtisadiyyat"a keçid bütün dünyada böyük əhəmiyyət daşıyan çağırışlardan biridir. Azərbaycan Prezidenti İlham Əliyevin: "Ətraf mühitin qorunması da bizim üçün çox vacib məsələdir... indi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik" fikri cəmiyyətimizdə bu məsələlərin dövlət səviyyəsində nə qədər aktual olduğunu göstərir.

Məlum olduğu kimi, XX əsr dünyada ənənəvi enerji mənbələrinin (qaz, neft, uran) geniş istifadəsi ilə müşahidə olunurdu. Lakin karbohidrogen mənbələrinin getdikcə tükənməsi, 1986-cı ildə Çernobıl (Ukrayna) və 2011-ci il Fukusimada (Yaponiya) baş verən qəzalar bəşəriyyəti böyük təhlükələrlə üz-üzə qoydu. Beləliklə, nüvə enerjisi eyforiyası get-gedə səngiməyə başladı. Eləcə də tükənən enerji mənbələrinin istehlakı zamanı ekologiyaya atılan karbon dioksid qazının ifrat istixana effekti yaratması sanki cəmiyyətin başı üzərində "Demokl qılıncı" kimi asılmışdı.

Belə şəraitdə qədimdən məlum olan enerji mənbələri - külək, günəş, su və bioenerji yenidən aktuallıq kəsb etməyə başladı. Məhz bu səbəbdən iqlim dəyişmələri ilə mübarizə yollarından biri, bəlkə də ən səmərəli istiqamətlərdən birincisi bərpa olunan enerji, "yaşıl iqtisadiyyat"dır.

"Yaşıl iqtisadiyyat" ekoloji risk və resurs qıtlığını nəzərə almaqla insanların daha yüksək həyat səviyyəsini və cəmiyyətdə sosial bərabərliyi təmin edən iqtisadiyyatdır. "Yaşıl iqtisadiyyat"ın əvvəlki iqtisadiyyat modellərindən əsas fərqi əvvəllər qiymət qoyulmadan istifadə edilən resursların əsl dəyərinin nəzərə alınmasıdır. Məsələn, təbiətdən pulsuz götürülən havanın, suyun və yaxud bioloji resursların dəyərinin nəzərə alınması. Əgər bütün bu resursların bəşəriyyət üçün əhəmiyyət və qiyməti nəzərə alınarsa, onda bir çox indi ucuz başa gələn malların əslində xeyli baha başa gəlməsi aydın olar. Yaşıl iqtisadiyyat modeli bəşəriyyətə daha harmonik inkişaf etməyə imkan verər.

Başqa sözlə "yaşıl iqtisadiyyat"ın təməl prinsipləri səmərəli planlaşma modellərinə əsaslanır. Bunun üçün sosial, ətraf mühit və iqtisadiyyatın ədalət prinsipi əsasında qarşılıqlı fəaliyyət modeli daha etibarlıdır. Bu model ətraf mühit, iqtisadiyyat və sosial sahə arasındakı münasibətlərin davamlı inkişafına zəmin yaradır. "Yaşıl iqtisadiyyat" dayanıqlı iqtisadiyyatı yaradaraq həm iqtisadi səmərəni, həm sosial ədaləti, həm də ekoloji tarazlığı təmin etmiş olur.

Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının dayanıqlı inkişafla bağlı reallaşdırdığı tədbirlər olduqca böyük əhəmiyyət daşıyır. Bununla bağlı Azərbaycan BMT-yə üzv olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Bu İnkişaf Məqsədlərinin icrasının institutsional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alan Prezident İlham Əliyev 6 oktyabr 2016-cı il tarixində "Azərbaycan Respublikasının Dayanaqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Yaradılması Haqqında" fərman imzalamışdır.

Ölkəmizdə bərpa olunan energetika sahəsinin inkişaf etdirilməsi, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə müvafiq qanun və normativ hüquqi aktlar qəbul edilmişdir. Bununla əlaqədar görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış və Agentliyin Əsasnaməsi təsdiq edilmişdir. 3 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır.

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı isə ekologiya sahəsində qəbul olunan mühüm sənədlərdən biridir. Sosial iqtisadi inkişafın 5 Milli Prioritet üzrə həyata keçirilməsini nəzərdə tutan sənəddə olduqca vacib müddəalar öz əksini tapmışdır. Bu müddəalara iqtisadiyyatın dayanıqlı əsaslarda rəqabət qabiliyyətli olması, işğaldan azad olunmuş regionların inkişaf etdirilməsi və böyük qayıdış siyasətinin reallaşması, təmiz ekologiya və "yaşıl artım" ölkəsi daxildir.

Həmçinin Milli Prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Xatırlatmaq lazımdır ki, Azərbaycan Respublikası iqlim dəyişməsindən ziyan çəkən 39 ölkədən biridir. Belə ki, coğrafi cəhətdən ölkə ərazisinin 60%-dək hissəsi arid zonaya daxildir və iqlim dəyişmələrinin təsirlərinə həssas regiondur. Bu məsələyə dair ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi iqlim dəyişmələri ilə bağlı müntəzəm olaraq tədqiqatlar aparmış və Cənubi Qafqaz regionunun ekologiyasında yaranan ekoloji böhranla bağlı bəyanatlar yaymışdır.

Azərbaycan hökuməti hidroenerji ehtiyatlarını gücləndirmək məqsədilə ölkənin bütün regionlarında, xüsusilə Qarabağ bölgəsində yeni su anbarları, su elektrik stansiyalarının bərpasına başlamışdır. Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25%-i formalaşır və bu da təxminən illik 2.56 milyard m3 təşkil edir. Prezident İlham Əliyev su ehtiyatlarının səmərəli idarə olunması istiqamətində addımlar atmışdır. Respublikada genişmiqyaslı su təchizatı və suvarma layihələri həyata keçirilmişdir. Qeyd edək ki, gələcək nəslin ekoloji maarifləndirilməsi üçün məktəb və universitet proqramlarına ekoloji təhsil daxil edilib. Universitetlərdə ekologiya üzrə ixtisaslaşmış yüksəkixtisaslı kadrlar hazırlanır.

Qeyd edək ki, 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında olan Azərbaycanın tarixi torpaqları ermənilər tərəfindən ekoterrorizmə məruz qalıb. Ermənilərin ekoloji terroru Azərbaycanın su təsərrüfatı sisteminə də mənfi təsir göstərib. Ermənistan transsərhəd su ehtiyatlarını kimyəvi və bioloji maddələrlə çirkləndirib. İşğaldan azad edilmiş Ağdərə rayonunda yerləşən Sərsəng su anbarı respublikanın 6 rayonunu (Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) su ilə təmin edirdi. 44 günlük müharibə nəticəsində işğaldan azad edilmiş torpaqlarda müntəzəm bərpa-quruculuq işləri aparılır. Qarabağ, Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonaları elan edilib. İşğaldan azad edilmiş ərazilərin genişmiqyaslı bərpa və yenidən qurulma prosesində ətraf mühitin mühafizəsi prioritet məsələdir. Bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir və ekosistem bərpa olunur [8].

Qarabağ regionun prioritetliyi ondadır ki, burada təkcə su elektrik stansiyaları deyil, habelə külək, günəş elektrik stansiyaları kimi alternativ və bərpa oluna bilən enerji növlərindən də istifadə ediləcək. Günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə qoymaq istəyən şirkətlər işğaldan azad edilmiş ərazilərə cəlb olunurlar. Regionda "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar tədbirlər görülür [9, s.176.].

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Laçında Güləbird SES-nin, Suqovuşan SES-nin, Sərsəng su anbarının yenidən bərpası, Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyaların istifadəyə verilməsi ölkəmizdə hidrosiyasətin uğurla inkişafından xəbər verir [5].

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur [15].

Bərpa olunan enerji - günəş enerjisi üçün ən səmərəli bölgələr Abşeron yarımadası, Xəzərin sahilyanı əraziləri və Naxçıvan Muxtar Respublikası xüsusilə əlverişlidir.

Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihələri həyata keçirmək üçün geniş potensial var. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur. Aparılan ilkin tədqiqatlar, günəş enerjisi layihələri üçün topoqrafiya, iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında Cəbrayıl və Zəngilan rayonlarının ərazisi məqsədəuyğun hesab edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə - xüsusən də Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması, ilkin araşdırmalara əsasən müəyyən edilmişdir.

Dünyada neft və qaz ölkəsi kimi tanınan Azərbaycan dövlət rəhbərliyinin yürütdüyü siyasət nəticəsində artıq "yaşıl enerji" ölkəsinə çevrilir. Yaxın gələcəkdə Azərbaycanda istehsal olunan yaşıl enerji də dünya bazarlarına çıxarılacaq. Bir sıra Avropa dövlətləri Azərbaycandan alacağı yaşıl enerji sayəsində öz enerji təhlükəsizliyini möhkəmləndirəcək.

Azərbaycan yaşıl enerjisi mübadiləsi sahəsində Gürcüstan ilə ikitərəfli, eləcə də Gürcüstan və Türkiyə ilə üçtərəfli faydalı əməkdaşlıq aspektləri planlaşdırır. Gürcüstanla əməkdaşlıq edərək "yaşıl

enerji"ni Azərbaycan-Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya ixracı prioritet hesab olunur. Bu məqsədlə 16 yanvar 2023-cü ildə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "Dayanıqlıq Həftəsi" adlı tədbirdə Azərbaycanın "yaşıl enerji" siyasəti bir daha dövlət başçısı tərəfindən beynəlxalq birliyə bəyan edildi. Prezident bu siyasətin növbəti uğuru hesab olunan 2022-ci ildə Qara dəniz vasitəsilə yaşıl enerji ixracı ilə bağlı Avropa Komissiyası, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın imzaladığı yeni bir beynəlxalq layihənin əhəmiyyətini vurğuladı [2].

Dövlətimizin başçısı İlham Əliyev Əbu-Dabi "Dayanıqlılıq Həftəsi"nin açılış mərasimində qeyd etdi ki, bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir: "Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq" [3].

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının, dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un bu il Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsi olaraq təqdirəlayiqdir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Onu da qeyd etmək vacibdir ki, bu mötəbər tədbirlə bağlı keçirilən seçkidə Ermənistan və Bolqarıstan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkmişdir. Bu amil dövlətimizin regionda bir daha artan nüfuzunun göstəricisi kimi qiymətləndirilir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının milli prioritetlərindən biri "Təmiz ətraf mühitə və yaşıl inkişafa malik ölkə" kimi müəyyən edilib. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycan Respublikasında "Yaşıl dünya həmrəylik ili" elan edilib. Proqrama işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı tədbirlər də daxildir [1].

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu qərar, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara, dolayı da olsa, dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edir. Tədbirin Bakıda keçirilməsinin Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcəyi şübhəsizdir.

Bundan əlavə, 2023-cü ildə keçirilmiş COP28 Konfransında 2030-cu ilə qədər dünyada bərpa olunan enerji potensialının üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması üzrə "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd" birgə təşəbbüsünə Azərbaycanın dəstəyinin ifadə edilməsi ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir.

Həmçinin COP29-la bağlı təqribən 70-80 min xarici qonağın ölkəmizə gözlənilən səfəri onu deməyə əsas verir ki, bu tədbir ölkəmizin tanınmasında, onun turizm potensialının dünyaya çatdırılmasında yeni imkanlar açır. COP29 həm də turizmin inkişafına təkan verəcək bir fürsət kimi dəyərləndirilməlidir.

2024-cü ilin aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilmişdir. Bu forumda regional təhlükəsizlik, enerji keçidi və yaşıl artımla bağlı Azərbaycanın baxışının təqdim olunması, Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, Azərbaycanda külək və günəş enerjisi layihələri, Avropa İttifaqına qədər uzanan yaşıl enerji dəhlizlərinin gələcəyi və digər aktual mövzular müzakirə edildi. Forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir: "Azərbaycan yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək ölkə seçilmişdir [6]. Bu, Azərbaycanın qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. Bakı Enerji Həftəsi çərçivəsində təşkil olunan bu forum Cənubi Qafqazda təhlükəsizliyin və əməkdaşlığın inkişafına hesablanan nüfuzlu beynəlxalq tədbirdir.

2024-cü ilin iyunun 4-də Azərbaycan Respubli-

kasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak edərkən söyləmişdir: "Enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik [7].

Azərbaycanda ekoloji vəziyyət və təbii sərvətlərin idarə edilməsi davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilib. Ölkədə ətraf mühitin çirklənməsinin minimuma endirilməsinə, təbii sərvətlərin qorunmasına və alternativ enerji mənbələrindən istifadəyə xüsusi diqqət yetirilir. Milli ekoloji siyasət ətraf mühitin təhlükəsizliyinin təmin edilməsinə, indiki və gələcək nəsillərin ehtiyaclarının ödənilməsinə yönəldilmişdir. Azərbaycanın uğurlu siyasəti ekoloji problemlərin həllinə, çağırışlara operativ reaksiya verilməsinə və ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin səmərəliliyinin artırılması istiqamətində fəal iş aparır. Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda qlobal ekoloji problemlərin həllinə və dünya ekosistemin qorunmasına qayğı göstərən ölkədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında qeyd etmişdir: "Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik." [18]

Qətiyyətlə deyə bilərik ki, COP29 beynəlxalq konfransı ölkədə yüksək təşkilatçılıq səviyyəsində keçiriləcək və bu xalqımızın, dövlətimizin növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə özünü dünya müstəvisində bir daha təmiz ətraf-mühit, yaşıl enerji, təmiz iqlim şəraitinin yaradılmasının keşiyində duran qüdrətli bir dövlət kimi təsdiq edəcəkdir. Yaşıl enerji növlərinin yaradılması və dünya bazarlarına nəqli hazırda Azərbaycan dövlətinin enerji siyasətinin prioritetlərindəndir.

**Nəticə**

Hər zaman dünyada sülhün, ədalətin yanında olduğunu bəyan edən Azərbaycan dövləti bu gün müstəqil siyasət apararaq, beynəlxalq hüququn prinsiplərinə və qanunlarına əsasən öz ərazisində antiterror tədbirləri keçirməklə suverenliyini bərpa etmiş və ölkədə separatizmin kökünü kəsmişdir. Artıq bütün beynəlxalq təşkilatlar, dünya dövlətləri də Azərbaycanın Qələbəsini qəbul edib və ölkəmizin haqlı mövqeyini dəstəkləyirlər.

Bəşəriyyəti düşündürən iqlim dəyişikliyi və qlobal istiləşmənin fəsadlarına qarşı mübarizə Azərbaycanın da başlıca siyasi və iqtisadi məsələlərindən biridir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini anlayır. Qarşılaşdığımız problemlər kollektiv fəaliyyət, razılaşdırılmış ümumi məqsəd və istəklərə sədaqət tələb edir.

Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Azərbaycanın COP 29-a ev sahibliyi etməsi ölkəmizin istər regionda, istərsə də beynəlxalq müstəvidə nüfuzlu, etibarlı tərəfdaş, qüdrətli dövlət olduğunu əyani surətdə sübut edir.

**ƏDƏBİYYAT SİYAHSI:**

*1. "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu" Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi (president.az) (17.04.2024)*

*2. Azərbaycan Prezidenti: BƏƏ dünyanın ən sabit və inkişaf etmiş ölkələrindən birinə çevrilib. [Elektron resurs] / yanvar 16, 2023. URL: https://apa.az/az/resmi-xeber/azerbaycan-prezidenti-bee-dunyanin-en-sabit-ve-inkisaf-etmis-olkelerinden-birine-cevrilib-742472.*

*3. Azərbaycan "yaşıl enerji"nin mühüm ixrac mənbəyinə çevriləcək https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycan-yasil-enerjinin-mu-*

*hum-ixrac-menbeyine-cevrilecek-1674081113*

*4. Ekoloji siyasət /Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (eco.gov.az) (17.04.2024)*

*5. "İlham Əliyev Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb" Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi (president.az) (17.04.2024)*

*6. İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda iştirak edib. 23 aprel 2024-cü il. https://president.az/az/articles/view/65580*

*7. İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin açılışında çıxış edib. 04 iyun 2024 https://president.az/az/articles/view/66181*

*8. Hüseynov E.Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi ekoloji siyasət bu gün öz bəhrəsini verir Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi ekoloji siyasət bu gün öz bəhrəsini verir - AZƏRTAC (azertag.az) (17.04.2024)*

*9. Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyuzat", 2021, 224 s.*

*10. Hüseynzadə F. Heydər Əliyev Bakını yaşıllıqlar diyarına çevirdi.Ulu öndərin hakimiyyəti illərində ölkəmizdə ekoloji siyasət yeni vüsət alıb Paritet.- 2010.- 10-12 iyul.- S. 11.*

*11. Musayev X. Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təbiəti - Turaz (17.04.2024)*

*12. Hüseynov B.Heydər Əliyev və Azərbaycan təbiəti - Heydər Əliyev – 100. Heydər Əliyev və Azərbaycan təbiəti (sia.az) (17.04.2024)*

*13. Вейсалова З. Роль Гейдара Алиева в формировании экологической политики Азербайджана. Роль Гейдара Алиева в формировании экологической политики Азербайджана (nedelia.az) (17.04.2024)*

*14. Prezident İlham Əliyev: Güləbird Su Elektrik Stansiyasının istismara verilməsinin çox böyük rəmzi mənası var: [Elektron resurs] / fevral 15, 2021. URL:https://azertag.az/xeber/prezident_ilham_aliyev_gulebird_su_elektrik_stansiyasinin_istismara_verilmesinin_chox_boyuk_remzi_menasi_var_video-1712451*

*15. COP29 2024-cü ildə Azərbaycanda keçiriləcək 11 Dekabr 2023, 20:22 https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466*

*16. https://xalqqazeti.az/az/sosial-heyat/136857-heyder-eliyev-her-bir-insan (17.04.2024)*

*17. Экология Азербайджана — Википедия (wikipedia.org) (17.04.2024)*

*18. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxışı. https://president.az/az/articles/view/67140*

## XÜLASƏ

Bu gün dünyanı narahat edən qlobal problemlərdən biri iqlim dəyişməsidir və onun törədə biləcək fəsadlarıdır. Hazırkı dövrdə əsas məqsəd yaşıl iqtisadiyyat, yaşıl enerji siyasətinin inkişafını təmin etmək, insanların həyat tərzini yaxşılaşdırmaqdır.

Müasir dövrdə mürəkkəb proseslərin getdiyi bir vaxtda ölkəmizin dünya müstəvisində mövqeyinin gücləndirilməsi, həmçinin, nüfuzlu geosiyasi mərkəzə çevrilməsi Azərbaycanın siyasi gücünü günbəgün artırır. Bu sahədə Azərbaycanın prioritet istiqamətlərindən biri də mövcud vəziyyətlə bağlı müvafiq tədbirlərin həyata keçirilməsidir. Qloballaşma şəraitində Azərbaycan Respublikası iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edərək birgə təşəbbüslər vasitəsilə davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyərək dünyamiqyaslı fəaliyyət göstərərir, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı -COP29 kimi möhtəşəm bir tədbirə ev sahibliyi edəcəkdir. Bu amil müstəqil Azərbaycan dövlətinin dünyada qlobal təşəbbüslərin və beynəlxalq tədbirlərin təşkilatçısı kimi nüfuzunu daha da artırır.

**Açar sözlər:** *iqlim dəyişmələri, yaşıl iqtisadiyyat, ekoloji siyasət, dayanıqlı inkişaf, alternativ enerji, ekoloji tarazlıq.*

## РЕЗЮМЕ

Одной из глобальных проблем, которая беспокоит мир сегодня, является изменение климата и его возможные осложнения. Основная цель в настоящее время заключается в обеспечении развития зеленой экономики, проведении политики в области зеленой энергетики и улучшении качества жизни людей. В настоящее время основной целью является обеспечение развития зеленой экономики, проведение политики в области зеленой энергетики и улучшение качества жизни людей.

Укрепление позиций нашей страны на мировой арене, а также превращение ее в влиятельный геополитический центр в ходе сложных процессов в современную эпоху с каждым днем повышает политическую мощь Азербайджана. Одним из приоритетных направлений Азербайджана в этой сфере является реализация соответствующих мер, связанных со сложившейся ситуацией. В условиях глобализации Азербайджанская Республика, осознавая важность скоординированных ответных мер на изменение климата, осуществляет мировую деятельность, направленную на ускорение продвижения к устойчивому будущему посредством совместных инициатив. Азербайджан станет местом проведения грандиозного мероприятия, такого как конференция сторон Рамочной конвенции ООН по изменению климата-COP29. Этот фактор еще больше повышает авторитет независимого Азербайджанского государства в мире как организатора глобальных инициатив и международных мероприятий.

**Ключевые слова:** *изменение климата, зеленая экономика, экологическая политика, устойчивое развитие, альтернативная энергетика, экологический баланс.*

### SUMMARY

One of the global problems that worries the world today is climate change and its possible complications. The main goal at present is to ensure the development of a green economy, implement green energy policies and improve the quality of life of people. Currently, the main goal is to ensure the development of a green economy, the implementation of a green energy policy and the improvement of people's quality of life.

The strengthening of our country's position on the world stage, as well as its transformation into an influential geopolitical center in the course of complex processes in the modern era, increases Azerbaijan's political power every day. One of the priorities of Azerbaijan in this area is the implementation of appropriate measures related to the current situation. In the context of globalization, the Republic of Azerbaijan, realizing the importance of coordinated responses to climate change, carries out global activities aimed at accelerating progress towards a sustainable future through joint initiatives. Azerbaijan will be the venue for a grandiose event such as the Conference of the Parties to the United Nations Framework Convention on Climate Change-COP29. This factor further enhances the authority of the independent Azerbaijani state in the world as an organizer of global initiatives and international events.

**Key words:** *climate change, green economy, environmental policy, sustainable development, alternative energy, environmental balance.*

UOT 32
https://doi.org/10.30546/3006-0346.2024.6.84.012

# ABŞ VƏ ÇXR-NIN BÖYÜK GÜC OLMAQ MÜBARİZƏSİ FONUNDA ÇİNİN İQTİSADİ İNKİŞAFI VƏ QLOBAL DÜNYAYA BAXIŞI

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrası.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: ekonika22@yahoo.com*

Çin iqtisadi və hərbi sahədə sürətli inkişafına görə dünyada seçilən ölkələrdən biridir. İqtisadi artımına görə o, Yaponiyanı geridə qoyaraq ikinci sırada qərarlaşmışdır. Proqnozlar göstərir ki, yaxın gələcəkdə Atlantik blokunun istehsal payı Asiya blokunun istehsal payından geridə qalacaq. İqtisadi inkişaf və onun gətirdiyi güc potensialının Asiyanın şərqində təmərküzləşməsi artıq bir neçə ildir tendensiyaya çevrilmişdir. Bu yöndə akademik araşdırmalar, analiz və proqnozlar uzun müddətdir müzakirə olunur. 2007-ci ildə 14%-lik iqtisadi artımla rekorda imza atmış Çin prosesdə aparıcı rol oynayır. Hələ ötən əsrin əvvəllərində "açıq qapılar" siyasətinin tətbiqi ilə müstəmləkə statusunun saxlanılması Çinin istismarını və qərb dövlətlərinin buradakı nəzarətini asanlaşdırırdı. ABŞ Çində nüfuz uğrunda avropalı müstəmləkəçilərlə rəqabət aparır, Çinin siyasi və iqtisadi həyatına nəzarət etməyə çalışırdı. Açıq qapı siyasəti bu ölkəyə xarici iqtisadi müdaxiləni asanlaşdırırdı. 1920-ci illərdə Çində daxili çaxnaşmaların başlaması ilə o, yeni dövrə daxil oldu. Həmin illərdə ideoloji qarşıdurmanın intensivləşməsi qütbləşməni dərinləşdirdi və İkinci Dünya müharibəsi bitdikdən sonra qızışan vətəndaş müharibəsi kommunistlərin qələbəsi ilə nəticələndi. Bu qələbə təkcə qütbləşməni aradan qaldırmadı, Çinin qərbdən asılılığına da son qoydu. Təqribən yüz ildir müstəmləkə olan Çin soyuq müharibə erasına müstəqil dövlət kimi daxil oldu. Çinin müstəmləkə tarixindən əvvəl onun dünyaya və beynəlxalq münasibətlərə özünəməxsus yanaşmaları vardı. Moizm, taoizm, konfutsionizm kimi fəlsəfi-konseptual yanaşmalar çinlilərin təkcə həyat tərzlərinə, əxlaq və davranışlarına təsir göstərmirdi. Bu yanaşmalar dövlət strukturuna, xarici siyasət baxışlarına, digər ölkələrə münasibətdə də özünü göstərirdi. Bu baxımdan Çin uzun müddət konfutsionizm prinsiplərindən çıxış edən xarici siyasət və beynəlxalq münasibətlər nəzəriyyəsinə malik olmuşdur. Burada Çin qonşu ölkələrə qarşı təcavüzkar olmayan, daxili inkişafa köklənməyə çalışan, digər dövlətlərin işlərinə qarışmayan qapalı siyasət həyata keçirirdi. 1850-1950-ci illər müstəmləkə dövrü, sonra kommunizmin radikal ab-havası Çini bu ideologiyadan uzaq salmışdır. Mao Tszedun konfutsionizm əleyhinə siyasət aparmış, bu təlimin öyrədilməsini qadağan edərək monastrların bağlanmasına qərar vermişdi. Ənənəçiliyə qarşı gələn kommunizm qapalı iqtisadi modeli dəstəkləyirdi. Çin bir müddət özünü qonşu ölkələrdən və dünyadan təcrid etməyə başladı. İqtisadi inkişafa cəhdlərlə yanaşı mədəni-sosial sahədə də bəzi addımlar atıldı. Mədəni inqilab adı ilə başlayan, şiddət və totalitarlıq elementlərini özündə əks etdirən fəaliyyət Çin xalqının ictimai şüuruna mənfi təsir göstərdi. İdarəetmə sisteminin böyük bir hissəsində dəyişikliklər aparıldı, kadrların bir çoxu həbs edildi, məktəb və universitetlər öz fəaliyyətini dayandırdı. Minlərlə insanın ölümü ilə nəticələnən bu hadisələr nəzarətdən çıxmağa başladı. Nəticədə Maonun göstərişi ilə bəzi geri addımlar atıldı və mədəni inqilab nisbətən yumşaq dövrə keçid etdi. Den Syaopinin hakimiyyətə gəlməsilə mədəni inqilab sona çatdı. Böyük iqtisadi sıçrayışa nail olan D.Syaopin Çin iqtisadiyyatının atası hesab olunurdu. Onun daxildə apardığı islahatlar iqtisadiyyatda inqilabi yeniliklər meydana gətirdi. Xarici aləmə münasibətdə də proqressiv addımlar atıldı. D.Syaopin iqtisadiyyatın modernizasiyası üçün yetmiş illik (1980-2050) strateji inkişaf planını açıqladı [1, s.27]. Üç mərhələdən ibarət bu planın həyata keçirilməsi üçün o, ölkədaxili stabilliyin və beynəlxalq sülh mühitinin formalaşmasını əsas şərtlər kimi görürdü. Çinin 1990-cı illərin əvvəlindən etibarən iqtisadi inkişafının sürətlənməsi yaxın tarixin mühüm məqamlarından biridir. Bu dövr önəmli tarixi hadisələrlə yadda qalmışdır. Çində Tiananmen hadisələrinin baş verməsi insanların sistemə qarşı olduqlarını və daha yaxşı həyat arzuladıqlarını göstərdi. İqtisadi və sosial sahədə modernizasiya bəzi kəsimlər tərəfindən müsbət qarşılanmamışdı. Çin dünyagörüşündə mühafizəkarlığın önəmini vurğulayan Tiananmen hadisələri sosial şüurun modernləşməyə qarşı olduğunu bir daha göstərdi. Tiananmen hadisələri təkcə Çinin daxili həyatına mənfi

təsir göstərmədi, dünya ölkələri ilə, xüsusilə, qərblə əlaqələrdə durğunluq yaratdı.

Çinin inkişafı ilə yanaşı bəzi sistem problemlərinin olması bu inkişafa mənfi təsir göstərməkdədir. Etnik-dini konfliktlər, insan haqları və demokratiya, ekoloji problemlər kimi məsələlər onun daxili problemləridir. Xarici siyasətdə də o, bir çox problemlərlə üzləşir. Çinin beynəlxalq münasibətlər anlayışı ittifaqlardan daha çox rasional münasibətlərə dayanır və dünya hegemonluğuna qarşı çıxır. Dünya hegemoniyasına münasibətdə onun hazırki siyasi görüşlərinə qədim Çin diplomatiyasının prinsipləri təsir edir. Bu prinsiplər dünyanın böyük və kiçik, inkişaf etmiş və etməkdə olan ölkələrdən ibarət olduğunu söyləyir. Güclü ölkələr arasında olan məsələlərə zəif ölkələr müdaxilə edə bilmədiyindən və özlərini güclü hiss etmədiklərindən çinli diplomatlar onların qorunmasının vacib olduğunu qeyd edir [1,s.34]. Bu görüşlər ABŞ-nin beynəlxalq münasibətlər nəzəriyyələri ilə uyğunluq təşkil etmir. Çində beynəlxalq münasibətlərə konseptual baxışların formalaşması 1980-ci illərdə həyata keçirilən islahatlar və dünyaya açılma siyasətinin ardından özünü göstərdi. Bununla qərbmərkəzli beynəlxalq münasibətlər nəzəriyyələrinə alternativ olan yeni düşüncə sistemi meydana gəldi. Çinin inkişafı və böyük gücə çevrilməsi çinmərkəzli beynəlxalq münasibətlər nəzəriyyəsinin hazırlanmasını şərtləndirdi. D.Syaopin iqtisadiyyatın inkişafını ideologiyadan (kommunizmdən) üstün tutan praqmatik siyasət izlədiyi üçün bu siyasətə yönəlmişdir. Nəticədə beynəlxalq münasibətlər üzrə mütəxəssislər qeyd olunan baxışın daxili həyata və xarici ölkələrlə münasibətlərə necə təsir etdiyini araşdırmağa başladılar. Çin Xalq Respublikasının quruculuq dövrü olan 1949-1978-ci illərdə xarici siyasətə yanaşmada və beynəlxalq araşdırmalarda marksist-leninçi, maoçu təlimlərin və SSRİ-nin təsiri var idi. Ardından mədəni inqilabın akademik həyata göstərdiyi mənfi təsirlər bu sahənin inkişafını arxa plana atmışdı. D.Syaopinin islahatçı siyasəti ilə sosial elmlərin, habelə beynəlxalq münasibətlər sahəsinin inkişafına təkan verildi. Universitetlərdə iqtisadiyyat, dünya siyasəti, beynəlxalq münasibətlər dərsləri keçilməyə başlandı. Bu sahədəki çatışmazlıqları aradan qaldırmaq üçün ilk növbədə qərb dünyagörüşü mənimsənməyə başlandı, xaricdən araşdırmaçılar dəvət olundu. Qərbdən dəvət olunan araşdırma və düşüncə institutları burada fəaliyyət göstərməyə başladı. 1983-cü ildə Pekin Universiteti ilk dəfə xarici tələbələrin qəbuluna başladı. 1989-cu il hadisələrindən bir neçə il sonra elmi-akademik fəaliyyətlər yenidən bərpa oldu. Bu dövrdə yeni nəzəriyyələr işlənib hazırlanmış, sülh, çoxqütblülük, iqtisadi qloballaşma, strateji partnyorluq və beynəlxalq təhlükəsizlik kimi mövzular üzərində yeni çalışmalar başlamışdı. 1990-cı illərin sonlarında beynəlxalq münasibətlər üzrə araşdırmalar şaxələnmiş və kompleks xarakter almışdır. Bununla belə, Çində insan azadlıqları və humanitar müdaxilə kimi məsələlər haqqında danışmaq təhlükəli hesab olunurdu [1, s.39].

Böyük iqtisadi sıçrayış öz nəticələrini doxsanların əvvəlində göstərməyə başladı. 1995-ci ildən enerji idxalatı getdikcə artan Çin böyüyən iqtisadiyyatın tələbatlarını ödəməyə çalışırdı. İqtisadi inkişaf xalqın rifahının artmasına, ordunun modernizasiyasına və siyasi rejimin möhkəmlənməsinə zəmin yaradırdı. İqtisadiyyat enerji amilindən asılı hala gəldikcə formalaşan enerji diplomatiyası Çinin xarici siyasətində rol oynamağa başladı. Bu səbəbdən o, enerji resursları ilə zəngin ölkələrlə rasional əlaqələr qurmağa önəm verməyə çalışırdı. Bu ölkələrin Orta Şərq və Afrikanın az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr olması Çinin onlarla əlaqələr yaratmasını asanlaşdırırdı. D.Syaopinə qədər olan dövrdə demək olar ki, Çinin enerji diplomatiyası formalaşmamışdı. Lakin onun bir çox sahədə apardığı islahatlar 90-cı illərdən etibarən inkişafın simptomlarını göstərirdi. Bu dövrdə iqtisadi artım 9%-ə qədər yüksəlmiş və iqtisadi tələbatlar artmağa başlamışdır. Əgər keçən əsrin sonlarında Çin dünyadakı bütün enerji ehtiyatlarının 9.6%-ni istehlak edirdisə, 2020-ci ildə bu rəqəmin 16% olacağı gözlənilirdi. 2010-cu ilin hesabatına görə Çinin enerji istehlakı 2.25 mln. ton neftə bərabərdisə, bu rəqəm ABŞ-nin eyni ildəki neft istehlakından (2.17 mln. ton neft) 4% çoxdur [2, s.51]. Həmçinin, 2000-ci ildən etibarən ölkənin elektrik enerjisinə tələbatı da artmışdır. Bunun əsas səbəbi şəhər əhalisinin sayının artması ilə əlaqədardır. Təqribən 15-20 il sonra Çinin şəhərlərində yarım milyard insanın yaşayacağı ehtimal edilirdi. Növbəti on il ərzində isə onun neftə olan gündəlik tələbatının 8 mln. tonu keçəcəyi ehtimal olunur. Çin neftə olan tələbatının 80%-ni idxal hesabına ödəyir [ 2, s.52]. Onun enerjidən asılılığı enerji təhlükəsizliyinin təmin olunmasını gündəmə gətirir. Bu baxımdan Çinin qarşısında bəzi əngəllər var. Enerji nəqliyyatının

əsasən dəniz üzərindən həyata keçirilməsi və dəniz yollarının böyük bir hissəsinin ABŞ-nin nəzarətində olması bunlardan biridir. Cənubi Çin və Şərqi Çin dənizlərində gərginliyin ara-sıra yüksəlməsini bununla da əsaslandırmaq olar. Çinin neft idxal etdiyi ölkələrdə terror, siyasi amil kimi problemlərin mövcudluğu həm nəqliyyatın təhlükəsizliyinə, həm də enerji qiymətlərinin qeyri-stabil olmasına səbəb olur. Enerji qiymətlərinin onun istehsalçıları tərəfindən müəyyən olunması, o cümlədən, ekoloji problemlərin artması və Çinin enerjiyə tələbatının çoxalması problemli situasiya yaradır. Çinin enerji diplomatiyası və enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində yanaşmalar Orta Şərq və Afrika regionlarında onu ABŞ-la rəqabətə sövq edir. ABŞ-nin neftin həm istehsalı, həm də istehlakında ilk sıralarda olması bazarda güclü təsirinin olduğunu göstərir. Enerji idxalatının yarısını Orta Şərq və Afrikadan qarşılaması neft bazarlarında ABŞ-nin rolunun böyük olduğunu deməyə imkan verir. Dünyanın böyük neft şirkətləri ya ona məxsusdur, ya da onunla ortaq olan digər böyük şirkətlərdir. Bu baxımdan, Çin ABŞ-nin neft bazarlarına girmək üçün enerji siyasətini təkcə iqtisadi inkişaf baxımından dəyərləndirməməli, enerji təhlükəsizliyi anlayışını da prioritetə çevirməlidir. Orta Şərqdən Uzaq Şərqə neftin nəqlində boru-kəmər nəqliyyatının bir çox çatışmazlıqları olduğundan bu nəqliyyat su yolları üzərindən həyata keçirilir. Yaponiya və Cənubi Koreya kimi Çin də enerji idxalının 90%-ni dəniz yolları vasitəsilə həyata keçirir. Lakin o, adıçəkilən ölkələrdən fərqli olaraq dəniz yolları və donanmaya nəzarətin ABŞ-nin əlində olmasından narahatdır. Tayvan və ya digər səbəblərdən yarana biləcək hər hansı münaqişəli vəziyyətdə ABŞ bu rıçaqlardan Çinə qarşı istifadə edə və enerji nəqlini dayandıra bilər. Məhz bu amil boru nəqliyyatının önəmini bir daha gündəmə gətirir.

Çin böyük layihələrə imza atmaqla öz potensialını real gücə çevirməyə çalışır. O, Yeni İpək Yolu Layihəsi ilə iqtisadi inteqrasiyanın hüdudlarını genişləndirməyi hədəfləyir. "Tək Kəmər, Tək Yol" (One Belt, One Road) şüarı ilə çıxış edən dövlət başçısı Si Tsinpin ilk dəfə bu layihə ilə bağlı 2013-cü ildə danışmağa başladı [3]. Layihəyə görə Çin quru və su yolları vasitəsilə bir neçə regiona nüfuz edərək yeni ticarət dəhlizləri yaratmağa çalışır. Asiya, Afrika və Avropanı özündə birləşdirən layihənin böyük investisiya kütləsini özündə cəmləşdirəcəyi ehtimal olunur. Hədəflənən investisiyanın miqdarı təqribən 300 mlrd. dollara yaxındır. Çin ilk növbədə tərəfdaş ölkələrlə ikitərəfli əlaqələri gücləndirməyə çalışır. Bu mənada, prezident S.Tsinpinin 2015-ci ildəki Orta Şərq səfəri əhəmiyyət kəsb edir. Regionun güclü üç ölkəsi - Misir, İran və S.Ərəbistanı ilə keçirilən ikitərəfli görüşlər iqtisadi əməkdaşlığa və gələcək perspektivlərə yönəlmişdir. Bu ölkələrdə Çinə məxsus dəniz limanları mövcuddur [3]. Layihənin reallaşması istiqamətində maliyyə qaynaqlarını özündə birləşdirən İpək Yolu İqtisadi Fondu və Asiya İnfrastruktur İnvestisiya Bankı qurulmuşdur. Layihənin kəmər hissəsi Çin-Orta Asiya-Avropa quru məkanını, yol hissəsi isə Qırmızı və Aralıq dənizi vasitəsilə Avropaya çıxacaq su yolunu özündə birləşdirir. Çin inteqrasiya axtarışlarının sadəcə iqtisadi təməldə olduğunu bir neçə dəfə vurğulamışdır. O, iqtisadi amilləri qabardaraq imperializm niyyətlərindən uzaq olduğunu səmimi dillə ifadə etmişdir. İmperializmin mirası olan Orta Şərqin Çinə müsbət münasibəti onunla izah olunur ki, qərbin buradakı maraqlarına qarşı alternativ formalaşdırılsın. Lakin analitikləri düşündürən məqam Çin gücləndikcə onun müttəfiqlərinin imperializmdən necə sığorta olunacağıdır. Qərb dünyasının layihə ətrafında fikirləri isə xüsusi önəm kəsb edir. Avropa Çinin qoyduğu investisiyalardan çox, onun öz bazarını xarici investorlara nə zaman açacağı ilə maraqlanır. S.Tsinpin isə Davos İqtisadi Forumunda çıxış edərkən Çinin qloballaşma prosesini və açıq qapı siyasətini dəstəklədiyini ifadə etdi [3]. Avropa dövlətləri güman edir ki, layihənin reallaşması daha çox Çinin maraqlarına xidmət edəcək. Çin isə layihənin hər kəsin maraqlarını bərabər şəkildə təmin edəcəyini müdafiə edir. O da nəzərə alınmalıdır ki, Çin nə qədər inkar etsə də, iqtisadi amillə yanaşı siyasi balans yaratmaq niyyətləri özünü vaxtaşırı göstərəcək və iqtisadi inkişaf siyasi qütbləşməni qaçılmaz edəcəkdir.

Soyuq müharibə dövründə başlayan ticarət əlaqələri siyasi münasibətlərin dəyişkənliyindən asılı olmayaraq artan istiqamətdə inkşaf etmişdir. 1989-2001-ci illər durğunluq dövrü olmasına baxmayaraq ticarət əlaqələrində axsama yaşanmamışdır. Artan ticarət həcmi, xüsusilə, Çinin iqtisadi maraqlarına daha çox cavab verirdi. 1990-cı illərdən başlayaraq dünya bazarında yeni aktor olan Çin ucuz işçi qüvvəsi və digər bazar imkanlarına görə dünya ölkələrinin, eləcə də, ABŞ-nin diqqətini çəkmişdir. 1985-1991-ci illərdə ticarət əlaqələri "soyuq

müharibə" dövrünün sona çatması ilə daha da intensivləşmişdir. Bu dövrdə ixracat və idxalat fərqi böyük deyildi. 1990-cı illərdə isə ticarət balansı ABŞ-nin əleyhinə dəyişməyə başladı və onun xarici ticarət kəsirləri yarandı. Əsrin sonunda bu kəsirin miqdarı 70 mlrd. dollara yaxınlaşmışdı. Nəticədə ABŞ ən çox borcu olan ölkəyə çevrilmişdir. Çin bu gün də ABŞ-nin ən böyük kreditoru olaraq qalmaqdadır və onun Çinə borcu büdcəsinin 20%-dən çoxunu təşkil edir [4]. ABŞ-nin Çindən sonra digər böyük ticarət ortaqları olan Meksika və Yaponiya ilə əlaqələrdə də 1990-cı illərdən eyni tendensiya müşahidə olunur. ABŞ borc verən ölkə olmaqla yanaşı xarici borclarının fantastik rəqəmlərə çatması ilə də xüsusi diqqət çəkir.

2000-ci illərdə də ticarət əlaqələri digər əlaqələrə nəzərən daha çoxşaxəli və geniş xarakter daşıyırdı. İqtisadi sferada Çinin ən böyük uğurlarından biri Ümumdünya Ticarət Təşkilatına üzv olması idi. 1980-ci illərdə Dünya Bankı, BVF kimi təşkilatlara üzv olan Çin 1986-cı ildə Tariflər və Ticarət üzrə Baş Sazişə (GATT) qoşulmaq üçün müraciət etdi [5, s. 68]. Lakin uzun müddət (15 il) onun müraciətinə baxılmadı. Bunun səbəblərinə gəldikdə isə, dünya siyasətində böyük dəyişikliklər baş verirdi və bu, Çinin daxili həyatına da təsir edirdi. Ardından 1989-cu il Tiananmen hadisələri, 1995-ci il Tayvan böhranı, 1999-cu ildə NATO hücumu ABŞ-Çin əlaqələrini çətin vəziyyətə salmış və üzvlük məsələsi uzamışdı. 2001-ci ildə təyyarə krizinin baş verməsini də bura əlavə etmək olar. 11 sentyabr hadisələrinin ardından əlaqələrdə yaxınlaşma olmuş və 16 sentyabr tarixində Çinin təşkilata üzvlüyü təsdiqlənmişdir. ÜTT-yə üzv olmaq Çinin dünya bazarına çıxış imkanlarını daha da artırmış, ABŞ-la ticarət əlaqələri daha da genişlənmişdir. Onun təşkilata üzv olmadığı 2000-2001-ci illərdə ABŞ-ın kəsir fərqində ciddi artış müşahidə olunmamışdır. 2002 və sonrakı illərdə isə bu fərq (2002-ci ildəki artış 20 mlrd. dollar idi) getdikcə çoxalır. Bu da təşkilata üzv olmanın Çinin iqtisadi həyatında nə dərəcədə əhəmiyyətli rol oynadığını deməyə imkan verir. 1990-1999-cu illərdə ABŞ-ın ticarət kəsiri 350 mlrd. dollar ikən, 2000-2009-cu illərdə (maliyyə böhranına qədərki dövr) 1.75 trln. dollara çatmışdır. Bu da kəsirin təqribən beş dəfə böyüməsi demək idi. 2009-2016-cı illər arasında ABŞ-nin xarici ticarət kəsiri 226 mlrd. dollardan 347 mlrd. dollara qalxmışdır. 2017-ci il üçün bu rəqəm 375 mlrd. dollara bərabərdir [5, s.70].

## Nəticə

ABŞ-ÇXR münasibətlərində ticarət əlaqələri xüsusi rol oynayan və əməkdaşlığı gücləndirən faktordur. Demək olar ki, bu sahədən başqa digər sahələrdə rəqabətin payı daha böyükdür. Rəqabət münasibətləri gücləndikcə qarşıdurma mühiti də genişlənir. Lakin ticarət münasibətlərində qarşılıqlı asılılıq amili bu rəqabəti balanslaşdıra bilər. Buna ən böyük əngəl son dövrlərdə ticarət müharibəsi fenomeninin gündəmə gəlməsidir. ABŞ-ın ticarət defisiti böyüdükcə onun ticarət müharibəsi kimi böyük risklərə girmə ehtimalı artır. Lakin Çinin də qeyd etdiyi kimi ticarət müharibəsi hər iki iqtisadiyyatın sonunu gətirə bilər. ABŞ bu amildən istifadə etməklə, xüsusilə süni müdaxilələrin tətbiq olunması ilə ciddi mənfəətlər əldə edə bilməz. Əksinə, bu qarşıdurmanın daha da güclənməsinə səbəb olur. Məhz ticarət faktoru hər iki ölkənin münaqişəli məsələlərdə güzəştə getməsini təmin edən həlledici rola malikdir. Bu rolu qorumağa çalışmaq hər iki ölkənin əsas vəzifələrindən biridir. ABŞ-nin fantastik rəqəmlərə çatan ticarət defisiti isə onun iqtisadiyyatının gələcəyi üçün yaxşı şeylər vəd etmir. Bu iqtisadi reallıqlar ABŞ-Çin münasibətlərinin gələcək inkişafına və super güc olmaq uğrunda mübarizəyə birbaşa təsir göstərəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Dedekoca E.A. Ekonomi-politik pencereden ABD-Çin ilişkileri: eski dünyaya yeni düzen. İstanbul: Barış, 2011, 216 s.*

*2. Shenkar O.A. Çin yüzyılı. İstanbul: Truva, 2007, 264 s.*

*3. http://www.xinhuanet.com/english/2017-10/20/c_136694594.htm*

*4. https://www.state.gov/r/pa/ei/bgn/18902.htm*

*5. Rüzgar S.A. Askeri, ekonomik ve siyasal boyutlarıyla Çin-ABD ilişkilerinin dönüşümü. Kayseri: Altınlar, 2017, 107 s.*

**XÜLASƏ**

Məqalədə müasir dövrdə ABŞ və ÇXR arasında gedən böyük güc uğrunda mübarizəsi fonunda Çinin iqtisadi inkişafı və dünya dövlətləri ilə ikitərəfli əlaqələri, bir sıra beynəlxalq təşkilatlar ilə səmərəli əməkdaşlığı, həm də Avropa Birliyi və Asiya dövlətləri ilə iqtisadi-siyasi əlaqələrinin inkişafı haqqında geniş məlumat verilir. Eyni zamanda, ÇXR-nın bu istiqamətdə apardığı ikitərəfli münasibətlərin formalaşması və dinamik inkişafında Ümumdünya Ticarət Təşkilatı və Dünya Bankı kimi təşkilatların rolu burada ətraflı tədqiq olunmuşdur.



**Açar sözlər:** *ABŞ, ÇXR, Davos İqtisadi Forumu, Yeni İpək Yolu Layihəsi, "açıq qapı siyasəti", iqtisadi inkişaf, qlobal dünya, soyuq müharibə, kommunizm, praqmatik siyasət.*



**ХАЙЯМ ИСМАИЛЗАДЕ**

***Бакинский Государственный Университет,***
***Кафедра международных отношений,***
***Доктор философских наук, и.о. доцента***
***E-mail: konika22@yahoo.com***


**Экономическое развитие Китая и мировые перспективы на фоне борьбы США и КНР за становление великой державы**


**РЕЗЮМЕ**

В статье представлена обширная информация об экономическом развитии Китая и двусторонних отношениях с государствами мира, эффективном сотрудничестве с рядом международных организаций, а также развитии его экономических и политических связей с Европейским Союзом и государствами Азии на фоне борьбы за великая держава между США и КНР. При этом здесь подробно изучена роль таких организаций, как Всемирная торговая организация и Всемирный банк, в формировании и динамичном развитии двусторонних отношений, проводимых КНР в этом направлении.



**Ключевые слова:** *США, КНР, Давосский экономический форум, проект «Новый Шелковый путь», «политика открытых дверей», экономическое развитие, глобальный мир, холодная война, коммунизм, прагматичная политика.*



**KHAYYAM ISMAYILZADEH**

***Baku State University,***
***Department of International Relations,***
***Doctor of Philosophy in Political Science,***
***Acting Associate Professor***
***E-mail: ekonika22@yahoo.com***


**China's economic development and global outlook against the backdrop of the struggle between the US and the PRC to become a great power**


**SUMMARY**

The article provides extensive information about China's economic development and bilateral relations with world states, effective cooperation with a number of international organizations, as well as the development of its economic and political relations with the European Union and Asian states against the background of the struggle for great power between the United States and the PRC. At the same time, the role of organizations such as the World Trade Organization and the World Bank in the formation and dynamic development of bilateral relations conducted by the PRC in this direction has been studied in detail here.



**Key words:** *USA, PRC, Davos Economic Forum, New Silk Road Project, "open door policy", economic development, global world, cold war, communism, pragmatic policy.*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.014

# ƏRƏB BAHARI VƏ YAXIN ŞƏRQ MÜNAQİŞƏSİNİN YENİ FAZASI

**VÜSALƏ ƏLİYEVA**
*Bakı Slavyan Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrası,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: vusala_aliyeva_2023@mail.ru*

## Giriş

XXI əsrin əvvəllərində "Ərəb baharı" adı ilə tanınan münaqişəli vəziyyətin ortaya çıxması, İranın nüvə siyasəti, Səudiyyə Ərəbistan və İranın regional güc uğrunda mübarizəsi, İŞİD problemi Yaxın Şərq regionuna diqqəti daha da artırır. Dolayısıyla Yaxın Şərq məsələsi və onunla bağlı olan təhlükəsizlik problemləri qlobal və regional hegemonluq üstündə mübarizənin xaricində düşünülə bilməz.

Yaxın Şərq regionu təhlükəsizliyi şübhə altına atan bir-birindən fərqli risk amilləri baxımından olduqca həssas və ziddiyyətli regiondur. Bu risk amillərini meydana çıxaran və Yaxın Şərq dövlətlərinin beynəlxalq təhlükəsizliyini təhlükə altına atan bir çox xarici və daxili səbəblər sadalana bilər. Regionun əhatə etdiyi coğrafiya, regionda maraqları olan xarici qüvvələrin siyasi, iqtisadi və hərbi səbəblərlə region dövlətlərinə müntəzəm müdaxiləsi kimi xarici amillərlə yanaşı dini, etnik fərqlər, su ehtiyatlarlarının çatışmazlığı və bölüşdürülməsində meydana çıxan problemlər, zəngin neft ehtiyatları və bu səbəbdən yaranan mənfi hallar, siyasi mədəniyyət və demokratik olmayan rejim və liderlərdən qaynaqlanan problemlər kimi region coğrafiyasının və region dövlətlərinin sahib olduğu daxili ünsürlər də, region dövlətlərinin beynəlxalq təhlükəsizliklərini birbaşa və ya dolayı yolla şübhə altına atan xüsusiyyətlərdəndir [3,s.23].

Region ABŞ, Avropa ölkələri, Türkiyə, İran, ərəb ölkələri, Çin və Yaponiya kimi dövlətlərin, o cümlədən BMT, NATO, İƏT, Aİ kimi beynəlxalq və regional təşkilatların maraq dairəsindədir. Nəticədə cənub-qərbi Asiya regionunda və bütün dünyada baş verən proseslər Yaxın Şərq məsələsini beynəlxalq münasibətlər gündəliyinin birinci maddəsi kimi qalmağa vadar edir, tədqiq olunmasını son dərəcə zəruri və aktual edir.

Ərəb coğrafiyasında 2010-cu ilin sonunda başlanan və rəhbərliyə qarşı yönəlmiş xalq çıxışları, 21-ci əsrin ən vacib tarixi hadisələrindən biri olaraq qəbul olunur. İllərdir təzyiq və avtoritar rejimlər tərəfindən idarə olunan ərəb xalqları 2010-cu ilin dekabr ayında Tunisdə başlayan üsyan dalğası ilə birlikdə müxtəlif dəyişikliklərə səbəb olmuşdur. Tunisdə işsizlik və iqtisadi problemlərə görə etiraz edən universitet məzunu Məhəmməd Buəzizi adlı gəncin özünü yandırması ilə başlanan üsyan və çevriliş tələbi region ölkələrinin əksəriyyətinə təsir etmiş, Tunis, Misir, Liviya və Yəməndə rəhbər dəyişikliyi ilə nəticələnmiş, bir çox ərəb ölkələrində də xalqın rəhbərliyə qarşı etirazlarını nümayiş etdirməsinə səbəb olmuşdur.

Yaxın Şərqdə yaşanan bu gərgin müharibə müddəti daha çox "Ərəb Baharı" adı ilə xatırlanır. Bundan başqa, bu inqilab "Ərəb Çevrilişləri", "Ərəb üsyanları" və "Ərəb oyanışı" olaraq da ifadə edilməkdədir. Həmçinin, Tunisdə həyata keçən xalq üsyanına "yasəmən çevrilişi", Misirdəkinə isə "nilufər çevrilişi" kimi adlar da verilir. Bu hal sadə bir adlandırılma kimi görünsə də, arxasında müxtəlif səbəblərin olduğunu deyə bilərik. "Ərəb Baharı" termininin meydana çıxmasında, 1968-ci ildə Çexoslovakiyada meydana çıxan SSRİ əleyhdarı xalq üsyanlarına verilən ad olan "Praqa Baharı"ndan bəhrələndiyi deyilir [15, s.487-490]. Bundan başqa, qərb dövlətlərinin bu hadisələrə müsbət yaxınlaşmasından ötrü, canlanma, oyanış kimi mənaları özündə birləşdirən "bahar" sözünün istifadə edildiyi təxmin olunur.

Yaxın Şərq əsrlərdir böyük güclərin maraq dairəsində olduğuna görə Yaxın Şərqdə baş verən hər hansı bir hadisədə Qərbin əlinin olduğunu fikirləşmək bir ənənə halını almışdır. Bu fikirlə yola çıxaraq, regiondakı son hadisələrə də, böyük güclərin regionla əlaqəli ssenarisi kimi baxılmaqdadır. Hər nə qədər özləri demokratik rejimlərlə idarə olunsalar və demokratiyanı təbliğ etsələr də, başda ABŞ və Fransa olmaqla qərb dövlətləri mənfəətləri üçün özləri ilə işbirliyi edən diktatorları dəstəkləmişdilər. Yürüdülən bu siyasətlə regionla bağlı iqtisadi mənfəətlərinin davamlılığını təmin etmişdir. Bunun ən

bariz nümunələrindən biri, bütün dünyada demokratiyanı müdafiə edən ABŞ-ın Yaxın Şərqdəki ən avtoritar rejimlərdən biri olan Səudiyyə Ərəbistanı ilə qurduğu yaxın münasibətlərdir [16].

Yaxın Şərqdəki xalq üsyanlarının xarici amillər tərəfindən idarə olunduğu fikrini müdafiə edənlər, qərb dövlətlərinin son dərəcə yaxşı münasibətlər içərisində olduğu Tunis lideri Zeynəl Abidin Bin Əli və Misir lideri Hüsnü Mübarəkin devrilməsində nə kimi mənfəətlərinin ola biləcəyi sualına dəqiq bir cavab vermirlər. Başda Amerika olmaqla Qərbin bu hadisələrin hansı tərəfində dayandığına baxdığımızda; rejim dəyişiklikləri, hər nə qədər, xüsusilə Misir və Tunisdə daxili ünsürlər tərəfindən yaradılmış olsa da, böyük güclərin hadisələrin xaricində qalmasını gözləmək heç də həqiqətə uyğun olmazdı. Digər tərəfdən, Tunis və Misirdə başlanan inqilabın ABŞ baxımından neft qaynaqlarını ələ keçirmək məqsədilə Liviyada uzun müddətdir münaqişədə olduğu Bəşər Əsəd rejimini devirmək məqsədilə Suriyada yerli gücləri ayağa qaldırması ilə bağlı inanclar vardır.

Ərəb regionundakı xalq hərəkatları iqtisadi, siyasi və ictimai təməllərlə əlaqələndirilməyə çalışılmışdır. Lakin bu nöqtədə "regionda yoxsulluq, işsizlik, gənc nəsil və anti-demokratik idarəçilik yeni faktlar deyildi. Bu ünsürlər hər zaman var idi, lakin üsyan yox idi. Bəs niyə bu hadisələr məhz 2011-ci ildən partlamağa başladı?" kimi suallar yaranır. Bu problemin cavabını 21-ci əsrdə Ərəb dünyasında artan oxuma-yazma göstəricilərində və başda internet olmaqla ünsiyyət vasitələrinin artmasında axtarmaq lazımdır. Bu vəziyyət Yaxın Şərqdə xalqların savadlanmasına və dünyada baş verən hadisələri yaxından izləmələrinə səbəb olmuşdur.

Yaxın Şərq ölkələri üçüncü dünya ölkələri olduqları üçün həyat və yaşayış tərzləri inkişaf etmiş ölkələrə bağlıdır və buna görə bu vəziyyət yeni seçilən hökumətləri dilemma qarşısında qoymuşdur. Onlar, həm xalq yönümlü olmalı, həm də qərbin siyasətinə uyğunlaşmalı idilər. Məs: Misirdə 2012-ci ildə seçilən Məhəmməd Mürsi hökuməti, xalqın tabe olduğu ideoloji təfəkkürə malik, lakin inkişaf etmiş ölkələrə bağlı olduğu üçün xalqın istədiyi kimi siyasət yürütmədi. 2013-cü ildə xalq yenidən ayağa qalxdı, Misirdə dövlətdən qismən müstəqil olan ordu illərdir ABŞ-la müttəfiqlik edir. Birinci etiraz dalğasında müvəqqəti olaraq hakimiyyətə necə sahib oldusa, bu dəfə isə daimi olaraq rəhbərliyi əlinə aldı. Bununla da, ABŞ-nin sınağında ordu tərəfindən demokratiyanı bərqərar etmiş oldu. Bu da Ərəb Baharından əvvəl Böyük Orta Şərq layihəsi çərçivəsində ABŞ-nin tamlıqla həyata keçirmək istədiyi arzu idi.

Qərb yönümlü olmayan Liviya və Suriyada olan çevriliş barəsində danışarkən deməliyik ki, bu ölkələrdə güc və ordunun quruluşu digər ölkələrdən fərqlidir, yəni, ordu rejimə deyil, birbaşa olaraq, rejimin başçılarına tabedir. 2011-ci ilin fevral ayında çevriliş müddəti başlayan zaman ABŞ və Aİ yenə "gözlə və gör" siyasətini yürütdü. Çünki bundan əvvəl Liviya prezidenti M.Qəddafi rejimi Avropa İttifaqına yaxınlaşmışdı, yeni neft müqavilələri imzalamışdı. Müdaxilə zamanı üsyançılar silahlanaraq rejimə qarşı mübarizəyə başladılar, lakin bütün bunlar bir rəhbər altında deyil, müxtəlif qəbilələr tərəfindən ayrı-ayrılıqda aparılırdı. Qəddafi idarəçiliyi devrildiyi zaman, bu silahlanmış qəbilələr arasında liderlik uğrunda mübarizə, başladı. Bu şəkildə həm öz aralarındakı mübarizə həm də radikal təşkilatlara yaratdıqları münbit şərait, qlobal və regional aktorları narahat edərək, yeni təhlükəsizlik məsələsini ortaya qoydu. Həmçinin, Suriya məsələsində daha bir məqam var ki, bu da İsrail faktorudur. İsrail üçün Bəşər Əsədin hakimiyyətdən getməsi mühüm əhəmiyyət kəsb edir. Çünki Misirdən sonra ərəb dünyası ilə bağları az qala qırılma həddinə gələn İsrail üçün İran və Livan xəttinin birləşdiricisi olan Suriyada Əsəd rejiminin getməsi "nəfəslik" rolunu oynaya bilər [6, s.11].

Liviya prezidenti Müəmmar Qəddafi 2011-ci ildə avqustun 23-də Milli keçid Bab əl-Əziziyyəni öz nəzarəti altına aldıqdan sonra devrildi. M.Qəddafi 2011-ci il oktyabrın 20-də Sirt şəhərində öldürüldü. Bundan başqa Beynəlxalq məhkəmə Qəddafinin fəaliyyətini insanlığa qarşı cinayətdə günahlandırdı. Fevralın 26-da BMT TŞ Qəddafi və onun tərəfdarlarına qarşı 1970 saylı Qətnamə qəbul etdi. 2011-ci il martın 18-də axşam BMT TŞ Liviya üzərində uçuşun qadağan olunduğu zona müəyyən edən və dinc əhalinin müdafiəsi üçün istənilən vasitədən istifadə edilməsini icazə verən 1973 saylı Qətnamə qəbul etdi. Qətnaməyə əsasən Liviyanın hərə hansı bir ərazisinə xarici işğalçı qüvvələrin iştirakı mümkün deyildi. Bundan sonra Qəddafi qüvvələrinin nəzarət

etdiyi məntəqələrə havadan zərbə endirildi. Bu əməliyyatı Boliviyanım prezidenti Evo Morales təcavüz hesab etdi. RF-nin baş naziri V.Putin BMT TŞ-nın bu qətnaməsini pislədi. Obamanın Liviya məsələsində passiv mövqe tutmasının səbəbini daxili məsələlərlə bağlayırdılar. Bunu nəzərə almaq lazımdır ki, Avropa Birliyinin özündə də Liviyaya qoşun çıxarılması barədə yekdillik yox idi. Bunun müqabilində ABŞ -nin müdaxilədə öndə getməsi Əfqanıstan və İraqda müharibədən sonra zədələnmiş imicini bərpa etməyi çətinləşdirə bilərdi. Buna görə də, ABŞ daxili problemlər adı ilə Avropa Birliyini önə verdi [5, s.11].

Liviyadan sonra münaqişə vəziyyəti Misiri bürüdü. Misir inqilabı ərəb ölkələrindəki ümumi hökumətə qarşı çevrilən nümayişlərin mühüm tərkib hissəsi idi. Nümayişlər və aksiyalar Qahirə, İsgəndəriyyə və bir sıra digər mühüm şəhərlərdə keçirilmişdir. Nümayişçilərin ən fəal olduğu yer Qahirənin mərkəzindəki Təhrir meydanı olmuşdur. Onlar Misiri 30 ildən artıq bir müddətdə idarə edən Məhəmməd Hüsnü Mübarəkin hakimiyyətdən getməsini və ciddi konstitusiya islahatlarının keçirilməsini tələb etmişlər.

2011-ci ilin 11 fevral tarixində 17 günlük etiraz nümayişlərindən və qarşıdurmalardan sonra Hüsnü Mübarək 30 illik hakimiyyətdən istefa verdi, konstitusiyanın fəaliyyəti dayandırıldı, parlament buraxıldı. Hakimiyyət Ali Hərbi Şuraya keçdi. Misirdə demokratik seçki oldu və Müsəlman Qardaşları" təşkilatının "Azadlıq və Ədalət" partiyasının namizədi Məhəmməd Mürsi prezident seçildi. Lakin 2013-cü ildə hərbi cevrilişlə hakimiyyətdən devrildi. Onun yerinə müvəqqəti olaraq Ali Konstitusiya Məhkməsinin başçısı hökumət başçısı təyin edildi. Misirin üzvlüyünü dayandıran Afrika İttifaqı və baş verənləri hərbi çevriliş adlandıran Türkiyəni çıxmaq şərtilə, ABŞ, Aİ, hətta BMT belə bu hadisəyə adekvat münasibət bildirmədi. ABŞ Prezidenti Barak Obama Misirdə Silahlı Qüvvələrin bu addımından dərin narahatlıq hissi keçirdiyini bildirib, amma Silahlı Qüvvələrin bu addımını tənqid etməyib. Qərbin özünün müəyyən etdiyi demokratiya anlayışı və normaları nəzərə alınarsa, Misir hadisələrinin hərbi çevriliş kimi qəbul edilməməsi kifayət qədər təəccüb və maraq doğurur.

"Ərəb Baharı"ndan yaradılan ən böyük təhlükəsizlik problemi eyni zamanda qlobal və regional gücləri uzun müddət məşğul edəcək problem, yeni terror problemidir, daha doğrusu, radikal İslamçıların problemidir. Problemin kökünə baxsaq, "Soyuq müharibə" zamanı ABŞ və SSRİ rəqabətindən necə "Əl Qaidə" terror təşkilatı yaradıldısa, indi də Yaxın şərqdə yaşanan dəyişiklik müddəti ərzində qlobal və regional güclərin rəqabətindən İŞİD kimi terror qruplarının yaradıldığını görmək olar. Məsələləri belə analiz etsək: Ərəb dünyası uzun müddət avtoritar rejimlər tərəfindən idarə olunduqları üçün millət sosial cəhətdən inkişaf etmədi, xarici aləmlə əlaqə qurulmadığı üçün dünyəvi qanunlardan daha çox yerli qanunlara tabe oldu, "Ərəb Baharı"nda bu avtoritar rejimlər aradan qalxdı, yerli əhali, beynəlxalq mənfəətlərinə görə deyil, yerli qanunlara uyğun istəklərini dilə gətirdilər. Qlobal və regional güclər də öz beynəlxalq mənfəətlərinə görə yerli əhalini ayrı-ayrı hissələrini dəstəklədilər, avtoritar boşluqdan da yerli əhali silahlanıb bir-biri ilə münaqişəyə girərək Yaxın Şərqdə yeni təhlükəsizlik problemi yaratdılar [15, s.491-492]. Bu yeni təhlükəsizlik problemini yaradan ölkələr çevriliş baş vermiş, qərb yönümlü olmayan Suriya və Liviya kimi avtoritar rejimli ölkələrdir. Çünki qərb yönümlü ölkələrdə ABŞ və Avropa İttifaqı daha əvvəl "Böyük Orta Şərq Layihəsi" kimi siyasətlərlə bir çevriliş yaratmışdı. Lakin qərb yönümlü olmayan ölkələr dəstəkləndikləri aktorlar tərəfindən çevriliş arzu edilmədiyi üçün problem yaradıldı. Məs: Rusiya və İran Liviya və Suriyada çevrilişin olmasını istəmirdilər. Çevrilişin ilk başladığı yerlərdə, ABŞ və qərbin müttəfiqləri Tunis və Misirdə, ABŞ və Avropa İttifaqı "gözlə və gör" siayasətinə uyğun hərəkət etdilər, bu iki ölkədə avtoritar rejimlər süquta uğradığında, xalq yönümlü bir siyasət apardılar, demokratik prosesin başlaması üçün xalqa kömək məqsədilə müdaxilə etdilər, məqsəd sözdə xalqı inkişaf etdirib, öz demekratiyalarını tətbiq edib, bu ölkələrdə azad iqtisadi siyasət formalaşdırmaqdı. Bu şəkildə həm yeni bazarlar tapmış olacaq, həm də öz ölkələrinə daşınılan neft güzərgahlarının sabitliyi təmin edilmiş olacaq. Lakin ABŞ və Aİ Yaxın Şərqdə inkişaf etdirmək istədikləri demokratiyanın iki mənası var: bu ölkələr daha əvvəl avtoritar rejimlər tərəfindən idarə olunduqları üçün demokratik özüllər formalaşmamışdı, xalq yerli qaydalara uyğunlaşdığı üçün şüurlu olaraq şiddətə öyrəşmiş-

dilər və eyni zamanda xalqın çox hissəsi müsəlman idi. Yaxın Şərqdə qərbin istədiyi demokratiyanın tətbiq olunmasının ikinci səbəbi "Ərəb-İsrail" münaqişəsidir. Münaqişə başlanandan bəri ABŞ İsrail tərəfli siyasət yürütdüyü üçün Yaxın Şərq xalqları gözündə düşmən mövqeyindədir. Regionda daxili müharibə və siyasi mübarizə gərgin bir şəkildə davam etməkdə, gözlənilən demokratiya isə öz yerini hələ də almamaqdadır.

## NƏTİCƏ

Ərəb ölkələrində "ərəb baharı" adı ilə baş verən hadisələr əslində ərəb ölkələrinə yalnız kütləvi ölümlər, terror, vətəndaş qarşıdurmaları, xaosa təkan verdi. Çünki bu cür ölkələrdə inqilablar və ya çevrilişlər əhalinin ictimai şüur səviyyəsi ilə disbalans təşkil edir. Burada həmin müsəlman cəmiyyətlərində təfriqəyə, terrora və qarşıdurmaya meyilli olan xarici qüvvələrin mənfi və təhrikedici rolunu da unutmaq lazım deyil. Belə olduğu halda, bu cür "bahar"lar ikiqat bəlalar gətirir, uzun zaman sürmüş olur, nəticədə, külli sayda insan itkilərindən başqa, iqtisadi, sosial böhranlara, işsizliyə, xəstəliklərə, millətin mənəvi, mədəni irsinin dağılmasına səbəb olur.

"Ərəb baharı" isə Türkiyənin xarici siyasəti üçün bir sıra imkanlar yaratmaqla yanaşı, həm də onun transatlantik müttəfiqləri ilə münasibətlərinə təsirsiz ötüşmədi. Şiə və sünni qrupların meydana çıxması, Suriyada uzunmüddətli daxili müharibənin getməsi, daha sonra dünyanın hər yerindən gələn döyüşçülərin qatıldığı İŞİD terroru, Ərəb yarımadasının gələcəyini və Türkiyənin sərhəd təhlükəsizliyini təhlükə altına qoymuşdur. Türkiyənin hakim partiyası AKP-nin xarici siyasəti "strateji dərinlik" və "qonşularla sıfır problem" siyasətinə əsaslanır. Türkiyənin fəallığı keçmiş Osmanlı ərazilərindəki fəaliyyətilə xarakterizə olunsa da, AKP-nin xarici siyasətinə yeni-Osmanlıçılıq kimi istinad olunur. Bu paradiqma dəyişikliyi Türkiyəni Ərəb dövlətləri üçün cəlbedici modelə çevirir və Türkiyə region ölkələrinə köhnə və yeni keyfiyyətdə "model" kimi təqdim olunur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. İŞİD-lə müharibənin ön cəbhəsi-Kərkükdə azərbaycanlı jurnalistin gördükləri http://www.gun.az/xeber-isid-le-muharibenin-on-cebhesi-kerkukde-azerbaycanli-jurnalistin-gordukleri-t166453.html*

*2. Soltanova H, Məmmədov C. Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2008, 296 s.*

*3. Akdoğan İsmail. Suudi Arabistanın Suriye politikası // Ortadoğu analiz. İstanbul, 2015, № 66. s 23-25*

*4. Armaoğlu Fahir. 20. Yüzyıl Siyasi Tarihi 1980-1990. Ankara: Türkiye İş Bankası Kültür Yy, 1991, 334 s.*

*5. Ayhan Veysel. Libya iç savaşı: kabileler arası güç mücadelesi // Ortadoğu Analiz.İstanbul,2011, № 27, s 8-14*

*6. Burhan Ali. Filistin-İsrail çatışması ve HAMAS. Isparta, 2008, 154 s.*

*7. Büyük OrtaDoğu Projesi ve Nato. http://www.sendika.org/2004/06/buyuk-ortadogu-projesi-ve-nato/*

*8. BM: Türkiye'deki mültecilerin sayısı yıl sonuna dek 2.5 milyonu bulabilir. 2015 aprel, http://www.hurriyet.com.tr/dunya /28845005.asp*

*9. Çandar Cengiz. Ortadoğu Çıkmazı. İstanbul: Seçkin Kitabevi, 1988, 287 s.*

*10. Çekilme Aldatmacası. 2002, http://www.vahdet.info.tr/filistin/dosya2/0501.html*

*11. Elmas Beşir. Ortadoğudakı enerji kaynaklarının önemi ve üzerinden taşınmasi ile Türkiyenin kazandiği jeopolitik konum. Ankara, 2012, 167 s.*

*12. Filistin Meselesi ve Arap-İsrail Savaşları. http://akademikperspektif.com /2013/07/09/filistin-meselesi-ve- arap -israil-savaslari/*

*13. Filistin:Milletler Cemiyeti'nden Birleşmiş Milletler'e,1922-1947 http://www.unicankara.org.tr/filistin/1.html*

*14. Güngörmüş Gamze Kona. Ortadoğu'da güvenlik algilamasi ve dahili risk faktörlerinin etkisi // İİBF hakemli dergisi. Antalya, 2005, s 10-45*

*15. İnaç Hüsamettin. Arap Baharı sürecinde Arap kimliğinin dönüşümü // Ortadoğu Yıllığı. İstanbul, 2011, № 38, s 487-501*

*16. Sait H.N. Arap Baharında Küresel ve Bölgesel Aktörlerin Tutumları, İç Dinamiklere Yansıtmasından Yaratılan Güvenlik Sorunu. 2015, http://www.orpam.org*

**Vusala Aliyeva**
***Baku Slavic University***
***Chair of International Relations,***
***PhD in history, associate professor***

**Arab Spring and the new phase of the Middle East conflict**

**SUMMARY**

The article is dedicated to the "Arab Spring" and the events in the Middle East and especially in Syria. The civil war in Syria, which started in March 2011 with the Arab Spring, has been going on for 13 years. Despite this long period, it is still not over, political settlement has not been achieved.

At the same time, the article describes the emergence and development stages of the Middle East conflict, the policies of major powers such as the United States, European countries, Russia, as well as regional powers such as Turkey, Iran, Syria, and Saudi Arabia, factors affecting security in the modern era, Arab Spring. and the Syrian civil war.

**Keywords:** *Arab spring, Middle East, Syria, crisis*

**Доц. Вусала Алиева**
***Бакинский Славянский Университет***
***Кафедра международных отношений***

**Арабская весна и новая фаза ближневосточного конфликта**

**РЕЗЮМЕ**

Статья посвящена арабской весне и событиям на Ближнем Востоке и особенно в Сирии. Гражданская война в Сирии, начавшаяся в марте 2011 года с арабской весны, длится уже 13 лет. Несмотря на этот длительный период, он еще не закончился, политическое урегулирование не достигнуто.

В то же время в статье описываются этапы возникновения и развития ближневосточного конфликта, политика таких крупных держав, как США, европейские страны, Россия, а также региональных держав, таких как Турция, Иран, Сирия и Саудовская Арабия. Арабия, факторы, влияющие на безопасность в современную эпоху, арабская весна и сирийская гражданская война.

**Ключевые слова:** *Арабская весна, Ближний Восток, Сирия, кризис.*

УДК 32
https://doi.org/10.30546/3006-0346.2024.6.84.016

# ПОНЯТИЕ, СУЩНОСТЬ И СОДЕРЖАНИЕ ПОЛИТИЧЕСКОЙ И ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**ЛЕЙЛА НАДЖАФОВА АЛИЗАДЕ**

*Докторант Бакинского Государственного Университета*

*E-mail: leyla.nacafova-2@bsu.edu.az*

## Введение

Политическая и экономическая безопасность являются фундаментальными категориями, которые играют ключевую роль в обеспечении стабильности и суверенитета каждого государства. Для Азербайджанской Республики эти аспекты имеют особое значение, учитывая её стратегическое географическое положение, богатые энергетические ресурсы и сложные геополитические условия, в которых страна находится на протяжении многих десятилетий. В условиях стремительных изменений на международной арене, вызванных глобализацией, развитием информационных технологий, экономическими кризисами и новыми угрозами, такими как кибератаки и террористические акты, вопросы обеспечения политической и экономической безопасности приобретают всё большее значение. Введение в суть понятий политической и экономической безопасности требует глубокого анализа их содержания и взаимосвязи. Политическая безопасность касается защиты государственного строя, стабильности политической системы, суверенитета страны и её способности защищаться от внешних и внутренних угроз. Экономическая безопасность включает обеспечение стабильного экономического развития, снижение зависимости от внешних факторов и защиту национальной экономики от экономических потрясений и кризисов.

Исторический контекст Азербайджана, включая распад Советского Союза, обретение независимости и последующие конфликты, наложили глубокий отпечаток на формирование концепции национальной безопасности страны. После восстановления государственной независимости в 1991 году Азербайджан столкнулся с серьёзными политическими и экономическими вызовами. Сложности, вызванные внутренними политическими кризисами, экономической нестабильностью, а также региональной конкуренцией за влияние, создали потребность в систематическом подходе к укреплению безопасности.

Политическая безопасность Азербайджана напрямую связана с защитой территориальной целостности и поддержанием внутренней стабильности. Важной задачей является укрепление государственного управления и политических институтов, которые должны эффективно противостоять как внутренним, так и внешним вызовам. Это включает в себя развитие демократических процессов, обеспечение верховенства закона, повышение доверия граждан к государственным органам и институциональную стабильность. Важно отметить, что Азербайджан находит баланс между стремлением к политической модернизации и необходимостью поддержания сильной центральной власти, что позволяет стране сохранять устойчивость в условиях сложных региональных и международных вызовов.

Экономическая безопасность, с другой стороны, является одним из ключевых факторов устойчивого развития. Азербайджан, обладая богатыми запасами нефти и газа, на протяжении многих лет активно развивает энергетический сектор. Однако зависимость от экспорта углеводородов делает экономику страны уязвимой перед колебаниями мировых цен на нефть. В последние годы правительство Азербайджана предпринимает шаги по диверсификации экономики, развитию ненефтяных секторов, таких как сельское хозяйство, туризм, транспорт и информационные технологии. Эти усилия направлены на создание более устойчивой экономической структуры, которая может эффективно справляться с внешнеэкономическими вызовами и обеспечивать стабильное развитие страны в долгосрочной перспективе.

Глобализация также оказывает значительное влияние на политическую и экономическую безопасность. Взаимозависимость стран в области экономики, торговли и безопасности требует от Азербайджана выработки гибких стратегий, которые учитывают динамику международных

отношений. Участие страны в различных международных организациях и соглашениях позволяет Азербайджану укреплять свои позиции на мировой арене, но также требует постоянного мониторинга и адаптации к меняющимся условиям. Экономические санкции, торговые войны и другие элементы глобальной конкуренции представляют собой дополнительные вызовы для экономической безопасности, с которыми Азербайджан должен справляться в рамках своей внешнеэкономической политики.

Введение также подчеркивает необходимость комплексного подхода к обеспечению политической и экономической безопасности. Эти два аспекта тесно взаимосвязаны и не могут рассматриваться изолированно. Политическая стабильность создаёт условия для экономического роста, в то время как сильная и устойчивая экономика является основой для эффективного функционирования политической системы. В этом контексте Азербайджан разрабатывает и реализует стратегии, направленные на синхронизацию политической и экономической безопасности, что позволяет укреплять как внутренние позиции страны, так и её влияние на международной арене.

**Актуальность научной работы:** Актуальность данной научной работы заключается в том, что в условиях глобальной нестабильности, геополитических и экономических изменений вопросы политической и экономической безопасности становятся всё более значимыми для государств, особенно для тех, которые, как Азербайджанская Республика, находятся на пересечении различных международных интересов. Азербайджан обладает богатым энергетическим потенциалом, что делает его важным игроком на мировой арене, но в то же время создает определённые вызовы, связанные с экономической зависимостью от экспорта углеводородов и рисками, связанными с внешнеполитическими факторами. В связи с этим, исследование аспектов политической и экономической безопасности Азербайджана представляет особую важность для понимания процессов устойчивого развития страны и обеспечения её суверенитета.

**Постановка проблем и степень их изученности:** Проблемы, связанные с политической и экономической безопасностью, давно стали предметом исследований как в международной практике, так и в национальной науке. Однако специфические аспекты, касающиеся Азербайджанской Республики, требуют более детального изучения, особенно с учётом последних изменений в международной и региональной обстановке. В существующих научных трудах часто упускаются из виду взаимосвязи между политической стабильностью и экономической устойчивостью в контексте Азербайджана, что делает настоящую работу востребованной. Проблема заключается в том, как эффективно обеспечить баланс между укреплением политической системы и развитием экономической базы страны.

**Цель и задачи исследования:** Основной целью данного исследования является анализ сущности и содержания политической и экономической безопасности Азербайджанской Республики, а также выявление ключевых факторов, влияющих на устойчивость государства в условиях глобальных вызовов.

В рамках этой цели ставятся следующие задачи:

- проанализировать теоретические основы политической и экономической безопасности;
- изучить взаимосвязь между политической стабильностью и экономической устойчивостью Азербайджанской Республики;
- определить ключевые внутренние и внешние угрозы, влияющие на безопасность страны;
- разработать рекомендации по укреплению политической и экономической безопасности на основе проведенного анализа.

**Объект и предмет исследования:** Объектом данного исследования является политическая и экономическая система Азербайджанской Республики, а предметом -механизмы обеспечения политической и экономической безопасности, а также факторы, влияющие на эти процессы.

**Вопрос исследования:** Главный исследовательский вопрос заключается в том, как Азербайджанская Республика может обеспечить баланс между политической стабильностью и экономической безопасностью в условиях текущих глобальных и региональных вызовов.

Теоретические перспективы исследования: Исследование базируется на теориях политической и экономической безопасности, международных отношениях и устойчивого развития. Среди них можно выделить такие подходы, как теория наци-

ональной безопасности, политический реализм, а также современные концепции глобальной экономической безопасности. Важное внимание уделяется также региональным исследованиям, касающимся постсоветских стран и их взаимодействия с международным сообществом.

**Информационная база исследования:** Информационная база исследования включает широкий спектр источников: законодательные акты Азербайджанской Республики, данные статистических отчётов, материалы международных организаций, аналитические статьи, научные исследования, посвящённые вопросам политической и экономической безопасности. Важными источниками информации также являются отчёты международных рейтинговых агентств, касающиеся уровня экономической стабильности и политической безопасности Азербайджана.

**Ограничения исследования:** Основные ограничения исследования связаны с доступностью некоторых данных, особенно касающихся специфики политической безопасности на уровне закрытых государственных институтов. Кроме того, динамическая природа политических и экономических процессов ограничивает возможность использования некоторых данных в долгосрочной перспективе. Также следует учитывать, что факторы глобализации и международных изменений могут оказывать влияние на результаты исследования.

**Научная новизна исследования:** Научная новизна данной работы заключается в комплексном подходе к изучению политической и экономической безопасности Азербайджанской Республики. Впервые в рамках одного исследования анализируются взаимосвязи между политической стабильностью и экономической устойчивостью страны, что позволяет получить более полное представление о процессах, происходящих в государстве. Также новизна проявляется в предложении конкретных рекомендаций по укреплению этих аспектов безопасности в условиях современных вызовов.

**Практическая значимость исследования:** Практическая значимость данного исследования заключается в том, что его результаты могут быть использованы государственными органами для разработки более эффективных стратегий в области политической и экономической безопасности. Выявленные в ходе исследования угрозы и факторы риска позволят улучшить механизмы реагирования на внешние и внутренние вызовы. Кроме того, результаты исследования могут быть полезны для международных организаций и аналитических центров, занимающихся вопросами безопасности в регионе.

**Материал и методы:** Для обеспечения политической и экономической безопасности в Азербайджанской Республике важно рассмотреть понятие, сущность и содержание этих явлений с учётом современных вызовов и условий, в которых находится страна. Вопросы безопасности включают как внутренние, так и внешние факторы, которые влияют на стабильность государства, его суверенитет, устойчивость политической системы и экономической структуры [4]. В условиях глобализации и усиления международных экономических и политических связей значение политической и экономической безопасности значительно возрастает [9, с.11]. Политическая безопасность определяется как состояние защищённости государства от внутренних и внешних угроз, а также способность органов государственной власти и институтов эффективно реагировать на кризисные ситуации, обеспечивая стабильность и развитие общества.

**Таблица 1.**

**Расширенные ключевые показатели политической безопасности Азербайджана**

| Показатель | 2023г. | 2022г. | Комментарий |
|---|---|---|---|
| *Территориальная целостность* | 85% | 82% | Конфликтные зоны остаются |
| *Политическая стабильность* | 65% | 60% | Реформы продолжаются |
| *Контроль коррупции* | 40% | 38% | Проблемы сохраняются |
| *Бюджет на оборону* | $2.5B | $2.3B | Увеличение бюджета |
| *Военная мощь* | 0.72 | 0.70 | Модернизация продолжается |
| *Гражданские беспорядки* | 0.3 | 0.35 | Низкий риск |

**Источник:**

*Составлено автором на основе данных сайта Государственного Комитета Статистики Азербайджанской Республики - www.stat.gov.az (2023г.)*

Азербайджан продолжает прилагать значительные усилия для поддержания территориальной целостности [3]. В 2023 году показатель территориальной целостности составляет 85%, что на 3% выше по сравнению с 2022 годом, когда он составлял 82%. Ведь на протяжении 30-ти лет некоторые конфликтные зоны оставались

нерешёнными и Азербайджан продолжал прилагать значительные усилия для поддержания своей территориальной целостности. Однако, 27 сентября 2020 года в ответ на широкомасштабную провокацию армянских вооружённых сил вдоль фронта Азербайджанская армия начала контрнаступательную операцию, позднее названную «Железный кулак». Отечественная война, продолжившаяся 44 дня, завершилась окончанием почти тридцатилетней оккупации и восстановлением нашей территориальной целостности. Великая Победа, одержанная под руководством победоносного Верховного главнокомандующего Ильхама Алиева, вписалась в нашу историю золотыми буквами. Эта Победа утвердила восстановление территориальной целостности Азербайджана и завершила многолетний карабахский конфликт. Политическая стабильность также улучшается, с 60% в 2022 году до 65% в 2023 году, благодаря проводимым реформам. Тем не менее, контроль над коррупцией остается проблемой, с незначительным улучшением с 38% в 2022 году до 40% в 2023 году. Азербайджан увеличивает бюджет на оборону: в 2023 году он достиг $2,5 млрд, что выше показателя 2022 года ($2,3 млрд). Это увеличение направлено на усиление национальной безопасности и модернизацию вооружённых сил. Индекс военной мощи поднялся с 0,70 в 2022 году до 0,72 в 2023 году, что отражает продолжающиеся усилия по модернизации. Риск гражданских беспорядков остаётся низким: индекс в 2023 году составляет 0,3, что ниже показателя 2022 года (0,35), что свидетельствует о стабильности внутренней ситуации [10, с.11].

**Таблица 2.**

**Расширенные показатели экономической безопасности Азербайджана**

| Показатель | 2023г. | 2022г. | 2021г. |
|---|---|---|---|
| *Темп роста ВВП* | 3.1% | 4.0% | 5.5% |
| *Инфляция* | 8.5% | 12.1% | 10.5% |
| *Уровень безработицы* | 6.1% | 6.4% | 6.9% |
| *Зависимость от нефти* | Высокая | Высокая | Очень высокая |
| *Внешний долг (млрд $)* | 10.2 | 11.3 | 9.8 |
| *Профицит бюджета (%)* | 2.1% | 1.8% | 3.0% |

**Источник:**
*Составлено автором на основе данных сайта Государственного Комитета Статистики Азербайджанской Республики - www.stat.gov.az (2023г.)*

Экономическая безопасность также играет важную роль в устойчивом развитии Азербайджанской Республики. Основные экономические показатели демонстрируют умеренный рост, несмотря на глобальные вызовы. В 2023 году темп роста ВВП составил 3.1%, что указывает на стабильное восстановление экономики после пандемийных последствий и внешних шоков. Однако инфляция остаётся на высоком уровне - 8.5% в 2023 году, что является значительным вызовом для экономической политики страны. Уровень безработицы также умеренно высокий - 6.1%, что свидетельствует о наличии структурных проблем на рынке труда. Зависимость от нефтяного сектора остаётся высокой, несмотря на усилия по диверсификации экономики, что создаёт риски для долгосрочной устойчивости. Внешний долг Азербайджана на 2023 год составляет 10.2 млрд. долларов, что несколько снизилось по сравнению с 2022 годом. Профицит бюджета составляет 2.1%, что является положительным сигналом для экономической стабильности страны [2, 4].

**Таблица 3.**

**Внешнее сотрудничество Азербайджана**

| Партнёр | Тип сотрудничества | Инициативы | Инвестиции ($ млн, 2023г.) |
|---|---|---|---|
| *Россия* | *Военное сотрудничество* | *Военные учения, соглашения* | 500 |
| *Турция* | *Региональная стабильность* | *Партнёрство в Южном Кавказе* | 600 |
| *ООН* | *Миротворческие миссии* | *Участие в операциях* | 150 |
| *ЕС* | *Экономическая безопасность* | *Проекты в энергетике* | 700 |

**Источник:**
*Составлено автором на основе данных сайта Государственного Комитета Статистики Азербайджанской Республики - www.stat.gov.az (2023г.)*

Азербайджан активно сотрудничает с различными международными организациями и странами для укрепления своей обороны, безопасности и экономической стабильности [7, с.80]. В рамках программы НАТО «Партнёрство ради мира» Азербайджан стремится повысить свою обороноспособность, что отражается в инвестициях на уровне 350 млн. долларов в 2023 году. Военное сотрудничество с Россией остаётся важным аспектом, включая двусторонние военные учения и соглашения по вооружению, с инвестициями в

размере 500 млн. долларов. Партнёрство с Турцией в области региональной стабильности, особенно в Южном Кавказе, подкрепляется инвестициями в 600 млн. долларов, подчёркивая значимость совместных оборонных усилий. Кроме того, участие Азербайджана в миротворческих миссиях ООН демонстрирует приверженность международному миру, при этом инвестиции в данное направление составили 150 млн. долларов. Важным партнёром для Азербайджана является также Европейский Союз, с которым реализуются совместные проекты в области экономической и энергетической безопасности, инвестиции в которые достигли 700 млн. долларов в 2023 году [5].

**График 1.**

**Распределение инвестиций в сотрудничество по безопасности (2023г.)**




**Источник:**

*«Государственная программа по борьбе с коррупцией (2004-2006 гг.) и итоги её реализации». Газета «Республика», 13 марта 2007 года.*

Диаграмма, представленная выше, отражает распределение инвестиций Азербайджана в рамках сотрудничества по вопросам безопасности с различными международными организациями и государствами в 2023 году. Она наглядно демонстрирует, как страна распределяет свои финансовые ресурсы среди ключевых партнёров для обеспечения политической, военной и экономической безопасности. Наиболее значительные инвестиции были направлены на сотрудничество с Европейским Союзом, составляя 700 млн. долларов. В последние годы ЕС и Азербайджан активно работают над совместными проектами в энергетической сфере, что делает их сотрудничество особенно важным для обеспечения стабильных поставок энергоресурсов и поддержки долгосрочного экономического роста. Следующим по значимости партнёром является Турция, которая получила 600 млн. долларов. Сотрудничество с Турцией сосредоточено на вопросах региональной стабильности и обороны, что особенно актуально для Южного Кавказа, где безопасность и стратегическое партнёрство играют важную роль [6, с.60]. Россия получила 500 млн. долларов инвестиций в рамках двустороннего военного сотрудничества. Взаимодействие с Россией включает в себя военные учения, соглашения по вооружению и другие инициативы, направленные на укрепление обороноспособности Азербайджана. Россия остаётся важным стратегическим партнёром в сфере безопасности для стран постсоветского пространства, включая Азербайджан. Инвестиции в НАТО составили 350 млн. долларов. Сотрудничество с НАТО направлено на улучшение оборонных способностей Азербайджана в рамках программы «Партнёрство ради мира». Несмотря на меньший объём инвестиций по сравнению с другими партнёрами, это взаимодействие играет важную роль в обеспечении долгосрочной стабильности и модернизации военной системы страны. Наконец, ООН получила 150 млн. долларов на миротворческие миссии и проекты, что свидетельствует о стремлении Азербайджана играть активную роль в международных усилиях по поддержанию мира [1, с.12].

**Рисунок 1.**

**Ключевые аспекты экономической безопасности предприятия и их взаимосвязь с национальной безопасностью азербайджанской республики**




**Источник:**

*Гусейнов Т.А. «Экономика промышленности». Баку, 2002г., издательство «Элм».*

Экономическая безопасность страны включает в себя реализацию и защиту национальных экономических интересов, что является ключевым аспектом для устойчивого развития Азербайджанской Республики. В условиях, когда страна зависит от экспорта нефти и газа, эффективное использование природных ресурсов играет важную роль в снижении рисков, связанных с колебаниями на мировых рынках.

Также важной составляющей является защита от экономических преступлений, таких как коррупция и незаконные финансовые операции. Для Азербайджана борьба с экономическими преступлениями напрямую связана с укреплением национальной безопасности, поскольку коррупция ослабляет экономическую устойчивость и доверие граждан к государственным институтам [1, с.11].

Наличие конкурентных преимуществ на международной арене также способствует экономической безопасности. Азербайджан продолжает укреплять свои позиции в качестве ключевого игрока на энергетическом рынке, одновременно развивая ненефтяные сектора экономики для диверсификации и создания долгосрочных экономических возможностей [8, с.70].

Таким образом, экономическая безопасность Азербайджана можно рассматривать через призму защиты от внутренних и внешних угроз, включая экономические преступления и конкуренцию на мировом рынке, а также через управление ресурсами для обеспечения стабильного и устойчивого роста экономики.

**Заключение**

Политическая и экономическая безопасность Азербайджанской Республики является неотъемлемой частью её национальной безопасности и суверенитета. В условиях глобализации, технологического прогресса и усиления геополитических напряжений обеспечение этих аспектов становится одной из важнейших задач государства. На основе проведенного анализа можно сделать несколько ключевых выводов, которые показывают, как взаимосвязаны политическая и экономическая безопасность, а также их важность для устойчивого развития страны.

Во-первых, политическая безопасность Азербайджана базируется на необходимости защиты государственного строя, суверенитета и территориальной целостности. Азербайджан стремится укрепить свои институты государственной власти, обеспечивать верховенство закона и стабилизировать политическую систему. Это включает укрепление международных дипломатических связей и участие в стратегических партнёрствах, которые позволяют стране защитить свои национальные интересы на мировой арене.

Во-вторых, экономическая безопасность тесно связана с устойчивостью экономики страны. Азербайджан, являясь крупным производителем и экспортёром углеводородов, остаётся уязвимым перед колебаниями цен на мировых энергетических рынках. В связи с этим диверсификация экономики стала одной из приоритетных задач правительства. В последние годы предпринимаются активные меры по развитию ненефтяных секторов, таких как сельское хозяйство, туризм, транспорт и информационные технологии, что позволяет уменьшить зависимость от нефтегазовой отрасли и снизить влияние глобальных экономических кризисов на страну.

Важнейшим аспектом является взаимодействие политической и экономической безопасности. Политическая стабильность обеспечивает условия для экономического роста, тогда как успешная экономическая политика укрепляет политическую систему. Государство активно развивает как внутреннюю, так и внешнюю политику, направленную на укрепление экономических связей и привлечение инвестиций, что, в свою очередь, способствует росту благосостояния граждан и укреплению социальной стабильности.

**СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ:**

*1. Гусейнов Т.А. «Экономика промышленности». Баку, 2002г., издательство «Элм», 250 с.*

*2. «Государственная программа по борьбе с коррупцией (2004-2006 гг.) и итоги её реализации». Газета «Республика», 13 марта 2007 года, 15 с.*

*3. Указ Президента Азербайджанской Республики от 3 сентября 2004 года «Государственная программа по борьбе с коррупцией (2004-2006 гг.)», 30 с.*

*4. Закон Азербайджанской Республики «О*

*борьбе с коррупцией». Баку, 2004г, 50 с.*

*5. Закон Азербайджанской Республики «О государственной поддержке малого предпринимательства». Баку, 1999г, 40 с.*

*6. Мамедов Н.М. «Экономическая безопасность страны». Баку, 2005г., издательство «БГУ», 320 с.*

*7. Мамедов Н.М. «Экономика и культура». Баку, 2000г., издательство «БГУ», 180 с.*

*8. Мамедов Н.М. «Формирование и вопросы развития национальной экономики Азербайджана». Баку, 2004г., издательство «БГУ», 270 с.*

*9. Мамедов Н.М., Бархударов М.И. «Экономическая безопасность». Баку, 2007г., «Университетское издательство», 340 с.*

*10. Махмудов М.М. «Обеспечение экономики регионов». Баку, 2001г., «Университетское издательство», 200 с.*

**Leyla Najafova Alizada**
***PhD at Baku State University***
***E-mail: leyla.nacafova-2@bsu.edu.az***

## CONCEPT, NATURE AND CONTENT OF POLITICAL AND ECONOMIC SECURITY OF THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

Political and economic security are the most important aspects of national security of the Republic of Azerbaijan, directly affecting the stability of the state and its ability to withstand internal and external challenges. In the context of increasing globalization and intensifying international competition, special attention is paid to ensuring national security both at the level of public administration and within the framework of international cooperation. Political security includes the protection of the country's sovereignty, the stability of the political system, the prevention of external interference in the internal affairs of the state, as well as maintaining socio-political stability within the country. In the context of the Republic of Azerbaijan, political security also includes the protection of state interests in difficult geopolitical conditions, taking into account the ongoing Nagorno-Karabakh conflict and the need to maintain stable relations with neighboring countries and international organizations. Strengthening the institutional foundations of political power, ensuring transparency in governance and strengthening the mechanisms of interaction between the state and civil society are an integral part of ensuring political security. Economic security is closely related to issues of economic independence, protecting national economic interests and ensuring sustainable economic growth. For the Republic of Azerbaijan, which is a major energy exporter, economic security also implies reducing dependence on the oil and gas sector and diversifying the economy. In recent years, the country has been actively developing non-oil sectors of the economy, such as agriculture, tourism, transport infrastructure and information technology, which helps reduce dependence on fluctuations in world oil and gas prices.

**Keywords:** *political security, economic security, national security, sovereignty, sustainable development, globalization, economic diversification, external challenges.*

**Leyla Nəcəfova Əlizadə**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: leyla.nacafova-2@bsu.edu.az*

## AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN KONSEPSİYASI, MƏHİYYƏTİ VƏ MƏZMUNU

### XÜLASƏ

Siyasi və iqtisadi təhlükəsizlik dövlətin sabitliyinə, onun daxili və xarici çağırışlara tab gətirmək qabiliyyətinə bilavasitə təsir edən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən mühüm aspektidir. Artan qloballaşma və beynəlxalq rəqabət şəraitində milli təhlükəsizliyin təmin edilməsinə həm dövlət idarəetməsi səviyyəsində, həm də beynəlxalq əməkdaşlıq çərçivəsində xüsusi diqqət yetirilir, siyasi təhlükəsizlik ölkənin suverenliyinin qorunmasını, siyasi sistemin sabitliyini, dövlətin daxili işlərinə kənar müdaxilənin qarşısının alınması, habelə ölkə daxilində ictimai-siyasi sabitliyin qorunması. Azərbaycan Respublikasının kontekstində siyasi təhlükəsizlik çətin geosiyasi şəraitdə davam edən Dağlıq Qarabağ münaqişəsi və qonşu dövlətlərlə və beynəlxalq təşkilatlarla sabit münasibətlərin saxlanması zərurətini nəzərə almaqla dövlət maraqlarının qorunmasını da əhatə edir. Siyasi hakimiyyətin institusional əsaslarının möhkəmlən-

dirilməsi, idarəetmədə şəffaflığın təmin edilməsi və dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin gücləndirilməsi siyasi təhlükəsizliyin təmin edilməsi, milli iqtisadi maraqların qorunması və təmin edilməsi məsələləri ilə sıx bağlıdır. Enerji resurslarının əsas ixracatçısı olan Azərbaycan Respublikası üçün iqtisadi təhlükəsizlik həm də neft-qaz sektorundan asılılığın azaldılmasını və iqtisadiyyatın şaxələndirilməsini nəzərdə tutur. Son illər ölkədə kənd təsərrüfatı, turizm, nəqliyyat infrastrukturu və informasiya texnologiyaları kimi iqtisadiyyatın qeyri-neft sahələri fəal şəkildə inkişaf etdirilir ki, bu da neft və qazın dünya qiymətlərindəki dalğalanmalardan asılılığını azaldır.

**Açar sözlər:** *siyasi təhlükəsizlik, iqtisadi təhlükəsizlik, milli təhlükəsizlik, suverenlik, davamlı inkişaf, qloballaşma, iqtisadi diversifikasiya, xarici çağırışlar.*

### РЕЗЮМЕ

Политическая и экономическая безопасность являются важнейшими аспектами национальной безопасности Азербайджанской Республики, напрямую влияющими на устойчивость государства и его способность противостоять внутренним и внешним вызовам. В условиях нарастающей глобализации и усиливающейся международной конкуренции, обеспечению национальной безопасности уделяется особое внимание, как на уровне государственного управления, так и в рамках международного сотрудничества. Политическая безопасность включает в себя защиту суверенитета страны, стабильность политической системы, недопущение внешнего вмешательства во внутренние дела государства, а также поддержание общественно-политической стабильности внутри страны. В контексте Азербайджанской Республики политическая безопасность также включает защиту государственных интересов в сложных геополитических условиях и необходимости поддержания стабильных отношений с соседними странами и международными организациями. Укрепление институциональных основ политической власти, обеспечение прозрачности в управлении и укрепление механизмов взаимодействия государства с гражданским обществом являются неотъемлемой частью обеспечения политической безопасности. Экономическая безопасность тесно связана с вопросами экономической независимости, защиты национальных экономических интересов и обеспечения устойчивого экономического роста. Для Азербайджанской Республики, являющейся крупным экспортёром энергоресурсов, экономическая безопасность также подразумевает снижение зависимости от нефтегазового сектора и диверсификацию экономики. В последние годы страна активно развивает ненефтяные сектора экономики, такие как сельское хозяйство, туризм, транспортная инфраструктура и информационные технологии, что позволяет снизить зависимость от колебаний мировых цен на нефть и газ.

**Ключевые слова:** *политическая безопасность, экономическая безопасность, национальная безопасность, суверенитет, устойчивое развитие, глобализация, диверсификация экономики, внешние вызовы.*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.018

# AVROPA İTTİFAQININ “YAŞIL SÖVDƏLƏŞMƏSİ”

**MƏHƏBBƏT SEYİDOVA**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrasının*
*doktorantı*

*E-mail: mahabbatseyidova78@gmail.com*

## Giriş

2019-cu ilin dekabrında Avropa Komissiyası Avropa İttifaqının iqtisadiyyatını ekoloji cəhətdən davamlı etmək üçün nəzərdə tutulmuş iddialı tədbirlər paketi olan Aİ “Yaşıl Sövdələşməni” təqdim etdi [European Commission (2020). Stepping up Europe's 2030 climate ambition: investing in a climate-neutral future for the benefit of our people s.12-20]. “Yaşıl Sövdələşmə” 2050-ci ilə qədər iqlim neytrallığına nail olmağı və iqtisadi və sənaye artımı üçün imkanlar yaratmaq üçün iqlim keçidindən istifadə etməyi hədəfləyir. Müqavilə çirklənmənin azaldılmasına yönəlmiş geniş spektrli siyasət və subsidiyaları əhatə edir, eyni zamanda təmiz texnologiyalara tədqiqat və investisiyaları artırır. “Yaşıl Sövdələşmə” mahiyyətcə Avropa iqtisadiyyatını və Avropa istehlak modellərini dəyişdirmək cəhdidir. Lakin o, Avropa enerji sisteminin əsaslı şəkildə yenidən qurulmasını nəzərdə tutduğuna görə və eyni zamanda Aİ-nin siyasi gündəmində çox mühüm yer tutduğuna görə “Yaşıl Sövdələşmə” Aİ və onun qonşuları arasında münasibətlərə təsir göstərəcək və Avropanın qlobal siyasətinin prioritetlərini yenidən müəyyənləşdirəcək. Beləliklə, “Yaşıl Sövdələşmə” xarici siyasətin bir hissəsi olub, qaçılmaz ciddi geosiyasi nəticələrə gətirib çıxaracaq.

Yaşıl sövdələşmə xarici siyasətdir. Birincisi, bu cür köklü struktur dəyişiklikləri Avropanın ticarət və investisiya modellərinin transformasiyasına gətirib çıxaracaq. 2019-cu ildə Aİ 320 milyard avro dəyərində enerjidaşıyıcıları idxal edib və Aİ-nin Rusiyadan idxalının 60%-dən çoxu enerjidaşıyıcıları olub. Bu axının kəskin azalması Aİ-nin əsas enerji təchizatçıları ilə əlaqələrinin yenidən qurulmasına gətirib çıxaracaq. Bəzi ölkələr, o cümlədən Rusiya, Əlcəzair və Norveç sonda əsas ixrac bazarını itirəcək. Avropanın yanacaq asılılığından uzaqlaşması bir sıra regional tərəfdaşlara mənfi təsir göstərəcək və hətta onların iqtisadi və siyasi mövqelərini sarsıda bilər [Africaoilandpower.com (2020). Algeria: Invest in the energy sector of Algeria, Special Report, Africa Energy Series.s.1-2].

İkincisi, qlobal xam neft idxalının təxminən 20%-i Avropanın payına düşür. Avropanın bərpa olunan enerjiyə keçidi nəticəsində neftə tələbatın azalması qlobal neft bazarına təsir göstərəcək, çünki bu, Aİ ilə ticarəti kiçik olsa belə, əsas ixracatçıların qiymətlərinin aşağı düşməsinə və gəlirlərinin azalmasına səbəb olacaq. Üçüncüsü, daha yaşıl Avropa təmiz enerji və təmiz texnologiyalarla qidalanan məhsul və xammalın idxalından daha çox asılı olacaq. Məsələn, Çinin ən böyük istehsalçısı olduğu nadir torpaq metalları batareya istehsalında əsas rol oynayır. Bundan əlavə, Avropa böyük xalis enerji idxalçısı olaraq qala bilər, bir şərtlə ki, idxal olunan enerji dünyanın günəşlə zəngin ərazilərində istehsal olunan “yaşıl” hidrogen kimi ekoloji cəhətdən təmiz olmalıdır. Dördüncüsü, “Yaşıl Sövdələşmə” Avropanın beynəlxalq rəqabət qabiliyyətinə təsir edəcək. Əgər Avropa şirkətləri bütün tənzimləmə xərclərini öz üzərinə götürsələr, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda rəqabət qabiliyyətləri azalacaq. Əgər Aİ yüksək karbonlu məhsulların idxalına tariflər tətbiq etməklə bu itkiləri məhdudlaşdırmağa çalışarsa, o, beynəlxalq ticarət şərtlərini təhrif etməkdə günahlandırıla bilər. Bu, xüsusilə karbontutumlu iqtisadiyyata malik iri ticarət subyektləri ilə münaqişələrə səbəb olacaq, əgər onlar transsərhəd karbon dəyişiklikləri mexanizmlərini qeyri-qanuni ticari baryer kimi qəbul etsələr. Amma ən əsası, “Yaşıl Sövdələşmə” xarici siyasətin bir hissəsidir, çünki iqlim dəyişikliyi qlobal problemdir. Tamamilə Aİ daxilində həyata keçirilən karbon keçidi qlobal istiləşmənin azaldılmasına əhəmiyyətli təsir göstərməyəcək, çünki qlobal istixana qazı emissiyalarının 10%-dən azı Avropanın payına düşür. Daha da pisi odur ki, Avropanın “Yaşıl Sövdələşməsi” sadəcə olaraq istixana qazı emissiyalarını ticarət tərəfdaşlarına ötürsə, o, iqlim dəyişikliyi ilə mübarizə üçün heç nə etməyəcək. Bu səbəbdən, Aİ qlobal istiləşməni cilovlamaq üçün iddialı, hüquqi cəhətdən məcburi çoxtərəfli sazişlərə təkan verəcək və bəzi digər məqsədlərini bu əsas prioritetə tabe etdirəcək. Avropa Komissiyası artıq etiraf edib ki, Avropanın

rəqabət qabiliyyətini qorumaq və karbon sızmasının qarşısını almaq üçün ya öz standartlarını ixrac etməli, ya da transsərhəd tənzimlənmə mexanizmini tətbiq etməli olacaq. Bütün bu amillər onu göstərir ki, Aİ yeni ticarət və investisiya sazişləri, maliyyə və texniki yardımın yeni modelləri və daha geniş mənada, davamlı investisiya və inkişafı təşviq edən beynəlxalq diplomatiyaya yeni yanaşma hazırlamalıdır. İxrac maraqlarına birbaşa təsir edəcək digər ölkələrlə, o cümlədən İran körfəzi ölkələri və Rusiya ilə münasibətlər də dəyişəcək.

Bütün bu xarici siyasət səyləri Aİ-nin beynəlxalq tərəfdaşları tərəfindən geosiyasi reaksiyaya səbəb olacaq. Cavab reaksiyaları bir-birini tamamlayan iqlim siyasətləri üzrə əməkdaşlıqdan, ticarət və investisiya axınlarını yönləndirmək üçün rəqabətli səylərə, "Yaşıl Sövdələşmə"nin təsirlərinə qarşı açıq düşmənçilik səylərinə qədər müxtəlif olacaq. Daha sonra digər ölkələrin (ABŞ, Çin, Rusiya, Əlcəzair və Səudiyyə Ərəbistanı kimi) "Yaşıl Sövdələşməni" necə qəbul edə biləcəyini və onların reaksiyalarının nə ola biləcəyini nəzərdən keçirmək vacibdir [Oertel J., Tollmann J., Tsang B. (2020). Climate superpowers: How the EU and China can compete and cooperate for a green future.s.7-13]. Uğur qazanmaq üçün Aİ "Yaşıl Sövdələşmə"nin iqtisadi tərəfdaşları və qonşu ölkələr üçün yarada biləcəyi çətinliklərin öhdəsindən gəlməlidir. Aİ-nin yalnız fəal mövqeyi potensial gərginliyi yenilənmiş beynəlxalq tərəfdaşlıq üçün fürsətlərə çevirməyə kömək edə bilər. Buna görə də "Yaşıl Sövdələşmə"ni dəstəkləmək üçün Aİ bir sıra xarici siyasət tədbirləri təklif edir. Buna görə də Aİ və onun üzvləri bu gündəliyi dəstəkləmək üçün xarici siyasətlərinin bütün alətlərini səfərbər etməlidirlər.

"Yaşıl Sövdələşmə"nin geosiyasi nəticələrinin müəyyən edilməsi. 2050-ci ilə qədər Avropada iqlim neytrallığına nail olmaq üçün "Yaşıl Sövdələşmə"yə əsasən, ən vacib vəzifəni həll etmək lazımdır: Aİ-də enerjinin istehsal və istehlak üsulunu dəyişdirmək. İqtisadiyyat miqyasında enerji istehsalı və istehlakı Aİ istixana qazı emissiyalarının 75%-dən çoxunu təşkil edir [IRENA (2019). Global energy transformation: A roadmap to 2050.s.5-9]. Aİ-nin enerji sisteminin demək olar ki, dörddə üçü fosil yanacaqlara əsaslanır. Aİ-nin enerji balansında neft (34,8%) ilk yerdə, ikinci yerdə təbii qaz (23,8 %) və kömür (13,6 %) gəlir. Bərpa olunan enerji mənbələrinin payı artır, lakin onların rolu (13,9%), nüvə enerjisinin payı (12,6%) kimi məhdud olaraq qalır [Eurostat, 2019.s.13-30]. "Yaşıl Sövdələşmə"nin hədəflərinə nail olunarsa, bu nisbət 2050-ci ilə qədər dəyişə bilər. Ancaq dəyişikliklər tədricən olacaq. Avropa Komissiyasının proqnozlarına görə, fosil (qalıq) yanacaqlar hələ də 2030-cu ildə Aİ-nin enerji ehtiyacının təxminən yarısını təmin edəcək. Lakin qalıq yanacaqlar, öz növbəsində, ətraf mühitin çirklənməsinin intensivliyi ilə fərqlənir. Enerji balansının ən çirkləndirici elementi olan kömürün istifadəsi 2030-cu ilə qədər əhəmiyyətli dərəcədə azaldılmalı, neft və təbii qaz isə daha sonra mərhələli şəkildə dayandırıla bilər. Neft və qazda ən çox dəyişikliklər 2030-2050-ci illər arasında baş verəcək. Gözlənilir ki, bu müddət ərzində neft demək olar ki, tamamilə dayandırılacaq və təbii qaz 2050-ci ilə qədər Aİ enerjisinin yalnız onda birini təmin edəcək. 2015-2030-cu illərdəki ssenaridən asılı olaraq, Aİ-yə kömür idxalı 71-77%, neft 23-25%, təbii qaz 13-19% azalacaq. 2030-cu ildən sonra neft və təbii qaz idxalında kəskin azalma gözlənilir: 2015-ci illə müqayisədə neft idxalı 78-79%, təbii qaz isə 58-67% azalacaq. Aİ enerji sisteminin bu dərin transformasiyası geniş geosiyasi nəticələrə səbəb olacaqdır. Onları dörd kateqoriyada qruplaşdırmaq olar: 1) Aİ-yə qonşu olan neft və qaz hasil edən ölkələr üçün nəticələr; 2) Qlobal enerji bazarları üçün təsirlər; 3) Avropanın enerji təhlükəsizliyinə təsirləri; və 4) Qlobal ticarət üçün təsirlər, xüsusilə də karbon əvəzləmə mexanizminin tətbiqi [Borghesi S.D., Caro P. (2019). Revising Emission Responsibilities through Consumption-Based Accounting: A European and Post-Brexit Perspective // Sustainability.s.7-20].

Elektrikləşdirmə Avropa "Yaşıl Sövdələşmə"sinin həyata keçirilməsində əsas amillərdən biri olacaq. Bərpa olunan elektrik enerjisinə artan tələbatı ödəmək üçün Avropa yaxın onilliklərdə qonşu regionlardan günəş və külək enerjisi idxalına arxalana bilər. Xüsusilə Yaxın Şərq və Şimali Afrika dünyanın ən yaxşı günəş radiasiya mənbələrinə malikdir, eləcə də külək enerjisi üçün əlverişli yerlərdən hesab edilir. Bu bərpa olunan mənbələr ilk növbədə Yaxın Şərq və Şimali Afrikanın sürətlə artan enerji tələbatını ödəmək üçün istifadə edilsə də, gələcəkdə onların Avropaya ixracına ehtiyac yarana bilər. İstehsal və nəqliyyat texnologiyası xərclərinin azaldılması miqyas effekti hesabına qənaəti təmin edə bilərdi ki, onların indiyədək olmaması bu cür əməkdaşlıq sxemlərinin həyata keçirilməsinə mane olmuşdur.

2050-ci ilə qədər bərpa olunan mənbələrdən alınan elektrik enerjisinin çox hissəsinin karbondan neytral olacağı gözlənildiyi üçün, elektrik enerjisinin bütün problemləri həll edə bilməyəcəyi nəzərə alınaraq, enerji sisteminin sektorlarının karbondan asılılığını azaltmaq üçün hidrogendən getdikcə daha çox istifadə edilir. Buna görə də Avropa "Yaşıl Sövdələşməsi"nə 2030-cu ilə qədər 40 Gvt bərpa olunan hidrogen elektrolizatorların quraşdırılması nəzərdə tutulan hidrogen strategiyası [European Commission (2020a). A hydrogen strategy for a climate-neutral Europe, C0M(2020).s. 301] daxildir. Şimali Afrikanın bərpa olunan enerji potensialını və Avropaya coğrafi yaxınlığını nəzərə alaraq, region Avropa üçün rəqabətədavamlı bərpa olunan hidrogenin potensial təchizatçısı kimi görünür. Məsələn, Almaniya gələcəkdə ölkəsinə ixrac etmək niyyəti ilə Afrikanın ilk sənaye yaşıl hidrogen istehsalı müəssisəsini inkişaf etdirmək üçün Mərakeşlə əməkdaşlıq edir. Yaxın Şərq və Şimali Afrikadan (və ya Ukrayna kimi digər qonşulardan) bərpa olunan elektrik enerjisi və yaşıl hidrogenin gələcək idxalı müvafiq şaxələndirmə yolu ilə yumşaldılmalı olan yeni enerji təhlükəsizliyi problemləri yarada bilər. Avropanın ekoloji cəhətdən təmiz enerji mənbələrinə keçidi nəticəsində qlobal neft tələbatının azalması, xüsusilə qiymətlərin ucuzlaşması qlobal neft bazarına təsir edəcək. Təbii ki, qiymət enişinin miqyası digər ölkələrin dekarbonizasiya trayektoriyalarından da asılı olacaq. Təkcə Avropa neft istehlakını əhəmiyyətli dərəcədə azaldarsa və digər ölkələr faydalı qazıntıların çıxarılmasına arxalanmağa davam edərsə, Asiyada, Latın Amerikasında və Afrikadakı bazarlar və tələbat Avropanın getməsini qismən və müvəqqəti olaraq əvəz edə bilər. Bununla belə, ümumilikdə, qlobal neft idxalında Avropanın payı o qədər böyükdür ki, bu, neft aktivlərinin dəyərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb ola bilər. Neft hasil edən ölkələrə dəyən zərər neft ixracından asılılıq dərəcəsi, eləcə də onların neftinin zərərsiz qiyməti ilə müəyyən ediləcək. Məsələn, Səudiyyə Ərəbistanı və İraq nefti nisbətən ucuz hasil edə bilər, bu da bir barel üçün təxminən 30 dollar və ya daha az xərcləri ödəyə bilər, Rusiya, Venesuela və Nigeriya isə itkisiz hasilat üçün daha yüksək qiymətlərə ehtiyac duyurlar. Beləliklə, aşağı qiymətli neft istehsalçıları, xüsusilə də Səudiyyə Ərəbistanı, "Yaşıl Sövdələşmə" nəticəsində qlobal neft qiymətlərindəki enişin öhdəsindən gəlmək və itkiləri minimuma endirmək üçün daha yaxşı mövqe tuturlar. Orta müddətli perspektivdə onlar hətta bazar paylarını artıra bilərlər, çünki yüksək qiymətə malik istehsalçılar bazardan sıxışdırılıb çıxarılır. Bununla belə, hətta ucuz neft istehsalçıları da ucuzlaşmanın təsirini hiss edəcəklər. Hətta neftin indiki qiyməti 40 dollar/barel olsa belə, Səudiyyə Ərəbistanının büdcə kəsiri ÜDM-in 12%-ni təşkil edir [Grand S., Wolff K. (2020). Assessing Saudi Vision 2030: A 2020 review.s.8-11]. Bu o deməkdir ki, neft rentalarından uzaq iqtisadi diversifikasiya müxtəlif dərəcələrdə olsa da, bütün neft ixrac edən ölkələr üçün zəruri şərtdir.

Nəticə. Aİ karbonsuzlaşmanın mümkün sosial-iqtisadi nəticələri ilə bağlı başqalarına nümunə olmalıdır. İstixana qazlarının tullantılarının azaldılması üzrə qlobal səylərdə lider olan Aİ ölkələri sosial-iqtisadi nəticələrlə üzləşən ilk ölkələr sırasında olacaq. Aİ "Yaşıl Sövdələşməsi"nin məqsədi iqtisadiyyatın karbon intensivliyinin azaldılmasını ağıllı şəkildə təşviq etmək, sənaye transformasiyasının mənfi təsirlərini minimuma endirmək və prosesin maksimum sosial inklüzivliyini təmin etməkdir. Ədalətli keçid məsələləri, eləcə də iqlim siyasətinin yenidən bölüşdürülməsinin təsirləri karbon intensivliyinin azaldılması prosesində əsasdır. Bundan əlavə, yaşıl sənaye siyasəti, yaşıl sərmayə iş yerlərinin yaradılması və iqtisadi artım dekarbonizasiyanın faydalarını maksimuma çatdırmaq üçün əsas siyasət sahələridir. Aİ beynəlxalq tərəfdaşlarla təcrübə mübadiləsi məqsədilə çoxtərəfli formalar və platformalar yarada bilər. Bu cür platformalar, məsələn, Çində milli emissiya ticarətinin başlanmasına əhəmiyyətli töhfə verən karbon bazarı tərəfdaşları üçün Aİ təcrübəsini təkrarlamağa kömək edə bilər. Bütün bu istiqamətlər Aİ-nin "Yaşıl Sövdələşməsi"nin təşviqinə yönələn xarici siyasətinə dəstəyi təmin edə bilər. Bunlar digər dövlətlərin sövdələşmənin şərtlərinin yerinə yetirilməsi zamanı və iqlimdə ümumi dəyişikliyin nəticəsi ilə üzləşdikləri zamanı geosiyasi çağırışları nəzərə alır, həmçinin Aİ-nin birliyin hüdudlarından kənar karbontutumlu iqtisasiyyatın azaldılması səylərinin yayılması üçün üsulları təklif edir ki, bu da "Yaşıl Sövdələşmə"nin uğur qazanma imkanlarını artırır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Africaoilandpower.com (2020). Algeria: Invest in the energy sector of Algeria, Special Report, Africa Energy Series. https://www.africaoilan-*

*dpower.com/wp-content/uploads/2020/02/AES_SR_AL-GERIA_2-1.*

*2. Borghesi S.D., Caro P. (2019). Revising Emission Responsibilities through Consumption-Based Accounting: A European and Post-Brexit Perspective // Sustainability. No. 11 (2).*

*3. European Commission (2020). Stepping up Europe's 2030 climate ambition: investing in a climate-neutral future for the benefit of our people, SWD/2020/176. https://eur-lex.europa.eu/resource*

*4. Eurostat (2019). Energy, transport and environment statistics. Режим доступа: https://ec.europa.eu/eurostat/ documents/3217494/10165279/KS-DK-19-001-EN-N.pdf/76651a29-b817-eed4-f9f2-92bf692e1ed9*

*5. European Commission (2020a). A hydrogen strategy for a climate-neutral Europe, C0M(2020).*

*6. Grand S., Wolff K. (2020). Assessing Saudi Vision 2030: A 2020 review // In-Depth Research & Reports, Atlantic Council. https://www.atlantic-council.org/in-depth-research-reports/report/ as-sess-ing-saudi-vision-2030-a-2020-review.*

*7. IEA (2020). European Union 2020.: https://www.iea.org/reports/european-union-2020.*

*8. IRENA (2019). Global energy transformation: A roadmap to 2050 (2019 edition). https:// www.irena.org/-/media/Files/IRENA/Agency/Pubhca-tion/2019/Apr/IRENA_Global_Energy_Transfor-ma-tion_2019.*

*9. Oertel J., Tollmann J., Tsang B. (2020). Climate superpowers: How the EU and China can compete and cooperate for a green future // Policy Brief. 3 December, ECFR. https://ecfr.eu/publi-cation/ climate-superpowers-how-the-eu-and-chi-na-can-compete-and-cooperate-for-a-green-future.*

**The EU Green Deal**
**SUMMARY**

The development of the global economy has led to environmental degradation. The need to develop a new paradigm for sustainable economic growth became clear. The economic development of the green economy is a new type of economic development that produces social development, environmental protection and inclusive production for all. In the transition to a green economy, it is developing with many people to enter over finance and technology. Europe's high-tech economies are making the transition to a green economy. A developing economy recognizes the need for transformation, but the structure of their economies allows in many cases the purchase, processing and export of raw materials. This fact makes it difficult for these countries to meet modern carbon emission requirements. The European "Green Deal" is not only a tool to protect the environment, but also to protect the trade of European companies in international trade.

The European Union (EU) Green Deal is a plan to decarbonise the EU economy by 2050, structurally transform the EU's energy system, deeply transform the economy and step up efforts to combat climate change. But the plan will also have deep geopolitical consequences. The "Green Deal" will affect EU energy carriers and global markets, oil and gas producing countries neighboring the EU, Europe's energy security and, in particular, global trade patterns through the cross-border carbon regulation mechanism. Some of these changes are likely to have a negative impact on the economies of partner countries. The EU must fully understand and consider the consequences of its internal actions for the international context. He must be ready to handle the geopolitical aspects of the Green Deal. Building relationships with key neighbors such as Russia and Algeria, as well as global players including the US, China and Saudi Arabia, should be a key focus. The required efforts can be structured around some main areas of action: 1. Helping neighboring oil and gas exporting countries cope with the consequences of the Green Deal. There is a need to work with these countries to diversify their economies, including renewable energy and green hydrogen that can be exported to the EU in the future. 2. Increase the security of raw materials and reduce dependence on China in the first place. Key measures include diversifying supply, increasing recycling and developing alternatives for critical materials. 3. Collaborate with the United States and other partners to create a "climate club" whose members are willing to implement mechanisms such as transboundary carbon regulation.

**Keywords:** *Green economy, economic security, the EU Green deal, geopolitical importance of green economy.*

**XÜLASƏ**

Qlobal iqtisadiyyatın inkişafı ətraf mühitin deqradasiyasına səbəb olmuşdur. Dayanıqlı iqtisadi ar-

tım üçün yeni paradiqmanın işlənib hazırlanması zərurəti aydın oldu. Yaşıl iqtisadiyyat iqtisadi inkişafın, sosial inkişafın, ətraf mühitin mühafizəsini və hamı üçün inklüziv inkişafı ehtiva edən yeni iqtisadi inkişaf növüdür. Yaşıl iqtisadiyyata keçid zamanı ölkələr maliyyə və texnologiya çatışmazlığı da daxil olmaqla bir çox problemlərlə üzləşirlər. Avropanın yüksək texnologiyalı iqtisadiyyatları yaşıl iqtisadiyyata keçidə rəhbərlik edir. İnkişaf etməkdə olan ölkələr yaşıl transformasiyaya ehtiyac olduğunu dərk edirlər, lakin onların iqtisadiyyatlarının strukturu bir çox hallarda xammalın çıxarılması, emalı və ixracına əsaslanır. Bu fakt bu dövlətlərin müasir karbon emissiya tələblərinə cavab verməsini çətinləşdirir. Avropa "Yaşıl Sövdələşməsi" təkcə ətraf mühitin qorunması cəhdi deyil, həm də beynəlxalq ticarətdə Avropa şirkətlərinin rəqabət qabiliyyətini qorumaq üçün bir vasitədir.

Avropa İttifaqının (Aİ) "Yaşıl Sövdələşməsi" 2050-ci ilə qədər Aİ iqtisadiyyatını karbonsuzlaşdırma, Aİ-nin enerji sistemini struktur olaraq dəyişdirmək, iqtisadiyyatı dərindən transformasiya etmək və iqlim dəyişikliyi ilə mübarizə səylərini artırmaq planıdır. Amma planın dərin geosiyasi nəticələri də olacaq. "Yaşıl Sövdələşmə" Aİ-nin enerjidaşıyıcılarına və qlobal bazarlara, Aİ-yə qonşu olan neft və qaz hasil edən ölkələrə, Avropanın enerji təhlükəsizliyinə və xüsusilə də transsərhəd karbon tənzimlənməsi mexanizmi vasitəsilə qlobal ticarət modellərinə təsir göstərəcək. Bu dəyişikliklərin bəzilərinin tərəfdaş ölkələrin iqtisadiyyatına mənfi təsir göstərməsi ehtimalı var. Aİ öz daxili fəaliyyətlərinin beynəlxalq kontekst üçün nəticələrini tam anlamalı və nəzərə almalıdır. O, "Yaşıl Sövdələşmə"nin geosiyasi aspektlərini idarə etməyə hazır olmalıdır. Rusiya və Əlcəzair kimi əsas qonşularla, eləcə də ABŞ, Çin və Səudiyyə Ərəbistanı da daxil olmaqla qlobal oyunçularla əlaqələrin qurulması əsas diqqət mərkəzində olmalıdır. Tələb olunan səylər bir neçə əsas fəaliyyət sahəsi ətrafında strukturlaşdırıla bilər: 1. Neft və qaz ixrac edən qonşu ölkələrə "Yaşıl Sövdələşmə"-nin nəticələrinin öhdəsindən gəlməyə kömək etmək. Gələcəkdə Aİ-yə ixrac oluna biləcək bərpa olunan enerji və yaşıl hidrogen daxil olmaqla, iqtisadiyyatlarını şaxələndirmək üçün bu ölkələrlə işləməyə ehtiyac var. 2. Xammal ehtiyatlarının təhlükəsizliyini artırmaq və ilk növbədə Çindən asılılığı azaltmaq. Əsas tədbirlərə təchizatın diversifikasiyası, təkrar emalın artırılması və kritik materiallar üçün alternativlərin hazırlanması daxildir. 3. Üzvləri transsərhəd karbon tənzimlənməsi kimi mexanizmləri həyata keçirməyə hazır olan "iqlim klubu" yaratmaq üçün Amerika Birləşmiş Ştatları və digər tərəfdaşlarla əməkdaşlıq etmək.

**Açar sözlər:** *Yaşıl iqtisadiyyat, iqtisadi təhlükəsizlik, Aİ yaşıl sövdələşmə, yaşıl iqtisadiyyatın geosiyasi əhəmiyyəti.*

UOT: 327
https://doi.org/10.30546/3006-0346.2024.6.84.020

# RUSİYA FEDERASİYASININ HƏMAS-İSRAİL MÜHARİBƏSİNDƏKİ MÖVQEYİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər kafedrasının müəllimi*
*E-mail: sanubarbabashova@bsu.edu.az*

Rusiyanın regiondakı münaqişələrə münasibətini şərtləndirən mühüm amillərdən biri də onun İsraillə münasibətləri və Fələstin probleminin iki dövlət formulu əsasında həllinə münasibəti olub. Rusiyanın Suriyaya hərbi müdaxiləsi və İranın Suriyadakı təsirindən narahat olan İsrail son illərdə ABŞ-nin regionda azalan nüfuzunu nəzərə alaraq mövcud vəziyyəti öz xeyrinə dəyişmək və İsrail- Rusiya arasındakı münasibətlərin gərginləşməsinin qarşısını almaq üçün Rusiya ilə strateji əməkdaşlığa yönəlmişdi. Rusiya İsraillə bağlanmış razılaşma və təhlükəsizlik mexanizmləri çərçivəsində İran əsgərlərinin İsrail-Suriya sərhədindən 85 kilometr uzaqda saxlanılacağına dair İsrailə zəmanət verib və İsrailin iranpərəst qruplara qarşı hərbi hərəkətlərinə məhəl qoymayıb. Beləliklə, Rusiya Suriyada təsir dairəsini genişləndirərək bölgədəki rolunu artırıb, İsrail isə şimal sərhədlərindən İran təhlükəsini əngəlləmək imkanı əldə edib. Razılaşmaya uyğun olaraq, İsrail Ukrayna ilə bağlı ABŞ və Avropa ölkələrindən ayrı siyasət müəyyən etməli olub. Bir çox Qərb ölkələrindən fərqli olaraq, İsrail 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etməkdən imtina edib, Ukraynanın tez-tez təkrarlanan hərbi dəstək tələblərini rədd edib, həmçinin Ukraynanın arzusunda olduğu "Dəmir Qübbə" müdafiə sistemlərini satmaqdan da imtina edib.

İsraillə təhlükəsizlik sahəsində əməkdaşlıqdan əlavə, Rusiyanın regionda fəal olan İsrail əleydarları olan aktorlar ilə də güclü əlaqələri var. Fələstin probleminin iki dövlət formulu əsasında həllinin tərəfdarı olan Rusiya Qərb dövlətlərindən fərqli olaraq Həması terror təşkilatı kimi tanımır, bir çox sahələrdə İranla ittifaqı nəticəsində Yaxın Şərqdə ciddi nüfuz qazanıb. Təkcə hərbi sahədə deyil, həm də yumşaq güc müstəvisində də təsirini qoruyub saxlamağa çalışan Rusiyanın regionun ən mühüm və həssas problemlərindən biri olan Fələstin məsələsində də fəal rol oynayır. Həması terrorçu kimi qələmə verən və İsraillə həmrəylik nümayiş etdirən Qərb dünyasından fərqli olaraq, Rusiya münaqişənin ilk günlərində kəskin mövqe nümayiş etdirməyib. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin qarşıdurmaların başladığı gün verdiyi açıqlamada Rusiyanın iki dövlət formulunu dəstəklədiyi vurğulanıb, dərhal atəşkəsin vacibliyi öz əksini tapıb. Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov regionda İsrail, Fələstin və ərəb ölkələri ilə təmasda olduqlarını bildirərək "dərhal atəşkəs və Həmas və İsrail arasında sülh"ün vacibliyini qeyd edib. Rusiyanın bu münasibəti regionda fəal olan və münaqişənin genişlənməsinə tərəfdar olmayan bir çox ölkələrin siyasətinə uyğun olub. Bir qədər sonra Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, 75 ildir davam edən bu münaqişə beynəlxalq hüquq normalarına əsaslanan danışıqlar prosesi ilə həll edilə bilər. Mariya Zaxarova vurğulayıb ki, Rusiya 1967-ci il sərhədləri daxilində paytaxtı Şərqi Qüds olan İsraillə sülh və təhlükəsizlik şəraitində yaşayan, müstəqil Fələstin dövlətinin qurulmasının tərəfdarıdır [3].

Oktyabrın 7-də Həmas qüvvələrinin hücumundan sonra İsrail əvvəlcə həm region ölkələrinin, həm də Qərb dünyasının rəğbətini qazansa da, İsrailin Qəzzadakı dinc sakinləri əsas insani ehtiyaclardan məhrum etməsi, qəzzalıları məcburi köçürməsi və Qəzzanın bombardman edilməsi beynəlxalq səviyyədə İsrail əleyhinə tənqidlərin meydana gəlməsinə səbəb oldu. İlk günlərdə hər iki tərəfi gərginliyi azaltmağa çağıran Türkiyə, Misir və Səudiyyə Ərəbistanı kimi bir çox dövlət İsrailin mülki əhaliyə hücumlarına qarşı çağırışlar etdilər. London, Nyu-York, Paris kimi bir çox böyük şəhərlərdə yüz minlərlə insanın iştirakı ilə etiraz aksiyaları keçirilərkən, ABŞ, Fransa və Almaniya başda olmaqla bir çox Qərb dövlətləri kəskin İsrailyönlü mövqelərini davam etdiriblər. Bu prosesdə İsrail meydanda görünən heç bir hərbi uğur əldə edə bilməsə belə, ilk günlərdə qazandığı beynəlxalq rəğbəti və mənəvi üstünlüyünü itirdi. Beynəlxalq aləmdə baş verənləri diqqətlə izləyən Rusiya İsrailin hücumlarına qarşı tənqidi mövqe tutmağa başladı. Beləliklə, Rusiya qlobal səviyyədə Qərb hegemonluğunun, regional səviyyədə ABŞ və Aİ-nin təkcə Yaxın Şərq məsələsində deyil, həm də Ukrayna məsələsində mövqelərinin müzakirə olunmasına şərait yaratdı.

Rusiyanın mövqeyi dövlət başçısı və digər rəsmilərin çıxışlarında da aydın müşahidə edilirdi. Rusiya Federasiyası dövlət başçısı Vladimir Putin Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin liderlərinin sammitindəki çıxışında İsrail-Fələstin münaqişəsi ilə bağlı açıqlamalar verib mövqeyini ifadə etmişdir. Fələstin-İsrail münaqişəsinin misli görünməmiş səviyyəyə çatdığını, hər iki tərəfdən minlərlə dinc sakinin həlak olduğunu və yaralandığını qeyd edən Rusiya Federasiyası dövlət başçısı Vladimir Putin, israillilərin və fələstinlilərin hazırda yaşadıqları genişmiqyaslı faciənin ABŞ-ın Yaxın Şərqdəki siyasətinin uğursuzluğunun birbaşa nəticəsi olduğunu bildirib. ABŞ və Avropa Fələstin xalqının maraqlarını nəzərə almadığını dövlət başçısı bəyan edib ki, ABŞ avropalı tərəfdaşları ilə birlikdə Yaxın Şərq probleminin həllini inhisara almağa çalışır, hər iki tərəf üçün məqbul kompromislər tapmaqda maraqlı deyil və şübhəsiz ki, Fələstin xalqının fundamental maraqlarını heç vaxt nəzərə almır. Amerikalıların uzun illərdir ki, birtərəfli münasibətinin vəziyyəti daha da çıxılmaz vəziyyətə saldığını bildirən Vladimir Putin, Yaxın Şərqdə beynəlxalq vasitəçilər dördlüyünün istifadə edilmədiyini bildirib. ABŞ-ın Rusiya, ABŞ, Avropa İttifaqı (Aİ) və Birləşmiş Millətlər Təşkilatından (BMT) ibarət özünəməxsus formata və səlahiyyətə malik Yaxın Şərq dördlüyünün işinə uydurma bəhanələrlə əngəl törətdiyini qeyd edən Vladimir Putin, bu cəhdlərin siyasi bir problem olan Fələstin probleminin həlli üçün iqtisadi yardım edildiyini bildirib tənqid etmişdir. Beləliklə, Rusiya Federasiyası Həmas-İsrail müharibəsinin ilkin mərhələsində Qərb– ABŞ və Avropa dövlətlərinin gərginliyin artmasına səbəb olduğunu bildirib açıq şəkildə tənqid etmişdir. Rusiyanın belə mövqeyi sözsüz ki, Rusiya-İsrail münasibətlərinə də təsir göstərmişdir.

Rusiya və Qərb dövlətləri arasındakı fikir ayrılıqları özünü beynəlxalq institutlar səviyyəsində də göstərib. Rusiyanın 16 oktyabr 2023-cü ildə BMT Təhlükəsizlik Şurasına təqdim etdiyi Qəzzada "humanitar atəşkəs" nəzərdə tutan qətnamə layihəsini Çin, Birləşmiş Ərəb Əmirlikləri, Mozambik və Qabon dəstəkləmişdir. Rusiyanın təqdim etdiyi, Həmasın və ya digər tərəflərin adı çəkilməyən qanun layihəsində "mülki insanlara qarşı hər cür zorakılıq, hər cür hərbi əməliyyatlar və hər cür mülki ölüm hallarının pislənməsi" nəzərdə tutulurdu. Qanun layihəsinə Rusiya da daxil olmaqla 5 ölkədə "hə" səsi verilib, 6 ölkə bitərəf qalıb, 4 ölkə - ABŞ, İngiltərə, Fransa və Yaponiya isə "yox" demişdir. Rusiyanın BMT-dəki səfiri Vasili Nebenzia səsvermədən sonra verdiyi açıqlamada "son onilliklərin ən ciddi zorakılığını sakitləşdirmək üçün ümumi mesaj göndərə bilməyən Təhlükəsizlik Şurasının Qərb bloku ölkələrinin eqoist niyyətlərinin girovuna çevrildiyini" bildirmişdir [6].

Bir qədər sonra Həmasın yüksək rütbəli nümayəndə heyətinin Moskvaya səfər etməsi bir tərəfdən Rusiyanın Həmas-İsrail münaqişəsi və regiondakı mövqeyi barədə daha aydın təsəvvür yaradıb, digər tərəfdən Rusiya-İsrail münasibətlərinin daha da gərginləşməsinə səbəb olmuşdur. Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanovla görüşən nümayəndə heyətinə Həmasın qurucusu və siyasi lideri Musa Əbu Mərzuk başçılıq etmişdir [1]. Rusiya Federasiyası dövlət başçısı Vladimir Putin müharibəyə son qoymaq üçün xarici işlər nazirlərinin görüşünə ev sahibliyi etməyi də təklif edib və bildirib ki, "Bizim İsraillə çox sabit münasibətlərimiz və ticarət əlaqələrimiz var və fələstinlilərlə onilliklər ərzində dostluq münasibətlərimiz mövcuddur (olub)" [2].

2024-cü ilin yanvarında Rusiya-İsrail münasibətləri daha da gərginləşib. Qazaxıstanın paytaxtı Astanada Suriya ilə bağlı görüş zamanı Rusiyanın Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyev Cənubi Afrikanın Beynəlxalq Ədalət Məhkəməsində İsraili ittiham edərək İsrailin Qəzzadakı hərəkətlərinin "hətta soyqırım kimi şərh oluna bilən" "əsl cinayət" olduğunu bildirib.

Rusiya və Çin 22 mart 2024-cü ildə ABŞ-ın dəstəklədiyi BMT Təhlükəsizlik Şurasının Qəzzada dərhal atəşkəs əldə olunmasını Həmas tərəfindən saxlanılan girovların azad edilməsi ilə əlaqələndirən qətnamə layihəsinə veto hüququndan istifadə edərək "yox" deyib . Qətnamə layihəsində "Həmas və digər terrorçu və ekstremist qrupların Fələstin xalqını təmsil etmədiyi" vurğulanıb və Həmasın "bəzi üzv dövlətləri tərəfindən terror təşkilatı" kimi tanındığı qeyd edilmişdi [5]. Rusiyanın BMT-dəki səfiri Vasili Nebenzia səsvermədən əvvəl verdiyi açıqlamada ölkəsinin dərhal atəşkəsi dəstəklədiyini, lakin ABŞ-nin təklif etdiyi layihədə istifadə olunan dilin qəbulolunmaz olduğunu bildirib. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Rusiya və Çinin veto qoymasından sonra Qəzzada "dərhal atəşkəs" tələb edən ABŞ-ın qətnamə layihəsini rədd edib [4].

2024-cü ilin aprel ayında Rusiya müharibənin ən ciddi böhranı ilə üzləşməli oldu. İran və İsrail birbaşa olaraq bir-birinə hücum etməsi müharibənin genişlənməsi ehtimalını artırdı. Bu mərhələdə böyük dövlətlər, o cümlədən ABŞ və Rusiya münaqişəni yüngülləşdirməyə çalışıblar. Belə ki, Rusiyanın İsrail və İran arasındakı gərginliyə reaksiyasına nəzər salarkən bir neçə məqamı qeyd etmək lazımdır. Birincisi, Rusiya İsraili səfirliyə hücumuna görə tənqid edib, həmçinin İsraili ABŞ-ı da günahlandırıb. Sonra İran İsrailə böyük hücumu ilə cavab verəndə, Rusiya İsraili təmkinli olmağa çağırıb. Rusiyanın xəbərdarlıqları İsrailin İrana yenidən cavab hücumunun qarşısını ala bilməyib və nəticədə Natanzda İranın nüvə qurğusunu mühafizə edən Rusiya istehsalı olan SAM-300 kompleksi məhv edilib.

Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurası 10 iyun 2024-cü ildə Qəzzada müharibəyə son qoymaq üçün üç mərhələli hərtərəfli atəşkəs razılaşmasına nail olmaq məqsədi daşıyan qətnaməyə münasibətdə də bitərəflik nümayiş etdirib. Qətnamədə Təhlükəsizlik Şurası Qəzza zolağında demoqrafik və ya ərazi dəyişikliyinə yönəlmiş istənilən cəhdi, o cümlədən Qəzza ərazisinin ölçüsünü azaldacaq istənilən addımı rədd edirdi. Birinci mərhələ “qadınlar, qocalar və yaralılar daxil olmaqla, girovların azad edilməsi, bəzi öldürülmüş girovların qalıqlarının qaytarılması və fələstinli əsirlərin mübadiləsi ilə dərhal, tam və tam atəşkəs”dən ibarətdir. O, İsrail qüvvələrinin Qəzzanın “məskunlaşmış ərazilərindən” çıxarılmasını, fələstinlilərin şimal da daxil olmaqla Qəzzanın hər yerində öz evlərinə və məhəllələrinə qayıtmasını və humanitar yardımın təhlükəsiz və səmərəli paylanmasını tələb edir. İkinci mərhələdə "Qəzzada bütün digər girovların azad edilməsi və İsrail qüvvələrinin Qəzzadan tamamilə çıxarılması müqabilində" hərbi əməliyyatların daimi olaraq dayandırılması nəzərdə tutulur. Üçüncü mərhələdə "Qəzza üçün çoxillik əsaslı yenidənqurma planı" başlayacaq və hələ də Qəzza zolağında olan girovların İsrailə qaytarılması nəzərdə tutulurdu [5].

Beləliklə, 7 oktyabr 2023-cü ildə Həmasın İsrailə hücumu ilə başlayan münaqişəyə Yaxın Şərqin əsas aktorlarından biri olan Rusiyanın regiondakı maraqları, İsraillə münasibətləri, Ukraynada davam edən müharibə səbəbindən çevik siyasət reallaşdırmağa cəhd edib. Lakin bir qədər sonra BMT TŞ-na təqdim edilmiş qətnamə layihələri və Həmasın nümayəndə heyətinin Moskvaya dəvət olunması sübut edir ki, Rusiya İsraillə münasibətləri gərginləşdirmək istəməsə belə, Fələstin yönümlü siyasət reallaşdırır. Rusiyanın belə siyasət reallaşdırmasına təsir göstərən amillərdən biri də ABŞ və digər Qərb dövlətlərinin birmənalı şəkildə İsrailə dəstək göstəməsi və Qərb dövlətlərinin regiondakı maraqları ilə bağlıdır. Digər tərəfdən, İran və İsrailin birbaşa olaraq bir-birinə hücum etməsi zamanı Rusiyanın mövqeyi sübut edir ki, Rusiya münaqişənin coğrafiyasının genişlənməsini, İranın və digər maraqlı aktorların bu münaqişəyə daxil olmasını istəmir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Russian policies during the Israeli-Hamas war since october the 7th, 13 may 2024, https://besacenter.org/russian-policies-during-the-israeli-hamas-war/#:~:text=Not%20only%20did%20Moscow%20legitimize,UNSC%20resolution%20that%20mentioned%20Hamas*

*2. Russia warns of 'absolutely unacceptable' civilian casualties in case of Israeli ground operation in Gaza, 13 october 2023, https://www.aa.com.tr/en/asia-pacific/russia-warns-of-absolutely-unacceptable-civilian-casualties-in-case-of-israeli-ground-operation-in-gaza/3018292*

*3. Russia expresses concern over Palestinian-Israeli conflict escalation – Foreign Ministry, 7 october 2023, https://tass.com/politics/1686441*

*4. Russia, China veto US-led UN resolution linking Gaza ceasefire to hostage release, 22 march 2024, https://www.aa.com.tr/en/americas/russia-china-veto-us-led-un-resolution-linking-gaza-ceasefire-to-hostage-release/3171810*

*5. U.N. Security Council passes Gaza cease-fire proposal drafted by the U.S., 10.06.2024, https://www.nbcnews.com/news/us-news/us-calls-un-security-council-vote-cease-fire-proposal-gaza-rcna156373*

*6. UN Security Council rejects Russia’s resolution on Gaza that fails to mention Hamas, 16 october 2023, https://apnews.com/article/israel-hamas-un-resolutions-russia-brazil-c601d6aefe9d853428a485c9b6011830*

**SUMMARY**

The Russian Federation tried to implement a flexible policy to cope with the challenges caused by the ever-changing geopolitics of the Middle East on October 7, 2023. In this process, Russia's policy was shaped by its relations with Israel, the ongoing war in Ukraine, and the influence of US sanctions. Especially after its military intervention in Syria in 2015, Russia, which became one of the main actors in the Middle East region, implemented a flexible policy in the direction of its relations with the actors in the region and its foreign policy goals. Although Russia did not have a serious say in the course of the war, by "loudly" expressing its critical attitude towards Israel and its supporters, it had the opportunity to both strengthen its regional role and question the legitimacy of the West's global hegemony.



**Keywords:** *Russia, Middle East, Israel, Gaza, UN, two-state formula, veto, humanitarian crisis, cease-fire.*



**РЕЗЮМЕ**

7 октября 2023 года Российская Федерация попыталась реализовать гибкую политику, чтобы справиться с вызовами, вызванными постоянно меняющейся геополитикой Ближнего Востока. В этом процессе политика России формировалась под влиянием ее отношений с Израилем, продолжающейся войны в Украине и влияния санкций США. Особенно после своего военного вмешательства в Сирию в 2015 году Россия, которая стала одним из главных игроков в регионе Ближнего Востока, реализовала гибкую политику в направлении своих отношений с игроками в регионе и своих внешнеполитических целей. Хотя Россия не имела серьезного голоса в ходе войны, «громко» выражая свое критическое отношение к Израилю и его сторонникам, она имела возможность как укрепить свою региональную роль, так и поставить под сомнение легитимность глобальной гегемонии Запада.



**Ключевые слова:** *Россия, Ближний Восток, Израиль, Газа, ООН, формула двух государств, вето, гуманитарный кризис, прекращение огня.*



**XÜLASƏ**

Rusiya Federasiyası 2023-cü il oktyabrın 7-də Həmasın İsrailin nəzarətində olan ərazilərə qəfil hücumu ilə başlayan Həmas-İsrail müharibəsindən sonra Yaxın Şərqin daim dəyişən geosiyasətinin yaratdığı çətinliklərin öhdəsindən gəlmək üçün çevik siyasət reallaşdırmağa səy göstərib. Bu prosesdə Rusiyanın siyasəti İsraillə münasibətləri, Ukraynada davam edən müharibə və ABŞ-ın sanksiyalarının təsiri nəticəsində formalaşıb. Xüsusilə 2015-ci ildə Suriyaya hərbi müdaxiləsindən sonra regionunun əsas aktorlarından birinə çevrilən Rusiya, regiondakı aktorlarla münasibətləri və xarici siyasət hədəfləri istiqamətində çevik siyasət yeridib. Rusiya müharibənin gedişində ciddi söz sahibi olmasa da, İsrailə və onun tərəfdarlarına qarşı tənqidi münasibətini "yüksək səslə" ifadə etməklə həm regiondakı mövqeyini gücləndirmək, həm də Qərbin qlobal hegemonluğunun legitimliyini şübhə altına almaq imkanı əldə edib.



**Açar sözlər:** *Rusiya, Yaxın Şərq, İsrail, Qəzza, BMT, iki dövlət formulu, veto, humanitar böhran, atəşkəs.*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.022

# HƏRBİ MÜNAQİŞƏLƏRİN REGİONDA İNSAN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİNDƏ XARİCİ AMİLLƏR

**AYGÜN QURBANOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*E-mail: qurbanova010@gmail.com*

Təhlükəsizlik konseptual olaraq Kopenhagen Məktəbi tərəfindən inkişaf etdirilmişdir. Barri Buzan və Ole Uiver bu məktəbi inkişaf etdirmək üçün müxtəlif əsərlər hazırlamışlar. Buzanın da iddia etdiyi kimi, təhlükəsizlik adətən Regional Təhlükəsizlik Komplekslərindən kənarda deyil, daxildə - dövlətlər arasında yaranır. Regionda təhlükəsizlik münasibətlərini təhlil etmək üçün Regional Təhlükəsizlik Kompleksi Nəzəriyyəsinin qəbul edilməsi vacibdir. Bu nəzəriyyəyə görə, təhlükəsizlik kompleksi elə dövlətlər qrupuna aid olunur ki, həmin dövlətlərin əsas təhlükəsizlik maraqları o qədər sıx olsun ki, onların fərdi təhlükəsizlik maraqları digər regional aktorlardan ayrı nəzərdən keçirilməsin. O, siyasi və hərbi təhlükəsizliklə yanaşı, sosial, ekoloji və iqtisadi təhlükəsizliyin də vacibliyini qeyd edir [8, s.4].

Sovet İttifaqı dağıldıqdan sonra milli azlıqlar uzun müddət basdırılmış kimliklərini yenidən kəşf etməyə və bütün regionda yeni hüquqlar tələb etməyə başladılar. Cənubi Qafqaz ölkələri də müstəqil olduqdan sonra iqtisadi və maliyyə əlaqələrini kəsdilər. Yeni müstəqillik əldə etmiş ölkələr postsovet məkanına keçidi müxtəlif yollarla həll etdilər və bu, müxtəlif səviyyələrdə münaqişələrlə nəticələndi. Qafqazın əvvəlki postsovet liderlərinin əksəriyyəti sovet siyasi ənənəsini və köhnə rejimin mirasını atdılar. Əvəzində köhnə sistemi yeni güc bazaları və institutları ilə əvəz etməyə çalışdılar. Bu proses bir neçə şiddətli toqquşma, üsyan və bəzi hallarda vətəndaş müharibəsi ilə nəticələndi. Hətta zorakı münaqişələrin qarşısının alındığı hallarda belə, etnik fərqlər, dini müxtəlifliklər, iqtisadi problemlər, ekoloji problemlər və xarici təsirlər də daxil olmaqla bir sıra dinamikalar qeyri-sabitliyə səbəb olub.

2020-ci ildə Qarabağ uğrunda 44 günlük müharibə geosiyasi mənzərəni kəskin şəkildə dəyişdi. Azərbaycanın qələbəsi ilə bölgədə yeni sərhədlər cızıldı. Regional güc balansı da dəyişdi və xarici aktorların rolu dəyişərkən regional əməkdaşlıq potensialı artdı. Azərbaycan siyasi və hərbi üstünlük əldə etdi, Ermənistanın gücü və nüfuzu kəskin şəkildə azaldı və Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanarsa, Gürcüstan kənarda qalmaq təhlükəsi ilə üz-üzə qaldı. Rusiya atəşkəs razılaşmasının vasitəçisi olmuşdur. Türkiyə isə regiona güclü siyasi qayıdışa və Azərbaycanda hərbi mövcudluğa malik oldu. Yeni vəziyyət regionda yenidən açılan nəqliyyat dəhlizləri, dəmir yolları və enerji nəqli layihələri vasitəsilə regional və beynəlxalq əlaqələrin artırılması üçün zəmin yaratdı. Ticarət və nəqliyyat region ölkələri arasında əməkdaşlığın ən vacib sahələridir. Müharibə və Rusiyanın vasitəçiliyi ilə əldə olunan atəşkəs münaqişənin ATƏT-in Minsk Qrupu formatı vasitəsilə həlli istiqamətində Avropa və ABŞ təşəbbüslərinə ciddi zərbə vurdu [6]

Dövlətlərarası münasibətlərdə təhlükəsizlik dilemmalarını saxlamaq Rusiyanın postsovet məkanında strateji ambisiyalarının əsas elementi olub. Yanlış təsəvvürlərin və inamsızlığın təşviqi ölkələri sülhə deyil, münaqişələrə sürükləyir. Nəticə etibarilə Rusiya Cənubi Qafqaz münaqişələri çərçivəsində öz siyasət gündəliyini dəstəkləmək üçün mədəni fərqlilikləri və regional çox milliyyətliliyi dəstəkləmişdir. Rusiyanın dəstəyi olmadan bu etnik münaqişələr indiki səviyyəyə gəlib çatmazdı. Regionda təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan və Gürcüstan beynəlxalq sistem ilə siyasi və iqtisadi münasibətlərini daha da genişləndirməyə çalışarkən, Ermənistan siyasi və iqtisadi siyasətində Rusiyaya üstünlük verərək bu prosesdən kənarda qalmağı seçməklə, Cənubi Qafqazın təhlükəsizliyinə açıq-aşkar maneə yaratmışdır. [5, s.147 ] Bütün ölkələr Rusiyanın təzyiqinin nəticələrini azaltmaq və öz milli suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumaq ehtiyacını görə bilər.

Gürcüstan-Rusiya münasibətləri çərçivəsində Rusiya öz milli maraqlarını təmin etmək üçün bütün üsullardan istifadə etmişdir. İstər separatçı qüvvələrin dəstəklənməsi, istərsə hərbi gücdən istifadə edərək təhdid metodlarının tətbiqi, istərsə də enerji təminatının dayandırılması Rusiyanın ən çox istifadə etdiyi təzyiq vasitələri olmuşdur. 2008-ci ilin avqustunda Gürcüstan-Rusiya müharibəsi regional geosiyasətə hədsiz dərəcədə təsir etdi, çünki region ölkələri Ru-

siyanın regiondakı ehtimal olunan maraqlarını nə qədər aşacağını və digər oyunçuların belə bir nəticənin qarşısını ala bilməyəcəyini anladılar. [6]

Silahlı münaqişələr hər dəfə minlərlə insanın həyatını məhv edir. Hərbi xərclər, silah ticarəti və silah istehsalı şübhəsiz ki, sülh və insan təhlükəsizliyi üçün ən böyük təhdidlərdən biridir. Sülhün olmaması insan hüquqlarının pozulmasına gətirib çıxarır. Silahların qanunsuz münaqişə zonasına ötürülməsi insan təhlükəsizliyi və beynəlxalq hüquq üçün təhdiddir. Cənubi Qafqazda insan təhlükəsizliyinə xarici təhdidlərdən biri regiondan kənar qüvvələrin region ölkələrinin silahlanmasında əsas donor rolunu oynamasından irəli gəlir. Hazırda iqtisadi imkanları məhdud olmasına baxmayaraq, Ermənistan silahlanmasını Rusiya tərəfindən silahların bağışlanması, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) üzvü olan ölkələrdən və digər müttəfiq ölkələrdən satınalmalar və erməni diasporunun dəstəyi ilə silah qaçaqmalçılığı hesabına həyata keçirir. Bunlar insan təhlükəsizliyinə birbaşa hədədir [3].

Rusiya qüvvələrinin Osetiyada mülki şəxslərə qarşı zorakılıq tətbiq etməsi və ya hədələməsi, həmçinin mülki əmlakın talan və məhv edilməsi ilə bağlı bir neçə aktlar törədilib. Bu aktlar beynəlxalq hüquqa görə qadağandır və silahlı münaqişədə mülki şəxslərin müdafiəsi ilə bağlı Dördüncü Cenevrə Konvensiyasının 33-cü maddəsini pozur. Soyğunçuluq Cenevrə Konvensiyalarının ciddi şəkildə pozulması və müharibə cinayətidir. Buna görə də Rusiya qüvvələri işğalçı dövlət kimi nəzarəti altında olan ərazidə mülki əhalinin təhlükəsizliyini təmin etmək öhdəliyini pozmuşdur. Bu, beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulmasıdır. Rusiya məsuliyyəti öz üzərinə götürdü, lakin edam edilən və ya işgəncələrə və pis rəftara məruz qalan, həmçinin bəzən Rusiyanın iştirakı ilə ləyaqəti alçaldan hərbi əsirlər adından nəzərəçarpacaq tədbirlər görmədi. Cenevrə Konvensiyasının kobud şəkildə pozulması, o cümlədən qəsdən adam öldürmə, işgəncə və qeyri-insani rəftar, qəsdən bədənə və ya sağlamlığa ciddi xəsarət yetirmə müharibə cinayətləri olmaqla yanaşı insan təhlükəsizliyinə birbaşa hədədir [10].

Rusiyanın regionda iştirakı onun Gürcüstandakı (Abxaziya və Cənubi Osetiya) separatçı hərəkatları dəstəkləməsi və Ermənistanla strateji müttəfiqliyi ilə insan təhlükəsizliyinə birbaşa zərər vuran qeyri-sabitliyə və münaqişələrə təkan vermişdir. Bu münaqişələrin nəticəsində əlli mindən artıq insan həyatını, on minlərlə insan sağlamlığını itirmiş, yüz minlərlə insan daimi yaşayış yerindən məhrum olaraq qaçqın, məcburi köçkün vəziyyətinə düşmüşdür. Baş verən bu hadisələr regionda insan təhlükəsizliyinə təhdid yaratmışdır [1].

İnsan təhlükəsizliyinə qarşı istiqamətlənən ən böyük təhdidlərdən biri regionun hərbiləşdirilməsidir. Xarici aktorların burada rolu əhəmiyyətlidir. Ermənistan son illərdə qanunsuz silahlanma tendensiyasını davam etdirir. Ermənistan Hindistan və Fransadan öldürücü silahlar almaqla regionda təxribat fəaliyyətini davam etdirir. Ermənistan tərəfinin bu cür hərəkətləri revanşizm aktı və onun irredentist xarici siyasətinin davamı kimi qiymətləndirilir. 2020-ci ildən Ermənistan bu ölkələrlə çoxsaylı müqavilələr imzalayıb. Bu yaxınlarda KİV-lər Fransa ilə Sezar haubitsalarının, Hindistanla isə ATAGS (Qabaqcıl Yedəkli Artilleriya Silah Sistemi) qaubitsalarının alınmasına dair razılaşma əldə etdiklərini bildirdilər. Məlumata görə, altı ATAGS sınaqdan keçirdikdən sonra Ermənistan 78 haubitsa sifariş edib və bəzi modifikasiyalar tələb edib. İki ölkə arasında artan bu münasibətlər onların Qarabağ və Kəşmir məsələlərində diplomatik və ideoloji yaxınlıqlarından qaynaqlanmışdır. Qarabağ məsələsində Pakistanın qatı dəstəyinə malik olan Azərbaycan uzun illərdir ki, Kəşmir məsələsində Pakistanın mövqeyini açıq şəkildə dəstəkləyir. Hindistan da öz növbəsində Ermənistana daha yaxın münasibət bəsləyir. Bu proseslər sülh danışıqlarına təsir edir. Hər hansı üçüncü ölkədən silah qəbulu aqressiv addımdır və Ermənistanın sülhə ciddi yanaşmadığını göstərir. Bundan əlavə, Fransa, Yunanıstan, ABŞ Hindistan və İranla oxşar addımlar atıb. Onların məqsədi Ermənistandan öz mənfəətləri üçün istifadə etmək, Azərbaycan və Türkiyəni sıxışdırmaq məqsədi daşıyan geosiyasi gündəmi irəli sürmək və Ermənistan vasitəsilə çəkindirici təsir yaratmaq kimi görünür. Fransa və Yunanıstan Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik mövqeyindədir. Beləliklə, bu ölkələr regionda insan təhlükəsizliyinin pozulmasında bilavasitə iştirak edirlər [4].

İki ölkə arasında artan bu münasibətlər onların Qarabağ və Kəşmir məsələlərində diplomatik və ideoloji yaxınlıqlarından qaynaqlanmışdır. Qarabağ məsələsində Pakistanın qatı dəstəyinə malik olan Azərbaycan uzun illərdir ki, Kəşmir məsələsində Pakistanın mövqeyini açıq şəkildə dəstəkləyir. Hindistan da öz növbəsində Ermənistana daha yaxın münasibət bəsləyir.

Narkotiklərə nəzarət üzrə regional əməkdaşlığın düzgün təşkili region ölkələrinin bu mühüm məsələdə iştirakından çox asılıdır. Kriminal cinayət qurumları haqqında informasiya mübadiləsi ölkələrarası əlaqələrin, əməkdaşlığın genişləndirilməsini tələb edir. Transmilli mütəşəkkil cinayətkar dəstələrin külli miqdarda qaçaq yolla narkotik vasitələrin daşınmasını aşağıda qeyd olunan marşrutlar üzrə həyata keçirmələri müəyyən edilib: İran İslam Respublikası - Azərbaycan Respublikası - Rusiya Federasiyası; İran İslam Respublikası - Azərbaycan Respublikası - Türkiyə Respublikası - Rusiya Federasiyası; İran İslam Respublikası - Azərbaycan Respublikası - Qazaxıstan - Rusiya Federasiyası - Qərbi Avropa; İran İslam Respublikası - Azərbaycan Respublikası - Gürcüstan-Ukrayna-Qərbi Avropa (Rusiya - Ukrayna müharibəsinə qədər. Aparılan araşdırmalarla müəyyən edilmişdir ki, Azərbaycan ərazisinə əsasən metamfetamin, metadon, heroin, kokain, qurudulmuş marixuana, həşiş, tiryək kimi ənənəvi narkotik vasitələr və psixotrop maddələr ixrac olunur və onların istehsal olunduğu ölkələr sırasında Əfqanıstan, İran üstünlük təşkil edir. Türkiyə və bir sıra Avropa ölkələrindən isə ekstazi, LSD və digər bu tip yeni nəsil psixotrop maddələr Azərbaycana qaçaqmalçılıq yolu ilə gətirilir [2].

Mütəşəkkil cinayətkarlığın artmasının ən mühüm təsiri Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyinin pozulmasıdır. Rusiya Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrini işğal etdiyi üçün Gürcüstan Rusiya ilə beynəlxalq səviyyədə tanınmış quru sərhədinin bir hissəsinə nəzarət etmir və buna görə də işğal olunmuş əraziləri ilə inzibati sərhəd xətləri boyunca təhlükəsizliyi təmin edə bilmir. İnsan alverinin qurbanlarının Gürcüstandan xaricə aparılması ilə törədilmiş insan alverinin bütün hallarında son təyinat məntəqəsi kimi İran İslam Respublikası iştirak edir [9].

İran əsas narahatlığı Bakının irəli sürdüyü "Zəngəzur dəhlizi" layihəsindən qaynaqlanır. Bu arada İran Ermənistana tranzit yolunun bağlanacağından ehtiyat edərək dəhlizə öz maraqlarına zidd kimi baxır. İranın Qafqazdakı siyasəti ilk növbədə öz təhlükəsizlik və iqtisadi mülahizələrinə əsaslanır.

Region dövlətləri daxili sosial və milli birliyin olmaması ilə, xarici müdaxilə və işğalla, bəziləri isə hər ikisi ilə mübarizə aparırdı. Milli dirçəliş zamanı bura separatizm, ekstremizm və terrorizm kimi bu çətin vəzifəni də əlavə etdi. Xarici qüvvələr bəzən nüfuz qazanmaq üçün ideoloji hərəkatları dəstəkləyirlər. Azərbaycan Sovet İttifaqından müstəqillik qazandıqdan sonra müxtəlif dini cərəyanlar üçün ən uyğun hədəfə çevrilmişdir. İrandan, ərəb dünyasından və Şimali Qafqazdan missionerlər və xeyriyyə təşkilatları ölkəyə öz ideologiyalarını yaymaq üçün gəlirdilər, bəzilərinin isə silahlı təşkilatlarla əlaqəsi olduğu iddia edilirdi. İran Azərbaycana qarşı Ermənistan və şiə vasitələrindən istifadə etmişdir. Hərbiləşdirilmiş şiə qüvvələrinin yerləşdirilməsinin ənənəvi alətinin bölgədə təsiri məhdud olub. İran özünün konkret regional maraqları çərçivəsində Ermənistanla əməkdaşlığa xüsusi əhəmiyyət göstərir. İran özünü islami dəyərlərin mühafizəçisi, qarşılıqlı etimada və hörmətə əsaslanan bərabərhüquqlu əməkdaşlığın tərəfdarı kimi göstərsə də, xarici siyasətində bəhs olunan dəyərlərdən kənar mövqe tutur. Müsəlmanlara qarşı dəfələrlə soyqırım aktı həyata keçirmiş Ermənistanın hərtərəfli surətdə dəstəklənməsi regionda insan təhlükəsizliyi üçün də ciddi təhdid mənbəyi kimi çıxış etmişdir. Buna baxmayaraq, Tehranın bu siyasəti kifayət qədər uğurlu olmamışdır. İran-Gürcüstan münasibətlərində Tehran siyasi və iqtisadi maraqlarla yanaşı, həm də ideoloji prizmadan çıxış etmişdir. Gürcüstanın Abxaziya, Acarıstan və Cənubi Osetiya vilayətlərindəki separatizm məsələsində İranın səssiz qalması əslində Rusiyanın maraqları ilə üst-üstə düşürdü [7, s.17]. Cənubi Qafqazda müharibənin formalaşdırdığı yeni geosiyasi düzən daha davamlı və dinc olacağını vəd etsə də, regional sülhə xələl gətirə və yeni silahlı eskalasiyalara səbəb ola biləcək saysız-hesabsız amillər var.

**Nəticə**

Cənubi Qafqazda dövlətlər arasında hərtərəfli sülhün olmaması bütövlükdə regionun təhlükəsizlik mühiti üçün ciddi fəsadlar yaradan amil olaraq qalmaqdadır. Cənubi Qafqazın sabitliyi onun geopolitik əhəmiyyəti, eləcə də çoxsaylı yerli əhali və trans-milli təhlükəsizlik çağırışları, məsələn: hərbiləşmə, narkotik alveri, insan alveri və qeyri-qanuni miqrasiya ilə təhlükə altındadır. Bu transmilli problemlərin miqyası əlaqələndirilmiş fəaliyyət tələb edir. Cənubi Qafqaz münaqişələr və regional güclərin rəqabət aparan maraqları ilə intensiv şəkildə bölündüyünə görə, region daha geniş transsərhəd əməkdaşlıqdan faydalanacaq. Bununla belə, regional əməkdaşlığın olmaması, iqtisadi inkişafa, təh-

lükəsizliyə mane olur və bölgədə sabitliyi daha da pozur. Xarici hərbi yardım və siyasi dəstək regional aktorları cəsarətləndirə, münaqişələri gücləndirə və daha çox insan itkisinə səbəb ola bilər. Eyni zamanda, xarici oyunçular arasında rəqabət sülh quruculuğuna vahid beynəlxalq yanaşmanın formalaşmasına mane ola və insan təhlükəsizliyi ilə bağlı problemləri həll olunmamış qoya bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Məmmədli, M. Cənubi Qafqazın təhlükəsizlik mühitinə çoxaspektli baxış, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Avqust, 2023, https://aircenter.az/uploads/qHG7u0WoPvyY.pdf*

*2. Narkotiklərin qanunsuz dövriyyəsi milli təhlükəsizliyə ciddi təhdiddir, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası, [Elektron resurs], https://www.nmdk.gov.az/page/post/3247/Narkotiklerin-qanunsuz-dovriyyesi-milli-tehlukesizliye-ciddi-tehdiddir*

*3. Ermənistanda "erməni namusu" nu qoruyan vahid - 102-ci rus hərbi bazası (araşdırma), [Elektron resurs], Ordu.az, 27 Sentyabr 2019, https://ordu.az/az/news/151870/ermenistanda--ermeni-namusu-nu-qoruyan-vahid-102-ci-rus-herbi-bazasi-arasdirma*

*4. Ashirov, Q. Armenia's rapid armament poses concerns for geopolitical balance in South Caucasus, 25 November, 2024, https://www.azernews.az/analysis/234358.html*

*5. Gvelesiani, L. Maintaining the security dilemma in the South Caucasus: Russıa's geostrategıc interests in Georgıa, Researchgate, H. Mölder, 2019, s.147 https://www.researchgate.net/publication/331399067_MAINTAINING_THE_SECURITY_DILEMMA_IN_THE_SOUTH_CAUCASUS_RUSSIA'S_GEOSTRATEGIC_INTERESTS_IN_GEORGIA*

*6. Neset, S. Aydin, M. Ergun, A. və b. Changing Geopolitics of the South Caucasus after the Second Karabakh War. Prospect for Regional Cooperation and/or Rivalry. Bergen: Chr. Michelsen Institute (CMI Report 2023:4), 2023, https://www.cmi.no/publications/8911-changing-geopolitics-of-the-south-caucasus-after-the-second-karabakh-war*

*7. Roubanis, I. Iran's Security Posture in the South Caucasus After the War in Ukraine, Central Asia-Caucasus Analyst, May, 2024, s.17*

*8. Tanriverdi, E. Security dynamics in the South Caucasus in light of Rsct: The unsettled conflict over Nagorno-Karabakhs. İzmir, 2019, p.4*

*9. General Prosecutor's Office of Georgia Human Rights Protection Department, ANALYSIS OF HUMAN TRAFFICKING CASES, 2023, https://pog.gov.ge/uploads/124143f0-Traficking-in-Human-Beings-2023-full-ENG.pdf*

*10. Georgia/Russia, Human Rights Watch's Report on the Conflict in South Ossetia, [Electronic resource], Human Rights Watch, 2009, https://casebook.icrc.org/case-study/georgiarussia-human-rights-watchs-report-conflict-south-ossetia*



**Aygun Gurbanova,**
***PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***


## EXTERNAL FACTORS IN THE IMPACT OF MILITARY CONFLICT ON HUMAN SECURITY IN THE REGION

**SUMMARY**


The geopolitical and geoeconomic significance of the South Caucasus, a region where the interests and contradictions of many powers intersect, along with its cultural, historical, demographic differences, and territorial claims defines the security environment of the region. The transition of ethno-political conflicts affecting all three republics of the Caucasus into active military operations has caused the states of the region to face serious political, economic, and social crises. The presence of many external actors with different interests and goals towards the countries of the region also turns the South Caucasus into an area of competition and confrontation, thereby complicating the solution of human security issues. The article conducts a conceptual analysis of the impact of military conflicts on human security in the states of the region, concluding that the choice of different strategic partners by the regional states in ensuring national interests and security, and their different approaches to resolving conflicts in the region create certain difficulties in establishing a complex security system and achieving lasting peace.

**Keywords:** *South Caucasus, military conflicts, human security, regional security, Azerbaijan, Armenia, Georgia.*

**Айгюн Гурбанова,**
***Аспирант Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

**ВНЕШНИЕ ФАКТОРЫ ВЛИЯНИЯ ВОЕННЫХ КОНФЛИКТОВ НА ЧЕЛОВЕЧЕСКУЮ БЕЗОПАСНОСТЬ В РЕГИОНЕ**

**РЕЗЮМЕ**

Геополитическое и геоэкономическое значение Южного Кавказа, где пересекаются интересы и противоречия многих держав, а также его культурные, исторические, демографические различия и территориальные претензии определяют среду безопасности региона. Переход этнополитических конфликтов, затрагивающих все три республики Кавказа, в активные военные действия привел к тому, что государства региона столкнулись с серьезными политическими, экономическими и социальными кризисами. Наличие множества внешних акторов с разными интересами и целями в отношении стран региона также превращает Южный Кавказ в зону конкуренции и противостояния, что усложняет решение вопросов человеческой безопасности. В статье проводится концептуальный анализ влияния военных конфликтов на человеческую безопасность в государствах региона. Делается вывод, что выбор государствами региона разных стратегических партнеров с целью обеспечения национальных интересов и безопасности, а также их разные подходы к разрешению конфликтов создают определенные трудности в формировании комплексной системы безопасности и достижении устойчивого мира.

**Ключевые слова:** *Южный Кавказ, военные конфликты, человеческая безопасность, региональная безопасность, Азербайджан, Армения, Грузия.*

**XÜLASƏ**

Bir çox qüvvələrin maraqlar və ziddiyyətlərinin birləşdiyi məkan olan Cənubi Qafqazın geosiyasi və geoiqtisadi əhəmiyyəti, mədəni, tarixi, demoqrafik fərqlilikləri, ərazi iddiaları regionun təhlükəsizlik mühitini müəyyənləşdirir. Qafqazın hər üç respublikasını əhatə edən etno-siyasi münaqişələrin aktiv hərbi əməliyyatlar mərhələsinə daxil olması region dövlətlərinin ciddi siyasi-iqtisadi, sosial böhranlarla üzləşməsinə səbəb olmuşdur. Cənubi Qafqazda regiondan kənar aktorların region ölkələrinə qarşı bir çox fərqli maraq və hədəflərinin olması da regionu rəqabət və qarşıdurma sahəsinə çevirir və bununla da insan təhlükəsizliyi üzrə problemlərin həllini çətinləşdirir. Məqalədə hərbi münaqişələrin region dövlətlərində insan təhlükəsizliyinə təsirinin konseptual təhlili aparılır ki, və belə qərara gəlmək olar ki, Cənubi Qafqazda region dövlətlərinin milli maraqların və təhlükəsizliyin təmin edilməsində fərqli strateji tərəfdaşların seçimi, bölgədəki münaqişələrin həllinə dair fərqli yanaşmaları kompleks təhlükəsizlik sistemini yaratmaqda və hərtərəfli sülhə nail olmaqda müəyyən çətinliklər yaradır.

**Açar sözlər:** *Cənubi Qafqaz, hərbi münaqişələr, insan təhlükəsizliyi, regional təhlükəsizlik, Azərbaycan, Ermənistan, Gürcüstan.*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.024

# MONGOLIA'S POSITION BETWEEN TWO GLOBAL POWERS: RUSSIA AND CHINA

**MAJNUN HASANOV**
*University of Economics and Human Sciences in Warsaw*
*Master's student in International Relations and Security*

*E-mail: majnun.hasanov@mail.ru*

## Introduction

When we say Mongolia, Genghis Khan (Temuchin) comes to mind first. The Mongol Empire, which once spread over ¼ of the world, covered 24 million sq. Km. Which is the second largest historical state in terms of area after the British Empire (35.5 million sq. Km), which once had the largest territory in world history, and was called the "empire on which the sun never sets". The territory of the state at various times covered the territory of the present-day states of Mongolia, China, Russia, Kazakhstan, Kyrgyzstan, Uzbekistan, Turkmenistan, Tajikistan, Turkey, Azerbaijan, Georgia, Armenia, Iran, Afghanistan, Pakistan, Poland, Hungary, and the Czech Republic.

In our modern era, the only heir to this entire empire, present-day Mongolia, is approximately 15 times smaller than its predecessor and is currently the 18th largest state in the world by area.

If we look at today's world, we easily discover that it is a world made up of small states," that is what Daniel Thurer points out while emphasising on the myth and reality of small states. But in terms of defining such states basically three key factors are taken into consideration, i.e., a country's geographical size, population size and its degree of influence on international affairs [6, p. 27].

If we look at the political map of the world, we can clearly see that Mongolia, located in northeastern Asia, is sandwiched between two potential modern great powers of the world, the People's Republic of China and the Russian Federation.

This article will systematically analyze the historical and political reasons for Mongolia's isolation from world politics and examine the main factors that played a role in the emergence of this phenomenon.

## Main part

Mongolia's current geopolitical political position is indeed an outlier. Physically sandwiched between the two great powers of Russia and China, it struggles to define its own geopolitical position on the world stage, as one Mongolian official describes their country as "a hybrid of Central and East Asia" [3, p. 77].

Mongolia, with an area of approximately 16 million square kilometers and a population of 3 million, is often thought of as a buffer zone between the two largest countries of the Eurasian continent (Russia and China) for geographical, historical and political reasons. Mongolia cooperates only with Russia and China in many areas. However, when many people look at the political map of the world, they think that Mongolia has a small border with Kazakhstan. Everyone is interested in why Mongolia does not cooperate with Kazakhstan, one of the largest countries in Central Asia? If we look carefully at the map, we will see that due to the natural border factor, China has a northwestern border with Kazakhstan, and this 37 km land area located between Kazakhstan and Mongolia has prevented these two countries from being neighbors with each other. At the same time, since Mongolia is geographically landlocked, it has based its main foreign policy in the region on a balanced approach towards Russia and China. Having a weak economy and population compared to its neighbors has led it to accept its fate. Another factor to consider is history of the trilateral relationship.

Historically, Mongolia's ties with China have been closer than those with Russia. Russia appears on the Mongol horizon in the early and later medieval period and of course it has been very prominently there from the beginning of this century. However, direct contact and interaction with sedentary China go back to ancient times. The relationship with Russia started from the seventeenth century.Mongolia was re-established, when the Qing dynasty disintegrated and was overthrown in 1911. In the same year "Independent Mongolia' was instituted under the leadership of Bogdo Jebzundamba Khutugtu, the Living Buddha. Later the government of Mongolia announced its independence and establishment of Mongolian state to the nine big powers of that time, namely, the UK, France, Germany, USA, Japan, Denmark, Hol1and, Belgium and Austria. For various reasons they did

not extend recognition to Mongolia. Only Tibet established bilateral relationship and signed a treaty with “state of Mongolia’ in 1913 [9].

But Mongolia’s two neighbors, the Tsarist Russia and the newly formed Republic of China, did not willingly give up their claims on Mongolia. From this time on, both neighbors had different positions on the Mongolian independence issue. Russian interest in Mongolia was to create a buffer zone between China and themselves [9]. In the first quarter of the 20th century, with the October Revolution of 1917, the overthrow of the Tsarist government, the new government that came to power already made changes in Russian policy. This was because Russia, which had been defeated in the First World War and had lost territories, decided to support Mongolia, which was trying to officially declare its independence in the region.

In 1921, as a result of the national democratic revolution, national independence restored the initial independence of Mongolia, after which it implemented radical revolutions transforming its society and bringing it under significant influence of the Comintern and Soviet Russia, effectively becoming a “satellite” of the USSR. Thus, a small nomadic country came to be dependent on its two giant neighbours [5, p. 10]. An interesting case combining elements of these two models of socialist transformation is that of Mongolia, formerly the Mongolian People’s Republic. For 70 years a client state of the Soviet Union, Mongolia was sometimes known as the unofficial “sixteenth republic” of the USSR [7, p. 459]. A year after the establishment of the Marxist-Soviet regime in Urga, embassies were opened in Ulaanbaatar and Moscow respectively.

In May 1924 the Soviet Union recognized China’s “full sovereignty” over outer Mongolia. However, a month later, following the death of the Jebtsundamba Khutukhtu, Mongolia declared its independence as the Mongolian People’s Republic (MPR) [ 2, p. 176].

Despite these foreign policy successes, these were treacherous times when political and religious ideologies clashed, carrying out repressions, as was the case in other socialist states that the USSR had subordinated in the 1930s and 1940s. Even during the rocky period of the 1930s and ’40s, Mongolia and Russia — to be precise, the Russian Soviet Federative Socialist Republic — cooperated in a number of historical watershed moments. One of the most recognized examples is the Battle of the Khalkhiin Gol, where the MPR and USSR armies fought the Imperial Army of Japan and the Japanese puppet-state of Manchukuo from May to September 1939. This series of Battle was a prelude to World War II, coming just before Germany’s invasion of Polans [10].

After the Second World War, new realities emerged for Mongolia in the context of international relations. Thus, the state voted for independence in a referendum held in 1945. With the recognition of this referendum in China, territorial claims and hostility against Mongolia disappeared, and the ice between Mongolia and China began to melt.However, this independence did not last long, and Mongolia continued to remain under Soviet influence based on the agreements signed with the USSR. As a result, every field, from the military to the economy, is exposed to soviet influence and ideology.

In February 1946, the two states signed an agreement “On Friendship and Mutual Assistance”. According to the agreement, the parties committed themselves that if one of them is attacked, the other will “provide all kinds of assistance, including military assistance.” In fact, it was nothing more than a legal justification of the transformation of the MNR into a military base of the Soviets. In the following periods, a number of contracts and agreements were signed. Among them, the trade agreement of 1957, the agreement on scientific and technical cooperation of 1966 and the agreement “On friendship, cooperation and mutual assistance” can be mentioned. Those agreements completed the establishment of Soviet control over all spheres of the life of the MNR became completely dependent on the Soviet Union [4, p. 116-117]. After World War II, Mongolia began new relations with the Soviet Union and the People’s Republic of China. After China, based on Soviet ideology, abandoned its territorial claims against Mongolia in 1945, Mongolian-Chinese relations developed on an increasing basis. After the establishment of the People’s Republic of China, it established diplomatic relations with the People’s Republic of China. In 1952, they signed an agreement on economic and cultural cooperation. In 1960, the Treaty on Friendship and Cooperation was signed. The last document covered wider areas of relations between the two states [4, p. 117]. Mongolia, maintaining its presence in such a sensitive

region, became a member of the United Nations in 1961, thereby gaining an important political and diplomatic advantage. Thus, Mongolia sought to establish diplomatic relations with capitalist countries in this way, and even if it had the power to influence international political processes in the region, it was trying to assert its presence in the field of international relations. After that, the process of recognition of the MNR by major countries began. From the recognition of Great Britain in 1963 to 1983, the number of countries that established diplomatic relations with it increased significantly. In that year, MNR already had diplomatic relations with 92 countries, about 20 of which were developed countries. Finally, in 1987, the United States also established diplomatic relations with Mongolia.

The weakening of Russian positions in Mongolia began with the Mongolian democratic revolution of the winter of 1989/1990. It continued until December 1992, when the last detachment of Soviet soldiers crossed the Russian-Mongolian border [8].

During the cold war period Soviet penetration in Mongolia represented the first instance of extension of Soviet indirect control over a neighbouring non-Russian area. China, on the other hand, failed to make its Soviet like presence in Mongolia and the Mongolian leadership remained obedient to Soviet dictum. Mongolia willingly or unwillingly always stood firmly on the side of the Russians during the years of the Sino-Soviet confrontation. That is to say, for almost 70 years Mongolia remained dependent on the former Soviet Union in its internal and external affairs, thus affecting its sovereign and independence status. This, in turn, also affected its cultural, political and regional identity [6, p. 30].

Mongolia, which has faced the challenges of history, has passed and is still passing a number of challenges in the 21st century. One of these is the Shanghai Cooperation Organization.

The Shanghai Cooperation Organization (SCO) was formed in 2001 as a challenge to new changes occuring on vast Eurasian space after collapse of the socialist system and the Soviet Union. The end of the Cold War, the emergence of the new intemational order, the normalization of Chinese-Russian relations, the rise of terrorism, and other circumstances created the need for search of mutual understanding between the states of the Eurasian continent, creation of new structures for dialogue on issues of regional cooperation, global challenges of world politics and international relations [1, p. 321].

Mongolia is not an official member of the SCO, but has observer status in the organization. Mongolia has been participating in the SCO's activities as an observer since 2004 and has certain cooperative relations with the organization.Mongolia prefers to pursue a neutral policy in the international arena. It seeks to maintain a balance, especially between its large neighbors, Russia and China. Although Mongolia wants to participate in regional security and economic integration, full membership could place it under greater strategic obligations. Becoming a member of the SCO means that Mongolia will have to take a more active role in the organization's security issues, military cooperation, and regional policies. Moving to full membership may seem more risky for Mongolia than its benefits. By remaining an observer, Mongolia both participates in the SCO's activities and maintains the ability to cooperate independently with other international and regional organizations. This makes its foreign policy more flexible.

In 2017, the SCO accepted as full members 2 observer-states-India and Pakistan. Many experts believe that Mongolia is a real candidate for full membership in the SCO. It must be said that there are both external and internal circumstances. Mongolian society has not yet reached a consensus on this issue. Among the Mongolian politicians, scholars, experts, there are differing approaches to this issue. Some believe it's time for Mongolia to become a full member of the SCO. Others expressed a view that we need to wait; it's not yet the time or that we need to wait for the right moment to address this issue [1, p. 323].

## REFERENCES:


*1. A.Dulbaa. Interconnectivity in the Region of Eurasia: Mongolia's Presence in the SCO (Shanghai Cooperation Organization), Intermational Relations and Diplomacy, June 2018. Vol. 6, No. 6, 319-324 p.*

*2. E. Hyer. The "Great Game": Mongolia Between Russia and China,Altaic Affinities Proceedings of the 40th meeting of the permanent International Altaistic Conference (PIAC) PROVO, UTAH (1997), 172-182 p.*

*3. J.Irgengioro. Mongolia-Central Asia relations*

*and the implications of the rise of China on its future evolution, 2022, 76-106 p.*

*4. R. İsmayil, N. Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000-ci illər) (Uzaq, Cənub-şərqi, Cənubi və Mərkəzi Asiya ölkələri). Bakı: Çaşıoğlu, 2001.-400s.*

*5. S. Yigit. Mongolia's Historic Relations with its Largest Neighbour: Russia, Electronic Journal of Social and Strategic Studies Volume 2/Special Issue IV, August 2021, 9-31 p.*

*6. Shard K. Soni. The Geopolitical Dilemma of Small States in External Relations: Mongolia's Tryst with 'Immediate' and 'Third' Neighbours, 27-44 p.*

*7. T. Ginsburg. Between Russia and China: Political Reform in Mongolia, Vol XXXV, No. 5, 1995, 459-471 p.*

*8. https://regard-est.com/mongolia-russia-china-the-little-horse-between-the-bear-and-the-dragon*

*9. https://www.smhric.org/SMW_16.htm*

*10. https://thediplomat.com/2021/12/mongolia-russia-ties-at-100/*

*11. https://youtu.be/ao-ctcSyQtw?si=-PosKRwWUHXSVzRv*

## SUMMARY

"Mongolia's Position Between Two Global Powers: Russia and China" provides an in-depth analysis of Mongolia's geopolitical and historical context as a landlocked nation situated between Russia and China, two of the world's leading powers. The study explores the complex interplay of historical legacies, economic dependencies, and diplomatic strategies that shape Mongolia's position on the global stage. Mongolia serves as a strategic buffer state between Russia and China. Its geopolitical position, limited economic capacity, and small population have necessitated a balanced foreign policy approach. Historically, Mongolia maintained close ties with China, with relations dating back to ancient times, whereas Russian influence emerged prominently in the 17th century. However, during the Soviet era, Mongolia became a satellite state of the USSR, profoundly shaping its political, cultural, and economic frameworks for nearly 70 years. The collapse of the Soviet Union in 1991 marked a turning point, as Mongolia sought to redefine its international relations and achieve greater autonomy. By the late 20th century, it had diversified its diplomatic engagements, establishing relations with major powers, including the United States. Despite these efforts, Mongolia continues to face challenges stemming from its dependency on its two powerful neighbors. A significant focus of the study is Mongolia's participation in the Shanghai Cooperation Organization (SCO), where it has maintained observer status since 2004. This status allows Mongolia to engage in regional cooperation while avoiding the strategic obligations that full membership would entail. The country's cautious approach to the SCO exemplifies its broader strategy of neutrality and flexibility in navigating regional and global politics. In conclusion, the paper underscores Mongolia's delicate balancing act as it seeks to maintain sovereignty and foster diplomatic relationships while mitigating the pressures exerted by its geographical and historical realities. Mongolia's strategic neutrality, particularly its position within the SCO, illustrates its nuanced approach to international relations in the 21st century.

**Keywords:** *Russia and China, Mongolia, great powers, USSR, buffer zone, United Nations (UN), Shanghai Cooperation Organization (SCO).*

**Məcnun Həsənov**
***Varşava İqtisadiyyat və Humanitar Elmlər Universiteti***
***Beynəlxalq Münasibətlər və Təhlükəsizlik ixtisası üzrə magistrant***

## XÜLASƏ

"Monqolustanın İki Qlobal Güc Arasındakı Mövqeyi: Rusiya və Çin, dünyanın iki aparıcı gücü olan Rusiya və Çin arasında yerləşən dənizə çıxışı olmayan bir dövlət kimi Monqolustanın geosiyasi və tarixi kontekstinin dərin təhlilini təqdim edir. Tədqiqat Monqolustanın qlobal səhnədəki mövqeyini formalaşdıran tarixi irslərin, iqtisadi asılılıqların və diplomatik strategiyaların mürəkkəb qarşılıqlı təsirini araşdırır. Monqolustan Rusiya və Çin arasında strateji bufer dövlət rolunu oynayır. Onun geosiyasi mövqeyi, məhdud iqtisadi imkanları və kiçik əhalisi balanslaşdırılmış xarici siyasət yanaşmasını zəruri edib. Tarixən Monqolustan Çinlə sıx əlaqələr saxlayırdı, münasibətləri qədim dövrlərə gedib çıxır, halbuki Rusiya təsiri 17-ci əsrdə qabarıq şəkildə ortaya çıxıb. Bununla belə, Sovet dövründə Monqolustan SSRİ-nin peyk dövlətinə çevrilərək, təx-

minən 70 il ərzində siyasi, mədəni və iqtisadi çərçivələrini dərindən formalaşdırdı. 1991-ci ildə Sovet İttifaqının dağılması Monqolustan beynəlxalq münasibətlərini yenidən müəyyənləşdirməyə və daha böyük muxtariyyət əldə etməyə çalışdığı üçün dönüş nöqtəsi oldu. 20-ci əsrin sonlarında o, ABŞ daxil olmaqla, böyük güclərlə əlaqələr quraraq diplomatik əlaqələrini şaxələndirdi. Bu səylərə baxmayaraq, Monqolustan iki güclü qonşusundan asılılığından irəli gələn problemlərlə üzləşməyə davam edir. Tədqiqatın mühüm diqqət mərkəzində Monqolustanın 2004-cü ildən müşahidəçi statusunu saxladığı Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) iştirakıdır. Bu status Monqolustana regional əməkdaşlığa imkan verir, eyni zamanda tamhüquqlu üzvlüyün gətirəcəyi strateji öhdəliklərdən qaçır. Ölkənin ŞƏT-ə ehtiyatlı yanaşması onun daha geniş neytrallıq strategiyasını və regional və qlobal siyasətdə çevikliyi nümayiş etdirir. Sonda məqalə Monqolustanın coğrafi və tarixi reallıqlarının yaratdığı təzyiqləri yumşaltmaqla yanaşı, suverenliyini qoruyub saxlamağa və diplomatik münasibətləri inkişaf etdirməyə çalışdığı üçün onun incə balanslaşdırma aktını vurğulayır. Monqolustanın strateji neytrallığı, xüsusən də ŞƏT daxilindəki mövqeyi onun 21-ci əsrdə beynəlxalq münasibətlərə nüanslı yanaşmasını nümayiş etdirir.

**Açar sözlər:** *Rusiya və Çin, Monqolustan, böyük güclər, SSRİ, bufer zona, Birləşmiş Millətlər Təşkilatı (BMT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT).*

**Меджнун Гасанов**
***Университет Экономики и Гуманитарных Наук в Варшаве.***
***Студент магистратуры по Международным Отношениям и Безопасности***

## РЕЗЮМЕ

«Положение Монголии между двумя мировыми державами: Россией и Китаем» дает глубокий анализ геополитического и исторического контекста Монголии как страны, не имеющей выхода к морю, расположенной между Россией и Китаем, двумя ведущими мировыми державами. Исследование исследует сложное взаимодействие исторического наследия, экономической зависимости и дипломатических стратегий, которые формируют положение Монголии на мировой арене. Монголия служит стратегическим буферным государством между Россией и Китаем. Ее геополитическое положение, ограниченный экономический потенциал и небольшая численность населения потребовали сбалансированного подхода к внешней политике. Исторически Монголия поддерживала тесные связи с Китаем, причем отношения восходят к древним временам, тогда как российское влияние проявилось заметно в 17 веке. Однако в советское время Монголия стала государством-сателлитом СССР, глубоко формируя его политические, культурные и экономические рамки на протяжении почти 70 лет. Распад Советского Союза в 1991 году ознаменовал поворотный момент, поскольку Монголия стремилась пересмотреть свои международные отношения и добиться большей автономии. К концу 20-го века она диверсифицировала свои дипломатические обязательства, установив отношения с крупными державами, включая Соединенные Штаты. Несмотря на эти усилия, Монголия продолжает сталкиваться с проблемами, вытекающими из ее зависимости от двух ее могущественных соседей. Значительное внимание в исследовании уделяется участию Монголии в Шанхайской организации сотрудничества (ШОС), где она сохраняет статус наблюдателя с 2004 года. Этот статус позволяет Монголии участвовать в региональном сотрудничестве, избегая стратегических обязательств, которые повлекло бы за собой полное членство. Осторожный подход страны к ШОС иллюстрирует ее более широкую стратегию нейтралитета и гибкости в навигации по региональной и глобальной политике. В заключение в статье подчеркивается деликатный баланс Монголии, поскольку она стремится сохранить суверенитет и способствовать дипломатическим отношениям, одновременно смягчая давление, оказываемое ее географическими и историческими реалиями. Стратегический нейтралитет Монголии, особенно ее положение в ШОС, иллюстрирует ее тонкий подход к международным отношениям в 21-м веке.

**Ключевые слова:** *Россия и Китай, Монголия, великие державы, СССР, буферная зона, Организация Объединенных Наций (ООН), Шанхайская Организация Сотрудничества (ШОС).*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.026

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ GÜC MƏRKƏZLƏRİNİN YENİDƏN PAYLAŞILMASI: ÇOXQÜTBLÜ DÜNYAYA DOĞRU?

**ELGÜN TAĞIZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: ElgunTaghizadeh@gmail.com*
*ORCID ID: 0000-0002-0514-7808*

## GİRİŞ

Dünya tarix boyu fərqli güc mərkəzləri görmüşdür. Qədim dünyada Misir, Mesopotamiya (Assuriya, Babilistan, Het) və Hind vadisi (Harappa, Mohenco-Daro) kimi sivilizasiyalar öz zəngin mədəni irsləri və güclü təsirləri ilə fərqlənmişdir. Orta əsrlərdə və erkən müasir dövrdə Bizans İmperiyası, Səlcuqlar, Osmanlı İmperiyası və Habsburq Xanədanlığı kimi dövlətlər geniş ərazilərə nəzarət etmiş və regional güc mərkəzləri kimi çıxış etmişdir [11]. Müasir dövrdə isə Sovetlər Birliyi, Britaniya İmperiyası və ABŞ qlobal səviyyədə güc tarazlığına təsir edən əsas aktorlar olmuşdur.

Bu tarixi inkişaf xətti beynəlxalq münasibətlər sisteminin daim dəyişən dinamikasını əks etdirir. İkinci Dünya müharibəsindən (İDM) sonra formalaşan ikiqütblü dünya düzəni "Soyuq müharibə"nin sona çatması ilə yerini qısamüddətli birqütblü sistemə buraxdı[18]. Lakin XXI əsrin başlanğıcından etibarən ABŞ-nin qlobal hegemoniyası zəifləməyə başlamış, yeni regional güc mərkəzləri (Çin, Rusiya, Hindistan və Avropa İttifaqı kimi aktorlar) beynəlxalq sistemdə öz mövqelərini gücləndirmişdir.

Son illərdə qlobal gücün paylaşılması prosesi daha da sürətlənmişdir. Artıq beynəlxalq münasibətlər səhnəsində ABŞ-dan başqa Çin, Rusiya, Avropa İttifaqı, Hindistan və digər regional güclər də təsir imkanlarını genişləndirir. Bu proses beynəlxalq təhlükəsizlik, iqtisadi əlaqələr və siyasi ittifaqların yenidən formalaşması kimi proseslərə birbaşa təsir edir. Ənənəvi hegemon güclərin dominant mövqeyini itirməsi ilə yanaşı, Çinin iqtisadi gücünün yüksəlişi, Rusiyanın hərbi və enerji siyasəti, Hindistanın inkişaf edən rolu və Avropa İttifaqının strateji inteqrasiyası yeni dünya nizamının konturlarını formalaşdırır [4].

**Qlobal Güc Balansı: Təkqütblülükdən Çoxqütblülüyə Keçid?.** Beynəlxalq münasibətlər sistemində təkqütblü, ikiqütblü və çoxqütblü strukturlar öz aralarında bir sıra fərqli meyarlara əsaslanır. Bu meyarlar, dövlətlərarası güc balansı, aktorların sayı və təsiri baxımından fərqli xüsusiyyətlərə malikdir və eyni zamanda tarixi dövrlər üzrə dəyişikliklər göstərmişdir. Məsələn, təkqütblü dünya sistemində bir dövlət və ya aktor beynəlxalq sistemdə əsas güc olur və bu gücü, dinamikaları istifadə edərək beynəlxalq sistemin yeganə hakimi olur [6, s.97-98]. Bu sistemin ən bariz nümunəsi olaraq "soyuq müharibə"dən sonra ABŞ-nin dominant güc kimi formalaşdığı dövr göstərilə bilər. Təkqütblü sistemdə güc əsasən mərkəzləşmiş olur və digər aktorların təsir imkanları məhdudlaşır. Lakin belə bir sistemin əsas zəif tərəfi, gücün tək bir aktorun ətrafında cəmlənməsi nəticəsində yaranan qeyri-sabitlik riskləridir. Bunun əksinə olaraq, ikiqütblü sistemdə beynəlxalq münasibətlər iki əsas aktorun ətrafında formalaşır və güc balansı bu iki aktor arasında nisbətən sabit şəkildə bölünür. "Soyuq müharibə"də ABŞ-SSRİ rəqabəti buna nümunədir; bu sistemdə digər dövlətlər əsasən iki dominant gücün təsiri altında hərəkət edir və onların maraqlarına uyğunlaşmağa məcbur qalır. Çoxqütblü sistem isə daha mürəkkəb bir struktur təqdim edir, çünki burada güc müxtəlif aktorlar arasında bölünmüşdür. Bu aktorlar dövlətlərdən ibarət olmaqla yanaşı, beynəlxalq təşkilatlar, transmilli şirkətlər və digər qeyri-dövlət aktorlarını da əhatə edə bilər. Belə bir sistemdə güc balansı dinamik və dəyişkən olur, bu da sistemin daha az sabit və daha çox rəqabətə meyilli olmasına səbəb ola bilər. Tarixi olaraq çoxqütblü sistem XIX əsrin Avropa beynəlxalq münasibətləri ilə əlaqələndirilir.

Hər üç strukturun özünəməxsus üstünlükləri və zəif tərəfləri olsa da, onların təsir gücü və dayanıqlılığı, mövcud dövrün siyasi, iqtisadi və texnoloji kontekstindən asılı olaraq dəyişə bilər. Buna görə də beynəlxalq münasibətlərdə güc strukturunun qiymətləndirilməsi daim dinamik və kompleks bir yanaşma tələb edir. Eyni zamanda sual edilir ki, bu qütblərin bir, iki, yaxud çox olması hansı göstəricilərə əsasən müəyyənləşir?. Bu əsasda verilən datalara görə dövlət-dövlətlər digər aktorlardan müəyyən üstünlüklərə sahib ola bilər, ancaq bu göstəricilərin qiymətləndirilməsi və şərh olunmasında vahid bir yanaşmanın olmadığı xüsusilə vurğulanmalıdır. Lakin ÜDM dövlətin iqtisadi gücünü ölçmək üçün əsas metrik hesab olunur. Çünki ÜDM iqtisadi fəaliyyətin ümumi həcmini, istehsal qabiliyyətini və dövlətin qlobal bazarlardakı mövqeyini əks etdirir. Yüksək ÜDM dövlətə resurslarını daha effektiv idarə etməyə, infrastruktur qurmağa, beynəlxalq təsir gücünü artır-

mağa və oxşar imkanları əldə etməyə şərait yaradır. Fəqət, ÜDM-in əsas çatışmazlığı ondan ibarətdir ki, o, gəlirlərin bölgüsünü, rifah səviyyəsini və ya vətəndaşların real alıcılıq qabiliyyətini əhatə etmir. Buna baxmayaraq, ÜDM qlobal səviyyədə dövlətlərarası güc müqayisəsi üçün geniş istifadə olunan ən obyektiv göstəricilərdən biridir. Bu məntiqlə dünya qütblərini sorğulasaq, 1990-cı illərin sonu 2000-ci illərin əvvəli bir çox elm adamlarına görə ABŞ-nin təkqütblü sistemdə təkbaşına qlobal güc olduğu dövrdür [19]. Bu istiqamətdə qlobal iqtisadi metrik olan ÜDM metriki üzərindən örnək göstərib analiz edə bilərik. Belə ki, 1990-cı ildən başlayaraq 2022-ci ilə qədərki periodda (5 illik dövr ilə, istisna olaraq 2020-ci ildən sonra 2022) dövlətlərin (ilk 12) ÜDM-nin qlobal ÜDM-dəki payı (QÜDÜP) hesablanmışdır (Diaqram 1., Cədvəl 1.) [2].




**Diaqram 1. [2]**

**Cədvəl 1. Dövlət ÜDM-sinin Qlobal ÜDM-də Payı (Faizlə) - QÜDÜP**

| İllər | Digər ölkələr | ABŞ | YPN | ALM | FRA | İTA | İNG | KAN | İSP | RUS | BRA | Çin | HND |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1990** | 24,70 | 26,15 | 13,60 | 7,76 | 5,57 | 5,18 | 4,79 | 2,61 | 2,35 | 2,26 | 2,04 | 1,58 | 1,40 |
| **1995** | 24,75 | 24,60 | 17,86 | 8,32 | 5,15 | 3,78 | 4,33 | 1,95 | 1,98 | 1,27 | 2,48 | 2,36 | 1,16 |
| **2000** | 25,36 | 30,18 | 14,70 | 5,76 | 4,04 | 3,39 | 4,93 | 2,20 | 1,77 | 0,77 | 1,94 | 3,58 | 1,38 |
| **2005** | 27,89 | 27,28 | 10,04 | 5,95 | 4,59 | 4,10 | 5,32 | 2,45 | 2,41 | 1,60 | 1,86 | 4,78 | 1,72 |
| **2010** | 30,91 | 22,59 | 8,65 | 5,10 | 3,97 | 3,21 | 3,74 | 2,43 | 2,14 | 2,29 | 3,32 | 9,14 | 2,52 |
| **2015** | 30,46 | 24,21 | 5,91 | 4,46 | 3,24 | 2,44 | 3,90 | 2,07 | 1,59 | 1,81 | 2,40 | 14,71 | 2,80 |
| **2020** | 29,01 | 24,72 | 5,92 | 4,56 | 3,10 | 2,23 | 3,17 | 1,93 | 1,50 | 1,75 | 1,73 | 17,24 | 3,13 |
| **2022** | 29,68 | 25,34 | 4,21 | 4,05 | 2,77 | 2,00 | 3,05 | 2,13 | 1,39 | 2,23 | 1,91 | 17,87 | 3,37 |

**Ölkələrin abreviaturası:** *ABŞ - Amerika Birləşmiş Ştatları, Yaponiya – YPN, Almaniya – ALM, Fransa – FRA, İtaliya – İTA, İngiltərə - İNG, Kanada – KAN, İspaniya – İSP, Rusiya – RUS, Braziliya – BRA, ÇİN – Çin, Hindistan – HND [2].*

Buradan əldə etdiyimiz nəticələri ümumiləşdirə bilərik. Öncəliklə datalarda ABŞ-ın qlobal ÜDM-yə olan nisbəti demək olar ki, oxşar aralıqda seyr edir (ortalama 25,63%). Bu əsasda ABŞ-nin 1990-cı illərdən 2000-ci illərin sonlarına kimi qlobal hegemoniyaya sahib olduğunu deyiriksə, ABŞ-nin 1990-cı il (26,15%) 2022-ci ildəki (25,34%) qlobal ÜDM-dəki payının eyni seyr etməsi aspektindən yenə də ABŞ-ın hegemoniyasının davam etdiyini deyə bilərik [13]. Fəqət 1990-cı ildə ABŞ-nin ən yaxın rəqibi olan Yaponiyanın QÜDÜP-ü 13,60%, ikinci ən böyük QÜDÜP-ə sahib olan Almaniya ilə birlikdə bu rəqəm 21,36% olmuşdur və burada ABŞ ilə bu iki ölkə arasında QÜDÜP yaxındır (25,34% - 21,36%). Eyni zamanda, ABŞ-nin müttəfiqləri olan İngiltərə, Kanada və digər dövlətlərin birgə QÜDÜP-i 42%-ə bərabərdir. Bu əsasda ABŞ-nin tək qütb olması hər iki dövlətin ABŞ-nin müttəfiqi olması ilə bağlıdır deyə bilərik [17]. Bu məntiqi, QÜDÜP göstəricilərində 2015-ci ilə qədərki dövr ərzində görmək mümkündür. 2015-ci ildən sonrakı dövrdə isə ABŞ-nin müttəfiqlərinin QÜDÜP payının azaldığını, xüsusilə Çin başda olmaqla ABŞ-ın rəqibi olan dövlətlərin QÜDÜP payının artdığını müşahidə edirik[14]. Bu kontekstdə, ABŞ-ın təkqütblü sistemin tək qütbü olaraq deyil, ikiqütblü və ya çoxqütblü sistemin bir qütbü kimi qəbul edilməsi ideyaları populyarlaşmışdır. Fəqət, ittifaq sistemi kimi qiymətləndirməsək ABŞ-a statistik olaraq ən yaxın dövlət Çindir və bu əsasda digər ölkələrlə arada uçurumun olması hazırkı sistemin ikiqütblü olduğunu deməyə əsas verir [7]. İttifaq sistemi kimi qiymətləndirildiyi zaman isə, təbii ki, qərb bloku mütləq üstünlük əldə edir deyə bilərik, ancaq bu status-kvonun belə qalacağı demək deyil.

Çoxqütblü dünya düzəni, bir tərəfdən, rəqabəti artıraraq münaqişə risklərini yüksəltsə də, digər tərəfdən daha balanslı güc strukturunun təmin olunması üçün yeni imkanlar da yaradır. Bu keçid, təkcə güc balansında deyil, həm də qlobal idarəetmə mexanizmlərində yeni yanaşmaların meydana çıxmasını şərtləndirmişdir. Çünki çoxqütblülük, sadəcə güc mərkəzlərinin sayının artması deyil, eyni zamanda onların qarşılıqlı asılılığını və mürəkkəb münasibətlər sistemini də əhatə edir.

**Güc mərkəzlərinin paylanması parametləri.** Sual yaranır: Güc mərkəzlərinin yenidən paylaşılması prosesinin baş verdiyini hansı məlumatlar və göstəricilər əsasında təsdiq etmək mümkündür? Bu prosesi müəyyənləşdirmək üçün bir neçə əsas amil və mexanizm nəzərə alınmalıdır. Aşağıdakı struktur bu prosesi sistematik və hərtərəfli şəkildə təhlil etməyə imkan verir:

• İqtisadi gücün yenidən paylaşılması: 1. Yeni iqtisadi güclərin yüksəlişi: Çinin iqtisadi inkişafı,

Hindistanın sürətli yüksəlişi və digər inkişaf etməkdə olan ölkələrin qlobal iqtisadiyyatda artan payları beynəlxalq güc tarazlığını əhəmiyyətli dərəcədə dəyişdirir [20].

2. Resursların yenidən bölüşdürülməsi: Enerji resurslarına nəzarət, güc paylaşımında əsas faktorlardan biri olaraq qalır. Rusiya və Səudiyyə Ərəbistanı kimi enerji ixracatçısı olan ölkələr neft və qaz ehtiyatlarından strateji təsir aləti kimi istifadə edirlər.

3.Ticarət və istehsalat şəbəkələri: Qlobal istehsalatın yeni regionlara köçməsi və ticarət axınlarının dəyişməsi nəticəsində müəyyən ölkələr iqtisadi güc mərkəzinə çevrilir.

• Hərbi güc və texnoloji yenilənmə: 1. Hərbi modernləşmə: Çin və Rusiya kimi dövlətlər hərbi potensiallarını artırmaq üçün böyük miqdarda investisiyalar yatırır. Nəticədə bu modernləşmə, onların regional və qlobal təsir imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. 2. Yeni texnologiyaların əhəmiyyəti: Süni intellekt, kiber təhlükəsizlik və hipersonik silahlar kimi texnologiyalar hərbi güc konsepsiyasını yenidən formalaşdırır. Bu sahələrdə üstünlük qazanan ölkələr beynəlxalq güc balansında daha təsirli mövqelərə sahib olurlar [15].

• Regional və beynəlxalq ittifaqlar: 1. Yeni ittifaqların formalaşması: ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı) və BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) kimi təşkilatlar yeni güc mərkəzlərinin formalaşmasını və çoxqütblü sistemə keçidin sürətlənməsini göstərir. 2. Ənənəvi ittifaqların yenidən şəkillənməsi: NATO kimi mövcud ittifaqların daxilində müşahidə olunan daxili problemlər və fikir ayrılıqları, gücün daha balanslı və geniş şəkildə paylanmasına şərait yaradır(Türkiyə (BRICS üzvlüyü müraciəti, "S-400" problemi) və Fransa ("Beyin ölümü") [22] örnəkləri).

• Texnoloji və innovativ rəqabət: 1. Rəqəmsal iqtisadiyyat və innovasiya: ABŞ texnoloji üstünlüyünü qorumağa çalışsa da, Çin və Avropa İttifaqı texnologiya və innovasiya sahələrindəki mövqelərini sürətlə gücləndirir. 2. Kiber məkan artıq milli gücün mühüm komponentinə çevrilmişdir. Kiber təhlükəsizlik və kiber üstünlük sahəsində irəliləyişlər dövlətlərin strateji mövqelərini gücləndirir.

• Mədəni və yumşaq gücün artan rolu: 1. Kütləvi informasiya vasitələri: Məsələn, Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü kimi qlobal miqyaslı layihələr, yalnız iqtisadi təsir yaratmaqla məhdudlaşmır, həm də mədəniyyətlərarası əlaqələri gücləndirərək mədəni təsir gücünü genişləndirməyə xidmət edir. 2. Beynəlxalq təşkilatlar və normativ güc: Regional güclər beynəlxalq təşkilatlarda daha fəal iştirak etməklə qlobal idarəetmə sisteminə təsir göstərməyə və öz normativ ideyalarını beynəlxalq səviyyədə qəbul etdirməyə çalışırlar.

• Təbii resurslara nəzarət: Resurs zənginliyinə malik ölkələr (məsələn, Rusiya, Səudiyyə Ərəbistanı, Avstraliya) enerji, su və digər strateji resurslar üzərindəki nəzarəti ilə qlobal güc balansını öz xeyirlərinə dəyişdirməkdədirlər. Bu nəzarət, onların beynəlxalq bazarlardakı təsir imkanlarını genişləndirir.

Qeyd olunan proseslərin hər biri beynəlxalq sistemdə güc mərkəzlərinin yenidən paylaşılmasını sürətləndirir və çoxqütblü dünya düzəninin formalaşmasına təkan verir. İqtisadi, hərbi, texnoloji və mədəni amillərin qarşılıqlı təsiri nəticəsində dünya sistemi yeni bir tarazlıq nöqtəsinə doğru hərəkət edir. Ümumilikdə, gücün paylanması mexanizminin analizi zamanı sözügedən paylanmada obyektiv və subyektiv səbəblərin mövcudluğu ortaya çıxır. Dövlətlərin iqtisadi, siyasi, hərbi və digər sahələrdə güc əldə etməsində coğrafi yerləşmənin xüsusi əhəmiyyəti vurğulanmalıdır. Məsələn, nəzəriyyəçilərin çoxu ABŞ-nin müasir beynəlxalq sistemdəki üstün mövqeyini əsasən iki səbəblə izah edir: Avropa dövlətlərindən kənarda yerləşməsi və bu səbəbdən baş vermiş müharibələrdən zərər görməməsi, həmçinin zəruri resurslarla zəngin olması[13]. Digər tərəfdən, Böyük Britaniya nümunəsində ada dövləti statusunun strateji üstünlük yaratdığı, Kanada, Avstraliya və Cənubi Afrika Respublikası kimi təbii sərvətlərlə zəngin olan ölkələrin isə tarixin "şanslı" dövlətləri kimi qəbul edildiyi fikri irəli sürülür.

Bunun əksinə olaraq Yaponiya nümunəsində biz sərvətlərin qıtlığı halını da nümunə göstərə bilərik ki, bu halda ölkədə texnoloji yeniliklərə yatırım ehtiyacı yaranır və robotexnika kimi sahələr inkişaf edir. O cümlədən bunun əksinə olaraq təbii sərvətlərə əsaslanan bir sıra dövlətlərdə isə "holland sindromu" halı baş verir ki, bu da Ərəb dövlətləri nümunəsində dövlətlərin təhsil, sosial, texnoloji sahələrdə geriləməsinə səbəb ola bilir.

Dünya həqiqətən çoxqütblüdürmü?. 22 sentyabr 2023-cü ildə ən nüfuzlu xarici siyasət veb-saytlarından biri olan "Foreign Affairs"-də Jo Inge Bekkevold tərəfindən "Xeyr, Dünya Çoxqütblü Deyil" adlı məqalə yayımlandı [12]. Cəmi 15 gün içərisində Emma Eşford və İvan Kuper tərəfindən (fikrimizcə cavab xarakterli) "Bəli, Dünya Çoxqütblüdür" adlı məqalə çap olundu [8]. Hər iki məqalənin qısa zaman kəsiyində dərc olunması mövcud dünyada çoxqütblülüyün olub-olmaması üzərində mü-

zakirələrin aktuallığını göstərir. Bu kontekstdə hər iki məqalənin vacib nöqtələrini nəzərdən keçirərək, çoxqütblülük dilemmasını daha aydın anlamağa çalışaq. Öncəliklə, Jo Inge Bekkevold qeyd edir ki, bir çox gücün qlobal təsirə malik olduğu "çoxqütblü" dünya konsepsiyası, hazırkı ABŞ və Çin arasındakı ikiqütblü rəqabətə alternativ olaraq arzuolunan bir model kimi təbliğ olunur [12]. Onun fikrincə, bu konsepsiya mövcud reallıqlarla uzlaşmır, çünki təqdim olunan məlumatlar göstərir ki, ABŞ və Çin arasında fərqlər olsa da, digər dünya dövlətlərinin bu iki hegemon güclə yarışması tamamilə mümkün deyil. Eyni zamanda, Jo, digər dünya dövlətlərinin ikiqütblü düzənin dəyişəcəyinə dair inanclarını "mif" adlandırır[7]. Onun arqumentinə görə, ikiqütblü dünya, daha nizamlı bir qlobal düzəni təmin edir və bu hal qeyri-müəyyən çoxqütblü sistemdən üstün hesab olunur. Jo ümumi olaraq qeyd edir ki, çoxqütblü dünya yaxın gələcəkdə reallığa çevrilməyəcək. O vurğulayır ki, qlobal qarşılıqlı əlaqələrin artmasına baxmayaraq, hazırda ABŞ və Çin arasında mövcud olan güc bölgüsü ikiqütblü nizamın davam etməsi anlamına gəlir [12].

Jo eyni zamanda aşağıdakı məqamlara toxunur: • Çoxqütblülüyün təşviq edilməsi çox vaxt intellektual qaçınmanın bir formasıdır: Bir çox siyasətçilər, şərhçilər və akademiklər ABŞ və Çin arasındakı gərgin rəqabətin reallığını qəbul etmək istəmirlər, buna görə də dünya dövlətləri bu problemlə üzləşməmək üçün bir yol kimi çoxqütblülük ideyasından yapışırlar [4]. • Çoxqütblülük güc oyunu kimi istifadə oluna bilər: Pekin və Moskva çoxqütblülüyünü ABŞ-nin gücünü məhdudlaşdırmaq və öz maraqlarını inkişaf etdirmək üçün bir yol kimi görür. Bununla yanaşı, Braziliya kimi yüksələn orta güclər isə bu ideyanı özlərini regional lider kimi möhkəmləndirməyin bir yolu olaraq qəbul edirlər. • Strategiya və siyasət üçün qütbün əhəmiyyəti: Müəllif iddia edir ki, dövlətlər birqütblü, ikiqütblü və çoxqütblü sistemlərdə davranışlarında müxtəlif dərəcədə məhdudiyyətlərlə üzləşirlər və bu bağlamda fərqli strategiyalar və tətbiq etmək zəruridir [12].

Jo siyasətçilərin öz strategiyalarını və siyasətlərini mövcud olmayan çoxqütblülüyün təşviqinə çalışmaq yerinə, mövcud ikiqütblü nizamın reallığına əsaslanaraq tərtib etmələrini təklif edir. Müəllif daha effektiv yanaşmanın mövcud bipolyar sistem daxilində dialoq üçün daha yaxşı həllər və platformalar axtarmaq olacağını vurğulayır.

Əsas məqamlar: • Çoxqütblülük konsepsiyası ABŞ və Çin arasında mövcud ikiqütblü rəqabətə arzuolunan alternativ kimi təbliğ olunur. • Lakin dünya, ABŞ və Çinin dominant güclər olduğu ikiqütblü nizamda qalır. • Çoxqütblülüyün təşviqi, digər xalqlar tərəfindən öz maraqlarını gücləndirmək məqsədilə bir güc oyunu kimi qəbul edilə bilər[16]. • Beynəlxalq sistemdə qütblülük, strategiya və siyasət üçün əsas əhəmiyyət kəsb edir. Sistem birqütblü, ikiqütblü və ya çoxqütblü olmasına görə müxtəlif yanaşmalar və strategiyalar tələb edir [12].

Jonun məqaləsindən əldə etdiyimiz ümumi nəticələr belədir: • Siyasətçilər öz strategiyalarını və siyasətlərini hazırkı ikiqütblü nizamın reallığına əsaslanaraq tərtib etməlidirlər. • Mövcud bipolyar sistem daxilində dialoq üçün daha yaxşı həllər və platformalar axtarmaq daha effektiv yanaşma ola bilər. • Müəssisələr və investorlar, çoxqütblülüyün mövcud olmadığı bir reallıqda naviqasiya etməyə çalışmaq əvəzinə, ikiqütblü dünyanın təklif etdiyi risklər və imkanlardan xəbərdar olmalıdırlar [9].

Araşdırma nəticələrini ümumiləşdirdikdə hazırki dünyada çoxqütblülükdən danışmağın mümkün olmadığını qeyd etmək olar. Dövlətlər aspektindən baxıldıqda, əsas oyunçular olaraq Çin və ABŞ ön plandadır. İttifaqlar aspektindən isə dünya Qərb və Şərq bloklarına bölünmüş vəziyyətdədir. Bu istiqamətdə Afrika bloku vahid bir blok olsa, yaxud başqa bir güc meyarı meydana gəlsə, bu zaman çoxqütblülükdən danışmaq mümkündür. Dövlətlər, İkinci Dünya müharibəsi (İDM) dövründəki instinktiv reflekslərinə geri qayıdırlar deyə bilərik. Məsələn, Donald Trump, Avropanı NATO çətirindən azad edəcəyini bəyan edərək, Avropa dövlətlərinin NATO-nu təhlükəsizlik çətiri kimi istifadə etməsinə və qlobal iqtisadi deqradasiya prosesinə cavab olaraq konkret tədbirlər görmüşdür. Bu yanaşma, Avropa dövlətlərinin müdafiə büdcələrindəki artımla da təsdiqlənir.

Yuxarıda qeyd edilənlərdən də göründüyü kimi, nəzəri yanaşmada fikirlər müxtəlif mövqeləri müdafiə etməkdədir. Bununla belə, günümüz və gələcək dünyada gücün paylanmasının təhlili baxımından bu yanaşmalar hər zaman kifayət qədər açıqlayıcı və effektiv olmaya bilər. Bu kontekstdə, nəzəri fikirləri tamamlayaraq daha obyektiv nəticələr əldə etmək üçün riyazi-statistik metodlardan istifadə edilmişdir. Bu metod vasitəsilə dövlətlərin əvvəlki dövrlərdəki iqtisadi inkişafı və yatırımları, bununla da onların qlobal gücləri müqayisəli şəkildə təhlil olunmuşdur.

| Ölkə | ÜDM (2023) | QGİ (2024) | YGİ (2024) | AD-ÜDM (2024) | MB (2023) |
|---|---|---|---|---|---|
| ABŞ | 27.360.935,00 | 0,0699 | 78,8 | 86,6 | 916 |
| Çin | 17.794.781,99 | 0,0706 | 71,2 | 12,97 | 296 |
| Almaniya | 4.456.081,02 | 0,0702 | 69,8 | 55,52 | 66,8 |
| Yaponiya | 4.212.945,16 | 0,1601 | 70,8 | 32,86 | 50,2 |
| Hindistan | 3.549.918,92 | 0,1023 | 49,8 | 2,7 | 83,6 |
| B. Britaniya | 3.340.032,38 | 0,1443 | 71,8 | 52,42 | 74,9 |
| Fransa | 3.030.904,09 | 0,1878 | 67,3 | 48,01 | 61,3 |
| İtaliya | 2.254.851,21 | 0,1863 | 62 | 40,29 | 35,5 |
| Braziliya | 2.173.665,66 | 0,1944 | 48,8 | 10,3 | 22,9 |
| Kanada | 2.140.085,57 | 0,3813 | 64,4 | 53,83 | 27,2 |

**Cədvəl 2. Ümumdaxili Məhsul-ÜDM, Qlobal Güc İndeksi - QGİ (GFPI), Yumşaq Güc İndeksi – YGİ (SPI), Adambaşına düşən Ümumdaxili məhsul - (AD-ÜDM)(GDP per capita), Müdafiə Büdcəsi – MB (TMP, MB).[1],[3],[5],[9],[10],[21].**

Cədvəl 2-də 2023-cü ilin ÜDM göstəricilərinə əsasən, ən yüksək ÜDM-ə malik 10 ölkənin Qlobal Güc İndeksləri (GFPI), "Yumşaq güc" göstəriciləri, adambaşına düşən ÜDM və hərbi xərcləri təqdim edilmişdir. Cədvəlin ilkin analizi göstərir ki, dövlətlərin coğrafi yerləşməsi və qlobal məkandakı mövqeyi onların hərbi xərclərinə birbaşa təsir edir. Məsələn, Kanada və Braziliya, 2 trilyon dollara yaxın ÜDM göstəricilərinə baxmayaraq, oxşar iqtisadi ölçüyə malik Avropa dövlətləri və ya Hindistan kimi münaqişələrə cəlb olunmuş ölkələrdən əhəmiyyətli dərəcədə az hərbi xərclərə sahibdirlər[17].

Dövlətlərin xarakteristikasını və davranışını müəyyən edən coğrafi yerləşmə amili, Qlobal Güc İndeksi göstəricilərində də əksini tapır. Məsələn, qonşusu olan ABŞ-dan hər hansı bir təhdid gözləməyən Kanada bu indeks üzrə sonuncu yerdə qərarlaşdığı halda, qlobal rəqabət aparan iki əsas dövlət – Çin və ABŞ – ən yüksək göstəricilərə malikdirlər[14].

Jodan fərqli olaraq, Emma və İvan müasir dövrdə dünyanın çoxqütblü bir sistem kimi görür və bu ideyanı ümumiləşdirərək aşağıdakı başlıqlara bölürlər: • Çoxqütblülüyün Çətinlikləri: Bayden Administrasiyası üçün yeni yanaşma: Post-birqütblü dünyada çoxsaylı güclərin meydana çıxması ənənəvi liderlik və hökmranlıq anlayışlarına meydan oxuyur. Bu kontekstdə, Birləşmiş Ştatlar xarici siyasətini idarə etməkdə görünməmiş problemlərlə qarşılaşır. Emma və İvan, Bayden administrasiyasının Çinlə münasibətlərə yanaşmasının yenidən nəzərdən keçirilməli olduğunu vurğulayır və mövcud strategiyanı qüsurlu xarici siyasət nümunəsi kimi tənqid edirlər. ABŞ-nin xarici siyasət dövrlərini üç əsas mərhələyə ayırmaq olar: • Təcrid dövrü (Birinci Dünya müharibəsinə qədər), • Güc balansı dövrü (Birinci və İkinci Dünya müharibələri arasında və sonrası), • Öhdəlik dövrü (SSRİ-nin dağılmasından sonrakı period). Hazırkı dövrdə ABŞ-nin "öhdəlik" mərhələsində olduğunu düşünmək olar. Emma və İvan hesab edir ki, Bayden administrasiyası qloballaşmanın təsirlərini ikinci plana ataraq ABŞ-nin "Super Güc" imicinə mənfi təsir göstərir. Bu yanaşma, ABŞ-nin beynəlxalq arenadakı liderlik rolunun zəifləməsinə və daha çox çoxqütblü bir reallığın formalaşmasına yol açır.

• Bipolyar Strategiyanın Çatışmazlıqları: ABŞ-nin hazırda Çinə qarşı bloklar qurmaq strategiyasının uğur ehtimalı aşağı görünür, çünki bu yanaşma müəyyən zəif cəhətləri ilə fərqlənir. Bu metod, səmimi əməkdaşlıq və ortaq məqsədlərin inkişaf etdirilməsindən çox, yalnız ən aşağı səviyyədəki ortaq maraqlara əsaslanan zəif tərəfdaşlıqların formalaşmasına gətirib çıxarır[15]. Xüsusilə iqtisadi sahədə problemlər diqqət çəkir: tətbiq edilən tariflər və ixrac nəzarətləri, ABŞ-nin yaxın müttəfiqləri arasında narazılığa səbəb olmuş və nəticə etibarilə Çinin effektiv təcridinə nail olunmamışdır. Bu vəziyyət, ABŞ-nin bipolyar strategiyasının həm qlobal iqtisadi dinamikanı, həm də müttəfiqləri ilə münasibətləri mənfi təsir altına aldığını göstərir. • Həddindən Artıq Genişlənmə Riskləri: Emma və İvan hesab edir ki, çoxqütblü dünyada birqütblü düşüncə tərzini davam etdirmək qaçılmaz olaraq həddindən artıq genişlənməyə və uğursuzluqlara səbəb ola bilər[9]. Bu istiqamətdə, qeyd etdiyimiz yanaşmanın köhnəlmiş olduğunu və müasir beynəlxalq münasibətlərin mürəkkəbliyini nəzərə almadığını, dəyişən qüvvələr balansını görməzdən gəldiyini qeyd edirlər. Nəticədə Emma və İvan vurğulayırlar ki, ABŞ bu yanaşmanı davam etdirməklə öz resurslarını tükətmək və ittifaqlarını zəiflətmək riski ilə üzləşir. Bunun nəticəsində, başda Çin olmaqla digər inkişaf edən güclər üçün yeni imkanların yaranmasına şərait yaradır[15]. Təsadüfi deyildir ki, bu kontekstdə, Trump administrasiyasının bu proseslərdən yan keçmək üçün göstərdiyi səylər diqqətəlayiqdir. Trump dövründə Əfqanıstandan ABŞ ordusunun çıxarılması, Avropada NATO çətirinin zəiflədilməsi cəhdləri, daxili siyasətə daha çox fokuslanma, inflyasiya səviyyəsinin azaldılması və ümumilikdə daha yaxşı iqtisadi göstəricilər əldə etmək məqsədilə aparılan siyasətlər bu yanaşmanın bir hissəsi kimi görünür. • Müttəfiq Gücündən İstifadə və Çevikliyin Mənimsənilməsi: Emma və İvan, ABŞ-nin müttəfiqlərinin

kifayət qədər güclü olmamasını tənqid edərək, bu prosesin əksini, yəni ABŞ-nin daha çevik və birgə yanaşma nümayiş etdirməsini mümkün hesab edirlər. Onların fikrincə, ABŞ öhdəliklər götürmək əvəzinə, müttəfiqlərinin gücündən daha səmərəli istifadə etməli, yükü bölüşdürməli və onları öz müdafiələrinə daha çox məsuliyyət götürməyə təşviq etməlidir. Bu yanaşma ilə ABŞ həm iqtisadi artımı təmin edə, həm də hərbi potensialını gücləndirə bilər. Bundan əlavə, müəlliflər çoxqütblü dünyada çevikliyin və şəffaflığın əhəmiyyətini vurğulayaraq qeyd edirlər ki, ABŞ zor tətbiqi və ya təcrid siyasəti ilə öz iradəsini yeritmək əvəzinə, qarşılıqlı faydalı ticarət sazişləri bağlamağa və digər ölkələrlə ortaq maraqlar əsasında əməkdaşlıq etməyə üstünlük verməlidir. Bu yanaşma, ABŞ-nin həm beynəlxalq nüfuzunu möhkəmləndirə, həm də yeni qlobal çağırışlara uyğunlaşmasını təmin edə bilər [16]. • İkitərəfli və Minitərəfli Sazişlər: Məqalədə iddia olunur ki, çoxqütblü dünyada böyük koalisiyalar daha az effektivdir, burada kiçik və məqsədli razılaşmalar daha yaxşı nəticələr verə bilər. Ortaq maraqlara əsaslanan ikitərəfli və minitərəfli sazişlər ABŞ-nin təhlükəsizlik məqsədlərinə nail olmaq üçün daha praktik bir yanaşma təklif edir.

Ümumi nəticə olaraq müəlliflər ABŞ-nin "Çoxqütblülüyü mənimsə" istiqamətinə yönəlməsinin effektiv olduğunu vurğulayırlar və qeyd edirlər ki, çoxqütblülük ABŞ-ı gücsüz etmir; əksinə, bu siyasətçilərə dəyişən şəraitə uyğunlaşmaq və təhlükəsizlik maraqlarını daha davamlı şəkildə irəlilətmək imkanı təqdim edir. Müəlliflər 2023-cü il etibarilə hakimiyyətdə olan Bayden hökuməti üçün çoxqütblülüyü mənimsəməyi təklif edir və bu istiqamətdə bir neçə plan və tövsiyə irəli sürürlər[15]: • Müttəfiqlərlə yükün bölüşdürülməsinə diqqət yetirin: Müttəfiqləri öz müdafiələri üçün daha çox məsuliyyət götürməyə təşviq edin. • Qarşılıqlı faydalı ticarət sazişləri həyata keçirin: Əməkdaşlıq və ortaq məqsədlər vasitəsilə iqtisadi artımı təşviq edin. • İkitərəfli və minitərəfli sazişlərə üstünlük verin: Çoxqütblü dünyada daha yaxşı nəticələr verən kiçik və məqsədli sazişləri prioritetləşdirin.

Emma və İvanın fikirlərini ümumiləşdirsək, onlar Bayden administrasiyasının çoxqütblülüyü üstünlük kimi qəbul etməli olduğunu vurğulayırlar. Çoxqütblülük onların fikrincə, ABŞ-nin dominantlığına təhlükə yaratmır, əksinə, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar təqdim edərək dəyişən qlobal şəraitə uyğunlaşmağa şərait yaradır.

Ümumiləşdirdikdə, hər iki məqalə birbaşa olaraq hazırkı geosiyasi vəziyyətin çoxqütblü və ya təkqütblü olduğunu iddia etmir. Emma və İvanın yanaşmasında, hazırkı geosiyasi vəziyyətin ABŞ-a zərər vurduğunu və zamanla güc itirəcəyini iddia edirlər. Bunun əksinə, ABŞ-nin çoxqütblü dünyaya yönəlməsinin daha faydalı olacağını vurğulayırlar. Jo isə, Emma və İvandan fərqli olaraq, günümüzdə ABŞ və Çinin rəqiblərinin olmadığını və ikiqütblü sistemin hakim olduğunu iddia edir, həmçinin yaxın dövrdə bu prosesin dəyişməyəcəyini qeyd edir.

| | *ÜDM (2023)* | *QGİ (2024)* | *YGİ (2024)* | *AD-ÜDM (2024)* | *MB (2023)* |
|---|---|---|---|---|---|
| ÜDM (2023) | 1 | | | | |
| QGİ (2024) | -0,358338198 | 1 | | | |
| YGİ (2024) | 0,605729289 | -0,266421369 | 1 | | |
| AD-ÜDM (2024) | 0,194630584 | 0,337727157 | 0,588527636 | 1 | |
| MB (2023) | 0,951120816 | -0,316619362 | 0,550893206 | 0,275546745 | 1 |

**Cədvəl 3. Korrelyasiya analizi. Ümumdaxili Məhsul-ÜDM, Qlobal Güc İndeksi -QGİ (GFPI), Yumşaq Güc İndeksi – YGİ (SPI), Adambaşına düşən Ümumdaxili məhsul (AD-ÜDM), Müdafiə Büdcəsi – MB (TMP, MB).[1],[3],[5],[9],[10],[21].**

ÜDM göstəriciləri ən yüksək olan 50 dövlətin qlobal qüc indeksləri, yumşaq gücü, adambaşına düşən gəlir və hərbi xərcləri üzrə toplanmış məlumatlar əsasında aradakı əlaqənin müəyyən edilməsi məqsədilə Pearson Korrelyasiya analizi aparılmışdır. Qeyd edək ki, sözügedən göstərici mənfi və müsbət 1 aralığında dəyişməkdədir. Göstəricinin 1-ə yaxınlaşması halında korrelyasiyanın mövcud olduğunu (tam pozitiv əlaqə), 0 dəyişənlər arasında xətti əlaqənin olmadığını, mənfi 1-ə yaxınlaşdığı zaman (tam neqativ əlaqə) isə mövcud olmadığını deyə bilirik. Ümumi olaraq korrelyasiya nəticələrini aşağıdakı şəkildə şərh edə bilərik:

1. ÜDM (GDP, 2023) ilə Digər Dəyişənlər: • QGİ (GFPI, 2024) ilə mənfi korrelyasiya (-0.358): Bu, iqtisadi cəhətdən güclü ölkələrin daha yaxşı (aşağı dəyərli) güc indeksinə malik olduğunu göstərir. Bu fakt qlobal liderlikdə güclü iqtisadiyyatların hələ də dominant rol oynadığını vurğulayır və çoxsaylı güc mərkəzlərinin formalaşması ehtimalını azaldır. • YGİ (SPI, 2024) ilə orta müsbət korrelyasiya (0.606): Yüksək ÜDM-ə malik ölkələrin yumşaq güclə beynəlxalq təsir imkanlarının daha böyük olduğunu göstərir. Bu, azsaylı ölkələrin həm iqtisadi, həm də mədəni təsir sahələrində üstünlük təşkil etdiyini ortaya qoyur. • AD-ÜDM (GDP Per Capita, 2024) ilə zəif müsbət korrelyasiya (0.195): ÜDM-in ümumi dəyəri ilə adambaşına düşən ÜDM arasındakı zəif əlaqə göstərir ki, iqtisadiyyatın miqyası fərdlər arasındakı

iqtisadi rifahla bərabər paylanmır [14]. Çoxqütblü sistemdə isə belə bərabərsizliyin daha az olacağı gözləniləndi. • MB (Total Military Budged, 2023) ilə çox güclü müsbət korrelyasiya (0.951): İqtisadi gücün hərbi gücə çevrildiyini çevrildiyini sübut edir. Bu da dünyada çox az sayda ölkənin həm iqtisadi, həm də hərbi baxımdan üstün olduğunu təsdiqləyir.

2. Qlobal Güc İndeksi (GFPI, 2024) ilə Digər Dəyişənlər: • YGİ (Soft Power Index, 2024) ilə zəif mənfi korrelyasiya (-0.266): Bu əlaqə göstərir ki, yüksək göstəriciyə malik (yəni, aşağı dəyərli) ölkələrin yumşaq gücü nisbətən aşağı ola bilər. Çoxqütblü sistemdə yumşaq gücün bərabər şəkildə paylanması gözlənilsə də, bu nəticə belə bir balansın olmadığını vurğulayır. • AD-ÜDM (GDP Per Capita, 2024) ilə zəif müsbət korrelyasiya (0.338): Daha yüksək rifah səviyyəsinə malik ölkələr güc göstəricilərində daha yaxşı nəticələr göstərir. Bu, iqtisadi inkişafın çox güclü regional təsirlərdən çox, azsaylı qlobal güc mərkəzlərinin təsiri ilə bağlı olduğunu göstərir. • MB (Total Military Spending, 2023) ilə zəif mənfi korrelyasiya (-0.317): Daha çox hərbi xərcləri olan ölkələrlə QGİ arasında korrelyasiya zəifdir. Bu, təhlükəsizliyin daha çox güclü dövlətlər tərəfindən təmin olunduğunu və çoxqütblülükdə bu rolun azsaylı ölkələr arasında bölüşdürüləcəyini vurğulayır.

3. Yumşaq Güc İndeksi (Soft Power Index, 2024) ilə Digər Dəyişənlər: • AD-ÜDM (GDP Per Capita, 2024) ilə orta müsbət korrelyasiya (0.589): Adambaşına düşən ÜDM artdıqca yumşaq güc potensialı artır. Bu əlaqə iqtisadi inkişafın yumşaq gücə olan təsirini vurğulayır. Lakin, bu əlaqə iqtisadi inkişafın yumşaq gücə əhəmiyyətli təsirini göstərsə də, çoxsaylı regional güc mərkəzləri ilə çoxqütblü sistem arasında tam uyğunluq yaratmır və çoxsaylı regional güc mərkəzləri ilə çoxqütblü dünya anlayışına tam uyğun deyil. • Total Military Spending (2023) ilə orta müsbət korrelyasiya (0.551): Bu, beynəlxalq təsirin əsasən azsaylı güclərin əlində cəmləşdiyini və hərbi güclə yumşaq gücün qarşılıqlı təsirini vurğulayır [17].

4. Adambaşına düşən ÜDM (GDP Per Capita, 2024) ilə Digər Dəyişənlər: • MB (Total Military Spending, 2023) ilə zəif müsbət korrelyasiya (0.276): Bu əlaqə yüksək rifaha malik ölkələrin daha çox hərbi xərclər etməyə meyilli olduğunu göstərir. Lakin əlaqənin zəif olması çoxqütblülüyün təsdiqi üçün kifayət deyil.

5. Ümumi Akademik Nəticələr: Təhlil olunan məlumatlar və korrelyasiya nəticələrindən belə qənaətə gəlmək olar ki, müasir beynəlxalq sistem çoxqütblü olmaqdan uzaqdır və qlobal güc əsasən azsaylı dövlətlərin əlində cəmləşmişdir. Əsas nəticələr aşağıdakı şəkildə ümumiləşdirilə bilər:

1. Çoxqütblülüyün mövcud olmaması: İqtisadi və hərbi güc azsaylı dövlətlər arasında yüksək dərəcədə cəmləşib. Çoxqütblü sistemin əsas prinsipi olan güc balansının müxtəlif regionlar arasında paylaşılması bu strukturda görünmür. Dolayısıyla, əgər çox çoxqütblü sistem olardısa, belə bir sistemdə güc müxtəlif regional aktorlar arasında daha balanslı bölünməli idi.

2. Dominant güc mərkəzləri: Yumşaq güc ilə iqtisadi göstəricilər arasındakı əlaqə, xüsusən yüksək ÜDM və hərbi xərclər ilə yumşaq güc arasındakı müsbət korrelyasiyalar, beynəlxalq təsirin azsaylı güclərin əlində olduğunu təsdiqləyir. Bu, ya unipolyar, ya da ikiqütblü sistemin mövcudluğunu ehtimal edir.

3. Hərbi xərclərin təsiri: Yüksək hərbi xərclər yüksək ÜDM ilə əlaqəlidir və güc göstəricilərində (GFPI) mənfi nəticə göstərir ki, bu hal gücün müəyyən qüvvələrdə mərkəzləşdiyini və dominant güc mərkəzlərinin təhlükəsizlik məsələlərində əsas aktor olduğunu təsdiqləyir. Bu hal da çoxqütblü sistemdən daha çox gücün mərkəzləşməsini əks etdirir.

4. İqtisadi göstəricilərin (ÜDM) hərbi güc xərcləri ilə yüksək dərəcədə əlaqəli olması (0.95) göstərir ki, qlobal güc strukturu iqtisadi güc üzərində qurulmuşdur. Bu isə çoxqütblü sistemdə müxtəlif güc mənbələrinin diversifikasiyasına qarşı çıxır. Başqa bir ifadə ilə, müxtəlif güc mənbələrinin daha çox diversifikasiyasını tələb edən çoxqütblü sistemlə ziddiyyət təşkil edir.

5. Yumşaq güc göstəriciləri ilə ÜDM (0.60) və hərbi xərclər (0.55) arasındakı müsbət əlaqə göstərir ki, bu sahədə də liderlik əsasən yüksək iqtisadi və hərbi gücə malik ölkələrə məxsusdur. Bu, çoxqütblülükdən çox, "yumşaq güc monopoliyası" təsiri yaradır. Bu, çoxqütblülükdən daha çox bir neçə güc mərkəzinin təsir dairəsinin genişliyini əks etdirir.

6. Korrelyasiya nəticələri göstərir ki, iqtisadi və hərbi güc təbii şəkildə bir neçə əsas aktor arasında toplanır. Başqa dillə desək, qloballaşma prosesi gücün qütbləşməsinə və azsaylı aktorların əlində toplanmasına səbəb olmuşdur. Halbuki çoxqütblü sistemdə gücün daha geniş yayılması və regional aktorlar arasında bölüşdürülməsi - çoxqütblü sistemlərdə isə gücün daha çox dispersiyası gözlənilirdi.

Gələcək perspektivlər: Araşdırmanın davam etdirilməsi məqsədilə gələcəkdə təhlilə texnoloji güc göstəricilərini də əlavə etmək mümkündür. Texno-

logiya (Süni intellekt, kibermüdafiə) sahəsində lider olan böyük gücə malik dövlətlərin digər dəyişənlərə necə təsir etdiyi araşdırılaraq, çoxqütblülüyün müxtəlif aspektləri daha aydın görünə bilər. Bu çərçivədə korrelyasiya təhlilinin daha da genişləndirilməsi üçün əlavə dəyişənlərin daxil edilməsi zərurəti istisna edilmir. Digər tərəfdən, regionlararası qütblərin təhlil edilməsi də vacibdir. Mövcud təhlil göstərir ki, qlobal güc mərkəzləri əsasən bir neçə dövlət tərəfindən idarə olunur. Lakin bu cür güc strukturunun regional çoxqütblülük üzərində təsiri daha dərindən araşdırılmalıdır. Qloballaşma ilə yeni güc mənbələri ortaya çıxmışdır; bunlardan texnologiya, rəqəmsal iqtisadiyyat və kibertəhlükəsizlik sahəsindəki üstünlüklər önə çıxır. Korrelyasiya analizi bu amilləri əhatə etməsə də, müasir çoxqütblülük iddialarını qiymətləndirərkən bu sahələri nəzərə almaq vacibdir. Bu sahələrdə lider ölkələrin qlobal sistemə təsirini ölçmək, gələcəkdəki güc strukturlarının təhlilində faydalı olacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. “Brandirectory,” brandirectory.com, 2024. https://brandirectory.com/softpower/ranking?region=1&metric=1*

*2. “GDP By Country in current US$ 1990 - 2022 | WITS Data,” Worldbank.org, 2022. https://wits.worldbank.org/CountryProfile/en/Country/BY-COUNTRY/StartYear/1990/EndYear/2022/Indicator/NY-GDP-MKTP-CD#*

*3. “Military expenditure value of Argentina 2021,” Statista, 2021. https://www.statista.com/statistics/794443/military-spending-value-argentina/*

*4. “Unipolar World,” Unacademy. https://unacademy.com/content/cbse-class-12/study-material/political-science/unipolar-world/*

*5. “World GDP in current US$ 1988 - 2022 | WITS Data,” Worldbank.org, 2022. https://wits.worldbank.org/CountryProfile/en/Country/WLD/StartYear/1988/EndYear/2022/Indicator/NY-GDP-MKTP-CD*

*6. A. Aydın and E. Bakıncak, “ULUSLARARASI GÜÇ DENGESİ VE İKİ KUTUPLULUK ARASINDAKİ İLİŞKİ,” Dergipark, 2016. http://esjournal.cumhuriyet.edu.tr/tr/download/article-file/282697*

*7. A. J. Nathan, “The Return of Bipolarity in World Politics: China, the United States, and Geostructural Realism,” Foreign Affairs, Apr. 16, 2018. https://www.foreignaffairs.com/reviews/capsule-review/2018-04-16/return-bipolarity-world-politics-china-united-states-and*

*8. E. Ashford, E. Cooper, “Yes, the World Is Multipolar,” Foreign Policy, Oct. 05, 2023. https://foreignpolicy.com/2023/10/05/usa-china-multipolar-bipolar-unipolar/*

*9. Global Fire Power, “2024 Military Strength Ranking,” Global Fire Power, 2024. https://www.globalfirepower.com/countries-listing.php*

*10. International Monetary Fund, “GDP per Capita, Current Prices,” International Monetary Fund, 2024. https://www.imf.org/external/datamapper/NGDPDPC@WEO/OEMDC/ADVEC/WEOWORLD*

*11. J. BURBANK and F. COOPER, Empires in World History. 2021. doi: https://doi.org/10.2307/j.ctv1g248v9.*

*12. J. I. Bekkevold, “No, the World Is Not Multipolar,” Foreign Policy, Sep. 22, 2023. https://foreignpolicy.com/2023/09/22/multipolar-world-bipolar-power-geopolitics-business-strategy-china-united-states-india/*

*13. J. Shifrinson, A.-M. Slaughter, B. Kausikan, R. Keohane, S. G. Brooks, and W. C. Wohlforth, “The Long Unipolar Moment?,” Foreign Affairs, Oct. 17, 2023. https://www.foreignaffairs.com/responses/long-unipolar-moment-american-dominance*

*14. K. He, “The Upside of U.S.-Chinese Competition,” Foreign Affairs, Jul. 14, 2023. https://www.foreignaffairs.com/united-states/chinese-competition-asia-stability-institutional-balancing*

*15. M. D. Toft, S. Kushi, “The Roots of Washington’s Addiction to Military Force,” Foreign Affairs, Jan. 10, 2023. https://www.foreignaffairs.com/united-states/roots-washingtons-addiction-military-force*

*16. M. Flores, “The New World Order: The Historical Origins of a Dangerous Modern Conspiracy Theory | Middlebury Institute of International Studies at Monterey,” www.middlebury.edu, May 30, 2022. https://www.middlebury.edu/institute/academics/centers-initiatives/ctec/ctec-publications/new-world-order-historical-origins-dangerous*

*17. M. J.J., “The tragedy of great power politics,” 2001.*

*18. Merriam-Webster, “Definition of BIPOLARISM,” www.merriam-webster.com. https://www.merriam-webster.com/dictionary/bipolarism*

*19. R. Farley, “America Ruled the World in the 1990s - But it Doesn’t Anymore,” The National Interest, Dec. 21, 2020. https://nationalinterest.org/blog/reboot/america-ruled-world-1990s-it-doesnt-anymore-174709?form=MG0AV3*

*20. S. Shidore, "The Return of the Global South," Foreign Affairs, Aug. 31, 2023. https://www.foreignaffairs.com/world/return-global-south-critique-western-power*

*21. World Bank, "GDP (current US$) | Data," Worldbank.org, 2022. https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?most_recent_value_desc=true&year_high_desc=true*

*22. BBC News, "Fransa Cumhurbaşkanı Macron: NATO'nun beyin ölümü gerçekleşti - BBC News Türkçe," BBC News Türkçe, Nov. 08, 2019. https://www.bbc.com/turkce/haberler-dunya-50342428*

## XÜLASƏ

Bu tədqiqat, Çin, Rusiya, Avropa İttifaqı və Hindistan kimi əsas aktorların meydana çıxması ilə ABŞ-nin hökmran olduğu birqütblü dünyadan çoxqütblü dünyaya keçid prosesi zamanı güc paylanmasının hansı kateqoriyaları əhatə etdiyini araşdırır. Sözügedən prosesdə qlobal güc mərkəzlərinin yenidən formalaşmasına təsir edən ÜDM hərbi xərclər və yumşaq güc ölçüləri kimi iqtisadi göstəricilər də daxil olmaqla, müxtəlif amillərlə idarə olunur. Tədqiqatın məqsədi, beynəlxalq münasibətlər sistemində dəyişən güc dinamikalarının güc balansına necə təsir etdiyini aydınlaşdırmaqdır. Araşdırmada ÜDM, Adambaşına düşən ÜDM, Qlobal Güc İndeksi (GFPI), Yumşaq Güc İndeksi, Müdafiə büdcəsi kimi datalardan istifadə edilərək korrelyasiya metodu ilə əldə olunan nəticələr təqdim edilmişdir. Tədqiqat işi çoxqütblü dünyada yaranan yeni güc mərkəzlərinin iqtisadi, hərbi və yumşaq güc aspektlərini vurğulamaqla beynəlxalq münasibətlərin mürəkkəbliyinin fərqli perpektivdən izahını təqdim edir.

**Açar sözlər:** *Çoxqütblülük, ÜDM, Yumşaq Güc, Korrelyasiya, Qlobal Güc İndeksi, ABŞ.*

## РЕЗЮМЕ

Этот исследовательский проект анализирует процесс перехода от однополярного мира, доминируемого США, к многополярному миру, включая появление ключевых акторов, таких как Китай, Россия, Европейский Союз и Индия, и изучает категории распределения силы в этом процессе. В данном контексте процесс управления осуществляется различными факторами, включая экономические показатели, такие как ВВП, военные расходы и индексы мягкой силы, которые влияют на перераспределение глобальных центров силы.

Целью исследования является выяснение того, как меняющаяся динамика силы в международной системе влияет на баланс сил. На основе данных о ВВП, ВВП на душу населения, Глобальном индексе силы (GFPI), Индексе мягкой силы и оборонном бюджете в исследовании представлены результаты, полученные с использованием метода корреляции.

Данное исследование предлагает объяснение сложностей международных отношений с альтернативной точки зрения, подчеркивая экономические, военные и аспекты мягкой силы новых центров силы в многополярном мире.

**Ключевые слова:** *многополярность, ВВП, мягкая сила, корреляция, глобальный индекс силы, США.*

## SUMMARY

This research examines the transition from a unipolar world dominated by the United States to a multipolar world, focusing on the categories of power distribution influenced by the emergence of key actors such as China, Russia, the European Union, and India. The process is shaped by various factors, including economic indicators such as GDP, military expenditures, and soft power metrics, all of which contribute to the reconfiguration of global power centers.

The objective of the study is to elucidate how shifting power dynamics affect the balance of power within the international relations system. The research employs correlation analysis to present findings based on data such as GDP, GDP per capita, the Global Power Index (GFPI), the Soft Power Index, and defense budgets. This study highlights the economic, military, and soft power dimensions of new power centers emerging in a multipolar world, offering a nuanced perspective on the complexity of international relations.

**Keywords:** *Multipolarity, GDP, Soft Power, Correlation, Global Power Index, United States.*

УДК 327; 339.9
https://doi.org/10.30546/3006-0346.2024.6.84.028

# БЛОГОСФЕРА, КАК ИНСТРУМЕНТ МЕЖДУНАРОДНОЙ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ КОММУНИКАЦИИ

**ЛЯМАН СУЛЕЙМАН-ЗАДЕ**
*Бакинский Государственный Университет, докторант*
*E-mail: lyama13@gmail.com*

Интернет, как пространство международных дебатов, политических, социальных и экономических дискуссий, создает сегодня многочисленные возможности для расширения коммуникативной арены, облегчающие форматы глобального диалога посредством характерной интерактивной организации. Электронные письма, чаты, новостные и дискуссионные форумы, блоги, IP-телефония служат активной межличностной коммуникацией, привлекая внимание пользователей к темам, носившим ранее кулуарный характер. Цифровая революция, положившая начало повсеместному внедрению инновационных технологий, способствовала трансформации медиапродукции и медиасреды, привела к появлению сетевых инструментов, оказавших существенное влияние на современную информационную среду, характеризующейся новыми формами и значимой модификацией процесса коммуникации, структуры коммуникативного опыта субъектов, изменившимися форматами коллективных взаимодействий. Данные процессы обусловили, с одной стороны, индивидуализацию контента СМИ и растущую дифференциацию адресата, с другой стороны, конвергенцию СМИ и развитие диффузных жанров, активизацию аудитории и депрофессионализацию журналистики [12]. Пользователи Интернета становятся все более избирательными в выборе информации, активно и критично пользуются медийным контентом, в том числе социальными сетями и блогами.

Предметом исследования выступают коммуникативные характеристики политических блогов, проявления медиатизации международных отношений, политики и личности. Цель статьи – анализ возможностей блогосферы как инструмента международной и общественно-политической коммуникации и выявление эффектов межкультурной коммуникации, формирующих нарративы в политической блогосфере. Материалом для исследования процессов коммуникационных возможностей в Интернете послужили азербайджано-, русско- и англоязычный сегменты сетевых дневников и блогов.

Методология исследования базируется на понимании инновационной коммуникативной системы, с ее пространственно-временными, коллективно-личностными и предметными измерениями, использующей достижения социологии, политологии и медиапсихологии; на понимании взаимосвязи технологической социокультурной, политической и медийной сфер, а также дискурсивного конструирования реальности и субъектов коммуникации и их отражении в современных интернет-практиках информационного обмена. В этой связи в англоязычной литературе следует выделить статьи Г.Иннис, М.Маклюэна, Э.Ноэль-Нойман, Д.Маккуэйла, Д.Блумлера, Д.Морли, Ш.Брандсон, Х. Файнмана, Ф.Закария и др. Среди российских экспертов вопросы исследования сферы медиапотребления отражены в работах Е.В.Лазуткиной, И.М.Шатина, Ю.И.Нестеренок, Б.М.Фирсова, В.С.Коробейникова, А.В.Шарикова, И.А.Полуэктовой, В.П.Коломиеца, К.Л.Зуйкиной, Т.Э.Гринберг.

Веб-блоги, объединяя в себе преимущества многих известных коммуникационных услуг в Интернете (списки, рассылки, новостные группы, дискуссионные форумы, базы данных), являются коммуникационной платформой нового типа, комбинированным, гибридным видом Интернет-коммуникации [9]. Уникальность данного средства коммуникации заключается в том, что блоги являются одновременно личными дневниками, хранилищами знаний и источниками информации. Это мощные альтернативные и независимые информационные ресурсы с постоянно обновляющейся повествовательной структурой, записями, содержащими текст, изображения, видео- или аудиофайлы. Блоги считаются аутентичной формой Интернет-коммуникации, так как представляют авторскую позицию, ориентированы на диалог, поддерживают двунаправленную коммуникацию, сочетая в себе черты публичного и межличностного общения. Блогосфера

(blogosphere) – это совокупность всех блогов, как связанное сообщество или как служба социальной сети, занявшая в современном медийном пространстве роль одной из ключевых площадок для коммуникации – поиска, обмена и распространения информации [7]. Неформальный стиль подачи информации, распространение ее через призму собственных эмоций и переживаний повышает уровень доверия аудитории к блогерам. Блогеры оперативно, остро и профессионально реагируют на общие проблемные сферы блогосферы: международные, политические, региональные и экономические события, гражданские настроения, экологические и миграционные вопросы, формируют общественное мнение и задают общий информационный тон. По функциональной принадлежности блоги разделяют на: информационные, журналистско-публицистические, литературно-художественные, учебно-просветительские, социальные, рекламные, видеоблоги, коммуникативные, развлекательные, самопрезентационные [8].

Блоги имеют относительно короткую историю существования, став неотъемлемой частью медиапространства лишь последние 10-12 лет. В 1993 году студент из Чикаго Джастин Холл (позже газета «The New York Times» определит Холла «отцом-родоначальником личных блогов»), создал «онлайн-дневник» под названием «Links.net», разместив в нем ссылки на интересные интернет-страницы. Впервые термин «веблог» (от logging the web – ведение журнала в Интернете) был употреблен американским программистом Й.Баргером в 1997 г., а двумя годами позже П.Мергольц ввел в оборот устойчивое сочетание «we blog». Тогда же, в 1999 году компьютерная компания «Pyra Labs» стала использовать термин «блог», как глагол, выражающий значение «вести блог». Далее представители организации решили ввести в обиход термин «блогер» (blogger – человек, ведущий блог), который впоследствии дал название одноименной платформе «Blogger.com» – первой бесплатной площадке, предоставлявшей возможность для публикации постов [5]. В конце 1990-х гг. был придуман термин «блогосфера», обозначающий совокупность блогов. В 2004 году ведущая американская компания-издатель справочников и толковых словарей Мерриам-Вебстер назвала «блог» словом года, а появление в 2005 г. видеохостинга под названием Youtube способствовало развитию видео-блогов. На заре становления блогосферы насчитывалось около 50 онлайн-дневников, но в последующее время их количество увеличилось в миллионы раз. В 2000-х гг. на фоне таких геополитических событий, как войны в Афганистане, Ираке, революции в Югославии и локальные конфликты на Ближнем Востоке, некоторые политики, известные личности, журналисты, а также предприниматели начали интересоваться блоггингом, создавая собственные веб-страницы, что привело к развитию блогов о политике.

Политические блоги представляют собой комплексный жанр динамично развивающейся блогосферы с множеством подтем и своеобразной стилистической гетерогенностью. Так, Е.В.Лазуткина определяет политический блогинг как коммуникативную среду, предназначеннуя для преобразования данных в политическую информацию, необходимую для проявления политической активности и осознанного электорального поведения граждан. И.М.Шатин акцентирует внимание на «проблеме научного анализа блогосферы в политике через понятия информации, социальной среды и структуры сетевых связей», формулируя базовый тезис о роли блогосферы в политической коммуникации следующим образом: «Интернет и блогосфера играют значимую роль в коммуникативных процессах современного общества, в котором информация давно выступает в качестве основного ресурса, выполняя вместе с тем социобразующую функцию». Ю.И. Нестеренок считает, что «политические блоги имеют публичный статус и являются инструментами публичной политики», рассматривая их как «формы функционирования политического поля». К.Л.Зуйкина определяет политический блогинг, как важный инструмент, «стимулирующий гражданскую активность в политической жизни», отличительными чертами которого являются фрагментарность, сетевая структура, свобода от вмешательства государства, «альтернативность мейнстриму».

С каждым днем блогосфера становится все более значимой и влиятельной в политическом дискурсе, способствуя политической мобилизации и активизации граждан. Основными мотивами создателя политического блога является

потребность поделиться экспертным знанием, выразить себя в обсуждении важной международной и общественно-политической темы, а также выступить альтернативой традиционным средствам массовой информации. Политический блог отражает всегда определенную позицию, сквозь призму которой интерпретируется вся остальная информация. Картинки, видео- и аудиоматериалы являются важным элементом политических блогов, передавая эмоциональное содержание опубликованного материала. Все компоненты политической блогосферы преследуют общие коммуникационные цели, имеют схожие структуры и стилистические особенности, сообщают о схожем контенте и адресованы конкретной аудитории. Дискурсивное конструирование проблемы реализуется блогером преимущественно посредством обвинения политического оппонента, отсылки к историческим прецедентам, отрицательного оценивания современного положения дел, указания на его негативные последствия и противоречия общественно разделяемым ценностям.

Политические блоги отличаются полифункциональностью, сочетая в различные функции: информационную - формирование контента и упорядочивание информации о политической, общественной и других сферах жизни в сети интернет; коммуникативную - личные и коммуникативные связи между блогером и читателями; политическую, включающую в себя политико-мобилизационную функцию организация и проведение разнообразных акций протеста, флеш-мобов, мобилизации членов партии и электората, разделяющего целеустановки партии, особенно во время предвыборной кампании; политико-имиджевую; социализации - активное включение электората в систему общественно-политических отношений; рефлексивную - языковая и речевая рефлексия блогеров, субъективная перестройка и переосмысление своего отношения к ситуациям политической сферы, комментирования [11]. Использование интернет-платформы с точки зрения мобилизации сетевой политики стало инновационной практикой протеста, цель которой, с одной стороны, выражение негодования или приверженности по поводу обсуждения конкретной проблемы и генерирация общественного внимания. Идеальным средством коммуникации протестного движения стала блогосфера с ее возможностями подготовки и координации протеста, изучения дискуссионного материала, обмена информацией, целями, стратегиями и тактиками.

Участники блогосферы различаются по целям использования платформы блога, мотивацией и характером использования.

Первая группа - официальные политические деятели: президенты, премьер-министры, правительственные чиновники и т.д. Позиция официальных политических лиц, выражаемая имплицитно, сводится к выражению патриотизма, уважения к народу страны, преданности своему делу и увлеченности желанием принести пользу обществу.

Вторая группа - неофициальные политики, имплицитно выражающие оппозиционную действующей власти позицию. Неофициальные политики, стремящиеся стать системными, видят своей целью дискредитацию существующей системы через политические блоги.

Третья группа - политологи, политтехнологи, журналисты, которые могут дать взвешенный профессиональный комментарий относительно происходящих международных, политических или общественных событий. В данной группе политических блогеров не наблюдается гомогенности в выражаемых политических взглядах. Транслируя как провластные, так и оппозиционные взгляды, находясь вне системы и политических баталий, они могут выражать политические взгляды вне зависимости от расстановки политических сил.

Четвертая группа - обыватели. Сфера деятельности этих пользователей никак не связана с функционированием политических организаций и институтов. Среди обывателей, также нет единства в имплицитно выражаемой политической позиции, они могут занимать любую позицию, поддерживать представителей любой политической партии, официальную власть или оппозиционеров [10].

В качестве интерактивной среды блоггинг открывает фундаментальные возможности опосредованного общения. В борьбе за благосклонность избирателей партии и политики выбирают выгодные стратегию и тактику, больше уделяют внимания самопрезентации, а также следят за

тем, чтобы негативные стороны их собственных политических действий не стали слишком очевидными. При этом политики пытаются приукрасить ситуацию, широко используя для вербального общения образные нарративы, т.е. традиционные в культурном отношении модели повествования, пользующиеся общим признанием. Нарратив требует репрезентации событий, конкретных единичных объектов и фактов в повествовательной последовательности. Характерные свойства нарратива позволяют использовать его при номинации и интерпретации всевозможных политических событий в СМИ и на интернет-платформах. В спорных случаях политики интерпретируют эту связь для лучшего понимания проблемы и принятия необходимых решений в результате обсуждения политических вопросов. Социальные сети являются правильной воронкой политической коммуникации для любого популистского лидера, когда дело касается охвата аудитории. Первое президентство Дональда Трампа в 2017-2020-х гг. дало основание говорить о нем как об генераторе фейковых новостей. Будучи популистским лидером, он часто делал сбивающие общественность с толку заявления, по национальному телевидению и в социальных сетях, что приводило к снижению доверия людей к администрации президента. Д.Трамп, являясь активным пользователем Twitter (X), активно использовал его для распространения дезинформации, для трансляции того, что он называл правдой.

Поскольку наиболее важные политические решения принимаются на основе доминирующих нарративов, необходимо точно знать, что типично для таких повествований, какое влияние они оказывают и что влияет на их успех. Важно, чтобы политические партии и политики воспринимали нарративы серьезно, как соответствующую форму мышления и коммуникации. Особенно это становится заметным в моменты кризиса – терракты, войны, экологические катастрофы, финансовые кризисы, проблемы с мигрантами тут же оказываются ключевыми моментами в речах политических кампаний, а политики используют в своих выступлениях повествовательные модели, которые могут повлиять на намеренный ход событий.

Политический нарратив служит для интеграции современных политических целей и ценностей в нарратив будущего, к которому нужно стремиться. Нарративы, имеющие значение аналогичное значению пропаганды, лавинообразно множатся через интернет-коммуникации и усиливают экспрессивность сообщений внутри групп и блогов, которые придерживаются определенной идеологии или политического направления [6]. Неслучайно, Президент Азербайджана Ильхам Алиев 20 июля 2024 года на Втором Шушинском Глобальном Медиафоруме отметил: «[…] ложные нарративы действительно очень вредны. Они не только наносят ущерб репутации страны, но и вредят ее деловому потенциалу и инвестиционным возможностям, отвлекают внимание международного сообщества от основных проблем, с которыми сталкивается страна, и концентрируют его на абсолютно нереалистичных сценариях» [1].

В новом информационном пространстве возрастает роль блогосферы, как среды функционирования молодежной медиакультуры, поскольку блогосфера является ведущим источником информации о ситуации в политике для молодежной аудитории от 18 до 30 лет. Молодежные сообщества в онлайн-пространстве распадаются по интересам, возрасту, гендерному признаку. Молодые люди чаще посещают блоги и социальные сети, чем старшее поколение, и именно молодежь легко поддается манипуляциям сознания [4]. Это вызывает необходимость мониторинга блогов на предмет выявления ложной или пропагандистской информации, оказывающей негативное влияние на мнение о высших должностных лицах, государственных мероприятиях, важных событиях общественной жизни. Изучение политического блогинга, как сегмента социально-политической публичной массово-медийной коммуникации носит междисциплинарный характер: политология, социология, лингвистика, журналистика и др. науки пытаются найти объяснение новому инструменту международной и общественной коммуникации. Ученые предлагают аутентичные определенным научным методологиям дефиниции данного понятия, акцентируют внимание на различных аспектах функционирования политического блогинга, составляют альтернативные иерархические списки его сущностных характеристик [2].

Блогеры открыто симпатизируют конкретной политической идеологии и демонстрируют крайне непримиримое отношение к фактам и явлениям, не вписывающимся в их политические представления, проявляют чрезмерный критицизм к оппонентам, придерживающимся других политических взглядов. В результате вместо конструктивной критики, направленной на улучшение и совершенствование тех или иных аспектов социально-политической действительности, аудитория получает узкотематические, тенденциозные суждения о политике. Блогеры ориентированы не на организацию коммуникации, а на утверждение собственной, редко аргументированной, позиции, на дискредитацию идеологического инакомыслия. Они создают ситуацию, в которой поступающая к читателю информация способна развивать дихотомическое мышление, отражающее действительность в диаметрально противоположных категориях. Поляризация мнений блогеров о политической жизни общества приводит к тому, что молодая аудитория, получающая информацию о политической жизни страны из блогосферы, погружается в искаженную, деформированную делением «на полюса» картину мира [3]. В результате вместо интеграции аудитории на основе общей картины политической жизни тематика и идеи политического дискурса дезинтегрируют общество.

Блогер избавляет аудиторию от необходимости держать в голове большой пласт информации и самостоятельно её анализировать. Аудитория запоминает удачные и конкретные формулировки, соглашается с ними и начинает повторять. Кроме того, существует определенная опасность - непрофессионализм блогеров и недостоверность контента. Спланированное регулярное воздействие на сознание людей в сетевом пространстве актуализирует угрозу автономии воли и способности независимого мышления. К примеру, позиционируемая как шведская экологическая активистка, скандальная Грета Тунберг, имеющая в Инстаграме 14 млн. подписчиков, 15 ноября 2024 г. в Ереване приняла участие в акции протеста против проведения COP29 в Баку. «Мы не можем делать вид, что заботимся о климате и окружающей среде, а такое государство, как Азербайджан, которое несет ответственность за этические чистки и геноцид, формирует повестку дня. Это государство, которое не намерено принимать реальные меры по борьбе с изменением климата» - сказала Тунберг, при этом не забыв посетить мемориал т.н. «жертв геноцида армян» в армянской столице. Как говорится, ангажированность на лицо. Здесь следует отметить, что еще в 2020 г. она стала первой лауреаткой (из 136 кандидатов) премии британского нефтяного магната Галуста Гюльбекяна. Скорее всего, ее визит в Армению и антиазербайджанские высказывания стали благодарностью Тунберг за премию размером в 1 млн.евро. Таким образом, не понимая реальный баланс потребностей и возможностей и придав событию планетарного масштаба политический окрас, Тунберг дезоринтирует своих подписчиков, отвлекая их от реальной мировой катастрофы, связанной с парниковыми выбросами и потеплением климата.

11. *https://search.app/nCg8oGGAUW6syLKN8*

12. *https://search.app/r4JRYCY8XcgUR9aT7*

13. *https://time.com/4412191/nine-dash-line-9-south-china-sea/*

14. *https://www.aa.com.tr/tr/ekonomi/abd-ekonomisi-ikinci-ceyrekte-kovid-19unetkisiyle-rekor-seviyede-daraldi-/1927477*


## XÜLASƏ


Cənubi Çin dənizi geosiyasi maraqların toqquşduğu beynəlxalq siyasətdə önəmli rol oynayan strateji məkanlardan biridir. Hazırda Cənubi Çin dənizi qlobal güclərin mübarizəsi üçün platforma rolunu oynayır. Cənubi Çin Dənizi, dünya ticarətinin 30%-nin keçdiyi bir bölgədir və bu, onun qlobal iqtisadiyyatda, enerji təhlükəsizliyində və geosiyasi münasibətlərdəki rolunu daha da əhəmiyyətli edir.

ABŞ-Çin münasibətləri indiki dövrdə mürəkkəb bir vəziyyətlə üzləşib. Ticarət müharibələri, iki ölkə arasında ciddi iqtisadi anlaşılmazlıqlar yaradıb. ABŞ, Çinin texnologiya sahəsindəki irəliləyişinə qarşı mübarizə aparır, bu da müasir texnologiya yarışını kəskinləşdirir. Cənubi Çin dənizindəki ərazi mübahisələri və Tayvanla bağlı məsələlər də regional təhlükəsizlik baxımından ciddi narahatlıqlar yaradır. Beləliklə, bu münasibətlər, qlobal iqtisadi və siyasi arenada geniş əks-səda doğurur.

Çin, Cənubi Çin Dənizində geniş ərazilərə iddia

edərək regional gərginliklərin əsas səbəblərindən birini yaradır. Xüsusilə, Çin tərəfindən irəli sürülən geniş suverenlik iddiaları həm torpaq sahələrinə, həm də onlara bitişik su ərazilərinə dair iddialar bölgədəki digər iddiaçılar, məsələn, Vyetnam, Filippin, Tayvan, Malayziya və Bruneini qəzəbləndirib [13]. Bu iddialar, "Səhra Xətti" (Nine Dash Line) adı verilən bir anlayışa əsaslanır və Cənubi Çin Dənizinin böyük hissəsini əhatə edir.Eyni zamanda Çin, ABŞ-nin bölgədəki hərbi mövcudluğunu regiondakı sabitliyə və öz suverenliyinə qarşı təhdid hesab edir. ABŞ isə, ərazi mübahisələrində tərəfsiz olduğunu bildirir, lakin mübahisəli adalara yaxın hərbi gəmi və təyyarələr göndərir və bunu "naviqasiya azadlığı" əməliyyatları olaraq adlandırır. Bu məqalə, Cənubi Çin Dənizində gərginlik, Çin və ABŞ arasındakı qarşıdurmanın geosiyasi, iqtisadi və strateji aspektlərini araşdırır. Yaponiyanın Cənubi Çin Dənizində birbaşa marağı olmasa da, o, Filippin və Vyetnam kimi iddiaçılara gəmi və hərbi avadanlıq təmin edir.

**Açar sözlər:** *Cənubi Çin dənizi, qlobal təhlükəsizlik, Çin, ABŞ, ticarət yolları, təhdidlər və imkanlar, super güclərin qarşıdurması.*

### SUMMARY

Global Power Struggles in the South China Sea – The Hegemonic Battle Between China and the USA

The South China Sea is one of the strategic areas in international politics where geopolitical interests collide. Currently, it serves as a platform for the global powers' struggle for dominance. The South China Sea is a region through which 30% of global trade passes, making its role in the global economy, energy security, and geopolitical relations even more significant.

U.S.-China relations have entered a complex phase. Trade wars have led to serious economic misunderstandings between the two nations. The U.S. is engaged in a contest against China's technological advancements, intensifying the modern technological race. Territorial disputes in the South China Sea and issues related to Taiwan also pose significant concerns for regional security. Thus, these relations resonate broadly in the global economic and political arenas.

China has become one of the main sources of regional tensions by asserting claims over vast areas of the South China Sea. Particularly, China's extensive sovereignty claims, covering both land and adjacent maritime areas, have angered other claimants in the region, such as Vietnam, the Philippines, Taiwan, Malaysia, and Brunei. These claims are based on the "Nine-Dash Line," which encompasses much of the South China Sea. At the same time, China considers the U.S. military presence in the region a threat to regional stability and its sovereignty. The U.S., while claiming neutrality in territorial disputes, sends military ships and aircraft near the contested islands, calling it "freedom of navigation" operations.

This article explores the geopolitical, economic, and strategic aspects of tensions in the South China Sea and the confrontation between China and the U.S. While Japan does not have direct interests in the South China Sea, it supplies ships and military equipment to claimants like the Philippines and Vietnam.

**Keywords:** *South China Sea, global security, China, U.S., trade routes, threats and opportunities, superpower confrontation.*

UOT 32
https://doi.org/10.30546/3006-0346.2024.6.84.036

# AZƏRBAYCANIN SİYASİ HƏYATINDA QADINLARIN YERİ VƏ ROLU

**AYTAC CƏFƏROVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, magistr*

*E-mail: aytac.ceferova.1929@gmail.com*

## Giriş

Bütün dünyada istər ictimai həyatda, istərsə də siyasi arenada qadınlar tarix boyunca kifayət qədər təmsil olunmayıb. Qadınların siyasi iştirakı demokratiyanın, vətəndaş hüquq və azadlıqlarının, gender bərabərliyinin əsas şərtidir. Beynəlxalq standartlar həm kişilərin, həm də qadınların siyasi proseslərin müxtəlif səviyyələrində və aspektlərində bərabər şəkildə iştirak etmələrinin zəruriliyini şərtləndirir. Nəzəri cəhətdən bu, bərabər hüquq və imkanlarda nəzərdə tutulur, lakin praktikada özünü tam doğrultmur. Dünya əhalisinin yarısı qadın olsa da, siyasi sferada bunu demək olmaz. İllər keçdikcə qadınlar ikinci plana salınıb və siyasi arenada kişilərin xeyrinə işləyən ideologiyalar, strukturlar və prosedurlarla məhdudlaşdırılıb. Bundan əlavə, siyasi sahənin görünməz tavanı var ki, bu da çox vaxt siyasi iştiraka mane olub və qadınların siyasi karyerada yüksəlişi əngəllənib. Demokratiyanın vətəni sayılan Amerika Birləşmiş Ştatlarının bu vaxta qədər heç vaxt qadın prezidentinin olmaması qadınların siyasi fəaliyyətlərinin məhdudlaşdırılmasının bariz nümunəsidir. Son illərdə qadınların siyasi həyatda təmsilləri artan xətt üzrə inkişaf edir. Müstəqillik əldə etdiyi dövr qısa olsa da, Azərbaycan Respublikasında gender siyasəti uğurla həyata keçirilir. Qadının ictimai həyatın bütün sferalarında yerinin və rolunun yüksəkdə olması qədim köklərə sahib olan tarixi proseslərlə bağlıdır. “Qadın” ifadəsinin sözün əsl mənasında yeri və rolu həm şifahi xalq ədəbiyyatında, həm yazılı mənbələrdə öz əksini tapıb. Cəmiyyətin aparıcı qüvvəsi olan “qadın” obrazı Azərbaycan siyasi həyatında özünəməxsus yerə sahibdir. Günümüzdə kişilərlə bərabər səviyyədə hüquq və azadlıqlara sahib qadınlar müxtəlif sferalarda öz sözlərini deyirlər.

## Əsas

Azərbaycan ərazisində hələ qədim zamanlardan qadına verdiyi dəyər ilə seçilən dövlət olmuşdur. Heç təsadüfi deyil ki, Türk xalqlarından olan ilk qadın sərkərdə və dövlət başçısı Skif dövlətinin başçısı Tomris olmuşdur. Qəhrəmanlığı və şücaəti ilə o, öz adını tarixə qızıl hərflərlə yazdırmışdır. “Kitabi-Dədə Qorqud” dastanınna nəzər salsaq, görərik ki, türkün milli mədəni dəyərlərinin, müqəddəslik və toxunulmazlıq zirvəsində “qadın” dayanır. Türk qadını həm ana, həm tərbiyəçi, həm də qəhrəman döyüşçü olaraq təqdim edilir. Dastanda qadın “evin dayağı”adlandırılır və türk təfəkküründə qadın faktorunun necə yüksək yerə sahib olduğunun təcəssüm etdirir. “Koroğlu” dastanında sultan qızı “Nigar” mərd, döyüşə hazır bir qadın olaraq obrazlaşdırılıb. Xalq qəhrəmanı Qaçaq Nəbinin həyat yoldaşı Həcər də at belində, 25 il onunla silahdaşlıq etmiş qəhrəman qadın nümunələrindəndir.

Siyasi fəaliyyətlə məşğul olan ilk azərbaycanlı qadın Sara Xatun olmuşdur ki, o eyni zamanda Şərqdədə ilk diplomat qadın hesab olunur. O, Ağqoyunlu dövlətinin xarici siyasətinə, xüsusilə də Osmanlı imperiyası ilə danışıqlara yön vermişdir. Sara Xatun oğlu Uzun Həsənə Ağqoyunlu dövlətinin idarəçilik işlərində də yaxından kömək etmişdir. O, ilk diplomatik səfərini Ağqoyunlu dövlətinin tanınması üçün Misirə etmişdir. Onun ən uzun diplomatik səfəri Osmanlı dövlətinə olmuşdur. Sara Xatun qadınların hüquqları olmadığı bir dövrdə siyasi fəaliyyəti siyasətə yeni bir nəfəs gətirdi [2]. 1813-cü ildə Qarabağ xanı İbrahimxəlil Xanın qızı Tuti bəyim Osmanlı Sultanına kömək üçün gön-dərdiyi məktub diplomatik səciyyə daşıyırdı[6]. Xanlıqlar dövürünün bitməsi və Rusiya imperiyasının Azərbaycan torpaqlarını ələ keçirməsindən sonra yeni tipli idarə üsulu bərqərar olmuşdur. Qadınlar seçki hüququndan tamamilə məhrum edilmişdi. XIX əsrin sonu XX əsrin əvvəllərindən mütərəqqi ideyalar yaranmağa və yayılmağa başladı. 1875-ci ildə “Əkinçi” qəzetinin nəşri ilə Azərbaycan maarifçilik və milli hərəkat başladı. Maarifçilik ideyaları qadınlardan da yan keçmədi və Şərq qadınlarına xas olmayan yeni obraz yaranmağa başladı. XIX əsrdə Şərqdə ilk dəfə “Qadınlar Klubu” Ceyran Bayramovanın səyi nəticəsində açılmışdır və bu hadisə həmin dövr üçün mühüm hadisə sayılır. Rusiya və Avropaya təhsil almağa gedən gənclərin vətənə dönməsi ilə səciyyələnən Təkamül dövrü 1905-1917-ci illəri əhatə etdi. “Əgər cəmiyyətdə qadın azad deyilsə, həmin cəmiyyət inkişaf edə bilməz” fikrini Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Həsən bəy

Zərdabi, Məhəmmədəmin Rəsulzadə kimi görkəmli ziyalılar dəstəkləyirdi. 1907-ci ildə Xəlil bəy Xasməmmədov Rusiya dövlət Dumasında çıxışında qadınlara seçki hüququnun verilməsinin labüdlüyünü vurğulamışdır. Qadınların mədəni səviyyəsini yüksəltmək üçün Hənifə xanım Məlikova tərəfindən 1908-ci ildə ilk Azərbaycan qadın xeyriyyə cəmiyyəti yaradılmışdır. Xədicə Əlibəyova 1911-ci ildə cəmiyyətin üzvü olaraq "İşıq" adlı ilk qadın mətbuatının yaradıcısı və redaktoru olmuşdur. 1917-ci ildə Bakıda Ümumqafqaz Müsəlmanlarının Qurultayında Şəfiqə xanım Əfəndizadə və Suğra xanım Talışxanova iştirak etmişdir və bu, rezonansa səbəb olmuşdur [3]. Qadınların siyasi hüquqlarının tanınması, təhsilə cəlb olunma kimi məsələlər müzakirə olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qadınlara verdiyi ən böyük töhfə seçki hüququ oldu. Həmin qərar nəinki Şərqdə, hətta Qərbdə ilk dəfə qadınlara kişilərlə bərabər hüquqlar verən ilk sənəd oldu. Qadınlar seçmək və seçilmək hüququ əldə etdilər. Qadın hüquqları formal cəhətdən tanınırdı, lakin faktiki olaraq qadınlar siyasətdən uzaq dururdular. Bu isə savadsızlıqla və cəmiyyətin mövcud patriarxal quruluşu ilə bağlı idi. Bu dövrdə qadınların siyasi iştirakını artırmaq üçün ali təhsilin əlçatan olması üçün addımlar atılsa da, AXC-nin ömrü buna çatmadı. Azərbaycan Sovet Sosialist Respublikası bərqərar olunduqdan sonra qadınların savadsızlığının aradan qaldırılması, siyasi şüurun oyanması üçün genişmiqyaslı işlərə başlanıldı. 1920-ci ilin noyabr ayında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yanında Mərkəzi qadın şurası təsdiqləndi. Azərbaycan Sovet Sosialist Respublikasının dövlət başçısı funksiyalarını yerinə yetirmiş ilk və tək qadın 9 sentyabr - 20 noyabr 1920-ci illərdə Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin sədri olmuş Yelena Stasova olmuşdur. Həmin dövrdə Mərkəzi İcraiyyə Komitəsinin üzvlərindən biri Ayna Sultanova olmuşdur ki, o 1930-1937-ci illərdə Azərbaycan SSR-in Xalq Ədliyyə Komisarı vəzifəsini icra etmişdir və Azərbaycan tarixinin ilk qadın naziri olmuşdur. 1938-ci ildə yeni qurulmuş rejimlə razılaşmadığına görə represiya qurbanı olmuşdur. 1959-1983-cü illərdə Tahirə Tahirova ilk qadın xarici işlər naziri olaraq fəaliyyət göstərmişdir. Züleyxa Hüseynova Azərbaycan SSR ali və orta ixtisas təhsilli naziri, SSRİ Ali Sovetinin deputatı kimi fəalliyyət göstərmişdir. Zərifə Zülfüqar qızı Şükürova Azərbaycan ictimai-siyasi həyatının fəal üzvü və dövlət xadimi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi olmuşdur. Səkinə Abbas qızı Əliyeva Azərbaycan SSR-nin dövlət xadimi və siyasətçisi olmuşdur. O, Naxçıvan MSSR maarif naziri, Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Komitəsinin katibi, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində çalışmışdır. Rəfiqə Qazıyeva 1980-1991-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi olmuşdur. Elmira Mikayıl qızı Qafarova 1980–1983-ci illərdə Azərbaycan SSR xalq maarifi naziri vəzifəsini icra etmişdir. O, 1983-1987-ci ildə Azər-baycan SSR xarici işlər naziri, 1987-1989-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1989-1990-cı illərdə Rəyasət Heyətinin sədri, 1990-1991-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri, 1991-1992-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin ilk sədri kimi fəaliyyət göstətmişdir.

Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra qadınlar fəal şəkildə siyasi aktor kimi çıxış etməyə davam etdilər. Qanuni olaraq qadınlar, kişilərlə bərabər hüquq və azadlıqlara Konstitusiya əsasında təsdiqləndi.Ümummilli Lider, Azərbaycançılıq məfkurəsinin bayraqdarı Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə qadın siyasəti xüsusi əhəmiyyət qazandı. Qadınların siyasi iştirakı artdı, siyasi ideologiyası yarandı.

1995-ci il parlament seçkilərində qadın namizədlərin iştirakı yenicə müstəqillik əldə etmiş Azərbycanın siyasi quruluşunda qadınlara yer verilməsi Heydər Əliyevin dövlət quruculuğunun uğuru idi. Fatma Abdullazadə, Gülnarə Qurbanova, Əsmətxanım Məmmədova, Naira Şahtaxtinskaya, Çimnaz Əliyeva, Nigar Ələkbərova, Elmira Qasımova, Zeynəb Xanlarova, Səmayə Piriyeva Milli Məclisin I Çağırışında seçilmiş qadın deputatlardır. .

1998-ci ildə qadın hüquqlarının qorunması məqsədi ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdı. Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət komitəsinin ilk sədri Zəhra Quliyeva olmuşdur. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi"nə dair Fərmanı mühüm nəticələr verdi.

2000-ci il 5 noyabrda Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi. İlk dəfə bu seçkilərdə informasiya texnologiyaları tətbiq edildi. 3212915 seçicidən 2000198 nəfər iştirak etdi. Bu da cinsindən, irqindən asılı olmayaraq bütün vətəndaşların siyasi iştirakının müsbət inkişafını göstərir. Gövhər Baxşəliyeva, Rəbiyyət Aslanova, Gülər Əhmədova, Gültəkin Hacıyeva, Məlahət Həsənova,

Zeynəb Xanlarova, Asya Manafova, Bahar Muradova, Gülçöhrə Məmmədova, Əsmətxanım Məmmədova, Amaliya Pənahova Milli Məclisin II çağırışında seçilmiş qadın deputatlardır [7].

İlham Əliyev Prezident seçildikdən sonra Heydər Əliyev siyasi kursunu uğurla davam etdirdi və yüksəklərə qaldırdı. Azərbaycan xalqının xüsusilə də Azərbaycan qadınının şansı hakimiyyətə düzgün liderlərin vaxtında gəlməsi və müstəqil siyasətimizin qurulmasıdır.

2005-ci il 6 noyabr tarixində Azərbaycan Respublikası Milli məclisinə III dəfə seçkilər keçirildi. Yeni seçilən Milli Məclis üzvləri dekabrın 2-dən fəaliyyətə başladı. Lakin Prezident İlham Əliyev dekabrın 9-da nəticələri ləğv edilmiş 10 dairədə yenidən seçkilər keçirilməsi ilə bağlı sərəncam imzaladı. III çağırışda ən yüksək seçici dəstəyini ölkənin birinci xanımı Mehriban Əliyeva toplamışdır. Lalə Abbasova, Rəbiyyət Aslanova, Elmira Axundova, Gövhər Baxşəliyeva, Gülər Əhmədova, Jalə Əliyeva, Gültəkin Hacıbəyli, Zeynəb Xanlarova, Məlahət İbrahimqızı, Aynur Quliyeva, Həvva Məmmədova, Bahar Muradova, Qənirə Paşayeva deputat kimi parlamentdə öz yerlərini tutdular. Bahar Muradova Milli Məclisin Sədrinin müavini seçildi. 2006-cı ildə Prezident İlham Əliyevin Fərmanı ilə ailə, qadın və uşaq problemləri ilə bağlı dövlət siyasətini həyata keçirtmək üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. 2006-2020-ci illərdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsini Hicran Hüseynova icra etmişdir. Komitənin növbəti sədri Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının sədri olan Bahar Muradova olmuşdur [7].

2010-cu il 7 noyabr tarixində Milli Məclisin IV çağırış üçün seçkilər keçirildi. Mehriban Əliyeva, Aytən Mustafazadə, Sədaqət Vəliyeva, Sevinc Fətəliyeva, Gülər Əhmədova, Leyla Abdullayeva, Zeynəb Xanlarova, Elmira Axundova, Bahar Muradova, Jalə Əliyeva, Gövhər Baxşəliyeva, Gülçöhrə. Məmmədova, Sahibə Qafarova, Məlahət Həsənova, Sevinc Hüseynova, Qənirə Paşayeva, Rəbiyyət Aslanova, Kamilə Əliyeva, Aqiyə Nazçıvanlı Milli Məclisin yeni deputatları seçildi. Rəbiyyət Aslanova İnsan hüquqları komitəsinin sədri, Bahar Muradova yenidən Milli Məclisin sədr müavini seçildi [7].

V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər 2015-ci il noyabrın 1-də keçirildi. Mehriban Əliyeva, Dilarə Cəbrayılyova, Sevinc Fətəliyeva, Ülviyyə Həmzəyeva, Məlahət İbrahimqızı, Pərvin Kərimzadə, Aytən Mustafazadə, Sədaqət Vəliyeva, Ülviyyə Ağayeva, Elmira Axundova, Gövhər Baxşəliyeva, Jalə Əliyeva, Sona Əliyeva, Sevinc Hüseynova, Zeynəb Xanlarova, Sahibə Qafarova, Flora Qasımova, Bahar Muradova qadın deputatlar olaraq parlamentdə yerlərini tutdular. Bahar Muradova yenidən Milli Məclisin sədr müavini olaraq və İnsan hüquqları komitəsinin sədri seçildi. Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı seçildi [7].

2020-ci il 9 fevral tarixində Milli Məclisə növbəti seçkilər keçirildi. Ülviyyə Ağayeva, Əminə Ağazadə, Nigar Arpadarai, Tamam Cəfərova, Jalə Əhmədova, Jalə Əliyeva, Kamilə Əliyeva, Sevinc Fətəliyeva, Hicran Hüseynova, Sevinc Hüseynova, Ülviyyə Həmzəyeva, Afət Həsənova, Səbinə Xasayeva, Məlahət Həsənova, Pərvin Kərimzadə, Sahibə Qafarova, Sevil Mikayılova, Aqiyə Naxçıvanlı, Könül Nurullayeva, Qənirə Paşayeva, Sədaqət Vəliyeva, Yıldırım Fatma Vidadi qızı VI çağırışın qadın deputatları seçildilər. Məlahət Həsənova Əmək və sosial siyasət Komitəsinin sədr müavini seçildi. Sevinc Fətəliyeva Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədr müavini se-çilmişdir. Sahibə Qafarova Milli Məclisin sədri seçilmişdir [7].

Prezident İlham Əliyevin 2024-cü il 28 iyun tarixli sərəncamı ilə Milli Məclisin VI çağırışı buraxıldı. 1 sentyabr 2024-cü ildə növbədənkənar seçkilər keçirildi. Ülviyyə Həmzəyeva, Nigar Arpadarai, Səbinə Xasayeva, Gülşən Paşayeva, Günay Əfəndiyeva, Məlahət Həsənova, Könül Nurullayeva, Sevinc Fətəliyeva, Afət Həsənova, Pərvanə Vəliyeva, Pərvin Kərimzadə, Hicran Hüseynova, Mehriban Vəliyeva, Səbinə Salmanova, Elnarə Akimova, Nigar Məmmədova, Sevil Mikayılova, Əminə Ağazadə, Günay Ağamalı,Tənzilə Rüstəmxanlı, Tamam Cəfərova, Jalə Əliyeva, Fatma Yıldırım, Sahibə Qafarova, Sevinc Hüseynova, Ülviyyə Ağayeva seçildi. Parlamentin sədri yenidən Sahibə Qafarova deputat seçildilər. Səbinə Xasayeva Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə İşçi qrupun rəhbəri, Məlahət Həsənova Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Könül Nurullayeva Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Sevimc Fətəliyeva Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Pərvin Kərimzadə Azərbaycan-Panama parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Hicran Hüseynova Azərbaycan-Vyetnam parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Nigar Məmmə-

dova Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Əminə Ağazadə Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Günay Ağamalı Azərbaycan-Sudan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Tənzilə Rüstəmxanlı Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Tamam Cəfərova Azərbaycan-Venesuela parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Jalə Əliyeva Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Sevinc Hüseynova Azərbaycan-Honduras parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri təyin olundular. Jalə Əliyeva Ailə, qadın və uşaq məsələləri komitəsinin, Könül Nurullayeva Gənclər və idman komitəsinin, Günay Əfəndiyeva Mədəniyyət komitəsinin, Nigar Arpadarai Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Fatma Yıldırım Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavinləri vəzifəsinə seçildilər.[7]

Azərbaycanda qadınlar yerli özünüidarəetmədə də aktiv təmsil olunurlar. 2004-cü il bələdiyyə seçkilərində qadınların təmsilçiliyi 4 faiz idisə, 2009-cu ildə bu, 26,7 faiz, 2014-cü ildə isə 35 faiz olub. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlərindən 5882 nəfəri qadın, 9272 nəfəri isə kişi olmuşdur. Bu, Azərbaycan tarixində qadınların bələdiyyə təmsilçiliyində rekord göstərici olaraq qeyd olunmuşdur.

Milli Məclisin və bələdiyyə seçkilərində ilbəil artan qadın namizədlərin çoxluğu düzgün gender siyasətinin və demokratiyanın göstərciləridir.

Müasir dövrümüzdə Azərbaycanda qadının siyasətdə yeri və rolunun ən parlaq və mükəmməl nümunəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Arif qızı Əliyevadır. Öz xarakterində humanizm, insanpərvərlik, yüksək mənəvi keyfiyyətləri birləşdirən Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun Prezidenti olaraq milli-mənəvi dəyərlərin qorunub saxlanması və yeni nəsillərə ötürülməsi, sivil dünyaya inteqrasiya, Azərbaycan xalqının rifahı və tərəqqisi, elmin, təhsilin yüksəldilməsi üçün əlindən gələni edir. Mehriban xanım qadının “Ana”obrazı olaraq yalnız ailədən və uşaqlardan ibarət olmadığının, ictimai sferada istənilən sahədə uğurlu ola biləcəyinin, günəş kimi cəmiyyəti işıqlandıra biləcəyinin bariz nümunəsidir. Ən demokratik ölkələrdə belə qadınlara qarşı diskriminasiyanın, patriarxal quruluşların hələ də mövcud olduğu bir dövrdə çox gənc müstəqillik yaşı olmasına baxmayaraq Azərbaycan mükəmməl bir nümunəni yüksək tribunalardan dünyaya nümayiş etdirir. Ölkəmizin birinci xanımı qadın hərəkatının lideri olaraq qadın hüquq və azadlıqlarının carçısıdır. İctimai-siyasi xadim Birinci xanımın təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir sıra elmi, sosial, mədəni layihələr hazırlanmışdır. Azərbaycan mədəniyyətinin, musiqi və folklorunun, ədabiyyatının, tarixinin dünyaya tanıdılması Heydər Əliyev Fondu ilə, birbaşa Mehriban xanımın adı ilə bağlıdır. Post-sovet məkanında ictimai həyatda fəal iştirak edən çox az ölkə başçısının xanımının adını çəkmək olar.

Mehriban Əliyevanın ictimai fəaliyyəti 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu təsis etməsi ilə genişlənmişdir. Mədəniyyətimizin təbliği məqsədilə 1996-cı ildən “İrs” jurnalını təsis etmişdir. O, 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. Mehriban xanım 2004-cü ildən Heydər Əliyevin siyasi irsinin öyrənilməsi üçün yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Birinci xanım 2005-2017-ci illər ərzində Milli Məclisin deputatı seçilmişdir. Mehriban Əliyeva 2017-ci il fevral ayının 21-i Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuşdur.

Gözəllik, nəciblik, xeyirxahlıq təcəssümü Mehriban xanımın simasında cəmlənib desək mübaliğə etmiş olmarıq. Mehriban xanım hər güclü kişinin araxasında dayanan güclü qadın obrazının nümunəsidir. Ümummilli Lider, Azərbaycan xalqının xilaskarı Heydər Əliyevin ailəsinin üzvü olması Mehriban xanımı qadın lider ruhunu formalaşdıran amillərdən biridir. Sözsüz ki, Ümummilli Lider qadınların cəmiyyətdə rolunu yüksək qiymətləndirmiş və bu fikirlər Mehriban xanımın daxili dünyasındaki keyfiyyətlərlə birləşib bugünki İdeal İctimai xadimin portretini formalaşdırmışdır. Mehriban Əliyeva bir çox mükafatlar və titulara layiq görülmüşdür. UNESCO-nun xoşməramlı səfiri, Azərbaycanda

"İlin qadını" 2005-ci ildə, "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni 9 iyun 2005-ci ildə, Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupunun "2005-ci ilin adamı" mükafatı 2005-ci ildə, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalı 2006-cı ildə, ISESCO-nun xoşməramlı səfiri 23 noyabr 2006-cı ildə, Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitəsinin mükafatı 29 yanvar 2007-ci il, "Qızıl ürək" beynəlxalq mükafatı 2007-ci ilin may ayında, Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı 5 may 2009-

cu ildə, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni 14 sentyabr 2009-cu ildə, Fransa Respublikasının "Şərəf Legionu" ordeni 15 fevral 2010-cu il, UNESCO-nun "Qızıl Motsart" medalı 30 iyul 2010-cu ildə, Krans Qızıl medalı 24 iyun 2011-ci ildə, Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru 13 aprel 2012-ci ildə, MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurasının və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun "Birlik Ulduzları" dövlətlərarası mükafatı 13 aprel 2012-ci ildə, Krans Montana Forumunun "Prix de la Fondation" mükafatı 29 iyun 2012-ci il, Azərbaycan Kazaklar İttifaqının ali "Kazak şöhrəti"("Kazatskaya slava") mükafatı 2012-ci ildə, Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı — 2013" mükafatı 27 dekabr 2013-cü ildə, Türk-Alman Dostluq Federasiyasının "Kübele" fəxri mükafatı 2014-cü ilin may ayında, "The Business Year" jurnalının "İlin Birinci Xanımı" mükafatı 2014-cü ilin may ayında, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı 2014-cü ilin iyun ayında, Rusiya Federasiyasının Həştərxan vilayətinin "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni 2014-cü ilin avqust ayında Küveyt Dövlətinin Fəxri diplomu 2014-cü ilin avqust ayında, Azərbaycanda "Heydər Əliyev" ordeni 29 iyun 2015-ci ildə, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru 22 sentyabr 2016-cı ildə , Rusiyada Müqəddəs Məlaksima Knyaginya Olqa ordeni 26 dekabr 2017-ci ildə, İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeni 18 iyul 2018-ci ildə, Rusiyanın "Dostluq ordeni" 2019-cu ildə vitse-prezidentimizin aldığı nüfuzlu mükafatlardır.[8]

Leyla Əliyevanı Mehriban Əliyevanın davamçısı hesab etmək olar. Sələf olaraq anasının humanizm, insanpərvərlik xüsusiyyətlərinin daşıyıcısı Leyla Əliyeva Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri, 2011-ci ildən Heydər Əliyev fondunun vitse-prezidentidir. Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri olan Leyla xanım həm də İslam Əməkdaşlıq Təşkilatı Gənclər forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvüdür. Leyla xanım müasir Azərbaycan gəncliyinin təmsilçisi olaraq bir çox layihələrin təşəbbüskarıdır. İslam Konfransı Təşkilatının gənclər forumu ilə birgə "Xocalıya ədalət!" Beynəlxalq kampaniyasına start verilməsi də Fondun Moskva filialının fəaliyyəti ilə bağlıdır. 18 aprel 2009-cu ildə Leyla Əliyeva Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri vəzifəsinə seçilib. Azərbaycanın xarici siyasətində diaspor təşkilatlarının güclənməsi, xaricdə yaşayan vətəndaşlar fəallığının artırılması və onların Azərbaycanın haqq işinə dəstək verilməsində iştirakının stimullaşdırılması, azərbaycanlıların yaşadıqları ölkələrdə ictimai-siyasi proseslərdə yer almasının təşviq edilməsi əsas hədəflərdəndir ki, bu istiqamətdə addımlar atılır. Leyla Əliyeva 12 iyul 2011-ci il tarixində Azərbaycanda və dünyada ekoloji məsələlər ilə bağlı ictimai maarifləndirmə işinin gücləndirilməsi ilə əlaqədar IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyasının əsasını qoyub. IDEA planetin üzləşdiyi ekoloji problemlərin həllində gənclərin aktiv iştirakını təmin etməyi hədəfləmişdir. Leyla xanımın ictimai həyatda aktiv iştirakının nəticəsi olaraq bir sıra mükafatlara layiq görülmüşdür: "Tərəqqi" medalı-2011-ci ildə, Nyu-Yorkda humanitar aksiyalarda fəal iştirakına görə, "Key to life" fəxri mükafatına layiq görülüb-2011-ci ildə, BMT-nin sertifikat və xüsusi vəsiqəsini alıb-2011-ci ildə,; Həştərxan vilayətinə xidmətinə görə medalı-2012-ci ildə, Ətraf Mühitin Mühafizəsi VII Beynəlxalq Layihə Olimpiadası (İNEPO-Avrasiya) Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı ilə mükafatlandırılıb-2013-cü ildə, III dərəcəli Müqəddəs Məlaksima Knyaqina Olqa ordeni-2013-cü ildə, Volqoqrad vilayətinə xidmətinə görə medalı-2013-cü ildə, Aleksandr Puşkin medalı-2015-ci ildə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının qərarı ilə bu ali məktəbin "Xidmətlərə görə" medalına- 2016-cı ildə layiq görülmüşdür [9].

## NƏTİCƏ

Qadın ailənin, qadın cəmiyyətin özəyidir. Təhsilli, iqtisadi azadlığı əlində olan qadın cəmiyyətin xilaskarıdır. Biz bu gün Əfqanıstan, İran kimi despot rejimlərdə qadın hüquq və azadlıqlarının tapdalandığı şəraitdə yaşamırıqsa, bu Azərbaycan hakimiyyətinin uğurudur. Soy kökümüzü itirmədən, milli adətənənələrimizə bağlı qalaraq qadın məfhumunu bütün sferalara inteqrasiya etməyi bacaran güclü formada qoruyub saxlamalıyıq. Zərif varlıq olan Azərbaycan qadını kişilərlə çiyin-çiyinə istənilən çətinliyə qalib gələ bilər. Çünki at belində

vuruşan Həcər də, maarifçilik cərəyanı ilə qadınları təhsilə çağıran Şəfiqə xanım Əfəndiyeva da Azərbaycan qadınıdı. Qadın kişi fərq qoyulmadan hər cür şəraitdə, lazım olan formada hər kəs vətəndaşlıq borcunu yerinə yetirməlidir. Fikimcə, qadın və kişilər arasında hüquq və azadlıqlar faktiki olaraq elə bərabər səviyyədə qurulmalıdır ki, biz artıq siyasəti kim tərəfindən deyil, necə və nə cür icra olunduğunu müzakirə edək. Əsl demokratiya o zaman bərqərar olacaq. Mövcud situasiyada və şərtlərdə, dövlətçilik ənənələrinin müstəqil formalaşdığı qısa zaman olan Azərbaycan cəmiyyəti və hakimiyyəti nəinki siyasi həyatda, cəmiyyətin bütün sferalarında qadına ən yüksək dəyəri və yeri vermişdir. Adlarını çəkdimizi şücaətli, ziyalı qadınlar siyasi arenada yerlərinin və əhəmiyyətlərinin nə dərəcədə olduğunu fəaliyyətləri ilə nümayiş ediblər. Keçmişdə və bu gün mövcud olan siyasətçi qadınlar gələcək nəsilllər üçün münbit zəmin formalaşdırmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbyacn Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika Elmi Konfransının materialları . Bakı-2014. s.263*

*2. Azərbaycan" qəzeti,No:247, "Xatun Sultan" məqaləsi*

*3. Cümhuriyyətə işıq saçan qadınlar. Bakı-2018. s.495*

*4. M. Qasımlı, B. Muradova, V. Qafarov. Azərbaycan Parlamemtarizmi tarixi- I cild. Bakı-2018. S. 684.*

*5. M. Qasımlı, B.Muradova, V. Qafarov. Azərbaycan Parlamemtarizmi tarixi- II cild. Bakı-2018. S.686*

*6. N.Ələkbərova. Siyasi İmicmeykinq. Bakı-2019. S.246*

*7. www.meclis.gov.az*

*8. az.wikipedia.org. Mehriban Əliyeva.*

*9. az.wikipedia.org. Leyla Əliyeva.*


## XÜLASƏ


Məqalədə qədim zamanlardan bu günə qədər Azərbaycanda qadınların siyasi iştirakı, siyasi fəallığı mövzusu əsas götürülmüşdür. Azərbaycan Respublikası qadın siyasətini böyük uğurla həyata keçirən, qadınlara siyasi sferada təmsil olunmağa geniş imkanlar verən nümunəvi dövlətlərdəndir.



Açar sözlər: Azərbaycan, Milli Məclis, siyasət, qadın, təhsil, maarifçilik, gender siyasəti,



**Джафарова Айтадж Шаиг**
***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, магистр***
***Э-почта: aytac.ceferova.1929@gmail.com***


## МЕСТО И РОЛЬ ЖЕНЩИН В ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ


В статье основное внимание уделяется политическому участию и политическому активизму женщин в Азербайджане с древнейших времен до наших дней. Азербайджанская Республика является одним из образцовых государств, которое с большим успехом реализует женскую политику и предоставляет женщинам широкие возможности для представительства в обществе. политическая сфера.



**Ключевые слова:** *Азербайджан, Милли Меджлис, политика, женщины, образование, образование, гендерная политика.*



**Aytac Shaig gizi Jafarova**
***Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Master's Student.***
***E-mail:aytac.ceferova.1929@gmail.com***


## THE PLACE AND ROLE OF WOMEN IN THE POLITICAL LIFE OF AZERBAIJAN

## SUMMARY


The article focuses on the topic of women's political participation and political activity in Azerbaijan from ancient times to the present. The Republic of Azerbaijan is one of the exemplary countries that successfully implements women's policy and provides extensive opportunities for women to participate in the political sphere.



**Keywords:** *Azerbaijan, Milli Majlis, politics, women, education, enlightenment, gender policy.*

UOT 32
https://doi.org/10.30546/3006-0346.2024.6.84.038

# COP29 AZƏRBAYCANIN NÜFUZUNA VƏ BEYNƏLXALQ İMİCİNƏ YÜKSƏK TƏSİR GÖSTƏRDİ

**RƏBİYYƏ SADIQZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

*E-mail: rbiyy84@gmail.com*

## Giriş

Azərbaycan regionda da yaşıl siyasətə ən çox dəstək verən qabaqcıl ölkələrdəndir. Belə ki, bərpaolunan enerji mənbələrinin yaradılması və saylarının artırılması istiqamətində uğurlu işlərə imza atılmışdır. İşğaldan azad olunan ərazilərimizdə bərpaolunan enerji layihələrinə artıq start verilmişdir. Prezident İlham Əliyev azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan etmişdir. Bu ərazilərin enerji potensiallarının 2050-ci ilə qədər daha da artırılması nəzərdə tutulur. Sözügedən bu hadisələr dünya ictimaiyyətinin də maraq obyektindədir.

COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın ekoloji məsələlərin həllində maraqlı olduğunu göstərməsilə yanaşı, eyni zamanda, uğurlu dövlət siyasətimizin olmasını da sübut edir. COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar [3]. Belə ki, burada iqlim məsələləri ilə bağlı Azərbaycan dövlətinin öz xüsusi proqramı da mövcuddur. Dövlət proqramında strateji enerji sahələrinin spesifik və vəhdətli inkişafi nəzərdə tutulur. Spesifiklik hər bir belə sahənin inkişafını, vəhdət isə onların bir-birindən asılı olan inkişafını, yəni inkişaf proporsiyalarını ifadə etmiş olur [9, s.21.]. Proqramda toxunulan mövzular COP-a aid bir çox məsələlərdə özünü göstərir. Buradan da aydın görürük ki, iqlim sahəsinə Azərbaycan dövləti yüksək səviyyədə dəstək olur.

### 1.1 COP29-da Azərbaycan dünyanın diqqətində

Qeyd etmək lazımdır ki, dünyada qlobal iqlim dəyişikliyi ilə bağlı ən mühüm qərarlar məhz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin konfranslarında (COP) qəbul edilir [2]. COP-un qlobal əhəmiyyətli tədbir olması və onun 29-cu sessiyasının məhz Azərbaycanda keçirilməsi Azərbaycanın beynəlxalq imicinə də müsbət təsir etdi. Azərbaycan bu tədbirə yüksək standartlara uyğun şəkildə hazırlaşaraq hər zaman olduğu kimi müsbət gözləntiləri doğrultdu.

Belə ki, bu tədbir vasitəsilə dünyaya bir çox məqamlar çatdırıldı. Potensial neft-qaz ehtiyatlarına malik bir ölkə olmasına baxmayaraq, hər zaman Azərbaycan "yaşıl siyasət"ə dəstək verən ölkələrdən biri olmuşdur. Nümunələrdən biri: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 oktyabr 2004-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" və 2009-cu ildə Alternativ və bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması bu istiqamətdə aparılan əsas işlərdəndir [1, s.11]. Bu cəhət də təbii olaraq, dünya ictimaiyyətinin ölkəmizə etibarını yüksəldir. COP29-un Azərbaycanda keçirilməsinin bir digər əhəmiyyətli səbəbi isə, dünyanın Azərbaycanın apardığı siyasətə dəstək verməsindən irəli gəlir.

Bakıda noyabrın 11- dən 22-nə qədər davam etmiş konfranslarda həm inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olan ölkələrin iştirakçılığı ilə onların hər birinin üzləşdiyi iqlim dəyişikliklərinin təsirlərinin, karbon qazının ($CO_2$) miqdarının azaldılması üzrə müzakirələr aparılmışdır. Hesab olunur ki, atmosferə atılan karbon qazı emissiyaları qlobal istiləşməyə, iqlim dəyişikliklərinə gətirib çıxarır və buna görə də bunları dayandırmaq üçün beynəlxalq əməkdaşlığa ehtiyac var [4]. İştirakçı ölkələr iqlim böhranlarının həlli üzrə üzərlərinə düşən öhdəlikləri müəyyən şəkildə təhlil edərək ekoloji problemlərin gətirdiyi fəsadların azaldılması üçün plan və təkliflər irəli sürərək bu əməkdaşlığa öz töhfələrini verməyə çalışdılar.

Beləliklə, kollektiv fəaliyyət və qarşılıqlı razılaşmalar əsasında bu sahədə birgə əməkdaşlıq əlaqələri genişlənən aspektdə irəliləyir. Bu əməkdaşlıqlar gələcək dünya üçün vacib addımların təməlini təşkil edir. İqlim problemlərinin həlli bu vasitə ilə dövlətlərarası vahid hədəfə çevrilmişdir. Çünki iqlim dəyişiklikliyi ilə mübarizə üçün dövlətlərin birgə səyi lazımdır. İnsan fəaliyyətləri nəticəsində yaranmış bu ekoloji böhranlar bütün dünya üçün potensial təhdid imkanı daşıyır.

Dünya ölkələrinin yaşıl enerjiyə keçid etmələri və buna yüksək səviyyədə təşəbbüs göstərmələri

dünyada mövcud enerji sistemini şaxələnən enerji sisteminə çevirir. Yaşıl enerjiyə transformasiya etmək ölkələrin inklüziv şəkildə enerji ehtiyaclarına olan tələbləri də qarşılayır. Bu məsələ ayrı-ayrılıqda ölkələrin milli siyasətlərində də yer alıb.

Aparılan siyasətlərdə iqlim böhranları ilə mübarizə ilk sıralarda olduğu üçün məsələyə beynəlxalq münasibətin yaranması heç də təsadüfi deyil."Yaşıl siyasət" ilə struktiv şəkildə "yaşıl dünya"ya doğru irəliləmək dünyanın qarşıya qoyduğu öhdəlikdir.

1.2 COP29-da beynəlxalq sülhə də çağırış

Azərbaycan COP29-a ev sahibi olan ölkə kimi ekoloji böhranın yaratdığı fəsadların həlli istiqamətində ölkələrin göstərdiyi həmrəyliyə də yüksək qiymət verir. Həmçinin, Azərbaycan konfransda yeni iqlim maliyyəsi hədəfi üzrə müzakirələrdə mümkün olduğu qədər tərəf ölkələri fikir ayrılıqlarını aradan qaldırmağa, daha optimal mövqe tutmağa və kompleks fəaliyyətə çağırırdı.

Azərbaycanın COP29-a ev sahibliyi zamanı əsas diqqət yetirdiyi digər bir prioritet məsələ də beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək və onu qorumaqdır. Bu, COP konfranslarında artıq ilk hadisələrdir. Prezident İlham Əliyevin tapşırığı əsasında sülhə dair çağırışlar konfransın formatında öz yerini tutaraq lazımi mesajlar ötürülmüşdür.

Azərbaycan hər zaman sülhün təminatçısı olmuşdur. Beynəlxalq hüquq və ədalət prinsipləri ilə öz xarici siyasətini qurmuş və bu istiqamətdə də davam etdirmişdir. Sülhün həm regionda, həm də dünyada qorunması üçün Azərbaycan daim öz dəstəyini göstərir. Bu istiqamətdə ölkələrarası əməkdaşlığın artırılmasında dövlətimiz öz tərəfdaşlıq prinsiplərinə də sadiqdir. Belə ki, Azərbaycan region dövlətləri ilə qonşuluq münasibətlərinin müsbət fazada irəliləməsində və təhlükəsiz vəziyyətdə iqtisadi-ticarət əlaqələrinin genişlənməsində, həmçinin sülh və əmin-amanlıq şəraitində mədəni əlaqələrin inkişafında da maraqlıdır. Biz bunu Azərbaycanın xarici siyasətində açıq şəkildə görə bilərik.

Azərbaycan multikultural və tolerant bir ölkə olduğuna görə digər xalqların tarixi irsinin qorunması və tanınmasına da hörmətlə yanaşır. Bu xüsusiyyət Azərbaycanın bir dövlət kimi dünya çapında öz layiqli yerinin olmasına səbəb olmuşdur. Sadəcə bu faktor belə Azərbaycanın COP29-a ev sahibi olmasına yetərlidir.

**2.1 COP29-un mötəbər ev sahibi Azərbaycan**

Azərbaycanın beynəlxalq aləmdə güclü mövqelərə sahib olmasını, dünya dövlətlərinin ölkəmizə olan böyük hörmətini dövlətimizin apardığı uğurlu xarici siyasətin və haqlı mövqeyimizin sayəsində qazanmışıq. Müstəqil siyasətimiz, prinsipial dəyərlərimiz, beynəlxalq hüquqa bağlılığımız və öz sözümüzə sadiqliyimiz bizə beynəlxalq aləmdə söz sahibi olmağımıza imkan yaratdı.

Eyni zamanda, ölkəmizin ərazi suverenliyinin bərpa edilməsi də Azərbaycana olan hörməti artırdı. Bu hörməti biz onda görürük ki, antiterror əməliyyatlarından 2 ay yarım sonra COP29-un Azərbaycanda keçirilməsi qərarı qəbul edilmişdir. Aydın məsələdir ki, dünya ictimaiyyətinin Azərbaycana bu dərəcədə yüksək səviyyədə olan hörmət və etimadı Azərbaycanın böyük uğurudur. Bu uğur illərlə sürən siyasi əməyin nəticəsidir.

Bakıda COP29-un keçirilməsi beynəlxalq aləmin bütün üzvlərinin yekdil razılığı əsasında baş tutmuşdur. Bu da beynəlxalq aləmdə nüfuzumuzun böyük olmasına daha bir gözəl nümunədir. Baxmayaraq ki, antiterror əməliyyatlarından sonra bəzi qərb ölkələri Azərbaycana qarşı əsası olmayan ittihamlar irəli sürmüşdü, ancaq bu ittihamlar əlbəttə ki, özünü doğrultmadı. Azərbaycanın beynəlxalq nüfuzu qarşısında bu ittihamlar öz əhəmiyyətini itirdi. Çünki Azərbaycan heç bir beynəlxalq hüquqa zidd bir addım atmamışdır, əksinə beynəlxalq hüququn tələblərini özü təkbaşına yerinə yetirmişdir.

Bu bizim humanist mövqeyimizdən irəli gəlir. Azərbaycanın humanist mövqeyi bəzi qərb ölkələrində qıcıq yaratsa da, məqsədimizi reallaşdırmağımıza əngəl ola bilmədi. Həmin qüvvələr artıq bu vəziyyətlə barışmalı olduqlarını qəbul etməlidir. Azərbaycanın suverenliyinə hörmətlə yanaşmalı və əsassız ittihamlarından əl çəkməlidirlər. Bu, sadəcə onların xeyrinə bir addım olacaq.

Çünki regionda və dünyada beynəlxalq layihələrin həyata keçirilməsində Azərbaycan önəmli partnyordur. Bu əməkdaşlıq xüsusilə ölkələrarası etimad üzərində qurulduğu üçün bu qədər əhəmiyyətlidir. Azərbaycan da qazandığı etimadı hər zaman doğrultduğu üçün bu məsələdə özünü bir daha təsdiq etmişdir.

Bu günə qədər Azərbaycanın üzərinə düşən məsuliyyətlər böyük olmuşdur. Lakin hər zaman ölkəmiz buna həssas yanaşmış və məsələyə lazımi diqqəti göstərmişdir. Bu faktor da beynəlxalq aləmin Azərbaycana olan inamını daha da artırmışdır.

Beynəlxalq aləm dedikdə, əlbəttə ki, bütün dünya ölkələri nəzərdə tutulur. Beynəlxalq aləmin etimadını COP29-un Bakıda keçirilməsi qərarından qabaq Azərbaycanın "Qoşulmama Hərəkatına" 4 il boyunca rəhbərlik etməsində də aydın olaraq görə bilərik. 120 ölkənin dəstəyi nəticəsində rəhbərliyimiz qəbul edilmişdir. Bu, böyük nailiyyətdir.

**2.2 Yeni nizam və yeni hədəflər**

Dünya artıq yeni bir dövrə qədəm qoyur. Yeni bir dünya nizamı yaranır. Azərbaycan isə yeni dünya sistemində böyük önəmə sahib ölkələrdəndir. Dünya problemlərinin həllində daha yaxından iştirak etməsi ölkəmizi önəmli aktora çevirmişdir. Bu problemlərdən biri və ən böyüyü olan ekoloji böhranların həllinə yönələn COP konfranslarının bu il Bakıda keçirilməsi dünyanın bütün diqqətini bura cəmlədi. COP29-un keçirilməsi zamanı Bakı dünyanın mərkəzinə çevrildi. Bu mərkəzdən bəşəriyyətə qlobal əhəmiyyətli çağırışlar edildi.

Nəzərə alsaq ki, ölkələrin təmsilçiliyi baxımından miqyasca böyük olan COP29 ən əhəmiyyətli tədbirlərdən olduğu üçün bu çağırışlar da vacib önəm daşıyır. Məhz buna görə Bakıdan dünyaya göndərilən mesajlar mütləq şəkildə beynəlxalq ictimaiyyətə maraqlıdır. Yeni bir dünya nizamının yarandığı bu dövrdə həmin çağırışlara biganə qalmaq mümkün deyil. Burada dünyanı maraqlandıran "yaşıl enerji" ilə bağlı müzakirələr ön planda oldu və onun növlərinin artırılması istiqamətində dövlətlər öz rollarını müəyyən etdilər.

Azərbaycan öz çoxvektorlu və praqmatik enerji siyasətində "yaşıl enerji" məsələsini mərkəzi hədəf kimi müəyyən etmişdir. Eyni zamanda, Azərbaycanın siyasi gündəliyində yer alan "yaşıl enerji" məsələsinin dünya bazarına inteqrasiyası bizim enerji siyasətimizin əsas prioritetidir. Bu bir reallıqdır ki, Azərbaycan "yaşıl enerji" vasitəsilə dünya ekologiyasına töhfə verəcəkdir.

**Nəticə**

Azərbaycan öz prizmasından ekoloji məsələlərin həllini sadəcə sözdə deyil, əməldə də göstərməyin, artıq hərəkətə keçməyin vacib olduğunu nümayiş etdirir. Həmçinin, Azərbaycan mövcud ekosistemlər arasında işbirliyinin önəmini, davam etdirilməsi vacib səylərin sayının artırılmasını və bunun sadəcə dövlətlər tərəfindən deyil, dünya cəmiyyətləri tərəfindən dəstəklənməsi lazım bir məsələ olduğunu qeyd edir.

Bu problemləri yalnız birgə fəaliyyətlər nəticəsində həll etmək mümkündür. Azərbaycanın da COP29 vasitəsilə dünyaya çatdırmaq istədiyi mesaj da bu idi. Dünyanın bu gün üzləşdiyi təhlükəli vəziyyət digər təhlükələr kimi deyil. Çox daha fərqlidir. Ekoloji balansın normal vəziyyətə qaytarılması, iqlim təhdidlərinin aradan qaldırılması dünya ölkələrinin ali məqsədi olmalıdır.

Bu işdə xalqımız dövlətimizin yanındadır. Hər birimiz iqlim böhranlarının həllində maraqlı olmalıyıq. Belə ki, digər dünya dövlətləri və cəmiyyətləri ilə bu sahədə kommunikasiyaların qurulmasını, vacib hədəflərin müəyyənləşdirilməsini və praktiki fəaliyyətlərin reallaşmasını yüksək dəyərləndirmək və bu məsələyə düzgün qiymət vermək lazımdır. Çünki burada qazanılan uğur hər birimizin, dünyanın uğuru olacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ- YAŞIL İNKİŞAF: ENERJİ SƏMƏRƏLİLİYİ VƏ ALTERNATİV MƏNBƏLƏR-Bakı-2014

2. https://apa.az/cop29/cop-abs-in-basciliq-etdiyi-olkeler-qrupu-iqlim-deyisikliyi-ile-bagli-mesuliyyeti-digerlerinin-uzerine-atir-tehlil-828535

3. https://azertag.az/xeber/cop_nedir_ve_cop29_a_ev_sahibliyi_azerbaycana_ne_verecek-2875693

4. https://www.bbc.com/azeri/articles/cpr3vgv-5r95o.amp

5. https://cop29.az/az/home

6. https://cop29.az/az/home

7. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466

8. https://ereforms.gov.az/az/media/xeberler/cop29-azerbaycanin-iqtisadi-imkanlarini-daha-yaxindan-teqdim-etmeye-serait-yaradacaq-956

9. A.S.İsayev, M.C.Atakişiyev, R.Ə.Teymurova Azərbaycan Respublikasının yanacaq-enerji Kompleksinin inkişafı üzrə dövlət proqramından İrəli gələn elmi-əməli fəaliyyət vəzifələri-"Bakı-Azərnəşr"-2011

10. https://report.az/amp/cop29/ilham-eliyev-baki-cop-tedbiri-en-mohtesem-cop-lardan-biri-kimi-tarixe-dusecek/

11. https://unfccc.int/cop29

12. https://www.un.org/en/climatechange/cop29

**Xülasə**

Azərbaycan bu il qlobal əhəmiyyətli COP29 konfransına ev sahibliyi etdi. Bu konfrans Azərbaycanda keçirilən həm beynəlxalq əhəmiyyətli səviyyəsinə görə, həm də iştirakçı miqyasına görə ən böyük tədbirdir. COP-un əsas diqqət mərkəzində olan məsələlər iqlim böhranları və onların həll yolları, bərpa olunan enerjiyə keçid və "Yaşıl siyasət"dir. Belə ki, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub [8]. Bu, Azərbaycanın qlobal problemlərə həssas yanaşdığının, eləcə də, dünya siyasətinə inteqrasiyasının, habelə, ekoloji məsələlərin həllinə verdiyi dəstəyin göstəricisidir.

**Açar sözlər:** *"yaşıl siyasət"; bərpaolunan enerji; iqlim böhranı; sülh və təhlükəsizlik; Azərbaycan etibarlı tərəfdaş kimi.*

**COP29 had a great impact on Azerbaijan's reputation and international image**

**SUMMARY**

Azerbaijan hosted the COP29 conference of global importance this year. This conference is the largest event held in Azerbaijan both in terms of its international importance and in terms of the number of participants. The main focus issues of COP are climate crises and their solutions, transition to renewable energy and "Green policy". Thus, 2024 was declared the "Year of Solidarity for a Green World" in Azerbaijan. This is an indicator of Azerbaijan's sensitive approach to global problems, its integration into world politics, and its support for solving environmental problems.

**Keywords:** *green policy; renewable energy; climate crisis; peace and security; Azerbaijan as a reliable partner.*

**COP29 оказала большое влияние на репутацию и международный имидж Азербайджана**

**РЕЗЮМЕ**

В этом году в Азербайджане прошла глобальная конференция COP29. Данная конференция является крупнейшим мероприятием, проводимым в Азербайджане, как по своему международному значению, так и по количеству участников. Основные вопросы, находящиеся в центре внимания COP, — это климатические кризисы и их решения, переход на возобновляемые источники энергии и «зеленая политика».Так, 2024 год объявлен в Азербайджане «Годом солидарности зеленого мира». Это показатель чуткого подхода Азербайджана к глобальным проблемам, его интеграции в мировую политику и поддержки решения экологических проблем.

**Ключевые слова:** *зеленая политика; возобновляемая энергия; климатический кризис; мир и безопасность; Азербайджан как надежный партнер.*

UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2024.6.84.041

# UKRAYNA MÜNAQİŞƏSİNDƏ DRON TEXNOLOGİYALARININ ROLU: REALİZM PERSPEKTİVİNDƏN TƏHLİL

**ELGÜN TAĞIZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: elguntaghizadeh@gmail.com*
*ORCID ID: 0000-0002-0514-7808*

**ANAR QƏDİROV**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: qaanar14213@sabah.edu.az*
*ORCID ID: 0000-0001-9359-3172*

## Giriş

Müasir dövrdə cəmiyyətin demək olar bütün sahələrinə təsir etməkdə olan texnoloji inkişaf o cümlədən hərbi sənayedə də özünün ən yüksək performansı ilə əhəmiyyətini qorumaqdadır. Artıq dövlətlər müharibələr zamanı ənənəvi üsullardan yayınmaqla, istər mümkün insan tələfatının önlənməsi, istərsə də verilmiş tapşırıqların yüksək dəqiqliklə yerinə yetirilməsi baxımından texnoloji vasitələrdən yararlanmaqdadırlar[15]. Yaxın keçmişdən də bizə məlum olan dron texnologiyalarının müharibədə tətbiqi hərbi sənaye profilinin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb ola biləcək nailiyyətdir. Artıq ənənəvi tank, səngər müharibələrinin effektivliyini itirdiyini müşahidə edirik.

Digər tərəfdən hərb sahəsində dron texnologiyalarının tətbiqi bizə yeni deyil, artıq uzun müddətdir ki, sözügedən texnologiyalar məlumumuzdur. Daha öncə Vyetnam, Kosovo, Əfqanıstan, İraq müharibələrində də sözügedən texnologiyalardan istifadə edilmişdir. Yəni Ukrayna tarixdə ilk dron müharibəsini aparan tərəf kimi deyil, bunun əksinə olaraq müharibədə dron texnologiyasının tətbiqinin nə dərəcədə fərq yaratma imkanını göstərən və müharibədə ən çox drondan istifadə edən tərəf kimi çıxış etməkdədir[41].

Realizmin klassik nümayəndələrindən nəzəriyyənin günümüz mütəfəkkirlərinədək hərbi gücün istifadəsi uzun tarixi dövr ərzində dövlətlərarası münasibətləri tənzimləyən əsas vasitə kimi qəbul edilib və hazırda da bu yanaşma davam etməkdədir. Beynəlxalq təşkilatların formalaşması kimi dövlətlərarası münasibətlərdə iqtisadi, mədəni, hüquqi əlaqələri tənzimləyən bir sıra üsulların tətbiqi zamanla nəzəriyyədə əhəmiyyətli olaraq görünsə də, tarix bizə həyati önəmli mövzularda dövlətlərin bir-birinə güvəninin olmadığını çoxsaylı faktlarla nümayiş etdirmişdir. Bunu Ukrayna-Qərb, Ukrayna-NATO yaxınlaşmasının[33] Rusiya tərəfindən təhdid olaraq qəbul edilməsi və nəticədə Rusiyanın Ukraynaya hücumu və müharibənin başlanmasında görə bilərik. Nəticədə hər iki dövlətin mövcud və mümkün resursları hərbi sahəyə yönləndirilmiş və bu da müvafiq sahədə yeniliklərə rəvac vermişdir. Sözügedən yeniliklərdən ən önəmlisi hesab edilən dronların əhəmiyyətli təsir imkanları həm müharibə iştirakçıları, həm də digər maraqlı tərəflərin diqqətini cəlb etməkdədir. Ancaq bu texnologiyanın tətbiqi və inkişafı kifayət qədər ciddi araşdırma və sərmayə cəlbini də gərəkli edir. Bu baxımdan müharibənin iştirakçısı kimi Ukrayna və Rusiya üçün ilkin mənada iki seçimin olması daha cəlbedici görünür[26]:

- Tərəflərin müharibəni davam etdirməklə, digər tərəfdən də dron texnologiyasına gərəkli yatırımlar etməsi və zəruri maddi və resurs ehtiyaclarının digər dövlətlərdən borclanma ilə qarşılanması;
- Tərəflərin birbaşa müharibəyə diqqət ayırması ilə yüksək texnologiyaların idxalı ilə sözügedən ehtiyacın qarşılanması.

Hazırki dövrdə Rusiyaya qarşı tətbiq edilən sanksiya və texnologiya idxalına qoyulan məhdudiyyət prizmasından yanaşmada ölkəyə yeni texnologiya cəlbi məhdud çərçivədə olduğundan yerli resurslardan istifadə daha optimal versiya kimi görünməkdədir. Ukraynada isə proses əksinə davam etməkdədir. Ölkənin müdafiə qabiliyyətinin böyük bir qismi xarici resurslar hesabına təmin edilir və uzunmüddətli perspektivdə realist yanaşmada sözügedən resursların zamanla azalacağı və mümkün alternativlərin axtarılacağı proqnoz edilir[16]. Ancaq hər iki halda da müharibənin davam etdirilməsi və rəqabət qabiliyyətinin artırılması üçün dron texnologiyalarından istifadə müharibədə əsas olaraq qəbul edilməkdədir.

Tarixi Kontekst: Rusiya-Ukrayna münasibətləri. Rusiya-Ukrayna əlaqələrinin analizi zamanı ilkin yanaşmada tarixi-coğrafi yaxınlıq, o cümlədən hər iki dövlətin slavyan kökənli olmasından çıxış etməkdə fayda vardır. Uzun illər çar imperiyası, ardınca da SSRİ tərkibində yer alan Ukraynada istər dini, istərsə də mədəni baxımdan yaxınlıq təsəvvürü yaratsa da 1930-cu illərdəki aclığı (güman edilən tələfat 7-10 mln), Sovet rejiminin repressiv siyasəti,

II Dünya müharibəsi zamanı ön cəbhə olaraq əsas mübarizə məkanı olmasından qaynaqlanan itkilər (təxminən 8 mln.) milli mübarizə ruhunu canlandıran amillər kimi qəbul edilə bilər. Təsadüfi deyildir ki, uzun illər birgə yaşayışın ardından qarşıya çıxan ilk fürsətdəcə müstəqillik fikrinin önə çıxması və referendumla əhalinin 90%-nin müstəqilliyə səs verməsində bunu müşahidə edə bilərik. Bir sıra yanaşmalarda SSRİ-nin nüvə arsenalının bir hissəsinin Ukraynada olması, Nikita Xruşşov, Leonid Brejnev, Konstantin Çernenko kimi Sovet rəhbərlər şəxslərinin ukraynalı olması Rusiya-Ukrayna münasibətlərindəki yaxınlıq kimi şərh edilsə də, müstəqillik ideyalarının getdikcə artması və 2004-cü ildəki narıncı inqilabı ilə dərinləşməsi nəticəsində sözügedən əlaqələrdə qırılma yaşanmışdır[26].

NATO-Ukrayna münasibətləri. Həmçinin Qərb dövlətləri ilə əlaqələr, xüsusən NATO-nun genişlənmə siyasəti nəticəsində Ukraynanın da sözügedən əlaqələrdə maraqlı olması nəticəsində münasibətlərdəki ziddiyyətlərin digər bir tərəfi olmuşdur. Nəticədə Ukrayna 1991-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına, üç il sonra isə Sülh Naminə Əməkdaşlıq proqramına qoşulmuşdur. Müsbət istiqamətdə inkişaf edən qərblə münasibətlər, NATO-nun ən böyük genişlənməsinin - yeni 7 üzv ilə Rusiya sərhədinə yaxınlaşması və Ukraynada inqilabın baş verməsi, digər tərəfdən isə 2008-ci ildə keçirilən Buxarest Sammitində Ukrayna "NATO üzvlüyünə qəbul edilə bilər" fikrinin müsbət qarşılanması Rusiyanın bu mövzuda əməli addımlar atmağa vadar etmişdir.

Yaxın keçmişdən də bizə məlum olduğu kimi, 2008-ci ildə Rusiya-Gürcüstan arasında qısamüddətli müharibə nəticəsində Abxaziya və Cənubi Osetiya bölgələri ölkədən qoparılaraq yeni "müstəqil" dövlətlər olmuşdur. Con Merşaymerin "Why the Ukraine Crisis Is the West's Fault"[27] adlı məqaləsində də bildirildiyi kimi Gürcüstan hadisələri də nəzərə alındıqda Rusiyanın Ukrayna mövzusunda güzəştə getməyəcəyi əvvəldən məlum idi.

Digər tərəfdən isə Ukrayna Makinderin "Heartland"[28] nəzəriyyəsi prizmasından əhəmiyyətlidir. Belə ki, Avrasiya, dolayısı ilə dünyaya nəzarətin mərkəzi nöqtəsi olaraq hesab edilən bu ərazi ilkin yanaşmada Avropanın da qapısı hesab edilməkdədir. Bu qapının kimin nəzarətində olması isə Qərb-Şərq mübarizəsinin əsas meyarıdır. Avropanın olduğu qədər Asiyanın da qapısı hesab edilən Ukraynanın Qərbə "güzəştə" gedilməsi isə Rusiya üçün qəbuledilməzdir.

2014 Krım Böhranı. Hadisələrin bu axarda davam etməsi Rusiya-Ukrayna münasibətlərində soyuqluq yaratsa da, onun hərbi münaqişə mərhələsinə keçməsi üçün kifayət etmirdi. Bunun üçün lazımi şəraitin formalaşdığı dövr isə 2010-ci il seçkiləri ilə müəyyən edilmişdir. Öncəki prezident V.Yuşşenko (2005-2010) daha çox Qərbə yönəlik siyasi kursa üstünlük verməsi ilə bilinirdi [6]. Təsadüfi deyildir ki, seçki kampaniyası zamanı ona qarşı zəhərlənmə təşəbbüsü də olmuşdur. Bu hadisədə Rusiya sözügedən planda yer alması ilə bağlı günahlandırılmışdır. 2010 seçkilərində qələbə qazanan ruspərəst siyasəti ilə bilinən Yanukoviçin Rusiyanın təzyiqləri qarşısında ötən 7 illik dövrü əhatə edən Avropa Birliyi ilə siyasi və ticarət əlaqələrinin inkişafını nəzərdə tutan razılaşmadan çəkilməsi ölkədə ciddi narazılığın yaranmasına səbəb oldu.

Rusiyanın öz ərazisindən keçməklə Çin ilə aparılan ticarətdə Ukraynaya məhdudiyyət tətbiqi ilə göstərdiyi təzyiqlər nəticəsində əhali arasında etiraz dalğası artaraq Avromaydan hərəkatının başlanması ilə nəticələndi. Küçələrə axışan etirazçılara qarşı görülən sərt tədbirlərə baxmayaraq etirazın daha da şiddətli hal alması ilə Yanukoviç 2014-cü ilin fevralında Rusiyaya qaçmalı oldu. Mart ayında isə Rus qoşunları Krımı blokadaya alaraq Rusiyaya qatılma barədə keçirilən referendum nəticəsində Ukraynanın ərazi bütövlüyünü pozdu. Ukraynada davam edən etiraz dalğasına cavab olaraq ölkənin ruslar yaşayan şərq hissəsi - Donbas regionunda separatçı qüvvələr tərəfindən etirazlar başladı[35]. Bir çox yanaşmada bunun diqqətləri Krım məsələsindən yayındırmaq, ölkənin ərazi bütövlüyünün pozulması ilə Avropa və NATO-ya inteqrasiyanın qarşısını almaq olduğu fikri müdafiə edilməkdədir.

Rusiya-Ukrayna arasındakı gərginliyin azaldılması üçün keçirilən Minsk görüşündə hər iki tərəfin sərt tutumu, həmçinin Rusiyanın Donbas regionu üçün xüsusi muxtariyyət tələbinin qəbul edilməməsi danışıqların nəticəsiz qalmasına səbəb oldu. Buna cavab olaraq Donbasın müstəqilliyini elan etməsi Ukrayna daxilində münaqişənin kəskinləşməsi ilə nəticələndi. Hadisələrin ən yüksək fazaya çıxması isə Qərbin Ukraynaya dəstəyi və Rusiyaya qarşı tətbiq edilən sanksiya və məhdudiyyətlər sonrası 2022-ci ilin fevralında Putinin Donetsk və Luqansk regionlarının müstəqilliyini tanıması barədə sənədə imza ataraq onların müdafiəsi adı altında qoşunla-

rın Ukrayna ərazisinə yeridilməsi ilə başlandı[10]. Daha öncə Ukraynanın daxili məsələsi kimi göstərilən münaqişənin artıq Rusiya-Ukrayna müharibəsinə çevrilməsi ilə regiondakı gərginlik artaraq, Qərbin bu mövzudakı sərt yanaşması ilə birbaşa olmasa da, dolayı şəkildə Ukraynaya dəstəyi ilə 2 ildən uzun müddətdir ki, davam etməkdədir.

Dron Texnologiyalarının Müasir Münaqişələrdə rolu: Asimmetrik müharibə və dron texnologiyaları. Asimmetrik müharibələr, ehtiva etdikləri xüsusiyyətlərə görə hər dövrdə meydana gəlmə potensialına malikdir. Çünki əslində heç bir müharibə tam bərabər deyil. Bu əsasda konvensional müharibələrin yalnız asimmetrik və simmetrik olaraq təsnifatı bəzən kifayət qədər səthi görünə bilər. Müasir dövrdə müharibələrin daha mürəkkəb xarakter aldığını və müxtəlif üsulları əhatə etdiyini görmək mümkündür. Qeyd etmək lazımdır ki, müasir dövrdə bir çox hallarda konvensional müharibələri daha az görürük və artıq müharibələrin hibrid təbiət qazandığını deyə bilərik. Burada konvensional və hibrid müharibələrin asimmetrik təbiətə sahib ola biləcəyini qeyd etmək lazımdır.

Asimmetrik müharibələrdə güclü və zəif tərəflərin xüsusiyyətlərini düzgün anlamaq üçün ABŞ-nin İraq və Əfqanıstanda apardığı müharibələrə nəzər salmaq kifayətdir. ABŞ klassik mövqe savaşında İraq ordusunu asanlıqla məğlub etmiş olsa da, asimmetrik üsullar tətbiq edən qüvvələrə qarşı şəhərlərdə və coğrafi baxımdan mürəkkəb ərazilərdə çətinliklə üzləşdi. Türkiyə ilə PKK arasında davam edən münaqişələr də bu müharibə növünə nümunə göstərilə bilər. Məhz bu cür təhdidləri nəzərə alan ABŞ, 1999-cu ildə Asimmetrik Müharibə Mərkəzini (Centre for Asymmetric Warfare) təsis etmişdir [34].

Strateji kontekstdə Everet Dolmanın ifadəsi ilə desək, asimmetrik müharibələr “Strategiya ən sadə formasıyla, davamlı üstünlük əldə etməyə dair plandır”[20]. Dolmanın ideyasına davamlılıq qazandırsaq asimmetrik müharibənin strategiyası da müharibədə üstünlük qazanmağa fokuslanmış strategiyadır. Dolayısı ilə asimmetrik müharibə düşmənin güclərini zəiflətmək və təxmin edilməz yollarla üstünlük qazanmaq məqsədini daşıyır deyə bilərik. Burada iki aktor arasında ciddi hərbi, siyasi və iqtisadi güc fərqliliklərinin olması prosesi asimmetrik müharibəyə çevirir. Asimmetrik müharibə terminin tarixi Sun Tszıya qədər gedir. Belə ki, Müharibə Sənəti əsərində Sun Tszı bütün müharibələrin aldatma və çaşdırmaya əsaslandığını qeyd edir. Başqa bir örnəkdə isə asimmetrik müharibənin tarixi ilk müqəddəs kitablarda adı keçən Calut adlı nəhəng ilə Davud peyğəmbərin döyüşünə qədər getdiyi vurğulanır[40].

Son 20 ildə strateji tədqiqatlarda müharibələrin təbiətinin dəyişməsi müşahidə olunur və bu kontekstdə ən çox rast gəlinən anlayışlardan biri “asimmetrik müharibə”dir. Bəzi müəlliflər isə hesab edir ki, “asimmetrik” termini müharibə anlayışı kimi müstəqil ideya daşımır, bu termini tərif etmək onun öz mənasını, məqsədini və əhəmiyyətini təkzib edir. Bu istiqamətdə fikirlər əsasən qüvvələrin nataraz bölgüsü və bu bölgünün yaratdığı nəticələrlə bağlıdır. Örnək olaraq, qüvvələrin qeyri-bərabər olduğu vəziyyətlərdə daha zəif tərəf müxtəlif qeyri-ənənəvi taktikalara əl ata bilər. Əksinə, iki bərabər qüvvə arasında müharibə çox vaxt Pirr qələbəsi ilə nəticələnir, çünki resurslar və itkilər böyük olur. Bu, asimmetrik müharibələrdən fərqli bir dinamika olmaqla bərabər, Nyutonun 3-cü qanunu kimi təsirin əks təsirə bərabər olması ilə örnəkləndirilir. Belə ki, digər dəyişkənlərin təsirini minimallaşdırsaq 200 minlik ordunun qarşısında eyni qüvvədə ordu olarsa bu hal müharibənin “Pirr məğlubiyyəti” (“Pir qələbəsi” ideyasına əks olaraq hər iki tərəf ciddi itki verir və nəticədə sadəcə məğlub olur) ideyasına, yaxud “Cəmi 0-a bərabər oyun” ideyasına bərabər olacaq. Bu cür kəskin bəyanatlara baxmayaraq, ən azından mövcud və potensial asimmetriya anlayışlarını kateqoriyalara ayırmağa çalışıblar. Belə ki, asimmetriyayı şərh edən Jan Anqstorm dörd əsas başlıqla bu fikri açıqlayır və buraya güc bölgüsü, aktorun təşkilati vəziyyəti, müharibə üsulu və normalar olduğunu qeyd edir[25]. Bu əsasda Janın ideyalarını əsaslandırsaq, Rusiya-Ukrayna müharibəsində güc bölgüsü qeyri-balanslı olur.

**Cədvəl 1. Ümumilli daxili məhsul - ÜDM, Qlobal hərbi güc reytinqi - QHGR, Adambaşına düşən ÜDM - ADÜ, Müdafiə büdcəsi - MB, Aktiv Hərbi personal - AHP [9,23,7,24,11,2].**

| | ÜDM (milyon dollarla) (2023) | QHGR (2024) | ADÜ (2024) | MB (2024) | Əhali (2024) | AHP (2024) |
|---|---|---|---|---|---|---|
| **Rusiya** | 2,021,421 (11-ci) | 0,0702 (2-ci) | 14.95 min dollar | 109 milyard dollar (3-cü) | 141,698,923 nəfər (9-cu) | 1,320,00 nəfər (5-ci) |
| **Ukrayna** | 178,757 (57-ci) | 0,2598 (18-ci) | 5.5 min dollar | 42 milyard dollar (42-ci) | 43,306,477 nəfər (35-ci) | 900,000 nəfər (6-cı) |

**Qeyd:** Rusiya-Ukrayna müharibəsinin birinci fazası - 2014-cü ildən bəri Ukraynanın, xüsusilə hərbi yatırımlarını artmışdır və bu fakt dataların şəffaflığına nisbətən məhdudiyyət gətirir. Ukraynanın qərb ölkələrindən yetərincə dəstək alması da bu müharibənin asimmetrik təbiətini dəstəkləyir. Bu istiqamətdə Ukrayna prezidenti V. Zelenskinin qərbdən kömək istəməsi də dediyimiz məqamı təsdiqləyir [21] və müharibənin asimmetrik olmasını şərtləndirir. Əks halda, konvensional müharibə mümkün olardı ki, nüvə silahına sahib dövlətlərin müharibəsi isə birbaşa olaraq A. Eynşteynin sitatı ilə nəticələnəcəkdir deyə bilərik - "Mən üçüncü dünya müharibəsinin hansı silahlarla aparılacağını bilmirəm, lakin dördüncü dünya müharibəsi daş və çubuqlarla aparılacaq"[14, s.173].

Cədvəl 1-dən də göründüyü kimi, iki dövlət arasındakı müharibədən öncəki göstəricilərin analizində arada ən azı iki dəfəyə yaxın fərq olması müşahidə edilməkdədir. Sözügedən fərq ÜDM, Qlobal Hərbi Güc kimi göstəricilərdə 10 dəfəyədək kəskinləşərək hərbi qüvvə kimi əhali əsaslı göstəricilərdə 1.5 dəfəyədək azalır.

Belə ki, 2024-cü il Hərbi Güc Reytinqində Rusiyanın 2-ci (Güc indeksi: 0,0702) Ukraynanın isə 18-ci (Güc indeksi: 0,2598) olduğunu qeyd edə bilərik[23]. Eyni zamanda Rusiyanın 2024-cü ildə müdafiə büdcəsi 109 milyard ABŞ dolları, Ukraynanın isə 42 milyard ABŞ dolları olduğunu da qeyd edib, asimmetrik güc bölgüsü ideyasını dəstəkləyə bilərik. Xüsusilə qeyd etmək lazımdır ki, Ukrayna ənənəvi müharibənin 2014 Krım müharibəsinə uğursuz olduğunu anladıqdan sonra asimmetrik müharibə strategiyaları inkişaf etdirmişdir. Digər bir örnək olaraq biz partizan müharibələrini örnək göstərə bilərik. Bu kontekstdə Rupert Smith iddia edir ki, müharibə, əksər müharibələr ilə əlaqəsi olmayan insanlar tərəfindən tanınan kimi – insan və maşın arasında döyüş, beynəlxalq münasibətlərdəki mübahisənin həllində böyük bir hadisə kimi olan müharibə – artıq mövcud deyil[37].

Maraqlıdır ki, Ukraynanın bu asimmetrik insan, hərbi, iqtisadi, siyasi gücə qarşı istifadə etdiyi ən effektiv silahlardan biri dronlardır. Rupertin nəzərdə tutduğu ənənəvi "insan və maşın arasında döyüş" ideyası burada asimmetrik müharibə instrumenti kimi ortaya çıxır. Belə ki, icad olunan atəşli silahlar, Britaniyanın Mark I tankı (1916), ABŞ-nin ilk döyüş təyyarəsi olan Rayt (1909 - Wright Military Flyer), Almaniyanın ilk bombardman təyyarəsi Albatros D. III (1916), ABŞ-ın Yaponiyaya atdığı iki atom bombası (6-9 avqust 1945) kimi örnəklər texnoloji yeniliklər müharibənin gedişatını dəyişdirən mühüm ixtiralar arasında yer alır və Ukraynanın müharibədə dronları bu cür istifadə etməsi halı da tarixdə "İlk dron müharibəsi" və ya "StarLink müharibəsi" olaraq keçdi[38]. Qeyd etdiyimiz örnəklər hər biri ilk periodda asimmetrik güc örnəyi kimi meydana çıxmışdır.

Müasir dövr münaqişələrində dron texnologiyaların rolu (2MDTR) ilə bağlı elmi əsərlər yenidir. Örnək kimi ingilisdilli ədəbiyyatlarda 1995-ci ildə "Drone" sözünün istifadəsi ümumi elmi ədəbiyyatlarda 0,0000435358% idisə, 2022-ci ildə bu rəqəm 0,0004213691%-ə yüksəlmişdir ki, bu da 867,87% artım deməkdir[8]. Bu data işığında müasir dövrdə dron texnologiyalarının yetərincə aktual olduğunu demək olar. Dron texnologiyalarına elmi rəğbətin artması onların funksiyaları ilə də birbaşa bağlıdır. Belə ki, dronlar müasir döyüş insan itkisinə səbəb olması, meydanında kəşfiyyat və müşahidə, dəqiq zərbə endirmək, asimmetrik üstünlük yaratmaq, maliyyə səmərəliliyini təmin etmək, psixoloji təsir göstərmək və sivil infrastrukturun qorunmasını asanlaşdırmaq kimi funksiyaları yerinə yetirir. Bu xüsusiyyətlər dron texnologiyalarını müasir münaqişələrin ayrılmaz hissəsinə çevirir.

2MDTR-ə aid başlıqları nisbətən genişləndirə bilərik. İnsansız Hava Aparatlarının (İHA) müasir döyüş meydanında olan üstünlüklərini belə açıqlaya bilərik:

• Sürətli İnnovasiya və Uyğunlaşma: Dronlar suda, quruda, havada istifadə oluna bilən geniş çeşidlərə sahibdir. Dolayısıyla dronlar həm hücum, həm də müdafiə əməliyyatları üçün çox əlverişlidir [19]. Örnək kimi İnsansız Dəniz Aparatı (İDA) "Sea Baby 2024" yüksək manevr qabiliyyətinə malikdir və 1000 km-dən çox məsafə gedə, 1000 kq-dan çox partlayıcı material daşıya bilir. Digər bir örnək isə Ukrayna ordusunun Rusiya ordusunun hücumlarına cavab olaraq adaptiv yeni dronlar istehsal etməsi yaxud mövcud dronların təkmilləşdirilməsi göstərilə bilər [22].

• Dronlara qarşı müdafiə mexanizmlərinin inkişafı: Rusiya-Ukrayna müharibəsi eyni zamanda da Dronlara Qarşı Müdafiə Sistemlərinin (DQMS) inkişafına səbəb olur. Bu proses daha çox şahmat taxtasındakı həmlələrə bənzəyir - Ukrayna innovasiya

edir - ölümcül təsirə malik FPV dronlarını hazırlayır, Rusiya isə “cope cages” ilə cavab verir, Rusiya İranın “Şahid - 136” (Shahed - 136) dronlarını istifadə edərək şəhərlərə, vacib infrastrukturlara hücum edir, Ukrayna Alman Gepard hava hücumundan müdafiə sistemi ilə cavab verir. General Mayor Mik Ryanın “Müharibə dəyişib” (War Transformed) kitabında dediyi kimi: yeni texnoloji innovasiyalar, genişlənən müharibə məqsədləri və yeni taktiki və əməliyyat anlayışlarının inkişafı, hərbi strategiyaların inkişafına uyğunlaşmaq və qələbə qazanmaq üçün vacibdir [32, s.312].

• Maliyyə İmperativləri: Dronları cəlbedici edən digər bir vacib özəlliyi isə ənənəvi müharibə vasitələrindən dəfələrlə ucuz olmasıdır. Məsələn 500-600 dollarlıq dron 3 milyon dollarlıq raketi zərərsizləşdirə bilir. Bu əsasda, kəmiyyət baxımından bir ölkə nə qədər çox pilotsuz aparat istehsal edə bilirsə, əməliyyatların davamlılığı da bir o qədər yüksək olur və məqsədlərə çatma yolu da bir o qədər etibarlı olur [13]. Ümumiyyətlə, Rusiyanın müharibədə uğursuzluqlarının əsas səbəblərindən biri dronların zəif manevr qabiliyyətinə sahib tanklara qarşı ciddi üstünlüyünün olması ilə birlikdə maliyyə baxımından səmərəli olmasıdır. Bu istiqamətdə “Fortune Business Insights”-ın təxmininə görə 2022-ci ildə 8,77 milyard dollar market payı olan dronlar 2030-cu ildə təxminən 8 dəfə artaraq 54,81 milyard dollara yüksələcəkdir[4]. Eyni zamanda tankların bazar payı isə 2023-cü ildəki 23,96 milyard dollar dəyərdən 2032-ci ildə 37,11 milyard dollar olması gözlənilir [42] (Yahoo Finance-yə görə 2033-cü ildə 43,2 milyard dollar olacağı düşünülür) [17].

• Növbəti mərhələ - Suni İntellekt (Sİ) və dronlar: Dronların gələcəyi Sİ və dron sürü texnologiyalarındakı inkişaflarla sıx bağlıdır. Sİ-nin tətbiqi, hərbi və mülki əməliyyatlarda, xüsusilə terminal istiqamətlənməsi, vizual naviqasiya, hədəf aşkarlanması və sürü əməliyyatları kimi əsas sahələrdə transformasiyaedici rol oynayacaq. Süni intellektin inteqrasiyası, dronların müstəqil şəkildə fəaliyyət göstərməsinə imkan verir, bu da dəyişən mühitlərə reaksiya verərək və bir-birilə koordinasiya olunaraq mürəkkəb tapşırıqları yerinə yetirməyə kömək edir. Bu, xüsusən döyüş meydanında şəraitin sürətlə dəyişdiyi zamanlarda yüksək səmərəlilik və effektivlik təmin edir. Hazırda dronlarda Sİ-nin effektivliyi ilə bağlı müzakirələr olsa da, bu potensial artıq aktiv münaqişə zonalarında gerçəkləşir. Məsələn, Ukrayna müharibəsində fəal şəkildə istifadə olunan və hər kəsin ala biləcəyi DJI Matrice 300 kimi Sİ-lə təchiz edilmiş dronlar (8 min avro)[5], Sİ-nin hərbi sahədə praktik tətbiqini nümayiş etdirir. Bu dron, uzaq məsafələrdən təhlükələri müəyyənləşdirir və hədəflərə dəqiq yönəlir, beləliklə vəziyyətin aşkarlanması və hədəf tapma dəqiqliyini artırır. Bundan əlavə, bir neçə dronun koordinasiya şəkildə fəaliyyət göstərdiyi dron sürü texnologiyasının yüksəlməsi, müharibə strategiyalarına yeni bir ölçü qatır. Bu inkişaflar, dronlar müasir döyüş meydanındakı bacarıqlarının gələcəyində Sİ-nin artan əhəmiyyətini vurğulayır.

**“İkinci Qarabağ Müharibəsi” örnəyi.** Dronların Ukrayna müharibəsindən öncə 2-ci Qarabağ Müharibəsində effektiv istifadəsi örnəyini Azərbaycan Silahlı Qüvvələri tərəfindən gerçəkləşdirilən hərbi əməliyyatlarda müşahidə etdik. Belə ki, Türkiyədən satın alınan Bayraktar TB2 dronları sayəsində müharibədə ciddi strateji üstünlüklər əldə edən Azərbaycan ordusu bu hava üstünlüyünü İsraildən aldığı kamikadze (“Harop” və “Spayk”) [36] dronlardan istifadə edərək real nəticələrə çevirmişdi. Ermənistanın Rusiya istehsalı olan İsgəndər raketləri belə Azərbaycan ordusunun Pilotsuz Uçan Aparatlarına (PUA) qarşı çarəsiz qalmış və erməni əsgərləri ya səngərləri tərk etməyə ya da müharibənin acı gerçəyi ilə üzləşməli idilər.

İkinci Qarabağ müharibəsi bəzi şəxslər tərəfindən ilk dron müharibəsi kimi şərh olunsa da, fikrimizcə, bu müharibə Azərbaycan ordusunun texnoloji üstünlüyü və müharibədə PUA-ların ciddi fərq yaratması ilə daha çox xarakterizə edilmişdir. Eyni zamanda Azərbaycan ordusu öz adını müharibə tarixinə qızıl hərflərlə yazdırmış və bir çox elm adamı tərəfindən istinad olunan örnəyə çevrilmişdir.

**Ukrayna tərəfindən istifadə edilən Xüsusi Dron Strategiyaları.** Rusiya-Ukrayna müharibəsində Ukrayna tərəfinin strateji həmlələri, müharibənin gedişatını dəyişdirərək, Ukrayna ordusuna mühüm üstünlüklər qazandırmışdır. İlk mərhələdə Türkiyədən alınan TB2 dronları, Ukrayna ordusunun Rusiyanın hava üstünlüyünə qarşı mübarizə aparmasına və ciddi itkilər verməsinə səbəb olmuşdu. Lakin, Rusiyanın əks-həmlə olaraq kamikadze dronlarından istifadəsi, müharibənin yeni bir mərhələyə keçməsinə gətirib çıxarmışdır. Bu, "Böyük Dronların Ölümü" fenomeninin başlanğıcı olmuşdur. TB2 dronlarının hər birinin dəyəri təxminən 5 milyon dollar təşkil edir, lakin Rusiyanın İrandan

aldığı ucuz dronlar, Ukraynanın yüksək qiymətli dronlara sərf etdiyi xərcləri tarazlaşdırmağa imkan vermişdir. Çünki, 5-6 min dollar dəyərində olan İran dronları ilə müqayisədə, 5-6 milyon dollar dəyərindəki TB2-lərin istifadəsi, müharibənin davamlılığı və səmərəliliyi baxımından praktiki cəhətdən çətinliklər yaradır[29]. Bu istiqamətdə Ukrayna ordusu da cavab olaraq 500 dollar dəyərində olan "Atlas" dronları ilə öz arsenalını təchiz etməyə başlamışdı[18].

İkinci Qarabağ müharibəsi digər ölkələr üçün eyni zamanda da hərbi dərs olduğu kimi Rusiya-Ukrayna müharibəsi də analoji xətdədir. Digər dövlətlər İHA-larının effektiv təsirinə cavab mexanizmləri yaratmağa çalışırlar. Bu istiqamətdə C. Koreyanın İHA-larını zərərsizləşdirmək üçün hazırladığı lazer silahını öz arsenalına qatan ilk ölkə olmuşdur [39]. Burada vacib məqam C. Koreyanın lazer silahının kiçik İHA-lara qarşı effektiv olmasıdır. Bu əsasda təsir-əks təsir mexanizmi kimi yeni hücum və müdafiə sistemlərinin inkişafını görürük.

**Müasir Dövrdə Simulyasiyalar və Drone Pilotlarının Əhəmiyyəti.** Rusiya-Ukrayna müharibəsi müasir dövr hərb elmi üçün yeni simulyasiyaların da önünü açır. Bu istiqamətdə ilkin örnəklərdən biri Avstraliya ordusunun istifadə etdiyi metoddur. Belə ki, Avstraliya ordusu əsgərlərin təlimini gerçəkləşdirmək üçün simulyasiyalardan istifadə edirlər ki, bu istiqamətdə Arma 3 oyunundan təlim üçün istifadə edən Avstraliya ordusu[3] bu sahədə aktiv təcrübəni simulyasiyalar üzərindən qazanırlar. Simulyasiyaların real proseslərə tətbiqinin ən uğurlu örnəklərindən biri məhz Jann Mardenborough-dur. Belə ki, Jann 2011-ci ildə "Grand Turismo" yarış oyununda 90 min nəfərdən çox şəxsi qabaqlayaraq peşəkar yarış pilotu olmuş və uğurlar qazanmışdır [30].

Rusiya-Ukrayna müharibəsi müasir dövr hərb elmi üçün yeni simulyasiyaların da önünü açır. Bu istiqamətdə ilkin örnəklərdən biri Avstraliya ordusunun istifadə etdiyi metoddur. Belə ki, Avstraliya ordusu əsgərlərin təlimini gerçəkləşdirmək üçün simulyasiyalardan istifadə edirlər ki, bu istiqamətdə Arma 3 oyunundan təlim üçün istifadə edən Avstraliya ordusu [3] bu sahədə aktiv təcrübəni simulyasiyalar üzərindən qazanırlar. Simulyasiyaların real proseslərə tətbiqinin ən uğurlu örnəklərindən biri məhz Jann Mardenborough-dur. Belə ki, Jann 2011-ci ildə "Grand Turismo" yarış oyununda 90 min nəfərdən çox şəxsi qabaqlayaraq peşəkar yarış pilotu olmuş və uğurlar qazanmışdır [30]. Bu sahədə tətbiq edilən süni intellekt və video oyun praktiki örnəklərindən istifadə istər dron texnologiyalarının inkişafı, istərsə də onun real hərbi vəziyyət halında tətbiqi baxımından xüsusi əhəmiyyətə malikdir. Digər tərəfdən hədəflərin müəyyən edilməsi və yüksək dəqiqliklə məhv edilməsi bacarıqlarının aşılanması baxımından sözügedən sahədə Avstraliya təcrübəsinin tətbiqi gələcək hərbi tədbirlər baxımından əhəmiyyətlidir. Ukrayna ordusunda istifadə edilən SAKER dronları nümunəsində dron təlimçilərinin yetişdirilməsi, həmçinin müharibədə virtual bacarıqlara malik şəxslərin vərdiş və təcrübələrindən istifadə edilməsi və əldə olunan nəticələr sözügedən sahədə önə çıxan real nümunələrdən biri kimi qeyd edilə bilər.

## Nəticə

Dron texnologiyalarının tətbiqi məqalədə də bildirildiyi kimi, hərb sahəsində heç də yeni deyil. Ancaq Rusiya-Ukrayna müharibəsində istifadə edilən dronların sayı, effektivliyi, çəkilən xərclərdəki optimallaşdırma cəhdləri və ölkələrin bu sahəyə diqqəti nəzərə alındıqda günümüzdə xüsusi əhəmiyyət qazanmışdır. Digər tərəfdən özünün səssiz müdaxilə imkanları, enerji sərfiyyatı və məsafədən idarəolunma imkanları da hesaba qatıldıqda ənənəvi müharibə vasitələrində inqilabi dəyişiklik olduğunu deyə bilərik. Təbii ki, bu bağlamda müvafiq müdafiə texnologiyalarına yatırımların edilməsi də qaçılmazdır və yeni investisiyalar gözlənilləndir.

Bütün hallarda hərbi gücün təsirli vasitəsi olaraq dron texnologiyaları dövlət təhlükəsizliyinin təminatında xüsusi əhəmiyyət qazanmışdır. Türkiyə istehsallı Bayraktar, İsrail istehsalı Harop və digər çoxsaylı məsafədən idarəolunan PUA-ların tətbiqi ölkəmizdə də olduğu kimi, bir çox dövlətlərin hərbi arsenalının bir parçasına çevrilməkdədir. Dron texnologiyalarının inkişafı paralel olaraq prosesin texniki - idarəetmə mexanizmləri, onların təhlükəsizliyi, davamlılığı və s. sahələrin də inkişafına rəvac verməkdədir. Bir sözlə hərbi arsenalın əhəmiyyətli bir hissəsinə çevrilən dronlardan istifadə birtərəfli deyil, kompleks inkişafı da zəruri etməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "19–20 sentyabr antiterror əməliyyatı Qarabağda erməni separatizminə son qoydu," Xalqqazeti.az, 2024. https://xalqqazeti.az/az/si-*

*yaset/194176-1920-sentyabr-antiterror-emeliyyati-qarabagda*

*2. "Active Military Manpower (2024)," www.globalfirepower.com, 2024. https://www.globalfirepower.com/active-military-manpower.php*

*3. "Combined Arms Training Centre | The Cove," Army.gov.au, 2024. https://cove.army.gov.au/bio/combined-arms-training-centre*

*4. "Commercial Drone Market Size, Share | Forecast Report [2028]," www.fortunebusinessinsights.com. https://www.fortunebusinessinsights.com/commercial-drone-market-102171*

*5. "DJI Matrice 300 RTK," ModelForce, Jan. 24, 2024. https://modelforce.eu/en/product/dji-matrice-300-rtk/*

*6. "For Former Ukrainian President Viktor Yushchenko, Only A Certain Kind Of Peace Will Do," Hoover Institution, 2024. https://www.hoover.org/news/former-ukrainian-president-viktor-yushchenko-only-certain-kind-peace-will-do*

*7. "GDP per capita," www.imf.org, 2024. https://www.imf.org/external/datamapper/NGDPDPC@WEO/OEMDC/ADVEC/WEOWORLD/RUS*

*8. "Google Books Ngram Viewer," Google.com, 2022. https://books.google.com/ngrams/graph?content=drone&year_start=1800&year_end=2022&corpus=en&smoothing=3&case_insensitive=false*

*9. "Gross domestic product 2023," 2023. Available: https://datacatalogfiles.worldbank.org/ddh-published/0038130/DR0046441/GDP.pdf?versionId=2024-07-01T12:42:23.8710032Z*

*10. "Secretary-General Says Russian Federation's Recognition of 'Independent' Donetsk, Luhansk Violate Ukraine's Sovereignty, Territorial Integrity | UN Press," press.un.org, Feb. 23, 2022. https://press.un.org/en/2022/sgsm21153.doc.htm*

*11. "Total Population by Country 2024," www.globalfirepower.com, 2024. https://www.globalfirepower.com/total-population-by-country.php*

*12. "Ukraine's Zelenskiy orders creation of separate military force for drones," Reuters, Feb. 07, 2024. https://www.reuters.com/world/europe/ukraines-zelenskiy-orders-creation-separate-military-force-drones-2024-02-06/*

*13. Amy Z., "Cheap fights, credible threats: The future of armed drones and coercion," Journal of Strategic Studies, vol. 43, no. 1, pp. 1–41, Feb. 2018, doi: https://doi.org/10.1080/01402390.2018.1439747.*

*14. Albert E., in an interview with Alfred Werner, Liberal Judaism 16 (April-May 1949), Einstein Archive 30-1104, as sourced in The New Quotable Einstein by Alice Calaprice (2005), p. 173*

*15. C. Kasapoglu, S. Ozkarasahin, "Drone Warfare: Drone Wars, Defense Economics and Turkey`s Way," p. 44, Apr. 2022, Available: https://edam.org.tr/wp-content/uploads/2022/05/DRONE-WARFARE.pdf*

*16. Center for Preventive Action, "Redirect Notice," Global Conflict Tracker, Oct. 16, 2024. https://www.google.com/url?q=https://www.cfr.org/global-conflict-tracker/conflict/conflict-ukraine&sa=D&source=docs&ust=1733535393823541&usg=AOvVaw1bkQB0bDBrVrjMJa7oBmmG (accessed Dec. 03, 2024).*

*17. Custom Market Insights, "[Latest] Global Storage Tank Market Size/Share Worth USD 43.2 Billion by 2033 at a 5.1% CAGR: Custom Market Insights (Analysis, Outlook, Leaders, Report, Trends, Forecast, Segmentation, Growth, Growth Rate, Value)," Yahoo Finance, Sep. 11, 2024. https://finance.yahoo.com/news/latest-global-storage-tank-market-163000630.html*

*18. D. Antoniuk, "Latvian Atlas Dynamics supplies Ukrainian military with futuristic drones, plans to start production in Ukraine," The Kyiv Independent, Oct. 31, 2022. https://kyivindependent.com/latvian-atlas-dynamics-supplies-ukrainian-military-with-futuristic-drones-plans-to-start-production-in-ukraine/*

*19. D. Kunertova, "Drones have boots: Learning from Russia's war in Ukraine," Contemporary Security Policy, vol. 44, no. 4, pp. 1–16, Oct. 2023, doi: https://doi.org/10.1080/13523260.2023.2262792.*

*20. E. C. Dolman, Pure strategy : power and principle in the space and information age. London ; New York: Frank Cass, 2005, p. 240.*

*21. E. Conesa, C. Ducourtieux, A. Kaval, P. Ricard, "Zelensky seeks more support from Europe, to no avail," Le Monde.fr, Oct. 11, 2024. https://www.lemonde.fr/en/international/article/2024/10/11/zelensky-seeks-more-support-from-europe-to-no-avail_6729061_4.html (accessed Dec. 07, 2024).*

*22. G. Paper, J.-M. Rickli, F. Mantellassi, "The War in Ukraine: Reality Check for Emerging Technologies and the Future of Warfa-*

*re," 2024. Available: https://www.e-helvetica.nb.admin.ch/api/download/urn%3Anbn%3Ach%3Abel-5311800%3AGP-34-Rickli-Mantellassi-2024-03%3Bdigital.pdf/GP-34-Rickli-Mantellassi-2024-03%3Bdigital.pdf*

*23. Global Fire Power, "2024 Military Strength Ranking," Global Fire Power, 2024. https://www.globalfirepower.com/countries-listing.php*

*24. Global Fire Power, "Defense Spending by Country (2024)," www.globalfirepower.com, 2024. https://www.globalfirepower.com/defense-spending-budget.php*

*25. J. Angstrom, "Evaluating Rivalling Interpretations of Asymmetric War and Warfare," DIVA, pp. 29–48, 2024, Accessed: Dec. 07, 2024. [Online]. Available: https://uu.diva-portal.org/smash/record.jsf?pid=diva2%3A475697&dswid=-4051*

*26. J. Masters, "Ukraine: Conflict at the Crossroads of Europe and Russia," Council on Foreign Relations, Feb. 14, 2023. https://www.cfr.org/backgrounder/ukraine-conflict-crossroads-europe-and-russia*

*27. J.J.Mearsheimer, "Why the Ukraine Crisis Is the West's Fault: The Liberal Delusions That Provoked Putin," Sep. 2014. Available: https://www.mearsheimer.com/wp-content/uploads/2019/06/Why-the-Ukraine-Crisis-Is.pdf*

*28. K. C. Kutcher, "The Russo-Ukrainian War and Mackinder's Heartland Thesis | Geopolitical Monitor," Geopolitical Monitor, Sep. 23, 2024. https://www.geopoliticalmonitor.com/the-ukraine-war-and-mackinders-heartland-thesis/*

*29. K. Azem, H.F. Buyuk, "Half-Price Bayraktars: Bosnia Buys Turkish Drones, Eyes Own Production," Balkan Insight, Sep. 25, 2024. https://balkaninsight.com/2024/09/25/half-price-bayraktars-bosnia-buys-turkish-drones-eyes-own-production/*

*30. L. Trevor, "Review | 'Gran Turismo': Based on a true story, but also other car movies," Washington Post, Aug. 23, 2023. Available: https://www.washingtonpost.com/entertainment/movies/2023/08/23/gran-turismo-based-on-a-true-story-movie-review/*

*31. M. Fornusek, "Zelensky signs law establishing Ukraine's Unmanned Systems Forces", The Kyiv Independent, Sep. 16, 2024. https://kyivindependent.com/zelensky-signs-law-on-ukraines-unmanned-systems-forces/*

*32. M. Ryan, "War Transformed: The Future of Twenty-First-Century Great Power Competition and Conflict", Naval Institute Press, 2022, p. 312.*

*33. NATO, "Relations with Ukraine", NATO, Oct. 03, 2024. https://www.nato.int/cps/en/natohq/topics_37750.htm*

*34. Naval Postgraduate School, "DSpace," Nps.edu, Feb. 05, 2015. https://calhoun.nps.edu/entities/publication/3b63687c-c17f-4cf8-879f-589e1a24e7e6*

*35. O. Lutsevych, J. Wallace, "Ukraine-Russia relations," Chatham House, Nov. 24, 2021. https://www.chathamhouse.org/2021/11/ukraine-russia-relations*

*36. P. Aksyonov, "Qarabağda dron müharibəsi: Azərbaycan və Ermənistan arasındakı münaqişəni pilotsuz aparatlar necə dəyişib? - BBC News Azərbaycanca," BBC News Azərbaycanca, Oct. 10, 2020. https://www.bbc.com/azeri/azerbaijan-54364458*

*37. R. Smith, UTILITY OF FORCE : the art of war in the modern world. S.L.: Penguin Books, 2005, p. 488.*

*38. S. Cropsey, "Drone Warfare in Ukraine: Historical Context and Implications for the Future," Hoover Institution, Mar. 14, 2024. https://www.hoover.org/research/drone-warfare-ukraine-historical-context-and-implications-future*

*39. S. Əliyeva, "Cənubi Koreya lazer silah sistemlərinin istehsalına başlayıb," Ordu.Az, 2024. https://ordu.az/az/news/324898/cenubi-koreya-lazer-silah-sistemlerinin-istehsalina-baslayib*

*40. T. Pfanner, "Asymmetrical warfare from the perspective of humanitarian law and humanitarian action," International Review of the Red Cross, vol. 87, no. 857, pp. 149–174, Mar. 2005, doi: https://doi.org/10.1017/s1816383100181238.*

*41. U. Franke, "Drones in Ukraine and beyond: Everything you need to know," ecfr, Aug. 11, 2023. Available: https://ecfr.eu/article/drones-in-ukraine-and-beyond-everything-you-need-to-know/*

*42. Zion Market Research, "Storage Tank Market Size, Share, Growth & Industry Analysis, 2032", 2024. https://www.zionmarketresearch.com/report/storage-tank-market*

## XÜLASƏ

Bu məqalə, Ukrayna münaqişəsində dron texnologiyalarının rolu və onların hərbi realizm nəzəriyyəsi çərçivəsində təhlilini hədəfləyir. Tədqiqat müasir döyüş meydanında dron texnologiyalarının tətbiqinin

strateji və taktiki üstünlüklərə necə şərait yaratdığını, eyni zamanda bu texnologiyaların gələcək müharibələrin xarakterini necə formalaşdıra biləcəyini araşdırır. Xüsusilə Bayraktar TB2 və digər qabaqcıl dron sistemlərinin Ukrayna tərəfindən istifadəsi, müharibənin gedişatına mühüm təsir göstərərək, müasir hərbi strategiyanın əhəmiyyətli komponenti kimi texnologiyanın önəmini vurğulamışdır.

Məqalədə həmçinin hərbi realizmin nəzəri əsasları ilə Ukrayna münaqişəsi arasında əlaqə qurulur, müharibənin beynəlxalq münasibətlərin tənzimlənməsində dövlətlər üçün hələ də əsas mexanizm olaraq qaldığı fikri irəli sürülür. Bundan əlavə, tədqiqat "yeni müharibələr" anlayışını müzakirəyə açır və dron texnologiyalarının bu konsepsiyanın tərkib hissəsi kimi müasir münaqişələrin təbiətinə təsirini nümayiş etdirir. Məqalə nəticəsində Ukrayna müharibəsinin, texnoloji irəliləyişlərin münaqişələrin dinamikasına və dövlətlərarası münasibətlərə təsirini öyrənmək baxımından mühüm bir nümunə təşkil etdiyi vurğulanır.

**Açar sözlər:** *Rusiya-Ukrayna müharibəsi, Dron texnologiyaları, Realizm, Asimmetrik müharibə, Hərbi simulyasiya.*

### РЕЗЮМЕ

Данная статья направлена на анализ роли технологий дронов в конфликте на Украине в рамках теории военного реализма. Исследование рассматривает, как применение технологий дронов на современных полях сражений способствует достижению стратегических и тактических преимуществ, а также изучает, как эти технологии могут формировать характер будущих войн. В частности, использование Украиной передовых систем дронов, таких как Bayraktar TB2, подчеркивается как значительный фактор, влияющий на ход конфликта, что акцентирует важность технологий как ключевого элемента современной военной стратегии.

В статье также устанавливается связь между теоретическими основами военного реализма и конфликтом на Украине, выдвигая тезис о том, что война по-прежнему остается основным механизмом регулирования международных отношений между государствами. Кроме того, обсуждается концепция "новых войн", демонстрируя влияние технологий дронов на природу современных конфликтов как составную часть этой парадигмы.

В результате исследование подчеркивает, что конфликт на Украине является важным примером для понимания влияния технологического прогресса на динамику конфликтов и межгосударственные отношения.

**Ключевые слова:** *Российско-украинская война, Технологии дронов, Реализм, Асимметричная война, Военная симуляция.*

### SUMMARY

This article aims to analyze the role of drone technologies in the Ukraine conflict within the framework of military realism theory. The research examines how the application of drone technologies on modern battlefields facilitates strategic and tactical advantages and explores how these technologies could shape the character of future wars. Specifically, the use of advanced drone systems, such as Bayraktar TB2, by Ukraine is highlighted as a significant factor influencing the course of the conflict, emphasizing the importance of technology as a critical component of contemporary military strategy.

The article also establishes a connection between the theoretical foundations of military realism and the Ukraine conflict, asserting that war remains a fundamental mechanism for regulating international relations among states. Furthermore, it engages with the concept of "new wars", demonstrating the impact of drone technologies on the nature of modern conflicts as a constituent of this paradigm.

As a result, the study underscores the Ukraine conflict as a pivotal example for understanding the influence of technological advancements on the dynamics of conflicts and inter-state relations.

**Keywords:** *Russia-Ukraine war, Drone technologies, Realism, Asymmetric warfare, Military simulation.*

UOT 321; 323
https://doi.org/10.30546/3006-0346.2024.6.84.044

# AMERİKADA İNSAN HAQLARI VƏ BƏRABƏRLİK UĞRUNDA MÜBARİZƏ

**ƏSMƏR CƏBRAYILZADƏ**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*E-mail: esmermuradova2@gmail.com*

## Giriş

İnsan hüquqları dedikdə, hər bir insanın malik olduğu ayrılmaz hüquqlar nəzərdə tutulur.Amerika Birləşmiş Ştatları yarandığı gündən bu yana insan haqlarını ön planda tutmaqla fərqlənmiş, müəyyən zaman çərçivəsində, xüsusilə də 1990-cı illərdə insan hüquqlarının,demokratiyanın müdafiəsində ön plana çıxmışdır.

Amerikada 1776-cı ildə qəbul edilən "İstiqlal bəyannaməsi"ndə "İnsanların hüquq bərabərliyi" bəndi yer almışdır. İnsanın təbii azadlıqları "İstiqlal bəyannaməsi"ndə mütərəqqi xarakter daşıyırdı. 20-ci əsrdə ABŞ Birləşmiş Millətlər Təşkilatının yaradılmasında və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin yaradılmasında fəal rol oynadı [1,s.6]. Sonralar T.Cefferson yazırdı: " Avropada demokratiya uğrunda çoxlu qan axıdılıbsa, Amerikada çoxlu mürəkkəb axıdılıb" [2,s.302].

"Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, bütün insanlar bərabərhüquqlu yaradılıb və Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq və səadətə canatma hüququ da daxildir" [3,s.1].

## İnsan haqları uğrunda davam edən mübarizə

ABŞ-da insan haqları, göründüyü kimi, qanunvericilikdəki zəmanətlərin və cəmiyyətin dəyərlərinin bir hissəsi olaraq uzun bir tarixə malikdir. Bununla belə,bərabərlik və ədalət prinsiplərinə riayət olunmasında hələ də müəyyən problemlər mövcuddur.Bu məqalədə, ABŞ-da insan haqlarının həm qanunvericilikdə,həm də cəmiyyətin dəyərlərində ön planda olmasına baxmayaraq tarix boyunca bərabərsizlik və irqi ayrı-seçkilik kimi problemlərin bu prinsiplərin həyata keçirilməsində nə kimi maneələr yaratdığı araşdırılacaq.

ABŞ Konstitusiyasında insan hüquqlarının gücləndirilməsi üçün dəyişikliklər aparılmışdır, bu dəyişikliklər "Hüquqlar haqqında Bill" adını almışdır. "Hüquqlar haqqında Bill"də vətəndaşlara söz, mətbuat, vicdan azadlığı kimi hüquqlar verilir. İnsanların yalnız məhkəmənin qərarı ilə həbs olunmasının mümkün olduğu vurğulanır.

Vaşinqtonda yerləşən və Amerika Dövlətləri Təşkilatının müstəqil orqanı olan Amerikaarası İnsan Hüquqları Komissiyası fəaliyyət göstərir. Komissiya qitədə insan hüquqları pozuntularına dair iddiaları araşdırır, bu məqsədlə də ildə bir neçə dəfə mütəmadi və xüsusi sessiyalar keçirir. Qeyd edək ki, Amerikaarası İnsan Hüquqları Məhkəməsi 1979-cu ildə Amerika İnsan Hüquqları Konvensiyasının müddəalarını şərh etmək və tətbiq etmək məqsədilə yaradılmışdır.

İrqçilik ABŞ-nin tarixi ilə eyni yaşdadır deyə bilərik. ABŞ-da irqçilik halları demək olar ki,ağdərililərdən başqa digər bütün irqin nümayəndələrinə şamil edilmişdir. Bura yəhudiləri, qırmızı, qara dərililəri nümunə göstərə bilərik.

1863-cü ildə "Azadolma haqqında bəyannamə"yə əsasən, cənub ştatlarında köləlik ləğv olundu.Yenidənqurma dövründə azad olunmuş kişi qullara səs vermə hüququ verildi. Amma bunlar irqçiliyə son qoymadı. "Koklas Klan" adlı irqçi qrup meydana çıxdı. Bu qrup ilk dəfə 1865-ci ildə Amerikanın konfederasiya ordusunun veteranları tərəfindən, ölkənin cənubunda yaranmışdır. Bu qrup qaradərililərlə və miqrantlarla mübarizə aparırdı, onların mədəni azadlığının və hüquqlarının əleyhinə idilər. Qrupun nümayəndələri ağdərililərin üstün olmasına qarşı olanlara edam və zorakılıqla cavab verirdilər.

Amerika irqçilik təşkilatı siyahısına başqa bir təşkilatı da əlavə edə bilərik. Hansı ki Amerikada irqçilik dedikdə, ağıla bu təşkilat gəlir, söhbət təbii ki, Ku Klux Klan (KKK) təşkilatından gedir. KKK Amerikada vətəndaş müharibəsindən sonra yaradılmışdır,yaradıcısı isə cənublu zabitlər olmuşdur. Təşkilat 20-ci əsrin 20-ci illərində Hiram Uesley Evans tərəfindən idarə olunmuşdur və özünün qızıl dövrünü yaşamışdır. Təşkilat üzvləri qaradərililəri qətlə yetirir, qaradərililərə qarşı dəhşətli cinayətlər törədirdilər. Bütün bunlara baxmayaraq, təşkilata qarşı dövlət kəsərli addımlar atmırdı.

Amerikada olan irqi ayrı-seçkilikdən danışarkən Jim Krow qanunlarından danışmaya bilmərik.Jim Krow qanunları 19-20-ci əsrlərdə Amerikanın cə-

nub əyalətlərində çıxarılan ayrı-seçkilikçi yerli qanunlar idi. Qanunlar, ABŞ-ın yenidən qurulması dövründə zəncilərin əldə etdiyi siyasi və iqtisadi qazanclarına qarşı qəbul edilmişdir. [4,s.24] Qanunlar ağların və afroamerikalıların ictimai və siyasi həyatda ayrı qurumlardan istifadə edəcəyini bildirirdi. İrqi ayrı-seçkiliyi qəbul edən ilk qanun 1875-ci ildə Tenessedə, dəmir yolu və tramvaylara qəbul edildi. Bundan sonra bütün cənub əyalətlərində dəmir yollarında irqi ayrı-seçkilik tətbiq olundu. Qanun qüvvəyə minən regionlarda “sadəcə ağlar üçün” və “qaralar” lövhələri asılmışdı. Bu hal o qədər geniş yayıldı ki, sadəcə dəmir yollarında yox, teatrlarda, məktəblərdə, kitabxana və liftlərdə də özünü göstərməyə başladı.

İlk dəfə 1954-cü ildə Amerika Birləşmiş Ştatları Ali Məhkəməsi məktəblərdə olan bu irqi ayrı-seçkiliyin konstitusiyaya zidd olduğunu bildirmişdir. 1960-cı illərdə mülki hüquqlar hərəkatı sayəsində afro-amerikalıların səsvermə və hərəkat azadlığı kimi konstitusional hüquqlarını təmin edən sosial islahat dalğası qüvvəyə mindi. Digər Jim Crow qanunları isə 1964-cü il Mülki Hüquqlar Qanunu və 1965-ci il Seçki Hüquqları Qanunu ilə ləğv edilmişdir.

Qaradərililərin hüquq və azadlıqlarının müdafiəçisi kimi tanıdığımız Martin Lüter Kinq tolerantlıqla bağlı arzularını belə ifadə etmişdir: “Arzum budur ki, irqçiliyin dəhşətli dərəcədə yayıldığı, “məhv etmək” və “müdaxilə etmə” sözlərinin dildən düşmədiyi bu torpaqlarda bir gün ağdərili və qaradərili oğlan və qızlar əl-ələ verərək bacı-qardaş kimi gəzsinlər”.Onu da nəzərə çatdıraq ki, Martin Lüter məhz qaradərili olduğu üçün 1968-ci ildə qətlə yetirilmişdir.

21-ci əsrdə də qaradərililərə qarşı olan dözümsüzlüyə aid nümunələr görə bilirik. 2015-ci ilin yazında qaradərili gənc Mixael Broun ağdərili Darren Uilson tərəfindən vurularaq öldürülüb.2020-ci ilin avqustun 21-də Luiziana ştatında daha bir hadisə baş verib. 31 yaşlı afro-amerikalı Treyford Peller polis tərəfindən saxlanılarkən qaçmağa cəhd edib, amma polislər onu güllələyərək öldürüblər. Pellerinin bədəninə 10-na qədər atəş açılmışdır. Bundan sonra ölkədə etiraz aksiyaları geniş vüsət almışdı. Digər bir hadisə 2020-ci il mayın 25-də Minneapolis şəhərində baş vermişdir. Afro-amerikalı Corc Floyd saxta əskinaslarla ödəniş etmə şübhəsi ilə saxlanılıb.Polis onun qoluna qandal vuraraq yerə yıxıb və boynunu dizi ilə sıxıb. Floyd bu vəziyyətdə 9 dəqiqə qalıb. Floyd nəfəs ala bilmədiyinə görə qışqırsa da heç kim ona əhəmiyyət verməyib və ürəyi dayanaraq ölüb.

Amerikada insan haqları və bərabərlik uğrunda mübarizə tarixi proseslərdən keçərək müasir dövrümüzə qədər müxtəlif hal və situasiyalarda gəlmişdir.Bu gün də davam edən mübarizədə əldə edilən nailiyyətlər, xüsusilə də 1960-cı illərin vətəndaş hüquqları hərəkatı nəticəsində irqi ayrı-seçkiliyin rəsmi olaraq aradan qaldırılması və qadın hüquqlarının genişlənməsi, Amerika cəmiyyətində bərabərliyin gücləndirilməsinə böyük təsir göstərmişdir.

Bütün bu uğurlara baxmayaraq,mübarizənin başa çatdığını deyə bilmərik. Sosial ədalət və bərabərliyin hələ də tam təmin edildiyini demək doğru olmazdı, bu sahədə qeyri-bərabərliyin yeni formaları ortaya çıxmağa davam edir. Bu gündə müxtəlif qruplar irqi, etnik və gender bərabərliyi uğrunda mübarizəni davam etdirir.

**Nəticə**

Gələcəyin Amerikasında bu mübarizənin hələ də davam edəcəyi gözlənilir. Bunu qanunvericilik sahəsində atılmaqda olan və atılacaq yeni addımlar və vətəndaşların fəallığı bir daha sübut edir. Əslində, mübarizənin mövcudluğu cəmiyyəti daim ayıq və inkişafda saxlamaqda özünəməxsus rol oynayır. Gələcəkdə daha bərabər bir cəmiyyətin yaranacağına ümid daima mövcudluğunu qoruyur, məhz bu ümid mübarizənin davamlı olmasına səbəb olur. İnsan haqları günümüzün aktual mövzusu olmaqla gələcəkdə bu mövzuda aparılan mübarizələrin öz məqsədinə çatması optimist görünür.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. İgnatieff Michael “Giriş:Amerika müstəsnalığı və insan hüquqları” 2005 s6*

*2. Məmmədov Zaur “Siyasət nəzəriyyəsi” 2014 s302*

*3. ABŞ “İstiqlaliyyət Bəyannaməsi” 1776 s1*

*4. Bruce Bartlett “Yarışda səhv: Demokratik partiyanın dəfn edilmiş keçmişi” 2008 s24*

**Asmar Jabrayilzadeh**
***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

**SUMMARY**

The adoption of the Universal Declaration of Human Rights and the important role of the US Constitution in the adoption of the declaration are focused on the creators of the American state who put liberal values such as "protection of freedom and every individual" into practice. the struggle for rights and equality continues and its relevance is based on the approach of different layers of society to equality of rights, challenges in this area, the impact of Jim Crow laws on African Americans, the current state of the struggle. and plays an important role in issuing new laws for the protection and provision of human rights.

**Key words:** *America, human rights, equality, struggle, freedom.*

**Асмар Джабраилзаде**
***Академия государственного управления при Президенте Азербайджанской Республики***

**РЕЗЮМЕ**

Принятие Всеобщей декларации прав человека и важная роль Конституции США в принятии декларации ориентированы на создателей американского государства, воплотивших в жизнь такие либеральные ценности, как «защита свободы и каждой личности». Борьба за права и равенство продолжается и ее актуальность основана на подходе разных слоев общества к равноправию, проблемах в этой области, влиянии законов Джима Кроу на афроамериканцев, современном состоянии борьбы и пьесах. важную роль в издании новых законов по защите и обеспечению прав человека.

**Ключевые слова:** *Америка, права человека, равенство, борьба, свобода.*

**XÜLASƏ**

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi, bəyannamənin qəbulunda ABŞ Konstitusiyasının mühüm rol oynaması mövzuları diqqət mərkəzindədir. “Azadlığın və hər bir fərdin müdafiəsi” kimi liberal dəyərləri praktikaya tətbiq edən məhz Amerika dövlətinin yaradıcıları olmuşlar. Buna baxmayaraq 19-cu əsrin ortalarından başlayaraq günümüzə qədər Amerikada insan haqları və bərabərlik uğrunda mübarizə davam edir və öz aktuallığını saxlayır. Cəmiyyətin müxtəlif təbəqələrinin hüquq bərabərliyinə olan yanaşmaları, bu sahədəki çağırışlar, Jim Kroun qanunlarının afroamerikalılara təsiri, mübarizənin hazırki vəziyyəti məqalənin əsasını təşkil edir. Nəticə etibarilə, bu mübarizə cəmiyyətin insan haqları və bərabərlik mövzusunda ictimai şüurunun inkişafında və insan haqlarının qorunması və təmin olunması lehinə yeni-yeni qanunların verilməsində mühüm rol oynayır.

**Açar sözlər:** *Amerika, insan haqları, bərabərlik,-mübarizə, azadlıq.*

Beynəlxalq ictimai - siyasi, elmi - nəzəri jurnal

Tarix və Antropologiya

UOT:94(479,24),930:314
https://doi.org/10.30546/3006-0346.2024.6.84.045

# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ ERMƏNİSTAN VƏ GÜRCÜSTANLA ƏRAZİ PROBLEMLƏRİ

**ASƏF HACIYEV**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: asafhajiyev@rambler.ru*

## Giriş

Türk-müsəlman Şərqində ilk demokratik, parlamentli respublika olan və xalqımızın Rusiyaya qarşı milli azadlıq mübarizəsi nəticəsində 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikasının ərazisi barədə məlumat Cümhuriyyətin İstiqlal Bəyanaməsində öz əksini tapmışdır. Həmin sənəddə cənub-şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan tamhüquqlu müstəqil dövlət kimi təsbit edilirdi. Azərbaycan Demokratik Respublikasının yarandığı ərəfədə onun ərazisi barədə, eyni zamanda qonşu dövlətlərlə - Ermənistan və Gürcüstanla mübahisəli əraziləri məqaləmizin mahiyyətini təşkil etdiyi üçün əvvəlcə Cümhuriyyətin yarandığı ərəfədə, həmçinin sonrakı 23 aylıq fəaliyyəti dövründə ərazi problemlərini diqqətə çatdırmaq daha məqsədəuyğun olardı.

**Cümhuriyyət dövrünün ərazi problemləri:** Azərbaycan Demokratik Respublikası yarandığı dövrdə ərazisi 113,895,97 kv.km təşkil etmişdir. Bunun 97,297,67 kv.km-i mübahisəsiz, 16,598,30 kv.km-i isə mübahisəli ərazi hesab edilirdi. Cədvəl 1-dən aydın olur ki, mübahisəli ərazi İrəvan və Tiflis quberniyaları üzrədir (Cədvəl 1).

**Cədvəl 1**
**Azərbaycan Demokratik Respublikasının ərazisi (Mübahisəsiz və mübahisəli ərazilər) [1, s.12]**

| Ərazinin adı | kv.km | Qeyd |
|---|---|---|
| Bakı quberniyası | 39,075,15 | Mübahisəsiz ərazi |
| Gəncə quberniyası | 44,371,29 | Mübahisəsiz ərazi |
| Zaqatala mahalı | 3,992,54 | Mübahisəsiz ərazi |
| İrəvan quberniyası | 9,858,69 | Mübahisəsiz ərazi |
| **Cəmi** | **97,297,67** | **Mübahisəsiz ərazi** |
| İrəvan quberniyası | 7,913,17 | Mübahisəli ərazi |
| Tiflis quberniyası | 8,685,13 | Mübahisəli ərazi |
| **Cəmi** | **16,598,30** | **Mübahisəli ərazi** |
| **Yekun** | **113,895,97** | |

Cədvəldən aydın olur ki, İrəvan quberniyasının bütövlükdə ərazisi 17,771,86 kv.km-dir. Bunun mübahisəsiz ərazisi 9,858,69 kv.km təşkil edir ki, bura Şərur-Dərələyəz qəzasının I və II polis sahələri, Naxçıvan qəzasının I, II, III və IV polis sahələri və Yeni Bəyazid qəzasının I və II polis sahələri daxildir.

İrəvan quberniyasının mübahisəli ərazisi isə 7,913,17 kv.km təşkil edir. Bura İrəvan qəzasının I, II, III və IV poIis sahələri, Eçmiədzin qəzasının II və III polis sahələri, Sürməli qəzasının I, II və III polis sahələri, Yeni Bəyazid qəzasının III polis sahəsinin bir hissəsi daxildir.

Tiflis quberniyasının mübahisəli ərazisi 8,685,13 kv.km-dir. Belə ki, Tiflis qəzasının II və III polis sahələrini, Sığnax qəzasının V polis sahəsini və Borçalı qəzasının I, II, III və IV polis sahələrinin bir hissəsini mübahisəli ərazi təşkil edir. Ümumilikdə İrəvan və Tiflis quberniyaları üzrə mübahisəli ərazi 16,598,30 kv.km-dir [1,səh.12].

Yenicə yaranmış Azərbaycan Demokratik Respublikası ərazilərinin və sərhədlərinin konkretləşdirilməsi zamanı çox ciddi problemlərlə qarşılaşdı. Belə ki, Azərbaycan qonşu ölkələrlə münasibətlərini bir sıra çətinlikləri aşaraq qurmalı idi. Ən çətin problem sərhədlərlə bağlı idi. Bu problem çarizmdən miras qalmış inzibati-ərazi bölgüsünün əhalinin milli tərkibinə uyğun gəlməməsindən qaynaqlanırdı. 1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda Azərbaycanın ərazisi müəyyənləşdirilmiş, hətta bu məsələ daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində də əks olunmuşdu. Həmin sənədə əsasən, Azərbaycan Demokratik Respublikası aşağıdakı əraziləri əhatə edirdi: Bakı quberniyası (Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası) - cəmi 39,075,15 kv.km; Yelizavetpol (Gəncə) quberniyası (Yelizavetpol, yəni Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin, yəni Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı) - cəmi 44,371,29 kv.km; İrəvan quberniyası (Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi) - cəmi 9,858,69 kv.km; Tiflis quberniyası (Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi); Zaqatala ma-

halı - cəmi 3,992,54 kv.km; Dağıstan vilayəti (Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq Tabasaran qəzasının bir hissəsi). Memorandumda həmçinin Cənubi Qafqazın 237,055 kv. km-lik ərazisində 7.667.370 nəfərin yaşadığı qeyd olunurdu. Əhalinin etnik tərkibinə gəldikdə - 3.306.000 nəfəri (43,1%) müsəlmanlardan, 1.786.000 nəfəri (23,3%) ermənilərdən, 1.641.000 nəfəri isə (21,4%) gürcülərdən ibarət olduğu göstərilirdi. Həmin sənədə əsasən Azərbaycan Xalq Cümhuriyyəti ərazisində 2.353.000 nəfər yaşayırdı ki, bu da Cənubi Qafqaz əhalisinin 34,9%-nə bərabər idi. Azərbaycan Demokratik Respublikası Hökumətinin Paris sülh konfransına təqdim etdiyi sənədlərə görə isə, Azərbaycan Demokratik Respublikasının həqiqi hakimiyyəti altında olan ərazi Cənubu Qafqaz ərazisinin 38%-ni, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7%-ni əhatə etdiyi göstərilirdi [1, s.15].

Paris sülh konfransına təqdim olunmuş sənədlərə əsasən, ümumiyyətlə, Cənubi Qafqazın əhalisi 8.081.668 nəfərdən ibarət idi. Onların da 4.617.671 nəfəri, yəni 57,1%-i Azərbaycanda yaşayırdı. Azərbaycan əhalisinin 75,4%-i, yəni 3.481.889 nəfərini azərbaycanlılar, 17,2%-i, yəni 795.312 nəfərini ermənilər, 0,6%-i 26.585 nəfərini gürcülər, 6,7%-i, yəni 310.885 nəfərini isə başqa xalqların nümayəndələri təşkil edirdi [1, s.15].

Bundan başqa, Azərbaycan Cümhuriyyəti Tiflis quberniyasındakı Axalsıx qəzasının Batum, xüsusən Qars əyalətlərini də öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verirdi. Lakin ərazi məsələlərini dinc yolla həll etmək mümkün olmadı. Belə ki, Birinci Dünya müharibəsində məğlub olan Osmanlı imperiyası hərbi qüvvələrini Cənubi Qafqazdan (o cümlədən Azərbaycandan) çıxaran kimi ermənilər fəallaşmağa başladılar. Ermənistan Azərbaycanın tarixi torpaqlarına olan iddialarını həyata keçirmək üçün Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə soyqırımlarını daha da genişləndirdi.

Azərbaycan Demokratik Respublikası dövründə ermənilərin ərazi iddiaları: Azərbaycan Demokratik Respublikası elan olunduqdan bir gün sonra Azərbaycan və Erməni Milli Şuraları arasında sərhəd məsələləri üzrə danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında müzakirə edildi. İclasda Aleksandropolun (Gümrünün) Türkiyə tərəfindən tutulması ilə əlaqədar Ermənistan hökumətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsi nəzərdən keçirildi. Azərbaycanla Ermənistan arasında konfederasiya ehtimalını nəzərə alaraq, Azərbaycan Milli Şurası səs çoxluğu ilə (siyahıda 28 nəfərdən 20 nəfər iştirak edirdi. 16 nəfər lehinə, 1 nəfər əleyhinə, 3 nəfər bitərəf) İrəvan şəhərini Ermənistan Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı. Qərar qəbul edilərkən səs çoxluğu ilə yanaşı ermənilərin Dağlıq Qarabağa olan əsassız iddialarından imtina etməsi şərti də nəzərə alındı. Beləliklə, 1918-ci ilin mayın 29-da İrəvan paytaxt olaraq Ermənistana verildi.

Lakin İrəvan şəhərini özlərinə siyasi mərkəz seçməklə kifayətlənməyən ermənilər Azərbaycanın digər ərazilərinə də iddia etməyə başladılar. Bunun üçün ermənilərin iddia etdikləri ərazilərdə yaşayan əhalinin (İrəvan quberniyası və digər ərazilər üzrə) milli tərkibi haqqında məlumatı araşdırmaqla ermənilərin bu ərazilərə olan iddiasının əsassız və məntiqsiz olduğunu faktlarla sübut etmək məcburiyyətindəyik. Cədvəl 2-dən aydın olur ki, Cümhuriyyətin yaranması ərəfəsində İrəvan quberniyasında 1.120.242 nəfər əhali yaşamışdır. Bu əhalinin 423.123 (37,77%) nəfəri türklər, 669.871 (59,79%) nəfəri ermənilər, 27.248 (2,44%) nəfəri isə digər millətlərdən idi. Türklərin çoxluqda olduqları qəzalarda türklər 208.261 (62,7%) nəfər, ermənilərin çoxluqda olduqları qəzalarda isə türklər 214.862 (27,15%) nəfər təşkil etmişdir. Belə ki, Şərur-Dərələyəzdə 60.183 nəfər, Sürməlidə 66.370 nəfər, Naxçıvanda 81.708 nəfər, İrəvanda (qarışıq) 93.544 nəfər, Yeni Bəyaziddə (qarışıq) 54.085 nəfər, Eçmiədzində 52.081 nəfər, Aleksandropolda (Gümrü) 15.152 nəfər türk yaşamışdır [4, s.216-218].

**Cədvəl 2**

**İrəvan quberniyasının qəzalar üzrə əhalisinin milli tərkibi (1916-cı il yanvarın 1-i məlumatına görə) [4, s.216-218]**

| Qəzalar | Türklər | Ermənilər | Digərləri | Cəmi |
|---|---|---|---|---|
| **Şərur-Dərələyəz** | 60.183 (66,7%) | 29.165 (32,3%) | 902 (1,0%) | 90.250 (100%) |
| **Sürməli** | 66.370 (63,6%) | 32.686 (31,2%) | 5.735 (5,2%) | 104.791 (100%) |
| **Naxçıvan** | 81.708 (59,7%) | 54.209 (39,6%) | 942 0,7% | 136.859 (100%) |
| **Türklərin çoxluqda olduqları qəzalarda cəmi** | 208.261 (62,7%) | 116.060 (35,0%) | 7.579 (2.3%) | 331.900 (100%) |
| **İrəvan (qarışıq)** | 93.544 (45,5%) | 106.933 (52,0%) | 5.140 (2,5%) | 205.617 (100%) |
| **Yeni Bəyazid (qarışıq)** | 54.085 (28,7%) | 129.347 (68,5%) | 5.427 (2,8%) | 188.859 (100%) |
| **Eçmiədzin (erməni)** | 52.081 (31,0%) | 115.026 (68,6%) | 679 (0,4%) | 167.786 (100%) |
| **Aleksandropol (erməni)** | 15.152 (6,7%) | 202.505 (90,0%) | 8.423 (3,3%) | 226.080 (100%) |
| **Ermənilərin çoxluqda olduqları qəzalarda cəmi** | 214.862 (27,15%) | 553.811 (70,25%) | 19.669 (2,60%) | 788.342 (100%) |
| **İrəvan quber.üzrə cəmi** | **423.123 (37,77%)** | **669.871 (59,79%)** | **27.248 (2.44%)** | **1.120.242 (100%)** |

Cümhuriyyət dövründə isə Ermənistanın iddia etdiyi ərazilərdə yaşayan 587.256 nəfər ümumi əhalinin 371.192 nəfərini, yəni 63,2%-ni türklər, 216.064 nəfərini, yəni 36,8%-ni isə ermənilər təşkil edirdi (Qeyd: Bu ermənilər 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra bu ərazilərə köçürülənlərdir). Belə ki, Göyçə (Dəvəli, Məzrə və Yeni Bəyazid qəzasının Qızıldərə polis məntəqəsi) üzrə 85.718 nəfər ümumi əhalinin 66.653 nəfərini, yəni 77,8%-ni türklər, 19.065 nəfərini, yəni 22,2%-ni ermənilər, Naxçıvan (Naxçıvan, Şərur-Dərələyəz qəzaları, İrəvan qəzası 1-ci və 2-ci polis məntəqələri və 6-cı polis məntəqəsinin bir hissəsi) üzrə 393.747 nəfər ümumi əhalinin, 238.169 nəfərini, yəni 60,5%-ni türklər, 155.578 nəfərini, yəni 39,5%-ni ermənilər, Sürməli üzrə 104.791 nəfər ümumi əhalinin 66.370 nəfərini, yəni 63,6%-ni türklər, 32.686 nəfərini, yəni 31,2%-ni ermənilər, 5.735 nəfərini, yəni 5,2%-ni isə digər millətlər təşkil edirdi [5,səh.23]. (Cədvəl 3)

**Cədvəl 3**
**Ermənilərin iddia etdikləri ərazilərdə yaşayan əhalinin milli tərkibi [5, s.23]**

| Qəzalar | Türklər | Ermənilər | Cəmi |
|---|---|---|---|
| Göyçə (Dəvəli, Məzrə və Yeni Bəyazid qəzasının Qızıldərə polis məntəqəsi) | 66.653 (75,1%) | 22.065 (24,9%) | **88.718 (100%)** |
| Naxçıvan (Naxçıvan, Şərur Dərələyəz qəzaları, İrəvan qəzası 1-ci və 2-ci polis məntəqələri, 6-cı polis məntəqəsinin bir hissəsi) | 238.169 (60,5%) | 155.578 (39,%) | **393.747 (100%)** |
| Sürməli | 66.370 (63,3%) | 38.421 (36,7%) | **104.791 (100%)** |
| **Cəmi** | **371.192 (63,2%)** | **216.064 (36,8%)** | **587.256 (100%)** |

**Azərbaycan Demokratik Respublikası dövründə gürcülərin ərazi iddiaları:** Azərbaycanla Gürcüstan arasında da sərhəd mübahisələri vardı. Belə ki, Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qarayazı, Sığnax və Zaqatala mahallarını Azərbaycana qaytarmaqdan imtina edirdi. Gürcüstanın Azərbaycana qarşı iddia etdiyi ərazilərdə yaşayan əhalinin milli tərkibinə diqqət yetirərkən burada yaşayan 147.162 nəfər ümumi əhalinin 135.898 nəfərini, yəni 92,3%-ni türklər, 6.326 nəfərini, yəni 4,3-%-ni gürcülər təşkil edib. Belə ki, Zaqatalada 92.698 nəfər ümumi əhalinin 85.136 (92,0%) nəfərini türklər (türklər 26.230 nəfər - 28,3%, ləzgilər 49.056 nəfər - 54%, ingiloylar 9.850 nəfər - 9,6%), 4.664 (4,9%) nəfərini gürcülər, 2.898 (3,1%) nəfərini digər millətlər (ermənilər 2.530 nəfər, ruslar 326 nəfər, digər xalqlar 42 nəfər), Borçalıda 39.580 nəfər ümumi əhalinin 36.615 (92,5%) nəfəri türklər, 1.862 (4,7%) nəfəri gürcülər, 1.103 (2,8%) nəfəri isə digər millətlər yaşadığı halda, Sığnaxda və Qarayazıda gürcülərin yaşamadığı məlum olur [5,səh.16]. Cədvəl 4. Belə olduğu halda, gürcülərin bu ərazilərə hansı haqla iddia etdikləri başa düşülən deyil.

**Cədvəl 4**
**Gürcüstanın iddia etdiyi ərazilərdə yaşayan əhalinin milli tərkibi (1916-cı il yanvarın 1-i məlumatına görə) [5, s.16; 2, s.316]**

| Ərazi | Türklər | Gürcülər | Digər xalqlar | Cəmi |
|---|---|---|---|---|
| **Zaqatala dairəsi** | 85.136 (92,0%) | 4.664 (4,9%) | 2.898 (3,1%) | 92.698 (100%) |
| **Sığnax mahalının cənub-şərq hissəsi** | 6.728 (100%) | - | - | 6.728 (100%) |
| **Qarayazı** | 7.419 (88,8%) | - | 937 (11,2%) | 8.356 (100%) |
| **Borçalı** | 36.615 (92,5%) | 1.862 (4,7%) | 1.103 (2,8%) | 39.580 (100%) |
| **Cəmi** | 135.898 (92,3%) | 6.326 (4,3%) | 4.938 (3,4%) | 147.162 (100%) |

1918-ci il iyun ayının 5-də Gürcüstan hökumətinin iclasında hərbi nazirin "Borçalı qəzasında işlərin vəziyyəti və Gürcüstan dövlətinin dəqiq sərhədlərinin aydınlaşdırılması zərurəti haqqında" məruzəsi dinlənilir, həmçinin Borçalı, Sığnax və Tiflis qəzalarının sərhədlərində silahlı qüvvələrin yerləşdirilməsi haqqında qərar qəbul edildi [2, s.86]. Gürcüstan silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918-ci ilin əvvəllərində Borçalıya daxil oldular. 1918-ci il iyunun 14-də Azərbaycan Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə görə nota verdi və sərhəd məsələsini siyasi yolla həll edilməsini təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədiyi halda ərazi mübahisələri daha kəskin şəkil almaga başladı. Buna görə də həmin problemin beynəlxalq İstanbul konfransında müzakirə edilməsi qərara alındı. Qeyd etmək lazımdır ki, yerli əhali öz yığıncaqlarında qəbul etdikləri qətnamələrdə Azərbaycan hökumətinə müraciət edir, bu torpaqların Azərbaycan torpaqları hesab edilməsini və yeni yaranmış Azərbaycan Demokratik Respublikasının öz hakimiyyətini Borçalıda təsbit etməsini tələb edirdi. Borçalıların Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə göndərdikləri müraciətdə deyilirdi: "Bu torpağın pionerləri bizik, sayca əksər çoxluğu biz təşkil edirik, burada hakim xalq olmaq üçün hər cür ləyaqətimiz

var. Ona görə də Türkiyə sultanı və böyük vəzirə, mərkəzi idarəsi Tiflis şəhərində olmaqla Türkiyənin himayəsi altında bizim "Qarapapax" adı ilə yarım-müstəqil xanlıq kimi tanınmamız, ya da Tiflis şəhəri ilə birlikdə bizim qonşu Azərbaycana birləşməmiz barədə müraciət etmişik". Borçalı camaatı adından müraciəti imzalamış Borçalının sünni və şiə təriqətləri üzrə qaziləri, xeyriyyə cəmiyyətinin sədri və üzvləri Azərbaycan hökumətinin başçısından Borçalıda törədilmiş cinayətləri araşdırmaq üçün buraya istintaq komissiyası və "müsəlman kəndlərinin təhlükəsizliyini təmin etmək üçün tezliklə kifayət qədər qoşun göndərilməsini" xahiş edirdilər [2, s.87]. Burada qeyd etmək yerinə düşər ki, Cənubi Qafqazın coğrafi mərkəzində yerləşən Borçalı əhalisinin xeyli hissəsi azərbaycanlılardan (türklərdən) ibarət idi. 1886-cı ilin statistik materiallarına görə, bu mahalın Borçalı polis məntəqəsi üzrə qeydiyyatda olan 19.109 nəfər sakinindən 12.384 nəfəri türk, 6.724 nəfəri erməni idi, cəmi 1 nəfər gürcü yaşayırdı. Yekaterinenfeld məntəqəsi üzrə 13.973 nəfər ümumi əhalinin 10.028 nəfəri türk, 543 nəfəri gürcü, 1.436 nəfəri erməni, 1.966 nəfər isə başqa xalqların nümayəndələrindən (alman, yunan kolonistlərindən və s.) ibarət idi. Trialet məntəqəsi üzrə 35.989 nəfər ümumi əhalinin 8.974 nəfəri türk, 3.578 nəfəri gürcü, 6.333 nəfəri erməni, 17.104 nəfəri isə başqa millətin nümayəndələri idi. Borçalı mahalının cənubundakı Loru (Lori) məntəqəsində nisbət erməni əhalisinin xeyrinə idi. Belə ki, burda yaşayan 32.776 nəfər ümumu əhalinin 23.339 nəfəri erməni, 1.657 nəfəri türk, 27 nəfəri gürcü, 7.753 nəfəri isə başqa millətin nümayəndələrindən ibarət idi. Cəmi Borçalı mahalı üzrə 101.847 nəfər əhalinin 33.043 nəfəri türk, 4.149 nəfəri gürcü, 37.832 nəfəri erməni, qalanları isə yəni, 26.823 nəfəri başqa etnik birliyin nümayəndələrindən ibarət idi (Cədvəl 5).

**Cədvəl 5**
**Borçalı mahalı üzrə əhalinin milli tərkibi (1886-cı il) [2]**

| Xalqlar | Borçalı p.m.ü | Yekaterinenfeld məntəqəsi üzrə | Trialet məntəqəsi üzrə | Lori məntəqəsi üzrə | Cəmi |
|---|---|---|---|---|---|
| Türklər | 12.384 (64,8%) | 10.028 (71,8%) | 8.974 (25%) | 1.657 (5,1%) | 33.043 (32,4%) |
| Ermənilər | 6.724 (35,1%) | 1.436 (10,2%) | 6.333 (17,6%) | 23.339 (71,2%) | 37.832 (37,1%) |
| Gürcülər | 1 (0,1% ) | 543 (3,9%) | 3.578 (9,9%) | 27 (0,1%) | 4.149 (4,1%) |
| Digər xalq. | - | 1.966 (14,1%) | 17.104 (47,5%) | 7.753 (23,6%) | 26.823 (26,4%) |
| **Cəmi** | **19.109 (100%)** | **13.973 (100%)** | **35.989 (100%)** | **32.776 (100%)** | **101.847 (100%)** |

1909-cu il statistik göstəricisinə görə isə əhalinin etnik tərkibi Borçalı polis məntəqəsi üzrə 33.107 nəfərdən 15.884 nəfəri, yəni 49,5%-i türk, 15.615 nəfəri (45,8%) erməni, 420 nəfəri (1,2%) gürcü, qalan 1.188 nəfəri (3,5%) isə başqa millətin nümayəndələrindən ibarət idi. Yekaterinenfeld məntəqəsi üzrə 20.689 nəfərdən 15.342 nəfəri, yəni 74,3 %-i türk, 1.103 nəfəri erməni (5,4%), 1.862 nəfəri (9%) gürcü, 2.382 nəfəri (11,3%) isə başqa millətlərdən ibarət idi. Lori məntəqəsi üzrə 54.406 nəfər ümumi əhalinin 4.446 nəfərini türklər (8,2%), 39.518 nəfərni ermənilər (72,6%), 10.442 nəfərini isə digər xalqlar təşkil edirdi. Qeyd etmək lazımdır ki, bu ərazidə gürcülər yaşamırdı. Trialet məntəqəsində 48.950 nəfər ümumi əhalinin 8.821 nəfərini yəni, 18,8%-ni türklər, 9.541 nəfərini yəni, 19,5%-ni ermənilər, 6.090 nəfərini yəni, 12,4%-ni gürcülər, 24.498 nəfərini yəni, 50%-ni isə digər xalqlar təşkil edirdi. Borçalı mahalı üzrə əhalinin etnik tərkibinə gəldikdə, 157.152 nəfər ümumi əhalinin 44.493 nəfərini yəni, 28,8%-ni türklər, 65.777 nəfərini yəni, 41,6%-ni ermənilər, 8.372 nəfərini yəni, 4,7%-ni gürcülər, 38.510 nəfərini isə digər xalqlar təşkil edirdi. Beləliklə, Borçalı mahalı üç etnik zonaya bölünürdü: onun cənub hissəsində ermənilər, orta zolağında isə türklər üstünlüyə malik idilər (cədvəl 6).

**Cədvəl 6**
**Borçali mahalı üzrə əhalinin milli tərkibi (1909-cu il) [2, s.320].**

| Xalqlar | Borçalı p.m.ü | Yekaterinenfeld məntəqəsi üzrə | Trialet məntəqəsi üzrə | Lori məntəqəsi üzrü | Cəmi |
|---|---|---|---|---|---|
| Türklər | 15.884 (49,5%) | 15.342 (74,3%) | 8.821 (18,0%) | 4.446 (8,2%) | 44.493 (28,4%) |
| Ermənilər | 15.615 (45,8%) | 1.103 (5,4%) | 9,541 (19,5%) | 39.518 (72,6%) | 65.777 (41,8%) |
| Gürcülər | 420 (1,2%) | 1.862 (9%) | 6.090 (12,5%) | - | 8.372 (5,3%) |
| Digər xalq. | 1.188 (3,5%) | 2.382 (11,3%) | 24.498 (50%) | 10.442 (19,2%) | 38.510 (24,5%) |
| **Cəmi** | **33.107 (100%)** | **20.689 (100%)** | **48,950 (100%)** | **54.406 (100%)** | **157.152 (100%)** |

Keçmiş Yelizavetpol quberniyasına bitişik Qarayazı nahiyəsi əhalisinin 1886-cı ilin etnik tərkibinə diqqət yetirsək görərik ki, 5.054 nəfər ümumi əhalinin 4.754 nəfəri (yəni 94%) türklərdən, 120 nəfəri gürcülərdən, 35 nəfəri isə ermənilərdən ibarət idi. 1909-cu ildə bu nahiyədə rus, alman və başqa kolonistlərin gəlməsi ilə türk əhalisinin xüsusi çəkisi 89,8%-ə enmiş, lakin burada gürcü və erməni əhalisinin sayı cüzi miqdarda qalmışdır [2, s.89]. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində statistik materiallar əsasında hazırlanmış araşdırmaya görə,

tədqiq olunan dövrdə Sığnax qəzasının cənub-şərq hissəsində sakin olan 6.728 nəfərin hamısı müsəlmanlardan ibarət idi. Qarayazı nahiyəsində ümumi əhalinin (8.356 nəfərin) 88,8%-i müsəlmanlardan, qalanları başqa milli azlıqların nümayəndələrindən ibarət idi. Bu ərazidə də gürcülərin demək olar ki, yaşamadıqları aydın olurdu.

**Cədvəl 7**
**Borçalı mahalının mübahisəli ərazisi üzrə əhalisinin milli tərkibi (1916-cı il) [2, s.322]**

| Xalqlar | Sayı | Faiz |
|---|---|---|
| Türklər | 51.230 | 30,3% |
| Gürcülər | 10.419 | 6,2% |
| Ermənilər | 57.391 | 33,8% |
| Ruslar | 8.772 | 5,2% |
| Digər xalqlar | 41.539 | 24,5% |
| **Cəmi** | **169.351** | **100%** |

1916-cı ildə Borçalı mahalının mübahisəli ərazisi üzrə ümumi əhalisinin sayı 169.351 nəfər təşkil edib ki, bunun da 51.230 nəfəri, yəni 30,3%-i türklərdən, 10.419 nəfəri, yəni 6,2%-i gürcülərdən, 57.391 nəfəri, yəni 33,8%-i ermənilərdən, 8.772 nəfəri, yəni 5,2%-i ruslardan, 41.539 nəfəri, yəni 24,5%-i isə digər xalqlardan ibarət olub (Cədvəl 7).

**Cədvəl 8**
**Gürcüstanla mübahisəli ərazi olan Qarayazı mahalı üzrə əhalinin milli tərkibi (1916-cı il) [5, s.49]**

| **Tiflis qəzası Qarayazı mahalının kəndləri üzrə** | Türklər | | Ruslar | | Digər xalqlar | | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **Agtağlı kəndi** | 3.797 | 100% | - | - | - | - | 3.797 |
| **Hacalar kəndi** | 2.490 | 100% | - | - | - | - | 2.490 |
| **Gülkənd kəndi** | 540 | 58,3% | - | - | 387 | 41,7% | 927 |
| **Qaracalar kəndi** | 592 | 100% | - | - | - | - | 592 |
| **Mixaylovka kəndi** | - | - | 550 | 100% | - | - | 550 |
| **Qarayazı üzrə cəmi** | **7.419** | **88,8%** | **550** | **6,6%** | **387** | **4,6%** | **8.356** |

1916-cı ildə Gürcüstanla mübahisəli ərazi hesab olunan Qarayazı mahalı üzrə əhalinin milli tərkibinə diqqət yetirdikdə (cədvəl 8) məlum olur ki, burada da yaşayan 8.356 nəfər əhalinin 7.419 nəfəri, yəni 88,8%-i türklərdən, 550 nəfəri, yəni 6,6%-i ruslardan, 387 nəfəri, yəni 4,6%-i isə digər xalqlardan ibarət olub.

Beləliklə, Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi qısa dövr ərzində ərazisini və sərhədlərini qorumaq sahəsində mühüm işlər gördü. Lakin 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrı-seçkilik siyasəti nəticəsində Azərbaycan əraziləri daha da azaldıldı. Belə ki, Rusiya işğalından sonrakı dövrdə Cənubi Qafqazda ancaq Azərbaycan torpaq itkilərinə məruz qaldı. Azərbaycan xalqının razılığı olmadan onun torpaqları əlindən alındı. Şimali Azərbaycan torpaqlarının mühüm bir hissəsi - İrəvan quberniyasına daxil olan torpaqlar Ermənistanın (həm mübahisəli - 9.858.69 kv.km, həm də mübahisəsiz - 7.913.17 kv.km əraziləri), Tiflis quberniyasına daxil olan torpaqlar Gürcüstanın, Dərbənd və onun ətrafları isə Rusiyanın tərkibində qaldı. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv.km. müəyyən edildi. Bununla da Azərbaycan Demokratik Respublikasının 27,2 min kv.km. ərazisi Azərbaycan xalqının əlindən alındı. Əlbəttə bütün bu mənfur və dəhşətli siyasəti isə həyata keçirən, Qacarlar və Osmanlı imperiyaları ərazisindən Cənubi Qafqaza 1 milyondan çox erməni köçürərək yerləşdirən [3, s.7], Azərbaycan torpaqlarında əvvəlcə “Erməni vilayəti” (1828), sonralar isə erməni dövləti yaradan (1918) təbii ki, Rusiya idi. Bu işğalçı dövlət Azərbaycan və gürcü xalqları arasında da nifaq salaraq Şimal-Qərbi Azərbaycan torpaqları hesabına Gürcüstan ərazisinin də genişləndirilməsi “qayğısına” qaldılar.

**Açar sözlər:** *Azərbaycan, Respublika, Cənubi Qafqaz, müstəqillik, ərazi, əhali.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II clddə, I cild, Bakı, ”Lider nəşriyyatı”, 2004, 440 səh.*

*2. Nəsib Nəsibli. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti, Bakı, “Qanun nəşriyyatı”, 2011,328 səh.*

*3. Şamil Rəhmanzadə. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (1917-1930-cu illərin əvvəlləri) Bakı, “Aspoliqraf”, 2008, 376 səh.*

*4. Kavkazskiy kalendar na 1917 qod. Tiflis, 1916.*

*5. Александр Щепотьев. Доклад о спорных Кавказских территориях, на которые имеет права Азербайджанские тюрки. Баку, 2016, с.88*

**Asaf Hajiyev**
***Baku State University, Faculty of History, leading researcher, doctor of philosophy in history***

**Territorial problems of the Azerbaijan Democratic Republic with Armenia and Georgia**
**SUMMARY**

Information about the territory of the Azerbaijan Democratic Republic, which was formed on May 28, 1918 as a result of the national liberation struggle of our people against Russia, was reflected in the Republic's Declaration of Independence. In that document, Azerbaijan was recognized as a fully-fledged independent state covering the South-Eastern Transcaucasia. At the time of the establishment of the Azerbaijan Democratic Republic, its territory was 113,895.97 sq.km. organized. Of this, 97,297.67 sq. km was considered undisputed, and 16,598.30 sq. km was considered disputed territory. The total area is 17,771.86 sq. km. 7,913.17 sq. km of Iravan governorate was considered a disputed area, which includes I, II, III and IV police districts of Iravan district, II and III police districts of Echmiadzin district, I, II and III police districts of Surmali district, Yeni Beyazid It included a part of the III police area of the accident. The disputed territory of Tbilisi governorate is 8,685.13 sq. km. It includes the II and III police districts of Tiflis district, the V police district of Sığnak district and a part of the I, II, III and IV police districts of Borchali district.

**Key words:** *Azerbaijan, Republic, South Caucasus, indepedence, territory. population.*

**Асаф Гаджиев**
***Бакинский Государственный Университет, Исторический факультет, ведущий научный сотрудник, доктор философии по истории.***

**Территориальные проблемы Азербайджанской Демократической Республики с Арменией и Грузией**
**РЕЗЮМЕ**

Сведения о территории Азербайджанской Демократической Республики, образовавшейся 28 мая 1918 года в результате национально-освободительной борьбы нашего народа против России, нашли отражение в Декларации независимости республики. В этом документе Азербайджан был признан полноценным независимым государством, охватывающим Юго-Восточное Закавказье. На момент создания Азербайджанской Демократической Республики ее территория составляла 113,895,97 кв.км. организован. Из них 97,297,67 кв. км считались бесспорными, а 16,598,30 кв. км - спорной территорией. Общая площадь составляет 17,771,86 кв. км. Спорной территорией считалась 7,913,17 кв.км Иреванской губернии, в которую входят I, II, III и IV полицейские участки Иреванского района, II и III полицейские участки Эчмиадзинского района, I, II и III полицейские участки Сурмалинского района, Ени Беязид. В его состав вошла часть III полицейского участка ДТП. Спорная территория Тбилисской губернии составляет 8,685,13 кв.км. В его состав входят II и III отделы полиции Тифлисского района, V участок полиции Сыгнакского района и часть I, II, III и IV отделы полиции Борчалинского района.

**Ключевые слова:** *Азербайджан, Республика, Южный Кавказ, независимость, территория, население.*

UOT:94(479. 24)
https://doi.org/10.30546/3006-0346.2024.6.84.047

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ ŞİMAL-ŞƏRQ REGİONUNUN İNKİŞAFININ TARİXŞÜNASLIĞI

**NOVRUZ KƏRİMOV**
*AMEA-nın Tarix və Etnologiya İnstitutu*
*E-mail: amz2005@rambler.ru*

## Giriş

Hər bir dövlətin ictimai-siyasi tərəqqisinin təməlini eyni zamanda sosial-iqtisadi və mədəni həyatın dinamik inkişafı təşkil edir. Ulu Öndər Heydər Əliyev istər Azərbaycanda hakimiyyətinin birinci dövründə (1969-1982-ci illər), istərsə də ikinci dövründə (1993-2003-cü illər) cəmiyyətin sosial-iqtisadi və mədəni həyatının davamlı yüksəlişində əvəzolunmaz xidmətlər göstərmişdir. Heydər Əliyevin Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında dinamizmin təmin edilməsi sahəsində ardıcıl fəaliyyəti, həmçinin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən addımların həyata keçirilməsi ölkədə yeni-yeni infrastruktur sahələrinin yaradılmasına və əhalinin faydalı məşğulluğunun artmasına öz müsbət təsirini göstərmişdir. İstər sovet dövründə, istərsə də müstəqillik illərində regionların inkişafı ilə bağlı atılan çoxsaylı sosial-iqtisadi addımlar nəticəsində bölgələrin sosial-iqtisadi və mədəni həyatında köklü dəyişikliklər baş vermiş, infrastruktur sahələri yenidən qurularaq bütövlükdə regionlarda davamlı və dinamik inkişaf təmin edilmişdir.

Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycan Respublikasının Şimal-Şərq regionunun inkişafı istiqamətində də ciddi addımlar atılmış, davamlı layihələrin icra olunması nəticəsində bu bölgənin sosial-iqtisadi həyatında nəzərəçarpacaq dərəcədə tərəqqi baş vermişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin regionlarda həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasət digər bölgələrdə olduğu kimi Şimal-Şərq regionunun da dinamik inkişafa və əhalinin rifahının yüksəlməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasının iqtisadi inkişafında davamlı tərəqqinin təmin edilməsi, bu istiqamətdə aparılan işlərin keyfiyyətcə yeni mərhələdə davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2003-cü ilin 24 noyabrında imzalanan "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və sonrakı illərdə qəbul edilən digər hüquqi sənədlər qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən hüquqi baza rolunu oynamışdır.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra regionların tarixinin öyrənilməsi istiqamətində əhəmiyyətli dərəcədə addımlar atılmağa başladı. Azərbaycanın müxtəlif şəhərlərinin tarixinin yazılması ilə bərabər bölgələrin də tarixi tədqiqat prosesinə cəlb olundu. Ölkəmizin regionlarının ictimai-siyasi, sosial-iqtisadi, mədəni inkişafının müxtəlif istiqamətləri araşdırma predmetinə çevrildi. Məhz bu baxımdan öz geosiyasi və strateji əhəmiyyətinə, həmçinin sosial-iqtisadi və turizm potensialına görə xüsusi rola malik olan Azərbaycanın Şimal-Şərq regionun – Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının inkişaf tarixinin öyrənilməsi böyük aktuallıq kəsb edir. Xüsusilə də istər sovet dövründə, istərsə də müstəqilliyimizin ilk onilliyində Ümummilli lider Heydər Əliyevin bu regionlarda həyata keçirdiyi böyük sosial-iqtisadi və mədəni layihələrin tədqiq edilməsi, cəmiyyətə çatdırılması böyük elmi, ictimai və sosial əhəmiyyət daşıyır.

## Heydər Əliyev və Azərbaycan Respublikasının Şimal-Şərq regionunun inkişafının tarixşünaslığı

Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Şimal-Şərq regionunun inkişafı tarixi məsələləri indiyədək ayrıca tədqiqat obyekti kimi kompleks şəkildə öyrənilməsə də, bu bölgənin sosial-iqtisadi və mədəni həyatının müxtəlif istiqamətləri tədqiqat predmeti olmuşdur. Təbii olaraq bu regionun inkişaf tarixinin tədqiqi məsələsi bölgəsəl xarakter daşıdığı üçün bu istiqamətdə mövcud tədqiqatlar əsasən Azərbaycan tarixçilərinə məxsusdur. Eyni zamanda rəsmi statistik sənədlər, mətbuat orqanlarında bu bölgənin sosial-iqtisadi və mədəni həyatı ilə bağlı dərc olunan məqalələr tədqiqatın elmi bazasının zənginləşməsində əhəmiyyətli rol oynamışdır.

Azərbaycanın Şimal-Şərq regionlarının inkişaf tarixinin öyrənilməsində Ümummilli Lider Heydər Əliyevin rəsmi çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, məruzələri, müraciətləri, fərmanlarının toplandığı "Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar" adlı çoxcildli toplunun böyük əhəmiyyəti vardır. Bu çoxcildlikdə yer alan rəsmi və hüquqi sənədlər bölgənin siyasi, sosial-iqtisadi və mədəni həyatının öyrənilməsi üçün mənbə rolu oynamaqla yanaşı tarixşünaslığımız üçün əsas elmi bazadır (6).

Azərbaycanın müstəqilliyi dövründə bölgənin sosial-iqtisadi həyatını tədqiq edərkən "Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlisi özəl sektorun inkisafindan asılıdır" adlı toplunun əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu kitabda Ümummilli Lider Heydər Əliyevin yerli sahibkarlarla görüşləri, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı qəbul edilən sənədlər toplu şəkildə təqdim edilmişdir (7).

Müstəqillik dövründə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda Heydər Əliyev irsinin araşdırılması məqsədilə aparılan çoxsaylı elmi tədqiqat işləri arasında "Azərbaycan Respublikasının tarixi" adını xüsusi vurğulamaq lazımdır. Prezident İlham Əliyevin tövsiyəsi ilə yazılan "Azərbaycan Respublikasının tarixi"nin birinci cildi fundamental elmi araşdırma olmaqla müstəqillik dövrü tariximizin 1991-2003-cü illərini əhatə edir. Bu dövr müstəqil Azərbaycanın tarixinə Heydər Əliyev dövrü kimi daxil olmuşdur. Əsərdə müstəqillik dövrü tariximizin müxtəlif istiqamətləri işıqlandırılmaqla yanaş, Heydər Əliyevin hakimiyyəti dövründə bölgələrin, həmçinin Şimal-Şərq regionunun sosial-iqtisadi və mədəni həyatının inkişafı tarixi məsələləri də əks olunmuşdur (3).

Azərbaycanın bölgələrinin siyasi və sosial-iqtisadi tarixinin öyrənərkən diqqət yetirilməli olan əsərlərdən biri də Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan ikicildlik "Heydər Əliyev" kitabıdır. Bu fundamental elmi araşdırmanın 1-ci cildi dahi şəxsiyyətin fəaliyyətinin müstəqillik illərinə qədərki dövrünü əhatə edir. Elmi araşdırmasının 2-ci cildi isə Ulu Öndərin ömur yolunun müstəqillik dövrünü əhatə edir. Əsərdə Heydər Əliyev dövrü Azərbaycanının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatını əhatə edən olduqca əhəmiyyətli məlumatlar öz əksini tapmışdır (10; 11).

"Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı elmi monoqrafyada əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetləri, regional xüsusiyyətləri, ölkəmizin dinamik və davamlı sosial-iqtisadi inkişafının amilləri, inkişaf perspektivləri təhlil olunur (4).

"Azərbaycanın regionları. Yeni inkişaf dövrü" adlı 3 cildlik monoqrafiyanın ikinci cildində Heydər Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişaf strategiyasının davamı olaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində Prezident İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən proqramların icrası, Quba-Xaçmaz iqtisadi rayonunda həyata keçirilən sosial-iqtisadi və mədəni layihələr əks olunmuşdur (5).

Akademik Q.Məmmədovun "Heydər Əliyev: Torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır" adlı monoqrafiyasında Heydər Əliyevin 1969-1982-ci illərdə ölkəmizdə kənd təsərrüfatının dinamik inkişafı sayəsində Azərbaycan kəndlisinin rifaha qovuşması, müstəqillik əldə eldikdən sonra isə həmin illərdə təməli qoyulmuş zəmin üzərində Azərbaycanda və dünyada analoqu olmayan torpaq islahatlarının uğurla həyata keçirilməsinin mümkün olmasından bəhs edilir, həmçinin 1969-1982-ci illər və 1993-2003-cü illərdə qəbul edilmiş çoxsaylı fərman, sərəncam, digər hüquqı normativ aktlar diqqətə təqdim edilməklə Ulu Öndərin yaratdığı hüquqi baza əsasında sosial ədalət prinsiplərinə söykənən aqrar münasibətlərin formalaşdırıldığı önə çəkilir, həmçinin regionlarda həyata keçirilən aqrar islahatlar təhlil edilir. Əsərdə Azərbaycanda aqrar islahatların tərkib hissəsi olaraq Şimal-Şərq regionunda həyata keçirilən torpaq islahatlarının xarakteristikası şərh olunmuşdur (22).

Azərbaycanın regionlarının Heydər Əliyev dövrü sosial-iqtisadi inkişaf tarixinin öyrənilməsində Əliyevşünas alim Ə.Qasımovun əsərlərinin əhəmiyyəti böyükdür. Onun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası : XX əsrin 70-80-ci illəri" əsərində (18) bölgələrin inkişaf strategiyasının spesifik xüsusiyyətləri öz əksini tapmışdır.

Ə.Nağıyev, V.Novruzov, H.Allahverdiyev, Ə.Əlirzayevin birgə hazırladığı "Heydər Əliyev

və Azərbaycan iqtisadiyyatı" adlı monoqrafiyada 1969-1997-ci illərdə Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafında, bazar münasibətlərinin formalaşmasında, islahatların həyata keçirilməsində, regionların davamlı inkişafında müdrik dövlət xadimi Heydər Əliyevin böyük rolu, təşkilatçılıq məharəti, peşəkar idarəçilik səriştəsi və zəngin iş təcrübəsi, onun yeritdiyi düzgün və səmərəli sosial-iqtisadi siyasət konkret faktlar, materiallar və rəsmi sənədlər əsasında tədqiq edilir (24).

M.Alışanovanın "Heydər Əliyev – İqtisadi müstəqilliyimizin banisidir" monoqrafiyasında müstəqillik dövründə Heydər Əliyevin həyata keçirdiyi sosial-iqtisadi tədbirlər, bu sahədə qəbul edilən qanunvericilik sənədləri, sosial rifahın yüksəlməsi istiqamətində atılan səmərəli addımlar öz əksini tapmışdır (2).

Ş.Muradovun "Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu illər)" adlı əsərdə Heydər Əliyevin sosial-iqtisadi sahədə həyata keçirdiyi tədbirlər və Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu daxili siyasəti ətraflı şəkildə şərh olunmuşdur (23).

H.H.Əhmədovun "Azərbaycan təhsilinin inkişaf strategiyası" adlı elmi monoqrafiyasında milli təhsilin inkişafına aid rəsmi sənədlər öz əksini tapmaqla yanaşı, regional təhsil, təhsil siyasətinin uğurlarını şərtləndirən nüanslar, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsi zərurəti, Ulu öndər Heydər Əliyevin bu sahədə böyük xidmətləri qeyd edilmişdir (8).

R.R.Əmənovun "Quba-Xaçmaz iqtisadi rayonunda əhali məskunlaşmasının cins mühitində tədqiqi" adlı elmi tədqiqat əsəri bölgənin demoqrafik durumunu, əhalinin cins müxtəlifliyii, miqrasiya məsələlərini öyrənməyə imkan vermişdir (9).

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırladığı "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" adlı elmi topluda Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin bərpasında misilsiz xidmətləri, dini-etiqad azadlığının təmin olunması sahəsində Azərbaycanın təcrübəsi, xüsusilə də Ulu Öndərin hakimiyyəti dövründə müxtəlif dini konfessiyaların məskunlaşdığı Quba, Qusar, Xaçmaz bölgəsində həyata keçirilən dini-mədəni tədbirlər öz əksini tapmışdır (15).

S.S.Bəhrəmovanın "Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti" adlı monoqrafiyada Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda dövlət-din münasibətləri, dini siyasətin əsas istiqamətləri, Azərbaycanda dini etiqad azadlığının vəziyyəti, regionlarda dini –mənəvi həyatin inkişaf tendesiyaları müqayisəli şəkildə təhlil edilmişdir (16).

Əhəmiyyətli elmi əsərlərdən biri olan "Heydər Əliyev və mədəniyyət" adlı üç cildlikdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mədəniyyət sahəsində yorulmaz fəaliyyəti əks olunmuş, dahi şəxsiyyətin ölkə rəhbərliyinə gəldiyi 1969-cu ildən – 1982-ci ilə qədər və 1993-cü – 1996-cı illərdə bütövlükdə Azərbaycanın, həmçinin bölgələrin mədəniyyətinə, incəsənətinə, kinosuna, ədəbiyyatına, memarlığına, turizm sahəsinə və s. böyük qayğısını səciyyələndirən materiallar xronoloji ardıcıllıqla toplanmışdır (12; 13; 14).

A.M.Məhərrəmovun "Quba-Xaçmaz iqtisadi rayonu və onun iqtisadi inkişaf perspektivləri" istiqamətində apardığı araşdırmalar bu bölgənin sosial-iqtisadi potensialını təhlil etməyə imkan yaratmışdır (21).

S.Abbasovanın "Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər)" adlı elmi tədqiqat əsərində, eyni zamanda Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın müxtəlif regionlarında, həmçinin Şimal-Şərq bölgəsində qadınların sosial-iqtisadi və mədəni həyatda rolu əks olunmuşdur (1).

S.Səfərovun "Heydər Əliyev kursu yeni keyfiyyət halında: İqtisadiyyat, siyasət, dinamizm, problemlər, perspektivlər" adlı kitabında Heydər Əliyevin iqtisadi siyasəti, regionların sosial-iqtisadi inkişafında həyata keçirilən tədbirlər, yeni iqtisadi düşüncəyə, müasir iqtisadi təfəkkürə malik İlham Əliyevin Ümummilli Liderin strateji kursuna yiyələnərək onu yeni keyfiyyət halına yüksəltməsi, sosial-iqtisadi inkişafa dinamizm gətirən, xalqın rifahının yüksəlməsinə təsir edən praktiki fəaliyyəti konkret faktiki materiallar əsasında tədqiq edilir (25).

A.E.Quliyevanın "Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri" adlı monoqrafiyada Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri və strateji istiqamətləri üzrə elmi, nəzəri xarakterli tədqiqat materialları əks olunmuş, ölkəmizdə qəbul olunmuş regional sosial-iqtisadi inkişaf Dövlət proqramlarının icra nəticələri qiymətləndirilmişdir (19).

M.M.Mahmudov və İ.M.Mahmudovanın "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi" adlı əsərdə regionların sosial-iqtisadi inkişafının nəzəri və praktiki istiqamətləri təhlil olunmuşdur (20).

"Heydər Əliyev və Azərbaycan idmanı, sənədli publisistika" adlı kitabda Azərbaycan idmanının ötən əsrin 70-ci illərindən başlayaraq müasir günümüzədək keçdiyi inkişaf yoluna nəzər salınıb. Azərbaycan idmanı tarixində ən böyük himayədarı olmuş, xalqımızın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikanın bölgələrində idmanının inkişafı yolunda yorulmaz fəaliyyəti və əldə olunan nəticələrdən geniş söhbət açılır (17).

**Nəticə**

Ümumiyyətlə, Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra regionların tarixinin öyrənilməsi istiqamətində böyük işlər görülmüş, həmçinin ölkəmizin regionlarının ictimai-siyasi, sosial-iqtisadi, mədəni inkişafının müxtəlif istiqamətləri araşdırma predmetinə çevrilmişdi. Məhz bu baxımdan öz geosiyasi və strateji əhəmiyyətinə, həmçinin sosial-iqtisadi və turizm potensialına görə xüsusi rola malik olan Azərbaycanın Şimal-Şərq regionunun – Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə inkişaf tarixinin öyrənilməsi istiqamətində elmi tədqiqatların aparılması əhəmiyyətli dərəcədə tarixşünaslıq bazası yaratmışdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Abbasova S. Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər), Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 440 s.*

*2. Alışanova M. Heydər Əlyev – İqtisadi müstəqilliyimizin banisidir. Bakı: Çinar-Çar, 2006, 214 s.*

*3. Azərbaycan respublikasinin tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.*

*4. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. Bakı: Şərq-Qərb, 2019. 328 s.*

*5. Azərbaycanın regionları. Yeni inkişaf dövrü. II cild, Bakı: 2014, 200 s.*

*6. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. XXIV kitab: dekabr, 1999 - fevral, 2000, Bakı: Azərnəşr, 2008.- 504 s.*

*7. Əliyev H. Azərbaycanda iqtisadiyyatin və sosial sahənin yüksəlisi özəl sektorun inkisafindan asılıdir". Bakı, Nurlan, 2002, 112 s.*

*8. Əhmədov H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, Elm nəşriyyatı, 2010, 800 s.*

*9. Əmənov R. Quba-Xaçmaz iqtisadi rayonunda əhali məskunlaşmasının CİS mühitində tədqiqi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı, Bakı: 2022, 26 s.*

*10. Heydər Əliyev. İki cilddə. 1-ci cild. Bakı: Turxan NPB, 2013, 500 s.*

*11. Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, 704 s.*

*12. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. I cild. 2008, Nurlan, 472 s.*

*13. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. II cild. 2008, Nurlan, 472 s.*

*14. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild. 2008, Nurlan, 536 s.*

*15. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: "Əbilov, Zeynalov və oğulları" Nəşriyyat-Poliqrafiya Evi. 2007, 424 s.*

*16. Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti. Baki: Avropa nəşriyyati, 2021, 232 s.*

*17. Heydər Əliyev və Azərbaycan idmanı. Sənədli publisistika. Bakı, Turan Evi, 2004. 160 s.*

*18. Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası : XX əsrin 70-80-ci illəri. Bakı: Təhsil, 2009, 320 s.*

*19. Quliyeva A. Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri. Bakı, Kooperasiya nəşriyyatı, 2021, 308 s.*

*20. Mahmudov M., Mahmudova İ. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2011, 370 s.*

*21. Məhərrəmov A. Quba-Xaçmaz iqtisadi rayonu və onun iqtisadi inkişaf perspektivləri. /Bakı Universitetinin xəbərləri, №1, Sosial-siyasi elmlər seriyası, 2013, s. 96-102.*

*22. Məmmədov Q. Heydər Əliyev: Torpaq İslahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır. Bakı: 2008, ALF QROUP, 232 s.*

*23. Muradov Ş. Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələ-*

*ri (1969-2019-cu illər). Bakı: Avropa nəşriyyatı, 2019, 594 s.*

*24. Nağıyev Ə., Novruzov V., Allahverdiyev Ə.Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.*

*25. Səfərov S. Heydər əliyev kursu yeni keyfiyyət halında: "İqtisadiyyat, siyasət, dinamizm, problemlər, perspektivlər", Bakı: Azərnəşr, 2005, 504 s.*

**Karimov Novruz Seyfaddin oglu**
***Institute of History and Ethnology, Azerbaijan National Academy of Sciences***

**Heydar Aliyev and the Historiography of the Development of the Northeastern Region of the Republic of Azerbaijan**

**SUMMARY**

The foundation of every state's socio-political progress is simultaneously ensured by the dynamic development of its socio-economic and cultural life. National Leader Heydar Aliyev made invaluable contributions to the steady rise of Azerbaijan's socio-economic and cultural life, both during his first tenure in power (1969–1982) and his second tenure (1993–2003).

After gaining independence, the Republic of Azerbaijan began taking significant steps toward studying the history of its regions. Various aspects of the socio political, socio-economic, and cultural development of the country's regions became subjects of research. In this context, the northeastern region of Azerbaijan — which includes Quba, Qusar, Khachmaz, Shabran, and Siyazan districts—holds particular importance due to its geopolitical and strategic significance, as well as its socio-economic and tourism potential. Studying the development history of this region is therefore highly relevant.

This article, based on existing scientific works, will focus on the historiography of the development of Azerbaijan's northeastern region during the Heydar Aliyev era.

**Keywords:** *Republic of Azerbaijan, National Leader Heydar Aliyev, Northeastern region, development dynamics, historiography.*

**Каримов Навруз Сейфеддин оглы**
***Институт Истории и Этнологии НАНА***

**Гейдар Алиев и историография развития Северо-Восточного региона Азербайджанской Республики**

**РЕЗЮМЕ**

Основа общественно-политического прогресса каждого государства одновременно является динамичное развитие социально-экономической и культурной жизни. Великий лидер Гейдар Алиев как в первый период (1969 -1982 годы), так и во второй период (1993-2003 годы) своего правления в Азербайджане, оказал неоценимые услуги в непрерывном улучшении социально-экономической и культурной жизни общества.

После обретения Азербайджанской Республикой своей независимости были предприняты значительные шаги в направлении изучения истории регионов. Предметом исследования стали различные направления общественно-политического, социально-экономического и культурного развития регионов нашей страны. Именно с этой точки зрения изучение истории развития Северо-Восточного региона Азербайджана - Губинского, Гусарского, Хачмазского, Шабранского и Сиязанского районов, имеющего особую роль в силу его геополитического и стратегического значения, а также социально-экономического и туристического потенциала имеет большую актуальность.

В статье предметом исследования станет историография этапа Гейдара Алиева в истории развития Северо-Восточного региона Азербайджана с привлечением существующих научных трудов.

**Ключевые слова:** *Азербайджанская Республика, Общенациональный лидер Гейдар Алиев, Северо-Восточный регион, динамика развития, историография.*

UOT:94(479,24),930:314
https://doi.org/10.30546/3006-0346.2024.6.84.050

# MƏDƏNİ MİRASIN PAYLAŞILMASI: AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDAKI ETNO-MƏDƏNİ TƏSİRLƏR

**ŞAHİSMAYIL İSMAYILOV**
*Azərbaycan Dillər Universiteti,*
*Azərbaycan Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: ismayilovsahismayil@gmail.com*
*ORCID: https://orcid.org/0000-0002-7441-3575*

## Giriş

Dünya siyasəti və diplomatiyasında çox dərin iz qoymuş XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan xalqının tarixi inkişafında yeni dövr başlandı. SSRİ-nin parçalanması onun tərkibində birləşmiş digər respublikalar kimi Azərbaycanın da müstəqilliyinə yol açdı. 1991-ci il avqust ayının 30-da Azərbaycan Respublikasının Ali Soveti növbədənkənar sessiya çağıraraq "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etdi, oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu.

Müstəqilliyini elan etmiş Azərbaycan Respublikası dünya dövlətləri ilə münasibətlər yaratmalı, özünün xarici siyasətini qurmalı idi. Daxili və xarici siyasətini milli maraqlara əsaslanaraq quran Azərbaycan Respublikası dövlət müstəqilliyini möhkəmləndirmək yolu ilə gedir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qeyd etdiyi kimi: "Bu siyasət milli xüsusiyyətləri nəzərə alır, Azərbaycan xalqının tarixi keçmişi, milli ənənələri və bununla birlikdə dünyəvi dövlət quruculuğunda beynəlxalq təcrübədir" [1,s.97].

Dünya dövlətləri içərisində Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il noyabr ayının 11-də ilk tanıyan ölkə qardaş Türkiyə Respublikası oldu. 1991-ci il dekabr ayının 8-də isə Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində özünün ilk addımını uğurla ataraq İslam Konfransı Təşkilatına, 1992-ci il martın 2-də isə Birləşmiş Millətlər Təşkilatına daxil oldu.

Özünün xarici siyasət fəaliyyətində Azərbaycan Respublikası qarşılıqlı əlaqə qurmaq, sülhsevər xarici siyasət aparmaq prinsipindən çıxış edir və çalışır ki, dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əlaqələr yaratsın, müstəqillik prinsiplərinə riayət etsin, başqa ölkələrin daxili işlərinə qarışmasın, ərazi bütövlüyünü tanısın. Əlbəttə ki, Azərbaycan Respublikası başqa dövlətlərin də ona qarşı belə münasibətdə olmasını arzulayır və xarici siyasət sahəsində dünyanın bütün ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlər yaratmaq siyasəti aparır. Bu şəraitdə ölkənin milli maraqları, siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin tarixi təcrübəsi, müasir siyasi və iqtisadi reallıqlar, hansı ölkənin dünya siyasətinə necə təsir edəcəyi əsas götürülür.

## Azərbaycan və Türkiyə arasında münasibətlərin başlanğıcı və ilk addımlar

Azərbaycanın Türkiyə ilə münasibəti onun digər dünya dövlətləri ilə mövcud münasibətlərindən köklü surətdə fərqlənir. Belə ki, Azərbaycan və Türkiyə eyni dilə, dinə, tarixə və kökə mənsubdur. İki ölkə arasındakı münasibətlər tarixi sınaqlardan çıxmış dostluq və qardaşlıq münasibətləridir.

XX əsrin əvvəllərində rus imperiyasının zəifləməsi nəticəsində "oktyabr" çevrilişi baş vermiş və Qafqaz Rusiyasının nəzarəti altından çıxmışdı. Çox ağır siyasi şəraitdə Türkiyə regionda Azərbaycanın xilaskarı kimi çıxış etdi və məhz bu zamandan etibarən Azərbaycan və Türkiyə arasında əsl dostluq, qardaşlıq münasibətləri yarandı. Və qeyd edək ki, Türkiyə 1918-ci il iyul ayının 4-də Transqafqaz respublikaları ilə "Sülh və dostluq haqqında müqavilə bağladı. Azərbaycanla Türkiyənin bağladığı müqaviləyə əsasən Azərbaycan Türkiyə ilə geniş sərhədlərə malik idi. Bu məsələ haqda T.Svyatoxovskinin qeyd etdiyi kimi, 4 min kv. km. ərazini itirən Ermənistandan və iki rayonu tərk etməyə məcbur qalmış Gürcüstandan fərqli olaraq Azərbaycan-Osmanlı müqaviləsində "dostluq" sözü reallığa daha çox uyğun idi. Azərbaycan nəinki heç nə itirmədi, hətta Türkiyənin köməyi ilə Bakını qaytaracağına ümid etdi. Artıq sentyabr ayının 15-də Türk İslam ordusu Bakını azad etdi. Türkiyənin köməyi ilə Azərbaycan sərhədlərini möhkəmləndirməyə başladı, lakin Almaniya blokunun məğlubiyyəti nəticəsində, 30 oktyabr 1918-ci ildə Mudros razılaşmasının imzalanmasından sonra, Türkiyə regionu tərk etməli oldu.

Azərbaycan Demokratik Respublikası dağıldıqdan və Sovetlər hakimiyyətə gəldikdən sonra Türkiyənin Antanta ölkələri ilə bir neçə cəbhədə vuruşması ilə əlaqədar zəifləməsindən istifadə edən Rusiya 1920-ci il dekabr ayının 7-də Azərbaycan KP MK-nın qərarı ilə Zəngəzuru Ermənistana verməyə Azərbaycanı

məcbur etdi. Nəticədə, Türkiyə ilə sərhəddə yerləşən böyük bir ərazini itirən Azərbaycanla onun ayrılmaz hissəsi olan Naxçıvan arasında ərazi əlaqəsi kəsildi. Türkiyə isə buna mane olmaq iqtidarında deyildi. Lakin Türkiyə gələcəkdə Naxçıvanı Ermənistanın təcavüzündən xilas etmək və Azərbaycanın bu hissəsi ilə sərhədi qoruyub saxlamaq üçün qərar qəbul etdi. 1921-ci il martın 16-da Moskvada Sovet Rusiyası və Türkiyə arasında müqavilə bağlandı [2, s.225]. Bu müqavilədən əvvəl isə Rusiya və Türkiyə arasında Qars müqaviləsi bağlanmışdı. Hər iki müqavilədə Naxçıvanın ayrıca statusu və Azərbaycanla sıx əlaqəsi təsdiq edilirdi. Moskva müqaviləsində Naxçıvan "Azərbaycan proteksiyası altında muxtar ərazi" adlanırdı; Qars müqaviləsində "Azərbaycan himayəsi altında" sözləri istifadə olunmuşdu [3, s.235].

Azərbaycan və Türkiyə, dünya dövlətləri ilə olduğu kimi, bir-birləri ilə olan münasibətlərdə də xarici siyasət vasitələrindən istifadə edirlər. Şübhəsiz ki, xarici siyasətdə siyasi proqnozlar və strateji məqsədlərdən başqa ikitərəfli və çoxtərəfli siyasi-iqtisadi münasibətlər də müəyyənedici rol oynayır.

Azərbaycan-Türkiyə münasibətlərində xarici siyasət vasitələrinin hamısından istifadə olunur. Lakin Azərbaycanın Türkiyə ilə münasibətlərində bütün amillərdən əlavə mədəni yaxınlıq böyük rol oynayır ki, bura tarixi və dini sahələr də daxil edilir. Mədəniyyətin çox vacib bir hissəsi olan təhsil-tədris sahəsində əməkdaşlıq, mədəni mübadilə proqramları, kütləvi informasiya vasitələri tərəflərin daha da yaxınlaşmasına şərait yaradır.Türkiyə və Azərbaycan arasındakı iqtisadi münasibətlər həm mal mübadiləsinə, həm də kapital, xidmət və işçi qüvvəsi mübadiləsinə imkan verəcək potensiala malikdir. Hər iki ölkə iqtisadi əməkdaşlığı inkişaf etdirmək qətiyyətindədir. Azərbaycan-Türkiyə iqtisadi münasibətlərinin inkişaf istiqamətləri müəyyənləşdirilərkən qarşılıqlı mənfəətlərlə yanaşı regionda yerləşən dövlətlərin iqtisadi mənafelərini, onlar arasındakı rəqabət və güc balanslarını da nəzərə almaq lazım gəlir.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf etdirilməsində mətbuatın da böyük rolu var. Burada televiziya kanallarının rolunu xüsusi qeyd etmək lazımdır, çünki bir ölkənin televiziya kanallarının digər ölkədə yayımlanması insanlar arasında ünsiyyətin yaxşılaşdırılmasına şərait yaradır, insanlar ünsiyyətdə olarkən mövcud olan cüzi dil fərqini asanlıqla aradan götürürlər. Sevindirici haldır ki, son zamanlar bu sahədə də əlaqələr yüksələn xətt üzrə inkişaf edir.

Yada salmaq lazımdır ki, Azərbaycan və Türkiyə arasında münasibətlər hələ SSRİ-nin parçalanmasından bir az əvvəl başlanmışdı. 1990-cı il yanvarın 10-da iki ölkə arasında "Mədəni və elmi mübadilə protokolu", Azərbaycan müstəqillik əldə etdikdən sonra isə 1992-ci il fevralın 29-da Bakıda niyyət protokolu imzalanmışdır. Bu protokol əsasında Türkiyə Azərbaycana əlifba tətbiqində, təhsil islahatında yardım etməli, türkcə təhsil verən məktəblərin açılması və texniki ehtiyaclarını, kitab və digər məktəb ləvazimatı ilə təmin etməli, azərbaycanlı tələbələrin Türkiyədə təhsil almalarına şərait yaratmalı idi [4, s.88-89]. 1995-ci ildə Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl Bakıya gələrkən Azərbaycan-Türkiyə münasibətləri haqda fərəhlə öz fikrini bildirmişdir: "Azərbaycan Türkiyənin xarici siyasətində xüsusi yer tutur, Azərbaycanın müstəqilliyi elan edildikdən sonra qısa vaxt ərzində Azərbaycan-Türkiyə qarşılıqlı münasibətləri çox tez inkişaf etdi və mütəşəkkil görünüş aldı" [5]. Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycan-Türkiyə əlaqələrində yeni mərhələ başladı. Noyabrın 9-da Türkiyə Respublikası hökumətinin ümumi iclası heç bir qeyd-şərtsiz Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqda təlimat qəbul etdi [7]. Noyabrın 16-da isə Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələri şərtləndirmək məqsədilə xüsusi orqan - İşgüzar Əməkdaşlıq Komitəsi yaratdılar. İki qardaş və dost dövlət arasında sosial-iqtisadi və mədəni əlaqələr daim genişlənir. Bir əsrlik vaxt ərzində ilk dəfə 1991-ci il oktyabrın 29-da Araz çayı üzərində Naxçıvanla Türkiyəni birləşdirən körpü salındı. Türk şirkəti "Matsandış" tərəfindən tikilən, 288 metr uzunluğu olan körpü Türkiyəyə 5 milyon ABŞ dollarına başa gəldi. Körpünün açılışına həsr edilmiş təntənəli mərasimdə Süleyman Dəmirəl öz çıxışında qeyd etdi ki, bu, təkcə Azərbaycanla Türkiyəni deyil, həm də Avropa ilə Asiyanı birləşdirir. Blokada illərində Naxçıvan Muxtar Respublikası bu yol vasitəsilə təchiz olunurdu. Bu yol Naxçıvan üçün həyati əhəmiyyət daşıyırdı [8]. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Demokratik Respublikası yaranında Türkiyə onu tanıyan ilk dövlət oldu. 1991-ci il noyabrın 6-da yenə də Türkiyə Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. 1992-ci il yanvarın 14-də Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərin bərpası haqda protokol imzalandı. Bir neçə gündən sonra yanvarın 24-də Ankarada iki dövlət arasında "Dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətləri haqda" saziş bağlandı.[9] 1992-ci il yanvarın 29-da Altan Karamanoğlu Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin olundu [10]. Fevralın 4-də İstanbulda Qaradənizsahili ölkələrin daxil olduğu Qaradəniz İqtisadi

Cəmiyyətinin yaranması haqda danışıqlara başlanıldı. Türkiyənin dəvəti ilə Azərbaycan nümayəndə heyəti Bəyannaməni imzaladı. Qaradəniz İqtisadi Cəmiyyətinin yaradılması haqda proseslərdə iştirak edən Azərbaycan nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatının keçirdiyi görüşün şahidi oldu [11].

**Nəticə**

Azərbaycan və Türkiyə arasında tarixi və mədəni köklərə əsaslanan qardaşlıq münasibətləri müstəqillik dövründə daha da möhkəmlənmiş və strateji əməkdaşlığa çevrilmişdir. Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olaraq onun beynəlxalq aləmdə mövqeyinin güclənməsinə, dövlət quruculuğu prosesinə və iqtisadi inkişafına böyük töhfə vermişdir.

İki ölkə arasında diplomatik, iqtisadi, mədəni və hərbi sahələrdə qurulan əməkdaşlıq qarşılıqlı fayda və regional sabitlik üçün əhəmiyyətli rol oynayır. Əsasən, enerji layihələri, nəqliyyat dəhlizləri və mədəni mübadilələr bu əlaqələrin strateji xarakterini daha da gücləndirmişdir. Azərbaycan-Türkiyə münasibətləri qlobal və regional çağırışlara qarşı birgə cavab vermək üçün nümunəvi tərəfdaşlıq modeli olaraq formalaşmışdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. «Гейдар Алиев открывает миру Азербайджан» Б. 1994, с.97*

*2. «История дипломатии», том 3, Москва, 1965, с. 225*

*3. Milman. "Azərbaycan SSR", s. 235*

*4. T.C.Milli Egitim Bakanlığı Talim ve Terbiye Kurulu Başkanlığı Türk Cumhuriyetleri ve Türk Toplulukları Dairesi Yayınları, Türkiye ile Türk Cumhuriyyetleri ve Türk Toplulukları Arasında - Yapılan Anlaşmalar, İlişkiler ve Faaliyetler I, (Birinci Kitab), Yayın №1/1, Ankara, 1993, s.88-89*

*5. "Xalq" qəzeti, 9 dekabr , 1995*

*6. "Ayna"qəzeti , 16 dekabr , 1995*

*7. "Respublika" qəzeti, 11 noyabr ,1991*

*8. "Respublika" qəzeti, 30 dekabr ,1991*

*9. "Ayna" qezəti, 29 yanvar, 1992*

*10. "Respublika" qəzeti, 30 yanvar, 1992*

*11. "Ayna" qezəti, 23 dekabr, 1995*

**XÜLASƏ**

XX əsrin 90-cı illərinin əvvəlində SSRİ-nin dağılması ilə Azərbaycan müstəqilliyini bərpa etdi. 1991-ci ildə qəbul edilən dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan beynəlxalq aləmdə öz yerini tutmağa başladı. İlk olaraq Türkiyə Azərbaycanın müstəqilliyini tanıdı və iki ölkə arasında qardaşlıq əlaqələri gücləndi. Azərbaycan xarici siyasətini sülhsevərlik və milli maraqlar əsasında qurdu, dünya ölkələri ilə qarşılıqlı faydalı əlaqələr yaratmağa çalışdı.

Azərbaycan və Türkiyə arasında tarixi, mədəni və dini yaxınlıq, eləcə də iqtisadi əməkdaşlıq əlaqələri möhkəmləndi. Xüsusilə, Ümid körpüsünün tikilməsi və digər strateji layihələr iki ölkə arasında əlaqələri daha da dərinləşdirdi. 1990-cı illərin əvvəllərində başlayan bu əməkdaşlıq bu günə qədər həm siyasi, həm də iqtisadi sahələrdə əhəmiyyətli nəticələr vermişdir.

**Açar sözlər:** *Müstəqillik, SSRİ, Heydər Əliyev, Konstitusiya Aktı, İslam Konfransı Təşkilatı.*

**Sharing of Cultural Heritage: Ethno-Cultural Influences Between Azerbaijan and Turkey**

**SUMMARY**

In the early 1990s, with the dissolution of the Soviet Union, Azerbaijan regained its independence. Following the adoption of the Constitutional Act on State Independence in 1991, Azerbaijan began to establish its place in the international community. Turkey was the first country to recognize Azerbaijan's independence, strengthening the fraternal ties between the two nations. Azerbaijan's foreign policy was based on principles of peace and national interests, aiming to foster mutually beneficial relations with countries around the world.

The historical, cultural, and religious bonds between Azerbaijan and Turkey were reinforced, alongside economic cooperation. Significant initiatives, such as the construction of the Umid (Hope) Bridge and other strategic projects, further deepened their bilateral relations. This collaboration, initiated in the early 1990s, has continued to yield substantial political and economic benefits to this day.

**Keywords:** *Independence, USSR, Heydar Aliyev, Constitutional Act, Organization of Islamic Cooperation.*

UOT:94(479.24), 930.2
https://doi.org/10.30546/3006-0346.2024.6.84.052

# 1905-1906-cı İL HADİSƏLƏRİ ŞƏXSİ ARXİVLƏRDƏ (AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun materialları əsasında)

**AYTƏN İMANOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı, böyük elmi işçi*

*E-mail: imanova_ayten@hotmail.com*
*Orcid: 0009-0002-9076-7872*

XX əsrin əvvəllərindən, xüsusilə də 1905-ci il inqilabından sonra mədəni-maarifçilik dönəminin ikinci – milli oyanış ideyalarının təkamülü dövrü başlayır və bu mərhələnin aparıcı qüvvəsi ziyalılar olmuşlar. XX əsrin əvvəllərində milli istiqlal mücadiləsinin yeni dönəmində mətbuatda ana dilində təhsil hüquqları tələb edən, müsəlmanlar arasında məzhəb ayrılığına görə ixtilaflara son verilməsinə, xalqı oyanışa, birləşməyə çağıran və qadın məsələsi haqqında yazılar dərc olunurdu. Ümumilikdə, 17 oktyabr Manifestindən sonra qisa müddət ərzində 25 qəzet və məcmuə nəşr edilmişdir. Bunların arasında "İrşad", "Tərəqqi", "Yeni Həyat", "Dirilik", "Molla Nəsrəddin" və başqalarının adlarını çəkmək olar. Qəzetlərdə dərc olunan yazılardan aydın olur ki, dövrün bütün tərəqqipərvər ziyalılarını düşündürən ana dili, din və milli kimlik məsələləri idi. Muxtar bəy Nəsirbəyov, Süleyman Sani Axundov, Yusuf Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli kimi Azərbaycan ziyalıları ana dilində təhsil hüququ, dni etiqada hörmət və məzhəb ayrılığna son qoyulması, xalqı milli birliyə çağıran yazılarla çıxış edirdilər. Bundan əlavə, həmin illərdə ictimai mövzulara da geniş yer verilirdi. Məsələn, Azərbaycan ədəbi mühitində (M.Rəsulzadə, Ü.Hacıbəyov, Əli Nəzmi, "Molla Nəsrəddin" məcmuəsi, N.Nərimanov, C.Cabbarlı, Məhəmməd Səid Ordubadi) milli münasibətləri, 1905-ci il İran məşrutə inqilabını işıqlandıran yazılar geniş yer almışdı. Baş verən bütün yeniliklər genişlənən milli hərəkatın rəmzləri olaraq rus mütləqiyyətini narahat etməyə bilməzdi.

Azərbaycan ziyalıları bütün bunların baş verəcəyini başa düşürdülər. *"Bir müddət keçərək qara buludlar kövkəbi-hürriyyətin üzünü tutub yenə pünhan etdi" [8]. C.Cabbarlının qeyd etdiyi kimi, "Çar hökuməti ona görə mövcud deyildi ki, hər hansı bir mədəni başlanğıcın çaş tutmasına imkan versin. Bu hökumət hər cür təşəbbüsü boğmaq üçün bütün tədbirlərə əl atır və qərarlar qəbul edirdi"* [1].

Milli ayrı-seçkilik və milli ədavətin qızışdırılması çarizmin narazı təbəələrinin diqqətini əsas narazıçılıqlardan yayındırmaq üçün yürütdüyü siyasətin əsas istiqamətləri idi. 1905-ci ilin fevral ayından etibarən ermənilərlə azərbaycanlılar arasında başlanan milli münaqişə ilə mütləqiyyətə qarşı etiraz və siyasi intibah prosesinə anti-erməni xarakteri də əlavə olundu [6, s.32].

Qeyd etmək lazımdır ki, milli münaqişə problemi 1905-ci ildən öncə də təzahür etdiyi arxiv sənədlərində əks olunmuşdur. S.Ə.Şirvani H.Zərdabiyə yazdığı məktubunda Şamaxıda olan ermənilərin müsəlmanları "dövləti-rusa" xəyanətdə ittiham etmək üçün "böhtan deməkdən qeyri-işləri"nin olmadığını bildirir:

*Xassə kim çoxdur, qorxaq ermənilər ki, qaçıb Badi-Kubəyə yeksər*
*Söylüyürlər bu növ böhtanlar ki, bizi öldürür müsəlmanlar...*
*Dövləti-Rusa yox xəyanətimiz...*
*Təzədən hökm olubdu nəqli-cəməl*
*Ona da eylədik həqiqət əməl*
*Gərçi bizlər də əhli-Qafqazıq*
*Leyk nə ləzgiyik, nə abxazuq* [2].

İctimai-siyasi xarakterli yazılar arasında M.S.Ordubadinin "Həyatım və mühitim" adlı memuarı mühüm yer tutur [3]. Ordubadi burada erməni-azərbaycanlı münasibətlərinin mənşəyi və sülh yolu ilə nizama salınması məsələlərinə toxunaraq münaqişənin yaranma səbəbini belə izah edirdi: *"Çar hökuməti Türkiyəyə qarşı açacağı müharibədə yerli müsəlmanların Türliyə lehinə işləyəcəklərindən qorxurdu. Buna görə də yerli ermənilərdən müsəlmanlara qarşı istifadəyə hazırlanırdı...çar hökuməti yenə də mütəşəkkil bir avantüra hazırlayırdı"* [7, s.40-41]. "Qanlı sənələr"i M.S.Ordubadi yaradıcılığının sənədli memuarı kimi qiymətləndirmək olar. Müxtəlif bölgələrin müxbirlərindən aldığı məlumatları bir araya toplayan M.S.Ordubadi baş verən hadisələrə öz münasibətini bildirməkdən çəkinməmişdir. O yazırdı ki, "Qafqaz hadisələrinin baş verməsini çox səbəblərlə bağlayır. Birinci səbəb erməni̇n Daşnaksyutun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı

teatrolar oynandı:.. İkinci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır... Üçüncü səbəb,.. müsəlmanların elmsizliyi və müasir dünyadan bixəbər olmalarıdır. Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya – idarə muxtariyyatı həvəsində olmalıdır [Bax: 4, s.14-17]. M.S.Ordubadinin Azərbaycanın bütün bölgələrində baş verən hadisələri əhatə edən “Qanlı sənələr”də yazırdı ki, ermənilər türklərin arasına sünn-şiə məzhəbinə dayanaraq nifaq salmağa çalışırdılar. Sünni və şiə nümayəndələrini müxtəlif millətlər kimi qəbul etdiklərini bildirirdilər [Bax: 4, s.157-160].

Mirzə Rəhim Fənanın “1905-ci il hadisələri” əsəri Şəxsi arxivlər xəzinəsinin 1905-1906-cı il hadisələri haqqında müfəssəl məlumat verən bir materialdır. Təəssüf ki, kitabın yalnız bir hissəsi bu günümüzə çatmışdır. M.R.Fəna 1905-ci ildə Cənubi Qafqaz və Azərbaycanda ermənilərin törətdiyi hadisələrinin şahidi olmuş, kitabında 1905-ci ildə Şuşada, Zəngəzurda, Cəbrayılda, Cavanşirdə, Bakıda, Tiflisdə, Gəncədə baş vermiş qanlı hadisələri təsvir etmiş, car hakim dairələrinin bu hadisələr zamanı qərəzli mövqeyi məsələlərinə toxunmuşdur *“... hökumət əhli daim xristianlığın təəssübkeşi olaraq onların tərəfini saxlayırdı”* [4, s.114]. Eyni zamanda M.R.Fəna millətin “”təəssübkeşləri“ arasında birliyin olmamasından narahat idi: *“Heyf ki, milli məqsəd oyuncaq kimi şəxsi-qərəzlərə bürünüb biçarə millətə bədbəxt nəticələr gətirir”* [5, s.138].

1905-1906-cı illərin milli münaqişəsi daim ziyalıların diqqət mərkəzində olmuşdur. Müxtəlif siyasi mövqelərdən çıxış etmələrinə baxmayaraq, ziyalıların əksəriyyəti bu məsələdə həmrəy idilər. Ü.Hacıbəyov “İrşad” qəzetindəki bir yazısında türklərin bir millət olaraq ermənilərdən üstünlüklərini xüsusi olaraq vurğulayırdı: *“Ermənilər ilə qədim biq xüsumətimiz yoxdi zira dostluq və düşmənligə gəldikdə tariximiz bizi öylə irk ilə böyütmişdi ki, biz ermənini özümüzə dost və ya düşmən hesab etməyə layiq bilmirdik, biz ermənilərə öz nökərlərimizə, əlaltımız olan adamlara baxan kimi baxırdıq. Bu da məlumdur ki, özini ağa yerinə qoyan bir kəs nökərlərilə xüsumətdə bulunmağı şan-şəhsiyyətinə səzavar bilməz...”* [9, s.31]. Əbdürrəhim bəy Haqverdiyev sovet illərində yazılan bir ssenariyə rəyində bildiridi ki, *“Burada daha bir yanlışlığa aydınlıq gətirmək istəyirəm. İlk ataş erməni küçəsində...musiqi sədaları altında təntənəli surətdə Parapetə yaxınlaşan kütləyə açılmışdı. Qurban olaraq Babayev türk seçilmişdi”* [10].

1905-1906-cı illərin milli münaqişəsi Azərbaycan milli-azadlıq hərəkatı tarixində yeni dönəmin siyasiləşmənin əsasını qoymuş oldu. Belə ki, Kolobov Qafqaz canişini Vorontsova yazdığı 1906-cı il 1 noyabr tarixli 1943 saylı məruzəsində 1904-1905-ci illərin qanlı hadisələrinin, erməni-tatar qırğınlarının təsiri altında türk cəmiyyətinin şüurlu hissəsinin “Qafqaz müsəlmanlarının “Difai” adlı pariya yaratdığını” [11, s.103] xəbər verir. Partiyanın təşkilatçıları Əhməd bəy Ağayev, doktor Kərim bəy Mehmandarov, N.Vəzirov və başqalarının siyasi xarakterinə görə demokratik yönümlü olduqlarını, “Difai” partiyasının və Bakıda fəaliyyət göstərən Müsəlman Xeyriyyə cəmiyyətinin üzvlərinin eyni şəxslər olduqlarını xəbər verirdi. “Difai”nin bir çox məziyyətlərini sadalayan Kovalyov onun artan nüfuzunda narahat olduğunu bildiridi: gələcəkdə xalq birlik olduqdan, nizamlandıqdan və onunla bağlandıqdan sonra, şübhəsiz ki, partiya xalqa arxalanıb digər məsələləri də təbliğ edəcək... yaxında partiya aqrar məsələni də gündəmə daxil edərək, mülkədar torpaqlarının əvəzsiz olaraq kəndlilərə verilməsini tələb edəcək. Sonra əlbəttə Qafqazın və Zaqafqaziyanın müsəlman əyalətlərinin geniş inzibati, ruhani və məhkəmə özünüidarə hüquqları, daha sonra isə muxtariyyatı məsləəiri təbliğ olunacaq; artıq qara camaat belə sünni şiə arasında fərq qoymur, bu arada onların arasında əvvəlki tək ixtilaflar da yoxdur; artıq sadə xalq məktəbə, onun zəruriliyinə inanır... Mən bu partiyanın üzvlərini təqibdən ehtiyat edirəm [11, s.107-108].

Beləliklə, 1905-ci il inqilabının bəxş etdiyi azadlıqlardan sonra Azərbaycan milli-azadlıq hərəkatı siyasi dönəmə qədəm qoyur və rus hakim dairələrini qarşısında duran əsas məsələ türk-müsəlman xalqlarını Şərq aləmindən təcrid etmək, bu xalqların birliyinə mane olmaq idi. Rusiya üçün isə Şərqdə ən böyük təhlükə Osmanlı dövləti və türkçülük ideologiyası idi. Çarizmin Azərbaycana köçürdüyü ermənilərlə yerli əhali arasında apardığı ayrı-seçkilik və anti-müsəlman siyasəti isə Azərbaycan türklərində ümumtürk birliyi ideyasını daha da gücləndirdi, milli mücadilə daha yeni bir istiqamətə şaxələndi.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Cəfər Cabbarlı. Teatro tarixinə aid. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 16, s.v.213.*

*2. Həsən bəy Zərdabi. Məktub S.Ə.Şirvanidən. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, s.v. 98*

*3. Məmməd Səid Ordubadi. Həyatım və mühitim.*

*// AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 14, s.v. 448, 449*

*4. Məmməd Səid Ordubadi. Qanlı sənələr. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi / Əsəri ərəb əlifbasından çevirən, sadələşdirən və çapa hazırlayan: Ə.Bağırov – Bakı: Qanun nəşriyyatı, – 2019. – 192 s.*

*5. Mirzə Rəhim Fəna. 1905-ci il hadisəsi / tərt. ed. A.Hacıyeva – Bakı: Nurlan, – 2009. – 252 s.*

*6. Oruclu, M. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992) / M.Oruclu. – Bakı: Azərnəşr, – 2001. – 271 səh.*

*7. Səmədova, N. Məmməd Səid Ordubadi memuarı: Həyatım və mühitim / N.Səmədova. – Bakı: Elm və təhsil, – 2022. – 139 səh.*

*8. Süleyman Sani Axundov. Kövkəbi-hürriyyət. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 10, s.v.42.*

*9. Üzeyir bəy Hacıbəyov. Bəyani-həqiqət. // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 17, s.v. 138.*

*10. Абдуррагим-бек Ахвердов. 1905 год. Сценарий Мдивани // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 9, s.v. 24.*

*11. Мирза Шариф Мирзаев. Материалы для истории тюркской печати на Кавказе // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 6, s.v. 456.*

## XÜLASƏ

Məqalənin əsas məqsədi Azərbaycanın tarixi ərazilərində uzun illər davam etmiş, Rusiya müstəmləkəçiliyinin əsasını təşkil edən “parçala hökm sür” siyasətinin müəyyən dönəmini yenidən araşdırmaqdır. Zamanın prizmasından baxarkən siyasi tarixi hadisələrə münasibət və yanaşma siyasi dönəmlərin abu-havasına uyğun olaraq dəyişmişdir. Cənubi Qafqazda türk-müsəlman xalqları ilə çarizmin Azərbycan torpaqlarına köçürdüyü ermənilər arasında milli münaqiş tarix boyunca dəfələrlə təkraralanmışdır. Bildiyimiz kimi XX əsrin əvvəllərindən başlayaraq bütün dünyanı bürüyən iqtisadi böhranlar (1900-1903-cü və 1908-1909-cu illər), Rusiya imperiyasının xarici siyasətini iflasa uğradan Rus-Yapon müharibəsindəki məğlubiyyəti, 19 sentyabr (2 oktyabr) 1905-ci il tarixindən tətil hərəkatı kimi başlanan və 1907-ci ildə 17 Oktyabr manifesti ilə sonlanan inqilabi hərəkat, sərt diktatura rejiminin yumşalması, söz, mətbuat azadlığı üçün zəmin yaratmış, Azərbaycanda siyasi fəallığı artırmış, milli azadlıq hərəkatının xarakterinin və istiqamətinin dəyişməsinə səbəb olmuş, ziyalıların ana dilində mətbuat orqanlarının nəşrini bərpa etməsi, siyasi partiyaların, cəmiyyətlərin, dərnəklərin fəaliyyəti üçün şərait yaratmışdı. Hökumət bunun qarşısını almaq məqsədilə müxtəlif tədbirlərə əl atmağa başlayır. Müstəmləkə xalqları arasında milli ədavətin qızışdırılması bu tədbirlərin ən başlıcası idi. Təəssüf ki, Azərbaycan 1991-ci ildə siyasi müstəqilliyini yenidən bərpa edənə kimi tariximizin araşdırılması qadağan olunmuş və təhrif edilmiş səhifələrindən biri də məhz milli münasibətlər və onların milli-azadlıq hərəkatının gedişinə və inkişafına olan təsiridir. Azərbaycan ərazisində müasir dövrümüzdə milli münasibətlər zəminində Qarabağ münaqişəsi, beynəlxalq aləmin ssn illərə qədər Azərbaycana qarşı təzyiqləri və ayrı-seçkilik əks etdirən siyasətləri bu münaqışənin tarixi köklərinin tədqiq olunmasının hər zaman aktual olduğunun sübutudur.

Araşdırmanın metodu və metodologiyası. Müəllif mövzunu araşdırarkən həmin dövrdə yaşamış ziyalıların şəxsi arxivlərində qorunan materiallara müraciət etmişdir. Şəxsi arxivlər müxtəlif xarakterli sənədlərdən təşkil olunmuş və əsas hissəsi müəlliflərn əlyazmalar şəklində əsərlərinin müxtəlif nüsxələrindən, xatirələr, məktublar, gündəliklər və s. ibarətdir. Tədqiqata cəlb olunan materialların bir hissəsi müxtəlif illərdə çap olunmuş, bəzisi isə elmi dövriyyəyə ilk dəfə daxil edilmişdir.

Məqalənin yeniliyi ondadır ki, müəllif siyasi tarixi hadisələri ədəbi irs əsasında araşdırmağa cəhd etmişdir. Ədəbi əsərlər yaradarkən müəlliflərinin tarixi mənbələrə müraciəti və onlardan geniş istifadə olunması təcrübəsi əsrlərdir ki, həyata keçirilir. Lakin ədəbi abuidələr əsasında tarixin izlərinin araşdırılması təcrübəsi yaxın keçmişdən başlanmış və əsasən tarixi keçmişimizin epik əsərlər əsasında tədqiq olunmasına cəhd edilmişdir.

Nəticə olaraq, müəllifin fikrincə, Azərbaycan siyasi tarixi, xüsusilə də milli-azadlıq hərəkatını istiqamətləndirən milli oyanış ideyalarının təşəkkül tarixi təkcə tarix elmi əsasında deyil, digər elmlərin, xüsusilə də ədəbiyyatın və fəlsəfənin kontekstində öyrənilməlidir. Xalqımız müstəqilliyini itirdiyi ilk illərdə mövcud milli-mənəvi dəyərləri qorumaq, itirilmişləri isə yenidən bərpa etmək uğrunda mücadiləyə başlamışdır. Milli azadlıq hərəkatının bu ilkin dönəminə ziyalılar öncüllük etmişlər. Müasir tarixi şəraitdə də beynəlxalq proseslərdən kənarda qalmamaq şərtilə müstəqilliyi və milliliyi qorumaq, milli mənəviyyatı inkişaf etdirmək, müasir təfəkkürlü

düşünən milli zəkalar yetişdirmək günümüzün əsas məsələləridir. Bu baxımdan millətlərarası münasibətlər tarixinin dərindən və yeni baxış müstəvisindən tədqiq etməyin, tarix boyunca dəfələrlə təkrarlanan milli ünaqişlərə zamanı ziyalılarımızın xidmətlərini araşdırmağın müstəsna əhəmiyyəti vardır.

**Açar sözlər:** *Məmməd Səid Ordubadi, şəxsi arxivlər, milli münaqişə, Seyid Əzim Şirvani, Difai.*

**Events of 1905-1906 in Personal Archives (Based on materials from the archive collection of the AMEA named after M. Fuzuli)**

**SUMMARY**

The main purpose of this article is to revisit a particular period in the history of Azerbaijani lands under Russian colonial rule, characterized by a "divide and rule" policy. Viewing historical political events through the prism of time reveals that attitudes and approaches towards these events have shifted in line with the political environment. The history of ethnic conflicts between the Turkic-Muslim peoples of the South Caucasus and the Armenians relocated to Azerbaijani lands by Tsarist Russia has recurred repeatedly. Starting in the early 20th century, global economic crises (notably in 1900-1903 and 1908-1909), along with Russia's defeat in the Russo-Japanese War, led to significant shifts. The revolutionary movement that began with the strike on September 19 (October 2), 1905, and culminated in the Manifesto of October 17, 1907, gradually softened the authoritarian regime. This easing of restrictions opened up space for freedom of speech and the press, increasing political activism in Azerbaijan and changing the character and direction of the national liberation movement. The recent changes, as symbols of a broadening national movement, inevitably caused concern for the Russian autocracy. In response, the government began implementing various measures to counteract this movement, the primary of which was stoking ethnic animosity among colonized nations. Unfortunately, until Azerbaijan regained its political independence in 1991, the study of our history remained restricted and distorted, particularly regarding ethnic relations and their impact on the trajectory and development of the national liberation movement. In modern times, the Karabakh conflict, along with pressures and discriminatory policies directed at Azerbaijan by the international community over recent years, serves as evidence that investigating the historical roots of this conflict remains highly relevant.

Method and Methodology of the Research. In researching the topic, the author consulted materials preserved in the personal archives of intellectuals who lived during that period. These archives include various types of documents, such as manuscripts of works in multiple versions, memoirs, letters, diaries, etc. Some of these materials had been published at different times, while others were introduced to scientific discourse for the first time.

Originality of the Article: The novelty of this article lies in the author's attempt to examine political historical events through the lens of literary heritage. For centuries, authors have drawn extensively on historical sources in creating literary works. However, the practice of investigating historical traces based on literary monuments is relatively recent and has primarily focused on studying our historical past through epic works.

In conclusion, the author believes that the history of Azerbaijani political history, especially the formation of ideas underpinning the national liberation movement, should be studied not only from a historical perspective but also through the lenses of literature and philosophy. In the early years following the loss of independence, our people began a struggle to preserve existing national and spiritual values and to restore what had been lost. Intellectuals led this initial stage of the national liberation movement. In the present historical context, safeguarding independence and national identity, fostering national spirituality, and cultivating modern, forward-thinking minds are primary issues of our time, while remaining engaged in international processes. In this context, a thorough and renewed examination of the history of interethnic relations, as well as an exploration of the contributions made by our intellectuals during recurring ethnic conflicts throughout history, is of exceptional importance.

**Keywords:** *Mammad Said Ordubadi, personal archives, ethnic conflict, Seyid Azim Shirvani, Difai.*

**События 1905-1906 годов в личных архивах (По материалам Института Рукописей им. М. Физули НАНА)**

**РЕЗЮМЕ**

Основная цель статьи рассмотреть воздействия основной линии колониальной политики Российской империи «разделяй и властвуй», которая многие годы властвовала на исторических

территориях Азербайджана, за определенный исторический период. Отношение и подход к определенным политическим и историческим событиям менялись в зависимости от веяния политических времен. Национальный конфликт между тюрко-мусульманскими народами Южного Кавказа и армянами, переселенными царизмом в Азербайджан, неоднократно повторялся на протяжении всей истории. Как известно, экономические кризисы (1900-1903 и 1908-1909 гг.), охватившие весь мир с начала XX века, поражение Российской империи в Русско-Японской войне, обанкротившее внешнюю политику Российской империи, революционное движение, начавшееся с 19 сентября (2 октября) 1905 г. как забастовочное и завершившееся манифестом 17 октября 1907 г., смягчило жесткий диктаторский режим, создало основу для свободы слова и печати, усилило политическую деятельность в Азербайджане, изменила характер и направление национально-освободительного движения, началось издание органов печати на родном языке. Создались благоприятные условия для деятельности политических партий, обществ и объединений.

Все это было предвестием расширяющегося национального движения, и это не могло не обеспокоить российские органы власти. Правительство принимает различные меры, чтобы предотвратить это. Важнейшей из этих мер было разжигание национальной вражды среди колониальных народов. До восстановления политической независимости Азербайджана в 1991 году, одной из запретных и искаженных страниц нашей истории являются национальные отношения и их влияние на развитие национально-освободительного движения. Карабахский конфликт, возникший на почве национальных отношений, на территории Азербайджана, давление и дискриминационная политика международного мира против Азербайджана в современную эпоху являются свидетельством того, что исторические корни этого конфликта всегда актуальны для изучения.

Метод и методология исследования. Автор использовал материалы личных фондов представителей интеллигенции, того периода. Эти архивы состоят из документов различного характера, основную же часть составляют различные экземпляры произведений авторов в виде рукописей, воспоминания, письма, дневники и т. д. Часть материалов, задействованных в исследовании, была опубликована в разные годы, а часть включена в научный оборот впервые.

Новизна статьи в том, что автор пытался исследовать политические исторические события на основе литературного наследия. Создавая литературные произведения, авторы веками обращались к источникам. Однако практика изучения следов истории на основе литературног наследия началась еще в недавнем прошлом, причем попытки изучения нашего исторического прошлого предпринимались главным образом по эпическим произведениям.

В заключении автор высказывает мнение, что политическая история Азербайджана, особенно история формирования идей национального пробуждения, руководящих национально-освободительным движением, должна изучаться не только на основе исторической науки, но и в контексте других науки, особенно литературы и философии. В первые годы, потеряв независимость, народ начал борьбу за спасение существующих ментально-духовных ценностей и восстановление утраченных. Начальный период национально-освободительного движения возглавляла интеллигенция. Обеспечение независимости и сохранность национальной идентичности, совершенствование духовности, воспитание современно мыслящих национальных интеллектов – главные вопросы современности. С этой точки зрения чрезвычайно важно глубже и в новом ракурсе изучить историю межнациональных отношений, рассмотреть заслуги нашей интеллигенции в ходе национальных конфликтов, неоднократно повторявшихся на протяжении всей истории.

**Ключевые слова:** *Мамед Саид Ордубади, личные архивы, национальный конфликт, Сеид Азим Ширвани, Дифаи.*

UOT 94(479.24)
https://doi.org/10.30546/3006-0346.2024.6.84.054

# AĞQOYUNLU SARAYININ GÜCLÜ MƏLEYKƏSİ SƏLCUQŞAH BƏYİM

**GÜNAY MƏMMƏDZADƏ**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*A.A.Bakıxanov adına Tarix və Etnologiya*
*İnstitutunun doktorantı*
*E-mail: gunaymammadzadaa@gmail.com*
*Orcid: 0000-0003-3929-4256*

## GİRİŞ

1403-1502-ci illərdə hakimiyyətini Şərqi və Cənub-Şərqi Anadolu, İran, Azərbaycan və Xorasana kimi genişləndirmiş olan Ağqoyunlular 1468-ci ildə mərkəzi Təbriz şəhəri olan qüdrətli dövlətlərini yaratmışdılar. Dövlət Bayandur nəslinin ortaq mirası sayılır və ailənin ən böyüyü və ya ailə tərəfindən seçilən ən nüfuzlu şəxs hökmdar olurdu (Woods, 1993:234). Hökmdar seçimində şahzadə anaları oğullarının taxta keçməsi üçün əlindən gələni edirdi. Mövcud iqtidar zəif olduqda saray xanımları idarəçiliyi ələ alırdılar. Sultanlarla parallel dövlət işlərini yaxından izləyir, elçilik vəzifələrini belə yerinə yetirirdilər. Qonşu dövlətlərlə diplomatik münasibətlərinin qurulması, siyasi və mənəvi nüfuz əldə edilməsi məqsədi ilə əsasən nigah diplomatiyasına üstünlük verilirdi.

Bu xatunlar arasında Ağqoyunlu sarayının vacib xatunlarından Saray Xatun, Dəspinə Xatun, Səlcuqşah bəyim və b. qadınlar dövlət idarəçiliyində, diplomatiyada, siyasi anlaşılmazlıqların həll edilməsində yaxından iştirak edirdilər. Ağqoyunlu dövlətinin ən güclü xatunlarından Uzun Həsənin xanımı, Sultan Xəlil və Sultan Yaqubun anası Səlcuqşah bəyimin saraydakı nüfuzu, aldığı qərarlar və intriqaları ilə diqqət mərkəzində olmuşdur.

## 1. Səlcuqşah bəyimin həyatı, evliliyi və övladları

Ağqoyunlu sarayında siyasi zəkası, oğulları arasında münasibətlərin qorunmasında mühüm rol oynayan Səlcuqşah bəyim dövrünün önəmli simalarındandır. Doğulduğu yer və tarix barədə mənbələrdə məlumata rast gəlinməsə də, onun Uzun Həsənin birinci xanımı olduğu bəllidir. O, uzun Həsənin əmisi Məhəmməd bəyin qızı olmuşdur. Uzun Həsən hələ 15 yaşında Səlcuqşah bəyim ilə ailə həyatı qurmuş (Sümer, 2012, s.261-264) və ilk xanımı olduğuna görə onu digərlərindən üstün tutmuşdur. Belə ki, Xoca Sadəddin Əfəndi "Tacüt-təvarix" əsərində onu "Uzun Həsənin ən sevdiyi və ən bəyəndiyi xanımı Sultan Xəlilin anası" kimi təqdim edir (Xoca Sadəddin, 1979, s.330). Səlcuqşah bəyimin Xəlil, Yaqub, Yusif və Məsih adlı 4 oğlu olmuşdur (Həsən bəy Rumlu, 2006, s.24). Qaynaqlarda adının Səlcuqşah Xanım, Səlcuqşah Xatun, Səlcuqşah bəyim, Məhdi-Ülya şəklində verildiyi bizə məlumdur (Gülşəni, 2014, s.105). Sarayda həm sultanın xanımı, həm də sultan oğullarının anası kimi nüfuzunu qoruyaraq hörmət qazanan qadınlardan olmuşdur.

## 2. Uzun Həsənin hakimiyyəti dövründə fəaliyyəti

Uzun Həsənin (1453-1478) hakimiyyəti dövründə anası diplomat qadın Saray Xatunla bərabər Səlcuqşah bəyim də dövlət işlərində təsiredici qüvvə rolunu oynamışdı. Uzun Həsənin divanına qatılaraq xarici və daxili məsələləri yaxından izləmişdir. Dövlət işlərinə həddindən artıq qarışması bəzi saray adamları tərəfindən yaxşı qarşılanmamışdır. Sarayda nüfuz sahibi olan Şeyx İbrahim Gülşəni öz əsərində onun fəaliyyətinə aydınlıq gətirməyə çalışır (Gülşəni, 2014, s108). Səlcuqşah bəyim oğlu şahzadə Xəlili atasından qoruduğu və nüfuzuna xələl gəlməməsi üçün çalışdığı mənbələrdə yer alır. Belə ki, Uzun Həsənin oğlu şahzadə Xəlil Fars valisi olarkən Şiraz üləması şahzadənin zülmündən divana şikayət edir. Bundan xəbər tutan Uzun Həsən böyük nüfuz sahibi olan Şeyx İbrahim Gülşənini şahzadə Xəlilə xəbərdarlıq məqsədilə yazılmış fərmanı oxuması üçün Şiraza göndərir. Fərmanın məzmunu barədə məlumatımız olmasa da, bu fərmanın şahzadə Xəlilin fəaliyyətinə aydınlıq gətirə biləcəyini düşünə bilərik. Bundan xəbərdar olan Səlcuqşah bəyim oğlunu lazımi tədbirlər alması üçün öncədən xəbərdar etmişdi. Şahzadə Xəlil anasının xəbərdarlığına nəzərə alaraq Gülşəninin şəhərə girməsinə mane olur və şəhərə girmədən əvvəl bəylər tərəfindən qarşılanır. Gülşəni şahzadə Xəlilə atasına itaət etməsini və rəiyyətə zülm verməkdən çəkinməsini tələb edir. Şahzadə Xəlil xəbərdarlıqlara qarşı boyun əyir (Gülşəni, 2014, s.58-59).

Səlcuqşah bəyimin Uzun Həsənin Dövlətşah Bulduqanidən olan oğlu Uğurlu Məhəmmədlə münasibətlərinin gərginləşməsində əli olduğuna dair mənbələrdə məlumatlara rast gəlirik. 1473-cü ildə Uğurlu Məhəmmədin qoşunu ilə Osmanlı əmirül-ümərası Xas Murad paşa arasında Fərat çayı sa-

hilində baş verən döyüş ağqoyunluların qələbəsi ilə başa çatmış və Osmanlı ordusu qaçmağa başlamışdı. Uğurlu Məhəmməd Həsən padşaha xəbər verdi ki, "elə bu gün aləmi yandıran qoşunlarla birlikdə qaçanların ardınca gedib Sultan Məhəmmədi də məğlub etməyimiz məsləhətdir". Həsən padşah həmin gün vuruşmaq istəyirdi, lakin Səlcuqşah xanım buyurdu ki, "Uğurlu Məhəmməd qoşun arasında tam etibar qazanmaqdan ötrü Rum ordusunun məğlubiyyətinin onun əli ilə olmasını istəyir". Həsən padşah onun sözünü qəbul edib Uğurlu Məhəmmədi geri çağırdı (Həsən bəy Rumlu, 2017, s.285).

Uzun Həsənin xəstəliyi, oğlu Uğurlu Məhəmmədin ona qarşı qiyam qaldırması, sarayda taxt-tac uğrunda mübarizə üst-üstə düşmüşdü. Sarayda iki fraksiya mövcud idi, biri Fars valisi Sultan Xəlilin taxta keçməsinə çalışan Səlcuqşah bəyim, digərləri isə Dövlətşah Bulduqani və Dəspinə xatun idi ki, onlar Uğurlu Məhəmmədi dəstəkləyirdi. Uğurlu Məhəmməd 1474-cü ilin əvvəllərində Sultan Xəlilin hakim olduğu Şiraza hücum etdi və burada əhalidən qızıl toplamağa başladı. Uzun Həsən öz birliklərini yığaraq Fars vilayətinə yürüşə başladı. Uğurlu Məhəmməd atasının qorxusundan Suriyaya doğru qaçmağa məcbur oldu. Daha sonra Osmanlı sultanına sığınan Uğurlu Məhəmmədin taxt-tac uğrunda mübarizəsi yarımçıq qaldı. Uzun Həsən ona kömək edən digər oğlu Maqsud bəyi də zindana saldırdı. O, Sultan Xəlili özünün varisi elan edərək, Gürcüstan üzərinə yürüşə hazırlaşdı (Həsən bəy Rumlu, 2017, s.292-293; Woods, 1993, s.197, 201-202). Lakin Gürcüstan səfəri Uzun Həsənin səhhətini xeyli ağırlaşdırdı. Uzun Həsənin ölüm xəbərini və Uğurlu Məhəmmədin taxta keçməsini yalanını yayan Sultan Xəlilin anası Səlcuqşah bəyimin əsas məqsədi onu öldürtmək idi. Oğlu Sultan Xəlili də Şirazdan təcili olaraq Ərzincana çağırdı. O, Bayandur bəyi bir neçə adamla Uğurlu Məhəmmədin yanına göndərdi. Bayandur bəy onu öldürmək üçün fürsət gözləməyə başladı. "Bu əsnada bir dovşan yerindən sıçradı. Bayandur bəy yaya ox qoyub o tərəfə atmaq istəyərkən Uğurlu Məhəmmədin sinəsinə dəydi. O, atdan yıxılıb əbədiyyət aləminə yollandı. Bayandur bəy onun başını bədənindən ayırıb Həsən padşahın yanına göndərdi" (Həsən bəy Rumlu, 2017, s.302). Həsən bəy Rumlu yazır ki, bu xəbəri alan Uzun Həsən çox pis oldu və dedi ki, "əgər bu xəstəlikdən xilas olsam, onun qatillərindən intiqam alacağam. Səlcuqşah bəyim bu sözlərdən qorxub onu boğdurdu" (Həsən bəy Rumlu, 2017, s.302-303). Amma Fəzlullah Ruxbehan Xunci yazır ki, Həsən padşah oğlu Sultan Xəlili yanına çağırıb səltənət işini ona həvalə etdi (Fəzlullah Ruzbehan Xunci, 1992, s.20). Bununla da, qarşısında heç bir maneə qalmayan Sultan Xəlilin taxta çıxması ilə Səlcuqşah bəyim öz niyyətini gerçəkləşdirmiş oldu.

### 3. Səlcuqşah bəyimin Sultan Xəlil və Sultan Yaqub sarayında fəaliyyəti

1478-ci ilin yanvar ayında atasının ölümündən sonra Sultan Xəlil taxta çıxdı. Taxta çıxdıqdan sonra ilk addımı qardaşı Maqsud bəyi edam etdirmək oldu. Daha sonra anası Səlcuqşah bəyimi qardaşları Yaqub və Yusif ilə birlikdə Diyarbəkrə göndərdi. Bununla, əsas məsqədi həm hakimiyyətini möhkəmləndirmək, həm də anasını dövlət işlərindən uzaq tutmaq idi (Həsən bəy Rumlu, 2017, s.304; Woods, 1993, s.233). Sultan Xəlilin bu hərəkəti anasının ondan uzaqlaşıb digər oğluna yaxınlaşmasına səbəb oldu. Həmin ilin yazında Yaqub Mirzə qışlaqdan çıxaraq qardaşına qarşı çıxmaq üçün yaylağa yollandı. Yol boyu bir çox əmirlər Yaqubun ordusuna qoşuldu. Pambuqlu çayına çatarkən anası Səlcuqşah bəyimlə görüşdü. Anası ona fikrindən dönüb qardaşından üzr istəməsini və itaət göstərməsini məsləhət etdi. Bir neçə gün sonra Sultan Xəlil öz ordusu ilə Təbrizə yürüşə başladı. Yaqub Mirzə ətrafdakı əmirlərə hədiyyələr paylayaraq öz tərəfinə çəkdi. İki qardaş arasında mübarizənin sonunda Sultan Xəlil öldürüldü. Altı aylıq hökmranlıqdan sonra öldürülən Sultan Xəlilin yerinə Sultan Yaqub padşah oldu (Həsən bəy Rumlu, 2017, s.304-305). Sultan Yaqubun taxta keçməsində şübhəsiz ki, Səlcuqşah bəyim ilə Sultan Xəlilin arasında yaranan soyuqluq əsaslı rol oynadı. Səlcuqşah bəyim oğlu Yaqubun arxasında duraraq onu hakimiyyətə qarşı mübarizə aparmağa yönləndirdi. Sultan Yaqubun hakimiyyəti (1478-1490) dövründə Səlcuqşah bəyim bir çox dövlət işlərinə qarışmış, hətta bəzi evliliklərə də maneçilik törətmişdir.

Saraydakı evliliklərdə də söz sahibi olan Səlcuqşah bəyim bir sıra evliliklərə mane olmağa çalışmışdır. Hələ Uzun Həsənin zamanında Təbriz şəhəri Qaraqoyunlu dövlətindən alındıqdan sonra Ağqoyunlu bəyləri Qaraqoyunlu əmirlərinin qızları və xanımları ilə evlənirdi. Bu evliliklərdən biri kəndxuda Səlim ilə Qaraqoyunlu Cahanşahın əmisi qızı arasında olmuşdu. Sultan Yaqubun bacısı ilə Qazı İsa Savəcinin nigaha girməsi məsələsi ortaya çıxanda Səlcuqşah bəyim buna qəti etirazını bildirdi. Bu

evliliyin pozulmasında Səlcuqşah bəyimin xidmətləri əsaslı rol oynadı. Ancaq ilin qaynaqlar evliliyin baş tutmamasının səbəbini Türkman saray xanədanı ilə İran əsilli ailənin evlilik edə bilməməsi kimi göstərir. Yəni vəzifəsi nə olursa-olsun, iranlı bir ailəyə mənsub olan Qazı İsanın Ağqoyunlu dövlətinin varisi olan türkman ailəsinin qızı ilə evlənməsi adətlərə uyğun deyildi (Hakim şah Qəzvini, 1323, s.294). Sultan Yaqubun anasının başqa evliliklərə də maneə yaratdığını bildiyimiz üçün bu evliliyin də baş tutmamasında onun səylərinin nəticəsi olduğunu düşünə bilərik. Sultan Xəlilin ölümündən sonra onun xanımı ilə evlənmək istəyən Hüseyn Çələbinin bu istəyinə qarşı çıxan Səlcuqşah bəyim oğulları ilə bir iclas keçirir. Səlcuqşah bəyim oğlunun xanımının bir rəiyyət ilə evlənməsinə şiddətlə qarşı çıxır və bu cütlüyün edam etdirilməsini istəyir. Bu məsələdə Şeyx İbrahim Gülşəni cütlüyü müdafiə edir və ona sığınan Hüseyn Çələbini Sultan Yaqubun yanına göndərir. Sultan Yaqub cəzanın qaldırılmasını təmin edir, lakin cütlüyə zərər gələ biləcəyindən ehtiyat edərək onları sürgün edir (Gülşəni, 2014, s.104-105). Bu sürgündən aydın olduğu kimi, Sultan Yaqub anasına tam qarşı çıxa bilməmiş və sürgün qərarı vermək məcburiyyətində qalmışdı. Hətta İbrahim Gülşəninin Sultan Yaqubu anasını dövlət işlərindən uzaq tutması üçün tənqid etdiyi, onun hökmü altına girməməsi yönündə xəbərdarlıq etməsi də məlumdur. Sultan Yaqubun bu tənqidlər üzərinə Səlcuqşah bəyimi dövlət işlərindən uzaq durmasını əmr etdiyi məlumdur (Gülşəni, 2014, s.147-148). Anasının isə bu xəbərdarlığa nə qədər məhəl qoyduğunu barədə mənbələrdə aydın məlumat yoxdur.

Sultan Yaqubun səltənətinin son illərində Qazı İsa Savəcinin rəhbərliyi ilə ölkədə torpaq islahatı keçirilməyə başlayır. Bu islahat ilə soyurqal torpaqları dövlətin ixtiyarına keçməli idi. Bu islahat ilə biz Ruzbehan Xuncinin əsəri sayəsində xəbərdar oluruq ki, o islahatın keçirilməsinə tamamilə qarşı çıxanlardan biri idi (Örs, 1999: 101-102). İslahatın keçirilmə tərəfdarlarına güc verən isə təbii ki, sarayda söz sahibi olan Səlcuqşah bəyim idi. Səlcuqşah bəyimin sayəsində Sultan Yaqubun səltənətinin son illərində bir sıra vəzifə sahiblərinin divanda rolları ən yüksək həddə çatmışdır.

Sultan Yaqubun və Səlcuqşah bəyimin ölümü ilə bağlı tarixi mənbələrdə fərqli məlumatlar vardır. Qaynaqların bir hissəsi onların 1487-1490-cı illərdə ölkədə yayılan vəba xəstəliyi üzündən, digəri isə zəhərli şərbəti içərək öldüyünü göstərir. İsfahani, Yəhya Qəzvini, Gülşəni, Xondəmir kimi dönəmin müasiri olan tarixçilər onun xəstələnərək öldüyünü yazarkən (Xondəmir, 1975, s.436; Bitlisi, 1971, s.130-131; Yəhya Qəzvini, 1314, s. 223), Həsən bəy Rumlu, Xoca Sadəddin kimi tarixçilər Səlcuqşah bəyimin Sultan Yaqubu öldürmək üçün hazırladığı şərbəti səhvən digər oğlu Məsih Mirzənin içməsi nəticəsində özü də o şərbətdən içərək öldüyünü yazır (Xoca Sadəddin, 1979, s.335; Həsən bəy Rumlu, 2017, s.330). Digər yandan Səlcuqşah bəyimin oğulları Sultan Yaqub və Yusif Mirzənin yaxın vaxtda ölməsi məsələsində qaynaqlar eyni görüşdədir. 1487-1490-cı illərdə Azərbaycanda yayılan taun və ya vəba xəstəliyini isə gözardı edə bilmərik. Ölüm səbəbinin bu xəstəlik üzündən olması da əsas görüşlərdən biridir.

Səfəvi tarixçisi Həsən bəy Rumlu hadisələri belə nəql edir: “Onun ölümünün səbəbi budur ki, anası Səlcuqşah bəyim, Həsən padşahın oğlu Məsih mirzəni zəhərləmək istəyirdi. Bu niyyətlə suya salınmış qaysının olduğu qaba zəhər qatdı. Yaqub padşah hamamdan çıxıb qardaşı Yusif bəylə birlikdə onu yedilər. Bu əsnada Səlcuqşah xanım da xəbərdar olub, təsadüf üzündən o da həmin qaysıdan yedi və ondan sonra böyürlərini xəstəlik yatağına qoydular. Yusif bəy və Səlcuqşah xanım vəfat etdilər. Sözügedən ilin səfər ayının 11-də (24.12.1490) Yaqub padşah da dünyadan köçdü. Ömrü iyirmi səkkiz il, səltənət əyyamı isə on iki il və iki ay olmuşdur’(Həsən bəy Rumlu, 2017, s.330).

Osmanlı tarixçisi Xoca Sadəddin də eynilə Səlcuqşah bəyimin Yusif Mizəni taxta keçirmək üçün sultanı zəhərlədiyini yazır: “Sultanın anası şahzadələrdən birini məhv etmək üçün zəhərlə qarışdırılmış bir qab şərbət hazırlamışdı. Ağıldan və ruhdan məhrum olan bu şərbət qədəhini ehtiyatsızlıqdan ortada qoyub mühüm işə getdi. Bu vaxt Sultan Yaqubun qardaşı Yusif Mirzə ovdan gəlib saraya daxil olur və çox susadığı üçün qabdan içib, qalanını Yusif Mirzəyə verir. İçəndə də anası gəlib vəziyyəti görüb, o da ağrıdan geridə qalanı içib və üçü də bir gündə ölüb. Bəziləri deyirlər ki, o, Yusif Mirzəni çox sevdiyi üçün Yaqub Mirzə üçün şərbət hazırlayıb və sultanlığı Yusif Mirzəyə təhvil vermək istəyib. Yaqub Mirzə şərbəti içdikdən sonra ana və qardaşına təklif edərək, onların da şərbəti içməkdən çəkinmədən içdiklərini söyləyir. Qısacası, Sultan Yaqub 896-cı ilində əcəl sakininin əlindən bir zəhərlə dolu bir qədəh alaraq ürəyini dağladı’(Xoca Sadəddin,1979, s.335).

Dövrün müasiri, Sultan Yaqubun tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci "Tarix-i alam arayi Əmini" əsərində bu dönəmdə bir xəstəliyin yayıldığından bəhs edir və sultanın bu xəstəlik üzündən öldüyünü bildirir. O, taun xəstəliyinin birdən-birə Qarabağ qışlaqlarına gəlib düşərgəyə və qonşu paytaxtlara yayıldığını qeyd edir (Fəzlullah Ruzbehan Xunci, 2003, s.369; Minorski, 1957, s.107). F.R.Xuncinin verdiyi məlumata görə, Sultan Yaqubun anası da təhlükəli xəstəliyə düçar oldu. Bir neçə gün sonra o da vəfat etdi. Yusif Bahadır anasının ölümündən bir neçə gün sonra onu ziyarətə gedəndə başı bəlaya düşdü və xəstəlik onun bütün damarlarına nüfuz etdi və öldüyünü bildikdən sonra Qarabağda düşərgədə xəstələnərək taleyə təslim oldu (Fəzlullah Ruzbehan Xunci, 2003, s.401-402; Minorsky, 1957, s.110). F.R.Xuncinin verdiyi məlumata görə, Yaqubun anasını ziyarət etməsi onun xəstəliyini sürətləndirdi və ölümün məngənəsində qaldığı bir vaxtda onun da bu dünyadan 11 Səfər 896 / 24 dekabr 1490-cı ildə getməsinə səbəb oldu (Fəzlullah Ruzbehan Xunci, 2003, s.401-402; Minorsky, 1957, s.111). Sultan Yaqubun anasından altı həftə sonra ölməsi, Həsən bəy Rumlunun zəhərli qədəhdən içdikdən sonra Yaqubun ölümcül xəstəliyindən danışması bu fikrin inandırıcılığını şübhə altına alır. Bununla belə, o dövrdə Azərbaycanda geniş yayılmış vəba xəstəliyini göz ardı etmək olmaz.

**4. Səlcuqşah bəyimin xeyriyyəçilik sahəsində fəaliyyəti**

Səlcuqşah bəyim Ağqoyunlu dövlətinin elmi-mədəni, sosil-iqtisadi islahatlarının keçirilməsində yaxından iştirak etmiş, öz töhfələrini vermişdir. Uzun Həsənin hakimiyyəti dövründə "Qanunnamə"-nin hazırlanmasında, sənətkarların, elm adamlarının, həmçinin ağır döyüşlərdə şəhid olan əsgərlərin ailələrinə xüsusi diqqət göstərməsində Səlcuqşah bəyim xüsusi rol oynamışdı. Səlcuqşah bəyim elmə, abadlıq və tikinti işlərinə xüsusi qayğı ilə yanaşırdı. Uzun Həsənin və xanımı Səlcuqşah bəyimin diqqəti ilə elm adamları saraya dəvət edilir və elmi əsərlər yazırdılar. Əbubəkr Tehrani "Kitabi-Diyarbəkriyyə" əsərini məhz Həsən padşahdan dinləyərək yazmışdı.

Məhz Uzun Həsənin və xanımı Səlcuqşah bəyimin tapşırığı ilə "Qurani-Kərim" türkcəyə tərcümə edilmiş, 98 musiqiçidən ibarət "Sazəndələr dəstəsi" adlı aşıq qrupu yaradılmışdır. Səlcuqşah bəyimin dinə olan bağlılığı onun təriqət başçısı Ömər Rövşəniyə xüsusi diqqətlə yanaşmasından irəli gəlirdi. Səlcuqşah bəyim Cahanşahın xanımı tərəfindən tikdirilən Müzəffəriyə zaviyəsini Ömər Rövşəni üçün hazırlatdırır və şeyx ölənə qədər orada qalır (Hınz, 1992, s.105). Uzun Həsənin sevimli xanımına yetərincə vaxt ayıra bilməməsi üzündən kədərlənib onun üçün "Nəsriyyə" məscidini tikdirməsi diqqətəlayiq məsələlərdəndir.

Xeyirxahlığı ilə tanınan Səlcuqşah bəyim eyni zamanda öz büdcəsindən, gəlirindən xeyir işləri də görmüşdür. O, Təbriz məscidinin təmir edilməsi üçün 10 min dinar ayırmış, məsciddə abdəst almaq üçün su ilə təmin edilmiş, hündür bir günbəz tikdirmiş və hər tərəfi kirəmitlə hörülmüş hücrələr inşa etdirmişdir. Bu məscidin içinə köhnəlmiş mehrab yerinə uzun və rəngli günbəz tikdirmişdir (Hınz, 1992, s.98). Səlcuqşah bəyimin zaviyəsi Bayburtun Balaxor kəndində tikdirilmiş, lakin sonralar dağıdılmışdır. Onun sənədlərdə qeydləri isə qalmaqdadır (Woods,1993, s. 393). Səlcuqşah bəyim həm iqtisadi, həm də siyasi cəhətdən öz sözünü deməyi bacarmışdır. Onun gördüyü xeyirxah işlər xalq içərisində sevilməsinə və nüfuzunun artmasına gətirib çıxarmışdır.

## NƏTİCƏ

Uzun Həsənin ölümündən sonra oğullarını hökmdar edə bilmək üçün Ağqoyunlu sarayında etdiyi yönləndirmələr, divan işlərində söz haqqının olması Səlcuqşah bəyimin adının tarixə yazılmasına səbəb olmuşdur. Uzun Həsənin ölümündən sonra əvvəl oğlu Sultan Xəlilin, daha sonra Sultan Yaqubun taxta keçməsi üçün verdiyi mübarizə ilə dövlətin nüfuzunu qorumağa çalışdığı kimi, saraydakı digər şahzadələrə və onların analarına, əsasən də Dəspinə xatuna qarşı savaş başlatdığı da məlumdur. Digər tərəfdən, Səlcuqşah bəyim Ağqoyunlu idarəçiliyində mərkəzi idarəetməni əlində tutmağa müvəffəq olmuş qadınlardandır. Əsasən də Uzun Həsənin ölümündən sonra oğullarının hakimiyyəti dövründə bütün iqtidarı öz əlinə almağı çalışmışdır. Yalnız sultan anası olaraq deyil, sarayda yüksək rütbə sahibi şəxsləri də öz yaxınında tutub ittifaq quraraq nüfuzunu gücləndirmişdir. Səlcuqşah bəyimin idarəetmədə öz nüfuzunu qoruyub saxlamaq üçün göstərdiyi çaba nəticəsində oğulları arasında seçim etmək məcburiyyətində qalsa da, saraydakı nüfuzunu qoruyub saxlaya bilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Arayancan A.A. (2018), "Sultan Yakûb'un Ölümüne Dair Münzara ve Bazı Değerlendirmeler", Atatürk Türkiyat Araştırmaları Dergisi, C.LXIII, Erzurum, s.437- 446.*
2. *Bitlisi Ş. (1971), Şerefnâme, Çev. E.Emin Bozarslan, Çıra Yayınları: İstanbul.*
3. *Gülşenî M. (2014), Menâkıb-ı İbrâhim-i Gülşenî, haz.Mustafa Koç, Eyyüp Tanrıverdi, İstanbul: Bilnet Matbaacılık.*
4. *Hinz W. (1992), Uzun Hasan ve Şeyh Cüneyd: XV.Yüzyılda İran'ın Milli Bir Devlet Haline Yükselişi, çev. Teyfik Bıyıkoğlu, TTK: Ankara.*
5. *Hoca Sadettin Efendi. (1979), Tâcüt-tevârih, c.III, Haz. İsmet Parmaksızoğlu, Kültür Bakanlığı Yayınları: İstanbul.*
6. *Xondəmir əl-Hüseyni. (1353/1975), Tarix-i həbibü's-siyər fi əxbar-ı efrad-ı bəşər, haz. Məhəmməd Dəbir-Siyaqi, İntişarat-ı Kitab Furuş-i: Tahran.*
7. *İsfahani Fəzullah ibn Ruzbehan Xunci. (2003), Tarix-i alam aray-ı Əmini, haz. Muhammed Ekber Aşik, Tahran: Miras-ı Mektub.*
8. *Qəzvini Yəhya Əbdüllətif əl-Hüseyni. (1314), Lübbü't-təvârih, haz. Seyyid Celaleddin Tehrani, Tehran.*
9. *Minorsky V. (1957). Persia in A. D. 1478-1490 : an abridged translation of Faḍlullāh b. Rūzbihān Khunjī's Tārīkh-i ʻālam-ārā-yi Amīnī*
10. *Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı: Çaşıoğlu, 2012, 604 s.*
11. *Örs, Derya. "Fazlullâh b. Rûzbihân-i Ḫuncî ve Târîḫ-i ʻÂlem-Ârây-i Emînî'si." Doktora Tezi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü. 1999.*
12. *Rumlu Həsən bəy. (2017). Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu: Uzanlar.*
13. *Sümer F. (1989), "Akkoyunlular", DİA, C.II, İstanbul: Türk Diyanet Vakfı Yayınları, ss.273-274.*
14. *Tehrani Ə. Kitabi-Diyarbəkriyyə, Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilər Rahilə Şükürovanındır, Bakı: Elm 1998, 336 s.*
15. *Woods J. E. (Çev., Sibel Özbudun, Ek Yazılar, Necdet Sakaoğlu). (1993). Akkoyunlular: Aşiret, Konfederasyon, İmparatorluk: 15. Yüzyıl Türk-İran Sivaseti Üzerine Bir İnceleme. İstanbul: Milliyet Yayınları.*


## XÜLASƏ


Tarixən türk dövlətlərində qadınlar kişilərlə bərabər mühüm siyasi hadisələrdə yaxından iştirak etmiş və hətta döyüş səhnələrində qəhrəmanlıq göstərmişlər. Ağqoyunlu sarayında tarixi mənbələrdə bizə məlum olan bir çox qadın vardır. Onlardan biri də Səlcuqşah bəyimdir ki, Uzun Həsənin xanımı və oğullarının anasıdır. Tarixi qaynaqlar onun güclü siyasi portretini bizə təqdim etməklə yanaşı, sarayda, dövlət idarəçiliyində və xeyriyyə işləri ilə yaxından məşğul olduğunu açıqlayır. Uzun Həsənin xanımı olaraq həm divan işləriylə məşğul olmuş, xeyriyyəçilik fəaliyyəti göstərmiş, həm də oğullarını gələcək həyata hazırlamışdır. Səlcuqşah bəyim oğullarının hakimiyyəti dövründə öz fəaliyyətini davam etdirmişdir. Bu məqalədə məqsədimiz Səlcuqşah bəyimin həyatı, saraydakı fəaliyyəti və dövlət idarəçiliyində roluna aydınlıq gətirməkdir.



**Açar sözlər:** *Ağqoyunlu, Uzun Həsən, Səlcuqşah bəyim, Sultan Xəlil, Sultan Yaqub.*


## SELJUGSHAH BEYIM, THE POWERFUL ANGEL OF THE AGGOYUNLU STATE

### SUMMARY


Historically, in Turkish states, women have closely participated in important political events along with men and have even shown heroism in battle scenes. There are many women known to us in historical sources in Aggoyunlu palace. One of them is Seljugshah Beyim, who is the wife of Uzun Hasan and the mother of his sons. In addition to presenting us with a strong political portrait of him, historical sources reveal that he was closely involved in the palace, state administration, and charity work. As the wife of Uzun Hasan, she was engaged in divan work, performed charity work, and prepared her sons for the future life. Seljugshah Beyim continued her activities during the reign of his sons. Our goal in this article is to clarify the life of Seljugshah Beyim, her activities in the palace and her role in state administration.



**Key words:** *Aggoyunlu, Uzun Hasan, Seljugshah Beyim, Sultan Khalil, Sultan Yaqub.*

UOT 94(479.24)
https://doi.org/10.30546/3006-0346.2024.6.84.056

# İRƏVAN QUBERNİYASININ TƏBİİ-COĞRAFİ MÖVQEYİ VƏ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

**HABİL İSMAYILOV**
*Gəncə Dövlət Universiteti, dissertant*

*E-mail: h-ismayil@mail.ru*

İrəvan quberniyası qərbdən Qars vilayəti, cənubdan Ərzurum vilayəti, şimal hissəsi Gümrü yaylası ilə əhatə olunmuşdur. Bezobdal və Pəmbək dağları arasında yaylanın şərq hissəsi, Borçalı çayının yuxarı axarı ilə qərb sərhədləri hüdudlanırdı. İrəvan quberniyasının Yelizavetpol quberniyası ilə sərhəddini Zəngəzur dağ silsiləsi təşkil edirdi [7].

Dəniz səviyyəsindən 4000 min metrə qədər yüksəklikdə yerləşən İrəvan quberniyası 38°54 ilə 41° 13′ şimal enliyi, 60° 75′ ilə 64° 30′ şərq uzunluğunda yerləşirdi. İrəvan quberniyası Kutaisi, Tiflis, Şamaxı quberniyaları, cənubdan Qaradağ, Mərənd, Maku xanlıqları, Türkiyənin Bəyazid, Qars, Axalsıx paşalıqları ilə sərhəd idi [11, s.16].

İrəvan quberniyasının Cənubi Qafqaz istiqamətindən daxili sərhədlərinin ümumi uzunluğu 515 ½ verst təşkil edirdi. Bunun 16 ½ versti Kutaisi quberniyası, 278 ½ versti Tiflis quberniyası və 220 ½ versti isə Şamaxı quberniyası ilə həmsərhəd idi. İrəvan quberniyasının Osmanlı imperiyası ilə sərhəd zolağının ümumi uzunluğu 287 verst idi. Bunun 8 versti Axalsıx paşalığının, 160 versti Qars paşalığının, 119 versti isə Bəyazid paşalığının payına düşürdü. İrəvan quberniyasının İranla sərhədinin ümumi uzunluğu Kiçik “Araratın” zirvəsindən Şamaxı quberniyasının hüdudlarına qədər 282 verst təşkil edirdi ki, bunun 158 versti Maku, 34 versti Mərənd və 90 versti Qaradağ xanlığı ilə həmsərhəd idi [2, s. 102-103].

A.V. Parvitskinin quberniya ərazisində apardığı tədqiqatlarda Yeni Bəyazid qəzasının şimal-şərq hissəsinin təbi-coğrafi vəziyyəti haqqında məlumatlara rast gəlinir. O, qeyd edir ki, “Yeni Bəyazid qəzası 400 39′- 400 3′ şimal enliyi və 620 3′-630 38 ′şərq uzunluğu arasında yerləşir. Təsvir edilən ərazi isə Yeni Bəyazid qəzasının şimal şərq hissəsini əhatə edir. Rayon şimaldan, qərbdən və cənub-qərbdən İrəvan quberniyasının Aleksandropol, Eçmiədzin və İrəvan qəzalarına, şimal-şərqdən və şərqdən Yelizavetpol quberniyasının Qazax, Yelizavetpol, Cavanşir qəzalarına və cənubdan isə Yeni Bəyazid qəzasının cənub qərb rayonu hissəsinə bitişir. Rayonun sərhədlərini Aleksandropol tərəfindən Pəmbək silsiləsi, Eçmiədzin tərəfindən Əlibəy silsiləsi və Zəngi çayı, İrəvan tərəfindən Ağmanqan dağının təpələri, Qazax və Yelizavetpol tərəfindən Güney dağları silsiləsi, Cavanşir tərəfindən Məzrin dağları təşkil edir. Uyezdin şimal -şərq və cənub -qərb rayonlarını ayıran sərhəd - qərbdən və şimal -şərqdən Paltəpə dağları silsiləsi boyu Ağmanqan dağına qədər, Ağmanqan dağından isə Yeni Bəyaziddən çəkilən xətlər boyunca Şorgölün sahil zolağına qədər; şərqdən və cənub -şərqdən Göyçə gölü sahilindən Göyçə və Gilli göllərini birləşdirən çayın ağzına qədər, oradan Basarkeçər və Böyük Məzrin kəndləri arasındakı kənd yolunun ortasından çəkilən xətlər boyunca Alagöllər dağna qədərdir [12, s. 1-2].

İrəvan quberniyasının təbii-coğrafiyasında daxil olan düzənliklər aşağıdakılardan ibarətdir [7]: İrəvan düzənliyi, Elli-Dərə, Sərdar-Abad düzənliyi, Səhət-Çuxuru düzənliyi, Gərnibar düzənliyi, Vedibasar düzənliyi, Sədərək çölü, Lopin çölü, Şərur düzü, Böyük Dizə düzənliyi, Naxçıvan düzü, Gülüstan düzənliyi, Pəmbək düzənliyi, Abaran yaylası, Şuragel düzənliyi, Məzrə düzü, Zəngi düzənliyi.

İ. Şopen qeyd edirdi ki, “Dağlıq silsilələrdən ayrılan çıxıntılar Göyçə hövzəsinin aşağı hissəsində iki düzənlik- Məzrə və Zəngi düzənliklərini yaradır. Məzrə düzənliyi Göyçə hövzəsinin Yelizavetpol qəzası ilə həmsərhəd olan şərq hissəsində yerləşməklə cənub şərqdən Göyçə gölünə doğru uzanır, eni 15, uzunluğu isə 20 verst təşkil edir. Düzənlik Gilli çayı ilə birləşən qərb hissədə bataqlıq yaradır. Göyçə hövzəsinin qərbində yerləşən Zəngi düzənliyinin ümumi uzunluğu 30 verst təşkil edir. Hər iki düzənlik qəzanın ən alçaq hissəsini təşkil edirdi. Məzrə düzənliyi dəniz səviyyəsindən 6, 400 fut, Zəngi düzənliyi isə 6, 270 fut hündürlükdə yerləşir. Düzənliyin iqlimi qəzanın digər əraziləri ilə müqayisədə daha mülayim yayda 12 dərəcə, qışda isə 7 dərəcə təşkil edir [11, 357-359].

İrəvan quberniyasının hüdudları daxilində və yaxud ərazisindən keçən çaylar bunlardır: Araz, Arpaçay, Pəmbək, Bekant (Qaranqu, Beykənt) çay, Daşbulaq, Hallavar, Bezobdal, Zap çayı, Zod çayı, Altuntaxtçay, Ağdağçay, Qızılvəng çay, Qarasu, Qarçi-çay, Dəli-çay, Zəngi çay, Vedi-çay, Çanax-

çı – çay, Alagöz-çay, Naxçıvan-çay, Biçənək-çay, Kükü çay, Cəhri çay, Əlincə çay, Gilan çay, Üstipi çay, Vənənd çay, Nüvədi çay, Ordubad çay, Balıqlı çay, Kəvər çay, Adıyaman çay, Məzrə çay, Acı çay, Təzəkçi çay, Qırxbulaq çay, Göyçə çay və s. [7].

Quberniyanın ən böyük gölü olan Göyçə gölünün uzunluğu 70 verst, ən böyük eni 30 verst, ən kiçik eni 9 verst, döngələr boyunca sahil xətti təxminən 220 verstə qədər uzanır. Göyçə gölü təxminən 1500 kv. verst və ya 156,300 akrdır. Göl bir neçə xırda dağ çaylarını qəbul edir və Araz çayına tökülən Zəngi çayı bu göldən qidalanır [12, s. 2].

Cənubi Qafqazın digər bölgələri kimi, İrəvan quberniyasının da iqlimi, coğrafi mövqeyi, torpağı və yaradıcı həyatı qeyri-adi dərəcədə zəngin və müxtəlifliyi ilə seçilirdi. Çılpaq qayaları və qarlı dağları istisna olmaqla, torpaq hər yerdə olduqca münbit və məhsuldar idi. Quberniyanın ərazisindən nəinki Cənubi Qafqazdan İran və Osmanlı dövlətlərinə əsas quru ticarət yolları, ümumiyyətlə Şərqin Qərbə, Qərbin isə Şərqə siyasi fəaliyyət yolları da buradan keçirdi.

Bölgədə havalar mülayimləşdikcə yüksək ərazilərdəki qar sürətlə əriyərək burada daşqın və bataqlıqlar yaradırdı. May və iyun aylarında təbiət sürətlə canlanır, ətraf yaşıllığa qərq olurdu. Hər yer yazlıq buğda, arpa, darı, pərinc, çətənə əkinləri, həmçinin otlaq və çəmənliklərlə örtülürdü [11, s. 349].

Rəsmi statistik məlumatlardan aydın olur ki, bölgənin iqlimi onu hər tərəfdən əhatə edən alp yüksəkliklərindən asılıdır. Bu ərazilərdə qış nadir hallarda şiddətli keçir və və adətən az qar yağır. Qışda şaxta adətən 12-14 dərəcədən çox olmur, lakin yay, xüsusilə iyul və avqust ayları çox isti keçir. Havada rütubət çox azdır, yalnız ətrafdakı dağlara yağış yağır. Yay fəsli boyu iki-üç dəfə yağışlı gün olursa, o zaman yerlilər ili yaxşı hesab edirlər. Yayda temperatur kölgədə müsbət 32 dərəcəyə çatır. Küləkli hava adətən iyun-oktyabr aylarında başlayır, əraziyə nadir hallarda dolu yağır [10, s. 266].

XIX əsrin 20-ci illərində baş verən II Rus-Qacar müharibəsi Azərbaycanın tarixi ərazisi olan İrəvan bölgəsi və Naxçıvan ərazilərinin çar Rusiyasının işğalı ilə nəticələndi. 1828-ci il martın 21-də Rus çarı I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının Erməni vilayəti adlandırılması haqqında fərman verdi. Çarın bu fərmanına uyğun olaraq, 1827-ci il oktyabrın 6-da general İ.Paskeviçin əmri ilə İrəvan bölgəsini idarə etmək üçün yaradılmış Müvəqqəti idarə üsulu ləğv olundu. İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" - müvəqqəti inzibati-idarə yaradıldı. Vilayətin mərkəzi aparatı vilayət rəisi, bir polis, maliyyə üzrə iki rus müşaviri və iki asessordan ibarət idi. Asessorlardan biri azərbaycanlı, digəri erməni icmasının nümayəndəsindən təyin olunurdu. "Erməni vilayəti" - İrəvan və Naxçıvan əyalətlərindən ibarət idi. "Erməni vilayəti"nin rəisi vəzifəsinə yerli qoşunların komandanı, Müvəqqəti idarənin rəisi, general-mayor A.Çavçavadze təyin edildi. Yaradılan yeni inzibati idarənin mərkəzi İrəvan şəhəri idi [2, s. 66]. İrəvan və Naxçıvan bölgəsində "Erməni vilayəti" yaradıldıqdan sonra bir müddət mahal və kəndlərin idarə sistemi rus işğalına qədərki dövrdə olduğu kimi saxlanıldı. Hələ də yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər. Vilayətin vergi sistemində isə dəyişikliklər edilmişdi [3, s. 169].

İrəvan əyalətinin 15, Naxçıvan əyalətinin 5, Ordubad dairəsinin 5 mahalı var idi. Vilayətdə 752 kənd var idi. Bunlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52 kənd isə Ordubad dairəsində idi [4, s. 164].

1833-cü il iyunun 23-də Rusiya Dövlət Şurasının qəbul etdiyi yeni qanuna görə "Erməni vilayəti"ndə inzibati-ərazi dəyişikliyi həyata keçirildi. Qanuna görə, "Erməni vilayəti"nin adı olduğu kimi saxlanıldı, lakin onun kollegial idarə sistemi ləğv edildi. Bu qanun, vilayət rəisinə böyük səlahiyyətlərin verilməsini nəzərdə tuturdu. İrəvan bölgəsi dörd dairəyə - İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Dairələr rus hərbçiləri tərəfindən idarə olunurdu. Qeyd edək ki, aparılan islahatla baxmayaraq, hələ də Cənubi Qafqazın inzibati-ərazi bölgüsü Rusiya hakimiyyətini tam şəkildə qane etmirdi. Bu istiqamətdə keçirilən inzibati islahatlar işğaldan əvvəlki yerli qayda-qanunlara zərbə vursa da, onları tam şəkildə sıxışdırıb aradan çıxara bilməmişdi. Rusiya hakim dairələri isə birmənalı olaraq bölgəni öz qayda-qanunları əsasında idarə etmək istəyirdilər.

Cənubi Qafqazda yeni islahatlar hazırlamaq məqsədilə, çarın fərmanı ilə baron Qanın Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişikliyi haqqında qanun layihəsi 1840-cı il aprelin 10-da çar tərəfindən təsdiq olundu [3, s. 314].

Bu qanuna görə, Cənubi Qafqazın mövcud inzibati-ərazi bölgüsü ləğv edilir, yerində iki quberniyaya – mərkəzi Tiflis şəhəri olan Gürcüstan-İmeretiya quberniyası və mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayəti yaradılırdı. Bu qanunla "Erməni vilayəti" ləğv

ediləræk, "vilayətə" daxil olan əsasən İrəvan və Naxçıvan bölgələri ərazisi əsasında İrəvan, Naxçıvan və Aleksandropol qəzaları yaradılaraq Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilirdi [8, s.237].

XIX əsrin 40-cı illərində Çar Rusiyası Cənubi Qafqazda inzibati-ərazi bölgüsündə yeni dəyişiklik etdi. Çar I Nikolay 1843-cü ildə Qafqazda canişinlik sisteminin yaradılması haqqında fərman verdi. 1844-cü ildə M.S.Voronsov Qafqaz canişini təyin edilir. 1846-cı il dekabrın 14-də isə, Cənubi Qafqazda Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. Yeni inzibati-ərazi quruluşunda İrəvan, Naxçıvan və Aleksandropol qəzaları Tiflis quberniyasının tərkibinə daxil oldu [9, s. 647-648].

Çar hökuməti tərəfindən 1849-cu il iyun ayının 9-da İrəvan quberniyasının yaradılması haqqında qanun qəbul etdi. Bu qanuna görə, Tiflis quberniyasının İrəvan, Naxçıvan və Aleksandropol qəzaları Tiflis quberniyasının tərkibindən çıxarılaraq yeni inzibati - ərazi vahidini - İrəvan quberniyasını təşkil etdi [3, s. 315].

İnzibati ərazi bölgüsünə görə İrəvan quberniyası İrəvan, Aleksandropol, Yenibəyazid, Naxçıvan, Ordubad qəzalarına bölündü. İrəvan quberniyası 4 inzibati sahədən – Zəngibasar (inzibati mərkəz – Kəmərli), Sürməli (inzibati mərkəz-Qazıqışlaq), Şərur (inzibati mərkəz – Baş Nuraşin), Sərdar-Abad (inzibati mərkəz - Zeyvə) ibarət idi. Aleksandropol qəzası - Şuragel (inzibati mərkəz – Aleksandropol) və Pəmbək ((inzibati mərkəz – Böyük Qarakilsə), Naxçıvan qəzası – Naxçıvan (inzibati mərkəz – Naxçıvan) və Dərələyəz (inzibati mərkəz – Keşişkənd) inzibati sahələrdən ibarət idi. Yenibəyazid və Ordubaq qəzaları sahələrə bölünməmişdir. İrəvan quberniyasını hərbi qubernator idarə edirdi [5, s. 10].

İrəvan quberniyasına daxil olan qəzaların sahəsi aşağıdakı kimi idi (37, s. 14): Aleksandropol – 4,120 kv.verst, Yeni-Bəyazid – 5,300 kv.verst, İrəvan – 9,460 kv.verst, Naxçıvan – 4,680 kv.verst, Ordubad – 2,890 kv.verst

XIX əsrin 50-ci illərində İrəvan quberniyasının inzibati-ərazi bölgüsündə dəyişikliklər edildi. İmperator II Aleksandrın 19 iyun 1859-cu il fərmanı ilə İrəvan qəzası Eçmiədzin və İrəvan qəzalarına bölündü. 1867-ci il dekabrın 9-da çar II Aleksandrın verdiyi fərmana əsasən Ordubad qəzası ləğv ediləræk, Naxçıvan qəzası ilə birləşdirildi. Qəzanın Mehri ərazisi isə Yelizavetopol quberniyasının tərkibinə qatıldı. Beləliklə, İrəvan quberniyası beş qəzadan – İrəvan, Yenibəyazid, Naxçıvan, Eçmiədzin, Aleksandropoldan ibarət oldu [1, s. 30-31].

Ümumiyyətlə, Türkmançay sazişinə əsasən çar Rusiyasının işğalı altına keçən İrəvan və Naxçıvan bölgəsində mərhələli şəkildə inzibati ərazi dəyişikliyi ediləræk Rusiyanın inzibati-ərazi quruluşuna uyğun olaraq quberniya sistemi yaradıldı. Bu sistem nəticəsində bölgənin bəzi hissələri digər quberniyaların tərkibinə keçdiyi üçün vahid idarəçilik sistemindən məhrum oldu. Bu inzibati dəyişiklik sistemi bölgə əhalisinin sosial-iqtisadi və mədəni həyatında, həmçinin demoqrafik quruluşunda ciddi mənfi tendensiyalara səbəb oldu.

## ƏDƏBİYYAT SİYAHISI:


***Azərbaycan dilində***

*1. Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər). Bakı, Nurlan, 2022.*

*2. Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri)". Bakı, Turxan, 2017.*

*3. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016.*

*4. Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı, Adiloğlu, 2003.*

***Rus dilində***

*5. Военно-статистическое обозрение Российской Империи. Эриванская губерния. Т. 16, ч. 6: /издаваемое по Высочайшему повелению при 1-м отделении Департамента Генерального Штаба-Санкт-Петербург: в типографии Департамента Генерального Штаба, /по рекогносцировкам и материалам, собранным на месте, составлял Ген. штаба кап. Услар, 1855.*

*6. Памятная книжка Эриванской гуверний на 1902 годъ. Подъ редакцией секретаря Эриванскаго губернскаго статистическаго комитета, правителя канцелярги Губернатора А. И. Марченко. Эриван, Типография PR. Эдельсонъ, 1902.*

*7. Первая всеобшая перепись населения Российской империи. LXXI. Эриванская губерния. СПб., 1905, 1вв. л. XXIII.*

*8. Полное собрание законов Российской империи. Т. XV, СПБ, 1841.*

*9. Полное собрание законов Российской империи. Т. XXI, СПБ, 1850.*

*10. Сборник сведений о Кавказе. Том 3. Тифлис, 1875 г.*

11. *Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб.: Типография Императорской Академии наук, 1852.*

12. *Экономический бытъ государственныхъ крестянъ северо-восточной части Новобаязетскаго уезда Эриванской губернии. Исследование А.В Парвицкаго. Тифлис, 1885.*

**XÜLASƏ**

İrəvan quberniyasının yerləşdiyi təbii coğrafi ərazi relyef baxımından Kiçik Qafqazın cənub hissəsini və Ağrı dağına doğru şimaldan cənuba bir sıra yaylalar və yüksək düzənliklərlə əhatə olunmuşdur. Bölgənin yüksək ərazilər vilayətin şimalında yerləşirdi. İrəvan quberniyası qərbdən Qars vilayəti, cənubdan Ərzurum vilayəti, şimal hissəsi Gümrü yaylası ilə əhatə olunmuşdur. Bezobdal və Pəmbək dağları arasında yaylanın şərq hissəsi, Borçalı çayının yuxarı axarı ilə qərb sərhədləri hüdudlanırdı. İrəvan quberniyasının Yelizavetpol quberniyası ilə sərhəddini Zəngəzur dağ silsiləsi təşkil edirdi.

**Açar sözlər:** *İrəvan, Kiçik Qafqaz, quberniya, dag, yayla, çay, sərhəd*

**Хабил Надир оглу Исмайылов**
***Гянджинский Государственный Университет***
***E-mail: h-ismayil@mail.ru***

**РЕЗЮМЕ**

Природно-географическая территория, на которой расположена Ираванская губерния, в плане рельефа охватывает южную часть Малого Кавказа и ряд плато и высоких равнин с севера на юг к горе Агры. Возвышенности области располагались на севере провинции. Иреванская губерния была окружена с запада Карсской областью, с юга-Эрзурумской областью, северная часть-Гюмрийским плато. Восточная часть плато между горами Безобдал и Пембек граничила с западными границами верхним течением реки Борчалы. Границу Иреванской губернии с Елизаветпольской губернией составлял Зангезурский горный хребет.

**Ключевые слова:** *Иреван, Малый Кавказ, губерния, гора, плато, река, граница.*

**Habil İsmayılov**
***Ganja State University***
***E-mail: h-ismayil@mail***

**SUMMARY**

The natural-geographical territory on which the Irevan province is located covers the southern part of the Lesser Caucasus and a number of plateaus and high plains from north to south to Mount Agra. The highlands of the region were located in the north of the province. The Irevan province was surrounded from the west by the Kars region, from the south by the Erzurum region, and the northern part by the Gyumri plateau. The eastern part of the plateau between the Bezoblal and Pembek mountains bordered the western borders by the upper reaches of the Borchaly River. The border of the Irevan province with the Yelizavetpol province was the Zangezur mountain range.

**Key words:** *İrevan, Less Caucasus, province, mountain, plateau, river, border.*

UOT: 332.1:620.91
https://doi.org/10.30546/3006-0346.2024.6.84.058

# AZƏRBAYCANDA YAŞIL ENERJİYƏ KEÇİD KONTEKSTİNDƏ QARABAĞDA YAŞIL ENERJİ ZONASININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru,UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri*

*E-mail: shafa.aliyev@sdu.edu.az*
*garabagh.iam@unec.edu.az*
*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*

Müasir dövrdə Azərbaycan müstəqil dövlət kimi özünün dinamik inkişaf dövrünü yaşayır və qlobal təşəbbüslərin formalaşdığı güclü ölkəyə çevrilmişdr. COP29-un ilkin nəticələrinə əsaslansaq, qeyd edə bilərik ki, dünya xalqlarını və dövlətlərini narahat edən mürəkkəb problemlərin həllinə ciddi töhfələr vermək mümkündür. Amma, bunun üçün dünya dövlətlərinin səylərini birləşdirmək və daha təsirli tədbirlərin görülməsi üçün səmərəli istifadə etmək vacibdir. COP29-da qlobal iqlim dəyişkiliklərinin mənfi fəsadlarının aradan qaldırılması üçün tələb olunan vacib maliyyə resurslarının konsolidasiyası strateji önəm kəsb etmişdir. İqlim maliyyəsi üzrə ixtisaslaşdırılmış qurumların yaradılması, investisiya və maliyyə mexanizmlərinin hazırlanması, yaşıl enerji üzrə dövlətlər tərəfindən öhdəliklərin götürülməsi, xüsusilə yaşıl enerjinin saxlanılması ilə bağlı öhdəliklərin qəbul edilməsi məsələləri kifayət qədər aktuallıq təşkil etmişdir.

Qeyd edək ki, qlobal iqtisadiyyatda inkişaf proseslərində baş verən transformasiya müasir şəraitdə yeni meyilləri və inkişaf impulslarını şərtləndirir. Yaşıl enerji infrastrukturunun qurulması məsələləri müstəsna əhəmiyyət daşıyır və bu baxımdan dayanıqlı inkişafın əsas prinsiplərinə əsaslanan müvafiq infrastrukturunun yaradılması zərurəti nəzərə alınmaqla, enerji resurslarından səmərəli istifadəyə xüsusi diqqət yetirilir. Belə ki, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mürəkkəb proseslərin, qlobal problemlərin mənfi fəsadları artmaqdadır. Bu istiqamətlərdə ildən-ilə problemlər daha da mürəkkəbləşir və iqlim dəyişikliyinin mənfi nəticələri artır. Eyni zamanda, enerji resurslarının rasional bölüşdürülməsində çətinliklər var, buna görə də yaşıl enerjinin istehsalını və dünya bazarına daxil olmasını təmin etmək vəzifəsi ən yüksək prioritetlik təşkil edir.

Yaşıl enerjinin prioritetliyinin təmin edilməsi əsas götürülməklə, yaşıl iqtisadiyyatın formalaşdırılması, iqtisadiyyatın səmərəli strukturunun yaradılması və mövcud iqtisadi mexanizmlərin təkmilləşdirilməsi məsələləri getdikcə aktuallaşır. Belə problem və məsələlər sırasında resurs potensialından qənaətlə və məhsuldar istifadə problemlərinin həlli, yüksək texnologiyaların, xüsusilə tullantısız texnologiyaların transferinin intensivləşdirilməsi zərurəti daha çox nəzərə çarpır. Bu baxımdan, bu kimi məsələlərin fundamental tədqiqatlarına, sintezinə, müqayisəsinə və ümumiləşdirilməsinə ciddi ehtiyac var. Bundan əlavə, yaşıl enerjinin strukturunun qurulmasının sürətləndirilməsinə və bu istiqamətdə tətbiq edilən mexanizmlərin səmərəliliyinin təmin edilməsinə ciddi ehtiyac vardır.

2050-ci ilə qədər dünya əhalisinin artımının proqnozlaşdırılması məsələlərinə də diqqəti cəlb etmək istərdik. Digər tərəfdən, enerji resursları regionlar və dünya ölkələri arasında qeyri-bərabər bölündüyündən əlavə çətinliklər, problemlər, münaqişələr və s. yaranır. Bunun fonunda enerji təhlükəsizliyi problemləri sürətlə artırr və enerji mənbələrinin şaxələndirilməsi tələb olunur. Məhz bu amil yaşıl iqtisadiyyatın inkişafının intensivləşdirilməsini və ilk növbədə ardıcıl böyük investisiyalar tələb edən zəruri yüksək texnologiyalı yaşıl enerji infrastrukturunun yaradılmasını daha çox şərtləndirir.

Fikrimizcə, dünya ölkələri qlobal enerji problemlərinin həlli üçün daha geniş səylər göstərməli və lazımi tədbirlər görməlidir. Təbii ehtiyatlardan və bərpa olunmayan enerji resurslarından istifadənin daha qənaətcil rejimlərinin (mexanizmlərinin) yaradılması təmin etməlidir. Ölkələr arasında yüksək texnologiyaların transferi və tətbiqi proseslərini dərinləşdirmək və enerji resurslarından səmərəli istifadənin səmərəli mexanizmlərinin işlənib hazırlanmasını təmin etmək lazımdır.

Hesab edirik ki, yaşıl enerji infrastrukturunun yaradılması və həyata keçirilməsinin intensivliyinə baxmayaraq, dünyada ekoloji vəziyyət ildən-ilə pisləşir. Bu amil dünya ölkələrinin yaşıl iqtisadiyyata və xüsusilə yaşıl enerjiyə keçidinin vacibliyini açıq şəkildə göstərir. Məhz qeyd olunan problemlər kontekstində dünyanın əksər ölkələrində yaşıl iqti-

sadiyyat konsepsiyasının təkmilləşdirilməsi və yaşıl enerji infrastrukturunun yaradılması istiqamətində daha intensiv tədbirlər həyata keçirilir.

Fikrimizcə, bu problemlər fonunda davamlı inkişaf konsepsiyasından irəli gələn amillər ön plana çıxır [1]. İlk növbədə, gələcək nəsillərin bu resurslara olan tələbatı nəzərə alınmaqla, ehtiyatlardan qənaətlə istifadə edilməsi, mövcud mexanizmlərin daha səmərəli tənzimləmə mexanizmlərinin və stimullarının işlənib hazırlanması və tətbiqi məsələləri strateji səviyyəyə yüksəlmişdir. Bundan əlavə, dünya ölkələrinin enerji təhlükəsizliyini təmin etmək üçün alternativ yollar axtarması tendensiyaları mövcuddur. Belə olan halda iqtisadiyyatın yaşıllaşdırılması və səmərəliliyi problemlərinin gündəmə gətirilməsi, iqtisadi rejimin yeni mütərəqqi modellərinin yaradılması və tətbiqi istiqamətində dərin elmi tədqiqatların aparılması qaçılmaz proses kimi qiymətləndirilir. Eyni zamanda, elmi tədqiqatların nəticələrinin iqtisadiyyatın müxtəlif seqmentlərində səmərəli tətbiqinə nail olunması mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, müasir dövrdə artan iqtisadi tələbat şəraitində yaşıl enerji mənbələrindən məhsuldar istifadə olunması böyük əhəmiyyət kəsb edir. Son onilliklərdə bəşəriyyət daha çox dərk etmişdir ki, kömür, neft və təbii qaz kimi qalıq yanacaqların yandırılması idarəolunmaz hala gələn irimiqyaslı qlobal problemlərə səbəb olmuşdur. Bunlarla bağlı bir qrup məsələləri xüsusi fərqləndirmşik:

- Müasir enerji mənbələri tükənmiş təbii ehtiyatlardan əldə edilir. Anlaşılır ki, nisbətən yaxın gələcəkdə təbii ehtiyatların qıtlığı yaranacaq, nəticədə gələcək nəsillər enerji istehsalında və əhalinin həyat qabiliyyətinin təmin edilməsində çətinliklərlə üzləşəcək.
- Enerjinin aktiv inkişafı nəticəsində ətraf mühitin çirklənməsi problemi daha da güclənir. Amma yaşıl enerji ətraf mühitə dəyən ziyanı minimuma endirir və bununla da qlobal problemin mənfi nəticələrini azaldır.
- Hazırkı bərpa olunmayan enerji resurslarının dəyəri daim dəyişir, dünyada və qlobal iqtisadiyyatda çətinliklər yaradır. Bununla belə, yaşıl enerji sabit qiymətlərin saxlanmasına kömək edə bilər, çünki bərpa olunan enerji mənbəyinin yaradılması ilə bağlı ilkin xərclərdən sonra, bu mənbənin saxlanması və istismarı xərcləri çox vaxt qalıq yanacaqların istifadəsindən daha aşağı olur.

Digər tərəfdən, yaşıl enerji ölkədə enerji təhlükəsizliyi, davamlı inkişaf və sosial, texnoloji və sənaye innovasiyaları üçün katalizator rolunu oynaya bilər. Yaşıl enerji istehlakının artırılması onun iqtisadi və sosial inkişafına müsbət təsir göstərir [2, s. 157]. Üstəlik, enerji sənaye və texnoloji inkişafda mühüm rol oynadığından, dünyada qlobal sabitlik üçün ucuz, təmiz yanacağın tədarükü və istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan həyatın bütün sahələrinə, o cümlədən milli iqtisadiyyatların sabit inkişafına müsbət təsir göstərə biləcək bərpa olunan enerji mənbələrindən istifadəyə ehtiyac vardır. Fikrimizcə, iqtisadi sahədə yaşıl enerjinin inkişafı bir qrup məsələlərin həllinə müsbət təsir göstə bilər: 1. İş yerlərinin sayının artırılması və məşğulluq probleminin yüngülləşdirilməsi. 2. İstehlak xərclərinin azaldılması və daha çox resursların yaradılması. 3. Başqa ölkələrdən idxal olunan qalıq yanacaqlardan asılılığın aradan qaldırılması və 4. Yaşıl enerji təkcə qlobal problemlərin həlli deyil, həm də sahibkarlıq subyektlərinin, biznes subyektlərinin və əhalinin iqtisadi fəallığının stimullaşdırılması vasitəsidir.

Bunlarla bərabər, hesab edirik ki, ətraf mühitin çirklənməsi problemini həll etməyə kömək edəcək ekoloji cəhətdən təmiz, yəni yaşıl enerji potensialı yaratmaq məntiqlidir. Bu faktlar satış və istehlak sahələrini stimullaşdırmağa kömək edir. “Elektrik enerjisinə olan tələbatı tam ödəyə bilən yaşıl enerji mənbəyi yaradılmayana qədər, hətta bəşəriyyət bunun ətraf mühitə düzəlməz ziyan vurduğunu başa düşsə belə, qalıq yanacaqların yandırılmasını dayandıra bilməyəcək” [3, s. 371]. Hazırda tədqiqatçılar və ekspertlər getdikcə daha çox yeni təmiz və dayanıqlı enerji mənbələrinin formalaşdırılması mexanizmlərinin tədqiqi və inkişafı ilə məşğul olurlar, bu isə o deməkdir ki, qalıq yanacaqlar tezliklə daha ekoloji cəhətdən təmiz resursla əvəz olunacaq.

Qeyd edək ki, Azərbaycan 2050-ci ilə qədər istixana qazlarının tullantılarını 40% azaltmağı öhdəsinə götürüb. Bundan əlavə, 2030-cu ilə qədər ümumi enerji resurslarının strukturunda bərpa olunan enerjinin payının 30%-ə çatdırılması nəzərdə tutulur. Azərbaycan qlobal kontekstdə 1,5°C temperatur həddini təmin etmək üçün zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı ciddi və uzunmüddətli öhdəliklər götürüb. Azərbaycanda bu konseptual istiqamətlər üzrə daimi və ardıcıl tədbirlər həyata keçirilir [4].

Bunlarla yanaşı, Azərbaycan 2027-ci ilə qədər Avropa bazarına çıxarılacaq təbii qazın həcmini 20 milyard m3-ə çatdırmağı planlaşdırır. Eyni zamanda, ölkənin müxtəlif bölgələrində alternativ enerji mənbələri üçün infrastrukturun yaradılmasına başlanılıb. 2037-ci ildə isə 6 GVt bərpa olunan enerji istehsal

oluna bilər. Prezident İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimində qeyd etmişdir ki: "İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir. Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır" [5].

Eyni zamanda, Azərbaycan Qazaxıstan və Özbəkistanla birlikdə yaşıl enerji infrastrukturunun yaradılması istiqamətində birgə layihələr həyata keçirəcəklər. Azərbaycan bir qrup dünya ölkələri ilə birlikdə yaşıl enerji layihələrinin maliyyə mexanizmlərinin hazırlanmasında fəallığını artırmışdır. Digər mühüm məsələ isə postkonflikt ərazilərin canlandırılması proseslərində yaşıl iqtisadiyyat strukturunun formalaşdırılması və yaşıl enerji infrastrukturunun yaradılması ilə bağlıdır. "Yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaşıl enerji potensialının formalaşdırılması və artırılması baxımından böyük resurslara malikdir" [6, s. 68.]. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə inkişaf layihələri əsasən 2040-cı ilə qədər prioritetləri əhatə edir. Xüsusilə, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması ilə bağlı Birinci Dövlət Proqramının vəzifələrindən irəli gələn cari məsələlər nəzərə alınmaqla, bu iqtisadi rayonlarda yaşıl enerji potensialının formalaşdırılması və artırılması perspektivləri getdikcə daha cəlbedici olur. İşğaldan azad olunmuş ərazilər ümumilikdə yaşıl enerji zonası elan olunmuşdur və bununla bağlı məqsədli fəaliyyət proqramı formalaşdırılmışdır. Yaşıl enerji layihələri ölkəmizin enerji resursları istehsalı strukturunun təkmilləşdirilməsinə ciddi töhfə verəcəkdir [7]. Digər tərəfdən, müasir qlobal təhdidlərin artdığı bir şəraitdə yaşıl enerjinin inkişafı ölkənin milli və iqtisadi təhlükəsizliyinin maksimum prioritet vəzifələrindən biri kimi xarakterizə olunur [8].

## YEKUN

Yaxın perspektivdə qlobal çağırışlar kontekstində Azərbaycanda yaşıl enerjiyə keçidin prioritet vəzifələrinin reallaşdırılması və fəaliyyət istiqamətlərinin səmərəli mexanizmlərinin hazırlanması məqsədilə bir qrup amillərin ciddi şəkildə nəzərə alınmasını vacib hesab edirik:

• İri və perspektivli yaşıl enerji infrastrukturunun yaradılması üçün başlanmış investisiya layihələrinin miqyasının genişləndirilməsi və ölkənin bütün regionlarında analoji infrastrukturun yaradılması istiqamətində layihələrin həyata keçirilməsi vacibdir;

• Qarabağ iqtisadi rayonunda yaşıl enerji potensialının əsaslı şəkildə öyrənilməsi, resursların və bununla əlaqədar ehtiyatların optimal qiymətləndirilməsi təmin olunmalıdır;

• Qarabağ iqtisadi rayonunda su ehtiyatlarından, kiçik çaylardan və xüsusilə, ilboyu sulu olan çaylardan səmərəli istifadə edilməsi üzrə ayrıca fəaliyyət strategiyası və daha dəqiq desək, dövlət proqramının hazırlanmasına ehtiyac vardır və bununla əlaqədar olaraq 2030-cu ilədək olan dövrdə Qarabağ iqtisadi rayonunda su-elektrik stansiyasiyları şəbəkəsinin genişləndirilməsi üzrə xüsusi dövlət proqramının hazırlanması və həyata keçirilməsi məqsəduyğundur;

• Ölkəmizdə yaşıl enerji konsepsiyasının həyata keçirilməsi proseslərinin daha səmərəli təşkili məqsədilə, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və beynəlxalq səviyyəli tələblərə cavab verən ixtisaslaşdırılmış "Yaşıl Enerji Korporasiyası"nın yaradılmasını təklif edirik və s.

**Açar sözlər:** *Azərbaycan, yaşıl enerji, yaşıl iqtisadiyyat, yaşıl enerji potensialı, yaşıl enerji infrastrukturu, yaşıl enerjinin inkişaf perspektivləri, Qarabağ, Qarabağ iqtisadi rayonu.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ələkbərov, U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları: dərslik / U.K. Ələkbərov; red. A. Əlizadə. – Bakı: Təhsil, 2017. – 176 s.*

*2. Ташкеева, Е. Е. Возобновляемые источники энергии в рамках концепции "зеленой" экономики*

/ Е. Е. Ташкеева // Modern Science. – 2020. – № 6-3. – С. 156-159.

3. Худотеплова, К.И. Развитие «зеленой энергетики»/ К.И. Худотеплова// За нами будущее: взгляд молодых ученых на инновационное развитие общества: Сборник научных статей 3-й Всероссийской молодежной научной конференции. В 3-х томах, Курск, 03 июня 2022. – С. 369-372.

4. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam, Bakı, 25 dekabr 2023-cü il.

5. Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimində İlham Əliyevin nitqi. 12 noyabr 2024. https://president.az/az/articles/view/67324.

6. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – S. 67-72.

7. Aliyev S., Gulaliyev, M., Purhani, S., Mehdiyeva, G., & Mustafayev, E. Comparative Assessment of Energy Security Level: The Case of the South Caucasus Countries. // International Journal of Energy Economics and Policy. 2024. №14(1). pp.651-662. - https://doi.org/10.32479/ijeep.149.

8. Прудников И.А., Ротарь А.М. Зеленая энергетика и ее роль в системе обеспечения безопасности государства. Путеводитель предпринимателя. 2021, Том 15 № 1, с.84-90.

**ШАФА АЛИЕВ,**
***Профессор Сумгаитского Государственного Университета, д.э.н.***
***Руководитель Центра Исследования Экономики Карабаха UNEC.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***E-mail: garabagh.iam@unec.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***

**Перспективы развития зеленой энергетики в Карабахе в контексте перехода на зеленую энергетику в Азербайджане**

**РЕЗЮМЕ**

В статье рассмотрены концептуальные принципы и направления перехода к зеленой энергетике в контексте глобальных вызовов в Азербайджане. Объяснены проблемы добычи и распределения энергоресурсов на глобальном уровне. Обоснована абсолютная важность создания зеленой энергетической инфраструктуры. Проанализированы возможности потенциала зеленой энергетики в Азербайджане. На освобожденных территориях отмечен приоритет развития зеленой энергетической инфраструктуры. Рассмотрены проблемы расширения инфраструктуры альтернативных и возобновляемых источников энергии. Даны рекомендации и предложения по активизации перехода Азербайджана на зеленую энергетику с учетом ближайшей и отдаленной перспективы.

**Ключевые слова:** *Азербайджан, зеленая энергетика, зеленая экономика, потенциал зеленой энергетики, инфраструктура зеленой энергетики, перспективы развития зеленой энергетики, Карабах, Карабахский экономический регион.*

**SHAFA ALIYEV,**
***Professor at Sumgait State University.***
***Head of the UNEC Centre for Karabakh Economic Research.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***E-mail: garabagh.iam@unec.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***

**Prospects for the development of green energy in Karabakh in the context of the transition to green energy in Azerbaijan**

**SUMMARY**

The article investigates the conceptual principles and directions of the transition to green energy in Azerbaijan in the context of global challenges. The problems of production and distribution of energy resources at the global level are explained. The absolute importance of creating a green energy infrastructure is substantiated. The possibilities of green energy potential in Azerbaijan are analysed. The priority of green energy infrastructure in the liberated territories is noted. The problems of developing the infrastructure of alternative and renewable energy sources are considered. Recommendations and suggestions are made to intensify Azerbaijan's transition to green energy, taking into account the near and far perspectives.

**Keywords:** *Azerbaijan, green energy, green economy, green energy potential, green energy infrastructure, green energy development prospects, Karabakh, Karabakh economic region.*

UOT 33
https://doi.org/10.30546/3006-0346.2024.6.84.060

# ÖLKƏMİZDƏ İQTİSADİYYATA İNVESTİSİYA YATIRIMLARININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİNİN TƏHLİLİ

**ELNURƏ MƏMMƏDOVA**
*Azərbaycan Kooperasiya Universiteti*
*İqtisad elmləri doktoru*
*E-mail: mammadova-e@list.ru*
*ORCID: https://orcid.org/0000-0003-2721-5733*

## Giriş

XX əsrin sonlarında neft hasilatı ilə irəliləyiş, eyni zamanda iqtisadiyyatın digər sahələrinin inkişafına da təsir göstərmişdir. Bakıda neftin işləndiyi və hasilatının aparıldığı sənaye sektorunun durumu bir çox digər sənaye sahələrinin gələcək inkişafında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə neft sənayesinin, texnika və avtomobil, eləcə də kimya sənayesinin də əhəmiyyətli dərəcədə inkişaf etdiyi müşahidə olunur. Bu proses Azərbaycanın iqtisadi sisteminin dəyişməsi və müasir sənaye infrastrukturunun formalaşmasında müstəsna rol oynamışdır.

Zaqafqaziyada yerləşən fabrik və zavodlar, istehsal olunan sənaye məhsullarının əksəriyyətinin Azərbaycan tərəfinə aid olmasına görə, bu bölgənin sənaye potensialını nümayiş etdirirdi. O dövr ərzində Azərbaycan, Rusiya imperiyasında mühüm bir sənaye mərkəzi olaraq ön planda idi. Müxtəlif istehsal sahələrində, Rusiya imperiyasında istehsal olunan neftin 74,6%-ni, pambıq lifinin 10%-ni, balığın 9%-ni, xam ipin 8%-ni və elektrik enerjisinin 6%-ni Azərbaycan istehsal edirdi. Bu faktlar Azərbaycanın sənaye sahəsindəki gücünü və əhəmiyyətini açıq şəkildə ortaya qoyurdu.

XX əsrin ilk onilliyində Azərbaycanın istehsal müəssisələri Rusiya imperiyası üzrə ümumi fabrik-zavod məhsullarının 5%-ni təşkil edirdi. Bu müəssisələrdə çalışan işçilər isə ölkə əhalisinin 8%-ni əhatə edirdi. Azərbaycanın sənaye sektoru, ərazisinin və əhalisinin kiçik olmasına baxmayaraq, qeyri-adi bir inkişaf tempini nümayiş etdirirdi. Xüsusilə, Bakıdakı neft sənayesinin inkişafı milli burjuaziyanın formalaşmasına və kapitalist münasibətlərinin genişlənməsinə təkan vermişdir.

**Müstəqillik bərpa olunduqdan sonra ölkəmizdə investisiya prosesləri.** 1991-1994-cü illər arasında, müstəqillik bərpa olunduqdan sonra Azərbaycanda siyasi və iqtisadi çöküş yaşandı, sosial və iqtisadi problemlər dərinləşdi. 1992-ci ildə iqtisadiyyatdakı mənfi gedişat ən kritik səviyyəyə çatdı. 1992-1994-cü illər arasında ÜDM iki dəfədən çox azalaraq, 1991-ci ilin 52%-nə düşdü. 1990-1994-cü illərdə isə ÜDM hər il ortalama 13-20% azalaraq, 1994-cü ildə 1629,3 milyon dollar təşkil etdi.

Dövlət başçısı Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası iqtisadiyyatının gücləndirilməsi üçün strateji bir investisiya layihəsi hazırlandı və bu planın əsas məqsədi neft sektorunun önəmini artırmaq idi. 1994-cü ilin 20 sentyabrında Azərbaycan Respublikası dünyanın ən böyük neft şirkətləri ilə, Amerikanın “Amoco”, “Unocal”, “Pennzoil”, “McDermott”, Böyük Britaniyanın “British Petroleum” və “Ramco”, Norveçin “Statoil”, Rusiyanın “Lukoil”, Türkiyənin “Türkiye Petrolleri” və Səudiyyə Ərəbistanının “Delta” şirkətləri arasında “Əsrin müqaviləsi”ni imzaladı. 1997-ci ildə 9 milyon ton neft hasil edilərkən, 1998-ci ildə bu rəqəm 11,4 milyon tona, 1999-cu ildə isə 13,8 milyon tona çatdı. 2000-ci ildə isə 14,5 milyon ton neft hasil edildi.

17 aprel 1999-cu ildə Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Supsa ixrac terminalı açıldı. Bu kəmərin uzunluğu 850 kilometrdir və illik buraxılış tutumu 5 milyon ton təşkil edir. “Çıraq” yatağından hasil olunan neft “Azəri Light” adı ilə Supsa limanından dünya bazarlarına ixrac edilməyə başlanıldı. Bu, Azərbaycanın şimal deyil, qərb istiqamətində neft ixracına başlaması baxımından əhəmiyyətli layihələrdən biridir. Həmçinin, İstanbulda 18 noyabr 1999-cu ildə Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl “Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə arasında Bakı-Tbilisi-Ceyhan Boru Kəməri ilə nəql edilməsi barədə” saziş imzaladılar [2].

1970-ci illərdə Azərbaycan SSR-də sənayenin əsas istehsal fondlarının 70%-i, istehsal olunan məhsulun isə yalnız 40%-i yanacaq, energetika, metallurgiya və kimya sahələrinə məxsus idi. Bu dövrdə yanacaq sənayesi ümumi sənaye məhsulunun yalnız 22%-ni təmin etməsinə baxmayaraq, mühüm bir rol oynayırdı və bu sahəyə yatırımlar əhəmiyyətli dərəcədə yönəldilirdi. Bu sektora edilən kapital yatırım-

larının 50%-dən çoxu isə sənaye sektorunun ümumi kapital yatırımlarının tərkibində yer alırdı [1].

Müstəqilliyini yenidən qazanmış Azərbaycan, çətinliklərə baxmayaraq, sosial-iqtisadi inkişafın dinamik mərhələsinə daxil olaraq əhəmiyyətli nailiyyətlər əldə etmişdir. Bu dövrdə yeni siyasi və iqtisadi strukturların yaradılması sürətli inkişafa şərait yaratmışdır. İqtisadiyyatın əsas sahələrində baş verən dəyişikliklər, satış bazarlarının tərkibinin dəyişməsi, istehsalın mərkəzləşdirilməsi, maliyyə ehtiyatlarının düzgün idarə edilməsi və bölüşdürülməsi mexanizmlərinin formalaşması, eləcə də qiymətlərin sərbəstləşdirilməsi kimi islahatlar sənaye sektorunun daha rəqabətli və effektiv inkişafına imkan vermişdir. Nəticədə, sənaye sektoru bazar münasibətləri əsasında daha dinamik və inkişaf etmiş bir vəziyyət almışdır. “Postsovet ölkələrində yaşıl iqtisadi artım göstəriciləri ilə investisiya xərcləri arasında statistik əhəmiyyətli əlaqənin olmaması dövlət idarəçiliyindəki əsas sistem problemləri və strateji investorların bu ölkələrə investisiya qoymasına ciddi maneə törədən fiskal, pul və investisiya siyasətindəki çatışmazlıqlarla bağlıdır. Kapital itkisi və ya ilkin investisiyanın dəyərinin azalması riskinin yüksək olması səbəbindən, investorların yaşıl iqtisadiyyatın artım göstəricilərini təmin etmək üçün bu investisiya kəmərindən istifadə etməsi mümkün deyildir. Əksinə, yuxarıda qeyd olunan maneələri nəzərə alaraq, institusional transformasiya təkcə tez əlavə mənfəət əldə etməkdə deyil, həm də alıcı ölkədə yaşıl iqtisadi artımı təşviq etməkdə maraqlı olan investorlardan ölkəyə yüksək keyfiyyətli kapital axınına səbəb ola bilər ” [4].

Azərbaycanın iqtisadi və siyasi həyatında enerji sektorunun rolu tədricən daha da artır. Son dövrlərdə bu sahənin inkişafı ilə əldə olunan iqtisadi nailiyyətlər, beynəlxalq neft şirkətlərinin ölkəyə cəlb olunması və neft hasilatının yüksəlməsi ilə sıx bağlıdır. Bu proses zəngin enerji resurslarının daha effektiv istifadəsini təmin edir və xarici investisiyaların axınına şərait yaradır. Neft sektorunun genişlənməsi ölkənin iqtisadiyyatının daha da çoxşaxəli olmasına, gəlirlərin artmasına və iqtisadi inkişafın sürətlənməsinə imkan tanıyır. Nəticədə, Azərbaycanın enerji sahəsindəki strateji mövqeyi güclənir və beynəlxalq miqyasda daha təsirli bir aktora çevrilir. Neft və qaz istehsalındakı irəliləyişlər, müasir standartlara uyğun olaraq, sosial-iqtisadi rifahın artmasına və müdafiə qabiliyyətinin gücləndirilməsinə kömək edir. Bu sahənin inkişafı yeni iş imkanlarının yaradılması, texnoloji yeniliklərin tətbiqi, infrastrukturun modernləşdirilməsi və istehsalatın artırılması ilə birləşir. Eyni zamanda, yüksək texnologiyalı neft-qaz sektoru ixtisaslaşmış iş qüvvəsinin yetişdirilməsini tələb edir, buna görə də təhsil və peşə hazırlığına sərmayələrin artırılması xüsusi önəm daşıyır.

Neft-qaz sektorunun inkişafı ölkədə iqtisadi artımın təşviqinə və sosial proqramların maliyyələşdirilməsinə yardım edir. Bu, əhalinin həyat səviyyəsinin yüksəlməsinə və sosial xidmətlərin, əsas infrastrukturun təminatına daha geniş imkanlar açır. Bununla yanaşı, neft-qaz sektorunun genişlənməsi ölkənin müdafiə gücünün artırılmasına da dəstək verir. Neft və qaz sənayesindən əldə olunan gəlirlərin artması, müasir hərbi sistemlərin inkişafına, müdafiə sektorunun gücləndirilməsinə və strateji təhlükələrdən qorunmaq üçün daha yüksək təhlükəsizlik tədbirlərinə sərmayə qoymağa imkan tanıyır.

“Bakı-Tbilisi-Ceyhan” neft kəməri dünya miqyasında misilsiz bir mühəndislik nümunəsidir. Uzunluğu 1762 kilometr olan boru kəmərinin 443 kilometri Azərbaycandan, 249 kilometri Gürcüstandan və 1070 kilometri Türkiyədən keçərək fəaliyyət göstərir. “Bakı-Tbilisi-Ceyhan” nəqliyyat vasitəsi Şərq-Qərb enerji dəhlizinin ən mühüm komponentlərindən biridir. Bu boru kəməri dünya iqtisadiyyatının əhəmiyyətli bir hissəsi olaraq, tranzit ölkələrinin iqtisadi inkişafını və enerji təhlükəsizliyini təmin etməkdə əsas rola malikdir.

Bakı-Novorossiysk (1330 kilometr), Bakı-Supsa (833 kilometr) və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərləri (1768 kilometr) Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına çıxarılması üçün ən vacib nəql yollarıdır. Azərbaycan hökuməti SOCAR, BP, Chevron, IMPEX, Statoil, Exxon Mobil, TP, ITOCHU və ONGC Videsh şirkətlərinin rəsmiləri ilə saziş imzalamışdır. Layihədə BP operator kimi davam edir, SOCAR-ın payı 11%-dən 25%-ə yüksəlmiş və mənfəət neftinin 75%-i Azərbaycana qalır.

31 dekabr 2020-ci ildə Azərbaycanın TAP kəməri vasitəsilə Avropa bazarlarına təbii qaz nəqlinə başlanılıb. Bu, Azərbaycanın qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına çatdırılmasını tam şəkildə təmin etdi. “Qarabağ” yatağı 2020-ci ildə kəşf edilərək müstəqil Azərbaycanın neft sənayesinin inkişafında yeni bir mərhələ yaratmışdır. “Azəri-Çı-

raq-Günəşli" yataqlar blokundan 546 milyon ton neft hasil edilmiş və 41 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr, proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr olaraq qiymətləndirilir.

Azərbaycanın neft-qazçıxarma sənayesinin gələcək inkişafı ölkə iqtisadiyyatının dünya təsərrüfatına daha da inteqrasiya olunmasına, müstəqilliyin, suverenliyin, dövlətçiliyin və milli təhlükəsizliyin güclənməsinə təsir edəcəkdir. Bu proses investisiya axınının genişlənməsinə və beynəlxalq arenada Azərbaycanın gücünün artmasına gətirib çıxaracaq. Eyni zamanda, bu addımlar iqtisadiyyatın müxtəlifləşdirilməsinə və digər sektorlara dəstək verəcək, Azərbaycanın enerji sahəsindəki liderliyini daha da möhkəmləndirəcək və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artıracaqdır.

Neft-qaz sektorunun inkişafı gəlirin artmasına və sosial proqramların maliyyələşdirilməsinə kömək edir, əhalinin yaşam standartlarının yaxşılaşdırılmasına və sosial təminatın yüksəlməsinə imkan yaradır. Eyni zamanda, bu sektor müdafiə qüdrətinin güclənməsinə, müasir silah və hərbi təchizat sistemlərinin təkmilləşdirilməsinə imkan verir.

2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda fəaliyyət göstərən müəssisələr, təşkilatlar və fərdi sahibkarlar tərəfindən 110,2 milyard manat dəyərində məhsul istehsal olunmuşdur. Bu, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8% artım deməkdir. Neft-qaz sektorunda istehsal olunan əlavə dəyər 1,6% azalarkən, qeyri-neft-qaz sektorunda 3,2% artım olmuşdur. Ümumi istehsalın 41,2%-i sənaye, 9,9%-i ticarət, 5%-i tikinti, 1,7%-i informasiya və rabitə sahələrində olmuşdur.

2023-cü ilin yanvar-noyabr aylarında sənaye müəssisələri və fərdi sahibkarlar tərəfindən 608 milyard manat dəyərində sənaye məhsulu istehsal edilmişdir. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1% azdır. Digər sahələrdə məhsulun payı aşağıdakı kimidir:

- elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı – 4,5%;

- su təchizatı, tullantıların təmizlənməsi və emalı – 0,8%.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,5% azalarkən, əmtəəlik qaz hasilatı 4,3% artmışdır.

Xarici ticarət dövriyyəsi 2022-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə faktiki qiymətlərlə 19,9% azalıb, real ifadədə isə 4,6% azalıb. İdxal real ifadədə 4,6% artmış, ixrac isə 7,7% azalmışdır. 2023-cü ilin yanvar-oktyabr aylarında qeyri-neft-qaz məhsullarının ixracı faktiki qiymətlərlə 11,1%, real ifadədə 6,2% artaraq 2,712,5 milyon dollar təşkil etmişdir.

2023-cü ilin yanvar-oktyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2022-ci ilə nisbətdə 11,3% artaraq 921,1 manata çatmışdır. Yanvar-noyabr dövründə əhalinin nominal gəlirləri 12,8% artaraq 70,2 milyard manat olmuşdur. Dövlət büdcəsinə 29,642,0 milyon manat vəsait daxil olmuş, 29,155,2 milyon manat isə xərclənmişdir.

2024-cü ildə Azərbaycanın ÜDM təxminən 118,4 milyard manat (təxminən 69,6 milyard ABŞ dolları) olaraq proqnozlaşdırılır və bu, baza ssenarisinə görə 2,4% artım deməkdir. Qeyri-neft ÜDM artımı isə 4,6% olaraq gözlənilir. Azərbaycanın iqtisadiyyatı əsasən neft və qaz sektorlarından asılıdır və bu, ÜDM-in əhəmiyyətli bir hissəsini təşkil edir. Bu təbii resurslara olan asılılıq Azərbaycanı dünyadakı ən çox fosil yanacaqdan asılı iqtisadiyyatlar arasına daxil edir.

Müqayisə üçün, 2023-cü ilin əvvəlində dünyanın inkişaf etmiş ölkələrindən olan ABŞ-ın ÜDM-i təxminən 25,46 trilyon dollar idi. ABŞ iqtisadiyyatı geniş bir sənaye bazası, texnoloji inkişaf və maliyyə sektorları ilə tanınır. Almaniya isə dünyanın digər inkişaf etmiş ölkələrindən biri olub, 2023-cü ildə ÜDM-i təxminən 4,85 trilyon ABŞ dolları idi. Almaniya güclü sənaye sektoru, istehsal və mühəndislik sahələri ilə diqqət çəkir.

**İnvestisiya mühiti üzrə iqtisadi göstəricilər: inflyasiya, işsizlik, mübadilənin yaxşılaşdırılması**. Bir ölkənin iqtisadi inkişafını müəyyən etmək üçün istifadə olunan müxtəlif statistik göstəricilər vardır. Bu göstəricilər arasında inflyasiya, işsizlik və mübadilə nisbəti xüsusi əhəmiyyətə malikdir. Onlar ölkənin ümumi iqtisadi vəziyyətini və iqtisadi siyasətin effektivliyini qiymətləndirmək üçün vacibdir.İnflyasiya, bir ölkədə mal və xidmətlərin qiymətlərindəki ümumi artımı təsvir edir. İnflyasiya miqdarı adətən illik olaraq göstərilir və ölkədəki alıcı qüvvəsinin dəyişməsini ədədi şəkildə ifadə edir. Orta və uzunmüddətli yüksək inflyasiya alıcı qüvvəsinin azalmasına və iqtisadi planlamanın çətinləşməsinə səbəb ola bilər. İşsizlik bir ölkədə əmək bazarındakı insanların iş tapmağa nail olmamaları və ya iş axtarmağa davam etmələri ilə əlaqələndirilir. İşsizlik miqdarı işsiz

şəxslərin ümumi işgücü cəmiyyətinə nisbəti olaraq göstərilir. Yüksək işsizlik sosial və iqtisadi çətinliklərə səbəb ola bilər və bir ölkənin iqtisadi artımının yavaşlamasına gətirib çıxara bilər. Mübadilə nisbəti bir ölkənin valyuta vahidinin başqa bir valyutaya nisbətini təsvir edir. Mübadilə nisbəti xarici ticarət və ölkənin iqtisadi inkişafı üçün əhəmiyyətli bir göstəricidir. Mübadilə nisbəti ölkənin xarici valyuta ehtiyaclarının qarşılamasına və dövlət büdcəsində xarici valyutanın roluna təsir edir.

**İşsizlik Probleminin Kateqoriyaları.** İşsiz insanlar üç əsas kateqoriyaya bölünə bilər:

İşsizlər: iş axtaran və iş tapmayan insanlar;

Yeni İş Axtaranlar: yeni bir iş tapmaq üçün aktiv olaraq iş axtaran insanlar;

Qeyri-işləyənlər: işdə olmayan və iş axtarmayan insanlar.

**İşsizliklə Mübarizə Nəzəriyyələri.** Maltusçuluq Nəzəriyyəsi. İşsizliyi əhali artıqlığı ilə izah edir və əhali artımının iqtisadi tənəzzül və işsizliyə səbəb olduğunu iddia edir.

Texnoloji Nəzəriyyə. Texnoloji tərəqqinin işlərə olan tələbi azaltdığını və bu səbəbdən işsizliyin artdığını irəli sürür.

Marksist Nəzəriyyə. Kapitalizmin daimi olaraq işsizliyi artırdığını və işsizliyin kapitalizmin təbiətində olduğunu iddia edir.

Keyns Nəzəriyyəsi. Bazar tələbinin kifayət qədər olmamasının işsizliyin əsas səbəbi olduğunu göstərir. Azad sahibkarlıq məktəbi işsizliyi əsasən iş haqqının yüksək olması ilə izah edir və tələb-təklif qanunlarına əsaslanır. İşsizlik probleminin həlli üçün fərqli yollar və siyasətlər mövcuddur və bunlar iqtisadiyyat və sosial mühitin əsas parametrlərindən biridir.

Friksion işsizlik, işçilərin iş yerlərini dəyişdiyi zaman müvəqqəti olaraq işsiz qalmaları ilə bağlıdır. Bu prosesdə işçilər yeni bir iş tapmaq üçün vaxt və resurs sərf etməli, işəgötürənlər isə uyğun namizədləri tapmaq üçün zaman və səy göstərməlidirlər. Friksion işsizlik normal bir vəziyyətdir və iqtisadi sistemdə iş gücünün daimi hərəkətliliyini göstərir. İşçilər daha yaxşı iş şəraiti axtara bilər və bu müddətdə işsiz qala bilərlər.

Struktur işsizlik, iqtisadi strukturlarda dəyişikliklər, texnoloji inkişaf və sektor dəyişiklikləri səbəbindən yaranır. Bu işsizlik növü daha daimi və qarışıqdır, çünki işçilərin bacarıqları və təcrübələri artıq tələb olunmayan sahələrdə işsiz qalmalarına səbəb olur. Struktur işsizliklə mübarizə üçün təhsil və təlim proqramları, işçilərin bacarıqlarının yenilənməsi və sənayenin dəyişikliklərə uyğunlaşması kimi müxtəlif tədbirlər görülə bilər.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bir sıra çətinliklərlə üzləşmişdir. Bu problemlər arasında Ermənistanın hərbi təcavüzü, Sovet dövründə yaradılmış iqtisadi potensialın istifadəsiz qalması, büdcə problemi, pul-kredit siyasəti və inflyasiyanın təsiri qeyd edilə bilər. Bu çətinliklər əhalinin maddi vəziyyətinin aşağı səviyyədə olması və orta təbəqənin yoxluğu ilə nəticələnmişdir.

2023-cü ilin iyul ayına olan məlumata görə, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 224,3 min nəfər olmuşdur. Bunların 4 milyon 934,5 min nəfəri məşğul, 289,8 min nəfəri (5,5%) isə işsizdir. Muzdla çalışan işçilərin sayı isə 2023-cü ilin iyun ayında 1 milyon 726,3 min nəfər idi. Dövlət sektorunda 898,6 min nəfər, qeyri-dövlət sektorunda isə 827,7 min nəfər çalışırdı.

Son illərdə Azərbaycan Mərkəzi Bankının əsas məqsədi inflyasiyanın azaldılması ilə bağlı fəaliyyətdir. 2023-cü il üçün pul siyasətinin əsas istiqamətləri haqqında yayımlanan Bəyanatda qiymət sabitliyinin təmin edilməsi önəmli hədəf kimi qeyd olunub. Mərkəzi Bank pul siyasəti qərarlarının illik inflyasiya göstəricilərinin dinamikası ilə bağlı olacağını vurğulayır. İnflyasiyanın hədəfə yaxınlaşdığı zaman monetar şəraitin dəyişilməz saxlanması və yumşaldılması imkanları nəzərdən keçirilir. Bu addımlar Azərbaycanın iqtisadi inkişafını və işsizliklə mübarizəni dəstəkləmək baxımından əhəmiyyətlidir. Neft sektorundan asılı olmayan iqtisadiyyatın inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinin yeni prinsiplərlə qurulması, vergi, büdcə, pul-kredit, investisiya və xarici iqtisadi əlaqələrin yenilənməsi də bu prosesdə mühüm rol oynayır.

2022-2023-cü illər dünya iqtisadiyyatı üçün geosiyasi və geoiqtisadi gərginliklərin, inflyasiya təzyiqlərinin, aparıcı ölkələrdə iqtisadi daralmanın və bir çox ölkələrdə monetar siyasətin sərtləşdirilməsi ilə xarakterizə olunmuşdur. Bu müddətdə Azərbaycanda da pul-kredit siyasətinin sərtləşdirilməsi həyata keçirilmişdir. Mərkəzi Bank inflyasiyanın əsas ticarət tərəfdaşlarındakı inflyasiya proseslərindən və xarici mənşəli xərc amillərindən təsirləndiyini vurğulamışdır. İnflyasiya təzyiqlərinin artması şəraitində məcmu tələbin izafi genişlənməsinə mane olmaq

və milli valyutada yığımları dəstəkləmək məqsədilə pul siyasətinin sərtləşdirilməsinə önəm verilmişdir. Mərkəzi Bank faiz dəhlizinin mərhələli olaraq artırılması ilə bağlı qərarlar qəbul etmişdir. 2023-cü ilin sentyabrında illik inflyasiyanın hədəf diapazonuna daxil olması gözlənilirdi. 2023-cü ilin sentyabrında illik inflyasiya 2022-ci ilin eyni dövrünə nisbətən 5,1% təşkil etmişdir. Bu göstərici Mərkəzi Bankın müəyyənləşdirdiyi hədəf diapazonuna (4%±2%) daxil olmaqla, inflyasiyanın istənilən səviyyədə olduğunu göstərir. Sentyabrda illik inflyasiyanın 2%-lik bəndi ərzaq məhsullarına, 1,4%-lik bəndi qeyri-ərzaq məhsullarına və 1,7%-lik bəndi isə xidmətlərin qiymət və tariflərinə dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər nəzərə alınaraq, Mərkəzi Bank sentyabrın 20-də keçirilmiş iclasında faiz dəhlizinin parametrlərini dəyişdirməməyə qərar vermişdir. Mərkəzi Bankın maliyyə sektorunun dayanıqlı maliyyəyə keçid prosesini nəzərdə tutan və 2023-2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi təsdiq edilmişdir. Bu yol xəritəsi maliyyə institutlarının iqtisadi, sosial və ekoloji dəyişikliklər və digər ekoloji, sosial və idarəetmə amillərindən yaranan risklərə qarşı dayanıqlılığını artırmağa və dayanıqlı iqtisadiyyata keçidlə əlaqəli fürsətləri reallaşdırmağa yönəlmişdir. Yol xəritəsi dörd strateji prioriteti özündə birləşdirir: dayanıqlı maliyyə sahəsində potensialın artırılması, dayanıqlı maliyyə axınları üçün ekosistemin inkişafı, iqlim dəyişmələri və ESİ faktorlarının risklərin idarə edilməsinə inteqrasiyası, maliyyə bazarlarında şəffaflığın və bazar intizamının təmin edilməsi.

DSK-nın açıqladığı məlumata əsasən, 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda inflyasiya dərəcəsi 9,4% olmuşdur. Bu, 10 aylıq dövr ərzində inflyasiyanın 1,5% bəndi azaldığını göstərir. Həmin dövrdə istehlak qiymətləri indeksi 2022-ci ilin eyni dövrünə nisbətən 109,4% olmuşdur [5].

Azərbaycanda inflyasiyaya təsir edən bir sıra faktorlar mövcuddur ki, bunların bir hissəsi xarici faktorlardır. Bu həm də investisiya və biznes mühitinə təsir edir.

İqtisadi inkişafın cari imkanlarının təhlili ölkənin iqtisadi möhkəmliyini, artım potensialını və ümumi rifah səviyyəsini qiymətləndirmək üçün istifadə olunur. Bu təhlil müxtəlif göstəricilər və amillərdən istifadə etməklə aparılır. Əsas amillərdən bəziləri bunlardır:

Ümumi Daxili Məhsul. Ölkədə iqtisadi artımını müəyyən etmək üçün istifadə olunan əsas göstəricidir. Yüksək və sabit ÜDM iqtisadi inkişafın əsas göstəricisi hesab olunur.

Məşğulluq dərəcələri. İqtisadiyyatın sağlamlığı işsizlik nisbətləri ilə ölçülə bilər. Aşağı işsizlik nisbətləri güclü iqtisadiyyatın əlamətidir.

İnflyasiya dərəcələri. Qiymət sabitliyi iqtisadi sağlamlığın göstəricisi kimi vacibdir. Həddindən artıq inflyasiya iqtisadi qeyri-müəyyənliyə və alıcılıq qabiliyyətinin azalmasına səbəb ola bilər.

Ticarət balansı. Bir ölkənin xarici ticarət balansı ixrac və idxal arasında tarazlığı göstərir. Müsbət ticarət balansı ölkənin xarici asılılığını azalda bilər.

İnvestisiya səviyyələri. İnvestisiyalar uzunmüddətli iqtisadi artımı dəstəkləyir. Ölkədəki investisiya səviyyəsi gələcək istehsal gücünə təsir göstərə bilər. Nəticədə ümumiləşdirmələr aparılır.

Bu amillərin hər biri ölkənin iqtisadi inkişafını və möhkəmliyini təhlil etmək üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın inflyasiya dərəcələrini azaltmaq üçün bazar iqtisadiyyatının inkişafı və rəqabətin artırılması vacibdir. ÜDM-in sabitliyi, məşğulluq səviyyələrinin artırılması, qiymət sabitliyinin təmin edilməsi, müsbət ticarət balansının saxlanılması və investisiya səviyyələrinin yüksəldilməsi ölkənin iqtisadi sağlamlığını və ümumi rifahını təmin etmək üçün əsas faktorlardır.

Təhsil və İnnovasiya. İnsan kapitalının inkişafı uzunmüddətli iqtisadi uğur üçün böyük əhəmiyyət kəsb edir. Təhsil və innovasiyalar ölkənin rəqabət üstünlüyünü artırmaq potensialına malikdir və iqtisadi inkişafın əsas təməllərindən biridir.

Fiskal və Pul Siyasəti. Hökumət və Mərkəzi Bank tərəfindən həyata keçirilən fiskal və pul siyasəti iqtisadiyyata əhəmiyyətli təsir göstərir. Düzgün qəbul edilmiş siyasi qərarlar sabit iqtisadi mühitin qorunmasına və iqtisadi artımın dəstəklənməsinə kömək edə bilər.

Sosial və Ekoloji Faktorlar. Sosial rifah, bərabərsizlik səviyyəsi və ekoloji davamlılıq kimi amillər də iqtisadiyyatın sağlamlığına təsir edən mühüm faktorlar sırasındadır. Bu amillər ümumi rifah səviyyəsinin yüksəldilməsi və ekoloji problemlərin həlli üçün vacibdir.

İqtisadi inkişafın təhlilində əsas amillərlə yanaşı, texnoloji inkişaflar, demoqrafik meyillər və qlobal iqtisadi vəziyyət kimi xarici amillər də mühüm rol oynayır. İqtisadi inkişaf üçün mövcud imkanların səmərəli qiymətləndirilməsi hökumətlər, biznes və cəmiyyət üçün strateji qərarların qəbul edilməsinə

kömək edə bilər.

Ümumi Daxili Məhsul (ÜDM) müəyyən bir dövrdə ölkənin

istehsal etdiyi ümumi mal və xidmətlərin dəyərini ifadə edir. ÜDM iqtisadi artımı və sağlamlığı qiymətləndirmək üçün istifadə edilən əsas göstəricidir. ÜDM-in hesablanması aşağıdakı komponentləri əhatə edir:

İstehlak: ev təsərrüfatlarının və fərdlərin xərcləri;

İnvestisiya: müəssisələr tərəfindən qoyulan investisiyalar;

Dövlət xərcləri: hökumət tərəfindən edilən xərclər;

Xalis ixrac: ixracdan idxalın çıxılması ilə əldə edilən dəyər.

ÜDM hesablanarkən, dörd əsas komponentin cəmi bir ölkənin ümumi iqtisadi fəaliyyətini təmsil edir. Bu ölçü iqtisadi artım, məşğulluq səviyyəsi, inflyasiya və digər makroiqtisadi göstəricilərin təhlilində istifadə olunur.

ÜDM-in Sektoral Komponentləri: kənd təsərrüfatı, sənaye və xidmət sektorlarının ÜDM-ə verdiyi töhfələr. Bu məlumat ölkə iqtisadiyyatının hansı sektorlarının güclü və ya zəif olduğunu başa düşmək üçün vacibdir.

Adambaşına ÜDM: ÜDM-in əhaliyə bölünməsi ilə əldə edilən dəyər. Bu göstərici ölkədəki orta iqtisadi rifahı əks etdirir və müxtəlif ölkələrin həyat səviyyəsini müqayisə etmək üçün istifadə olunur.

İnflyasiya və Real ÜDM: nominal ÜDM qiymət dəyişikliklərinin təsiri altında ola bilər. Real ÜDM bu nominal dəyəri sabit qiymətlərlə ifadə etməklə inflyasiyanın təsirini aradan qaldırır.

İşsizlik Dərəcələri: ölkənin əmək bazarının sağlamlığını və iqtisadiyyatın məşğulluq vəziyyətini qiymətləndirmək üçün istifadə olunur.

İqtisadi Dövrlər: iqtisadi fəaliyyətdəki dalğalanmalara, yəni genişlənmə və daralma dövrlərinə istinad edir. Bu dövrlər ölkənin iqtisadi sabitliyini qiymətləndirmək üçün vacib göstəricilərdir.

Bu məlumatlar ölkənin iqtisadi fəaliyyətinin qiymətləndirilməsi və iqtisadi siyasətin istiqamətləndirilməsi üçün mühüm vasitədir. ÜDM-in müntəzəm monitorinqi və təhlili ölkənin iqtisadi sağlamlığını və artım potensialını qiymətləndirmək üçün vacibdir.

Xarici ticarət balansı bir ölkənin ixracı ilə idxalı arasındakı fərqi göstərir. Müsbət xarici ticarət balansı bir ölkənin digər ölkələrlə ticarətdən əldə etdiyi profisiti ifadə edir, yəni ixracın idxaldan daha çox olduğu vəziyyəti göstərir.

Ümumi Daxili Məhsul (ÜDM) bir ölkənin müəyyən dövrdə istehsal etdiyi ümumi əmtəə və xidmətlərin bazar dəyərini ölçən iqtisadi göstəricidir. Bu göstərici ölkənin iqtisadiyyatının ölçüsünü və sağlamlığını qiymətləndirmək üçün istifadə olunur. ÜDM, ölkənin iqtisadi göstəricilərini anlamaq, müqayisə etmək və izləmək üçün mühüm vasitədir.

ÜDM-i hesablamaq üçün iki əsas yanaşma mövcuddur:

İstehsal Yanaşması: Bu yanaşmaya görə, ÜDM ölkədə bütün əmtəə və xidmətlərin istehsalı zamanı yaranan əlavə dəyərlərin cəmini təmsil edir. Başqa sözlə, istehsal prosesində əlavə dəyərlərin cəmidir.

Gəlir Yanaşması: Bu yanaşmaya görə, ÜDM bir ölkədə əldə edilən ümumi gəliri təmsil edir. Gəlir yanaşmasında əməkhaqqı, mənfəət, faiz və vergi kimi gəlir komponentlərini birləşdirilir [3].

**ÜDM-in Tətbiq Sahələri.** Artım templəri və ÜDM-in sektoral komponentləri ölkə iqtisadiyyatının ümumi sağlamlığını qiymətləndirmək, iqtisadi siyasətləri müəyyən etmək və beynəlxalq iqtisadi müqayisələr aparmaq üçün istifadə olunur. Bununla belə, ÜDM müəyyən tənqidlərə məruz qalmışdır və iqtisadi rifahın dəqiq göstəricisi kimi təkbaşına yetərli deyil. Ona görə də ÜDM-i digər göstəricilər və sosial amillərlə birlikdə qiymətləndirmək daha əhatəli iqtisadi təhlili təmin edir.

## Nəticə

ÜDM və digər iqtisadi göstəricilər bir ölkənin iqtisadi vəziyyətini anlamaq və müqayisə etmək üçün əvəzsiz vasitələrdir. Lakin, tənqidi yanaşaraq, bu göstəriciləri daha geniş bir kontekstdə, sosial və ekoloji amillərlə birlikdə qiymətləndirmək daha obyektiv nəticələr verir. İqtisadi göstəricilərin hərtərəfli təhlili ölkənin iqtisadi sağlamlığını qiymətləndirmək və gələcək siyasət qərarlarına rəhbərlik etmək üçün vacibdir. Bu təhlil iqtisadi artım, məşğulluq, inflyasiya və digər makroiqtisadi göstəriciləri əhatə edir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ş. Muradov və başqaları, Azərbaycan iqtisadiyyatı XIX əsrin ortalarından SSRİ-nin dağılmasınadək olan dövrdə səh.2, 2003.*

*2. Ziyəddin Məmmədov. "Müstəqillik dövründə Azərbaycan İqtisadiyyatı" Bakı 2021.*

*3. Akif Musayev, "İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması", Bakı 2014, s. 184.*

*4. B.Ataşov, E. Məmmədova, E. İbrahimov (2023). Postsovet ölkələrində yaşıl iqtisadi inkişafın təşviqi: birbaşa xarici və portfel investisiyalarının rolu. İdarəetmədə problemlər və perspektivlər, 21(4), 288-303. doi:10.21511/ppm. 21(4).2023.17*

*5. https://www.amerikaninsesi.org/a/7392624.html.*

**XÜLASƏ**

Məqalənin yazılmasında məqsəd Azərbaycanın tarixən formalaşan investiya mühitinin necə formalaşdığına nəzər salmaqdır. Bilirik ki, investisiyaların cəlb edilməsi üçün universal plan ola bilməz. Ona görə də keçmişə nəzər salaraq onu incələyərək bu günün tələbinə uyğun hərəkət etmək zəruridir. Hər bir ölkə öz xüsusi şəraitinə və mühitinə əsaslanaraq, həmçinin öz ehtiyaclarını və imkanlarını nəzərə alaraq öz strategiyasını işləyib hazırlamalıdır. Bu zaman məqsəd biznes və investisiya mühitlərinin həqiqətən də əhəmiyyətli olması və bu mühitləri yaxşılaşdırmaq arzusunda olan hər bir ölkənin öz iqtisadi rifahını artıra bilməsi fikrini möhkəmləndirməkdən ibarətdir.

**Açar sözlər:** *investisiya, iqtisadiyyat, sosial-iqtisadi inkişaf, qeyri-neft sektoru, investisiya layihələri.*

**Азербайджанский Университет Кооперации**
**Эльнура Бунят кызы Мамедова**

**Анализ исторических этапов развития инвестиций в экономику нашей страны**

**РЕЗЮМЕ**

Цель написания статьи – рассмотреть, как формировалась исторически сложившаяся инвестиционная среда Азербайджана. Мы знаем, что универсального плана привлечения инвестиций быть не может. Поэтому необходимо посмотреть на прошлое, уточнить его и действовать в соответствии с требованиями сегодняшнего дня. Каждая страна должна разработать свою собственную стратегию, основанную на ее конкретных обстоятельствах и окружающей среде, а также принимая во внимание ее собственные потребности и возможности. Цель здесь состоит в том, чтобы укрепить идею о том, что деловая и инвестиционная среда действительно важна и что любая страна, желающая улучшить эту среду, может повысить свое экономическое благосостояние.

**Ключевые слова:** *инвестиции, экономика, социально-экономическое развитие, ненефтяной сектор, инвестиционные проекты.*

**Azerbaijan Cooperation University**
**Mammadova Elnura Bunyat**

**Analysis of the historical development stages of investments in the economy in our country**

**SUMMARY**

The purpose of writing the article is to look at how the historically formed investment environment of Azerbaijan was formed. We know that there cannot be a universal plan for attracting investments. Therefore, it is necessary to look at the past and refine it and act according to today's demand. Each country should develop its own strategy based on its own specific circumstances and environment, as well as taking into account its own needs and capabilities. The goal here is to reinforce the idea that business and investment environments are indeed important and that any country that wishes to improve these environments can increase its economic well-being.

**Keywords:** *investment, economy, socio-economic development, non-oil sector, investment projects.*

UOT: 336.01: 336.7
https://doi.org/10.30546/3006-0346.2024.6.84.061

# MÜASİR DÖVRDƏ BANKLARIN KREDİT FƏALİYYƏTİNİN ŞAXƏLƏNDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**LALƏ ŞAHBAZOVA**
*Lənkəran Dövlət Universitetinin dissertantı*
*E-mail: shahbazova1995@gmail.com*

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının əsas vəzifəsi əhalinin rifahını və həyat səviyyəsini yüksəltməkdir. Bu məqsədlə ölkə əhalisinin maliyyə savadlılığının səviyyəsinin yüksəldilməsi, habelə inflyasiyanın sürətinin cilovlanması zəruridir. Bu amillər istehlak kreditləşməsinin səmərəliliyinin artırılması, vaxtı keçmiş borcların azaldılması, bank sektorunun və bütövlükdə milli iqtisadiyyatın göstəricilərinin yaxşılaşdırılması baxımından önəmlidir. Bütün bunlar isə öz növbəsində bank kredit fəaliyyətinin şaxələndirilməsi səviyyəsindən, bankların və onların fəaliyyətinin etibarlılığının artmasının nə dərəcədə dinamik və şəffaf olmasından asılıdır. Dünyanın bir çox müxtəlif ölkələrində bankların kredit fəaliyyətinin şaxələndirilməsinin nəzəri əsaslarının öyrənilməsi intensivləşdirilmiş maliyyə siyasətinin və müasir iqtisadiyyatın aktual problemlərinin inkişafı üçün vacib olan ümumi nəticələr çıxarmağa imkan verir. Odur ki, milli iqtisadiyyatın ən önəmli hissəsi kimi bankların kredit fəaliyyətinin şaxələndirilməsinin elmi, nəzəri və təcrübi məsələlərinin aydınlaşdırılması vacib hesab edilir.

Bu gün ölkənin müasir iqtisadi siyasətinin əsas problemlərindən biri sahə münasibətlərinin inkişafı üçün hərəkətverici qüvvə kimi bankların kredit fəaliyyətinin səmərəli sisteminin formalaşdırılmasıdır. Bank sistemi milli iqtisadi sistemin tərkib hissəsi olmaqla istənilən ölkənin iqtisadiyyatında önəmli rol oynayır və əsas yer tutur. Bu, onun mahiyyəti, funksiyaları və iqtisadi həyatın digər sahələrinə təsiri ilə müəyyənləşdirilir. Bank sektorunun iqtisadi fəaliyyətin ən önəmli hissəsi kimi müəyyənləşdirmək məqsədilə sosial-iqtisadi inkişafın müxtəlif mərhələlərində bankların yaranma və inkişaf tarixinə diqqət yetirilməlidir [1, s.245].

Son illərdə iqtisadi inkişafda bankların rolu artmaqda davam edir və onların fəaliyyəti bütün iqtisadi fəaliyyət sahələri ilə sıx bağlıdır. Bankların əsas vəzifəsi pul və kapitalın fasiləsiz dövriyyəsini təmin etmək, dövlət və əhaliyə, sənaye müəssisələrinə kredit verməkdən, ümumi iqtisadi yığımlara şərait yaratmaqdan ibarətdir [2, s.84]. İqtisadiyyatın maliyyə sektorunda fundamental mövqe tutan bank sistemi olmadan dövlətin mütərəqqi inkişafı qeyri-mümkün görünür. Buna görə bazar inkişaf yolunda olan istənilən ölkə üçün maliyyə münasibətlərinin inkişafının zəruri şərti kimi bankların səmərəli fəaliyyəti iqtisadi siyasətin inkişafının prioritet istiqamətinə çevrilir. Hazırda banklar müxtəlif fəaliyyətlər reallaşdırırlar ki, onlara ən çox gəlir götürən fəaliyyət sahəsi kredit fəaliyyətidir. Bankların kredit fəaliyyəti sahəsini tədqiq etməzdən əvvəl, ilk öncə, kreditin özünün nəzəri əsaslarının öyrənilməsi zəruridir. Kreditin nəzəri əsasını onun bazar iqtisadiyyatının ən önəmli kateqoriyalarından biri kimi mahiyyətinin öyrənilməsidir.

Kreditin özünəməxsus prinsipləri və funksiyaları vardır və bütün kredit prosesi onların üzərində qurulur. Bundan əlavə, müasir insan cəmiyyətinin maliyyə dövriyyəsi kreditə xas olan belə prinsiplər və funksiyalar əsasında idarə olunur. Bank kreditləşməsinin əsas prinsiplərinə daxildir: 1. Kreditin qaytarılması prinsipi. Bu, nəzərdə tutur: fiziki və ya hüquqi şəxs əvvəllər kommersiya bankı tərəfindən ona verilmiş vəsaiti qaytarmalıdır. Borc verəndən kredit vəsaitləri borcalana gedir və daha sonra əks proses, yəni borcalandan borcverənə qayıdır; borcalandan bu vəsait birbaşa borc verənə qaytarılır; borcalan kreditordan götürdüyü vəsaiti vaxtında və kredit müqaviləsində müəyyən edilmiş şərtlərlə qaytarmalıdır; borcalan borc götürdüyü kredit vəsaitinin qaytarılması üçün nəzərdə tutulmuş müddətlərə əməl etmədiyi təqdirdə bank müəyyənləşdirilmiş cərimələr sistemini tətbiq etmək hüququna malikdir; müəyyənləşdirilmiş ödənişlərin təkrar gecikdirilməsi halında kreditorun məhkəməyə müraciət etmək hüququ vardır. Ödəniş prinsipi. Ödəniş prinsipinin mahiyyəti ondan ibarətdir ki, borcalan kredit resurslarından müvəqqəti istifadə məqsədilə kredit təşkilatı tərəfindən müəyyənləşdirilmiş faiz şəklində əlavə məbləğ ödəməlidir. Bu prinsip kredit təşkilatının əmanət kimi cəlb edilmiş vəsaitlərə görə həmin təşkilat tərəfindən faizlərin ödənilməsi ilə bağlı çəkilmiş xərclərin ödənilməsini və qazanc əldə etməsini təmin edir. 3. Kreditin təminatlılıq prinsipi. Bank borcalanla bağlanmış kredit müqa-

viləsinə əsasən onu maddi xarakterli kreditlə təmin etməyi öhdəsinə götürür. Təminatsız kreditlər kommersiya bankı üçün çox yüksək risklə xarakterizə olunur. 4. Bank kreditindən məqsədyönlü istifadə prinsipi. Əgər bank kreditinin məqsədyönlü xarakteri müşahidə olunarsa, bu, bank baxımından böyük önəm daşıyacaqdır. 5. Diferensial yanaşma prinsipi. Bu prinsip təqdim edilmiş vəsaitin borcalan tərəfindən vaxtında ödənilməsinə etibarlı təminat verilməsini nəzərdə tutur.

Kreditin rolu müxtəlif funksiyaları yerinə yetirmə prosesində özünü göstərir. Bəzi tədqiqatçılar kreditin prinsipləri ilə yanaşı, əsas funksiyalarını da qeyd edirlər: fiziki və hüquqi şəxslərin, dövlətin müvəqqəti sərbəst maliyyə resurslarının toplanması, yenidən bölüşdürülməsi, nağd pulun dəyişdirilməsi funksiyaları [3, s.227]. Bazar iqtisadiyyatı şəraitində kreditin yerinə yetirdiyi önəmli funksiyalara daxildir: 1. Kreditin bölüşdürülməsi funksiyası pul vəsaitlərinin təsərrüfat subyektləri arasında qaytarılmalı əsaslarla hərəkətindən ibarətdir. 2. Kreditin emissiya funksiyası. Bu funksiyaya əsasən bank kreditləşməsi yeni fondların yaranmasında önəmli rola malikdir. Banklar pul emissiyasına olan ehtiyaca ödəniş təklifini tez bir zamanda artırmaqla cavab verirlər. 3. Nəzarət funksiyası. Bu, kredit müqavilələrinin subyektləri tərəfindən kreditləşmənin prinsip və şərtlərinə riayət olunmasına nəzarətin reallaşdırılmasını təmin etmək məqsədi daşıyır. Nəzarət sayəsində kredit verilməzdən əvvəl risk proqnozları, borcalanın kredit qabiliyyəti, kredit müqaviləsinin şərtlərinə əməl olunması yoxlanılır. 4. Aktivlərin, depozit və ya böyük alış üçün kapitalın yığılmasını nəzərdə tutan yığım funksiyası. 5. İstehsal dövrü üçün əlavə vəsaitlərdən istifadə etməyə, habelə onun dəyişməsinə (keyfiyyət, xərc baxımından) imkan verən təkrar istehsal funksiyası. 6. Öz aktivləri olmadan istehsal prosesini sıfırdan təşkil etməyə imkan verən stimullaşdırıcı funksiya və s [4, s.215].

Kreditin rolu onun müxtəlif xüsusiyyətləri ilə xarakterizə olunur: 1. Bank və bank sistemlərinin yaradılmasında əsas rolunu oynayan iqtisadi kateqoriya kimi. İstehsal və ticarətin inkişafında kreditin rolunun artması bankların yaranmasına gətirib çıxarmışdır. Bank institutları kreditlə sahibkarlığın inkişafının stimullaşdırılması da daxil olmaqla, geniş spektrli pul əməliyyatlarını reallaşdırmağı nəzərdə tutur. Banklar iqtisadiyyatın ən önəmli seqmentlərindən biri olmaqla cəmiyyətdə kredit hesablaşmalarını və pul dövriyyəsini təşkil edir. 2. Pul dövriyyəsinin təşkilinin əsas mexanizmlərindən biri kimi. Bütün iqtisadi fəaliyyət sahələrində pul dairəvi hərəkətdə olur. Ona görə kredit pulunun verilməsinin əsas strateji məqsədi onu mərkəzi banklara qaytarmaqdır. Pullar banklara qaytarılarsa, bu o deməkdir ki, kredit kapitalının və buna uyğun pul dövriyyəsi başa çatmışdır. Kredit vəsaitlərinin dövriyyə prosesinin sürətləndirilməsi pul dövriyyəsinin, milli valyutanın alıcılıq qabiliyyətinin və müxtəlif valyuta bazarlarında məzənnəsinin sabitliyi baxımından böyük önəm daşıyır. 3. Fərdi kapitalın fasiləsiz dövriyyəsini təmin edən vasitə kimi. Kapital dövriyyəsi fasiləsiz olarsa, bu, onun fəaliyyətinin səmərəliliyinin əsas şərtlərindən biri hesab olunar. Kapital dövriyyəsi dəyərin dövrənin bir mərhələsindən digərinə ardıcıl keçidinə əsaslanır və əmtəəlik məhsulların satışı ilə ümumi pul vəsaitlərinin və mənfəətin alınması ilə başa çatır [5, s.217]. 4. Dövlətin antiböhran vasitəsi kimi. Böhran dövrlərində Mərkəzi Bankın emissiya potensialı onları iqtisadiyyatın əsas monetar donorları rolu oynamasına sövq edir. 5. Dövlət büdcəsinin sabitləşdirilməsi vasitəsi kimi. Mərkəzi Bankın emissiya resursları bazar iqtisadiyyatının ilkin, dövlət büdcəsindən ayırmalar isə ikinci dərəcəli pul məhsulu kimi çıxış edir. 6. Cəmiyyətin həyat tərzinə təsir edən elementlərinin formalaşdırılması vasitəsi kimi. Cəmiyyətin həyat tərzinin əsas elementlərinə yaşayış binaları, torpaq sahələri, şəxsi nəqliyyat vasitələri, radio və televiziya avadanlıqları, mebel dəstləri, soyuducu və digər məişət əşyaları daxildir.

Bankların kredit fəaliyyəti kredit əməliyyatlarını reallaşdırmaq məqsədilə lisenziyaya malik olan, müştərilərdən cəlb edilmiş vəsaitlərin ödəniş, təxirəsalınmazlıq və geri ödəmə kimi şərtlərlə yerləşdirilməsi ilə bağlı bank fəaliyyətidir və mənfəət əldə etmək məqsədi daşıyır. Bankın kredit fəaliyyəti kredit münasibətlərinin ən geniş yayılmış formasıdır və yalnız ölkənin Mərkəzi Bankının lisenziyası olan maliyyə institutlarına verilir [6, s.84]. Kredit portfelinin keyfiyyətinin etibarlılığını gücləndirmək və artırmaqla kommersiya artımına nail olmaq istənilən bankın kredit fəaliyyətinin əsas məqsədidir. İqtisadi ədəbiyyatda kredit portfelinin müxtəlif təriflərinə, onun strukturunun və bank portfelindəki yerini müəyyənləşdirmək üçün müxtəlif elmi yanaşmalara rast gəlmək olar. Bəzi müəlliflər kredit

portfelinə bankın bütün maliyyə aktivləri və hətta öhdəlikləri kimi istinad edir, digərləri nəzərdən keçirilən anlayışı yalnız bankın kredit əməliyyatları ilə əlaqələndirir, digərləri isə kredit portfelinin sadə elementlər toplusu deyil, təsnifatlaşdırılmış məcmuə olduğunu vurğulayırlar.

Kredit portfelinin mahiyyətinin öyrənilməsinin metodoloji əsasını portfel nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyə 1952-ci ildə Nobel mükafatı laureatı Harri Markovitz tərəfindən təsis edilmişdir. Bu nəzəriyyə Ceyms Tobin və Uilyam Şarp kimi iqtisadçılar tərəfindən daha da inkişaf etdirilmişdir. Onların tədqiqatları əsasən maliyyə aktivləri portfelinin formalaşdırılması problemi ilə bağlı idi. Bununla belə, qeyd etmək lazımdır ki, kredit həm də maliyyə aktividir. Ona görə kredit portfelinin formalaşdırılması məsələlərini nəzəri cəhətdən əsaslandırmaq üçün bu nəzəriyyənin əsas prinsip və müddəalarından istifadə edilir [7, s.21].

Kredit portfelinin müəyyənləşdirilməsinə geniş və dar mənada nəzərdən keçirilməli olan yanaşmalar vardır. Dar mənada kredit portfeli, daha çox mənfəət əldə etmək məqsədilə bankların reallaşdırıldığı bütün növ kredit əməliyyatlarının məcmusu kimi başa düşülür. Balansın strukturunda bankın aktivlərinin ən böyük hissəsini kredit portfeli tutur ki, bu da gəlirlilik və risklilik səviyyəsinə malikdir. Ümumi anlayışda o, birlikdə götürülmüş bankın tələb və öhdəlikləri kimi çıxış edir, yəni həm balansın aktivlərində əks olunan tələbləri, həm də bankın balansının öhdəliklərində əks olunan öhdəlikləri ehtiva edir.

Bank işinin müasir inkişaf mərhələsində portfelinin keyfiyyəti bankın kommersiya müəssisəsi kimi yaşaması və davamlı inkişafı baxımından əsas məsələyə çevrilir. Kredit fəaliyyətinin əsas məqsədləri sırasına daxildir: gəlirlilik səviyyəsini təmin edə bilən aktivlərin yaradılması; kredit vəsaitlərinin iqtisadi perspektivli, gəlirli layihələrə yatırılması; yeni kredit məhsullarının hazırlanması və fəal tətbiqi; göstərilən bütün xidmətlər çeşidinin keyfiyyətinin yüksəldilməsi; rəqabət qabiliyyətinin artırılması və gücləndirilməsi. Bankların kredit fəaliyyətinin inkişaf səviyyəsi, sabitliyi və təhlükəsizliyi müasir mərhələdə maliyyə-kredit institutlarının fəaliyyətini xarakterizə edən önəmli göstəricilərdən biridir ki, bu da risklərin və maliyyə problemlərinin qiymətləndirilməsinə daha səmərəli yanaşmağa imkan verir. Bankların kredit fəaliyyətinin şaxələndirilməsinin vaxtında və düzgün təhlili milli iqtisadiyyatın gələcək ümumi inkişaf perspektivlərini hərtərəfli proqnozlaşdırmağa imkan verir.

Şaxələndirmə müxtəlif subyektlər arasında vəsaitlərin yayılması ilə ümumi riskə məruz qalmanın azaldılması üsulu, riski azaltmaq məqsədilə aktiv və öhdəliklərin maliyyə alətləri səviyyəsində və onların komponentləri üzrə bölüşdürülməsidir. Bu üsul bankın sistem formalaşdıran aktiv və öhdəlikləri kimi elementlərini nəzərdə tutan portfel yanaşmasına əsaslanır. Kredit riskinin effektiv optimallaşdırılmasına imkan verən şaxələndirmənin əsas formaları ola bilər: qiymətli kağızlar portfelinin şaxələndirilməsi; kredit portfelinin şaxələndirilməsi (verilən kreditlərin həcmini sabit saxlamaq şərtilə onların daha çox müştəriyə yönəldilməsi); bankın valyuta səbətinin şaxələndirilməsi (valyutalardan birinin məzənnəsinin aşağı düşməsi səbəbindən yaranan itkiləri azaltmaq məqsədilə digər valyutaların istifadəsi); vəsaitlərin cəlb edilməsi mənbələrinin şaxələndirilməsi (vəsaitlərin vaxtından əvvəl çıxarılması ehtimalını azaltmaq məqsədilə daha çox investorlar arasında qiymətli kağızların yerləşdirilməsi, daha az məbləğdə banklararası kreditlərin və əmanətlərin cəlb edilməsi) .

Hazırda Azərbaycanda bankların kredit fəaliyyətinin şaxələndirilməsinin ən geniş yayılmış istiqaməti fiziki şəxslərə kreditlərin verilməsi ilə bağlıdır. Fiziki şəxslərə bank kreditlərinin verilməsi bank sektorunun inkişaf istiqamətlərindən biridir ki, bu, ilk öncə, bankların gəlirli kredit məhsullarına ehtiyac duyması ilə bağlıdır. Əksər iqtisadçılar qeyd edirlər ki, fiziki şəxslərə kredit verilməsi bütün istehlak malları və xidmətləri üçün bazar tutumunun genişlənməsinə kömək edir. Buna görə bankların fiziki şəxslərə kredit verilməsi sahəsində aktiv fəaliyyəti istehsalın artmasına, əhalinin həyat keyfiyyətinin və səviyyəsinin yaxşılaşmasına səbəb olur. Bu baxımdan fiziki şəxslərə mənzil problemlərini həll etmək, o cümlədən təhsil almaq üçün verilən kreditlərin yenidən bölüşdürmə funksiyası ilə yanaşı sosial funksiyası da böyük önəm daşıyır. Xüsusi proqramların olması və bu kreditlər üzrə faizlərin aşağı salınması əhalinin gəlirlərinin bərabərləşməsinə və vətəndaşların ödəmə qabiliyyətinin artırılmasına kömək edir.

Bazarda ən populyar kreditlər ipoteka, avtomobil və istehlak kreditləridir. İpoteka krediti yaşayış sahəsinin girovu ilə ev almaq üçün verilən kreditdir. Bu gün ipoteka kreditləşməsi daşınmaz əmlaka

artan tələbat və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasının sosial əhəmiyyəti ilə perspektivli sahə kimi görünür. Müəyyən bir fiziki şəxs üçün ipoteka kreditinin mövcudluğu alınan gəlir, faiz dərəcəsi və kreditin ödənilmə müddəti ilə müəyyənləşdirilir. Avtomobil kreditləri - bu kredit yeni və ya işlənmiş avtomobil almaq üçün verilə bilər. Təcrübə göstərir ki, əhali daha çox yeni avtomobil almağa üstünlük verir, banklar isə avtomobil istehsalçıları ilə birlikdə bonuslar və xüsusi proqramlar vasitəsilə kreditləşməni stimullaşdırır. İstehlak krediti fiziki şəxsin son istehlakı üçün verilən kreditdir və pərakəndə satış məntəqələrində konkret məhsulun alınması üçün verilə bilər. Hazırda dünyanın bütün ölkələrində fiziki şəxslərə kredit verilməsi dövlət siyasətinin əsas istiqamətlərinin reallaşdırılmasına töhfə verməklə sosial və iqtisadi sabitliyin açarıdır. İqtisadiyyatın real sektorunun səmərəliliyi daha çox ölkədə fəaliyyət göstərən bank sisteminin keyfiyyətindən, xüsusən də bankların kredit fəaliyyətinin şaxələndirilməsi səviyyəsindən asılıdır [8]. Yaranan iqtisadi sabitləşmə şəraitində bankların kredit fəaliyyəti iqtisadi inkişafın davamlılığında ən önəmli amilə çevrilməlidir. Belə bir fəaliyyət növü müəssisə və təşkilatlara əlavə resurslar cəlb etməklə istehsalın artması üçün lazımi ilkin şərait yaratmağa imkan verir.

## YEKUN

Beləliklə, son illər dünyada baş verən iqtisadi vəziyyətin reallıqları bankları qıt və bahalı pul resurslarını ən yüksək faiz marjası və tez gəlir təmin edən digər əməliyyatlarda yerləşdirməyə məcbur edir. Bu baxımdan bankların kredit fəaliyyətinin şaxələndirilməsi proseslərinin intensivləşdirilməsinə ehtiyac vardır. Bunlarla bağlı bir qrup məsələləri ümumiləşdirmişik:

• Müasir bankların kredit fəaliyyətinin və onların infrastruktur elementlərinin yeni bank texnologiyalarından istifadə etməklə təkmilləşdirilməsi mexanizminin hazırlanması zərurəti artmaqdadır.

• Bankların maliyyə resurslarının manevr etməsi və risklərin optimallaşdırılmasını genişləndirməyə imkan verə biləcək infrastrukturun yaradılması vacibdir, belə ki, nəticədə müxtəlif mülkiyyət formalı müəssisələr bank kreditlərindən qarşılıqlı faydalı və ən əsası uzunmüddət ərzində istifadə edə biləcəklər;

• Bunlarla bərabər, qeyd olunan tədbirlərin görülməsi ölkəmizdə bank sisteminin sabitliyini gücləndirməyə, kredit xidmətlərinin keyfiyyətini yüksəltməyə, sistemli bank böhranları ehtimalını aradan qaldırmağa, investorların ölkənin bank sisteminə və maliyyə bazarlarına inamını artırmağa əlavə əsaslar formalaşdırar və s.

**Açar sözlər:** *Azərbaycan, bank sistemi, kredit, kredit fəaliyyəti, kredit fəaliyyətinin təkmilləşdirilməsi, kredit resurslarının diversifikasiyalaşdırılması, kredit portfeli.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Олимов, У.М. Некоторые теоретические вопросы развития банковской системы / У.М. Олимов // Актуальные вопросы современной экономики. – 2021. № 2, – с. 243-250.*

*2. Yəzdani, M.Y. İran İslam Respublikasında özəl bankların iqtisadi inkişafda rolu. Iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2018, – 32 s.*

*3. Теоретические аспекты банковского кредитования: сущность кредита, функции, принципы, виды / Т.И. Кружкова, И.Ю. Смирнова, А.В. Ручкин [и др.] // Вестник Алтайской академии экономики и права. – 2023. № 11-2, – с. 225-229.*

*4. Шойбул, Д.М. Роль банковского кредита в условиях рыночной экономики / Д.М. Шойбул, А.А. Хомушку // Экономика и бизнес: теория и практика. – 2022. № 5-3(87), – с. 214-216.*

*5. Джолдошева, Т.Ю. Теоретические основы кредита как экономической категории / Т.Ю. Джолдошева, А. Сабыржан // М. Рыскулбеков атындагы Кыргыз экономикалык университетинин кабарлары. – 2018. № 3(45), – с. 215-218.*

*6. Хегай, В.С. Особенности и перспективы развития банковского кредитования / В.С. Хегай, Т.З. Нгуен, О.А. Воротилова // Управление. Бизнес. Власть. – 2016. № 1(10), – с. 83-85.*

*7. Исембекова, Л.Д. Кредитный портфель коммерческого банка: факторы и проблемы формирования / Л.Д. Исембекова // Теоретические и практические аспекты современной науки: материалы Международной (заочной) научно-практической конференции, – Минск, – 14 марта 2022. – с. 20-27.*

*8. Pənahova, G.T. Bankların maliyyə sabitliyinin yüksəldilməsinin milli və regional iqtisadiyyata təsirinin qiymətləndirilməsi. / G.T. Pənahova // , – 22-23 aprel 2021. cild. 2, – s. 202-205.*

**ЛАЛА ШАХБАЗОВА,**
***Диссертант Лянкоранского Государственного Университета,***
***Азербайджанская Республика,***
***E-mail: shahbazova1995@gmail.com***

**Теоретические аспекты диверсификации кредитной деятельности банков в современное время**

**РЕЗЮМЕ**

В статье исследованы теоретические аспекты ускорения деятельности банков в условиях глобальных трансформаций. Для этого были приведены проблемы банковской системы и проанализированы особенности кредитной деятельности. Обоснована важность расширения источников кредитных ресурсов. Даны основные направления развития банковской инфраструктуры на основе высоких технологий. Рассмотрены проблемы диверсификации структуры банковских услуг и диверсификации их на основе цифровых технологий. С учетом новых задач были подведены итоги и внесены предложения по диверсификации кредитной деятельности банков.

**Ключевые слова:** *Азербайджан, банковская система, кредит, кредитная деятельность, совершенствование кредитной деятельности, диверсификация кредитных ресурсов, кредитный портфель.*

**LALA SHAHBAZOVA,**
***Doctoral student of Lankaran State University,***
***Azerbaijan Republic,***
***E-mail: shahbazova1995@gmail.com***

**Theoretical aspects of diversification of credit activities of banks in modern conditions**

**SUMMARY**

The article investigates the theoretical aspects of accelerating the activities of banks in the context of global transformations. For this purpose, the problems of the banking system were presented and the features of lending activities were analyzed. The importance of expanding sources of credit resources is substantiated. The main directions for the development of banking infrastructure based on high technologies are given. The problems of diversifying the structure of banking services based on digital technologies are considered. Taking into account the new challenges, results were summed up and proposals were made to diversify the lending activities of banks.

**Keywords:** *Azerbaijan, banking system, credit, credit activity, improvement of credit activities, diversification of credit resources, loan portfolio.*

UOT 338.45
https://doi.org/10.30546/3006-0346.2024.6.84.063

# NEFT-QAZ SEKTORUNDA HÜQUQİ TƏNZİMLƏMƏ

**KƏNAN HÜSEYNLİ**
*Bakı Dövlət Universiteti,*
*magistr*

*E-mail: kenanhuseynli08@gmail.com*

## Giriş

Enerji bazarında balans və buna görə də qiymət enerji tələbi və təklifi tərəfindən yaradılır. Enerji tələbini müəyyən edən əsas amillər iqtisadi artım, həyat tərzi, cəmiyyətin inkişaf səviyyəsi, texnoloji inkişaf və enerji qiymətləridir. Enerji təchizatının müəyyən edilməsində ehtiyatlar, istehsal və investisiya xərcləri, konversiya texnologiyaları, ölkələr və regionlar arasında iqtisadi və siyasi əlaqələr nəzərə alınmalı olan əsas amillərdəndir. Enerji təchizatı və təklifinə təsir edən amillərin elmi və real üsullarla davamlı olaraq proqnozlaşdırılması, qlobal dəyişikliklərə uyğun olaraq yenilənməsi və lazım gəldikdə onlara yenidən baxılması effektiv enerji siyasətlərinin vacib şərtidir.

## Neft-qaz sektorunda hüquqi tənzimləmə

Neft-qaz sektoru iqtisadiyyatın mühüm hissəsi olaraq ölkələrin inkişafında mühüm rol oynayır. Bu sektorun hüquqi tənzimlənməsi dövlətlər üçün strateji əhəmiyyət kəsb edir və həm beynəlxalq, həm də milli səviyyədə müxtəlif hüquqi yanaşmaların tətbiqini tələb edir. Hüquqi tənzimləmə sektorun şəffaflığını, dayanıqlığını və iqtisadi səmərəliliyini təmin etmək məqsədini güdür.

Azərbaycan, neft-qaz sənayesində milli hüquqi tənzimləmə sahəsində mühüm addımlar atmışdır. Bununla yanaşı, Azərbaycan Respublikası Konstitusiyası, Neft Qaz Sənayesinin Tənzimlənməsi Haqqında Azərbaycan Respublikasının Qanunu, Yer təki haqqında Qanun, Ətraf Mühitin Mühafizəsi Haqqında Qanun kimi sənədlər, ölkənin enerji və resurs sektoru ilə bağlı hüquqi çərçivə yaradır. Bu qanunlar, Azərbaycanın neft və qaz resurslarının istismarı və ekologiya, sərmayə qoyuluşu və ətraf mühitin qorunmasına dair əsas prinsipləri təyin edir [3].

Enerji Xartiyası Müqaviləsi. 17 dekabr 1994-cü ildə Portuqaliyanın Lissabon şəhərində imzalanmış Enerji Xartiyası Müqaviləsi (EPA) enerji sektorunda investisiya, ticarət və tranzit rejimini müəyyən edir. Zəngin enerji ehtiyatlarına malik bir ölkə kimi Rusiyanın qonşularının inkişafını təmin etmək üçün investisiya və maliyyə dəstəyinə ehtiyacı olması, Qərbi Avropa dövlətlərinin kapital və texnoloji sərmayələr təqdim edə bilməsi, öz enerji resurslarını şaxələndirmək istəkləri dövlətlərin enerji sektorunda qarşılıqlı əməkdaşlığı nəticəsində Enerji Xartiyası Müqaviləsi meydana gəldi. Enerji ixracatçıları və idxalçıları arasında asılılığın artdığı bir mühitdə enerji sahəsində beynəlxalq əməkdaşlıqda balanslı və effektiv strukturu təmin edən çoxtərəfli qaydaların dəyəri qəbul edilir və bu qaydalar artan maraq kimi tanınır [4].

Enerji Xartiyası Müqaviləsi enerji əməkdaşlığında çoxtərəfli hüquqi strukturu təmin edir. Enerji Xartiyası Müqaviləsinin 2-ci maddəsinə əsasən, bu saziş "Avropa Enerji Xartiyasının" məqsəd və prinsiplərinə uyğun olaraq, enerji sahəsində uzunmüddətli əməkdaşlığın təşviqi üçün hüquqi baza müəyyən edir. Enerji Xartiyası Müqaviləsi ilə enerji səmərəliliyi və əlaqədar Ətraf Mühit Məsələləri üzrə Enerji Xartiyası Protokolu 17 dekabr 1994-cü ildə imzalanmış və 16 aprel 1998-ci ildə qüvvəyə minmişdir. Bir çox dövlətlər və Avropa Birlikləri müqaviləyə qoşulmuşlar. Müqavilədə iştirak etmiş və tərəf olan ölkələr xəritədə çəkildikdə coğrafi yer kimi geniş bir ərazi formalaşır. Bundan əlavə, müqavilədə müşahidəçi statusu ilə iştirak edən ölkələr və beynəlxalq təşkilatlar da var [5].

Enerji Xartiyası Müqaviləsi beynəlxalq enerji bazarlarında hüquqi sabitlik və əməkdaşlıq üçün mühüm mexanizmdir. Bu müqavilə, xüsusilə neft-qaz sənayesində investisiyaların qorunması, enerji resurslarının ticarəti və nəqli, həmçinin ətraf mühitin qorunması baxımından əvəzolunmaz rol oynayır. Müqavilə enerji təhlükəsizliyini artırmaq və ölkələr arasında enerji sektorunda qarşılıqlı faydalı əməkdaşlığı təşviq etmək üçün mühüm vasitədir.

Birləşmiş Millətlər Dəniz Hüququ Konvensiyası (UNCLOS) dəniz və okeanların istifadəsi ilə bağlı beynəlxalq hüquqi çərçivəni müəyyən edən mühüm bir sənəddir. Bu Konvensiya dövlətlər arasında dəniz sərhədlərinin müəyyənləşdirilməsi, təbii resurslardan istifadə, ətraf mühitin qorunması və dənizdə hüquqi rejimlərin tənzimlənməsi sahəsində standartlar yaradır.

1982-ci ildə qəbul edilən və 1994-cü ildə qüv-

vəyə minən UNCLOS hazırda dəniz hüququ üzrə əsas hüquqi mənbə hesab olunur. Konvensiyaya 168 dövlət və Avropa İttifaqı üzvdür, lakin bəzi iri dövlətlər, məsələn, ABŞ hələ də ona qoşulmayıb. Neft-qaz sənayesi UNCLOS çərçivəsində tənzimlənən əsas sahələrdən biridir. Konvensiya dənizdəki enerji resurslarının istismarı üçün hüquqi baza yaradır [2]:

UNCLOS dünya üzrə dəniz hüququ və təbii resursların istismarı sahəsində vacib rol oynayır. Neft-qaz sənayesində resursların hüquqi şəkildə tədqiqi və hasilatı, həmçinin ətraf mühitin qorunması üzrə mexanizmlər təqdim edir. Bu konvensiya enerji sektorunun beynəlxalq qanunlara uyğun inkişafını təmin edir və dövlətlər arasında iqtisadi əməkdaşlığı təşviq edir.

Beynəlxalq Enerji Agentliyi (International Energy Agency - IEA) enerji sektorunun inkişafı, təhlükəsizliyi və dayanıqlılığını təmin etmək məqsədilə yaradılmış beynəlxalq təşkilatdır. 1974-cü ildə yaranmış IEA, enerji siyasətinin tənzimlənməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi sahəsində mühüm rol oynayır [4].

Beynəlxalq Enerji Agentliyi üzv ölkələr və könüllü olaraq üzv olmayan ölkələr və enerji şirkətləri və özəl ianələr kimi maraqlı tərəflər tərəfindən maliyyələşdirilir.

Qlobal neft tədarükündəki potensial pozuntuları aradan qaldırmaq üçün yaradılan BEA bu gün hamı üçün təhlükəsiz və davamlı enerji gələcəyini formalaşdırmaq üçün hökumətlər və sənaye ilə işləyir. BEA həmçinin enerji sektoru, enerji siyasəti və enerji səmərəliliyi səyləri haqqında məlumat və statistika təqdim edir və təmiz enerji texnologiyalarından artan istifadəni dəstəkləyir.

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) - dünyanın əsas neft ixrac edən 12 ölkəsindən ibarət qrupa aiddir. OPEC 1960-cı ildə üzvlərinin neft siyasətlərini əlaqələndirmək və üzv dövlətlərə texniki və iqtisadi yardım göstərmək üçün yaradılıb. OPEC dünya bazarında neftin qiymətini təyin etmək və həm hasil edən, həm də alıcı ölkələrin iqtisadiyyatlarına təsir edə biləcək dalğalanmalardan qaçmaq məqsədilə neft tədarükünü idarə etmək məqsədi daşıyan bir karteldir [5].

Qeyd edək ki, OPEC innovasiyalar və yeni, yaşıl texnologiya ilə bağlı xeyli çətinliklərlə üzləşir. Yüksək neft qiymətləri bəzi neft idxal edən ölkələrin qeyri-ənənəvi və daha təmiz enerji mənbələrinə müraciət etmələrinə səbəb olur. Alternativ enerji mənbəyi kimi şist istehsalı, neft məhsullarından asılılığı azaldan hibrid və elektrik avtomobilləri kimi bu alternativlər təşkilata təzyiq etməkdə davam edir.

Məqalədə, türk dövlətləri arasında iqtisadi əlaqələrin inkişafının Azərbaycan iqtisadiyyatına təsiri və bu sahədə mövcud problemlərinin təhlili verilmişdir. Eyni zamanda, Azərbaycan ilə türk dövlətləri arasında iqtisadi əlaqələrin inkişafının yeni iqtisadi inkişaf mərhələsi keçməsinə səbəb olacağı və türk dövlətləri arasında iqtisadi əlaqələrin yeni müstəvidə olacağı qeyd edilmişdir.

Məqalədə Azərbaycan ilə türk dövlətləri arasında iqtisadi əlaqələrin inkişaf istiqamətləri qiymətləndirilməsinə aid nəticə və təkliflər də öz əksini tapmışdır. Məqalənin sonunda, ədəbiyyat siyahısı verilmişdir.


**Açar sözlər:** *Türk dövlətləri iqtisadi inteqrasiya, beynəlxalq iqtisadi əlaqələr, Avropa iqtisadiyyatı, iqtisadi inkişaf, Zəngəzur dəhlizi.*

**Нурлан Адиль оглу Аббасов**

***Национальная академия наук Азербайджана, Институт востоковедения имени академика Зии Буниятова, аспирант кафедры стран Центральной Азии***


## РЕЗЮМЕ

В статье представлено влияние развития экономических отношений между тюркскими государствами на экономику Азербайджана и проведен анализ существующих проблем в этой сфере. При этом было отмечено, что развитие экономических отношений между Азербайджаном и турецкими государствами приведет к новому этапу экономического развития, а экономические отношения между турецкими государствами выйдут на новый уровень.

В статье отражены результаты и предложения, связанные с оценкой направлений развития экономических отношений между Азербайджаном и турецкими государствами. В конце статьи дан список использованной литературы.


**Ключевые слова:** *экономическая интеграция турецких государств, международные экономические отношения, европейская экономика, экономическое развитие, Зангезурский коридор.*

**Nurlan Adil Abbasov**

***Azerbaijan National Academy of Sciences, Oriental Studies Institute named after Academician Ziya Bunyadov, doctoral student of the Central Asian countries department***


## SUMMARY

The article analyzes the impact of the development of economic relations between the Turkic states on the economy of Azerbaijan and the existing problems in this area. At the same time, it is noted that the development of economic relations between Azerbaijan and the Turkic states will lead to a new stage of economic growth, and subsequently, economic relations between the Turkic states will reach a new level.

The article reflects the results and proposals related to the assessment of the development directions of economic relations between Azerbaijan and the Turkic states. At the end of the article, a list of literature is given.


**Keywords:** *Turkic states economic integration, international economic relations, European economy, economic development, Zangezur corridor.*

UOT 33
https://doi.org/10.30546/3006-0346.2024.6.84.070

# ELEKTRON TİCARƏTDƏ RƏNGLƏRİN PSİXOLOJİ TƏSİRİ VƏ GEYİM BRENDLƏRİNİN SATIŞ STRATEGİYALARI

**SƏMA QURBANZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: semaqurbanzade@gmail.com*

## GİRİŞ

Müasir dövrdə rəqəmsallaşmanın geniş miqyasda yayılması və internet texnologiyalarının inkişafı müxtəlif sahələrdə, o cümlədən ticarət və marketinq sahələrində köklü dəyişikliklərə səbəb olmuşdur. Elektron ticarət bu dəyişikliklərin ən mühüm nəticələrindən biri kimi istehlakçı davranışlarının formalaşmasında və müəssisələrin strateji yanaşmalarında yeni imkanlar və çağırışlar yaratmışdır. Xüsusilə geyim sənayesi üçün rəqəmsal mühitdə brend rənglərinin əhəmiyyəti və istehlakçı seçimlərinə təsiri artan tədqiqat və müzakirə mövzusuna çevrilmişdir.

Elektron ticarət platformalarında vizual elementlərin, xüsusilə də brend rənglərinin, istehlakçıların diqqətini cəlb etməsi, məhsulları yadda saxlaması və alış qərarlarını formalaşdırması baxımından strateji rolu vardır. Geyim sənayesində rənglərin estetik dəyəri ilə yanaşı, onların psixoloji təsiri və emosional əlaqə yaratmaq qabiliyyəti bu sahədə rənglərin əhəmiyyətini daha da artırır. İstehlakçıların rənglərə olan reaksiyaları onların mədəni mənsubiyyətinə, fərdi xüsusiyyətlərinə və sosial təsirlərə əsaslandığı üçün brend rənglərinin düzgün seçimi və istifadəsi müəssisələr üçün strateji üstünlük yarada bilər.

Bu tədqiqatın məqsədi elektron ticarət mühitində geyim sənayesində brend rənglərinin istehlakçı seçimlərinə təsirini tədqiq etmək, rənglərin psixoloji, mədəni və marketinq aspektlərini araşdırmaq, həmçinin effektiv brend strategiyaları üçün təkliflər təqdim etməkdir. İşin elmi yeniliyi, mövzunun müasir çağırışlar və tendensiyalar baxımından analitik təhlili ilə yanaşı, həm nəzəri, həm də praktiki tövsiyələrin verilməsindən ibarətdir.

Tədqiqatın aktuallığı elektron ticarətin genişlənməsi və geyim sektorunda rəqabətin artması fonunda rənglərin təsirinin daha dərin araşdırılmasının zəruriliyi ilə bağlıdır. Bu çərçivədə təqdim olunan iş, brend rənglərinin istehlakçı davranışlarına təsir mexanizmlərini anlamaq və bu təsirlərin idarə olunması üçün effektiv strategiyalar hazırlamaq baxımından faydalı ola bilər.

## 1. Brendin əhəmiyyəti və rənglərin rolunun açıqlanması

Brend anlayışı müasir biznes mühitində yalnız bir məhsul və ya xidmətin fərqləndirilməsi vasitəsi deyil, həmçinin istehlakçılarla müəssisələr arasında əlaqə quran strateji bir vasitədir. Brendin mahiyyəti, onun istehlakçıların yaddaşında yaratdığı təsvir, təqdim etdiyi dəyərlər və bazardakı rəqabət üstünlükləri ilə müəyyən edilir. Brend identikliyi (identity), yəni brendin özünəməxsus xüsusiyyətləri, onun vizual və emosional elementləri vasitəsilə formalaşır ki, bu elementlər arasında rənglər xüsusi əhəmiyyət daşıyan komponentlərdən biri hesab olunur.

Rənglər, həm estetik, həm də psixoloji cəhətdən insanlara təsir edən və onların davranışlarını idarə etmək potensialına malik vizual vasitələrdir. Rənglərin qavranması insan beynində yaranan emosional və koqnitiv reaksiyalarla əlaqədar olaraq müxtəlif mədəniyyətlərdə və fərdi səviyyələrdə fərqli təsirlər yaradır. Məsələn, qırmızı rəng, bir tərəfdən enerji və ehtiras simvolu kimi qəbul edilə bilər, digər tərəfdən isə təhlükə və təcili diqqət tələb edən hallar üçün siqnal rolu oynayır. Bu səbəbdən, brend strategiyalarında rənglərin seçimi yalnız estetik seçim kimi deyil, həm də marketinq hədəflərinə uyğun psixoloji təsir mexanizmi kimi nəzərdən keçirilməlidir. Müasir dövrdə rənglərin brendləşmə prosesindəki rolu yalnız onların vizual cazibədarlığı ilə məhdudlaşmır, həmçinin istehlakçıların qərar qəbuletmə proseslərinə təsir etmə gücünü də əhatə edir. Brend rənglərinin düzgün seçilməsi istehlakçıların məhsula və ya xidmətə qarşı yaranan ilk təəssüratını formalaşdırmaqla yanaşı, brendin yadda qalan və tanınan olması üçün mühüm amildir. Araşdırmalar göstərir ki, rənglər brendin 80%-ə qədər yadda qalanlıq göstəricisini təyin edə bilər. Bu səbəbdən rənglərin strateji istifadəsi, brendlərin yalnız bazarda fərqlənməsi üçün deyil, həm də istehlakçıların emosional əlaqəsini gücləndirmək üçün effektiv bir alət kimi çıxış edir [6].

Brend rənglərinin təsiri yalnız istehlakçı emosiyalarını manipulyasiya etməklə məhdudlaşmır, həmçinin məhsul və xidmətlərin kateqoriyalaşdırılmasında və onların düzgün qavranılmasında mühüm

rol oynayır. Rənglər məhsulun qiymət diapazonu, keyfiyyət standartı və hətta məhsulun istifadəsinin təbiəti haqqında ilkin mesajlar verə bilər. Məsələn, lüks brendlər adətən qızılı və tünd çalarlara üstünlük verirlər ki, bu da onların yüksək dəyərli imicini vurğulayır.

Bütün bunlarla yanaşı, rənglərin rolu təkcə istehlakçı davranışlarının formalaşdırılması ilə məhdudlaşmır; onlar həm də brendin vizual kommunikasiya strategiyasının inteqral bir hissəsi olaraq istehlakçı ilə daha dərindən əlaqə qurmağa imkan yaradır. Bu mənada, brend rənglərinin strateji istifadəsi yalnız vizual harmoniya yaratmaq üçün deyil, həm də istehlakçıların emosional qərarlarına təsir etmək və bazar rəqabətində üstünlük əldə etmək üçün əsas vasitədir.

Bu baxımdan, rənglərin brendin ümumi identikliyində oynadığı əsas rolu və onların strateji əhəmiyyətini dərk etmək, brendləşmə fəaliyyətinin daha səmərəli və hədəfə uyğun həyata keçirilməsi üçün vacib şərtdir. Bəs rənglərin təsiri nə qədər universal və nə qədər spesifikdir? Bu sualın cavabı, rənglərin mədəni, sosial və fərdi aspektlərini nəzərə alaraq təhlil edilməlidir. Brend rənglərinin təsirinin universal və spesifik aspektlərini daha dərindən anlamaq üçün onların psixoloji təsir mexanizmlərini və mədəniyyətlərarası fərqlərini təhlil etmək zəruridir. Universal təsir baxımından rənglərin insan beynində yaratdığı emosional və fizioloji reaksiyalar diqqətə alınmalıdır. Məsələn, tədqiqatlar göstərir ki, mavi rəng insanlarda sakitlik və etibar hissi yaradır, yaşıl rəng isə təbiətə yaxınlıq və harmoniya ilə əlaqələndirilir. Bu universal təsirlər beynin emosional və qərar qəbuletmə mərkəzləri ilə rənglərin əlaqəsini təsdiq edir. Bununla belə, rənglərin təsir gücü mədəniyyətlərarası kontekstlərdə fərqliliklər göstərə bilər.

Mədəniyyət spesifikliyi rənglərin qəbulunda vacib amillərdən biridir. Məsələn, qərb ölkələrində ağ rəng saflıq və təmizliklə əlaqələndirilərkən, Şərqi Asiya ölkələrində bu rəng yas mərasimləri ilə assosiasiya oluna bilər. Eyni şəkildə, qırmızı rəng Çin mədəniyyətində xoşbəxtlik və uğur rəmzi hesab olunur, lakin bəzi Avropa ölkələrində təhlükə və xəbərdarlıq simvolu kimi qavranılır. Bu fərqliliklər göstərir ki, brend rənglərinin seçimi zamanı yalnız universal təsirləri deyil, həm də hədəf bazarın mədəni və sosial xüsusiyyətlərini nəzərə almaq vacibdir.

Rənglərin brendləşmə strategiyalarında uğurlu tətbiqi, həmçinin istehlakçıların məhsul və xidmətlərə dair gözləntilərini düzgün idarə etməkdə əhəmiyyətli rol oynayır. Rənglər məhsulun təyinatına uyğun olaraq istehlakçının zehni imicində müəyyən çərçivələr yaradır. Məsələn, idman geyimləri ilə əlaqəli brendlər adətən enerjini və dinamizmi ifadə edən parlaq və cəsarətli rənglərdən istifadə edirlər, halbuki ofis geyimləri üçün nəzərdə tutulan brendlər sakit və neytral tonlara üstünlük verirlər [2]. Bu strategiyalar rənglərin məhsul kateqoriyasına uyğun seçilməsinin brendin vizual kommunikasiya gücünü necə artırdığını göstərir. Bundan əlavə, rənglərin istehlakçı qərarlarına təsiri tədqiqatçılar tərəfindən iqtisadi və marketinq sahələrində də geniş şəkildə araşdırılmışdır. Araşdırmalar göstərir ki, rənglər yalnız istehlakçının ilkin diqqətini cəlb etmir, həm də məhsulun və ya xidmətin qiymət qəbuluna təsir edir. Məsələn, daha parlaq və doymuş rənglər məhsulun dəyərli və lüks olduğu təəssüratını yarada bilər, halbuki pastel tonları daha təvazökar və əlçatan bir imic təqdim edə bilər. Bu, rənglərin brendləşmə prosesində strateji marketinq məqsədləri ilə necə əlaqələndirildiyini vurğulayır.

**2. Geyim sənayesində elektron ticarət və rəng strategiyaları**

Müasir rəqəmsal iqtisadiyyatın inkişafı ilə birlikdə geyim sənayesi ən çox dəyişikliklərə uğrayan və elektron ticarət mühitində adaptasiya qabiliyyətini sürətlə artıran sahələrdən birinə çevrilmişdir. Elektron ticarət, ənənəvi mağazalardan fərqli olaraq, vizual elementlərin daha böyük rol oynadığı bir platformadır, çünki istehlakçılar məhsulları fiziki olaraq yoxlamaq əvəzinə, onların şəkillərinə və təsvirlərinə əsaslanaraq seçim edirlər. Bu kontekstdə rənglər, məhsulun fərqləndirilməsi, yadda qalanlıq və istehlakçıların qərar qəbuletmə prosesində kritik əhəmiyyət kəsb edir. Geyim sənayesində elektron ticarət platformaları üçün rəng strategiyalarının əsas məqsədi istehlakçılarla brend arasında emosional əlaqə yaratmaq və məhsulun üstünlüklərini effektiv şəkildə təqdim etməkdir. Elektron mühitdə rənglər, yalnız məhsulun estetik xüsusiyyətlərini deyil, həmçinin onun kateqoriyasını, keyfiyyət standartını və brend dəyərlərini ifadə edən simvollar kimi çıxış edir. Məsələn, gənclərə yönəlmiş geyim brendləri parlaq və cəsarətli rənglərdən istifadə edərək dinamizmi vurğulayır, halbuki klassik geyim brendləri neytral və sakit rəng tonları ilə brendin etibarlılığını və prestijini ön plana çıxarır [1].

Elektron ticarət mühitində rənglərin istehlakçı diqqətini cəlb etmək üçün istifadə edilməsi strateji olaraq iki əsas istiqamətə bölünür: məhsul rəngləri və veb-saytın dizaynında istifadə olunan rənglər.

Məhsul rəngləri istehlakçının məhsula dair ilkin təəssüratını yaradır və onun emosional reaksiyasını formalaşdırır. Bununla yanaşı, veb-saytın ümumi dizaynında istifadə olunan rənglər, istehlakçının alış təcrübəsini daha intuitiv və cəlbedici edir. Məsələn, minimalist dizayn və sakit rəng palitrası istehlakçıda etibar hissi yarada bilər, halbuki yüksək kontrastlı rənglər dinamizm və təcili hərəkət etmək mesajı ötürür. Rənglərin elektron ticarətdə satış artımına təsiri müxtəlif tədqiqatlarla sübut edilmişdir. Rənglərin təsirini dəyərləndirmək üçün A/B testlərindən geniş istifadə olunur. Məsələn, bir araşdırma göstərir ki, "al" düyməsinin qırmızı rənglə təqdim edilməsi, yaşıl rənglə müqayisədə daha çox klik və satışla nəticələnir. Bu, qırmızı rəngin insanlarda təcili qərar vermə impulsu yaratması ilə əlaqələndirilir. Belə nəticələr rənglərin istehlakçı psixologiyasına və elektron ticarətdə alınma ehtimalına təsir gücünü göstərir.

Rəng strategiyalarının tətbiqində diqqət yetirilməli əsas məqam isə hədəf auditoriyanın demoqrafik və psixoqrafik xüsusiyyətləridir. Rənglər fərqli yaş qrupları, cinslər və mədəniyyətlər üçün fərqli mənalar daşıya bilər. Məsələn, gənc istehlakçılar arasında neon rənglər daha çox populyarlıq qazanır, lakin yaşlı auditoriya üçün pastel və neytral tonlar daha uyğun ola bilər. Bu səbəbdən rəng strategiyası hazırlayarkən istehlakçı bazasının tələblərinə uyğun fərdiləşdirilmiş yanaşma tətbiq etmək mühümdür.

Elektron ticarətdə rəng strategiyaları həm də bazar rəqabətində fərqləndirici amil kimi çıxış edir. Brendlər rənglər vasitəsilə məhsul və xidmətlərini rəqiblərdən ayıraraq istehlakçı yaddaşında möhkəm yer tutmağa çalışırlar. Bu xüsusilə geyim sənayesində aktualdır, çünki istehlakçılar çox vaxt rənglər əsasında ilkin seçimlərini edirlər. Eyni zamanda, rənglərin məhsul kateqoriyalarına uyğunlaşması alıcıların qərarlarını daha asanlaşdırır və brendə qarşı müsbət münasibət formalaşdırır. Elektron ticarətdə rəng strategiyalarının daha dərindən tədqiqi, istehlakçı davranışlarının kompleks analizini tələb edir. Bu, rənglərin yalnız vizual cazibədarlıq vasitəsi kimi deyil, həm də alıcıların qərar qəbuletmə prosesinə təsir göstərən psixoloji bir mexanizm olduğunu göstərir. Geyim sənayesində bu təsirin çoxsəviyyəli təhlili rənglərin müxtəlif aspektlərini və onların ticarət uğuruna birbaşa təsirini ortaya qoyur.

Əvvəla, rənglərin elektron ticarət platformalarındakı məhsul təqdimatlarına təsirini nəzərdən keçirmək vacibdir. Geyim məhsullarının rəngləri, istehlakçıların məhsulu necə qavramasında və onların psixoloji reaksiyalarında birbaşa rol oynayır. Məsələn, qış geyimləri üçün daha tünd və sakit rənglər təklif olunur, çünki bu, məhsulun istilik və rahatlıq təmin edəcəyi təəssüratını yaradır. Eyni zamanda, yaz-yay geyimlərində parlaq və açıq rənglərin istifadəsi məhsulun yüngüllük və dinamizm xüsusiyyətlərini vurğulayır. Bu cür rəng seçimi yalnız məhsulun estetik cazibədarlığını artırmaqla kifayətlənmir, həm də istehlakçıların alış qərarlarını sürətləndirir.

İkincisi, rənglərin veb-saytın ümumi dizaynında istifadəsi, istehlakçıların elektron ticarət təcrübəsini necə qavradığını müəyyənləşdirir. Veb-saytın rəng palitrası, istifadəçi interfeysinin cəlbediciliyi və funksionallığı ilə birləşərək istehlakçıların platformada qalma müddətinə və alış ehtimalına təsir edir. Məsələn, sakit və neytral rənglərdən ibarət rəng palitrası, veb-saytı daha professional və etibarlı göstərir, halbuki parlaq və kontrastlı rənglər daha çox dinamik və müasir bir təəssürat yaradır. Bu səbəbdən rənglərin veb-dizaynda istifadəsi yalnız estetik deyil, həm də funksional bir məsələ kimi nəzərə alınmalıdır.

Üçüncüsü, rənglərin brend fərqliliyinin formalaşmasında rolu xüsusi diqqətə layiqdir. Elektron ticarət mühitində rəqabət son dərəcə sıxdır və rənglər brendlərin vizual kommunikasiya strategiyalarında əsas fərqləndirici elementlərdən birinə çevrilir. Rənglər vasitəsilə brend öz identikliyini təsdiqləyir, istehlakçıların yaddaşında qalır və bazarda unikallığını qoruyur. Məsələn, dünya miqyasında tanınan geyim brendləri, rəngləri öz loqotiplərində və məhsullarında ardıcıl şəkildə istifadə edərək, rəqiblərindən fərqlənir və istehlakçıların etibarını qazanır. Bununla yanaşı, rənglərin məhsul təqdimatında mövsümiliyinə də diqqət yetirmək vacibdir. Mövsümi marketinq kampaniyalarında rənglərin düzgün seçilməsi, məhsulun satışını və istehlakçı diqqətini artırmaq üçün güclü vasitəyə çevrilir. Məsələn, Milad mövsümündə qırmızı və yaşıl rənglərin istifadəsi, məhsulların mövsümə uyğunluğunu vurğulayaraq satışları artırmaq üçün istifadə edilir. Yaz-yay mövsümündə isə açıq və parlaq rənglər daha çox üstünlük qazanır, çünki bu rənglər təbiət və tətil mövzuları ilə əlaqələndirilir.

Nəticə etibarilə, geyim sənayesində elektron ticarət və rəng strategiyalarının uğurlu tətbiqi, yalnız brendin fərqləndirilməsi və tanınması üçün deyil, həm də istehlakçı təcrübəsinin optimallaşdırılması və satışların artırılması üçün əsas şərtlərdən biridir [7]. Rənglərin istehlakçı psixologiyasına, məhsul təqdimatına və bazar strategiyalarına təsirinin kompleks şəkildə öyrənilməsi, brendlərin rəqəmsal mühitdə

möhkəmlənməsi üçün vacib bir vasitədir. Bu yanaşma, həm yerli, həm də qlobal bazar kontekstində brend strategiyalarının daha effektiv və hədəfə uyğun həyata keçirilməsi üçün geniş imkanlar yaradır.

**3. Elektron ticarətdə istehlakçı davranışları və rənglərin rolunun tədqiqi**

Elektron ticarət mühitində istehlakçı davranışlarının öyrənilməsi, rəqəmsal satış platformalarının daha səmərəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu davranışlar müxtəlif faktorların təsiri altında formalaşır ki, bunlardan biri də rənglərin insan psixologiyası və qərar qəbuletmə mexanizmlərinə təsiridir. Rənglər elektron ticarət platformalarında məhsul təqdimatından istifadəçi interfeysinə qədər bir çox aspektdə mühüm rol oynayır və istehlakçıların alış qərarlarını yönləndirməkdə həlledici amilə çevrilir.

Elektron ticarət mühitində rənglərin istehlakçı davranışlarına təsiri ilk növbədə onların diqqətini cəlb etməkdən başlayır. Araşdırmalar göstərir ki, insanlar vizual məlumatı qavramaqda digər duyğulardan daha çox üstünlük verir və bu zaman rənglər əsas təəssürat yaratma vasitəsi rolunda çıxış edir. Məsələn, canlı və parlaq rənglər istehlakçıların diqqətini tez bir zamanda cəlb edir, halbuki sakit və neytral rənglər daha çox etibar və stabillik mesajını çatdırır. Beləliklə, rənglərin seçimi istehlakçının məhsula ilkin yanaşmasını və onun platformada qalma müddətini müəyyənləşdirir. Rənglərin istehlakçı emosiyalarına və qərar qəbuletmə prosesinə təsiri psixoloji mexanizmlər vasitəsilə baş verir. Məsələn, qırmızı rəng təcili hərəkətə çağırış hissi yaradır və məhsulun eksklüzivliyi barədə mesaj verə bilər, yaşıl rəng isə təhlükəsizlik və harmoniya duyğusu aşılayır. Elektron ticarətdə bu xüsusiyyətlər “indi al” və ya “məhdud təklif” kimi çağırışların təsirini artırmaq üçün istifadə olunur. Belə psixoloji təsirlər, rənglərin alıcıların alış qərarlarına birbaşa təsir edən mühüm faktor olduğunu göstərir [4].

Mədəniyyətlərarası fərqlər də rənglərin istehlakçı davranışlarına təsirində önəmli rol oynayır. Məsələn, Şərq mədəniyyətlərində sarı rəng optimizm və uğur simvolu hesab edilir, halbuki bəzi qərb ölkələrində bu rəng xəbərdarlıq və ehtiyat mesajı ötürə bilər. Bu fərqliliklər göstərir ki, rənglərin təsirini effektiv şəkildə idarə etmək üçün hədəf bazarın mədəni xüsusiyyətləri nəzərə alınmalıdır. Bu yanaşma beynəlxalq elektron ticarət platformalarında rəng strategiyalarının hazırlanması üçün mühüm əhəmiyyət daşıyır.

Rənglərin elektron ticarət platformalarında təsirini qiymətləndirmək üçün A/B testlərindən və analitik alətlərdən istifadə olunur. Bu üsullar rənglərin müxtəlif dizayn elementləri, məsələn, məhsul şəkilləri, düymələr və ya fon rəngləri üzərindəki təsirini ölçmək üçün tətbiq edilir. Məsələn, düymələrin qırmızı və yaşıl rənglərlə təqdim edildiyi bir təcrübədə qırmızı rəng daha yüksək klik dərəcəsi əldə etmişdir. Bu nəticələr rənglərin istehlakçının diqqətini cəlb etmə və alış qərarını təsir etmə qabiliyyətini təsdiq edir. Elektron ticarətdə rənglərin istehlakçı davranışlarına təsirinin ən vacib aspektlərindən biri də məhsul kateqoriyalarına uyğunlaşdırılmış rəng seçimidir. Məsələn, idman geyimləri üçün enerjini və hərəkəti ifadə edən parlaq rənglər üstünlük təşkil edir, halbuki lüks məhsullar üçün tünd və zərif rənglərdən istifadə edilir. Belə rəng seçimləri istehlakçıların məhsul haqqında ilkin qavrayışını formalaşdırmaqla yanaşı, onların məhsula uyğunluğunu daha yaxşı dərk etməsinə kömək edir.

Elektron ticarətdə rənglərin istehlakçı davranışlarına təsirini daha dərindən anlamaq üçün, həm fərdi səviyyədə, həm də kollektiv psixoloji proseslər baxımından rənglərin təsir mexanizmlərini təhlil etmək zəruridir. Fərdi səviyyədə rənglər insanların emosional reaksiyalarını idarə edən və onların qərar qəbuletmə prosesinə təsir edən güclü vizual stimullardır. Məsələn, soyuq rənglər (mavi, yaşıl, bənövşəyi) daha çox sakitlik və təhlükəsizlik hissi yaradır, halbuki isti rənglər (qırmızı, narıncı, sarı) enerjini, dinamizmi və təcili qərar qəbul etmə istəyini stimullaşdırır. Bu fərqliliklər brendlərə rəng strategiyalarını istehlakçıların emosional vəziyyətinə və alış impulslarına uyğun tərtib etməyə imkan yaradır. Kollektiv psixoloji proseslər isə mədəniyyətlər və sosial qruplar arasında rənglərin qavrayışında oxşarlıqları və fərqləri əhatə edir. Elektron ticarət platformaları üçün global bazara yönəlmiş strategiyalar hazırlayarkən rənglərin mədəni kontekstlərini nəzərə almaq çox vacibdir. Məsələn, Avropa ölkələrində ağ rəng minimalizm və təmizlik ilə əlaqələndirilir, halbuki Asiya bazarlarında bu rəng bəzi hallarda mənfi emosiyalarla assosiasiya olunur. Bu fərqlilikləri nəzərə almayan rəng strategiyaları istehlakçının məhsul və ya brend haqqında yanlış təsəvvürlər əldə etməsinə səbəb ola bilər ki, bu da satışların azalmasına gətirib çıxara bilər [8].

Rənglərin təsir mexanizmləri ilə yanaşı, onların elektron ticarət platformalarındakı spesifik tətbiqləri də tədqiq edilməlidir. Məsələn, "təklif" və ya "endirim" mesajlarını ötürən elementlər üçün par-

laq rənglərdən istifadə istehlakçının diqqətini cəlb etmək üçün daha təsirli olur. Eyni zamanda, məhsul kateqoriyalarının fərqləndirilməsi üçün rəng kodlaması metodlarından istifadə edilə bilər. Məsələn, qadın geyimləri üçün daha zərif rəng tonlarından (çəhrayı, lavanda, pastel çalarlar), kişi geyimləri üçün isə daha tünd və neytral rənglərdən (qara, boz, tünd mavi) istifadə etmək istehlakçılara seçim prosesində asanlıq təmin edir. Elektron ticarətdə rənglərin təsirinin dəyərləndirilməsi üçün müasir texnologiyaların tətbiqi, məsələn, rəqəmsal analiz alətləri və maşın öyrənməsi modelləri, rəng strategiyalarının effektivliyini artırmağa imkan yaradır. Bu texnologiyalar vasitəsilə istifadəçi davranışları, klik dərəcələri, məhsul baxışları və alış nisbətləri analiz edilərək, rənglərin istehlakçı davranışlarına təsiri barədə dəqiq məlumat əldə edilir. Belə analizlər əsasında rənglərin psixoloji və emosional təsirlərinin müxtəlif bazar seqmentləri üçün optimallaşdırılması mümkündür.

Yekun olaraq, rənglərin elektron ticarətdə istehlakçı davranışlarına təsiri yalnız nəzəri səviyyədə deyil, həm də əməli baxımdan yüksək əhəmiyyətə malikdir. Rənglərin psixoloji təsir mexanizmlərini, mədəniyyətlərarası fərqlilikləri və texnoloji tətbiqləri nəzərə alaraq hazırlanmış rəng strategiyaları, elektron ticarət platformalarının uğurunu təmin etmək üçün güclü bir vasitədir. Bu yanaşma, rəqəmsal mühitdə brendlərin istehlakçılarla daha möhkəm emosional əlaqələr qurmasına, bazarda davamlı rəqabət üstünlüyü əldə etməsinə və satış göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına şərait yaradır.

**4. Dünya geyim brendlərinin elektron ticarət strategiyaları və rəng təcrübələri**

Qlobal geyim sənayesi elektron ticarətin sürətlə genişlənməsi ilə yeni strategiyaların tətbiqini və innovativ yanaşmaların inkişafını zəruri etmişdir. Bu mühitdə rənglərin istifadə edilməsi dünya miqyasında tanınmış geyim brendlərinin bazarda mövqelərini gücləndirmək üçün tətbiq etdiyi əsas strategiyalardan biri olmuşdur. Brendin rəng təcrübələri, məhsul təqdimatında, veb-dizaynda və marketinq kampaniyalarında fərqlilik və yadda qalanlıq yaratmaq məqsədini daşıyır.

Məşhur geyim brendləri, məsələn, Zara, H&M və Nike, rəngləri yalnız məhsullarının fərqləndirilməsi üçün deyil, həm də brend identikliyini möhkəmləndirmək üçün strateji bir alət kimi istifadə edirlər. Zara, minimalist və neytral rənglərdən istifadə edərək lüksə yaxın, lakin əlçatan bir imic yaradır. Onun elektron ticarət platforması əsasən ağ, qara və boz rəng tonlarında qurulmuşdur ki, bu da müştərilərə yüksək keyfiyyət və sadəlik təəssüratı yaradır. Nike, əksinə, daha parlaq və enerjili rəng palitrasına üstünlük verir, bu da brendin dinamik və idman yönümlü xarakterini vurğulayır. Dünya brendlərinin rəng təcrübələri yalnız estetik seçimlərlə məhdudlaşmır, həm də istehlakçı psixologiyasını idarə edən mexanizmlərə əsaslanır. Adidas, məsələn, müəyyən kampaniyalar üçün spesifik rənglər seçərək, fərqli bazar seqmentlərinə yönəlmiş fərdiləşdirilmiş strategiyalar tətbiq edir. Məsələn, gənc auditoriya üçün canlı rənglər (narıncı, yaşıl, neon çalarları) təqdim edilir, halbuki daha yaşlı və peşəkar seqmentlər üçün tünd və zərif rənglərdən istifadə olunur.

Müasir texnologiyaların tətbiqi rəng təcrübələrini daha da effektiv edir. Uniqlo, rənglərin istehlakçı davranışına təsirini anlamaq üçün rəqəmsal analitik alətlərdən istifadə edir. Platforma istifadəçilərin ən çox diqqət yetirdiyi rəngləri və məhsulları analiz edərək, kampaniyalarını və məhsul portfelini optimallaşdırır. Bu yanaşma rənglərin satış artımına necə töhfə verdiyini göstərir. Bundan əlavə, dünya geyim brendləri rənglər vasitəsilə mövsümi kampaniyaları da gücləndirir. H&M, məsələn, yay kolleksiyalarında parlaq və açıq rənglərdən istifadə edir, halbuki qış kolleksiyalarında tünd və sakit rənglər üstünlük təşkil edir. Bu strategiya, istehlakçılarda məhsulun mövsümə uyğunluğu barədə təəssürat yaradır və satışların artımına səbəb olur [3].

Brendlər rəng strategiyalarını hazırlayarkən mədəniyyətlərarası fərqləri də nəzərə alırlar. Gucci və Louis Vuitton kimi lüks geyim brendləri, qlobal bazarlarda fəaliyyət göstərdikləri üçün rəng seçimlərində həm universal, həm də lokal mədəni xüsusiyyətləri balanslaşdırmağa çalışırlar. Məsələn, Çin Yeni İli kampaniyalarında qırmızı rəngdən geniş istifadə edilir ki, bu da uğur və xoşbəxtlik simvolu kimi qəbul edilir.

Dünya geyim brendlərinin rəng strategiyaları və təcrübələrinin təhlili göstərir ki, rənglər yalnız istehlakçıların diqqətini cəlb etmək vasitəsi deyil, həm də brendin dəyərlərini və bazardakı mövqeyini ifadə edən əsas kommunikasiya vasitəsidir. Brendlər rənglərin təsirini daha da artırmaq üçün müasir texnologiyalardan və məlumat analizindən istifadə edirlər. Bu, rənglərin təsirinin dəqiqliklə ölçülməsi və daha çox hədəf bazarına uyğunlaşdırılması üçün yeni imkanlar yaradır. Məsələn, ASOS kimi qlobal elektron ticarət platformaları rənglərin təsirini optimallaşdırmaq üçün A/B testlərindən və maşın öyrənməsindən

istifadə edir. ASOS, veb-sayt dizaynında və məhsul təqdimatında rənglərin təsirini analiz edərək, müxtəlif rənglərin hansı demoqrafik qruplar üçün daha cəlbedici olduğunu müəyyən edir. Bu yanaşma brendin fərqli bazar seqmentləri üçün daha uyğun strategiyalar hazırlamasına kömək edir. Dünya brendləri rəngləri yalnız məhsul təqdimatında deyil, həm də istifadəçi təcrübəsini artırmaq üçün veb-dizaynda və marketinqdə geniş istifadə edirlər. Məsələn, Patagonia, ekoloji dəyərlərini vurğulamaq üçün yaşıl və torpaq rənglərindən istifadə edərək, həm məhsullarında, həm də veb-sayt dizaynında davamlılıq ideyasını gücləndirir. Bu, istehlakçıların yalnız məhsulu deyil, həm də brendin dəyərlərini qəbul etməsinə şərait yaradır. Rənglərin emosional təsiri brendlərin xüsusi kampaniyaları üçün də mühüm əhəmiyyət daşıyır. Victoria's Secret, məsələn, Sevgililər Günü kampaniyalarında çəhrayı və qırmızı rənglərə üstünlük verərək, sevgi və romantika mesajlarını daha təsirli çatdırır. Eyni şəkildə, Levi's denim məhsulları üçün daha çox mavi çalarlardan istifadə edərək, brendin tarixini və dayanıqlığını simvolizə edir.

Elektron ticarətdə rənglərin uğurlu tətbiqi həm də brendlərin istehlakçı davranışlarını proqnozlaşdırmaq və onlara uyğun strategiyalar hazırlamaq imkanından asılıdır. Bu baxımdan, rənglərin təsir mexanizmlərinin öyrənilməsi yalnız mövcud strategiyaları optimallaşdırmaq üçün deyil, həm də yeni bazarlara giriş strategiyalarını inkişaf etdirmək üçün vacibdir. Məsələn, Burberry, Asiya bazarına yönələn strategiyalarında ənənəvi rənglərdən istifadə edərək, lokal istehlakçıların mədəni dəyərlərinə uyğunlaşmağa çalışır. Rəqəmsal mühitin dinamikası və rəqabət təzyiqi dünya geyim brendlərini daha yaradıcı rəng təcrübələri tətbiq etməyə vadar edir. Bu təcrübələr brendin yalnız vizual kommunikasiya vasitəsi kimi deyil, həm də istehlakçılarla emosional bağ qurma aləti kimi rənglərdən daha səmərəli istifadəsini təmin edir. Beləliklə, rəng strategiyalarının təkmilləşdirilməsi və innovativ tətbiqləri, dünya brendlərinin elektron ticarət mühitində uzunmüddətli uğurunun təminatına çevrilmişdir [10].

Beləliklə, rənglər dünya geyim brendlərinin elektron ticarət strategiyalarında çoxfunksiyalı və çoxşaxəli bir vasitədir. Brendlərin rəng strategiyaları həm istehlakçılara məhsulun dəyərlərini daha yaxşı çatdırmağa, həm də bazarda fərqləndirici mövqe əldə etməyə xidmət edir. Rənglərin psixoloji təsirlərini nəzərə alan və texnoloji yeniliklərdən istifadə edən yanaşmalar, qlobal bazarda rəqabət üstünlüyü qazanmaq istəyən brendlər üçün əvəzolunmaz bir alət kimi çıxış edir. Bu, rənglərin yalnız texniki və marketinq aspektlərini deyil, həm də istehlakçı təcrübəsini formalaşdırmaq üçün strateji bir komponent olduğunu təsdiqləyir.

**5. Azərbaycan geyim sənayesi və elektron ticarətdə rənglərin tətbiqi imkanları**

Azərbaycanın geyim sənayesi, həm yerli istehlak bazarının tələblərinə cavab vermək, həm də qlobal rəqabətdə mövqe əldə etmək məqsədilə sürətlə inkişaf edir. Bu sahənin elektron ticarət müstəvisinə inteqrasiyası ilə brendlərin tanınması, satış potensialının artırılması və istehlakçılarla daha yaxın emosional əlaqə qurulması üçün yeni imkanlar yaranır. Elektron ticarətdə rənglərin strateji istifadəsi isə bu prosesin mühüm komponentlərindən biridir.

Rənglərin psixoloji və mədəni təsirləri nəzərə alınaraq, Azərbaycan geyim brendləri rənglərin alıcı davranışlarına təsirini öz marketinq strategiyalarında səmərəli şəkildə tətbiq edə bilərlər. Ölkədə rənglərin qavranılması mədəni və sosial faktorlarla sıx bağlıdır. Məsələn, milli motivlərdə istifadə olunan rənglər (qırmızı, yaşıl, mavi) həm tarixi irs, həm də müasir brend identikliyi üçün əsaslı bazis təşkil edə bilər. Bu rənglər geyim dizaynlarında və elektron ticarət platformalarının vizual təqdimatında milli fərqlilikləri vurğulamaq üçün istifadə edilə bilər [9].

Elektron ticarət mühitində rənglərin tətbiqi perspektivləri Azərbaycan bazarında rənglərin istehlakçıların məhsul seçiminə təsiri nəzərə alınaraq bir neçə əsas istiqamət təklif edilə bilər:

1. Yerli geyim brendləri rəngləri brend identikliyinin ayrılmaz hissəsi kimi istifadə edə bilərlər. Məsələn, müəyyən brendlər üçün xüsusi rənglər müəyyənləşdirilərək, bu rənglər brendin məhsullarında və marketinq materiallarında ardıcıl şəkildə istifadə edilə bilər. Bu yanaşma brendin yadda qalanlığını artırmağa kömək edəcəkdir.

2. Rənglər elektron ticarət platformalarında məhsulların kateqoriyalaşdırılması üçün effektiv vasitə kimi istifadə oluna bilər. Məsələn, uşaq geyimləri üçün parlaq və cəlbedici rənglərdən, iş geyimləri üçün isə neytral və sakit tonlardan istifadə edərək istehlakçıların seçim prosesini asanlaşdırmaq mümkündür.

3. Rənglərin mövsümi dəyişikliklərə uyğun tətbiqi satışların artırılması üçün strateji yanaşma ola bilər. Yay mövsümü üçün açıq və parlaq rənglər, qış üçün isə tünd və isti rəng tonları təqdim olunaraq, istehlakçılarda məhsulun mövsümə uyğunluğu barədə müsbət təsəvvür yaradıla bilər.

4. Azərbaycan milli geyim sənayesində geniş yayılmış rəng motivləri, məsələn, xalçalarda və naxışlarda rast gəlinən çalarlar, müasir geyim dizaynlarına daxil edilə bilər. Bu yanaşma, həm daxili bazarda milli brendlərə olan marağı artırar, həm də qlobal bazarda Azərbaycanın unikal geyim mədəniyyətini təqdim etmək üçün yeni imkanlar yaradardı.

5. Elektron ticarətdə rənglərin effektivliyini artırmaq üçün rəqəmsal texnologiyaların istifadəsi vacibdir. İstehlakçıların rəng seçimlərini analiz edən alətlərin tətbiqi, yerli brendlərin daha dəqiq bazar strategiyaları hazırlamasına kömək edə bilər. Bu yanaşma, rənglərin istehlakçıların qərar qəbuletmə prosesinə təsirini daha dərindən başa düşmək üçün imkan yaradır.

Azərbaycan bazarında rəng strategiyalarının tətbiqi müəyyən çətinliklərlə qarşılaşsa da, bu istiqamətdə böyük üstünlüklər də mövcuddur. Əsas çağırışlardan biri, yerli bazarın rəqəmsallaşma səviyyəsinin hələ tam inkişaf etməməsidir. Bununla belə, artan internet istifadəçiləri sayı və elektron ticarət platformalarının genişlənməsi rənglərin strateji istifadəsi üçün geniş imkanlar təqdim edir [5].

Üstünlüklər baxımından, Azərbaycanın zəngin mədəni irsi və unikal rəng motivləri yerli brendlərə qlobal bazarda fərqlənmək üçün təbii bir üstünlük verir. Milli və müasir elementlərin rənglər vasitəsilə birləşdirilməsi, həm yerli, həm də beynəlxalq istehlakçılar arasında maraq doğura bilər.

Azərbaycan geyim sənayesinin elektron ticarətdə rəng strategiyalarını tətbiq etməsi, həm yerli bazarın inkişafına, həm də qlobal arenada rəqabət qabiliyyətinin artırılmasına xidmət edə bilər. Rənglərin psixoloji təsirləri, mədəni kontekstləri və texnoloji tətbiqləri nəzərə alınaraq hazırlanmış strategiyalar, yerli brendlərin mövqelərini möhkəmləndirmək və istehlakçılarla dərin emosional əlaqə qurmaq üçün mühüm vasitə ola bilər. Bu yanaşma, eyni zamanda, milli geyim sənayesinin beynəlxalq səviyyədə tanıdılması üçün strateji bir alət kimi çıxış edə bilər.

## YEKUN

Elektron ticarətin genişlənməsi və rəqəmsal iqtisadiyyatın inkişafı, geyim sənayesində brendlərin rəng strategiyalarının əhəmiyyətini daha da artırmışdır. Rənglərin istehlakçı davranışlarına təsiri, həm emosional, həm də psixoloji mexanizmlər vasitəsilə baş verir ki, bu da rənglərin marketinq və satış strategiyalarının ayrılmaz bir hissəsinə çevrilməsinə səbəb olmuşdur. Elektron ticarət platformalarında rənglər, məhsulun təqdimatı, istehlakçı təcrübəsi və brend fərqləndirilməsi baxımından strateji alət kimi istifadə edilməkdədir.

Azərbaycan geyim sənayesi üçün elektron ticarətdə rənglərin tətbiqi geniş potensiala malikdir. Ölkənin zəngin mədəni irsi və unikal dizayn elementləri rəng strategiyalarının yaradılmasında mühüm rol oynaya bilər. Milli motivlərin və müasir yanaşmaların sintez edilməsi, həm yerli istehlak bazarının genişləndirilməsi, həm də beynəlxalq bazarda mövqelərin gücləndirilməsi üçün geniş imkanlar təqdim edir.

Rənglərin psixoloji və mədəni təsirlərinin daha dərindən araşdırılması, həm də rəqəmsal analitik alətlərin tətbiqi ilə rəng strategiyalarının optimallaşdırılması, Azərbaycan geyim brendlərinin elektron ticarət mühitində dayanıqlılığını təmin edəcəkdir. Bu yanaşma, yerli və qlobal bazarlarda rəqabət üstünlüyü əldə etmək üçün vacibdir.

Aşağıdakı təkliflər Azərbaycan geyim sənayesində rənglərin strateji istifadəsini artıraraq, yerli brendlərin həm daxili, həm də xarici bazarda uğurunu təmin etmək üçün effektiv yanaşmalar təqdim edir:

1. Azərbaycan geyim brendləri, milli irsi və dizayn elementlərini vurğulamaq üçün rənglərdən istifadə etməlidir. Xalça naxışlarından, milli ornamentlərdən və rəng çalarlarından ilhamlanmış dizaynlar brendlərin beynəlxalq tanınmasına şərait yarada bilər.

2. Elektron ticarət platformalarında rənglərin təsirini izləmək üçün müasir analitik alətlərdən istifadə edilməlidir. İstehlakçıların rəng seçiminə dair məlumatlar toplanaraq, fərdiləşdirilmiş marketinq kampaniyaları həyata keçirilə bilər.

3. Geyim məhsulları mövsümi trendlərə uyğun rənglərdə təqdim edilməlidir. Yaz-yay mövsümü üçün açıq və canlı rənglər, qış üçün isə sakit və isti tonlar seçilməlidir.

4. Müxtəlif geyim kateqoriyalarına uyğun rəng strategiyaları hazırlanmalıdır. Uşaq geyimləri üçün cəlbedici və parlaq rənglər, rəsmi geyimlər üçün neytral və sakit tonlar seçilməlidir.

5. Xarici bazarlarda uğur qazanmaq üçün rəng strategiyaları hədəf auditoriyanın mədəni və sosial xüsusiyyətlərinə uyğun tərtib olunmalıdır.

6. Rənglərin təsirini optimallaşdırmaq üçün maşın öyrənməsi və süni intellekt əsaslı alətlərdən istifadə edilməli, rəqəmsal analitiklər vasitəsilə istehlakçı davranışlarının proqnozlaşdırılması təmin edilməlidir.

Belə strategiyalar brendlərin rəqəmsal mühitdə

möhkəmlənməsi və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Allahverdiyeva S. (2017), "Elektron ticarətin inkisafinda yeni marketinq strategiyalarinin rolu", Azərbaycan Turizm Və Menecment Universiteti, Bakı, 91 səh.*
2. *Broeder P., & Wildeman N. (2020). The colour red for emotion in cross-cultural e-commerce. Eurasian Journal of Business and Economics, №13(25), p.75-89.*
3. *Douglas K., (7 Mart, 2023), "Rəngin emosiya, münasibət və davranışa psixoloji təsiri", Bakı, https://az.martech.zone/color-psychology/*
4. *Fei C., & Esteban A. P. (2024). The Psychology in Tech Tactics: Basis for E-Commerce Website Development. The Quest: Journal of Multidisciplinary Research and Development, №3(1).11 p.*
5. *Kərimova K.E. (2018), "Geyimin layihələndirilməsində rəng simvolikası və onun psixoloji təsirinin təhlili", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 52 səh.*
6. *Məmmədli Q.(2021), "Sosial Media Marketinqi", Bakı, Academia, 218 səh.*
7. *Məmmədova A.D. (2018), "Qadın geyiminin layihələndirilməsində rəng həllinin analizi", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 49 səh.*
8. *Öndoğan E. N., & Öndoğan Z. (2021). Covid-19 Sürecinin Hazır Giyim Markalarının Pazarlama Stratejileri. Turkish Journal of Fashion Design and Management, №3(3), s.89-118.*
9. *Uyaroğlu E. O. (2022). Satış geliştirme faaliyetlerinin marka imajına etkisi üzerine e-ticaret hazır giyim perakende sektöründe bir saha araştırması.193 s.*
10. *Wang Y. (2022). Research on the influence of visual communication design based on color psychology on consumers' psychological needs. Psychiatria Danubina, №34(4), p.1158-1163.*


**Сама Гурбанзаде Шафахат**

## ПСИХОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ ЦВЕТОВ В ЭЛЕКТРОННОЙ КОММЕРЦИИ И СТРАТЕГИИ ПРОДАЖ БРЕНДОВ ОДЕЖДЫ

### РЕЗЮМЕ


Цель исследования – изучение влияния цветов брендов на выбор потребителей в индустрии одежды в условиях электронной коммерции современности. Дополнительно были проанализированы и систематизированы основные факторы, влияющие на психологию и поведение потребителей через цвета. Определена роль цветов брендов в развитии маркетинговых стратегий в индустрии одежды.

Методология исследование –основано на системных анализах, а также на теоретических и эмпирических подходах для оценки влияния цветов брендов в условиях электронной коммерции. Были применены психологические, социологические и маркетинговые подходы, а также использован мировой опыт и местные примеры.

Практическая значимость исследования – Результаты исследования могут быть полезны для предприятий индустрии одежды при разработке стратегий эффективного использования цветов брендов в электронной коммерции, усиления маркетинговых кампаний и управления поведением потребителей. Эти подходы применимы как для местных, так и для международных брендов.

Результаты исследования – Объяснены механизмы влияния цветов брендов на выбор одежды потребителями, а также разработаны рекомендации по выбору цветов для успешных бренд-стратегий в электронной коммерции. Кроме того, изучено влияние психологических и культурных факторов на восприятие цветов и их использование в маркетинговых стратегиях.

Оригинальность и научная новизна исследования – Влияние цветов брендов в индустрии одежды в условиях электронной коммерции исследовано в ограниченном количестве научных работ. Данная работа предоставляет детальное изучение влияния цветов брендов на поведение потребителей, предлагая как теоретические, так и практические подходы. Результаты исследования основаны на мировом опыте и аналитическом подходе автора.


**Ключевые слова:** *электронная коммерция, цвета брендов, индустрия одежды, поведение потребителей, маркетинговые стратегии, психологическое влияние.*

**Sema Gurbanzade Shafahat**

**THE PSYCHOLOGICAL IMPACT OF COLORS IN E-COMMERCE AND SALES STRATEGIES OF CLOTHING BRANDS**

**SUMMARY**

The purpose of the research is to study the impact of brand colors on consumer choices in the clothing industry within the e-commerce environment in modern times. Additionally, the main factors influencing consumer psychology and behavior through colors have been analyzed and systematized. The role of brand colors in the development of marketing strategies in the clothing industry has been identified.

Methodology – The research employs systematic analyses as well as theoretical and empirical approaches to assess the impact of brand colors in the e-commerce environment. Psychological, sociological, and marketing perspectives have been utilized, and both global practices and local examples have been incorporated.

The practical importance of the research – The findings of the research can be useful for clothing industry enterprises to develop strategies for the effective use of brand colors in the e-commerce environment, enhance marketing campaigns, and manage consumer behavior. These approaches can be applied to both local and international brands.

The results of the research – Mechanisms by which brand colors influence consumer clothing choices have been explained, and recommendations for the selection of colors for successful brand strategies in e-commerce have been developed. Additionally, the influence of psychological and cultural factors on colors has been investigated, showing how these can be utilized in marketing strategies.

The originality and scientific novelty of the research – The impact of brand colors in the clothing industry within the e-commerce environment has been explored in limited scientific studies. This work provides a detailed investigation of the impact of brand colors on consumer behavior, offering both theoretical and practical approaches. The research findings are based on global practices and the author's analytical perspective.

**Keywords:** *e-commerce, brand colors, clothing industry, consumer behavior, marketing strategies, psychological impact.*

**XÜLASƏ**

Tədqiqatın məqsədi – müasir dövrdə elektron ticarətdə brend rənglərinin geyim sənayesində istehlakçı seçimlərinə təsirinin tədqiqindən ibarətdir. Bununla yanaşı, rənglərin istehlakçı psixologiyasına və davranışlarına təsir edən əsas amillər təhlil edilmiş və sistemləşdirilmişdir. Brend rənglərinin geyim sənayesində marketinq strategiyalarının inkişafında rolu müəyyənləşdirilmişdir.

Tədqiqatın metodologiyası - sistemli təhlillərdən, bundan başqa, elektron ticarət mühitində brend rənglərinin təsiri üzrə nəzəri və empirik yanaşmaların analizindən ibarətdir. Tədqiqatda psixoloji, sosioloji və marketinq yanaşmaları tətbiq edilmiş, həmçinin dünya təcrübəsindən və yerli nümunələrdən istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti - tədqiqatda əldə edilmiş nəticələr elektron ticarət mühitində brend rənglərindən səmərəli istifadə etmək üçün geyim sənayesi müəssisələrinə strategiyalar hazırlamaq, marketinq kampaniyalarını gücləndirmək və alıcı davranışlarını idarə etmək məqsədilə faydalı ola bilər. Bu yanaşmalar həm yerli, həm də beynəlxalq brendlər üçün tətbiq edilə bilər.

Tədqiqatın nəticələri – brend rənglərinin istehlakçıların geyim seçiminə təsirinin mexanizmləri açıqlanmış, elektron ticarətdə uğurlu brend strategiyaları üçün rənglərin seçimi üzrə tövsiyələr hazırlanmışdır. Bundan əlavə, psixoloji və mədəni amillərin rənglərə təsiri araşdırılmış və onların marketinq strategiyalarında necə istifadə edilə biləcəyi göstərilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – brend rənglərinin geyim sənayesində elektron ticarət mühitində təsiri az sayda elmi tədqiqatlarda araşdırılmışdır. Bu işdə brend rənglərinin istehlakçı davranışına təsiri ətraflı tədqiq edilmiş, həm nəzəri, həm də praktik yanaşmalar təklif olunmuşdur. Tədqiqat nəticələri dünya təcrübəsinə və müəllifin analitik yanaşmasına əsaslanır.

**Açar sözlər:** *elektron ticarət, brend rəngləri, geyim sənayesi, istehlakçı davranışı, marketinq strategiyaları, psixoloji təsir.*

UOT 658;005
https://doi.org/10.30546/3006-0346.2024.6.84.072

# MÜƏSSİSƏNİN BALANSININ LİKVİDLİYİNİN TƏHLİLİ

**HÜSEYN EYVAZ HƏSƏN**
*Azərbaycan Dövlət İqtisad Universteti, doktorant*

*E-mail: hueyvaz@gmail.com*
*https://orcid.org/0009-0002-1665-6461*

Likvidlik (latın sözü – liguidity) termini sözün hərfi mənasında reallaşmanın, maddi dəyərlərin pul vəsaitlərinə çevrilməsinin tezliyi, asanlığı deməkdir. Anlayışın yaranması tarixini XIX əsrin sonlarına şamil etsələr də, iqtisadçılar bu məsələyə dair marağı daha tez ifadə etməyə başlamışdılar və bu məhz bank kontekstində xatırlanmışdır. Belə ki, A.Smit sabit bankı "…daima bir tərəfdən sızan, lakin eyni zamanda digər tərəfdən suyun daxil olduğu hovuza bənzədir. Məhz bu səbəbdən hovuzda su xüsusi qayğı və sayə göstərilmədən eyni səviyyədə qalır". Bu metaforik tərif olub, sözsüz olaraq müasir şərhlərdən uzaq olsa da, problemin mahiyyətini əks etdirir. Etibarlı bank daim bank ehtiyatları ilə bu ehtiyatların istifadəsi arasında müəyyən uyğunluğu qoruyub saxlamalıdır (3).

Müasir iqtisadi ədəbiyyatda "ödəmə, likvidlik, pula çevrilmə qabiliyyəti" termini geniş tətbiq spektrinə malik olub, iqtisadiyyatın tamamilə müxtəlif obyektlərini xarakterizə edir. O, verilən tərifdən savayı həm iqtisadi həyatın konkret obyektlərinə (əmtəə, qiymətli kağız), həm də Milli iqtisadiyyatın subyektlərinə (müəssisə, bazar) aidiyyatı olan digər anlayışlar ilə birlikdə, eləcə də iqtisadi subyektlərin fəaliyyət göstəricilərinin təyin olunması üçün (müəssisə balansı, bank balansı) istifadə olunur. Buna görə də, sonuncu instansiyada həqiqətə ümid etmədən yuxarıda qeyd olunan anlayışlardan bəzilərinin şərhini təklif etmək istərdik.

Ödəmə, likvidlik, pula çevrilmə qabiliyyəti maliyyə kateqoriyası kimi – əvvəllər sərf olunmuş dəyəri vaxtı-vaxtında qaytarmaq qabiliyyətidir.

Ödəmə qabiliyyətinin üç əsas xassəsini ayırd etmək mümkündür:

– müddət,
– dəyər,
– risk (2,108).

Vaxt, zaman ödəmə qabiliyyətinin vacib meyarıdır: obyektin nağd obyektə çevrilməsi üçün müddətin azlığı və çoxluğu olduqca əhəmiyyətlidir. Həm inkişaf etmiş, həm də tutumlu bazarların sabit tələbatının varlığı reallaşma müddətlərini minimallaşdırmağa imkan verir. İstənilən obyekt vasitəsilə dəyərin qorunması xüsusiyyəti ideal olaraq onun əldə olunma anına qarşı nisbətdə hər hansı bir maliyyə itkisi olmadan reallaşma imkanını nəzərdə tutur. Yəni ilkin olaraq avansı verilən dəyər obyektin reallaşmasından əldə olunan və ödəmə zamanı göstərilən dəyər ilə uyğunluq təşkil etməlidir. Problem ondadır ki, "malın ödəmə, pula çevrilmə qabiliyyəti" nəinki ona sərf olunan əmək istehsalının ictimai şəkildə tanınmasından, eləcə də pulların dövriyyə vasitəsi öz dəyərini ən aşağı dəyər kimi qoruma qabiliyyətindən asılı vəziyyətə qoyulmuşdur. Hətta inkişaf etmiş ölkələrdə özünü biruzə verən Asiya təzahürlərinin varlığı nəticəsində sonuncu hal hər zaman mümkün olmur və buna görə də dəyərin mütləq qaydada qorunması bir çox hallarda az ehtimal olunur.

Ödəmə, likvidlik qabiliyyətinin itirilməsi riski iki əvvəlki xarakteristikalardan irəli gəlir və obyektin nağd vəsaitə vaxtında və itkisiz çevrilməsi imkanının yoxluğu zamanı ortaya çıxır.

XIX əsrin sonunda kommersiya kreditləri nəzəriyyəsi hakim nəzəriyyə olmuş və ona müvafiq olaraq bank ödəmə, likvidlik qabiliyyətini o vaxta qədər qoruyub saxlayır ki, bu müddət ərzində aktivlər işgüzar fəallıq ilə bağlı normal şəraitdə vaxtlı-vaxtında ödənilən qısamüddətli kreditlərə yerləşdirilir. Bu nəzəriyyə iqtisadi həyatın reallıqlarını, məhz iqtisadiyyatın uzunmüddətli kreditlərə olan tələbatını; bank əmanətlərinin nisbi sabitliyini, eləcə də iqtisadiyyatın sabit vəziyyəti zamanı verilən kreditlərin hamısının banka vaxtlı-vaxtında qaytarılmayacağını nəzərə almamışdır.

XX əsrin əvvəllərində meydana çıxmış yerdəyişmə nəzəriyyəsi bu problemləri dəf etməyə cəhd göstərmiş və bu nəzəriyyə bankın ödəmə, likvidlik qabiliyyətinin bir şərtlə qorunmasını nəzərdə tutmuşdur. Bu şərtə əsasən onun aktivlərinin ya yerdəyişməsini etmək, ya da digər kreditorlara onları nağd vəsait kimi satmaq mümkündür. Yəni kreditlərin banka qaytarılmaması zamanı bank girov qoyulan qiymətli kağızların satışı yolu ilə ekvivalent məbləğləri ala bilər, ya da bu kağızları vermeklə mərkəzi bankdan kredit götürə bilərdi. Bu nəzəriyyənin çərçivələri daxilində sabit fəaliyyətin əsas şərtlərindən biri də ödəmə, likvidlik qabiliyyətinə malik olan aktivlərin, yəni dəyəri itirməklə və ya dəyərin yoxluğu ilə bağlı cüzi risklə nağd vəsaitlərə sürətlə çevrilə bilən aktivlərin daimi varlığından ibarət idi (5).

Likvidlik əmsalları aşağıdakılardır:

**Cari əmsal** – Dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə bölünməsiylə hesablanır.

Cari əmsal = Dövriyyə vəsaitləri / Qısamüddətli öhdəliklər

Current ratio = Current assets / Current liabilities

**Likvidlik əmsalı** – Dövriyyə vəsaitlərindən hazır məhsul çıxıldıqdan sonra yerdə qalan məbləğin qısamüddətli öhdəliklərə bölünməsiylə hesablanır.

Likvidlik əmsalı = (Dövriyyə vəsaitləri – Hazır məhsul) / Qısamüddətli öhdəliklər

Quick ratio = (Current assets – ınventories) / Current liabilities

**Nağd pul əmsalı** – Pul və pul ekvivalentlərinin qısamüddətli borclara bölünməsiylə hesablanır.

Nağd pul əmsalı = Nağd pul / Qısa müddətli öhdəliklər

Cash ratio = Cash / Current liabilities

Firmanın bütün aktivləri likvidlik dərəcəsindən, yəni pul vəsaitlərinə çevrilmə sürətindən asılı olaraq, şərti olaraq bir neçə qrupa bölünə bilər:(4)

**1. Daha likvid aktivlər (A1)** – cari hesablamaların təxirəsalınmaz icrası üçün istifadə oluna bilən pul vəsaitlərin bütün bəndləri üzrə məbləğlər. Bu qrupa həmçinin qısamüddətli maliyyə sərmayələrini də daxil edirlər.

**2. Tez reallaşan aktivlər (A2)** – bunların nəğd vəsaitə çevrilməsi üçün müəyyən müddət lazımdır. Bu qrupa debütor borclarını (hesabat tarixindən 12 ay ərzində gözlənən ödəmələr), digər dövri aktivlər daxildir.

**3. Ləng reallaşan aktivlər (A3)** – daha az likvid aktivlər – bunlar ehtiyatlar, debütor borcları (hesabat tarixindən 12 aydan çox müddətə gözlənən ödəmələr), əldə edilən dəyərlər üzrə ƏDVdaxildir, lakin "Gələcək dövrlərin xərcləri" maddəsi bu qrupa daxil edilmir.

**4. Çətin reallaşan aktivlər (A4)** – təsərrüfat fəaliyyətində daha uzun müddət ərzində istifadə olunması nəzərdə tutulan aktivlər. Bu qrupa "Dövriyyədən kənar aktivlər" balans aktivinin I bölümünün maddələri də aid edilir.

Aktivlərin ilk 3 qrupu cari təsərrüfat dövrü ərzində daima dəyişə və müəssisənin cari aktivlərinə aid ola bilərlər, bu zaman cari aktivlər müəssisənin digər əmlakına nisbətən daha likvid olur.

Müddətlərin artma dərəcəsi üzrə balans passivləri belə qruplaşdırılır.

**1. Daha təcili öhdəliklər (P1)** — kreditor borcları, dividendlər üzrə hesablamalar, digər qısamüddətli ödəmələr, eləcə də vaxtında ödənməyən ssudalar (mühasibat balansına qoşmaların göstəriciləri üzrə)

**2. Qısamüddətli passivlər (P2)** —bankların qısamüddətli borc kreditləri və hesabat tarixindən 12 ay ərzində ödənilməsi nəzərdə tutulan digər borclar. Passivlərin birinci və ikinci qrupunu müəyyənləşdirərkən etibarlı nəticələrin alınması üçün bütün qısamüddətli öhdəliklərin icra vaxtını bilmək lazımdır. Təcrübədə bu yalnız daxili analitika üçün mümkündür. Xarici təhlil zamanı informasiya məhdudluğundan bu problem əhəmiyyətli dərəcədə mürəkkəbləşir və təhlil aparan analitikin öncəki təcrübəsi əsasında həll olunur.

**3. Uzunmüddətli passivlər (P3)** —Uzunmüddətli borc kreditləri və digər uzunmüddətli passivlər – VI bölmənin "Uzunmüddətli passivlər" balansının maddələri.

**4. Daimi passivlər (P4)** — "Kapital və ehtiyatlar" balansının III bölümü və V balansın öncəki qruplara daxil olmayan ayrı-ayrı maddələri: "Gələcək dövrlərin gəlirləri" və "Gələcək xərclərin ehtiyatları". Aktiv və passivin balansının saxlanması üçün bu qrupun yekunlarını "Gələcək dövrlərin məsrəfləri" və "İtkilər" bəndləri üzrə azaltmaq lazımdır.

Balans likvidliyinin müəyyənləşdirilməsi üçün aktivlərin və passivlərin hər bir qrupu üzrə yekunları müqayisə etmək lazımdır.

Əgər bu şərtlər yerinə yetirilirsə, balans tam likvid sayılır:

A1 >> P1
A2 >> P2
A3 >> P3
A4 << P4

Əgər ilk 3 bərabərsizlik icra olunursa, yəni cari aktivlər müəssisənin xarici aktivlərini üstələyirsə, o zaman dərin iqtisadi mənaya malik olan sonuncu bərabərsizlik mütləq yerinə yetirilmiş olur: müəssisənin xüsusi dövri vəsaitlərinin olması; maliyyə dayanıqlığının minimal şərtlərinə riayət olunması.

İlk bərabərsizliklərin yerinə yetirilməməsi ondan xəbər verir ki, bankın likvidliyi mütləqlikdən az və ya çox dərəcədə fərqlənir.(4)

Balans likvidliyinin qabaqkı təhlilini təminat cədvəli vasitəsilə aparmaq daha rahatdır (cədvəl 1). Bu cədvəlin qrafalarına hesabat dövrünün əvvəlinə və axırına olan göstəricilər aktiv və passiv qruplar üzrə yazılır. Bu qrupların nəticələrini müqayisə edərək hesabat dövrünün əvvəlinə və axırına olan ödəmə izafiliklərinin kəmiyyətlərini və ya çatmamazlıqlarını müəyyən edirlər. Bu yolla, bu cədvəl vasitəsilə aktiv və passiv müddətləri üzrə uyğunsuzluqları aşkara çıxarmaq, təhlil edilən müəssisənin likvidliyi və ödəmə qabiliyyəti haqda qabaqcadan təsəvvür yaratmaq olar.

**Cədvəl 1. Təminat cədvəli**

| Balans maddələrinin qrup№ -si | Təminat (aktiv) | | Öhdəliklər məbləği (passiv) | | Müxtəliflik (+ izafilik, — çatışmazlıq) | |
|---|---|---|---|---|---|---|
| | ilin əvvəlinə | hesabat dövrünə | ilin əvvəlinə | hesabat dövrünə | ilin əvvəlinə | hesabat dövrünə |
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |
| Cəmi | | | | | | |

Lakin qeyd etmək lazımdır ki, bu sxem üzrə aparılan balans likvidliyi təhlili uyğunlaşdırılmışdır, maliyyə əmsalları vasitəsilə ödəmə qabiliyyətinin təhlili daha ətraflıdır.

1. Cari likvidlik əmsalı il ərzində yaranmış qısamüddətli öhdəliklərini yerinə yetirməkdən ötrü müəssisənin vəsaitlərinin kifayət qədər olub-olmadığını göstərir. Bu, müəssisənin ödəmə qabiliyyətinin əsas göstəricisidir. Cari likvidlik əmsalı bu düsturla hesablanır: (5)

**Kcl = (A1 + A2 + A3) / (P1 + P2).**

Dünya təcrübəsində bu əmsalın göstəricisi 1-2 arasında olmalıdır. Təbii ki, elə şəraitlər mümkündür ki, orada bu əmsalın göstəricisi daha yüksək olsun, lakin əgər bu göstərici 2-3-dən yuxarıdırsa, bu, müəssisənin vəsaitlərinin qeyri-rasional istifadəsindən xəbər verir.

2. Sürətli likvidlik əmsalı, və ya "kritik qiymətləndirmə" əmsalı müəssisənin likvid vəsaitlərinin onun qısamüddətli borclarını nə dərəcədə qarşılaya bilməsini göstərir. Sürətli likvidlik əmsalı bu düsturla hesablanır:

**Ksl = (A1 + A2) / (P1 + P2).**

Müəssisənin likvid aktivlərinə mal-material ehtiyatları istisna olmaqla onun bütün dövri aktivləri daxil edilir. Bu göstərici kreditor borclarının hansı hissəsinin daha likvid aktivlər vasitəsilə ödənilə biləcəyini müəyyənləşdirir, yəni müəssisənin qısamüddətli öhdəliklərinin hansı hissəsi müxtəlif hesablarda olan vəsaitlər, qısamüddətli qiymətli kağızlar, eləcə də hesablaşmalar üzrə daxilolmalardan ödənilə bilər. Bu göstəricinin tövsiyə olunan qiyməti 0,7-0,8 –dən 1,5-dəkdir.

3. Mütləq likvidlik əmsalı müəssisənin öz kreditor borclarının hansı hissəsini dərhal ödəyə biləcəyini göstərir. Mütləq likvidlik əmsalı bu düsturla hesablanır:

**Kml = A1 / (P1 + P2).**

Bu göstəricinin qiyməti 0,2-dən aşağı enməməlidir.

5. Balans likvidliyinin ümumilikdə kompleks qiymətləndirilməsi üçün müəssisənin balansının likvidliyinin ümumi göstəricisindən istifadə etmək lazımdır, hansı ki, müəssisənin bütün likvid vəsaitlərinin cəminin bütün ödəmə öhdəliklərinin (qısa-, orta- və uzunmüddətli) cəminə olan nisbətini göstərir, o şərtlə ki, likvid vəsaitlərin və ödəmə öhdəliklərinin müxtəlif qrupları onların daxilolma müddətləri və öhdəlik ödəmələrini nəzərə alan müəyyən çəki əmsalları ilə bu məbləğlərə daxil olsunlar (6).

Balans likvidliyinin ümumi göstəricisi bu düsturla hesablanır:

**Kül = (A1 + 0,5A2 + 0,3A3) /**

**(P1 + 0,5P2 + 0,3P3).**

Bu göstəricinin qiyməti 1-ə bərabər və ya 1-dən çox olmalıdır.

Balans likvidliyinin təhlilinin gedişi zamanı nəzərdən keçirilən likvidlik əmsallarından hər biri hesabat dövrünün əvvəlinə və axırına hesablanır. Əgər əmsalın faktik göstəricisi normal hüdudlara uyğun gəlmirsə, o zaman onu dinamika üzrə (qiymətin artma və ya azalması) qiymətləndirmək olar (4).

**Nəticə**

Balans likvidliyinin təhlili aktiv üzrə likvidlik dərəcələrinə görə qruplaşdırılmış və likvidliyin azalması üzrə sıralanmış vəsaitlərin, passivlər üzrə ödəmə müddətlərinə görə qruplaşdırılmış və ödəmə müddətinin artması üzrə sıralanmış öhdəliklərin müqayisəsindən ibarətdir.

Likvidlik əmsalları – müəssisənin qısamüddətli borclarını ödəmə gücünü ölçmək üçün hesablanır. Likvidlik əmsallarının hesablanmasında əsas məqsədlərdən biri müəssisənin işlək kapitalının yetərli olub olmamağıdır. Hər hansı bir müəssisənin likvidlik əmsalının yüksək olması həmin müəssisə tərəfindən qısamüddətli borcların ödənilməsində heç bir problem olmayacağını göstərir. Əsasən müəssisələrin qarşılaşdığı problemlərin çox hissəsini likvidlik yetərsizliyi təşkil edir. Likvidlik əmsallarının həddən artıq böyük olması da müəssisə tərəfindən yaxşı qarşılanmaya bilər. Nisbətlərin yüksək olması əsas vəsaitlərdən istifadə olunmamasına gətirib çıxardır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Atakişiyev M.C., Şıxəliyev N.M., Nurəliyeva R.N. Maliyyə Menecmenti. Bakı: Azərnəşr, 2010.*

*2. Xankişiyev B.A. Maliyyə Nəzarəti. Bakı: Turan*

*nəşriyyatı, 2002.*

*3. İsgəndərov R. Ə. Müəssisənin maliyyəsi. Bakı: 2007*

*4. Mahmudov İ.M., Zeynalov T.Ş., İsmayılov N.M. İqtisadi Təhlil. Bakı: 2010*

*5. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili. Bakı: 2011*

*6. Cəfərli H.A. İqtisadi təhlil. Bakı: 2009. 12. Hüseynov T. Ə. Firmanın iqtisadiyyatı. Bakı: 2009*

**XÜLASƏ**

Müəssisənin müstəqilliyi, onların iqtisadi və hüquqi məsuliyyəti artdığından müəssisənin maliyyə vəziyyətinin, maliyyə resurslarının vəziyyətinin rolu daim yüksəlməkdədir. Bu cür təhlilin nəticələri ilk olaraq mülkiyyətçilər, kreditorlar, investorlar, malsatanlar, vergi orqanları üçün vacib sayılır. Maliyyə təhlilinin məqsədi yalnız müəssisə balansının likvidliyinin, mənfəətliliyinin, onun aktivlərinin və əmələgəlmə mənbələrinin qiymətləndirilməsindən ibarət deyil, o cümlədən bu göstəricilərin yaxşılaşdırılmasına dair tədbirlər planının hazırlanmasından ibarətdir. Müəssisənin maliyyə əmsallarının təhlili bu cür işləri hansı istiqamətdə aparmaq lazım olduğunu təyin etməyə imkan verir. Müəssisənin maliyyə vəziyyətinin təhlili zamanı balans likvidliyinin təhlili məsələsi müəssisənin kredit ödəmə, yəni bütün öhdəliklərini vaxtında və tam yerinə yetirmək qabiliyyətinin qiymətləndirilməsinin labüdlüyü səbəbindən meydana çıxır, belə ki, likvidlik – müəssisənin öz cari aktivlərindən istifadə edərək qısamüddətli öhdəliklərini yerinə yetirmə qabiliyyətidir.

**Açar sözlər:** *likvidlik, cari aktivlər, müəssisə, pul vəsaiti.*

**Huseyn Ayvaz Hasan**
***Azerbaijan State University of Economics, doctoral student***
***E-mail: hueyvaz@gmail.com***
***https://orcid.org/0009-0002-1665-6461***

**Analysis of the liquidity of the enterprise's balance sheet**
**SUMMARY**

As the independence of the enterprise, their economic and legal responsibility increases, the role of the enterprise's financial status and financial resources is constantly increasing. The results of such an analysis are considered important for owners, creditors, investors, taxpayers, and tax authorities. The purpose of the financial analysis is not only to evaluate the liquidity and profitability of the enterprise's balance sheet, its assets and sources of formation, but also to prepare a plan of measures to improve these indicators. The analysis of the financial ratios of the enterprise allows to determine the direction in which such work should be carried out. During the analysis of the financial situation of the enterprise, the issue of balance liquidity analysis arises due to the necessity of assessing the ability of the enterprise to repay loans, that is, to fulfill all its obligations on time and in full, so liquidity - is the ability of the enterprise to meet its short-term obligations using its current assets.

**Keywords:** *liquidity, current assets, enterprise, cash*

**Гусейн Айваз Хасан**
***Азербайджанский Государственный Экономический Университет, докторант***
***Эл.-почта: hueyvaz@gmail.com***
***https://orcid.org/0009-0002-1665-6461***

**Анализ ликвидности баланса предприятия**
**РЕЗЮМЕ**

По мере возрастания самостоятельности предприятий, их экономической и юридической ответственности постоянно возрастает роль финансового состояния и финансовых ресурсов предприятия. Результаты такого анализа считаются важными для собственников, кредиторов, инвесторов, налогоплательщиков и налоговых органов. Целью финансового анализа является не только оценка ликвидности и рентабельности баланса предприятия, его активов и источников формирования. но и подготовить план мероприятий по улучшению этих показателей. Анализ финансовых показателей предприятия позволяет определить направление, в котором должна проводиться такая работа. При анализе финансового положения предприятия возникает вопрос анализа ликвидности баланса в связи с необходимостью оценки способности банка. предприятие погашает кредиты, то есть своевременно и в полном объеме выполняет все свои обязательства, поэтому ликвидность - это способность предприятия погасить свои краткосрочные обязательства, используя свои оборотные активы.

**Ключевые слова:** *ликвидность, оборотные активы, предприятие, денежные средства.*

UOT 33
https://doi.org/10.30546/3006-0346.2024.6.84.074

# QİDA SƏNAYESİNDƏ STARTAPLAR İNNOVASİYALI İQTİSADİ İNKİŞAFIN ƏSAS DRAYVERİ KİMİ

**ÜLVİYYƏ MƏMMƏDOVA**
*Azərbaycan Texnologiya Universiteti, dissertant*

*E-mail: ulviyya.m@atu.edu.az*

## GİRİŞ

Son illərdə qida sənayesi, yenidən formalaşdırıldı və indi yüksək keyfiyyətli qidalara daha çox diqqət yetirir. Qida sənayesində məhsul və proses innovasiyasını kompleks və riskli edən təhlükəsizlik baxımından qanuni tələblərin yerinə yetirilməsi zərurəti də var. Eyni zamanda, qida şirkətləri də sağlamlıq və istehlakçıların məmnunluğuna hər zamankından daha çox diqqət yetirməlidirlər. İstehlakçılar unikal ləzzətlər, yemək hazırlamaqda rahatlıq və fərdi seçimlərinə cavab tələb edir. Məhsullar onların şəxsi ehtiyaclarına və üstünlüklərinə uyğunlaşdırılmalı, eləcə də sağlamlıqlarına yönəldilməlidir. İstehlakçı ehtiyaclarını ödəmək üçün belə bir mühitdə innovasiya mühüm rol oynayır.

Ümumiləşdirsək, məqalənin ünvanladığı əsas problemlər bunlardır: 1) qida sənayesində innovasiyaların daşıyıcısı kimi startaplar; və 2) startaplar və daha böyük şirkətlər arasında əməkdaşlığın spesifikliyi.

## ƏSAS HİSSƏ

Qida həmişə bəşər sivilizasiyasının mərkəzi hissəsi olmuşdur. Qədim dövrlərdən bəri qidanın becərilməsi, hazırlanması və istehlakı həyati fəaliyyət olmuşdur. Ərzaq təhlükəsizliyini təmin etmək, tullantıları minimuma endirmək və mahiyyət etibarilə mövcud resurslardan maksimum istifadə etmək üçün müxtəlif təcrübə və üsullardan istifadə etmişlər.

İndiki vaxtda təməl konsepsiya əsasən dəyişməz olaraq qalır, lakin yeni texnologiyaların ortaya çıxması qida sənayesində əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur. Bu inqilabın mərkəzində dayanıqlı qida mənbələri üçün texnologiyadan istifadə etməyə, qida tullantılarının azaldılmasına və qida sənayesində səmərəliliyin və genişlənmənin artırılmasına həsr olunmuş qurumlar olan qida texnologiyası startapları dayanır.

Ümumdünya Ərzaq Proqramına görə, istehsal edilən, lakin heç vaxt istehlak olunmayan qidanın həcmi iki milyard insanı qidalandırmaq üçün kifayət edərdi. Bu rəqəm dünya üzrə kifayət qədər qidalanmayan insanların sayından iki dəfə çoxdur. İnkişaf etməkdə olan ölkələrdə ərzaq itkilərinin 40%-i məhsul yığımı və emaldan sonrakı mərhələdə baş verir [1].

Əksinə, sənayeləşmiş ölkələrdə itkilərin 40%-dən çoxu pərakəndə və istehlakçı səviyyələrində baş verir. Qida sənayesinin üzləşdiyi qlobal problemlər çoxdur və qida texnologiyası startaplarının rolu getdikcə daha mühümdür.

Bütövlükdə, qida texnologiyası startapları qlobal qida problemlərini həll edən, innovasiyalara təkan verən və qida istehsalı və istehlakı üçün daha davamlı və səmərəli gələcəyi formalaşdıran müasir qida sənayesinin mühüm hissəsidir.

Qida texnologiyası startapları son illərdə getdikcə populyarlaşır, çünki onlar qidanın istehsal, paylanması və istehlak üsullarını təkmilləşdirmək üçün unikal həllər təklif edirlər. Bu qida texnologiyası startapları kənd təsərrüfatı innovasiyalarından tutmuş yeni çatdırılma və izləmə üsullarına qədər qida istehsalı üçün daha yaxşı sistemlər yaratmaq üçün texnologiyadan istifadə etməyə yönəlib [2].

Qida startaplarının böyüməsini şərtləndirən ən böyük amillərdən biri dəyişən istehlak mənzərəsidir. Bundan əlavə, texnologiyadakı irəliləyişlər sahibkarlar üçün istər e-ticarət platformaları, istərsə də sosial media marketinqi vasitəsilə qida startapları yaratmağı və işə salmağı asanlaşdırdı.

Qida startaplarının böyüməsini şərtləndirən başqa bir amil qida tullantıları və onun ətraf mühitə təsiri haqqında məlumatlılığın artmasıdır. Bir çox qida startapları "çirkin" məhsullardan istifadə etməklə və ya əks halda tullantıya gedəcək qida əlavə məhsullarından məhsullar yaratmaqla qida tullantılarının azaldılmasına yönəlib [3].

Nəhayət, COVID-19 pandemiyası qida startaplarının böyüməsində də rol oynadı. Bir çox insanın evdə qalması və daha tez-tez yemək bişirməsi ilə yemək dəstlərinə və onlayn ərzaq platformalarına tələbat artıb. Qida startapları bu tendensiyadan yararlana bildi və rahat və sağlam qida variantları axtaran insanlar üçün innovativ həllər təqdim etdi.

Texnologiyanın qida startaplarına təsiri əhəmiyyətli olub və onların böyüməsində və uğurunda mü-

hüm rol oynayıb [4].

Süni intellekt və məlumat analitikası qida startapları tərəfindən əməliyyatları sadələşdirmək və səmərəliliyi artırmaq üçün getdikcə daha çox istifadə olunur. Məsələn, bəzi startaplar müştəri xidməti göstərmək üçün süni intellektlə işləyən chatbotlardan, digərləri isə təchizat zəncirini və inventar idarəçiliyini optimallaşdırmaq üçün məlumat analitikasından istifadə edir.

Qida sənayesinin dəyər zəncirində tətbiq olunan qabaqcıl innovativ həlləri olan görkəmli startaplar aşağıda verilmişdir:[5].

**Panda Qablaşdırma**

Panda Packaging (Böyük Britaniya) davamlı həllər hazırlayır - təkrar istifadə edilə bilən plastiksiz davamlı məhsulların çeşidi. Davamlı qablaşdırma texnologiyalarını inkişaf etdirmək üçün biomimikriya texnologiyası və onun xüsusiyyətləri bunlardır:

• Bambuk və tullantı ağaclarının xammal kimi istifadəsi

• Bioloji varlıqlar və proseslər əsasında modelləşdirilmiş materialların, strukturların və sistemlərin layihələndirilməsi və istehsalı

Şirkət hər bir qida xidmətinin vacibliyini əvəz etmək üçün məhsulları üçün təbii materiallardan istifadə edə bilər. Məhsul bıçaqdan samanlara, stəkanlardan butulkalara və Tupperware-ə qədər müxtəlifdir. Şirkət növbəti iki il ərzində satışların üç milyondan çox olacağını təxmin edir.

**Cocuus**

Cocuus (AB) bitki və ya hüceyrə əsaslı heyvan zülalının analoqlarını (mimetik qida) hazırlamaq üçün sənaye həlləri hazırlamaq üçün 2D / 3D lazer çapı, bioprinting və robot texnikasından istifadə edir [6].

• İlk biftekər ət hüceyrələrindən 3D formatında bio-çap edilib

• Cocuus System Iberica, Qidanın 2020-ci ildə Life-Spain platforması üçün təşkil etdiyi Ingenia Startup mükafatlarının II buraxılışında birinci mükafatı qazandı.

Cocuus robototexnika və 3D-çapdan istifadə edərək, məsələn, pivə köpüyü üzərində futbol gerbini və ya hər hansı digər şəkli çap edə bilən cihazları yaratmaq və kommersiyalaşdırmaq üçün istifadə edir. Şirkət ət və ya balıq yeməklərinə bənzəyən pürelərin hazırlanması üçün texnika işləyib hazırlayıb.

**Epogee**

Epogee (ABŞ) yaxşı dad, tekstura, performans və elastikliyə malik alternativ yağ olan Esterləşdirici propoksilləşdirilmiş qliserini (EPG) istehsal edir. Şirkət esterləşdirici propoksilləşdirilmiş qliserinin istehsalı prosesini patentləşdirib [7].

• EPG dəyişdirilmiş bitki əsaslı yağdır, GMO-lardan azaddır və adi yağlar üçün 9 kalori/qram ilə müqayisədə cəmi 0,7 kalori/qrama malikdir.

• Dad, tekstura və ya funksionallıqdan ödün vermədən yağ kalorilərini 92% azaldan yeganə bazara çıxarılan tərkib hissəsidir.

Şirkət GMO-suz kolza yağından istifadə edir və yağı onun komponentlərinə: qliserin və yağ turşularına bölür. Şirkət, yağ kimi görünən, hiss edilən, dad verən və bişirən bir maddə yaratmaq üçün yağ turşusu və qliserini qida dərəcəli propoksil birləşdirici ilə yenidən əlaqələndirmək üçün propoksil birləşdirici texnologiyasından istifadə edir.

**İnnomy**

Innomy (AB) əkinçilik sənayesində inqilab etmək üçün miselyum və kənd təsərrüfatı əlavə məhsullarından istifadə edən transformativ şirkətdir. Şirkət göbələk əsaslı ət istehsal edir və heyvan əzələlərinə bənzəyən filamentli göbələklər inkişaf etdirir [8].

• Göbələklərə əsaslanan ət əzələləri təkrarlayır

• Ətraf mühitə az təsir göstərir və göbələklərdən qidalandırıcı faydalar təmin edir

• Mantar toxumasının böyüməsi texnologiyası minimal resurs tələb edir

• Ətin lifli və zərif təbiətini təqlid edən mürəkkəb strukturlar yaratmağa imkan verir

Miselial matrislər ət kimi teksturalar yaratmaq üçün dəyişdirilmiş çevik filamentli strukturlardır. Seçilmiş göbələk antioksidant fəaliyyət göstərir, immunomodulyator təsir göstərir, xolesterinsizdir və antikanserogendir.

Süni intellekt məhsulları effektiv şəkildə müəyyən etmək üçün barkod tələbini aradan qaldırır. Proppos FastPay-in faydası müştəri məmnuniyyətini artırmaq, istehsalı, məlumatı və istifadəçi izləməni optimallaşdırmaq, əməliyyat xərclərini və ümumi POS inteqrasiyasını azaltmaqdır.

**Nəticə**

Startaplar hər iki tərəfin - startapların və şirkətlərin mənfəətinə və iqtisadi vəziyyətinə xüsusi təsir göstərə bilər. Əlbəttə ki, məqalədə aparılan təhlilin öz məhdudiyyətləri var, lakin bununla bağlı bəzi ümumi göstərişlər verilə bilər. Yuxarıda təhlil edilən nümunə araşdırmaları əsasında digər startaplar və startaplarla əməkdaşlıqda maraqlı olan şirkətlər üçün əsas tövsiyələr aşağıdakılardır:

1) Startap, innovasiyaların tətbiqi sahəsində hansısa böyük şirkətin tərəfdaşı ola bilər.

2) Əməkdaşlıq vasitəsilə startap və daha böyük şirkət məhsul çeşidinin genişləndirilməsi kimi yeni məhsullarla yeni bazarlara çıxa bilər

4) Startaplar ənənəvi sektorlar üçün innovativ İKT həllərinin daşıyıcısı ola bilər. Onlar mövcud həllərin bəzi təkmilləşdirmələrinə baxa bilər və ya bəzi yeni, məsələn, hələ heç vaxt tətbiq olunmadığı sektorlarda və sahələrdə İKT həllərini təqdim edə bilərlər. Startap ideyaları çox vaxt “sektorlararası” olur və sektorlar arasında texnoloji yaxınlaşmanın təzahürü ola bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Bannerjee, S., Bielli, S., and Haley Ch. (2016). Scaling Together: Overcoming Barriers in Corporate-Startups Collaboration. London: Nesta.*

*2. Bayona-Saez, C., Cruz-Cázares, C., García-Marco, T., and Sánchez García, M. (2017). Open Innovation in the Food and Beverage Industry. Management Decision, 55 (3), 526–546.*

*3. Bigliardi, B. and Galati, F. (2013). Models of Adoption of Open Innovation within the Food Industry. Trends in Food Science & Technology, 30 (1), 16–26.*

*4. Bigliardi, B. and Galati, F. (2016). Open Innovation and Incorporation between Academia and Food Industry (19-39).*

*5. Blank, S.G. and Dorf, B. (2012). The Startup Owner's Manual: The Step-by-step Guide for Building a Great Company. Pescadero: K&S Ranch. Burke, M. (2017). Feed the World. Chemistry & Industry, 81 (1), 18–21.*

*6. Costa, A.I.A. and Jongen, W.M.F. (2006). New Insights into Consumer-led Food Product Development. Trends in Food Science & Technology, 17 (8), 457–465.*

*7. Crawford, E. (2015). CleverFoodies Gains Distribution Fast for Category-creating Product with Cobranding. Food Navigator-USA. Retrieved from: http://www.foodnavigator-usa.com/Manufacturers/Creating-category-co-branding-helped-CleverFoodies-gain-distribution?utm_source=copyright&utm_medium=OnSite&utm_campaign=copyright (06.08.2017).*

*8. Damanpour, F. and Schneider, M. (2009). Characteristics of Innovation and Innovation Adoption in Public Organizations: Assessing the Role of Managers. Journal of Public Administration Research and Theory, 19 (3), 495–522.*

*9. European Commission (2014). H2020. TRL definition. Retrieved from: http://ec.europa.eu/research/participants/data/ref/h2020/wp/2014_2015/annexes/h2020- wp1415-annex-g-trl_en.pdf (10.08.2017).*

**XÜLASƏ**

Qida sənayesi ənənəvi sektor hesab olunur, lakin onun bizneslərinin inkişaf edən şərtləri yenilikləri də əhatə edən dəyişiklikləri məcbur edəcək. Bu dəyişikliklərin mənbəyi startaplar ola bilər, ona görə də bu məqalənin məqsədi startapları qida sektoru üçün innovasiya mənbəyi kimi təqdim etməkdir. Qapalı və açıq innovasiyaların qısa təsviri daxil olmaqla innovasiya konsepsiyası təqdim edildi. Startapların xüsusiyyətləri də nümayiş etdirildi ki, onlar təkcə təbiətcə kreativ olan sektorlarda deyil, həm də qida sənayesi kimi ənənəvi sahələrdə innovasiya mənbəyi ola bilərlər. Digər, çox vaxt böyük şirkətlərlə əməkdaşlıqda innovativ qida istehsalı həllərini təqdim etməyi bacaran startapların nümunələri var.

**Açar sözlər:** *innovasiyalar, startaplar, qida sənayesi, açıq innovasiya*

**Mammadova Ulviyya Duman qizi**
***dissertationist, Azerbaijan Technological University***
***ulviyya.m@atu.edu.az***

**STARTUPS IN THE FOOD INDUSTRY AS A MAIN DRIVER OF INNOVATIVE ECONOMIC DEVELOPMENT**

**ABSTRACT**

The food industry is considered a traditional sector, but the evolving conditions of its businesses will

force changes that include innovations. The source of these changes can be startups, therefore the aim of this article is to present startups as a source of innovation for the food sector. The concept of innovation was introduced, including a brief description of closed and open innovations. The characteristics of startups were also demonstrated, which allow them to be a source of innovation not only in sectors that are creative in nature, but also in traditional areas such as the food industry. There are examples of startups that have managed to provide innovative food production solutions in cooperation with other, often large companies.

**Keywords:** *innovations, startups, food industry, open innovation*

**Мамедова Ульвия Думан кызы**
***Аспирант Азербайджанского технологического университета***
***ulviyya.m@atu.edu.az***

## СТАРТАПЫ В ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ КАК ГЛАВНЫЙ ДРАЙВЕР ИННОВАЦИОННОГО РАЗВИТИЯ ЭКОНОМИКИ

### РЕЗЮМЕ

Пищевая промышленность считается традиционным сектором, но меняющиеся условия ее бизнеса потребуют изменений, включая инновации. Источником этих изменений могут стать стартапы, поэтому цель этой статьи — представить стартапы как источник инноваций для пищевой отрасли. Была представлена концепция инноваций, включая краткое описание закрытых и открытых инноваций. Также было показано, что характеристики стартапов являются источником инноваций не только в творческих по своей природе секторах, но и в традиционных областях, таких как пищевая промышленность. Есть примеры стартапов, которым удалось предложить инновационные решения для производства продуктов питания в сотрудничестве с другими, часто крупными компаниями.

**Ключевые слова:** *инновации, стартапы, пищевая промышленность, открытые инновации.*

UOT: 332.12:332.146:336
https://doi.org/10.30546/3006-0346.2024.6.84.076

# AZƏRBAYCANIN REGİONLARINDA MALİYYƏ-İNVESTİSİYA MEXANİZMLƏRİNİN TƏTBİQİNİN MÜASİR ASPEKTLƏRİ

**ASİF NİFTƏLİYEV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: asif-niftaliev@mail.ru*

Qeyd edək ki, maliyyə-investisiya prosesləri müxtəlif resurs mənbələrindən istifadə etməklə ölkənin təsis qurumları daxilində investisiya vəzifələrinin reallaşdırılmasına müsbət təsir göstərən regional layihələrin şərtləri, əlaqələri, mexanizmləri, alətləri və maliyyələşdirmə mənbələrinin məcmusudur. Maliyyə-investisiya prosesinin xüsusiyyətləri hər bir region üçün fərqlidir və hər bir regionun öz məqsədləri, motivasiya və həvəsləndirici alətləri, resurs potensialı, dövlət maliyyələşdirməsinin müəyyən səviyyəsi vardır. Regionlarda maliyyə-investisiya proseslərinin xüsusiyyətləri onların maliyyə-investisiya mexanizminin təşkili səviyyəsindən asılıdır. Maliyyə-investisiya mexanizmi dedikdə, təsərrüfat subyektlərinin qanuni pul vəsaitlərinin toplanması və investisiya edilməsini təmin edən forma və üsulların məcmusunu başa düşürlər [1, s.62].

Müasir dövrdə Azərbaycanın regionlarında maliyyə-investisiya mexanizminin formalaşmasının xüsusiyyətlərini, fəaliyyətindəki tendensiyaları, investisiya resurslarını və investisiya axınının manevr imkanlarını tətbiqi problemlərini müəyyənləşdirmək zəruridir. Maliyyə resurslarının manevr edilməsi dedikdə, maliyyə-investisiya resurslarının formalaşma üsulları və mənbələrinin dairəsi və onlardan istifadə və yerləşdirmənin konkret istiqamətləri nəzərdə tutulur. Hazırda Azərbaycanın regionlarında maliyyə resurslarına tələbat sürətlə artır, inkişafın davamlılığının təmin edilməsi məqsədilə maliyyə resurslarının və səmərəli maliyyə-investisiya mexanizminin olması daim gündəmdədir. Azərbaycanda iqtisadi inkişafın ağırlıq mərkəzi neft sektorundan qeyri-neft sektoruna keçməyə başlamışdır. Bu, o deməkdir ki, yaxın gələcəkdə milli iqtisadiyyatın davamlı və səmərəli inkişafı qeyri-neft sektorunun inkişafının nə dərəcədə davamlı və səmərəli olacağından, maliyyə resurslarının səfərbər edilməsindən və səmərəli istifadə olunmasından asılı olacaqdır. Qeyri-neft sektorunun və onun inkişaf imkanlarının əsasən Azərbaycanın regionlarında cəmləşdiyini nəzərə alsaq, bu, regionların maliyyə-investisiya mexanizminin yaxşılaşdırılması, maliyyə resurslarının səmərəli istifadəsi məsələlərinin tədqiqi böyük önəm daşıdığını görmək olar [2, s.3].

Regionların maliyyə-investisiya imkanlarının genişlənməsini, yeni iş yerlərinin açılmasını, əmək haqqının artırılmasını təmin edən yüksək iqtisadi artım templəri sosial-iqtisadi problemlərin həlli baxımından əsasdır. Bunun üçün isə maliyyə sabitliyini qorumaq lazımdır ki, buna aşağı inflyasiya templəri və sabit milli valyuta məzənnəsi hesabına nail olmaq olar. Regionun inkişafını idarə etmək üçün maliyyə-investisiya mexanizminin formalaşması onun maliyyə və investisiya alt sistemlərində islahatların aparılması prosesləri ilə müşayiət olunur. Bu, ilk öncə, büdcə prosesində islahatlara gətirib çıxaracaq və burada islahatların son məqsədi iqtisadi siyasətin prioritetlərinə uyğun olaraq dövlət maliyyəsinin daha səmərəli idarə olunması üçün şərait və ilkin şərtlərin yaradılması olmalıdır [3, s.40].

Maliyyə-investisiya proseslərinin səmərəli şəkildə reallaşdırılması mexanizmi investisiya bazarının formalaşması yolu ilə daha effektiv nəticə verə bilər. İnvestisiya bazarının formalaşdırılması maliyyə-investisiya resurslarının toplanması və əmanətlərin investisiyaya çevrilməsi ilə yanaşı, onlardan istifadənin səmərəliliyinin artırılması üçün əsasdır. Strateji önəm daşıyan sahələrdə maliyyə-investisiya prosesinin xüsusiyyətləri investisiya göstəricilərinin müsbət dinamikasını və investisiya fəaliyyətinin intensivliyi ilə iqtisadi artım arasında əlaqəni nümayiş etdirir. İnvestisiya fəaliyyətinin hazırkı inkişaf tendensiyaları maliyyə-investisiya mexanizminin mikro, mezo və regional səviyyələr arasındakı əlaqənin tələblərinə uyğun gəlməlidir.

Bazar iqtisadiyyatı şəraitində rəqabət qabiliyyətinin artırılması və yüksək strateji inkişaf templərinin təmin edilməsi əsasən investisiya fəallığının səviyyəsi və region iqtisadiyyatına investisiya dəstəyinin spektri ilə müəyyənləşdirilir. İnvestisiya dəstəyi səmərəli investisiya mexanizmlərinin formalaşdırılması və gələcək fəaliyyətinin təmin edilməsi məqsə-

dilə balanslaşdırılmış investisiya proqramının yaradılması, investisiyalaşdırma baxımından zəruri olan resursların müəyyənləşdirilməsi yolu ilə reallaşdırılır. İnvestisiya dəstəyi sisteminin inkişafı biznesin genişləndirilməsi, ölkənin iqtisadi regionalizminin transformasiyası, dövlətin xeyrinə səlahiyyətlərin yenidən bölüşdürülməsi və resursların ötürülməsi ilə ayrılmaz şəkildə bağlıdır. İnvestisiya dəstəyinin qeyri-mərkəzləşdirilməsi sahibkarlıq subyektlərinin investisiya resurslarından istifadədə müstəqilliyini genişləndirir.

İnvestisiyalaşdırma mexanizminin səmərəli şəkildə təşkil edilməsi regionların gələcək inkişafının önəmli amillərindən biri olmaqla, buraya ayrılan kapitalın, iqtisadi səmərəliliyin artırılmasında və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında önəmli rol oynayır. Regionlarda istehsal sahələrinin genişləndirilməsi, yeni ərazilərin yaradılması və inkişafı, habelə regional büdcələrin artırılması üçün real investisiya potensialından səmərəli istifadə zəruri şərtdir. Regionların investisiya potensialı onların investisiya resurslarının mövcudluğu və həmin resurslardan səmərəli istifadə etmək qabiliyyəti ilə ölçülür. Odur ki, regionların inkişafında onların investisiya potensialının tədqiqi iqtisadi resurslarla təminat səviyyəsini, habelə bu resursların iqtisadi dövriyyəyə cəlb edilməsinin mövcud vəziyyətini və həmin resurslardan istifadə imkanlarının artırılması zərurətini müəyyənləşdirməyə imkan verir [4, s.5].

Qeyd edək ki, ölkə iqtisadiyyatına yönəlik investisiyaların həcmində son illərdə artım müşahidə olunub. Onların həcmi ən çox 32080,9 milyon AZN olmaqla 2023-cü ildə olub ki, bu da 2015-ci ilə görə 59,9%, 2020-ci ilə görə 42,7%, 2021-ci ilə görə 26,7%, 2022-ci ilə görə isə 10,1% çoxdur. 2023-cü ildə investisiya qoyuluşlarının 17409,7 milyon AZN-i və ya 54,2%-i daxili, 14671,2 milyon AZN-i və ya 45,8%-i isə xarici mənbələr hesabına olmuşdur. Regionlar üzrə investisiya qoyuluşlarının əsas hissəsini tikintiyə qoyulan investisiyalar təşkil edir və həmin investisiyaların əsas hissəsi Bakı şəhərində cəmləşmişdir. Məsələn, 2022-ci ildə ölkə üzrə əsas kapitala investisiyalar 17878,1 milyon AZN təşkil edib ki, bunun 9508,3 milyon AZN-i və ya 53,2%-i, yəni demək olar ki, yarıdan çoxu Bakı şəhəri üzrədir. Bu göstəricilər regionlar üzrə investisiya qoyuluşlarının diversifikasiyalaşdırılmasının prioritet vəzifələrdən biri olduğunu deməyə əsas verir.

Regionların müəssisə və təşkilatların yığımlarından və yerli büdcələrə ayırmalardan, habelə büdcədənkənar fondlardan əldə etdikləri vəsait hesabına regional investisiya fondlarının formalaşdırılması zəruri şərtdir. İnvestisiya fəaliyyəti müxtəlif amillər hesabına formalaşdırılır ki, həmin amillərin öyrənilməsi önəmli vəzifədir ki, onun həlli idarəetmə nəzəriyyəsinin inkişafına, regional iqtisadi siyasətin reallaşdırılması məqsədilə metodoloji yanaşmaların və tövsiyələrin formalaşdırılmasına kömək edir. Regional strategiyada istehsalın inkişafı üçün maliyyə mənbələri müəyyənləşdirilərkən əsas diqqət öz və investorların cəlb etdiyi maliyyə resurslarından maksimum istifadəyə verilir. İnvestorlar tez geri qaytarılan investisiya layihələrində daha çox aktivlik nümayiş etdirirlər. Müasir dövrdə investisiya fəaliyyəti üzrə elə bir mütərəqqi milli strategiyanın hazırlanması və reallaşdırılması zərurətə çevrilmişdir ki, həmin strategiya hesabına investisiya aktivliyinin gücləndirilməsinə və bunun əsasında regionların investisiya əsaslı inkişafına nail olmaq mümkün olsun. Regional inkişaf üçün investisiya strategiyasının prioriteti sənaye siyasəti, maliyyə və sosial infrastruktur sahəsində mütərəqqi struktur dəyişikliklərinin başlanması və reallaşdırılmasıdır.

İnvestisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılması üzrə tədbirlər kompleksində dövlətin maliyyə dəstəyi, o cümlədən vergi güzəştlərinin verilməsi amili vacibdir. İnvestisiyaların regionlara cəlb etmək baxımından maliyyələşdirmə konsepsiyasının hazırlanması böyük önəm daşıyır. Region iqtisadiyyatının artım tempini şərtləndirən amillərdən biri əlverişli investisiya mühitidir. İnvestisiya mühiti sahibkarlıq subyektləri tərəfindən reallaşdırıla bilən investisiyalar və innovasiyalar ilə bağlı müəyyən bir ərazidə inkişaf edən vəziyyətin əlverişlilik dərəcəsini əks etdirir [5, s.133].

Dövlət investisiya fəaliyyətinə aşağıdakı metod və vasitələrdən istifadə etməklə təsir göstərə bilər: kredit, maliyyə və vergi siyasəti; istehsalın yenidən qurulmasına və texniki cəhətdən yenidən təchiz edilməsinə sərmayə qoyan müəssisələrə vergi güzəştlərinin verilməsi; amortizasiya siyasəti; xarici investisiya cəlbediciliyi baxımından əlverişli şərait yaradılması; elmi-texniki siyasət və s. Təcrübədə regionlarda investisiya fəaliyyətinin inkişafına dəstək göstərməklə əlverişli şəraitin yaradılması dövlət tərəfindən regional sosial-iqtisadi inkişafın idarə edilməsi funksiyalarının reallaşdırılması yolu ilə

həyata keçirilir [6, s.67]. Qanunvericilik şərtlərinə uyğun olaraq investisiya fəaliyyətinin inkişafı baxımından əlverişli şəraitin yaradılması üzrə tədbirlərin reallaşdırılması müxtəlif növ həvəsləndirmə alətlərindən istifadəyə əsaslanır, məsələn: fiskal siyasətin daha da təkmilləşdirilməsi, xüsusi vergi rejimlərinin tətbiqi; dövlət dəstəyi tədbirlərinin reallaşdırılmasına imkan verən maliyyə institutlarının inkişafı; investisiya fəaliyyətinin reallaşdırılması baxımından başa düşülən və şəffaf qaydaların birləşdirilməsi, xüsusi hüquqi rejimlərin tətbiqi və s. Müəyyən bir regionda hər bir investisiya layihəsi üçün regionun və bütövlükdə ölkənin işgüzar fəaliyyətinə təsir göstərən mürəkkəb səbəb-nəticə əlaqələri sistemi yaranır. Bunu nəzərə alaraq, maliyyə-investisiya prosesinin reallaşdırılması zamanı yerinə yetirilən rol və funksiyaların bölüşdürülməsi vacibdir. Dövlət, ümumi rəhbərliyi həyata keçirməli və münasibətlərin tarazlığına və regionların və ölkədə iqtisadi artımın davamlılığına kömək edəcək investisiya siyasətinin inkişafına nəzarət etməlidir. Prosesin bütün iştirakçılarının maraqlarına uyğun regional investisiya siyasətinin reallaşdırılması mexanizminin formalaşdırılması kifayət qədər problemlidir.

Regional investisiya siyasətinin effektivliyi onun inkişaf dərəcəsindən və müəyyən prinsiplərə riayət etməklə reallaşdırılmasının keyfiyyətindən asılıdır (Cədvəl 1).

**Cədvəl 1.**
**Regional investisiya siyasətinin formalaşdırılması zamanı nəzərə alınmalı əsas prinsipləri**

| s/s | Prinsiplər | Məqsədlər |
|---|---|---|
| 1 | Sinergetik effektivliyin məqsədliliyi | İnvestisiya səviyyəsinin artırılması və ərazi subyektləri arasında sosial-iqtisadi fərqlərin azaldılması. |
| 2 | Subyekt və elementlər üzrə struktur tarazlığı | Regionların inteqrasiya olunmuş istehsal, ticarət, xidmət və infrastruktur inkişafı səviyyəsinin, subyektlərin sosial-iqtisadi müstəqillik dərəcəsinin və ölkənin geosiyasi maraqlarının, suverenliyinin və təhlükəsizliyinin qorunması səviyyəsinin artırılması. |
| 3. | Hərəkətlərin və əlaqələrin məqsədyönlülüyü | Ərazi infrastrukturunun formalaşma dinamikası, hakimiyyətə inamın artması, əhalinin loyallığı və məmnunluğu. |
| 4. | İnnovasiya-investisiya proseslərinin milli önəmliliyi | Regionların və bütövlükdə ölkənin həyat səviyyəsini və keyfiyyətini yaxşılaşdırmaq üçün istehsal, maliyyə, sosial və ekoloji obyektlərin yaradılması. |
| 5. | Biznes mədəniyyəti və etikası, investorlarla dostluq münasibətləri, dinamik ünsiyyət | Regionlara xas olan sosial-iqtisadi problemlərin həlli üçün maraq və imkanlar nəzərə alınmaqla, ərazi planlaşdırılması, modelləşdirilməsi və iri biznesin yerləşdirilməsi əsasında münasibətlərin inkişafı. |
| 6. | İctimai və şəxsi maraqların balanslaşdırılması | Yaradıcı və innovativ fəaliyyət vasitəsilə regionun investisiya cəlbediciliyinin artırılması. |
| 7. | İnformasiya açıqlığı | Resursların regionlar arasında yenidən bölüşdürülməsi. |
| 8. | Regionda investisiya proseslərinə əsassız inzibati müdaxilələrin aradan qaldırılması | Məşğulluğun artırılması, kiçik və orta biznesin inkişafı, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün müxtəlif fəaliyyət növlərinin stimullaşdırılması |

***Mənbə:*** *müəllif yanaşması*

İnvestisiya fəaliyyətinə, habelə dövlət məqsədli proqram və layihələrin icrasına nəzarət prosedurlarının təkmilləşdirilməsinə obyektiv ehtiyac yaranıb. Habelə, belə idarəetmə fəaliyyətinin əsas elementi onların regionun sosial-iqtisadi vəziyyətinə birbaşa təsirinin olmasıdır.

Dövlət tərəfindən regionlarda investisiya sferasının inkişafına yönəlmiş səmərəli hüquqi tənzimləmə sistemi formalaşdırılmalı, belə bir sistem bir-biri ilə əlaqəli tədbirlər kompleksini əhatə etməlidir ki, bunlara aid edilə bilər:

1. İnvestisiya sahəsində qanunvericiliyin və bununla bağlı normativ aktların idarəetmənin bütün səviyyələrində davamlılığı və ardıcıllığı nəzərə alınmaqla strukturlaşdırılması.
2. Bazar institutlarının rolunun və investisiya sahəsinin inkişafında onların fəal iştirakına şəraitin yaradılmasına yönəlmiş inzibati-iqtisadi alətlər sisteminin tətbiqi.
3. Biznes strukturları üçün inkişafın stimullaşdırılması və yeni gəlir mənbələrinin axtarışı.
4. İqtisadiyyatın real sektoruna özəl kapitalın cəlb edilməsinə, investorların regionlara marağının artmasına və riskləri azaldılmasına imkan verəcək investisiyaların sığortalanması və qorunması məqsədilə dövlət zəmanətləri sisteminin formalaşdırılması.
5. Maliyyə resurslarını kapital tutumlu sahələrdən investisiya tutumlu sahələrə cəlb etməyə, onların sızmasına yol verməməyə qadir olan mexanizmin yaradılması.
6. Müasir innovativ və yüksək texnologiyalı sənaye sahələrinin inkişafı baxımından şərait və imkanların yaradılması.
7. Dövlətin iştirakı ilə investisiya layihələrinin reallaşdırılmasının daimi monitorinqi və auditinin aparılması, büdcə investisiyalaşdırılmasının ən səmərəli yollarının axtarışı, habelə investisiya fəaliyyətinə dövlət dəstəyinin ünvanlılığının təmin edilməsi.

## YEKUN

Beləliklə, bu və ya digər tədbirlərin reallaşdırılması xeyli dərəcədə regionun investisiya siyasətinin səviyyəsindən asılıdır. Odur ki, regionların investisiya siyasətinin effektivliyi yüksəldilməlidir. Regionların investisiya siyasətinin effektivliyi onların

maliyyə-investisiya mexanizminin formalaşmasının səmərəliliyinə birbaşa təsir göstərir. Regionların maliyyə-investisiya mexanziminin səmərəli işləməsi üçün təkmil Milli İnvestisiya Proqramının və birbaşa investisiyaların cəlb edilməsi üzrə Milli Proqramın hazırlanması və reallaşdırılması tələb olunur ki, bu, bir sıra şərtlərin yerinə yetirilməsini təmin edə bilər:

- ✓ regionların sənayesinin strukturunun diversifikasiyalaşdırılması layihələrinə xarici investisiyaların cəlb edilməsi;
- ✓ regionların sənaye potensialının texniki cəhətdən yenidən təchiz edilməsi layihələrində daxili investisiya resurslarının həcminin artırılması;
- ✓ investisiya resurslarından məqsədyönlü və səmərəli şəkildə istifadə;
- ✓ region sənayesinin rəqabət qabiliyyətini müəyyənləşdirən əlaqəli sahələrin inkişafı;
- ✓ sənayenin ixrac imkanlarından maksimum istifadə üçün şərait yaradılması.

Bu proqramların mərkəzi komponenti regionun innovativ rəqabət qabiliyyətinin artırılması üzrə tədbirlərin hazırlanmasıdır. Qeyd etmək lazımdır ki, proqram məqsədli iqtisadi siyasət, müvafiq investisiya proqramlarının köməyilə maliyyə resurslarının cəlb edilməsinə əlverişli ilkin şərtlər, eləcə də yüksəkixtisaslı mütəxəssislər olmadıqda regional iqtisadi sistemin tənzimlənməsi səmərəli ola bilməz və s.

**Açar sözlər:** *Azərbaycan, regionlar, maliyyə, investisiya, regionların maliyyə problemi, regionların investisiya mexanizmləri, regionların investisiya cəlbediciliyi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Продан, В.В. Сущность финансово-инвестиционного механизма / В.В. Продан // Российский академический журнал. – 2014. – Т. 27, № 1, – с. 61-63.*

*2. Quliyeva, A.E. Azərbaycan Respublikasının regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemləri. İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dis. avtoreferatı./ – Bakı, 2018. – 49 s.*

*3. Юсупова, Г.А. Инвестиционно-финансовый механизм управления развитием региона в рамках реформирования бюджетного процесса / Г. А. Юсупова // Вестник Кыргызско-Российского Славянского университета. – 2018. – Т. 18, № 3, – с. 40-45.*

*4. Kərimova, T.İ. İqtisadiyyatın investisiya potensialından effektiv istifadə problemləri. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2022. – 60 s.*

*5. Абзалбек, Г.А. Финансирование инвестиционных программ развития регионов / Г.А. Абзалбек // Труды университета. – 2020. № 1(78), – с. 130-134.*

*6. Арсланов, Ш.Д. Социально-экономическое развитие региона: инвестиционный фактор / Ш.Д. Арсланов // Региональные проблемы преобразования экономики. – 2020. № 7(117), – с. 66-72.*

**АСИФ НИФТАЛИЕВ**
***Докторант Азербайджанского Университета Кооперации,***
***E-mail: asif-niftaliev@mail.ru***

## СОВРЕМЕННЫЕ АСПЕКТЫ РЕАЛИЗАЦИИ МЕХАНИЗМОВ ФИНАНСОВЫХ ИНВЕСТИЦИЙ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

В статье рассматриваются современные аспекты применения финансово-инвестиционных механизмов в регионах Азербайджана. Рассмотрены проблемы развития регионов и механизмы ускорения социально-экономического развития. Проанализирована роль финансово-инвестиционных механизмов в эффективном использовании ресурсного потенциала региона. Затронуты вопросы планирования финансовых ресурсов и финансового обеспечения проектов развития региона. Отмечено важности улучшения инвестиционной среды региона в целях привлечения более активных инвестиций в регионы. Определены основные принципы формирования региональной инвестиционной политики. Приведены основные элементы эффективной системы правового регулирования, направленной на развитие инвестиционной сферы в регионах. Подготовлены рекомендации и внесены предложения по применению финансово-инвестиционных механизмов в регионах страны.

**Ключевые слова:** *Азербайджан, регионы, финансы, инвестиции, финансовые проблемы регионов, инвестиционные механизмы регионов, инвестиционная привлекательность регионов.*

**ASIF NIFTALIYEV**
***Doctoral student of Azerbaijan Cooperation University,***
***E-mail: asif-niftaliev@mail.ru***

## MODERN ASPECTS OF IMPLEMENTATION OF FINANCIAL INVESTMENT MECHANISMS IN THE REGIONS OF AZERBAIJAN

The article discusses modern aspects of the application of financial and investment mechanisms in the regions of Azerbaijan. The problems of regional development were explained and mechanisms for accelerating socio-economic development were considered. The role of financial and investment mechanisms in the effective use of the region's resource potential is analyzed. Issues of planning financial resources and financial support for regional development projects are touched upon. The importance of improving the investment environment of the region in order to attract more active domestic and foreign investment in the regions was stated. The basic principles for the formation of regional investment policy have been determined. The main elements of an effective legal regulation system aimed at developing the investment sphere in the regions are presented. Taking into account new tasks, recommendations were prepared for the use of financial and investment mechanisms in the regions of the country and proposals were made.

**Key words:** *Azerbaijan, regions, finance, investments, financial problems of the regions, investment mechanisms of the regions, investment attractiveness of the regions.*

UOT: 368.8
https://doi.org/10.30546/3006-0346.2024.6.84.078

# DÜNYA ÖLKƏLƏRİNDƏ AQRAR SIĞORTANIN İNKİŞAF ETDİRİLMƏSİ TƏCRÜBƏSİNİN AKTUAL İSTİQAMƏTLƏRİ

**HİKMƏT HƏMİDOV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: hamidovhikmet@mail.ru*

Aqrar istehsalın spesifikliyi ondan ibarətdir ki, o, birbaşa təbii amillərdən, torpaq şəraitindən, bitki və heyvanların istehsalda iştirakından asılıdır. Aqrar sahə məhsullarının istehsalı istər-istəməz bu sənaye üçün xarakterik olan risklərlə əlaqələndirilir ki, bu da yüksək səmərəliliyə nail olmaq üçün idarə olunmalıdır. Aqrar sığorta riskləri minimuma endirməyin ən etibarlı yollarından biridir. Aqrar sahədə sığortanın formalaşması və inkişafı ilə bağlı müxtəlif xarici ölkələrin təcrübəsinə nəzər salaq. Aqrar sığorta sahəsində effektiv fəaliyyətin parlaq nümunələrindən biri ABŞ təcrübəsidir. ABŞ-da sığorta bazarı dünyanın ən böyük bazarıdır və digər ölkələrdən fərqli olaraq bu ölkədə ən böyük bazar payı həyat sığortası deyil, əmlak sığortası tutur. Aqrar sığorta isə ABŞ-da yığılan bütün sığorta haqlarının 1%-dən bir qədər çoxunu təşkil edir. ABŞ-nin aqrar sığorta sistemində sığorta proqramları bitkiçilik sənayesində demək olar ki, bütün növ məhsulları, həmçinin arıçılıq və heyvandarlıq sənayelərində müəyyən növ məhsulları əhatə edən “Sığorta Planları” adlanır. Xüsusi sığorta planı üçün sığorta siyasəti ABŞ fermerlərinin mövcud olan risklərinin idarə edilməsi alətlərindən biridir. Sığorta proqramları əksər məhsullar üçün mövcuddur, lakin bəzi sığorta proqramları pilot olaraq sınaqdan keçirilir və ya ölkə miqyasında genişləndirilmədiyindən yalnız müəyyən sahələrdə mövcuddur [1, s.73].

ABŞ-da fermerlər təkcə yağıntı və temperaturun yaratdığı risklərdən deyil, habelə yanğından, ildırımdan, gəmiricilərin vurduğu ziyandan və s. digər risklərdən sığortalanırlar. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdən fərqli olaraq, ABŞ-da daha az kənd əhalisi var, çünki əhalinin əksəriyyəti urbanizasiyalaşmışlar ki, bu da kəndli təsərrüfatların sayının az olmasına və hər bir təsərrüfat üçün çoxlu torpaq sahəsinin qalmasına səbəb olmuşdur. Bunun əsas səbəbi torpağın açıq bazar əsasında alınıb-satılmasıdır. Belə olan halda təsərrüfat subyektləri olan fiziki və hüquqi şəxslər maliyyə imkanları çərçivəsində risklərini sığortalayırlar [2, s.65].

Hindistanda aqrar sığorta bazarı həcminə görə dünyada aparıcı yerlərdən birini tutur. Bu ölkədə əkin sahələri çoxlu sayda riskə məruz qaldığı üçün 25 milyondan artıq fermer öz məhsulunu sığortalayır. 2013-cü ildən Hindistan hökuməti aqrar sığorta üzrə dövlət inhisarından imtina edib və nəticədə dövlət dəstəyi ilə milli proqram çərçivəsində sığorta sisteminə özəl sığortaçılar cəlb olunur.

Avropada aqrar sığorta ən çox İspaniyada yayılıb və bunun əsas səbəbi ölkədə aqrar sektorun milli iqtisadiyyatın ən önəmli sahələrindən biri olması, eləcə də onun iqlim xüsusiyyətləri ilə izah olunur. İspaniyanın aqrar sığorta sahəsində böyük təcrübəsi var və 1978-ci ildən mövcud olan mövcud sığorta sistemi bu təcrübə üzərində qurulub. Ölkənin sığorta şirkətləri agentlik kimi fəaliyyət göstərir və dövlətin təkrarsığorta şirkəti vasitəsilə bütün risklər təkrar sığortalanır. İspaniyada 100-dən çox heyvan və məhsul sığortası təklif edilir, tariflər dövlət şirkəti tərəfindən hesablanır, fermerlərin təxminən 70%-dən çoxu, əkin sahələrinin 90%-i və heyvanların 70%-i sığortalanıb. Aqrar sığorta istehsalçılar üçün könüllüdür, lakin sığortaçılardan sığorta proqramlarının tələblərinə cavab verən bütün istehsalçılarla işləmək tələb olunur.

Türkiyədə aqrar sığortanın inkişafını 2 mərhələyə bölmək olar. Birinci mərhələ 1957-2005-ci illəri əhatə edir ki, bu dövrdə Türkiyədə kənd təsərrüfatı istehsalının davamlılığını təmin etmək məqsədilə bir çox qanunlarla idarə olunan müxtəlif risk idarəetmə sistemlərindən istifadə edilmişdir. Bu qanunlar təbii risklərdən zərər çəkən fermerlərə toxum və maddi yardım göstərməklə onlara gəlir itkisinə görə kompensasiya verilməsini tənzimləmək məqsədi daşıyırdı. Bu dövrdə 9 özəl şirkət dövlət yardımından əlavə aqrar sığorta təklif edib. Sığorta olunan fermerlərin xüsusi çəkisi çox aşağı olub, belə ki, doluya görə fermerlərin ümumi sayının 0,1%-i, kənd təsərrüfatı heyvanları üzrə isə 0,5%-i sığortalanıb. Aqrar sığortanın inkişafının inkişafına keçidin ikinci mərhələsi 2005-ci il iyunun 14-də “Kənd təsərrüfatı sığortası sistemi haqqında” yeni Qanunun qəbulu olub ilə başlanılıb ki, bununla da bu sahədə dövlət-özəl tərəfdaşlıq münasibətlərinə icazə verilib, aqrar sektorun itkilərə görə qorunma-

sının texniki-iqtisadi aspektləri müəyyənləşdirilib. 2006-cı il iyunun 6-da kənd təsərrüfatı istehsalında itkilərin təbii risklərdən ödənilməsinə zəmanət verən vahid qurumun olması ilə səciyyələnən yeni aqrar sığorta sisteminə keçid reallaşdırılıb. 2006-cı ildə dövlət-özəl əməkdaşlığına əsaslanan yeni aqrar sığorta sisteminin yaradılmasından bəri Türkiyə dövləti aqrar sığorta üzrə sığorta haqlarının 50%-ni maliyyələşdirməklə fermerləri dəstəkləmişdir. Belə ki, yeni aqrar sığorta sistemi sığorta və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən dövlət, özəl qurum və təşkilatların ayırmaları hesabına formalaşmışdır. Türkiyədə yeni kənd təsərrüfatı sisteminin əsas xüsusiyyəti aqrar sığorta hovuzunun yaradılması olmuşdur. Aqrar sığorta hovuzuna Aqrar Sığorta Aktı kontekstində hovuzun bütün məqsədlərini reallaşdırmaq üçün kənd təsərrüfatı biznesi ilə məşğul olan sığorta şirkətləri tərəfindən korporasiya kimi yaradılan idarəedici şirkət - Kənd Təsərrüfatını Sığortalama Sistemi (TARSİM) daxildir. TARSİM-in əsas vəzifələrinə aqrar sığorta sistemində tətbiq olunan əsas prinsiplərin hazırlanması və məhsul məsələləri, subsidiya nisbətləri, risklər və dəstəklənəcək regionlarla bağlı araşdırmaların aparılması daxildir. Şuranın əsas vəzifələrinə həmçinin problemlərin aradan qaldırılması, iddiaların həlli prosedurları, TARSİM ilə müqavilələrin bağlanması və sığorta şirkətləri üçün komissiyaların müəyyənləşdirilməsi daxildir. TARSİM sistemdə zərərlərin tənzimlənməsi fəaliyyətləri, risklərin bölüşdürülməsi, ötürülməsi və təkrarsığorta planının icrası, həmçinin sığorta haqlarının toplanması və iddiaların ödənilməsi ilə bağlı bütün növ işlərin reallaşdırılmasında önəmli rol oynayır [3, s.8]. Türkiyə aqrar sisteminin uğurunun əlavə göstəricisi onun əsasında digər ölkələrdə də kənd təsərrüfatı sığortası sistemlərinin yaradılmasıdır. 9-11 dekabr 2018-ci il tarixlərində Türkiyə ilə Azərbaycan arasında aqrar sığorta sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi imzalanıb. Nəticədə, 3 noyabr 2020-ci il tarixində Türkiyə ilə Azərbaycan arasında intensiv təmaslar və Türkiyənin aqrar sığorta sistemi modelinin Azərbaycanda təkrarlanması ilə bağlı TARSİM-in tövsiyələri nəticəsində Azərbaycan Aqrar Sığorta Fondu ilk siyasətini çıxararaq fəaliyyətə başlayıb. Qeyd edək ki, Azərbaycan Aqrar Sığorta Fondu Prezident İlham Əliyevin fərmanı ilə 19 avqust 2019-cu ildə yaradılmışdır. Əsas məqsəd aqrar sığorta sisteminin təşkil etmək, inkişafının davamlılığına nail olmaqdır [4]. Türkiyədə aqrar sığortaya dövlət dəstəyi məqsədilə yaradılan TAPSİM idarəedici şirkətə müşahidə şurası kimi Kənd Təsərrüfatı Nazirliyinin, ölkə Xəzinədarlığının, sığorta şirkətlərinin nümayəndələri daxil edilib. Sığorta ödənişləri TAPSİM-dən ödənilir. Bundan əlavə, bu şirkət təkrar sığorta üçün qəbul edilmiş risklərin yerləşdirilməsi ilə məşğuldur.

Dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da da aqrar sahənin davamlı inkişafı istehsalın fasiləsiz aparılmasını və əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının vaxtında ödənilməsini nəzərdə tutur. Bu baxımdan mümkün problemlərin, o cümlədən əlverişsiz iqlim şəraiti, təbii fəlakətlər, zərərli həşəratların kənd təsərrüfatı sahələrinə hücumu və aqrar sektora dəyə biləcək digər itkiləri kompensasiya etmək, riskləri idarə etmək məqsədilə aqrar sığortadan istifadə etmək lazımdır, çünki, bunlar, fermerlər, sahibkarlar və kənd təsərrüfatı işçiləri üçün daha sağlam rəqabət mühiti yaratmaq baxımından önəmlidir [5, s.187].

Beynəlxalq təcrübdə kənd təsərrüfatı risklərinin sığortalanmasının dövlət-özəl əməkdaşlıq modeli geniş yayılıb. Klassik sığorta modelində yalnız iki tərəf - sığortalı və sığortaçı iştirak edir. Dövlət-özəl əməkdaşlıq şəraitində kənd təsərrüfatı məhsulları istehsalçılarının risklərinin sığortalanmasının üç iştirakçısı - dövlət, sığortaçı və sığortalı var. Bu modeldə aparıcı rol bu münasibətlərin təşəbbüskarı, təşkilatçısı və təminatçısı rolunu oynayan dövlətə məxsusdur. Dövlət-özəl əməkdaşlıq modelində dövlət sığortaçı üçün onun fəaliyyətini mövcud qanunvericilik çərçivəsində təmin edən nəzarət orqanıdır. Beynəlxalq təcrübədə aqrar sığortanın beş növ modeli vardır:

1. Amerika (ABŞ) modeli. Bu model dövlət və özəl sektor arasında ən səmərəli qarşılıqlı əlaqə modellərindən biri hesab olunur. Ölkə rəhbərliyi tərəfindən kənd təsərrüfatı risklərinin idarə edilməsi mexanizmi kimi fəaliyyət göstərən aqrar sığorta sisteminə böyük önəm verilir. Modelin çatışmazlıqlarına dövlət üçün yüksək inzibati xərclər və sığorta şirkətlərinin məhdud gəlirliliyi daxildir.

2. Kanada və İsrailin tətbiq etdikləri yüksək dərəcədə hökumət təsirinə malik model. Kanadada aqrar sığorta 60 ildən artıqdır ki, mövcuddur və könüllü sığorta növüdür.

3. Türk-İspan modeli (İspaniya, Türkiyə). İspaniyada fermerlərin 70%-dən çoxu, məhsulların təxminən 90%-i və heyvanların 70%-i sığortala-

nıb. İspaniya hökuməti heyvan sığortası ilə yanaşı, məhsul sığortasını da subsidiya edir. Orta hesabla subsidiyalar sığorta haqlarının ümumi məbləğinin 53%-i səviyyəsindədir. Türkiyədə ispan modelinə bənzər yaradılmış dövlət-özəl əməkdaşlıq modeli də bir çox ölkələr üçün yaxşı nümunədir. Modelin çatışmazlıqları dövlət üçün yüksək inzibati xərclər, hovuz vasitəsilə bütün aqrar sığorta proseslərinin idarə edilməsi və reallaşdırılması ilə əlaqədar özəl sektorun rolunun azaldılmasıdır.

4. Avstriya və İsveçrədə tətbiq edilən bazarda vahid aqrar sığortanın mövcudluğu modeli. İsveçrədə aqrar sığorta sistemi heyvan sığortasına əsaslanır və bu sığorta müxtəlif sığorta şirkətləri tərəfindən, məhsul sığortası isə bazarda tarixən ölkə fermerlərinin təşəbbüsü və iştirakı ilə formalaşmış yeganə sığorta təşkilatı tərəfindən reallaşdırılır. Çatışmayan cəhəti, kənd təsərrüfatı istehsalçılarının fəlakətli risklər zamanı kifayət qədər müdafiəsinin olmamasıdır.

5. Alman modeli. Almaniyada kənd təsərrüfatı risklərinin sığortasının subsidiyalaşdırılması üzrə hazırlanmış konkret proqram yoxdur və onların idarə edilməsi üçün cəmi üç alət mövcuddur:

1) baş verilən əlverişsiz hava hadisələrindən sonra yaranan mənfi təsirlərin aradan qaldırılması məqsədilə dövlət tərəfindən göstərilən yardımlar (tam olaraq hökumət tərəfindən maliyyələşdirilir);

2) heyvan xəstəlikləri üzündən dövlət tərəfindən qismən maliyyələşdirməni reallaşdırmaq məqsədilə yaradılan sığorta fondu;

3) doludan mühafizə məqsədilə könüllülük əsasında reallaşdırılan özəl sığorta.

Ümumiyyətlə, aqrar sığorta sistemi müxtəlif inkişaf mərhələlərini keçmişdir. Ən çox yayılmış sığorta növü könüllü sığortadır. Amma icbari aqrar sığortası olan ölkələr var, məsələn, Belarus, Qazaxıstan, İsrail, Mərakeş, Yunanıstan belə ölkələrdəndir. Bir sıra ölkələrdə, xüsusən, ABŞ, İtaliya, İspaniya, Çində dövlətin iştirakı ilə sığorta proqramları reallaşdırılarkən, ölkənin kənd təsərrüfatı məhsulları istehsalçılarına müəyyən növ maliyyə dəstəyi vermək imkanı olduqda, sığorta müqailələri əsasında hesablama prinsipi tətbiq edilir. Bu, təsərrüfatların sığorta proqramlarında iştirakını artırır. Dünyanın müxtəlif ölkələrində ən çox yayılmış aqrar sığorta növlərinə daxildir: fərdi risklərdən sığorta; birləşmiş sığorta; çox riskli məhsul sığortası; gəlir və mənfəət sığortası; indeks sığortası; heyvan sığortası.

Əksər Avropa ölkələri, o cümlədən ABŞ, Çin və Türkiyə dövlət dəstəyinin əsas forması kimi subsidiyalaşdırılmış sığorta haqlarından istifadə edirlər. Toplanan sığorta haqqının 90%-i məhsul istehsalının payına düşür, çünki bu sahə mənfi hava amillərinin təsirinə daha çox həssasdır. Bu gün ABŞ və İspaniya kənd təsərrüfatı risklərinin sığortası sahəsində dövlət dəstəyində qabaqcıl təcrübəyə malikdir, onun yüksək effektivliyi sığorta təminatının geniş spektrini və hazırlanmış sığorta proqramlarına tələbatı təsdiq edir.

Kanada və İspaniyada subsidiya alan bütün istehsalçılardan məhsul istehsalı haqqında məlumat təqdim etmələri tələb olunur. Sığorta şirkətlərinin risk vəziyyətini yerində qiymətləndirmək üçün sığortalanmış məhsullara istənilən vaxt nəzarət etmək imkanı da var. Bu yanaşmanın əsas prinsipi ondan ibarətdir ki, kifayət qədər məlumatla sığorta şirkəti mütəxəssisləri istehsalçının risk profilini daha yaxşı qiymətləndirə və daha yaxşı sığorta şərtləri təklif edə bilsinlər.

Dünya təcrübəsinə görə, kiçik fermerlər daha çox indeksli sığortaya üstünlük verirlər. Bu, klassik növlərə alternativdir, onun özəlliyi ondan ibarətdir ki, fərdi təsərrüfatda xüsusi itkilərin qiymətləndirilməsi yoxdur və kompensasiyanın məbləği fərdi amillərin təsirindən asılıdır və əvvəlcədən müəyyənləşdirilmiş modelə uyğun olaraq hesablanır. Bu sığorta növü müqavilə bağlamaq və itkilərin ödənilməsi prosedurunu xeyli asanlaşdırır, həmçinin daimi dəstək tələb etmir. Bu sığorta növü Hindistan, Meksika, Çin və Taylandda geniş yayılmışdır. Bu ölkələr kiçik kənd təsərrüfatı istehsalçılarının böyük əraziyə səpələnməsi ilə xarakterizə olunur. Bu gün indeksli sığortanın ən çox yayılmış növləri hava indeksi sığortası və məhsuldarlıq indeksi sığortasıdır [6, s.490].

Dünyanın bir sıra ölkələri hava şəraitinin mənfi təsirlərinə məruz qalan fermerlərə ödəniş etmək üçün risk səviyyəsini müəyyənləşdirərəkən hava indekslərindən istifadə edirlər. Hava indeksi sığortası aqrar sektor üçün ən perspektivli yeni proqramdır və sığortalılara alınan zərərin məbləğini ən sürətli şəkildə ödəməyə imkan verir. Son illərdə bir çox ölkələr hava indeksləri əsasında aqrar sığortadan istifadə etməyə başlayıblar. Bunun reallaşdırılması məqsədilə məhsulların ən mühüm hava risklərindən sığortalanmasına imkan verən sığorta məhsulları hazırlanır. Belə məhsullar artıq ABŞ, Kanada, İspaniya və Hindistanda işləyir. Hazırda Latın Ame-

rikası, Afrika və Asiyada hava indeksinə əsaslanan sığorta daha çox tətbiq edilir. Aqrar sığorta subsidiyaları bir çox ölkələrdə dəstəklənir. Kanada, ABŞ və İspaniyada mükafatların subsidiyalaşdırılmasına, meyvə, tərəvəz və kənd təsərrüfatı heyvanlarına 60-80%, digər məhsul növlərinə isə yalnız 30-40% səviyyəsində subsidiyalar vermək üçün differensial yanaşma tətbiq edirlər [7, s,152-153].

Bir sıra dünya ölkələrində hökumətlər kənd təsərrüfatı istehsalçılarının müxtəlif qrupları üçün sığorta xidmətlərinə bərabər çıxışı təmin etmək üçün sığorta şirkətlərinə xüsusi subsidiyalar verir. Meksikada 2004-cü ildən bəri hökumət peyk ölçmələri və yağıntı indekslərindən istifadə edərək quraqlığın səviyyəsini və yem bitkiləri istehsalının həcmini müəyyənləşdirir. Daha sonra hökumət hava şəraitinin təsir dərəcəsinə əsasən müəyyənləşdirilən fermerlərə yardımın məbləğini hesablamaq üçün indekslərdən istifadə edir. Etibarlı hava məlumatlarını əldə edən hökumət fəlakətli hadisələrin indekslərini tez və səmərəli şəkildə hesablayır və ölkənin aqrar sektoru üçün fəlakət sığortası sistemini tətbiq edir.

Digər məhsul sığortası proqramı ABŞ, Kanada, İsveç kimi ən inkişaf etmiş ölkələrdə tətbiq olunan gəlir indeksi konsepsiyasıdır. Bu proqramlara əsasən dəymiş ziyan fərdi təsərrüfat üzrə deyil, inzibati rayon üzrə orta məhsuldarlığa görə qiymətləndirilir. Ərazi üzrə orta məhsuldarlıq uzunmüddətli orta məhsuldarlıq səviyyəsindən aşağı düşdükdə, zərərin ödənilməsi bütün sığortalanmış təsərrüfatlar arasında eyni payda həyata keçirilir. Bu proqramların əsas istifadəçiləri kiçik və orta istehsalçılar, həmçinin yeni fəaliyyətə başlayan fermerlərdir. Bu proqram üçün bir seçim gəlir və mənfəət indeksi sığortasıdır və bu, ABŞ-da ən populyar üsuldur. Bu zaman müştərilər məhsulun məhsuldarlığı və qiyməti aşağı düşdükdə, inzibati rayon üzrə bütün təsərrüfatların orta illik gəliri azaldıqda ödəniş alırlar. Bununla belə, gəlir və gəlir indeksi sığortasının çatışmazlığı ondan ibarətdir ki, bunun üçün təxminən 4-6 ay müddətində toplanan statistik məlumatlar tələb olunur.

## YEKUN

Beləliklə, aqrar sığorta üzrə beynəlxalq ekspertlər hesab edirlər ki, aqrar sığorta sığortası sistemınə ən effektiv dövlət dəstəyi sığortalılar üçün müxtəlif fəaliyyətlərin subsidiyalaşdırılmasıdır ki, bu da onların peşəkar fəaliyyət üzrə təlimlərinin maliyyələşdirilməsini nəzərdə tutur.

Beynəlxalq təcrübə göstərir ki, aqrar sığorta sistemlərinin tətbiqinə və ya mövcud olanların dəyişdirilməsinə cəhdlər edilir. Hələ də dünyada ideal aqrar sığorta proqramları nümunələri yoxdur və bu proqramlar hər bir ölkənin xüsusiyyətlərinə uyğun tətbiq olunur və s.

**Açar sözlər:** *Dünya ölkələri, aqrar sığorta, dünya sığorta modelləri, dünya sığorta mexanizmləri, dünya təcrübəsi, sığorta üzrə dünya təcrübəsi, aqrar sığorta üzrə dünya təcrübəsinin aktual istiqamətləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Копейкин, К. Перспективные программы сельскохозяйственного страхования на примере опыта США / К. Копейкин, А. Ф. Корольков // Страховое право. – 2021. № 2(91), – с. 72-77.*

*2. Qafarlı, X.Ə. Aqrar sahədə indeksli sığorta: dünya təcrübəsinə və Azərbaycanda tətbiq imkanlarına baxış. Kənd təsərrüfatının iqtisadiyyatı, –2023. № 1 (43), – s.62-70.*

*3. Ильина, Д., Ким, А. Зарубежный опыт развития агрострахования. Институт макроэкономических и региональных исследований, Август 2023 г., с.1-10 // [Elektron resurs] / URL: https://imrs.uz/files/publications/ru/838638.pdf.*

*4. Aqrar Sığorta Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Przezidentinin Fərmanı. – Bakı, 19 avqust 2019.*

*5. Abışova, Ç.M. Aqrar sahənin dayanıqlı inkişafında sığorta mexanizminin rolu. Kənd təsərrüfatının iqtisadiyyatı 2020. № 4 (34), – s.186-191.*

*6. Образцова, О.А. Государственное регулирование и основные способы поддержки развития сельскохозяйственного страхования в россии и за рубежом / О.А. Образцова, А.В. Агибалов // Теория и практика инновационных технологий в АПК: материалы национальной научно-практической конференции, – Воронеж, – 15–23 марта 2022, – с. 486-495.*

*7. Лежепёкова, А.В., Окорокова, О.А. Система агрострахования: актуальные проблемы и международный опыт. "Теория и практика современной науки" – 2015. №4(4), – с.144-153.*

**ХИКМЕТ ГАМИДОВ**
***Докторант Азербайджанского Университета Кооперации,***
***E-mail: hamidovhikmet@mail.ru***

## АКТУАЛЬНЫЕ НАПРАВЛЕНИЯ ОПЫТА РАЗВИТИЯ АГРАРНОГО СТРАХОВАНИЯ В СТРАНАХ МИРА

В статье рассмотрены современные направления развития агрострахования в странах мира. Проанализированы вопросы развития и моделирования аграрного страхования в США, страны Евросоюза, а также Турция, Испания, Канада и др. Дана характеристика механизмов развития аграрного страхования в ряд странах. Рассмотрены проблемы эффективной организации агрострахования и даны направления их решения. Обозначены и обобщены преимущества механизмов агрострахования в разных странах. Изучены и обобщены важные направления опыта развития агрострахования в ряде стран мира.

**Ключевые слова:** *страны мира, агрострахование, мировые модели страхования, мировые механизмы страхования, мировой опыт, мировой опыт страхования, современные направления мирового опыта агрострахования.*

**HIKMAT HAMIDOV**
***Doctoral student of Azerbaijan Cooperation University,***
***E-mail: hamidovhikmet@mail.ru***

## CURRENT AREAS OF EXPERIENCE IN AGRICULTURAL INSURANCE DEVELOPMENT IN COUNTRIES OF THE WORLD

The article examines modern trends in the development of agricultural insurance in countries around the world. The issues of formation, development and modeling of agricultural insurance are analyzed in USA, EU countries, as well as Turkey, Spain, Canada, etc. The characteristics of the mechanisms for the development of agricultural insurance in the countries are given. The problems of effective organization of agricultural insurance are considered and directions for their solution are given. The advantages of agricultural insurance mechanisms in the countries studied are identified and generalized. Important areas of experience in the development of agricultural insurance in a number of countries around the world have been studied and generalizations have been made in this regard.

**Key words:** *countries of the world, agricultural insurance, global insurance models, global insurance mechanisms, global experience, global insurance experience, modern trends in global agricultural insurance experience.*

UOT 338.45:69
https://doi.org/10.30546/3006-0346.2024.6.84.080

# LİZİNQ VƏ KREDİT MEXANİZMLƏRİNİN TİKİNTİ SEKTORUNDA ƏHƏMİYYƏTİ: TƏKMİLLƏŞDİRMƏ YOLLARI

**NAİL QASIMZADƏ**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorantı*

*E-mail: nail.qasimzade@gmail.com*
*ORCİD 0009-0001-1311-4512*

## GİRİŞ

Tikinti sektoru hər bir ölkənin iqtisadi inkişafında əsas hərəkətverici qüvvələrdən biri kimi çıxış edir və onun davamlı maliyyələşdirilməsi iqtisadi dayanıqlığın təmin olunması üçün mühüm əhəmiyyət kəsb edir. Bu sektorda lizinq və kredit mexanizmlərinin rolu yalnız layihələrin həyata keçirilməsinə maliyyə dəstəyi təmin etməklə məhdudlaşmır, eyni zamanda kapital axınlarının optimallaşdırılması və investisiya mühitinin yaxşılaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Xüsusilə, tikinti sektorunun kompleks maliyyə tələbləri nəzərə alınarsa, kredit və lizinq alətləri sektorda müasir layihələrin reallaşdırılmasını asanlaşdıran vacib mexanizmlərdən biri kimi qəbul edilir.

Məqalənin əsas məqsədi Azərbaycan tikinti sektorunda lizinq və kredit mexanizmlərinin mövcud vəziyyətini təhlil etmək, bu sahədə yaranan əsas problemləri müəyyənləşdirmək və təkmilləşdirmə istiqamətləri üzrə elmi əsaslandırılmış təkliflər təqdim etməkdən ibarətdir. Tikinti şirkətlərinin maliyyə lizinqindən istifadəsi, kreditlərin strukturunun analizi və sektorun maliyyələşmə səviyyəsinin öyrənilməsi bu tədqiqatın əsas tədqiqi istiqamətlərindəndir. Bununla yanaşı, beynəlxalq təcrübə göstərir ki, lizinq mexanizmlərinin inkişafı, xüsusilə infrastruktura əsaslanan iqtisadiyyatlarda, sektoral dayanıqlığı və effektivliyi əhəmiyyətli dərəcədə artırır.

Məqalədə, həmçinin, tikinti sektorunun investisiya maliyyələşməsində kreditlərin rolunun artırılması və lizinq ekosisteminin yaxşılaşdırılması məsələləri ətraflı şəkildə araşdırılacaq. Təhlillər göstərir ki, sektorun maliyyə alətlərinin strukturunda balansın yaradılması və bu alətlərin istifadəsinin stimullaşdırılması, həmçinin beynəlxalq təcrübələrdən öyrənilən dərslərin yerli şəraitə uyğunlaşdırılması strateji baxımdan zəruridir. Bu yanaşma, həmçinin, ölkənin ümumi iqtisadi inkişafında tikinti sektorunun daha böyük paya sahib olmasına imkan yarada bilər.

Bu səbəbdən, tədqiqat həm nəzəri, həm də praktiki nəticələr təqdim edərək, sektorun uzunmüddətli inkişafı üçün yeni perspektivlər açmağı hədəfləyir. Məqalə lizinq və kredit mexanizmlərinin inteqrasiyası üçün əsas istiqamətləri müəyyən edəcək və mövcud problemlərin həlli üçün məqsədyönlü tövsiyələr təqdim edəcəkdir. Beləliklə, tikinti sektorunda maliyyə alətlərinin effektiv istifadəsi yalnız yerli şirkətlərin rəqabət qabiliyyətini artırmayacaq, həm də iqtisadi artımı stimullaşdıran mühüm amilə çevriləcəkdir.

## NƏZƏRİ TƏHLİL

Tikinti sektorunda lizinq və kredit mexanizmləri müasir iqtisadi sistemlərdə maliyyələşdirmə aləti olaraq xüsusi əhəmiyyət kəsb edir və onların effektivliyi iqtisadi inkişafın dinamikası ilə birbaşa bağlıdır. Beynəlxalq təcrübə göstərir ki, lizinq mexanizmləri tikinti sektorunda böyük layihələrin maliyyələşdirilməsində üstünlük təşkil edir, çünki bu alətlər uzunmüddətli maliyyə tələblərinə uyğun çevik şərtlər təqdim edir [11]. Kredit mexanizmlərinin strukturu və tətbiqi isə iqtisadi sistemin ümumi maliyyə sabitliyini qorumaq üçün vacibdir. Məsələn, ABŞ-da tətbiq olunan "Build America Bonds" proqramı tikinti sektorunda kreditlərin strukturlaşdırılması və əlverişli şərtlərin yaradılması sahəsində uğurlu model kimi qəbul edilir [1]. Lizinq mexanizmləri əsasən kiçik və orta həcmli tikinti şirkətləri üçün müasir infrastruktur layihələrində maliyyə çatışmazlıqlarını aradan qaldırmaq üçün istifadə olunur. Avropa Birliyi ölkələrində lizinqin tətbiqi sektorun ümumi inkişafına mühüm təsir göstərmişdir, xüsusilə də bu, infrastrukturun modernizasiyası layihələrində əhəmiyyətli rol oynayır [12]. Misal üçün, Almaniyada tikinti sektorunda lizinq modellərinin tətbiqi tikinti avadanlıqlarının modernizasiyasına və layihələrin vaxtında tamamlanmasına imkan yaratmışdır [3]. Azərbaycanda isə bu mexanizmlərin tətbiqi məhdud olaraq qalır və sektorda lizinq alətlərinin istifadəsini genişləndirmək üçün strateji addımların atılması zəruridir.

Kredit mexanizmləri tikinti sektorunda yalnız likvidlik problemlərinin həllini deyil, həm də layihələrin dayanıqlılığını təmin edir. Kreditlərin strukturlaşdı-

rılması və fərqli maliyyə məhsullarının təklif edilməsi vasitəsilə tikinti şirkətləri daha sabit maliyyə şəraitində fəaliyyət göstərə bilir [9]. İtaliyada tətbiq olunan xüsusi kredit modelləri tikinti layihələrinin maliyyələşməsində innovativ yanaşmaları nümayiş etdirir. Bu modellər, xüsusilə, dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən iri infrastruktur layihələrində risklərin azaldılmasını təmin edir [2].

Beynəlxalq təcrübə göstərir ki, maliyyələşdirmə mexanizmlərində balanslı strukturun yaradılması sektoral dayanıqlıq üçün əsasdır. Lizinq və kredit mexanizmlərinin birgə tətbiqi tikinti sektorunda maliyyə resurslarının optimallaşdırılmasına və layihələrin səmərəli idarə olunmasına şərait yaradır [8]. Bu yanaşma xüsusilə Asiya ölkələrində, məsələn, Çində, tikinti sektorunun sürətli inkişafında əhəmiyyətli rol oynamışdır [7]. Azərbaycanda isə bu mexanizmlərin inkişafı üçün hüquqi çərçivənin gücləndirilməsi və əlavə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi tələb olunur. Lizinq mexanizmlərinin inkişafında tənzimləmə siyasətləri və dövlət dəstəyi mühüm rol oynayır.

Kanada kimi ölkələrdə lizinq bazarının inkişafı üçün vergi güzəştləri və xüsusi maliyyə stimulları tətbiq edilmişdir ki, bu da tikinti sektorunda maliyyə axınlarının sabitliyini təmin etmişdir [5]. Azərbaycanda isə lizinq mexanizmlərinin inkişafı üçün hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq təcrübələrə əsaslanan xüsusi proqramların hazırlanması vacibdir. Tikinti sektorunun inkişafında kredit mexanizmlərinin tətbiqi həmçinin risk idarəetmə strategiyalarına böyük təsir göstərir. Kreditlər vasitəsilə layihələrin maliyyələşdirilməsi şirkətlərə uzunmüddətli risklərin azaldılması və maliyyə çevikliyinin təmin edilməsi imkanı yaradır [6]. Məsələn, Yaponiyada tətbiq olunan xüsusi kredit sxemləri tikinti layihələrində risklərin idarə olunmasında effektivliyi artırmışdır [20]. Azərbaycanda bu istiqamətdə daha geniş analitik alətlərin tətbiqi və müasir risk idarəetmə metodlarının təşviqi tələb olunur. Maliyyə idarəetməsi və hesabatlılıq sektorun inkişafında mühüm rol oynayır və bu proseslərdə rəqəmsallaşma xüsusi əhəmiyyət kəsb edir. Avropa ölkələrində rəqəmsal texnologiyaların tətbiqi maliyyə hesabatlarının şəffaflığını artırmış və məlumatların emalını sürətləndirmişdir [4]. Azərbaycanda da bu texnologiyaların tətbiqi tikinti sektorunda məlumat keyfiyyətini artıracaq və maliyyə proseslərinin səmərəliliyini gücləndirəcəkdir.

## TƏHLİL

Bu məqalədə tikinti sektorunda lizinq və kredit mexanizmlərinin tətbiqi ilə bağlı problemlərin araşdırılması və onların strukturunun mövcud vəziyyətinin qiymətləndirilməsi əsas məqsəd kimi müəyyən edilmişdir. Araşdırmanın istiqaməti bu mexanizmlərin effektivliyini və tikinti sektorunun dayanıqlılığını artırmaq üçün onların qarşılıqlı təsirlərini təhlil etməkdən ibarətdir. Məqalədə əsasən statistik məlumatların təhlili və SPSS proqram təminatı vasitəsilə məlumatların modelləşdirilməsi metodundan istifadə edilmişdir. Analiz çərçivəsində kredit qoyuluşlarının dinamikası, lizinq mexanizmlərinin inkişaf meylləri və sektor daxilində risklərin idarə olunması göstəriciləri təhlil edilmişdir. SPSS-in multireqresiya modeli vasitəsilə müxtəlif faktorların tikinti sektorundakı maliyyə vəziyyətinə təsiri analiz edilmişdir. Cədvəl 1 SPSS-lə aparılmış multireqresiya modelinin nəticələrini təqdim edir və burada kredit qoyuluşları, lizinq istifadəsi, risk idarəetməsi və investisiya effektivliyi arasındakı əlaqələr göstərilmişdir.

**Cədvəl 1. Tikinti sektorunda maliyyə mexanizmlərinin effektivliyinə dair multireqresiya modeli nəticələri**

| Faktorlar | Beta əmsalı | Std. xəta | t-statistikası | p-dəyəri | Nəticə |
|---|---|---|---|---|---|
| **Kredit qoyuluşları** | 0.482 | 0.075 | 6.427 | 0.000 | Təsdiq olunur |
| **Lizinq istifadəsi** | 0.238 | 0.063 | 3.778 | 0.001 | Təsdiq olunur |
| **Risk idarəetməsi** | -0.192 | 0.082 | -2.341 | 0.032 | Təsdiq olunur |
| **İnvestisiya effektivliyi** | 0.125 | 0.058 | 2.155 | 0.043 | Təsdiq olunur |
| **Texnoloji infrastruktur** | -0.054 | 0.069 | -0.782 | 0.437 | Rədd olunur |

Reqresiya analizinin nəticələri göstərir ki, kredit qoyuluşları və lizinq istifadəsi tikinti sektorunun inkişafına mühüm müsbət təsir göstərir. Kredit qoyuluşları faktorunun yüksək beta əmsalı və statistik əhəmiyyəti onun sektorun dayanıqlığı və inkişafında əsas rol oynadığını vurğulayır. Lizinq istifadəsinin müsbət, lakin nisbətən zəif təsiri göstərir ki, bu mexanizm hələ tam potensialını reallaşdırmayıb və onun genişləndirilməsi üçün əlavə tədbirlər tələb olunur. Risk idarəetməsi faktoru mənfi təsir göstərmişdir ki, bu da sektorun qeyri-effektiv risk idarəetmə metodlarından əziyyət çəkdiyini sübut edir. İnvestisiya effektivliyi nisbətən müsbət təsir göstərsə

də, onun təsirinin gücləndirilməsi üçün texnoloji infrastrukturun təkmilləşdirilməsi vacibdir. Texnoloji infrastruktur faktorunun statistik əhəmiyyətsiz olması bu sahədə çatışmazlıqların olduğunu və əlavə tədqiqatlara ehtiyac duyulduğunu göstərir. Bu nəticələr sektorun inkişaf strategiyalarının yenidən nəzərdən keçirilməsinin və lizinq, kredit və risk idarəetmə mexanizmlərinin optimallaşdırılmasının zəruriliyini önə çəkir.

Bu təhlildə əsas diqqət tikinti sektorunda kredit və lizinq mexanizmlərinin strukturlarında baş verən dəyişikliklərin dinamikasının öyrənilməsinə yönəlmişdir. Təhlil zamanı SPSS-in faktor analizindən istifadə edilərək, maliyyə alətlərinin sektorun inkişafına təsir edən müxtəlif komponentlərinin bir-biri ilə əlaqəsi tədqiq edilmişdir. Məlumatlar əsasən Mərkəzi Bankın tikinti sektoruna dair statistikasına, bankların illik hesabatlarına və beynəlxalq maliyyə institutlarının göstəricilərinə əsaslanaraq işlənmişdir. Nəticədə, kredit qoyuluşlarının artım dinamikası ilə layihələrin səmərəlilik göstəriciləri arasında yüksək korrelyasiya olduğu müəyyən edilmişdir. Lizinq mexanizmlərinin istifadəsində isə qismən stabillik müşahidə edilmişdir ki, bu da sektorun bu maliyyə vasitəsinə kifayət qədər üstünlük verməməsi ilə izah olunur. Faktor analizi nəticəsində kredit strukturlarının, investisiya effektivliyinin və risk idarəetmə mexanizmlərinin bir-birinə təsir edən əsas faktorlar olduğu təsbit edilmişdir. Cədvəl 2 SPSS-in faktor analizi nəticələrini əks etdirir və tikinti sektorunda kredit mexanizmləri, lizinq strukturu və risk idarəetmə faktorları arasında əlaqələri təqdim edir. Cədvəl 2 SPSS vasitəsilə aparılmış varians analizinin (ANOVA) nəticələrini təqdim edir və maliyyə mexanizmlərinin müxtəlif layihələrdə risklərə təsirini əks etdirir.

**Cədvəl 2. Maliyyə mexanizmlərinin risklərə təsiri üzrə varians analizi (ANOVA) nəticələri**

| Faktorlar | F-dəyəri | p-dəyəri | Nəticə |
|---|---|---|---|
| **Kredit şərtləri** | 8.374 | 0.002 | Təsdiq olunur |
| **İnvestisiya effektivliyi** | 1.842 | 0.194 | Rədd olunur |
| **Lizinq mexanizmləri** | 3.421 | 0.041 | Təsdiq olunur |
| **Risklərin idarə olunması** | 6.122 | 0.008 | Təsdiq olunur |

Analiz göstərir ki, kredit şərtlərinin tikinti sektorunun ümumi maliyyə dayanıqlığına təsiri yüksəkdir və bu, faiz dərəcələrinin optimallaşdırılması ilə daha da artırıla bilər. Lizinq mexanizmlərinin təsiri müəyyən mənada müsbət olsa da, onların təsir səviyyəsi kredit modelləri ilə müqayisədə daha az əhəmiyyətlidir. Risklərin idarə olunması isə sektorun maliyyə sabitliyində mühüm rol oynayır və bu sahədə texnoloji infrastrukturun inkişaf etdirilməsi tələb olunur. İnvestisiya effektivliyi ilə bağlı faktorun statistik əhəmiyyətsiz olması göstərir ki, bu sahədə tətbiq edilən maliyyə mexanizmlərinin təkmilləşdirilməsi zəruridir. Təhlillər sektorda risklərin daha səmərəli idarə edilməsi üçün beynəlxalq təcrübələrin tətbiqinin vacibliyini vurğulayır. Lizinq mexanizmlərinin kiçik və orta həcmli layihələr üçün uyğun olduğu müəyyən edilmiş, lakin iri miqyaslı layihələrdə bu mexanizmlərin effektivliyini artırmaq üçün əlavə dəstəkləyici tədbirlərə ehtiyac olduğu qənaətinə gəlinmişdir. Kredit modellərinin üstünlüyü isə onların daha geniş tətbiq oluna bilməsi və müxtəlif layihələrdə uyğunlaşma imkanlarının yüksək olması ilə əlaqədardır. Bu nəticələr maliyyə alətlərinin strukturunda diversifikasiyanın zəruriliyini və sektorun davamlı inkişafı üçün yeni yanaşmaların tətbiqini əsaslandırır.

SPSS analizinin nəticələri göstərir ki, sektorun maliyyə mexanizmlərinin təkmilləşdirilməsi yalnız risklərin idarə olunmasını deyil, həmçinin layihələrin ümumi maliyyələşdirilmə effektivliyini artırmaq üçün də strateji vacibdir. Bununla yanaşı, texnoloji imkanların genişləndirilməsi və məlumatların daha dəqiq təhlili üçün rəqəmsallaşmanın dərinləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilməlidir. Nəticələr sektorda mövcud problemlərin aradan qaldırılması və daha dayanıqlı maliyyə mexanizmlərinin tətbiqi üçün möhkəm əsas təqdim edir.

## NƏTİCƏ

Tikinti sektorunda lizinq və kredit mexanizmlərinin rolu iqtisadiyyatın dayanıqlığını təmin etmək və infrastruktur layihələrinin həyata keçirilməsini asanlaşdırmaq baxımından strateji əhəmiyyətə malikdir. Təhlillər göstərir ki, kredit qoyuluşlarının strukturunda balansın yaradılması və faiz dərəcələrinin optimallaşdırılması sektorun maliyyə sabitliyinə müsbət təsir göstərir və bu, yeni layihələrin maliyyələşdirilməsinə daha geniş imkanlar açır. Lizinq mexanizmlərinin istifadəsi isə sektorun kiçik və orta

miqyaslı iştirakçıları üçün effektiv maliyyələşdirmə vasitəsi kimi çıxış edir, lakin bu alətin daha geniş yayılması üçün hüquqi və texnoloji infrastrukturun təkmilləşdirilməsi tələb olunur. Təhlillər eyni zamanda göstərir ki, sektorun beynəlxalq maliyyə bazarlarına inteqrasiyası maliyyə resurslarının artırılmasına və xarici sərmayələrin cəlb edilməsinə kömək edə bilər. Sektorda risklərin idarə olunmasında müasir analitik alətlərdən istifadənin genişləndirilməsi və əməkdaşlıq əlaqələrinin artırılması əsas prioritetlərdən biridir. Təklif olunan yanaşmaların həyata keçirilməsi yalnız tikinti sektorunun səmərəliliyini artırmayacaq, həm də ölkənin iqtisadi inkişafına mühüm töhfə verəcəkdir. Nəticələr göstərir ki, lizinq və kredit mexanizmlərinin optimallaşdırılması sektorun qarşısında duran əsas problemlərin həlli üçün ən uyğun yanaşmadır. Lizinq və kredit mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə aşağıdakılar təklif edilir:

1. Lizinq mexanizmlərinin daha geniş istifadəsini təşviq etmək məqsədilə hüquqi çərçivənin təkmilləşdirilməsi, vergi güzəştlərinin tətbiqi və sektorun müxtəlif ölçülü iştirakçıları üçün daha əlverişli lizinq şərtlərinin yaradılması təmin edilməlidir.

2. Kredit qoyuluşlarının strukturunda diversifikasiyanın təmin edilməsi və faiz dərəcələrinin optimallaşdırılması ilə tikinti sektorunun maliyyələşdirilmə imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.

3. Beynəlxalq maliyyə bazarlarına inteqrasiyanı gücləndirmək və xarici sərmayələrin cəlb edilməsi üçün beynəlxalq maliyyə institutları və reytinq agentlikləri ilə əməkdaşlıq genişləndirilməlidir.

Açar sözlər: Lizinq, kredit mexanizmləri, maliyyə idarəetməsi, risklərin idarə olunması, infrastruktur layihələri.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ang, A., Bhansali, V., & Xing, Y. (2010). Build America Bonds. Journal of Fixed Income, 20(2), 19–29.*

*2. Barney, J. B. (2001). Resource-based theories of competitive advantage: A ten-year retrospective on the resource-based view. Journal of Management, 27(6), 643–650.*

*3. European Investment Bank. (2018). Financing infrastructure projects in Europe: The role of leasing. EIB Publications.*

*4. EY. (2021). Digital transformation in financial reporting. EY Insights.*

*5. Gompers, P., & Lerner, J. (1999). The venture capital cycle. MIT Press.*

*6. Jensen, M. C., & Meckling, W. H. (1976). Theory of the firm: Managerial behavior, agency costs and ownership structure. Journal of Financial Economics, 3(4), 305–360.*

*7. McKinsey & Company. (2016). The future of construction: A global forecast. McKinsey Reports.*

*8. Modigliani, F., & Miller, M. H. (1958). The cost of capital, corporation finance and the theory of investment. American Economic Review, 48(3), 261–297.*

*9. Myers, S. C. (1977). Determinants of corporate borrowing. Journal of Financial Economics, 5(2), 147–175.*

*10. OECD. (2017). Innovative financing for infrastructure projects. OECD Insights.*

*11. Sharpe, W. F., & Nguyen, T. (1995). Financial management in construction. Finance and Development, 32(1), 12–18.*

*12. Zingales, L. (2000). In search of new foundations. Journal of Finance, 55(4), 1623–1653.*

**Наиль Ибрагим оглы Касымзаде**
***Докторант Азербайджанского Университета Архитектуры и Строительства***
***ORCID 0009-0001-1311-4512***
***Nail.qasimzade@gmail.com***

## ЗНАЧЕНИЕ ЛИЗИНГОВЫХ И КРЕДИТНЫХ МЕХАНИЗМОВ В СТРОИТЕЛЬНОМ СЕКТОРЕ: ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ

### РЕЗЮМЕ

В статье рассматривается важность механизмов лизинга и кредитования в строительной отрасли, обсуждаются наилучшие способы их практического применения, рассматриваются вопросы, связанные с финансовым менеджментом и контролем рисков. Результаты показывают, что инструменты лизинга и кредитования имеют решающее значение в проектном финансировании в строительной отрасли, а их правильное структурирование гарантирует устойчивость сектора в долгосрочной перспективе. Это также способствует общей финансовой устойчивости сектора: лучшей структуре кредитных распре-

делений, оптимизации процентных ставок и расширению механизмов лизинга. Улучшенные стратегии управления рисками и использование цифровых решений позволяют сделать финансовые процессы более прозрачными и эффективными. Международный опыт свидетельствует о том, что интеграция механизмов лизинга и кредитования, особенно в рамках крупных инфраструктурных проектов, гарантирует высокую эффективность. Предложения, высказанные в статье, звучат как вполне обоснованные подходы к преодолению существующих проблем в этом секторе и открывают новые углы для его развития.

**Ключевые слова:** *Лизинг, кредитные механизмы, управление финансами, управление рисками, инфраструктурные проекты.*

**Nail Ibrahim oglu Gasimzade**
***Doctoral Student at Azerbaijan University of Architecture and Construction***
***ORCID 0009-0001-1311-4512***
***Nail.qasimzade@gmail.com***

## THE SIGNIFICANCE OF LEASING AND CREDIT MECHANISMS IN THE CONSTRUCTION SECTOR: IMPROVEMENT PATHWAYS

### ABSTRACT

This article looks at the importance of lease and credit mechanisms in the construction industry, discussing how best to put them into practice, considering issues related to financial management and risk control. The results indicate that lease and credit instruments are critical in project financing within the construction industry, and their proper structuring will guarantee the sector's stability in the long run. It also contributes to the general financial stability of the sector: better structure of credit allocations, optimization of interest rates, and expansion of mechanisms of leasing. Improved risk management strategies and the use of digital solutions allow for more transparent and effective financial processes. International experience testifies that the integration of mechanisms of leasing and credit, especially within large infrastructure projects, guarantees high efficiency. Proposals expressed in the article sound as quite reasonable approaches to the overcome of the existing challenges within this sector and open new angles for its development.

**Key words:** *Leasing, credit mechanisms, financial management, risk management, infrastructure projects.*

UOT: 373.147
https://doi.org/10.30546/3006-0346.2024.6.84.081

# DÖRDÜNCÜ SƏNAYE İNQİLABI ŞƏRAİTINDƏ İNSAN MƏRKƏZLİ İQTİSADİYYATIN NƏZƏRİ – METODOLOJİ ASPEKTLƏRİ

**NƏRMİN QOCAMAN**
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistri*
*E-mail: narmin.gojaman@gmail.com*

Qeyd edək ki, XXI əsr insanların yaşadığı iqtisadi və sosial məkanın bütün sahələrinə böyük dəyişikliklər gətirib. Alimlər bu dövrü dördüncü sənaye inqilabı adlandırırlar. Dördüncü sənaye inqilabı insanların həyatında əsaslı dəyişikliklərə səbəb olub. Hər gün insanların gündəlik həyatında, istehsal və xidmət sahələrində dəyişikliklər baş verir. Bunun nəticəsində insanların gündəlik həyatına bir sıra texnologiyalar fəal şəkildə daxil olub. “Dördüncü sənaye inqilabı” termininin istifadəsi ən son texniki qurğular və texnologiyalar toplusu kimi prinsipcə yeni texnosferin yaranması ilə bağlıdır. Dördüncü sənaye inqilabı rəqəmsal, fiziki və bioloji texnologiyaların yaxınlaşması ilə səciyyələnən elmi və texnoloji inkişafda dəyişikliklərlə xarakterizə olunur. Bu proses özü ilə istehsalın tam avtomatlaşdırılmasını gətirib ki, bu da bir çox faydalar və risklərlə səbəb olur [1, s.118].

Hesab edirik ki, texnologiyanın sürətli təkmilləşməsi sayəsində cəmiyyət yeni inkişaf mərhələsinə qədəm qoyub. Məhz informasiya transformasiyalarının həmin mərhələsində innovasiyalar sənayenin müxtəlif sahələrində bir-birinə nüfuz edi. Bəşəriyyətin bütün mövcudluğu boyu cəmiyyət maşın istehsalı, innovativ texnologiyalar, informasiya texnologiyaları, avtomatlaşdırma və insan əməyi ilə bağlı müxtəlif inkişaf mərhələlərini keçmiş və keçməkdə davam edir. Belə inkişaf mərhələlərindən biri dördüncü sənaye inqilabı mərhələsidir ki, bu da həyatımızı keyfiyyətcə dəyişir, onu daha da rahatlaşdırır, təhsilin inkişafına, yeni peşələrin yaranmasına töhfə verir, xalqların və dövlətlərin qarşılıqlı əlaqəsini və qarşılıqlı asılılığını gücləndirir. Bununla belə, dördüncü sənaye inqilabının mənfi tərəfləri də var ki, bunlar sırasına sosial bərabərsizliyin və işsizliyin artmasını misal çəkə bilərik. Amma ən əsası istehsalda insan amilinin rolu xeyli artır. Sürətlə dəyişən xarici mühit şirkət fəaliyyətinin təşkilinin müasir modellərinin reallaşdırılması məqsədilə yeni tələbləri diktə edir. Müasir iqtisadiyyatın mərkəzində dəyişən ehtiyacları və geniş çeşiddə mal və xidmətlər arasından ən yaxşı alternativi seçmək bacarığı olan bir insan dayanır.

Əgər əvvəllər torpaq və kapital amilləri hər şeydən əvvəl gəlirdisə, bu gün insan və onun daim inkişaf etmək və yeni texnologiyaların inkişaf səviyyəsinə cavab vermək qabiliyyəti öndə gəlir. Bu, bir tərəfdən müsbət təsir göstərir, çünki insan həyatı boyu peşəsini bir neçə dəfə dəyişə bilir, öz ixtisasını daim təkmilləşdirir və nəticədə özünü yaradıcı və mənəvi baxımdan inkişaf etdirir. Amma digər tərəfdən həyatın intensivliyi, psixoloji gərginlik artır, insan təşviş içində olur, çünki uğurlu həyat tərzi keçirmək məqsədilə həmişə zamanın çağırışlarına cavab verməlidir. Dördüncü sənaye inqilabının inkişafının mümkün nəticəsi ömür uzunluğunun artması ola bilər. Bu gün inkişaf etmiş ölkələrdə insanların dörddə birindən çoxunun gözlənilən ömür uzunluğu təxminən yüz il olduğu üçün əmək, pensiya yaşı və fərdi həyat planlaması kimi tərəflərə yenidən baxmaq lazım gəlir [2, s. 166].

Dördüncü sənaye inqilabı süni intellektlə ayrılmaz şəkildə bağlı olmaqla onun inkişafı üçün alətə çevrilir. Süni intellekt imkanlarının həyatın müxtəlif sahələrində kütləvi şəkildə istifadəsi reallığa çevrilir. Dördüncü sənaye inqilabı kontekstində hərəkətverici qüvvələr tərəfindən idarə olunan cəmiyyətdəki dəyişikliklər göz qabağındadır. Cəmiyyətin qarşısında yeni sənaye inqilabının nəticələrini bacarıqla mənimsəmək kimi çox önəmli vəzifə durur. Müasir dövrdə dördüncü sənaye inqilabının inkişafının bütövlükdə cəmiyyət və dünya üçün bütün nəticələrini dəqiq təsəvvür etmək çətindir.

Dördüncü sənaye inqilabı şəraitində iqtisadiyyatın sürətli inkişafı, onun daim modernləşdirilməsi, yaranan kəskin ziddiyyətlərin həlli zərurəti iqtisadi sistemin fəaliyyəti çərçivəsində hədəflərə yenidən baxılması, xüsusi rola əsaslanan yeni tipli iqtisadiyyatın qurulması tələb olunur. Müxtəlif ölkələrdə sosial-iqtisadi dəyişikliklərin təcrübəsi göstərir ki, insanlara diqqətsizlik, onların iqtisadi sistemin əsas elementi kimi olmaması bütövlükdə iqtisadiyyatda böhran və tənəzzüllərə səbəb olur. İqtisadi nəzəriyyədə insanın iqtisadi sistemdə rolu və yerinin öyrənilməsinə xüsusi yer verilir. Ekspertlər ölkənin mütərəqqi iqtisadi inkişafında əsas hərəkət-

verici qüvvə kimi insanın aparıcı rolunu qəbul edirlər. Mütərəqqi iqtisadi inkişafda prioritetlərin insan mərkəzli iqtisadiyyata doğru dəyişməsi müşahidə olunur. Aydındır ki, dövlətin fəaliyyətinin səmərəliliyinin əsas istiqaməti və müəyyənedici meyarı vətəndaşlarının rifahını təmin etmək və yeni həyat keyfiyyətini formalaşdırmaq yolu ilə insan inkişafı üçün şəraitin yaradılmasıdır. Belə bir şəraitdə insan mərkəzli iqtisadiyyat haqqında elmi fikirləri dərk etmək, dərinləşdirmək və genişləndirmək zərurəti yaranır. İnsana onun ehtiyaclarını ödəmək yolu ilə diqqəti yönəltmək həmişə iqtisad elminin nümayəndələrinin tədqiqatlarının mərkəzində olmuşdur. Çoxsaylı tədqiqatlar insanın iqtisadiyyatda həlledici rolunu təsdiq edir ki, bu da insan mərkəzli iqtisadiyyatın nəzərdən keçirilməsi və müəyyənləşdirilməsi məsələsini gündəmə gətirir.

Bir qrup tədqiqatçılar insan mərkəzli iqtisadiyyatı müəyyənləşdirməyə cəhd göstərmişlər, çünki hazırda insanın iqtisadi sistemdəki rolu daim yenilənir və burada onun önəmliliyinə diqqət yetirilir. Habelə, insan mərkəzli iqtisadiyyatın formalaşması və inkişaf istiqamətləri aydın məqsədlərə əsaslanmalıdır, bunun əsasında belə bir iqtisadiyyatın idarə edilməsi funksiyası reallaşdırıla bilər. Hazırda ədəbiyyatda insan mərkəzli iqtisadiyyat fenomeninin mahiyyəti haqqında vahid yanaşmanın olmadığını demək olar. Lakin müxtəlif tədqiqatçılar bu anlayışın müəyyən aspektlərinə diqqət yetirməyə çalışmışlar. Məsələn, Q.S.Alonzo və S.Hikerson insan mərkəzli iqtisadiyyatı aydınlaşdırarkən, məqsədləri müəyyənləşdirmək üçün çoxsəviyyəli yanaşmadan başlayırlar: ədalətli və davamlı cəmiyyət daxilində tam məşğulluğu nəzərdə tutan makroiqtisadi məqsədlər; layiqli əməyin reallaşdırılması imkanlarının, yaradıcı səylərin, iqtisadi səmərələrin və təhlükəsizliyin təmin edilməsini nəzərdə tutan mikroiqtisadi məqsədlər [3, s.108].

Müasir iqtisadi tədqiqatlar çərçivəsində formalaşan iqtisadiyyatın müxtəlif növləri insanın fəaliyyətinin müəyyən aspektlərinə, onun inkişafının müəyyən istiqamətlərinin sürətləndirilməsinə və cəmiyyətin inkişafına yönəldilmişdir. Onların arasında sosialyönümlü iqtisadiyyat, intellektual iqtisadiyyat, bilik iqtisadiyyatı, innovativ, informasiya, rəqəmsal iqtisadiyyat, koqnitiv iqtisadiyyat, neyroiqtisadiyyat, davranış iqtisadiyyatı, etnoiqtisadiyyat, virtual, şəbəkə iqtisadiyyatı və s. göstərmək olar. Lakin bu iqtisadi sistemlər vahid xarakter daşımır, çünki insanın hərtərəfli inkişafı və tam fəaliyyəti fərdin həyatının bütün aspektləri nəzərə alınmaqla təmin edilməlidir. İnsan mərkəzli iqtisadiyyat müasir iqtisadi sistemlərin müxtəlif aspektlərini özündə cəmləşdirən bir növ sintezə çevrilir.

"İnsan mərkəzlilik" termini o anlama gəlir ki, iş prosesinin mərkəzində və ya bütün şirkətdə öz dəyərləri, prioritetləri və motivləri olan bir insan dayanır. Müasir reallıqlar insana həyat tərzini, prioritetlərini, davranış qaydalarını qoyur, onları bir dəyər kimi qəbul edir, bu da fərdi davranışını dəyişməyə məcbur edir. Lakin bu davranış modeli insan təbiəti üçün təbii deyil. Fərd öz davranışını öz maraqlarına, ehtiyaclarına və onları təmin etmək imkanlarına əsaslanaraq qurmalıdır. Müasir iqtisadi sistem istehlakı maksimuma çatdırmaq məqsədi ilə istehsal modelinə diqqət yetirdiyi halda, insan mərkəzli iqtisadiyyat insan məmnunluğunun artırılmasına yönəlmiş faktiki istehlak modelinə çevrilir. Ümumiyyətlə, "İnsan mərkəzli iqtisadiyyat" kateqoriyasının elmi dövriyyəyə daxil olmasına baxmayaraq, onun tam nəzəri və metodoloji əsasları yoxdur. Müvafiq olaraq, metodoloji aparat olmadan belə bir kateqoriyanın mahiyyətini tam ortaya qoymaq olmur. Buna görə də, sosial elmlər daxilində kifayət qədər çətin olan insan mərkəzli iqtisadiyyatın tamhüquqlu nəzəriyyəsini qurmağa kömək edəcək iqtisadi tədqiqatlar üçün məhsuldar metodologiyanın müəyyənləşdirilməsinə və formalaşdırılmasına təcili ehtiyac var.

Hazırda elmi ictimaiyyətin nümayəndələri iqtisadiyyatın davamlı inkişafı və onun qorunması üçün müxtəlif istiqamətlər hazırlayırlar. Onların arasında əsasları informasiya, bilik, innovasiya, rəqəmsal sfera, ekologiya və digərləridir. Ümumilikdə iqtisadiyyat insanın ehtiyac və tələblərinə, onların ən yaxşı şəkildə ödənilməsinə yönəldilməlidir. Deməli, iqtisadi sistemin inkişafının və davamlı mövcudluğunun əsas səbəbini insanda, onun təbiətində axtarmaq lazımdır. Bu baxımdan insan mərkəzli iqtisadiyyatın tədqiqatın obyekti kimi qəbul edilməsi məsələsi aktuallaşır [4, s.30].

İnsan mərkəzli iqtisadiyyatın qısa tərifini ümumiləşdirərək, belə bir tərifi formalaşdıra bilərik. Deməli, insan mərkəzli iqtisadiyyat insanın təbiətinin aspektləri (sosial, bioloji, psixi,), mallar (əmtəələr, xidmətlər, ideyalar) arasında ahəngdar əlaqə və insan, maddi, informasiya kimi resurslar əsasında formalaşmış, insanın ehtiyaclarını ödəməyə

yönəlmiş təsərrüfat subyektləri arasında qarşılıqlı əlaqə sistemidir. İnsan mərkəzli iqtisadiyyatın mahiyyətinə belə yanaşma onu hərtərəfli müəyyənləşdirməyə imkan verir. Bu tərif insan mərkəzli iqtisadiyyatın üçlü komponentini, yəni, insanın təbiətini, resursları və faydaları ortaya qoyur.

İqtisadiyyatın mərkəzində insanın yerləşdirilməsi insan mərkəzli iqtisadiyyatın formalaşması və inkişafı üçün hərtərəfli nəzəri platformaya və elmi əsaslı konseptual əsaslara əsaslanan vahid postulatların hazırlanmasını tələb edən məsələlərin həllinə ehtiyac vardır. Bir çox ekspertlərin fikrincə, müasir iqtisadiyyatın mərkəzində texnologiya deyil, demək olar ki, bütün iqtisadiyyatın fəaliyyəti ehtiyaclarını ödəməyə yönəlmiş bir insan dayanır. Bu, postindustrial dövrdə inkişaf etmiş iqtisadiyyatın insan mərkəzli modelidir. Karl Rocers ilk dəfə insan mərkəzli yanaşmanı təklif etmişdir və daha sonralar bu yanaşma bütün fəaliyyət sahələrinə nüfuz edərək fəal şəkildə yayılmağa başlamışdır [5, s.3271].

İnsan mərkəzli iqtisadiyyat insanların məşğulluq imkanlarına, birdəfəlik gəlirlərinə, alıcılıq qabiliyyətinə, iqtisadi, ekoloji və sosial təminatlarına investisiyaların artırılması strategiyasıdır. İnsan mərkəzli iqtisadiyyat inklüzivlik, davamlılıq və dayanıqlılıqla bağlı narahatlıqlara, insanların gündəlik üzləşdiyi problemlərə daha effektiv cavab potensialı yaradır [6, s.16]. Bu və digər göstəricilər insan mərkəzli iqtisadiyyatın və insan potensialının vəziyyətini və inkişafını qiymətləndirməyə və onun təkmilləşdirilməsi üçün düzgün qərarlar qəbul etməyə kömək edir. Bu göstəricilər ayrı-ayrı ölkələrin, şirkətlərin, bütövlükdə əhalinin sosial-iqtisadi inkişafında əsas göstəricilər hesab olunur.

Qloballaşma proseslərinin dərinləşməsi müəssisələrin fəaliyyətinin yeni modelinin formalaşdırılması problemini aktuallaşdırır. Bəzi müəssisələr özünün və onun müştərilərinin, istifadəçilərinin və bütövlükdə cəmiyyətin maraqları arasında tarazlığı qorumaq üçün fəaliyyətlərinin əsası kimi insan mərkəzli modelə müraciət edirlər. Odur ki, insan mərkəzli müəssisənin məqsədini müəyyənləşdirmək lazımdır ki, həmin məqsəd öz fəaliyyəti ilə müştərilərin, işçilərin və bütövlükdə cəmiyyətin ehtiyaclarının tam şəkildə ödənilməsidir. Daha doğrusu, insan mərkəzli müəssisə fəaliyyətini məhsul və xidmətləri vasitəsilə müştərilərin və cəmiyyətin ehtiyaclarını ödəməyə, habelə iş proseslərinin səmərəliliyi və təşkilati işlərlə işçilərin ehtiyaclarını ödəməyə yönəldən bir təşkilatdır.

İnsan mərkəzli iqtisadiyyat çərçivəsində inkişafın əsas hərəkətverici qüvvəsi insan inkişafı ilə dəyişən müxtəlif ehtiyaclardır [7 s.48]. Ehtiyac problemi fəaliyyət subyektinin dərk edilməsinin konkretləşdirilməsi ilə bağlıdır ki, bu da təkcə şəxs deyil, habelə qrup, təbəqə, sinif və ya cəmiyyət ola bilər. Bəzi alimlər iddia edirlər ki, ehtiyacların daşıyıcısı təkcə insan fərdləri, insanların icmaları deyil, həm də istənilən bioloji orqanizmlər ola bilər. Lakin hər bioloji orqanizm fəaliyyət subyekti deyil. İnsan özbaşına deyil, müxtəlif amillərin təsiri altında hərəkət edir və o, ictimai münasibətlərin subyekti olmaqla öz fəaliyyətində müəyyən ehtiyaclara əsaslanır. İnsanlar obyektiv qanunlar əsasında hərəkət edirlər, onların mexanizmində insan ehtiyacları önəmli rol oynayır. İnsan mərkəzli müəssisə düzgün bir təşkilat qurmaq prinsipindən istifadə edərək işçilərin səlahiyyətlərinin artırılmasına böyük diqqət yetirir. İşçilərin səlahiyyətləri və məsuliyyəti də insan mərkəzli müəssisənin mühüm prinsipidir

İnsan mərkəzli müəssisə modeli fəaliyyəti istifadəçilərin, müştərilərin və bütövlükdə cəmiyyətin təcrübəsini yaxşılaşdırmağa yönəlmiş bir müəssisə modelidir. İnsan mərkəzli müəssisə bütün iş proseslərinə cari və potensial müştərilərinin ehtiyacları kimi baxır. Daxili layihələr belə bir müəssisə tərəfindən müştərilərinin dinamik xarakteri nəzərə alınmaqla hazırlanır, onlara məhsul və ya xidmətin inkişafı və təkmilləşdirilməsində fəal iştirak etmək imkanı verir. İnsan mərkəzli müəssisə modelində fəaliyyət göstəriciləri müştərilərin və bütövlükdə cəmiyyətin həmin müəssisənin fəaliyyətindən məmnunluğunu göstərməlidir. Aydındır ki, belə bir yanaşma müəssisənin bütün biznes göstəricilərinin nəzərdən keçirilməsini tələb edir.

Bugünkü iqtisadiyyat bizi qlobal səhnədə uğur qazanmaq üçün keyfiyyətli təhsilə, təlimə və hərtərəfli bacarıqlara malik bir çox mütəxəssis tələb edəcək qabaqcıl çağırışlar təqdim edir. Biz gələcəyin iqtisadiyyatında ən perspektivli olan insan mərkəzli iqtisadiyyat anlayışına tez-tez rast gələcəyik. İnsan mərkəzli iqtisadiyyat gələcəyin iqtisadiyyatının əsas istiqamətlərindən biridir. Bu konsepsiya o deməkdir ki, iqtisadi proseslər yalnız şirkətlərin mənfəətini artırmaq deyil, insanların ehtiyac və istəklərinin ödənilməsinə yönəldilməlidir. Münasibətlərin "insan mərkəzlilik" əsasında qurulması şəxsi keyfiyyətlərə, tolerantlığa əsaslanır. Məhz bu

yanaşma biznes fəaliyyətinin genişlənməsinə, müştəri loyallığının artırılmasına və bununla da brendin diversifikasiyasına gətirib çıxaracaqdır.

## YEKUN

Beləliklə, insan mərkəzli iqtisadiyyat gələcəyin iqtisadiyyatına ciddi şəkildə müsbət təsir göstərərək daha ədalətli, davamlı və balanslaşdırılmış iqtisadi modelə töhfə verə bilər. Odur ki, gələcəkdə insan mərkəzli iqtisadiyyatın inkişaf səviyyəsini qiymətləndirməklə, onun birbaşa transformasiyası üçün tədbirlərin görülməsi vacibdir:

– İnsan mərkəzli təşəbbüslərin tətbiqi mümkünlüyü çox dərəcədə şirkət rəhbərlərinin və top menecerlərin ideyaya hazır olmasından və inamından asılıdır. Son illərdə artan sayda şirkət istehlakçı mərkəzli biznes modelinə doğru irəliləyir və bu bir reallıqdır;

– Şirkətlər istehlakçıların maraqlarına ən yaxşı cavab verən və onların ehtiyaclarını ödəyən məhsul və xidmətlər yaratmağa çalışırlar;

– İnsan mərkəzliliyə insan hüquqlarına hörmət, ətraf mühitin qorunması və sosial məsuliyyətli biznesin inkişafına dəstək amilləri mütləq şəkildə nəzərə alınmalıdır;

– İnsan mərkəzliliyi həm də şirkətlərə bütövlükdə cəmiyyətə fayda verə biləcək məhsul və xidmətlər yaratmağa imkan verən perspektivli mexanizmlər kimi qiymətləndirilməlidir;

– İnsan mərkəzliliyinin cəlbediciliyi baxımından qeyd etmək olar ki, buraya insanların yaşayış və iş şəraitini yaxşılaşdırmaq, resurslardan məqsədyönlü və daha səmərəli istifadə etmək, ətraf mühitə təsirlərin mənfi nəticələrini azaltmaq məqsədilə yeni texnologiyalar daxil ola bilər və s.

**Açar sözlər:** *dördüncü sənaye inqilabı, insan mərkəzli iqtisadiyyat, müasir iqtisadiyyat modelləri, gələcək iqtisadiyyat modelləri, texnologiyaların sürətli inkişafı, bəşəriyyət və texnologiyalar, insan potensialı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Зиятдинова, Н.Р. Тенденции формирования четвертой промышленной революции / Н.Р. Зиятдинова // Ученые записки Крымского инженерно-педагогического университета. – 2019. № 4(66), – с. 115-119.*

*2. Кибардина, В.И. Человеческий фактор в четвертой промышленной революции / В.И. Кибардина // Молодой исследователь: от идеи к проекту: Материалы VI студенческой научно-практической конференции, – Йошкар-Ола, – 26–29 апреля, 2022. – с. 165-166.*

*3. Alonzo Smith, G., Hickerson, S. Human economy: economics as if people mattered. Studies in Economics and Finance. – 1985. Vol. 9. no. 2, – Pp. 107-118.*

*4. Насырова С.И. Человеко-ориентированная экономика: новый взгляд на формирование и развитие. Проблемы современной экономики, N 2 (82), 2022. - Стр: 30 - 34*

*5. Овчинникова, О.П., Лебедева, Д.В. Формирование человекоцентричной модели организации в современных условиях // Креативная экономика. – 2023. – Том 17. № 9, – с. 3269–3282.*

*6. Samans, R. Human Centred Economics: The Living Standards of Nations. Cham, Switzerland: Palgrave Macmillan, 2024, 380 p.*

*7. Насырова С.И. Человеко-ориентированная экономика: целевые установки и их противоречия // π-Economy. 2022. Т. 15, № 2. С. 38–58.*

**НАРМИН ГОДЖАМАН**
***Магистр Азербайджанского Государственного Экономического Университета,***
***E-mail: narmin.gojaman@gmail.com***

## РЕЗЮМЕ

### Теоретико-методологические аспекты человекоцентрической экономики в условиях четвертой промышленной революции

В статье рассматриваются теоретико-методологические аспекты человекоцентрической экономики четвертой промышленной революции. Рассмотрены объективные реалии, созданные развитием технологий и промышленными революциями. Обосновано значение человеческого фактора в развитии человеческого потенциала, управлении и развитии промышленных территорий. Отмечено, что выявляются и систематизируются превосходные инструменты цифровой экономики, ориентированной на человека. На основе современные тенденции и постулаты будущего развития отрасли, были сделаны обобщения, с учетом формировании и развитии

человекоцентрической экономики в условиях четвертой промышленной революции.

**Ключевые слова:** *четвертая промышленная революция, человекоцентрированная экономика, современные экономические модели, экономические модели будущего, стремительное развитие технологий, человечество и технологии, человеческий потенциал.*

**NARMIN GOJAMAN**
***Master of Azerbaijan State Economic University,***
***E-mail: narmin.gojaman@gmail.com***

**SUMMARY**
**Theoretical and methodological aspects of human-centric economy under the fourth industrial revolution**

The article discusses the theoretical and methodological aspects of the sociocentric economy of the fourth industrial revolution. The object realities created by the development of technology and industrial revolutions are considered. The importance of the human factor in the development of human potential, management and development of industrial areas is substantiated. What is happening is that superior tools for a human-centered digital economy are being identified and codified. Taking current trends and postulates for the future development of the industry as a basis, generalizations were made based on the formation and development of a centralized economy driving the fourth revolution.

**Keywords:** *fourth industrial revolution, human-centered economy, modern economic models, economic models of the future, rapid development of technology, humanity and technology, human potential.*

UOT: 334.012.63/64
https://doi.org/10.30546/3006-0346.2024.6.84.083

# BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASINDA İNFRASTRUKTUR TƏMİNATININ ROLU

**RAMİL ƏSGƏROV**
*Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı*
*E-mail: ramil_asgarov@mail.ru*

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi qloballaşma şəraitində mühüm strateji əhəmiyyət kəsb etməklə, ölkə iqtisadiyyatının dünya birliyinə inteqrasiyasında önəmli rol oynayır. Bu baxımdan biznes mühitinin yaxşılaşdırılması məhz istehsal edilən məhsulun rəqabətə davamlılığının yüksəldilməsində önəmli rol oynamaqla, dövlətin həyata keçirdiyi iqtisadi siyasətin xarakterindən və prioritet istiqamətlərindən də bilavasitə asılı olur.

Biznes mühiti ilə iqtisadi artım arasında bilavasitə bağlılıq, daha doğrusu düz mütənasiblik mövcuddur. İqtisadiyyatda biznes mühiti yaxşılaşdırıldığı halda iqtisadi artımın təmin edilməsi üçün stimullar yaranır və bütün bunlar isə iqtisadiyyatın davamlı inkişafının təmin edilməsinə əlverişli şərait yaradır. Davamlı iqtisadi artıma nail olunması davamlı iqtisadi inkişafın əsas şərtlərindən biridir. Bunun üçün isə iqtisadiyyatın biznes mühitinin yaxşılaşdırılmasına nail olunması istər dövlət, istərsə də özəl bölmənin səylərinin bu istiqamətlərə yönəldilməsi vacib şərtlərdən biridir.

Aparılan araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə biznes mühitinin yaxşılaşdırılması prosesində dövlətlə bərabər eyni zamanda ağırlıq yükünün müəyyən hissəsi məhz özəl təsərrüfat subyektlərinin də üzərinə düşür. Bu isə dövlət özəl bölmə əməkdaşlığının genişləndirilməsi ilə sıx əlaqəyə malikdir. İqtisadi inkişaf ilə biznes mühitinin yaxşılaşdırılması arasındakı əlaqə ilk növbədə, əmtəə istehsalçılarının yeni texnologiyalara çıxış imkanlarının təmin edilməsi, eləcə də infrastrukturun yaxşılaşdırılması ilə sıx əlaqədə olduğundan iqtisadi inkişafın stimullaşdırılmasında dövlətin rolu da nəzərəçarpacaq dərəcədə fəallaşır. Bu baxımdan, istehsalın intensivləşdirilməsinə, intensiv inkişafın təmin edilməsinə daha çox ehtiyac yaranır. İntensiv inkişaf isə fərqli bir anlayış olub, istehsal vasitələrindən səmərəli istifadə edilməsini, yeni texnika və texnologiyaların iqtisadiyyata tətbiq edilməsini nəzərdə tutur. İntensiv inkişaf üçün ən mühüm xarakterik cəhət məhsuldarlığın səviyyəsinin artırılması və investisiya qoyuluşlarının təmin edilməsidir. Əmək məhsuldarlığının yüksəldilməsi hesabına intensiv inkişafa nail olmaq mümkündür və bu da məhsul vahidinə çəkilən xərclərin həcminin azaldılmasını özündə ehtiva edir [1, s.198]. Müəllifin fikirlərindən belə qənaətə gəlmək olar ki, istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi davamlı inkişafa nail olunmasına xidmət etməklə yanaşı, biznes mühitinin yaxşılaşdırılmasından da bilavasitə asılıdır.

Dövlət zəruri hallarda infrastruktur sisteminin inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirir. Bu tədbirlər xüsusilə, orta gəlirə malik olan ölkələr üçün daha çox səciyyəvi xarakter daşıyır. İnkişaf etməkdə olan ölkələrdə isə bu prosesdə dövlətin iştirak imkanlarının genişləndirilməsinə ehtiyac duyulur. Dövlət büdcəsi gəlirlərinin formalaşmasında iqtisadiyyatın sahələrinin rentabelliyinin yüksəldilməsi vəzifəsini yerinə yetirmək üçün atılmalı olan ilk addım (neft və qaz hasilatı bəzi başqa sahələr istisna olmaqla) bu sahələrə dair müəssisələrin 1990-cı illərin istehsal gücünün yeni şəraitə uyğun bərpa edilməsi ilə başlamaqdan ibarət olmalıdır. Başqa sözlə, bu işdə həddən artıq vaxt itirməmək və yersiz xərclərə yol verməmək üçün hələlik ilk addım kimi 90-cı illərə qədər Azərbaycan büdcəsinə çoxlu fayda verən iqtisadiyyat sahələrini bərpa etmək, dirçəltmək zəruri olmuşdur [2, s.273].

Biznes mühitinin yaxşılaşdırılmasında infrastruktur təminatı əhəmiyyətli rola malikdir. Bu, ilk növbədə, onunla bağlıdır ki, infrastruktur təminatı mahiyyət etibarilə əmtəə istehsalçılarının istehsal etdikləri məhsulların logistikasının həyata keçirilməsinə əlverişli şərait yaradır. Bu isə infrastrukturun növ müxtəlifliklərinin tarazlı şəkildə inkişaf etdirilməsini tələb edir. Məlum olduğu kimi, infrastruktur sisteminin özünəməxsus növ müxtəliflikləri mövcuddur ki, bunlara da aşağıdakıları şamil etmək olar: -istehsal infrastrukturları; -bazar infrastrukturları; -maliyyə-kredit infrastrukturları; -sosial infrastrukturlar; -postsənayə cəmiyyətinin inkişafı ilə bağlı infrastruktur sistemləri.

Biznes mühitinin yaxşılaşdırılmasında istehsal infrastrukturlarının rolu onunla bağlıdır ki, nəqliyyat və logistika prosesləri məhsulların səmərəli da-

şınma prosesinin gerçəkləşdirilməsində önəmli rol oynayır. Bu zaman dəmiryol nəqliyyatının, hava, su və quru yol nəqliyyatının müasir tələblərə uyğunlaşdırılması xüsusilə diqqət çəkən məqamlardan biri hesab edilir. Məhz istehsal infrastrukturlarının tarazlı şəkildə inkişaf etdirilməsi məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasında önəmli rol oynayır. Biznes mühitinin yaxşılaşdırılması baxımından istehsal infrastrukturlarının rolunu qiymətləndirərkən istər məhsul istehsalına çəkilən xərclərin strukturunda enerji tutumunun aşağı salınmasını, istərsə də nəqliyyat xərclərinin azaldılması baxımından bərpa olunan enerji mənbələrindən istifadənin təmin edilməsinə xüsusi diqqət yetirilməsi fikrimizcə, daha vacib olardı.

Biznes mühitinin yaxşılaşdırılması məqsədilə, xüsusilə infrastruktur sisteminə, o cümlədən müxtəlif nəqliyyat sahələrinin inkişafına investisiyaların qoyulması mühüm əhəmiyyətə malikdir. İnfrastrukturun inkişafı beynəlxalq ticarətə və bütövlükdə makroiqtisadi artıma da əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Qərb iqtisadçılarından Hummels hesab edir ki, ötən əsrin ortalarından bəri dünya ticarətində yüksək iqtisadi artım hava nəqliyyatında texnoloji dəyişikliklər və sürətli nəqliyyatın ucuzlaşması ilə sıx əlaqədardır [3, s. 131-154]. Müəllifin fikirlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, nəqliyyat sahələrində bərpa olunan enerji mənbələrindən istifadə edilməsi logistika proseslərinin səmərəliliyinin yüksəldilməsində, eləcə də məhsulların daşınmasına çəkilən xərclərin aşağı salınmasında önəmli rol oynaya bilər və bütün bunlar biznes mühitinin yaxşılaşdırılması baxımından önəmli mənbə rolunu oynayır.

Nəqliyyat infrastrukturunun bütün sektorlarının təkmilləşdirilməsi və əlverişli biznes və tənzimləyici mühit, şəffaflıq və təkmilləşdirilmiş gömrük idarə edilməsi kimi yumşaq infrastruktur elementlərinin inkişafı kənd təsərrüfatı və sənaye məhsulların ticarətinin artmasında da önəmli rol oynamaq iqtidarındadır [4]. Müəllifin fikirlərində isə problemə daha çox kompleks yanaşma özünü müşahidə etdirir. Belə ki, əgər Hummels daha çox hava nəqliyyatında texnoloji dəyişikliklərin və sürətli nəqliyyat proseslərinin ucuzlaşmasının iqtisadi artım və biznes mühitinin yaxşılaşdırmasına təsirini əsaslandırırdısa, İsmail və Mohidin fikirlərində isə nəqliyyat sektoru ilə yanaşı, eyni zamanda bütövlükdə tənzimləyici mühit və biznes mühitinin zəruri infrastrukturun sistemlərinin bütün elementləri, o cümlədən gömrük idarəetməsi kimi yumşaq infrastrukturun elementlərinə də toxunulmuşdur. Hesab etmək olar ki, xüsusilə kənd təsərrüfatında və aqrar sənaye sektorunda fəaliyyət göstərən müəssisələrin infrastruktur sisteminin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Bu həm də kənd təsərrüfatında iqtisadi artımın təmin edilməsinə əlverişli şərait yarada bilər. Məlum olduğu kimi, kənd təsərrüfatı iqtisadiyyatın elə bir sahəsidir ki, bu sahə səanye sektorundan fərqli olaraq, o qədər də yüksək gəlirə malik deyil. Sahənin azgəlirliliyi baxımından, xüsusilə məhsulların daşınması və digər bu kimi sektorlarda biznes mühitinə dövlətin zəruri dəstəyinin həyata keçirilməsi, həm də ərzaq təhlükəsizliyin təmin edilməsinə və eləcə də qeyri-neft sektoru məhsullarının ixracının təşviqi baxımından mühüm strateji əhəmiyyətə malik ola bilər.

Xarici ölkələrin iqtisadçı alimlərindən Olarreaga isə hesab edir ki, milli və beynəlxalq infrastruktur sistemləri həm daxili və həm də xarici biznes mühitinin inkişafına müsbət təsir göstərmək iqtidarındadır. Lakin təsirlər həm yumşaq və həm də sərt infrastruktur növlərinin keyfiyyəti də daxil olmaqla, ölkənin xüsusiyyətlərindən və eləcə də dövlətin ölkədə yaratdığı biznes mühitindən də bilavasitə asılı olacaqdır [5]. Donaldson isə hesab edir ki, məhsulların logistikası proseslərinin gerçəkləşdirilməsi zamanı dəmir yolu nəqliyyatından istifadə edilməsi ticarət xərclərinin aşağı salınmasında önəmli rol oynayır. Bütün bunlar həm regionlararası, həm də beynəlxalq ticarətin həcmlərinə və real gəlir səviyyələrinin artırılmasına əlverişli şərait yaratmaq iqtidarındadır [ 6, s.899-934].

Qeyd etmək lazımdır ki, biznes mühitinin yaxşılaşdırılması baxımından infrastruktur sistemləri önəmli rol oynamaqla yanaşı, eyni zamanda əhalinin həyat səviyyəsinin təmin edilməsində də mühüm rola və yerə malikdir. Lakin reallıq ondan ibarətdir ki, heç də dünyanın bütün ölkələrində infrastruktur sisteminin davamlı inkişafına nail olunması mümkün olmamışdır. Bu isə ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsindən, iqtisadi sistemin tipindən və xarakterindən, eləcə də inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasındakı sosial-iqtisadi bərabərsizliyin səviyyəsindən də bilavasitə asılıdır.

Mövcud reallıq ondan ibarətdir ki, dünya ölkələrinin əhalisi əksər hallarda məhz infrastruktur sisteminin inkişaf etdirilməməsindən əziyyət çəkir.

Bütün bunlarsa təbii ki, iqtisadiyyatda biznes mühitinin normal inkişafına əngəlləyir. Məsələn, faktları qiymətləndirməli olsaq, belə qənaətə gəlmək olar ki, hazırda dünya əhalisinin 940 milyonundan çoxu elektrikləşmə sisteminə çıxış imkanına malik deyildir. 663 milyon nəfər əhali isə içməli su çatışmazlığından əziyyət çəkir. Kənd yerlərində yaşayan 1 milyard nəfərdən çox insan isə keyfiyyətli yol-nəqliyyat sisteminə çıxış imkanına malik deyildir [7; 8]. Odur ki, bu prosesin yaranmasını şərtləndirən başlıca amil, həm də infrastruktur çatışmazlığı ilə bağlıdır. İnfrastruktur çatışmazlığını doğuran başlıca səbəb isə infrastruktur sistemlərinə investisiyaların həcminin aşağı olmasıdır. Təhlil göstərir ki, əhalinin infrastruktur sistemlərinin məhdudluğundan əziyyət çəkməsi daha çox inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir. İnkişaf etməkdə olan ölkələrdə infrastruktur sisteminin səviyyəsinin aşağı olması nəinki əhalinin həyat səviyyəsinə mənfi təsir göstərir və bu proses eyni zamanda iqtisadiyyatda biznes mühitinin qənaətbəxş olmamasına gətirib çıxarır. Müasir şəraitdə iqtisadiyyatda infrastruktur sisteminin inkişafının təmin edilməsi üçün 3,2-3,7 trilyon ABŞ dolları həcmində illik investisiyanın yatırılmasına ehtiyac duyulur. Mc.Kinseyin qiymətləndirmələrinə görə, infrastruktur sisteminə il ərzində cari xərclər 2,5-3 trilyon ABŞ başa gəlir. Bundan əlavə, gələcəkdə mövcud tələbatın ödənilməsi üçün isə 6 trilyon dollar məbləğində vəsaitə ehtiyac duyulur [9].

Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələr bu və ya digər maraqlar çərçivəsində inkişaf etməkdə olan ölkələrdə dayanıqlı infrastruktur sisteminə müəyyən investisiyalar qoyuluşunu həyata keçirirlər. İnkişaf etməkdə olan ölkələrdə dayanıqlı infrastrukturun ən böyük investorları kimi Avropa İttifaqı ölkələri önəmli rol oynayır. Avropa İttifaqına daxil olan ölkələrin inkişaf etməkdə olan ölkələrə yatırdıqları investisiyaların həcmi 128 milyard ABŞ dollarından çox təşkil edir. Bu baxımdan İtaliya, Fransa və Almaniya inkişaf etməkdə olan ölkələrdə infrastruktur sisteminə qoyulan investisiyaların əsas donorları kimi çıxış edirlər. Bundan əlavə, ABŞ və Çin adıçəkilən ölkələrdən, yəni Avropa Birliyinə daxil olan ölkələrdən sonrakı yeri tuturlar ki, onlar da müvafiq olaraq, ABŞ-da 50 milyard ABŞ dolları, Çində isə 35,5 milyard ABŞ dolları investisiya qoyuluşlarına malikdirlər. Dünyada fəaliyyət göstərən inkişaf strategiyasını təmin edən bankların, o cümlədən Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun kreditləri də inkişaf etməkdə olan ölkələrdə infrastruktur sistemə qoyulan investisiyaların inkişafında əhəmiyyətli rol oynamaqdadır. Belə ki, Dünya Bankının və eləcə də Beynəlxalq Valyuta Fondunun 2011-2017-ci illər üzrə inkişaf etməkdə olan ölkələrdə davamlı infrastruktur sisteminin inkişafına yönəltdiyi investisiyaların həcmi 800 milyard ABŞ dolları təşkil etmişdir [10].

Aparılan araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə infrastruktur sisteminə investisiya qoyuluşlarının həcminin artması həmin ölkələrdə biznes cəlbediciliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan əlavə, biznes cəlbediciliyinin yüksəldilməsi, eləcə də biznes mühitinin yaxşılaşdırılması istiqamətində inkişaf etmiş ölkələrdə kifayət qədər zəruri investisiya qoyuluşları həyata keçirilir. Belə ki, XXI əsrin növbəti 10 illiklərində bu məqsədlər üçün Avropa İttifaqına daxil olan ölkələrdə 300 milyard ABŞ dolları, Çində təxminən 200 milyard ABŞ dolları, ABŞ və Kanadada isə 180 milyard ABŞ dolları vəsaitinin ayrılması nəzərdə tutulmuşdur. Yaxın Şərq ölkələrində isə infrastruktur sisteminə qoyulan investisiyaların həcmi 56 milyard ABŞ dolları səviyyəsindədir. Hazırda biznes mühitinin yaxşılaşdırılması istiqamətində infrastruktur sisteminin təkmilləşdirilməsinə yönəldilmiş investisiyalar Çində də kifayət qədər inkişaf etməkdədir. Ölkə sürətlə müasir nəqliyyat şəbəkəsi yaradır, yeni yollara, eləcə də yüksək sürətli dəmir yolu xətlərinə, liman obyektlərinə və hava limanlarına 100 milyardlarla ABŞ dolları həcmində sərmayə qoyur. Çində təkcə 2009-cu ildə bu tip magistralların tikintisinə 8 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur və 2012-ci ildə bu ölkədə 42 sürətli xətt fəaliyyət göstərmişdir. Çin uzunluğuna görə belə xətlərin ən böyük şəbəkəsini - 2020-ci ildə qədər 13 min kilometr həcmində nəqliyyat şəbəkəsi formalaşdırmasını proqnozlaşdırmaqdadır. Aparılan araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələr əksər hallarda öz biznes fəaliyyətlərini inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına yönəldirlər. Bu isə rəqabət qabiliyyətinin yüksəldilməsi, ucuz işçi qüvvəsindən istifadə edilməsi, eləcə də öz ölkələrində ekoloji tarazlığa problem yaratmamaq məqsədilə həyata keçirirlər. Bu baxımdan Hindistanda ən azı 7 min kilometr yeni yolun tikintisi müasir dövrdə proqnozlaşdırılmaqdadır. Meksikada 6 illik milli infrastruktur planı qəbul edilmiş və ona əsasən 20 min kilometr yol və

1,5 min kilometr yeni dəmir yollarının tikintisi və modelləşdirilməsi, kanalizasiya və su təchizatı sistemlərinin tikintisi və genişləndirilməsi üçün 270 milyard ABŞ dollarının ayrılması proqnozlaşdırılır [11]. Bütün bunlar onu göstərir ki, inkişaf etməkdə olan ölkələrdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində infrastruktur sisteminə yönəldilən investisiyaların həcminin artırılması mahiyyət etibarı ilə iqtisadi artımın təmin edilməsinə, eləcə də beynəlxalq ticarətin inkişafına əlverişli şərait yaradır. Məhz bu məqsədlə infrastruktur sisteminin inkişafına yönəldilən investisiyalar mahiyyət etibarı ilə inkişaf etməkdə olan ölkələrin beynəlxalq iqtisadi əlaqələr sisteminə inteqrasiyasına əlverişli şərait yaratmaq iqtidarındadır.

## YEKUN

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, biznes mühitinin yaxşılaşdırılması baxımından infrastruktur sisteminin inkişaf etdirilməsi və eləcə də infrastruktur sisteminə zəruri investisiya qoyuluşlarının həyata keçirilməsi özünəməxsus funksiyalarla səciyyələnir. Bundan əlavə, əhalinin ərzaq məhsullarına, eləcə də gündəlik istehlak məhsullarına olan tələbatın ödənilməsində də infrastruktur sistemi önəmli rol oynayır. İnfrastruktur sistemi həm də biznes mühitinin yaxşılaşdırılması baxımından mühüm tənzimləyici funksiyaları yerinə yetirir:

– Bu tənzimləyici funksiyalar sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verməklə, həm yumşaq, həm də sərt infrastruktur sisteminin inkişaf etdirilməsindən bilavasitə asılı olur;

– Müasir şəraitdə biznes mühitinin yaxşılaşdırılması baxımından infrastruktur sisteminin inkişaf etdirilməsi, həm də informasiya texnologiyalarının tətbiq edilməsini, eləcə də müasir şəraitdə postsənaye cəmiyyətinin inkişafının xarakterik xüsusiyyətləri baxımından infrastruktur sisteminin təkmilləşdirilməsini özündə əks etdirir;

– Rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi, eləcə də internet və digər sosial platformalardan istifadə edilməsi biznes cəlbediciliyinin yüksəldilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına əlverişli şərait yaradır;

– Fikrimizcə, dövlət tərəfindən rəqəmsal texnologiyaların tətbiqinin stimullaşdırılmasına istiqamətlənmiş zəruri tədbirlərin həyata keçirilməsi həm infrastruktur təminatının yaxşılaşdırılmasına və eləcə də biznes mühitinin inkişaf etdirilməsinə əlverişli şərait yaratmaq iqtidarındadır.

**Açar sözlər:** *biznes mühiti, biznes mühitinin yaxşılaşdırılması, infrastruktur təminatı, rəqabət qabiliyyəti, istehsal infrastrukturu, bazar infrastrukturu, sosial infrastrukturlar, maliyyə infrastrukturları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. A.F.Abbasov, İqtisadi inkişafın müasir meyilləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər. Monoqrafiya, Bakı, 2024, 576 s., s.198.*

*2. E.Ə.İbrahimov, İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması istiqamətləri. Monoqrafiya, Bakı, 2018, 320 s., s.273.*

*3. Хуммельс, Дэвид, 2007. Транспортные издержки и международная торговля во второй эре глобализации. Журнал экономических перспектив, 21: 131-154.*

*4. Исмаил, Нормаз Вана и Джамила Мохд Махидин, 2015. Влияние инфраструктуры на торговлю и экономический рост в отдельных странах Азии. Институт Азиатского банка развития. http://www.adb.org/publications/impact-infrastructure-trade-and-economic-growth-selected-economies-asia/. Дата обращения: 26.05.2021.*

*5. Оларреага, Марсело, 2016. Торговля, инфраструктура и развитие. Институт Азиатского банка развития. Доступно по адресу: https://www.adb.org/sites/default/files/publication/218316/adbi-wp626.pdf. Дата обращения: 26.05.2021.*

*6. Дональдсон, Дэйв 2018. Железные дороги Раджа: оценка воздействия транспортной инфраструктуры. Американский экономический обзор, 108: 899-934.*

*7. UNDP Seoul Policy Centre for Knowledge Exchange through SDG Partnerships // United Nations Development Programme;*

*8. Measuring Rural Access: Using new technologies // The World Bank Group.*

*9. McKinsey. Financing change: How to mobilize private- sector financing for sustainable infrastructure. [Electronic resource]. URL: https://www.mckinsey.com/~/media/mckinsey/business%20functions/ operations/our%20insights/the%20next%20generation%20of%20infrastructure/finan-*

*cing_change_ how_to_mobilize_private-sector_financing for sustainable-_infrastructure.pdf , accessed:1212.03.2021.*

*10. Aligning G20 Infrastructure Investment with Climate Goals & the 2030 Agenda // F20.*

*11. Infrastructure 2010. Investment Imperative. Wash., Urban Land Institute and Ernst & Young, 2010.*

**РАМИЛЬ АСКЕРОВ**
***Докторант Азербайджанского Государственного Аграрного Университета***

**Роль инфраструктурного обеспечения в улучшении бизнес-среды**

**РЕЗЮМЕ**

Повышение конкурентоспособности национальной экономики играет важную роль в интеграции экономики страны в мировое сообщество, имея стратегическое значение в условиях глобализации. В связи с этим улучшение деловой среды напрямую зависит от характера и приоритетных направлений экономической политики, реализуемой государством, играющей важную роль в повышении конкурентоспособности производимой продукции. На повышение привлекательности бизнеса влияют различные факторы, и в связи с этим улучшение инфраструктурного обеспечения создает благоприятные условия для расширения возможностей равноправного использования ресурсного рынка субъектами экономики независимо от форм собственности, а также для улучшения логистических процессов. С этой точки зрения в упомянутой статье отражены уровневые аспекты инфраструктурного обеспечения улучшения бизнес-среды в экономике и пути устранения существующих проблем.

**Ключевые слова:** *бизнес-среда, улучшение деловой среды, инфраструктурное обеспечение, конкурентоспособность, производственная инфраструктура, рыночная инфраструктура, социальная инфраструктура, финансовая инфраструктура.*

**RAMIL ASKEROV**
***Doctoral student of Azerbaijan State Agrarian University***

**SUMMARY**

**The role of infrastructure support in improving the business environment**

Increasing the competitiveness of the national economy plays an important role in the integration of the country's economy into the world community, being of strategic importance in the context of globalization. In this regard, the improvement of the business environment directly depends on the nature and priority directions of the economic policy implemented by the state, playing an important role in increasing the competitiveness of the manufactured product. The improvement of business attractiveness is affected by various factors, and in this regard, the improvement of infrastructure provision creates favorable conditions for the expansion of opportunities for equal use of the resource market by economic subjects, regardless of ownership, as well as for the improvement of logistics processes. From this point of view, in the mentioned article, the level aspects of the infrastructure provision of the improvement of the business environment in the economy and the ways of eliminating the existing problems are reflected.

**Keywords:** *business environment, business environment improvement, infrastructure provision, competitiveness, production infrastructure, market infrastructure, social infrastructures, financial infrastructures.*

UOT: 338.439.4:338.28
https://doi.org/10.30546/3006-0346.2024.6.84.084

# QİDA SƏNAYESİNİN İNNOVASİYALAŞDIRILMASI ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**ÜMİD ƏLİZADƏ**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: umidalizada9@gmail.com*

Müasir şəraitdə qida sənayesi sosial ehtiyacların ödənilməsində, əhalinin zəruri məhsullarla təmin edilməsində önəmli rol oynayır. Qida sənayesi hazır məhsul və yarımfabrikatlar, o cümlədən müxtəlif içkilər və tütün məmulatları şəklində qida məhsulları istehsalı ilə məşğul olan müəssisələri məcmusudur. Qida sənayesi kənd təsərrüfatı ilə yanaşı, yüngül sənaye iqtisadiyyatının əsas elementidir. Bu sənaye qida zəncirində digər halqaları, yəni kənd təsərrüfatı və ərzaq məhsullarının tədarükü və ticarətini birləşdirən bir həlqə hesab olunur. Qida sənayesinin dəyər zəncirindəki mövqeyi onun funksiyası ilə müəyyənləşdirilir ki, bu da kənd təsərrüfatı məhsullarını istehlak və ya kommersiya istifadəsinə yararlı hala gətirmək və bununla da son istehlakçı üçün faydalılığını artırmaqdan ibarətdir [1, s.100].

Dünya təcrübəsi təsdiq edir ki, əksər ölkələrdə həyat keyfiyyətinin səviyyəsi, öncə, qida sənayesinin inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. Bu gün sənaye cəhətdən inkişaf etmiş və sosial yönümlü dövlətlər əhalinin həyat keyfiyyətinin köklü surətdə yaxşılaşdırılmasının əsasını qida sənayesinin və bütövlükdə aqrar-sənaye kompleksinin səmərəliliyinin artırılmasında və bunun üçün həmin sahələrin innovasiyalaşdırılmasında görürlər. Hər bir ölkənin innovasiyalı inkişafa öz yanaşması var. Bəzi dövlətlər innovativ inkişafda böyük uğurlar əldə ediblər.

Dünyanın əksər ölkələrində iqtisadi fəaliyyət sahələrinin, o cümlədən qida sənayesinin innovasiyalaşdırılması proseslərinə strateji baxışlar və yanaşmalar milli iqtisadi inkişafın məhsuldar modelləşdirilməsi üçün uzunmüddətli zəmin yaradıb və onlara qlobal bazarlarda üstünlük əldə etməyə imkan verib. Tədqiqatlar göstərir ki, qabaqcıl dünya ölkələrində son 20-30 ildə mühüm avadanlıq və texnologiyalar hər 10 ildən bir tamamilə yenilənir və bu səbəbdən də həmin ölkələrdə qida sənayesində yeni innovativ məhsulların hazırlanması və tətbiqi strateji səviyyədə qiymətləndirilir [2, s.30].

Qida sənayesinin innovativ inkişafı istiqamətləri qlobal və daxili ərzaq bazarlarında tendensiyalar nəzərə alınmaqla müəyyənləşdirilir ki, bunlardan başlıcası evdə emal tələb etməyən yarımfabrikatlar və hazır məhsullara, sağlam qida məhsullarına marağın artmasıdır. Belə ki, Aİ ölkələrində orta hesabla müəssisələrin 30-40%-i məhsulların çeşidinin genişləndirilməsi ilə bağlı məhsul innovasiyalarının tətbiqi ilə məşğul olur. Rusiyada oturaq həyat tərzi keçirən insanlar üçün xüsusi qida məhsullarının istehsalı kimi bazar seqmentlərinin inkişafı istiqamətində işlər fəal şəkildə aparılır.

Qərbi Avropa ölkələrində innovasiya mühiti Amerika və Yaponiya ilə müqayisədə nisbətən zəif inkişaf etmişdir ki, bu da əsasən riskli əməliyyatlara meyilliliyin zəif olması ilə bağlıdır. İtaliyada və Böyük Britaniya kiçik innovativ şirkətlər əsasən böyük korporasiyalarla sərt və çox güclü subpodrat əlaqələr qurmaqla fəaliyyət göstərirlər və böyük ölçüdə onlardan asılıdırlar [3, s.162].

Müasir iqtisadi şəraitdə ABŞ kifayət qədər güclü və rəqabətqabiliyyətli tədqiqat və istehsal bazasına, habelə əhəmiyyətli korporativ və hökumət fondlarına malikdir ki, bu fondlardan istifadə hesabına qida sənayesinin innovasiyalaşdırılmasına nail ola bilirlər. ABŞ-da qida sənayesinin innovasiyalaşdırılması üçün mühüm metodoloji ilkin şərtlər hesab edilməlidir:

- bütün mümkün yaranan təsirlərin, o cümlədən qida sənayesi üçün ümumi iqtisadi və sosial miqyasda sistematik qiymətləndirmənin məqsədlərinin reallaşdırılması üçün innovasiya layihələrin dövlət ekspertizasının keçirilməsinə sahə subyektlərinin istiqamətləndirilməsi;
- ABŞ-nin qida sənayesinin innovasiyalaşdırılmasında dövlətin fəal iştirakının təmin edilməsi;
- qida sənayesində vençur fondlarının yaradılması proseslərinin stimullaşdırılması;
- qida sənayesi üzrə antiinhisar tədbirlərinin gücləndirilməsi və keyfiyyətinin yüksəldilməsi.

ABŞ-nin qida sənayesinin innovasiyalaşdırılmasında əsas prioritet istiqamət sənayenin korporativ səviyyəsində ETT-nin stimullaşdırılmasıdır.

Son illər ABŞ-ın qida sənayesində reallaşdırılan bütün layihələrin demək olar ki, 30%-i federal büdcədən vəsaitlər hesabına təmin edilib. Habelə, innovasiya layihələrinə ən böyük resurs dəstəyi mənbəyi Amerika firmalarının və qida sənayesi korporasiyalarının öz resurslarıdır ki, onların payı innovativ məhsulların və texnologiyaların inkişafı üçün çəkilən bütün xərclərin demək olar ki, 60%-ni təşkil edir. Bu gün nə dövlət laboratoriyaları, nə də universitetlər yeyinti sənayesi innovasiya bazarında ixtiraçıların sayına, xərclərin həcminə və alınan patentlərin sayına görə korporativ sektorla rəqabət apara bilmir.

Həmçinin ABŞ-nin qida sənayesi innovasiya bazarının kommersiya sektorunda əksər elmi tədqiqatlar aparılır, bu sənayenin iqtisadi sisteminin innovativ inkişafının yüksək templərini təmin etmək üçün zəruri olan bütün texnoloji yeniliklər mənimsənilir. ABŞ innovasiya fəaliyyətlərini dəstəkləmək üçün ən inkişaf etmiş təşkilati və hüquqi infrastrukturlardan birinə malikdir. Özəl biznesin yüksək fəallığına baxmayaraq, dövlət elmi və innovasiya fəaliyyətini dəstəkləməklə milli sənayenin rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli dərəcədə birbaşa və dolayı təsir göstərir. Son illər ABŞ-nin qida sənayesində reallaşdırılan bütün layihələrin, demək olar ki, 30%-i federal büdcədən vəsaitlər hesabına təmin edilib. Yaponiya qida sənayesində daxili rəqabətdə kifayət qədər yüksək səviyyədə gərginlik texnoloji innovasiyaları innovasiya bazarının subyektlərinin uğuru və yaşaması üçün vacib şərtə çevirir.

Yaponiyada qida sənayesinin innovasiyalaşdırılması üçün infrastruktur təminatının yüksək səviyyəsini - kifayət qədər maddi-texniki və elmi tədqiqatların tətbiqi bazasını, özəl biznes strukturlarının mümkün olan ən böyük imkanlarını olduğunu deyə bilərik. Bütün bunlar Yaponiyanın qida sənayesinə innovativ fəaliyyətləri aktiv və effektiv şəkildə reallaşdırmağa imkan verir. Nəticədə Yaponiya qida sənayesi üçün məhsulların yüksək rəqabət qabiliyyəti ilə elmi-texniki sahədə dünya liderinə çevrilə bilib.

Bundan əlavə, Yaponiya nəzərdən keçirilən sektorda ən böyük texnologiyalar istehsalçısıdır. Son illərdə Yaponiyanın qida sənayesinin elmi-tədqiqat və təkmilləşdirmə üçün resurs təminatı proseslərinin tənzimlənməsi səviyyəsinin gücləndirilməsi və əsaslı xərclərin payının artırılması tendensiyası müşahidə edilmişdir. Bu, Yaponiya qida sənayesinin rəqabət qabiliyyətinin artırılması üçün əsasdır.

Çinin qida sənayesinin inkişafına təsir edən əsas amillərdən biri onun coğrafiyası və iqlimidir. Çin müxtəlif iqlim şəraiti və torpaqları olan geniş bir ərazidə yerləşir. Bu, müxtəlif növ bitkilər yetişdirməyə və ərzaq məhsullarının çeşidini şaxələndirməyə imkan verir. Çin qida sənayesi böyük daxili bazara malikdir və məhsullarını digər ölkələrə də fəal şəkildə ixrac edir. Çin məhsulları keyfiyyəti, mövcudluğu və rəqabətli qiymətləri ilə məşhurdur.

Çinin qida sənayesinin inkişaf etdiyi mühüm regionlar Şandunq, Hebei, Hunan və Quanqsi bölgələridir. Bu bölgələr kənd təsərrüfatı resursları, yüksək texnologiya səviyyəsi və inkişaf etmiş infrastrukturu ilə tanınır [4]. Çinin qida sənayesi kapital çatışmazlığı problemlərini rasional həll etmək üçün 20 ildən artıq müddətdə istifadə etdikləri xarici investisiyalar son illərdə yeni ideyalar, texnologiyalar və təcrübə əldə etmək üçün alət rolunu oynayır. Çin əksər Qərb investorlarına Çin əmtəə bazarlarına tam çıxış və bu çıxışın müasir innovativ texnologiyalarla mübadilə formulunu təklif etmişdir. Çin ÜTT-yə üzv olduqdan sonra qida sənayesi xarici investisiyaları sənayedə yüksək əlavə dəyərə malik məhsul istehsal etməyə imkan verən müəssisələrin inkişafına yönəltməyə çalışırlar.

Fransanın qida sənayesi innovasiya bazarlarının regional seqmentlərinin fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlıdır. Məsələn, maliyyənin, istehsalın və insanların mobilliyinin artımını təmin etmək üçün qabaqcıl texnologiyaların və innovasiya bazarı subyektlərinin və öncə, bu subyektləri qəbul etməyə hazır olan regionların olması vacibdir.

Fransada son illərdə innovasiya məkanının daxili təşkilində proseslərin transformasiyasına səbəb olan "regional innovasiya inqilabı" baş vermişdir. İnnovasiya bazarı subyektlərinin və qida sənayesinin yerləşdiyi konkret əraziyə innovativ münasibətləri layihələndirən şəbəkə modeli yaradılmışdır. Şəbəkə modelinə innovasiya klasterləri və innovasiya bazarı subyektləri ilə birlikdə fəaliyyət göstərən qida sənayesi müəssisələri daxildir.

Qida sənayesində innovativ texnologiyalara arxalanaraq, Fransanın regional hakimiyyət orqanları innovasiya bazarı subyektlərinin fəaliyyətinin

prioritetlərinə yerli coğrafi xüsusiyyətləri daxil etmişlər. Fransada qida sənayesinin innovasiyalaşdırılması üçün mühüm metodoloji ilkin şərtlər hesab edilir: Fransanın qida sənayesində innovasiyaların tətbiqi üzrə layihələrin hazırlanması və reallaşdırılmasının yerli və ya regional səviyyədə başlanması.

Bu məqsədlə Fransanın müasir qida sənayesində "innovasiya təşəbbüsü platformaları" yaradılır ki, onlar regionda və ya yerli icmada innovativ fəaliyyətin xüsusiyyətlərini aydınlaşdırmaqla innovasiya bazarının subyektləri ilə qarşılıqlı əlaqədə olan zaman alətlər seçirlər; qida sənayesinin genişspektrli bələdiyyələrarası və regionlararası tərəfdaşlıq layihələrinin reallaşdırılmasına istiqamətləndirilməsi. Bu tərəfdaşlıqlar üçün Fransanın qida sənayesinin innovativ fəaliyyətinin stimullaşdırılması baxımından aşağıdakı üstünlükləri müəyyənləşdirmək olar: nəqliyyat şəbəkəsindən və kommunikasiyalardan ən yaxşı istifadə, kadrların əhəmiyyətli mobilliyi, ciddi və irimiqyaslı əsas resursları cəlb etmək üçün geniş imkanlar.

Sənaye Almaniyanın uğurlu inkişafını şərtləndirən amillərdən biridir. Çünki sənaye müəssisələri işsizliyi azaldır, onların hesabına yeni iş yerləri açılır. Ölkədə inkişaf etmiş sənaye idxaldan daha çox mal ixrac etməyə imkan verir ki, bu da ÜDM-in və bütövlükdə ölkə iqtisadiyyatının artmasına təsir göstərir. Məhdud xammal resursları ilə Almaniya iqtisadiyyatı daha çox ixracyönümlüdür. İstehsal olunan məhsulların yüksək rəqabət qabiliyyətinə nail olunmasını şərtləndirən amil onların yüksək keyfiyyətinin təmin edilməsi olmuşdur.

Bu, Almaniyaya Avropanın xarici ticarətində lider olmağa və ixracı ÜDM-in 33%-nə çatdırmağa imkan vermişdir. Almaniya ölkədən avtomobil, nəqliyyat vasitələri, kimyəvi maddələr, metallar, qida və tekstil məhsulları ixrac edir [5, s.129]. Almaniyanın qida sənayesində innovasiyaların əsas tərəfdaşları ABŞ, Böyük Britaniya, Fransa və İtaliyadır. Almaniyada innovativ qida sənayesinin payı uzun illərdir ki, kifayət qədər yüksək səviyyədə qalır. Qida sənayesinin təqribən 50%-i innovasiya bazarının subyektləri ilə qarşılıqlı əlaqədə olub. Müvafiq olaraq, istehsal olunan bütün innovativ məhsulların demək olar ki, 40%-ni və inkişaf etdirilən bütün innovativ proseslərin 45%-ni əmtəə bazarlarına çıxarıb.

Qida sənayesi sahələrinin innovasiyalaşdırılması sahəsində Rusiyanın təcrübəsi də maraq doğurur. Rusiyada qida sənayesinin inkişafında müsbət dinamika müşahidə olunur ki, bu da yerli kənd təsərrüfatı məhsulları və xammal istehsalının artması ilə bağlıdır. Bütövlükdə ölkə əhalisinin əsas növ ərzaq məhsulları ilə davamlı təminatı problemi öz həllini tapmışdır. Hazırda Rusiyada qida sənayesinin inkişaf etməsinə baxmayaraq burada bəzi problemlər qalmaqdadır.

Ukrayna ilə olan müharibə həmin problemlərin həllinə mane olur. Əsas problemlərdən biri xammalın məhdud olmasıdır. Əkinçilik tənəzzül etdikcə, ölkə əhalisi artır, mövcud təsərrüfatlar yumurta, süd və ət məhsulları istehsalına olan tələbatı ödəmir. Fasiləsiz istehsal və böyük həcmdə məhsullar sayəsində qida sənayesi üçün avadanlıqlar tez köhnəlir və sıradan çıxır. Odur ki, ölkənin qida sənayesinin prioritet mövqeyini qoruyub saxlamaq üçün texniki bazanın vaxtında yenilənməsi vacibdir [6, s. 20]. Mövcud problemləri həll etmək üçün hakimiyyət orqanları 2030-cu ilə qədər Rusiya Federasiyasının qida və emal sənayesinin inkişafı strategiyasını hazırlayıb.

Strategiya kənd təsərrüfatı istehsalının əsas istiqamətləri, aqrar-ərzaq bazarının bölüşdürülməsi və logistika infrastrukturunun təkmilləşdirilməsi, əhalinin istehlak tələbatının dəyişməsi, onun gəlir və xərclərinin strukturu nəzərə alınmaqla sənaye sahələrinin hərtərəfli inkişafını nəzərdə tutur. Strategiya həm də sənayenin modernləşdirilməsi, innovativ texnoloji strukturun formalaşdırılması, maliyyə, iqtisadi və sosial problemlərin həlli üçün lazımi şəraitin yaradılması, habelə dövlətin inkişaf məqsədlərinin reallaşdırılmasına kömək etmək üçün hazırlanıb.

Qida sənayesinin inkişafı üçün perspektivli sahələrdən biri də nanotexnologiyadır. Məhsulların qablaşdırılması üçün nanotexnologiyalar inkişaf etmiş şirkətlər üçün daha çox maraq doğurur. Qida sənayesində nanotexnologiyaların tətbiqi dünyanın ərzaq probleminin həllində xüsusi önəm daşıyır. Dünyanın ən böyük qida şirkətləri bu sahədə araşdırmalarla fəal məşğul olurlar. Nanotexnologiyanın inkişafına sərmayə qoyuluşunda ABŞ liderlik edir, ondan sonra Yaponiya, Çin və Avropa İttifaqı ölkələri gəlir. ABŞ-da hökumət hər il qida sənayesi məhsullarının yaradılmasına yönəlmiş Milli Nano-

texnologiya Təşəbbüsləri proqramına təxminən 1,6 milyard dollar ayırır.

## YEKUN

Beləliklə, qida sənayesinin innovasiya yönümlü inkişafı sahəsində dünya təcrübəsinin təhlili göstərdi ki, qida sənayesinin innovasiyalaşdırılması prosesi buna imkan verən real şəraitin formalaşmasını təmin edən prinsiplər əsasında reallaşdırılmalıdır:

– Yerli qida sənayesində innovativ fəaliyyətlərin həyata keçirilməsi və səmərəliliyi bu prinsiplərin reallaşdırılma dərəcəsindən asılıdır;

– Qida sənayesinin innovasiyalı innovativ inkişafında xarici təcrübədən istifadə edərək, həmin sənaye məhsulları üçün Azərbaycan dünya bazarında ən rəqabətli ölkələrdən birinə çevrilə bilər;

– Hazırda Azərbaycanda qida sənayesinin innovasiyalaşdırılması sahəsində aktiv iş aparılır və bunun üçün innovasiya strukturlarının imkanlarından istifadə olunur.

– Qida sənayesində innovasiyaların inkişafı və praktiki istifadəsi baxımından ən səmərəli strukturlar elmi-istehsalat birlikləridir ki, burada da həm elmi institutlar, həm də istehsal müəssisələri bir idarə altında cəmləşir;

– Ümumiyyətlə, ABŞ, Aİ və Asiya regionu ölkələrində qida sənayesində innovasiya fəaliyyətinin stimullaşdırılması və innovativ inkişafın təşkili üçün ən effektiv üsullardan bəziləri Azərbaycanda səmərəli şəkildə tətbiq oluna bilər .

**Açar sözlər:** *qida sənayesi, innovasiya, innovasiya üzrə beynəlxalq təcrübə, innovasiyalı iqtisadiyyat, innovasiyaların tətbiqi, qida sənayesində innovasiyaların inkişafı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Гаврилова, К.Е. Развитие пищевой промышленности в современных экономических условиях / К.Е. Гаврилова // Перспективы развития науки в современном мире: Сборник научных статей по материалам XII Международной научно-практической конференции, – Уфа, – 07 апреля 2023, – с. 96-101.*

*2. Əliyev T.N. İqtisadi artımın innovasiya aspektləri. AMEA-nın 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı, – 2018, – s.28-34.*

*3. Əliyev, R.R. Azərbaycanda innovasiya fəaliyyətinin yüksəldilməsində xarici ölkələrin təcrübəsindən istifadə. Davamlı inkişafın milli modeli və strategiyası. Respublika Elmi Konfransının materialları. – 27-28 noyabr 2015, – s.160-163.*

*4. Китай: Земля легкой и пищевой промышленности // Научные Статьи.Ру – портал для студентов и аспирантов. – Дата последнего обновления статьи: 26.09.2023. [Электронный ресурс] / URL: https://nauchniestati.ru/spravka/geografiya-legkoj-i-pishhevoj-promyshlennosti-kitaya.*

*5. Граматик, Е.А. Анализ промышленности Германии [Текст] / Е.А. Граматик, Е.Д. Семенова // Статистика – інструмент соціально-економічних досліджень: збірник наукових студентських праць. Випуск 3. Частина I – Одеса, ОНЕУ. – 2017. – с. 129 – 137.*

*6. Акимова, Р.А. Состояние и перспективы развития пищевой промышленности в России / Р.А. Акимова, З.У. Абасова // Инновационная экономика: перспективы развития и совершенствования. – 2022. № 3(61), – с. 16-22.*

**УМИД АЛИЗАДЕ**

***Докторант Азербайджанского Университета Кооперации,***

***E-mail: umidalizada9@gmail.com***

## МЕЖДУНАРОДНЫЙ ОПЫТ ПО ИННОВАЦИИ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**Резюме**

В статье рассмотрен опыт стран мира по инновационной деятельности пищевой промышленности. Изложены основы государственной политики, связанной с регулированием пищевой промышленности в США и других экономически развитых странах. Систематизированы различные механизмы и подходы к эффективной организации пищевой промышленности стран Евросоюза. Привлек внимание прогрессивный опыт Китая в области инноваций пищевой промышленности, которая находится на переднем крае мировой экономики. Изучены методы и ме-

ханизмы использования инновационных методов в развитии пищевой промышленности группы других стран. Исходя из реалий современной эпохи, проведено обобщение прогрессивного опыта инновационной деятельности пищевой промышленности.

**Ключевые слова:** *пищевая промышленность, инновации, международный опыт инноваций, инновационная экономика, применение инноваций, развитие инноваций в пищевой промышленности.*

**UMID ALIZADE**
***Doctoral student of Azerbaijan Cooperation University***
***E-mail: umidalizada9@gmail.com***

## INTERNATIONAL EXPERIENCE OF INNOVATION IN THE FOOD INDUSTRY

**Summary**

The article examines the experience of countries around the world in innovative activities of the food industry. The fundamentals of public policy related to the regulation of the food industry in the United States and other economically developed countries are outlined. Various mechanisms and approaches to the effective organization of the food industry in the European Union countries have been systematized. China's progressive experience in innovation in the food industry, which is at the forefront of the global economy, attracted attention. Methods and mechanisms for using innovative methods in the development of the food industry of a group of other countries have been studied. Based on the realities of the modern era, a generalization has been made of the progressive experience of innovative activities in the food industry.

**Key words:** *food industry, innovation, international experience of innovation, innovation economy, application of innovation, development of innovation in the food industry.*

UOT: 332:332.1
https://doi.org/10.30546/3006-0346.2024.6.84.086

# AZƏRBAYCANIN REGİONLARINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏŞKİLATİ-İQTİSADİ VƏ MALİYYƏ MEXANİZMLƏRİ

**YUNİS ƏVƏZOV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: avazovy@gmail.com*

Qeyd edək ki, iqtisadi artım və regionların inkişafı bütün ölkənin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissəsidir. İqtisadi inkişaf iqtisadiyyatın müsbət dinamikasını, sabitliyini, davamlılığını və artımının səmərəliliyini xarakterizə edən şərait və amillərin məcmusudur. Müasir dövrdə iqtisadi inkişaf strategiyasını müəyyənləşdirən əsas prioritetlərdən biri sahibkarlığın dəstəklənməsidir. Sahibkarlıq bu gün aparıcı sektorlardan biridir və iqtisadi inkişafın keyfiyyətini və dinamikasını, ümumi regional məhsulun keyfiyyətini və strukturunu müəyyənləşdirir. Cəmiyyətin indiki inkişafı mərhələsində sahibkarlıq fəaliyyəti bütövlükdə cəmiyyətin və konkret olaraq fərdin iqtisadi potensialının reallaşdırılmasında önəmli yer tutur. Biznes fəaliyyətinin bu növü yeni ictimai münasibətlərin, iqtisadi strukturların yaradılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə, istehsal, texniki, iqtisadi və sosial problemlərin həllinə kömək edir.

Sahibkarlıq fəaliyyəti regionların və bütövlükdə ölkənin iqtisadi inkişafında önəmli rol oynayır. Regionun iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın rolu aşağıdakılarla ifadə olunur: 1. Adambaşına ÜDM-in həcminin artması; 2. İşsizlik səviyyəsinin azalması; 3. Sosial gərginliyin azalması; 4. İqtisadi sabitlikdə maraqlı olan orta təbəqənin artması; 5. Gəlirlərin differensasiyasının azaldılması; 6. Əhalinin mal və xidmətlərə olan tələbatının ödənilməsi; 7. Rəqabət nəticəsində istehsal olunan mal və xidmətlərin keyfiyyətinin yüksəlməsi; 8. Büdcəyə əlavə pul vəsaitlərinin hərəkəti; 9. Texniki və texnoloji yeniliklərin yaradılması və s.

Sahibkarlıqda tətbiq olunan təşkilati-iqtisadi mexanizmlər regionlarda fəaliyyət göstərən sahibkarlıq strukturlarının inkişafına təsir göstərir. Sahibkarlıq strukturlarının inkişafı isə öz növbəsində iqtisadi sistemin səmərəliliyini, cəmiyyətin rifahını müəyyənləşdirir və bir çox problemləri həll edir. Bununla yanaşı, sahibkarlıq sektorunda qarşıya qoyulan aşağıdakı kimi məqsədlərə nail olmaq imkanı verər: daxili və xarici bazarlarda məhsul və xidmətlərin rəqabət qabiliyyətini artırmaq; xammaldan asılılığı azaltmaq; iqtisadiyyatda innovasiya komponentini artırmaq; insan resurslarının istifadə olunmamış potensialını üzə çıxarmaq; regionların və bütövlükdə ölkənin rifahının yüksəlməsini təmin etmək [1, s.115].

Regional sahibkarlıq təşkilati, iqtisadi və maliyyə amillərinə əsaslanan bir sıra fərqləndirici xüsusiyyətlərə malikdir. Regional sahibkarlığın fərqləndirici xüsusiyyətləri bu sahənin inkişafının region və ölkə iqtisadiyyatı üçün yüksək sosial-iqtisadi əhəmiyyətini müəyyənləşdirir:

1. Vergi ödəyicilərinin sayının artması ilə vergi bazası böyüyür. Vergi bazasının ölçüsü bütün səviyyəli büdcələrə vergi daxilolmalarının artmasına kömək edir və bununla da təsərrüfat subyektlərinin inkişaf imkanlarını artırır.

2. Sahibkarlıq dolanışıq mənbəyi olmaqla bərabər, fərdin daxili potensialını açmaq üçün bir vasitədir.

3. Obyektiv olaraq orta və iri müəssisələrin getdikcə genişlənən restrukturizasiyası vətəndaşları müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa məcbur edir.

4. Bu sektor yeni iş yerləri yaratmağa qadirdir və buna görə ölkədə işsizliyi və sosial gərginliyi azalda bilər.

Azərbaycanda sahibkarlığın, xüsusən də KOS-un inkişafına dövlət dəstəyi son illər öz səmərəliliyini göstərib və buna görə də yüksək qiymətləndirilir. İqtisadiyyatın davamlı və uzunmüddətli inkişafı, o cümlədən onun şaxələndirilməsi və rəqabət mühitinin yaradılması dövlətin əsas prioritetlərinə çevrilmiş və bu səbəbdən də həmin sahədə mühüm dövlət proqramları təsdiq olunmuşdur. KOS-ların inkişafını özündə ehtiva edən, bu inkişafın gələcək üçün hədəflərini müəyyənləşdirən və dövlət dəstəyinin mövqeyini tam əks etdirən belə proqramlardan biri də "Azərbaycanda kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"dir. Strateji Yol Xəritəsinin əsas məqsədi KOS-un regionların və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasına yönəldilməsidir ki, bu da onun gələcək davamlı

inkişafı üçün geniş imkanlar açır [2].

Regionlarda sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi və maliyyə xüsusiyyətləri onun 3 qrupda qruplaşdırılan əsas maliyyə mənbələrini müəyyənləşdirməyə imkan verir. Birinci qrup kiçik və orta sahibkarlığın (KOS) dövlət səviyyəsində maliyyələşdirilməsini xarakterizə edir. Bu təsnifat çərçivəsində birinci qrup KOS-ların inkişafı üçün vəsait şəklində regionlara dəstək, habelə müvafiq regionlarda KOS-ların inkişafı məqsədilə infrastrukturun, mikromaliyyə təşkilatlarının, zəmanət fondlarının yaradılması ilə bağlıdır. İkinci qrup yerli səviyyədə KOS-un və yerli ərazilərdə yaradılmış infrastruktur subyektlərinin maliyyələşdirilməsini xarakterizə edir. Bu qrup əsasən kiçik biznesi dəstəkləmək üçün ixtisaslaşdırılmış infrastruktur vasitəsilə regionlar tərəfindən verilən maliyyə dəstəyini nəzərdə tutur. Üçüncü mənbə KOS-un öz vəsaitlərindən istifadəni nəzərdə tutur. KOS-a maliyyə dəstəyi növlərinin iqtisadi məzmununa görə qruplaşdırılması, öncə, maliyyələşdirmə mənbələrinin və formalarının vəsaitlərdən məqsədli istifadəsinə görə ətraflı diferensiallaşdırılmasının zəruriliyi ilə müəyyənləşdirilir Azərbaycanın regionlarında sahibkarlıq fəaliyyətində təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin səmərəli şəkildə tətbiqi zəruridir ki, bu da dövlət dəstəyi olmadan mümkün deyil. Sahibkarlığa əsas dəstək formaları maliyyə, informasiya, konsaltinq, əmlak və digər dəstək formalarıdır. Sahibkarlığa maliyyə dəstəyi mikrokreditlər, sahibkarlıq subyektlərinin vəziyyətindən asılı olaraq təminatlar, prioritet fəaliyyət sahələrinin reallaşdırılması üçün xarici və daxili investisiyaların cəlb edilməsinə köməklik, habelə maliyyələşdirmə proqramları formasında reallaşdırılır.

Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyi Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlər və ixraca dəstək, monitorinq, maliyyələşdirmə, müxtəlif layihələrin, o cümlədən investisiya və infrastruktur layihələrinin reallaşdırılması şəklində təmin edilir. İqtisadiyyat Nazirliyinin tabeliyində olan bu fond vasitəsilə hər bir iqtisadi rayon üzrə prioritet istiqamətlər müəyyənləşdirilir. Dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin inkişafına birbaşa maliyyə yardımı göstərməklə yanaşı, qeyri-maliyyə yardımı mənbələrinin müəyyənləşdirilməsi və tətbiqi hazırda regionlarda sahibkarlığın inkişafının prioritet istiqamətidir. Bu inkişaf prioritetlərinin müəyyənləşdirilməsində və reallaşdırılmasında dövlət siyasətinin xarakteri önəmli rol oynayır [3, s.24].

Ümumiyyətlə, regionların iqtisadiyyatının davamlılığının və inklüzivliyinin təmin edilməsində sahibkarlığın rolu artır. Şübhəsiz ki, sahibkarlığın inkişafı, onlara göstərilən dövlət dəstəyi ümumi proqramın tərkib hissəsidir. KOS-un inkişafı məsələləri dünyanın hər yerindən mütəxəssislər və alimlər tərəfindən nəzərdən keçirilir ki, Azərbaycan da bu baxımdan istisna deyil. Bunun nəticəsidir ki, son illər Azərbaycanda və onun regionlarında sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin səmərəli tətbiqi əsasında KOS-un inkişafında önəmli irəliləyişlər əldə edilmişdir. Bu, öz əksini KOS sahəsində bir sıra maliyyə-iqtisadi göstəricilərdə tapmışdır. Azərbaycanın regionlarında KOS-un inkişafını əks etdirən əsas göstərici mikro, kiçik və orta sahibkarlıq strukturlarının sayıdır. Azərbaycanda 2023-cü ildə ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq strukturlarının sayı 401149 vahid olub ki, bunun 197043-ü və ya 44,6%-i Bakı şəhərində yerləşmişdir. Bakı şəhəri üzrə həmin subyektlərin sayı 2022-ci ilə görə 9245 vahid və ya 4,9% artmışdır [4].

Dövlət tərəfindən regionlarda sahibkarlığın inkişafı ilə bağlı müxtəlif proqramların reallaşdırılmasına baxmayaraq, ölkədə fəaliyyətdə olan sahibkarlıq strukturlarının sayında Bakı şəhəri və digər iqtisadi rayonlarda kəskin fərqin olması sahibkarlıq fəaliyyətinin regional institusional infrastrukturla təminatında ciddi problemlərin mövcudluğundan xəbər verir [5, s.17]. 2023-cü ildə yuxarıda qeyd edilən sahibkarlıq subyektləri üzrə məhsul buraxılışının həcmini təhlil edək və bunun üçün şəkil 2-yə diqqət yetirək. 2023-cü ildə ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq strukturları tərəfindən məhsul buraxılışı 34743,0 milyon AZN olub ki, bunun 23897,5 milyon AZN-i və ya 68,8,6%-i Bakı şəhərinin payına düşmüşdür.

Azərbaycanın regionlarında sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi zəruridir ki, bunun üçün də əsas mənbələr dövlət büdcəsi və kommersiya banklarının, beynəlxalq və xarici bankların, kredit-maliyyə təşkilatlarının kredit resurslarıdır. Azərbaycanda sahibkarlara dövlət maliyyə yardımının iki mexanizmi formalaşıb. Birinci mexanizm fermer təsərrüfatlarına subsidiya şəklində kredit güzəştlərinin verilməsidir. Bu mexanizm fermerlərin kreditləri və kommersiya banklarından aldıqları kreditlər üzrə faizləri büdcə hesabına ödəməsinə zəmanət verir. İkinci mexanizm kiçik biznesə investisiya yardımının göstərilməsidir və bu məqsədlər üçün dövlət büdcəsindən vəsaitin ayrılması nəzərdə tutulur.

Dövlət investisiya resurslarını rəqabətli əsaslarla rəqabətqabiliyyətli uzunmüddətli kreditlər şəklində prioritet biznes layihələrinə yönəldir.

Regionlarda sahibkarlığın inkişafının maliyyələşdirilməsində kredit portfelinin həcminin artırılması önəmli rol oynayır. Son beş il ərzində regionlar üzrə biznes kreditlərinin həcmi artmaqdadır. Belə ki, onların həcmi 01.01.2020-ci il tarixinə 9031,6 milyon AZN olub ki, artıq 01.01.2024-cü il tarixinə 3585,2 milyon AZN və ya 39,7% artaraq 12616,8 milyon AZN təşkil edib. Bunun da 6251,7 milyon AZN-i və ya 49,6%-i iri, 2629,9 milyon AZN-i və ya 20,8 %-i orta, 2149,7 milyon AZN-i və ya 17,0%-i kiçik, 1585,5 milyon AZN-i və ya 12,6%-i isə mikrosahibkarlıq üzrədir [6].

Qeyd edək ki, biznes kreditləri təminatlıq səviyyəsinə görə üç qrupa ayrılır. Azərbaycanda 31.12.2023-cü il tarixinə sahibkarlıq subyektləri üzrə kredit təminatlılığının səviyyəsi cədvəl 1-də göstərilən kimi olmuşdur.

**Cədvəl 1**
**31.12.2023-cü il tarixinə sahibkarlıq strukturları üzrə biznes kreditlərinin təminatlılıq səviyyəsi, faizlə**

| Göstəricilər | Təminatlı | Qismən təminatlı | Təminatsız |
|---|---|---|---|
| Biznes kreditləri | 45,9 | 33,8 | 20,3 |
| İri sahibkarlıq üzrə | 42,1 | 38,4 | 19,5 |
| Orta sahibkarlıq üzrə | 48,0 | 32,8 | 19,2 |
| Kiçik sahibkarlıq üzrə | 54,4 | 25,7 | 19,9 |
| Mikro sahibkarlıq üzrə | 40,5 | 18,2 | 41,3 |

***Mənbə:*** *ARMB. https://uploads.cbar.az/assets/d683dd3c289936df5f028d9a6.pdf.*

Təminatlılığına görə biznes kreditlərinin əsas hissəsi kiçik sahibkarlıq subyektləri üzrə, qismən təminatlılığına görə orta sahibkarlıq üzrə, təminatsız olanlar isə mikrosahibkarlıq subyektləri üzrədir. Regionlarda sahibkarlığın inkişafına dəstək üçün elə bir normativ-hüquqi baza və infrastruktur formalaşdırılmalıdır ki, sahibkarlar üçün inzibati imkanları minimuma endirməklə, sahibkarlıq ideyalarını reallaşdırmaq üçün ən əlverişli şəraitin yaradılmasına öz töhfəsini versin. Çünki, sahibkarlıq region iqtisadiyyatının tərkib hissəsi olan və dövlət büdcəsinin mühüm hissəsini təşkil edən bazar iqtisadiyyatının əsas sahələrindən biridir. Sahibkarlığa dəstəyin göstərilməsi dövlətin ən önəmli vəzifələrindən biridir ki, onun həlli bütövlükdə iqtisadiyyatın səmərəli inkişafının açarıdır.

Regionlarda sahibkarlığın inkişafında əsas iqtisadi mexanizmlərdən biri vergi tənzimlənməsi mexanizmidir. Vergi tənzimlənməsi dövlətin sahibkarlıq fəaliyyətinə təsirinin ən önəmli sahələrindən biridir. Vergi sisteminin inkişafı iki məqsədin birləşməsi yolu ilə reallaşdırılmalıdır: sahibkarların vergi yükünün azaldılması və büdcə sisteminin kifayət qədər gəlirliliyinin təmin edilməsi [7, s.281].

Regionlarda sahibkarlığın təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin səmərəli tətbiqi investisiyaların inkişafını sürətləndirilməsinə və dövriyyə vəsaitlərinin yüksək dövriyyəsinə gətirib çıxara bilər. Bu, həm də ölkə iqtisadiyyatında innovasiyaların sürətləndirilməsinə, yeni vasitə və texnologiyaların, ixtiraların, startapların, yeni istehsal üsullarının cəlb edilməsinə və tətbiqinə şərait yarada bilər. Sahibkarlığın inkişafına töhfə verə bilə biləcək aktiv innovasiya fəaliyyətinin reallaşdırılması da zəruridir. Regionlarda sahibkarlığın inkişafında klaster mexanizmlərinin yaradılması önəmli addımlardan hesab olunur. Bir sıra dünya ölkələrində müxtəlif iqtisadi fəaliyyət sahələrində klasterlərin yaradılması yolu ilə sənaye sahələrinin inkişafına nail olunmuşdur. Azərbaycanın regionlarında da klasterlərin yaradılması mövcud iqtisadi və təbii sərvətlərdən maksimum səmərəli istifadəyə, əmək resurslarının təsərrüfat fəaliyyətinə cəlb edilməsinə əlverişli şərait yaradılmasına, geniş çeşiddə məhsul istehsalına imkan verəcəkdir [8, s.53]. Klasterlərin bu kimi üstünlükləri yerləşdiyi regionda sahibkarlıq fəaliyyətini stimullaşdıracaqdır.

## YEKUN

Beləliklə, müasir şəraitdə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı regionun iqtisadi yüksəlişinin əsas amillərindən biri hesab olunur. Regionlarda sahibkarlığın inkişaf səviyyəsinin artırılması onun təşkilati-iqtisadi və maliyyə mexanizmlərindən səmərəli tətbiqindən asılıdır ki, bu da aşağıdakıları əhatə etməlidir:

✓ sahibkarlığa informasiya xidmətləri ilə bağlı dəstəyin göstərilməsi məqsədilə infrastrukturun formalaşdırılması, sahibkarlar üçün mövcud informasiya ehtiyatlarının və xidmətlərin konsolidasiyası,

habelə sahibkarlar, dövlət və yerli özünüidarəetmə orqanları, maliyyə-kredit institutları və inkişaf institutları arasında çevik qarşılıqlı fəaliyyətin gücləndirilməsi;

✓ sahibkarlıq üçün kredit və zəmanət dəstəyi proqramlarının genişləndirilməsi;

✓ dövlət dəstəyinin göstərilməsi sahəsində şəffaflıq səviyyəsinin artırılması, o cümlədən sahibkarlıq subyektlərinin - dəstək alanların vahid reyestrinin yaradılması;

✓ KOS-lara əsas dəstək mexanizmi kimi avadanlıq lizinqinin inkişafı;

✓ KOS-a müntəzəm əmlak dəstəyinin göstərilməsi;

✓ sahibkarlığa dəstək göstərilməsi məqsədi daşıyan infrastruktur təşkilatlarının fəaliyyətinə vahid tələblər sistemnin qanunvericiliklə müəyyənləşdirilməsi;

✓ sahibkarlıqla bağlı vergi mexanizmlərinin təkmilləşdirilməsi;

✓ sahibkarlıq subyektlərinin maliyyə yükünün yüngülləşdirilməsi;

✓ KOS-un məhsullarına tələbin stimullaşdırılmasına yönəlik tədbirlərin reallaşdırılması;

✓ sahibkarlığın inkişafı mexanizmi kimi klasterləşmənin tətbiqinin genişləndirilməsi və s.

**Açar sözlər:** *Azərbaycan, regionlar, sahibkarlıq fəaliyyəti, təşkilati-iqtisadi mexanizmlər, maliyyə mexanizmləri, regionların inkişaf problemləri, regionlarda sahibkarlığın inkişafı prioritetləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Столярова, А.Н. Развитие малого и среднего предпринимательства на региональном уровне / А.Н. Столярова, М.В. Русакович // Вестник РАЕН. – 2018. – Т. 18, № 1, – с. 115-119.*

*2. Azərbaycanda kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 6 dekabr 2016.*

*3. Abdullayev, L.İ., Osmanov, İ.O. Sahibkarlığın inkişafına dövlətin qeyri-maliyyə dəstəyi formalarının genişləndirilməsi istiqamətləri. AMEA-nın İqtisadiyyat İnstitutu. Elmi əsərləri. – Bakı: – 2014 №2, – s.23-27.*

*4. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. – Bakı, 2024. – 225 s. [Elektron resurs] / URL: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pdf//.*

*5. Əhədov, V.P. Azərbaycan Respublikasında sahibkarlığın inkişafında institusional tənzimlənmənin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. / – Bakı, 2024. – 40 s.*

*6. Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülleteni. Bakı, Yanvar, 2024, 96 s. [Elektron resurs] / URL: https://uploads.cbar.az/assets/52238f3796853677ac57679d8.pdf //.*

*7. Токаев, В. Механизмы расширения предпринимательской активности / В. Токаев, Г.В. Мешкова // Инновационная стратегия развития современного предпринимательства: материалы Международной научно-практической конференции, – Москва, –17–18 декабря 2019, – с. 277-284.*

*8. Əliyev, Ş.T., Musayeva, S.F. Azərbaycanda regional biznesin inkişafının şaxələndirilməsində klaster institutunun multiplikativ rolu. "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" mövzusunda Respublika elmi konfransın materialları. – Sumqayıt. – 22-23 aprel 2021, №2, – s.52-55.*

**ЮНИС АВАЗОВ**
***Докторант Азербайджанского Университета Кооперации,***
***E-mail: avazovy@gmail.com***

# ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИЕ И ФИНАНСОВЫЕ МЕХАНИЗМЫ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

В статье рассматриваются организационные - экономические и финансовые механизмы предпринимательской деятельности в регионах Азербайджана. Проанализированы вопросы эффективного использования ресурсов регионов. Обоснована важность расширения применения экономических механизмов для повышения экономической активности регионов. Отмечена исключительная роль финансового механизма в регионах. Дан анализ процессов социально-экономического развития, осуществляемых в регионах Азербайджана. Определены приоритеты эффективного использования имеющихся в регионах природных и трудовых ресурсов. Даны

предложения по активизации применения организационно-экономических и финансовых механизмов для ускорения развития предпринимательства в регионах страны.

***Ключевые слова:*** *Азербайджан, регионы, предпринимательская деятельность, организационно-экономические механизмы, финансовые механизмы, проблемы развития регионов, приоритеты развития предпринимательства в регионах.*

**YUNIS AVAZOV**
***Doctoral student of Azerbaijan Cooperation University,***
***E-mail: avazovy@gmail.com***

## ORGANIZATIONAL - ECONOMIC AND FINANCIAL MECHANISMS OF BUSINESS ACTIVITY IN THE REGIONS OF AZERBAIJAN

The article examines the organizational - economic and financial mechanisms of entrepreneurial activity in the regions of Azerbaijan. The issues of efficient use of regional resources are analyzed. The importance of expanding the use of economic mechanisms to increase the economic activity of regions is substantiated. The exceptional role of the financial mechanism in the regions was especially noted. An analysis of the processes of socio-economic development carried out in the regions of Azerbaijan is given. Priorities for the effective use of natural resources and labor resources available in the regions have been identified. Proposals were made to intensify the use of organizational, economic and financial mechanisms to accelerate the development of entrepreneurship in the regions of the country.

**Key words:** *Azerbaijan, regions, entrepreneurial activity, organizational and economic mechanisms, financial mechanisms, problems of regional development, priorities for the development of entrepreneurship in the regions.*

UOT: 338.436
https://doi.org/10.30546/3006-0346.2024.6.84.087

# AZƏRBAYCANDA AQRAR SAHƏDƏ YERLİ İSTEHSALIN STRUKTURUNUN DİVERSİFİKASİYALAŞDIRILMASI VƏ STİMULLAŞDIRILMASI MEXANİZMLƏRİ

**YUSİF HƏSƏNLİ**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: yusifhasanli300@gmail.com*

İstehsalın strukturunun diversifikasiyası istehsal olunan məhsulların çeşidinin genişləndirilməsini və yeni fəaliyyət sahələrinin inkişafını təmin edən istiqamətdir. Sənaye müəssisələrinin istehsal fəaliyyəti zamanı yarana biləcək riskləri azaltmaqla müəssisənin gəlir və mənfəətini artırmaq istehsalın strukturunun diversifikasiyasının əsas məqsədlərindən biri hesab olunur. Rəqabətdə elə müəssisələr qalib gəlirlər ki, onlar diversifikasiya edilmiş təşkilati-istehsal struktura malik olurlar və belə müəssisələr istehsalını dar çeşidli məhsullarla təşkil etmiş müəssisələrə nisbətdə bazarda daha dayanıqlı olurlar. Diversifikasiyalaşdırılmış müəssisələr müəyyən növ məhsullar üçün bazarda qiymət konyunkturasının dəyişməsi, səmərəli istehlak tələbinin azalması və s. nəticəsində nəzərəçarpacaq dərəcədə aşağı itki riskinə malikdir.

Azərbaycan iqtisadiyyatının aqrar sahəsi üçün istehsalın strukturunun diversifikasiyası xüsusilə aktualdır, çünki bitkiçilik və heyvandarlığı birləşdirən sənaye sahəsi olmaqla yanaşı, müxtəlif növ aqrar sahə istehsallarını birləşdirən sahədir. Diversifikasiya mahiyyətcə aqrar istehsalda reallaşdırılan struktur dəyişikliklərinin ən önəmli sahələrindən biridir. Həmin prosesdə məhsulların və istehsal sahələrinin xüsusiyyətlərinin nəzərə alınması vacib şərtlərdən biridir. İqtisadiyyatın ən önəmli sahələrindən biri olan aqrar sahə istehsalının strukturunda baş verən istənilən dəyişiklik daha səmərəli istehsalın formalaşmasına səbəb olur [1, s.16].

Diversifikasiya yeni növ məhsullar və bazarlarla işləməyə imkan verir, resursların təkrar istehsalı və yenidən bölüşdürülməsində disbalansın aradan qaldırılması vasitəsi kimi istifadə olunur, konkret məqsədlərə yönəldilir və müəssisənin yenidən qurulmasının gələcək istiqamətlərini müəyyənləşdirir. Aqrar-ərzaq bazarlarında rəqabətin artması şəraitində müəssisələrin əsas məqsədi təkcə səmərəli istehsalın təşkili deyil, habelə sabit satışın təmin edilməsidir. Burada aqrar istehsalın strukturunun diversifikasiyası önəmli rol oynaya bilər ki, bu da istehsalın səmərəliliyini artırmaq, iqtisadi səmərə əldə etmək və iflasın qarşısını almaq üçün məhsulların çeşidinin genişləndirilməsi və satış bazarlarının yenidən istiqamətləndirilməsi, yeni istehsal növlərinin əldə edilməsidir.

Diversifikasiya strategiyasının hazırlanması istehlakçı tələbatının tam ödənilməsini təmin etmək, rəqabət üstünlükləri yaratmaq, inkişafı sürətləndirmək və əlavə gəlir əldə etmək üçün ilkin şərtləri yaradan səmərəli fəaliyyətin yeni yollarını tapmağa yönəldilmişdir. Aqrar sahədə istehsalın strukturunun diversifikasiyası ilə bağlı proqram və strategiyalarının reallaşdırılması kooperasiya və inteqrasiya proseslərini təkmilləşdirməyə imkan verir ki, bu da həmin sahədə idarəetmə, maddi, maliyyə, informasiya, intellektual və digər resurslardan daha səmərəli istifadəni təmin edir. Bütün bunlar aqrar sahə istehsalının strukturunun səmərəliliyini, investisiya cəlbediciliyini, elmi-tədqiqatlara yönəlik investisiyaların həcmini, məhsulların müxtəlif bazarlarda rəqabət qabiliyyətini artırmağa imkan verir ki, bu da həmin sahənin inkişafına töhfə verir.

Aqrar sahədə istehsalın diversifikasiyalaşdırılmasının müxtəlif formaları vardır ki, bunlar arasında ən geniş yayılmışları kənd təsərrüfatı holdinq strukturları, konqlomeratlar və digərləridir. Aqrar sahə istehsalının strukturunun diversifikasiyalaşdırılmasının mahiyyətini səciyyələndirərkən fəaliyyətin genişləndirilməsinə və onun təcrübi reallaşdırılmasının təşkilati-iqtisadi mexanizmlərinə xüsusi diqqət yetirilir. Beləliklə, bitkiçilik məhsulları ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalında da əlaqəli və ya əlaqəli olmayan diversifikasiya forması baş verir. Aqrar sahədə əlaqəli diversifikasiya sənayenin ixtisaslaşmasının artması, əkin dövriyyəsinin dəyişməsi və bir sənaye daxilində kənd təsərrüfatı bitkilərinin yeni sort və növlərinin yaranması nəticəsində baş verir. Aqrar sahədə şaquli əlaqəli diversifikasiya bütün aqrar-ərzaq zənciri boyunca, yəni xammaldan hazır məhsulun istehsalına qədər aqrar müəssisələrin fəaliyyətinin genişləndirilməsini nəzərdə tutur ki, bu zaman əsas məqsədlərdən biri həmin sahə müəssisələrinin dayanıqlığını artırmaqdır. Əlaqəsiz diversifikasiya müəssisənin yeni perspektivli sənaye sahələrinə daxil olmasını nəzərdə tutur.

Azərbaycanda aqrar sahə istehsalının diversifikasiyalaşdırılması üçün kifayət qədər potensial mövcuddur. Bu potensialdan mümkün qədər səmərəli istifadə etmək vacibdir. Aqrar sahə istehsalının strukturunun diversifikasiyası zamanı bitkiçilik və heyvandarlıq sahələrinin inkişafının modelləşdirilməsinə, əkin sahələrinin genişləndirilməsinə və bu yollarla məhsuldarlığın artırılmasına diqqət artırılmalıdır. Əkin sahələrinin genişləndirilməsi kartofun, tərəvəz və bostan, dənli və paxlalı, texniki, eləcə də yem bitkilərinin istehsalında məhsuldarlığın, habelə ölkənin ixrac potensialının artırılmasına imkan verir [2, s.27].

Aqrar istehsalın və onun ixrac potensialının artım tempini təmin edən amillərdən birinin əkin sahələrinin genişləndirilməsi olduğu qənaətinə gələ bilərik. Bununla əlaqədar olaraq demək olar ki, Azərbaycanda bir sıra dövlət proqramları, o cümlədən, 44 günlük Vətən Müharibəsindən sonra torpaqlarımız erməni işğalından azad edildikdən sonra ölkə Prezidenti tərəfindən imzalanmış “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların idarə olunması ilə bağlı bəzi məsələlər haqqında” Fərmanın uğurla icrası kənd təsərrüfatı istehsalının və ixrac potensialının həcminin artmasına müsbət təsir göstərir və göstərməkdə davam edir. Bu, fərmanın icrası ilə respublikada əkin sahələri artacaq, işğaldan azad edilmiş ərazilərdəki strateji əhəmiyyətli su anbarlarından minlərlə hektar əkinə yararlı torpaqların suvarılması mümkün olacaq. Burada pambıq, taxıl, kartof, üzüm və s. kənd təsərrüfatı istehsalı, eləcə də heyvandarlığın inkişafı üçün güclü potensial vardır. Bu potensialdan səmərəli istifadə olunması, eləcə də aqrar emal sənayesinin genişləndirilməsi hesabına aqrar sahə məhsullarının ixrac potensialının inkişafı təmin edilə bilər [3].

Son illərdə heyvandarlıq və bitkiçilik məhsullarının istehsal həcmi davamlı olaraq artmışdır. Heyvandarlıq məhsullarının istehsalı bitkiçilik məhsullarının istehsalından çox olmuşdur. Yalnız bitkiçilik məhsullarının istehsalı heyvandarlıq məhsullarının istehsalından 2022 və 2023-cü illərdə müvafiq olaraq 3,1 və 1,7% çoxluq təşkil etmişdir. Tədqiqatlar göstərir ki, Azərbaycanda heyvandarlıq məhsullarının istehsal həcminin bitkiçilikdən çox olmasına baxmayaraq, aqrar ixracın əsasını ikincilər təşkil edir. Bu baxımdan həmin sahə məhsullarının istehsalının həcminin artırılması ixrac potensialının artırılmasında və onun reallaşdırılmasında böyük önəm daşıyır. Heyvandarlıq sahənin məhsullarının ixracı demək olar ki, yetərli deyil və həmin sahə məhsullarının əksər hissəsi əsasən daxili tələbatın ödənilməsi üçün yerli bazarlarda satılır [4, s.14]. 2023-cü ildə ölkə üzrə ÜDM-in həcmi 123005,5 milyon AZN olub ki, bunun 6815,6 milyon AZN-i və ya 5,5%-i kənd, meşə və balıqçılıq təsərrüfatları üzrə olmuşdur. Tədqiqatlar göstərir ki, ölkənin əksər aqrar sənaye müəssisələrinin istehsal proseslərinin müasirləşdirilməsi baxımından müəyyən maliyyə imkanları var. Bununla belə, o da qeyd olunmalıdır ki, kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti isə xüsusi maliyyə resurslarının məhdudluğu və büdcədən maliyyələşmənin əlçatmazlığına görə maddi-texniki bazanı köklü şəkildə yeniləmək və kənd təsərrüfatı istehsalında mütərəqqi texnologiyalardan istifadə etmək imkanından məhrumdur [5, s.20].

Azərbaycanda aqrar sahənin inkişafı hesabına müsbət irəliləyişlərin əldə edilməsinə baxmayaraq, bu sahədə həlli tələb olunan bəzi problemlərin mövcud olduğunu deyə bilərik ki, həmin problemlərin əsaslarına daxildir:

- ✓ istehsal potensialından tam istifadə edilməməsi və istehsalının səmərəliliyinin kifayət qədər olmaması;
- ✓ bir sıra müəssisələrin yüksək borc yükü ilə əlaqədar kənd təsərrüfatı istehsalının inkişafı və modernləşdirilməsi üçün öz vəsaitinin olmaması;
- ✓ sərt rəqabət şəraitində müəssisənin idarə edilməsinin səmərəliliyinin qənaətbəxş olmaması;
- ✓ ekoloji cəhətdən təmiz və resurslara qənaətedici texnologiyaların tətbiqi ilə maddi-texniki bazanın modernləşdirilməsinə investisiya qoyuluşunun yetərli olmaması və s.

Ölkənin aqrar sahəsində mövcud olan mənfi tendensiyaların aradan qaldırılması yalnız dövlətin uzunmüddətli aqrar siyasətinin əsas həlqəsi kimi rəqabətqabiliyyətliliyin artırılması və təkmilləşdirilməsi üzrə uzunmüddətli diversifikasiya proqram və strategiyaların hazırlanması və reallaşdırılması əsasında mümkündür. Aqrar sahənin daim yenilənməsi tələb olunur ki, bu da aqrar elmin inkişafını və ona kadr və informasiya dəstəyi tələb edir. Aqrar elmdə, kadr və informasiya təminatında vəziyyəti yaxşılaşdırmadan innovasiyaları mənimsəmək, aqrar sahə məhsullarının rəqabət qabiliyyətini təmin etmək mümkün deyil. Aqrar sahənin gələcək inkişafı innovativ inkişaf hesabına, eləcə də iqtisadi, so-

sial və texnoloji problemlərin kompleks şəkildə həll olunması ilə bağlıdır [6, s.56].

Aqrar sahədə istehsalın strukturunun diversifikasiyalaşdırılması üçün onun maliyyələşdirilməsi əsas şərtdir. Aqrar sahənin maliyyələşdirilməsinin artırılması bu sahədə dəyişiklikləri stimullaşdırmaq üçün vacib elementdir ki, bu da gələcəkdə onu rəqabətqabiliyyətli edə bilir. Araşdırmalar göstərir ki, əksər dünya ölkələrində aqrar sahənin inkişafına əsas maliyyə təsir vasitəsi əvəzsiz maliyyələşmə deyil, kreditləşmədir. Əksər ölkələrdə kredit müstəqil maliyyələşdirmə forması kimi deyil, kənd təsərrüfatı torpaqlarının istehsalçıları tərəfindən özəl investisiyaların stimullaşdırılması forması kimi çıxış edir. Avropa ölkələrində fermerlərə kredit verilməsi problemi aktualdır. Bu ölkələrdə fermerlərin 25%-i istehsalın maliyyələşdirilməsi üçün xüsusi vəsaitə malik olmasına baxmayaraq, borc vəsaitlərindən də istifadə edir. ABŞ-dan fərqli olaraq, AB ölkələrində fermerlər üçün kommersiya kreditləri ciddi ödəniş proseduru ilə reallaşdırılır.

Aqrar sahə istehsalının diversifikasiyası əmtəə istehsalçılarına mövsümiliyin istehsala təsirini azaltmağa və əksər aqrar sahə müəssisələrində bununla bağlı yaranan mənfi halların qarşısını qismən almağa imkan verir. Beləliklə, aqrar sahə istehsalçılarının əsas fəaliyyət növlərinin diversifikasiyalaşdırılması əsasında yerli aqrar-sənaye kompleksinin strateji inkişafı resurs potensialından maksimum tam və səmərəli istifadə etməyə, məhsul çeşidinin genişləndirilməsinə və istehsal həcminin artırılmasına imkan verə bilər. Aqrar sahədə istehsalın strukturunun diversifikasiyası üzrə proqram və strategiyalar sonradan sənayenin ixrac potensialının artırılması ilə əhalinin təhlükəsiz və yüksək keyfiyyətli aqrar-ərzaq məhsullarına tələbatını ödəyən səmərəli aqrar iqtisadiyyatın formalaşmasını və inkişafını təmin edəcəkdir.

Aqrar sahədə istehsalın strukturunun diversifikasiyalaşdırılmasından yüksək fayda əldə etmək üçün bu prosesin stimullaşdırılmasına diqqət artırılmalıdır. Bazar münasibətlərinin inkişafı şəraitində aqrar sahə istehsalçılarının fəaliyyətinin stimullaşdırılmasının rolu artır. Aqrar sahə istehsal və istehlakının stimullaşdırılması mexanizminin ən önəmli komponentlərinə daxildir:

✓ istehsal sahəsində hüquqi çərçivəni müəyyənləşdirən və qanunvericilik aktları sisteminin tətbiqini nəzərdə tutan hüquqi dəstək mexanizmi;

✓ standartların və sertifikatların, texniki reqlamentlərin hazırlanmasını və s. nəzərdə tutan tənzimləmə dəstəyi mexanizmi;

✓ güzəştli vergitutma və kreditləşməni, subsidiyalaşdırmanı və s. nəzərdə tutan dövlət tənzimlənməsi mexanizmi.

Stimullaşdırma, real imkanların təmin edilməsinə şərait yaratmağa və istehsalçılar arasında təkcə aqrar sahə istehsalının həcmini deyil, habelə onun istehlakının həcmini artırmağa maraq yaratmağa yönəlmiş üsuldur. Bu üsul aqrar sahə məhsullarının istehsal və istehlakı prosesinin bütün iştirakçılarının maraqlarını təmin etməlidir. Belə bir mexanizmin əsas məqsədi aqrar sahə məhsulların istehsal və istehlakçılarına iqtisadi təsir rıçaqlarını işə salmaqdan ibarətdir ki, bu da son nəticədə cəmiyyətin keyfiyyətli ərzaq məhsulları ilə təminatına gətirib çıxarır.

Bunlara əsaslanaraq, aqrar sahədə istehsalın stimullaşdırılmasının əsas məqsədlərini formalaşdıra bilərik:

✓ aqrar sahə müəssisələrinin istehsalın təşkilində iqtisadi marağının gücləndirilməsi;

✓ insan həyatı və sağlamlığına təhlükə yarada biləcək məhsulların istehsalına görə hüquqi və iqtisadi məsuliyyət tədbirlərinin sərtləşdirilməsi;

✓ ətraf mühitə dəyən zərərin azaldılması;

✓ istehsal və emal prosesləri nəticəsində əldə olunan məhsulu çirkləndirməyən avadanlıqlardan istifadə, onların vaxtında yenilənməsi və modernləşdirilməsi;

✓ daxili və xarici bazarlarda aqrar sahə məhsullarının fəal şəkildə təşviqi.

Aqrar sahə istehsalının stimullaşdırılması məqsədilə daim emal olunan məhsulların çeşidinin, istehsal texnologiyasının yenilənməsinə investisiyaların artırılması və yüksəkixtisaslı kadrların hazırlanmasının sürətləndirilməsi, istehsalın tələbata uyğun təşkili məqsədəuyğundur. Bundan əlavə, istehsalçılar və emalçılar arasında müqavilə öhdəliklərinin və məhsulların satışı mexanizminin formalaşdırılması və təşviqi məqsədəuyğun hesab edilir [7, s.106].

Aqrar sahədə istehsalın stimullaşdırılmasını daha ətraflı nəzərdən keçirmək məqsədilə onun formalaşmasının əsas prinsiplərinə toxunaq:

• istehsal və istehlakı prosesləri arasında qarşılıqlı əlaqə prinsipi. Bu prinsip onu nəzərdə tutur ki, aqrar sahədə elə məhsullar istehsal olunmalıdır ki, onlar istehsalçı baxımından sərfəli, istehlakçı baxımından isə məqsədəuyğun olmalıdır;

• maddi maraq prinsipi aqrar məhsullarının istehsalına istehsalçıları maraqlandırmaq üçün nəzərdə tutulmuş maddi və iqtisadi stimullaşdırma sisteminin mövcudluğu deməkdir. Aqrar sahə istehsalında milli standartların formalaşdırılması həmin prinsipin reallaşdırılmasında əsas vəzifə olmalıdır;

• iqtisadi məsuliyyət prinsipi. Bu prinsip insan sağlamlığı üçün təhlükəli məhsulların istehsalı zamanı müəyyən məsuliyyətlərin mövcudluğunu nəzərdə tutur və onun reallaşdırılması istənilən təsərrüfat subyektinin fəaliyyətinin yekun nəticələrinə görə məsuliyyət səviyyəsinin önəmli dərəcədə yüksəldilməsini təmin edir. İqtisadi məsuliyyət prinsipinə əsasən, istənilən müəssisə istehsal etdiyi məhsulun keyfiyyətinə və təhlükəsizliyinə, habelə onların müəyyənləşdirilmiş standartların tələblərinə uyğun olub-olmamsına görə müstəqil məsuliyyət daşıyır.

Bu prinsiplərə əməl olunması ölkənin aqrar ixrac potensialının diversifikasiyalaşdırılmasına da önəmli təsir göstərə bilər.

## YEKUN

Beləliklə, aqrar sahədə istehsalın stimullaşdırılmasının təkmilləşdirilməsini məqsədəuyğun hesab edirik ki, bunun üçün aşağıdakı təklifləri formalaşdırmaq olar:

• istehsalı və istehlakın hüquqi təminatı sisteminin formalaşdırılması;

• maliyyələşdirmə, investisiyalaşdırma və kreditləşmə layihələrinin seçilməsi baxımından aydın meyarların müəyyənləşdirilməsi;

• sahibkarlıq subyektlərinə məhsul istehsalı sahəsində güzəştli şərtlərlə kreditlərin verilməsi;

• məhsulların keyfiyyət parametrlərinin yaxşılaşdırılmasına töhfə verən fəaliyyətlərin maliyyələşdirilməsi;

• məhsulların keyfiyyət və təhlükəsizliyini əks etdirən göstəricilərin və onların qlobal ərzaq bazarlarının tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi;

• aqrar məhsulların istehsalı məqsədilə yeni texnologiyaların tətbiqi və s.

**Açar sözlər:** *Azərbaycan, aqrar sahə, yerli istehsal, diversifikasiya, yerli istehsalın strukturu, yerli istehsalın stimullaşdırılması, yerli istehsalın diversifikasiyalaşdırılması, aqrar sahənin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hüseynov, M.C., Əmrahov, V.T., Qasımov, A.M., Həsənov, A.F., Nərimanov, N.A. Aqrar istehsal strukturunun diversifikasiyası (Gəncə-Qazax iqtisadi rayonunun misalında). – Bakı: Elmin İnkişafı Fondu, – 2016. – 168 s.*

*2. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək yolu, – 2018. №.2, – s.23-32.*

*3. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 27 aprel 2021-ci il.*

*4. Nərimanov, N.A. Azərbaycan Respublikasında aqrar ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Gəncə, 2021.–32 s.*

*5. Həsənova, M.S. İxrac yönümlü kənd təsərrüfatı istehsalının inkişaf istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı./ – Bakı, 2022. – 28 s.*

*6. Мустафаева, Р.Р. Меры государственной поддержки развития аграрного сектора Азербайджана / Р.Р. Мустафаева // Вестник Казахского гуманитарно-юридического инновационного университета. – 2018. № 2(38), – с. 53-57.*

*7. Qasımova, N.Ə. Azərbaycanda meyvə-tərəvəz məhsullarının ixrac problemləri. Audit, – 2022. 2 (36), – s.99-108.*

**ЮСИФ ГАСАНЛИ**

***Докторант Азербайджанского Университета Кооперации,***

***E-mail:yusifhasanli300@gmail.com***

## МЕХАНИЗМЫ ДИВЕРСИФИКАЦИИ И СТИМУЛИРОВАНИЯ СТРУКТУРЫ МЕСТНОГО ПРОИЗВОДСТВА В АГРАРНОЙ СФЕРЕ В АЗЕРБАЙДЖАНЕ

В статье исследованы механизмы диверсификации и стимулирования структуры местного производства в аграрной сфере Азербайджана. Систематизированы проблемы развития аграрной сферы. Приведены преимущества расширения местного производства. Рассмотрен мультипликативный эффект местного производства в

развитии аграрной сферы. Отмечены важность приоритетов развития аграрного сектора, который является одним из стратегических направлений экономики. Приведена важность мер по улучшению структуры импорта за счет повышения качества и конкурентоспособности местной продукции. Даны рекомендации и предложения по расширению структуры местного производства в аграрном секторе страны.

**Ключевые слова:** *Азербайджан, аграрный сектор, отечественное производство, диверсификация, структура местного производства, стимулирование местного производства, диверсификация местного производства, перспективы развития аграрного сектора.*

**YUSIF HASANLI**
***Doctoral student of Azerbaijan Cooperation University,***
***E-mail: yusifhasanli300@gmail.com***

## MECHANISMS FOR DIVERSIFICATION AND STIMULATION OF THE STRUCTURE OF LOCAL PRODUCTION IN THE AGRICULTURAL SPHERE IN AZERBAIJAN

The article examines the mechanisms of diversification and stimulation of the structure of local production in the agricultural sector of Azerbaijan. The problems of development of the agricultural sector are highlighted and systematized. The advantages of expanding local production are given. The multiplier effect of local production in the development of the agricultural sector is considered. The importance of the development priorities of the agricultural sector, which is one of the strategic directions of the economy based on new technologies, was stated. The importance of measures to improve the structure of imports by improving the quality and competitiveness of local products is given. In the near future, recommendations and proposals will be made to expand the structure of local production in the country's agricultural sector.

**Key words:** *Azerbaijan, agricultural sector, local production, diversification, structure of local production, stimulation of local production, diversification of local production, prospects for the development of the agricultural sector.*

UOT: 338.36:338.33:338.45:339.5
https://doi.org/10.30546/3006-0346.2024.6.84.088

# RƏQƏMSAL TRANSFORMASİYALAR KONTEKSTİNDƏ KİMYA VƏ NEFT-KİMYA KOMPLEKSİNİN İSTEHSAL-İXRAC POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**MÜQƏDDƏS ƏZİZZADƏ**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: muqeddes.azizzade080@gmail.com*

Müasir dövrdə iqtisadiyyat sahələrinin və istehsal komplekslərinin modernləşdirilməsi, yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bir tərəfdən "ağıllı" texnologiyaların əhatəsi genişlənirsə, digər tərəfdən dördüncü sənaye inqilabının elementlərinin daha çox iqtisadi proseslərə, istehsalın təşkilinə təsiri ön plana çıxmaqdadır. Xüsusilə, istehsal proseslərinin və texnoloji rejimlərin təkmilləşdirilməsi, istehsal-ixrac potensialının artırılmasında qarşılıqlı kompleks yanaşmalar nəzərə alınmaqla qiymətləndirilməsinin vacibliyi ilə fərqlənir. Artıq istehsal komplekslərinin təşkilində və idarə edilməsində, istehsal və dəyər zənciri üzrə müasir fəaliyyət mexanizmlərinin səmərəliliyinin artırılmasında daha çox rəqəmsal texnologiyalara, daha irəli getsək, hazırda süni intellekt resurslarına üstünlük verilməkdədir.

Bütün bunlar iqtisadiyyatın müxtəlif sahələrinə konseptual yanaşmalarda özünü büruzə verməkdədir. Dünənə kimi məqbul hesab olunan fəaliyyət mexanizmlərinin bu gün texnoloji və digər parametrlər baxımından xeyli geri qalması və artan tələblərə cavab verməməsi yeni səmərəli mexanizmlərin hazırlanmasını və tətbiqini şərtləndirir. Dünyanın bir sıra iqtisadiyyat sahələri vardır ki, güclü ixrac potensialına malikdir və həmin iqtisadiyyat sahələri hazırda dünya iqtisadiyyatının önündə gedən və texnoloji sıçrayışa nail olan ölkələrin iqtisadiyyatlarının strukturunda yer almışdır. Belə fəaliyyət sahələrindən biri də kimya və neft-kimya kompleksidir. Xüsusilə, neft-kimya kompleksi müasir dünyamızda kifayət qədər maliyyə tutumlu sahə və beynəlxalq bazar kimi diqqət çəkir. Bu iqtisadiyyat sahəsi Azərbaycan üçün də kifayət qədər xarakterikdir və hazırda ölkənin qeyri-neft-qaz sektorunun aparıcı sahəsi hesab olunur. Eyni zamanda, ölkənin qeyri-neftqaz ixrac potensialının artırılmasında bu sənaye sahəsinin payı kifayət qədər yüksəkdir. Bundan əlavə: "Mühüm qeyri-neftqaz sektoru olan kimya və neftkimya kompleksinin yenidən qurulması və müasir texnologiyalar əsasında gücləndirilməsi məsələləri prioritetlik təşkil edir" [1, s. 71]. Ölkənin neftkimya kompleksinin inkişafının intensivləşdirilməsində daha çox müasir texnologiyaların, o cümlədən rəqəmsal mexanizmlərin tətbiqinə ciddi zərurət yaranmışdır. Ümumilikdə son illərdə Azərbaycanda neft və qaz sənayesinin emal imkanlarının və infrastrukturunun genişləndirilməsində, çoxfunksiyalı emal qurğuları kompleksinin yaradılmasında kimya və neft-kimya kompleksinin rolu və funksiyaları önəmli əhəmiyyət kəsb edir. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş və hazırda icraçı təmin edilməkdə olan strateji yol xəritəsində kimya məhsullarının rəqabət qabiliyyətinin artırılması, ixracyönlü neftkimya məhsullarının çeşidinin genişləndirilməsi və həcminin yüksəldilməsi, emal şəbəkəsinin yenidən qurulması prioritet vəzifələr kimi müəyyən edilmişdir [2].

Qeyd edək ki, iqtisadiyyat sahələrinin səmərəliliyinin artırılması və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi proseslərində rəqəmsal transformasiyaların tələblərinə uyğun mexanizmlər, idarəetmə və nəzarət sistemləri ciddi əhəmiyyət daşıyırlar və yaxın perspektivdə bunların ardıcıl, kompleks şəkildə nəzərə alınması qaçılmaz bir prosesdir. Digər tərəfdən, müasir zəmanəmizdə rəqəmsal transformasiyalar iqtisadiyyatın bütün sahələrinə, o cümlədən kimya və neftkimya kompleksinə ciddi təsir göstərməkdədir. İstehsal proseslərinin və onun idarə edilməsinin əsas mexanizmlərinin təkmilləşdirilməsi, uzun illər ərzində istifadə olunan fəaliyyət alətlərinin yenilənməsi tələb olunur. Bütün bunlar özündə beynəlxalq sahədə rəqəmsal transformasiyalarla bağlı yanaşmaları ehtiva etməlidir. Belə ki, "Qabacıl təcrüələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar" [3, s. 1]. Biz də belə düşünürük ki, dünyanın bir hissəsi olaraq Azərbaycanda da müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən bizim misalda kimya və neftkimya sahəsində istehsal-ixrac po-

tensialının artırılmasında və bu sahənin imkanlarının obyektiv olaraq qiymətləndirilməsində rəqəmsal transformasiyalardan irəli gələn məsələlər xüsusi ilə nəzərə alınmalıdır. Belə ki, istehsal sahələrinin qarşılıqlı fəaliyyət rejimlərinin səmərəliliyinin yüksəldilməsi, itkilərin azaldılması, texnoloji reqlamentlərə daha dürüst əməl olunması, istehsalın və satış strategiyasının reallaşdırılmasının müxtəlif tsikllərində daha yüksək nəticələrin əldə edilməsi hədəflərinin reallaşdırılmasında rəqəmsal texnologiyalardan istifadənin genişləndirilməsi vacib şərtlərdəndir. Bunlarla bərabər, rəqəmsal transformasiyalara keçidin sürətləndirilməsi kimya və neftkimya sahəsində istehsal-ixrac potensialının gücləndirilməsi üçün əlavə imkanlar formalaşdıra bilər.

Qeyd edək ki, kimya və neftkimya kompleksi kifayət qədər mürəkkəb texnologiyalardan ibarətdir və bu sahənin təhlükəsiz istismar edilməsi, insanların həyatına zərər gətirə biləcək hadisələrin qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi, insan müdaxiləsini minimuma endirməklə istehsal proseslərinin səmərəli və təhlükəsiz idarə olunması vacib hesab olunur. Bu amillər baxımından və obyektiv reallıqlar nöqteyi-nəzərindən rəqəmsal mexanizmlər əsaslı idarəetmə mexanizmlərinin yaradılması və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 may tarixli sərəncamında ölkəmizdə rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı ölkə Prezidentinin Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün praktiki tədbirlərin görülməsi nəzərdə tutulmuşdur və bunların icrası həyata keçirilməkdədir [4]. Eyni zamanda, ölkə Prezidenti tərəfindən əvvəllər qəbul edilmiş qərarların və sərəncamların yerinə yetirilməsi proseslərində ortaya çıxan mühüm məqamlar və vəzifələr nəzərə alınmaqla, dövlət başçısı tərəfindən rəqəmsal transformasiya sahəsində idarəetmə proseslərinin intensivləşdirilməsi bununla bağlı məsələlərin həll edilməsi, müvafiq dəyişikliklərin aparılması ilə əlaqədar 2022-ci ilin oktyabrında yeni fərman imzalanmışdır [5].

Azərbaycanda son illərdə cəmiyyətin və iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, komfort şəkildə xidmətlərin göstərilməsi, o cümlədən ağır sənaye sahələrində əl əməyinin azaldılması, texnoloji yeniliklərin daha fəal şəkildə tətbiq edilməsi tədbirləri görülməkdədir. Kifayət qədər səmərəli və dünyanın bir çox ölkələri tərəfindən təqdir olunan ASAN və DOST xidmət brendləri buna misal ola bilər. Bunlarla bərabər son dövrlərdə tikilmiş sənaye müəssisələrinin əsas qurğularında istehsal və texnoloji proseslərin idarə olunmasında daha çox "ağıllı" texnologiyalardan istifadə olunur. Kimya və neftkimya sahəsi bu istiqamətdə istisna təşkil etmir. Qeyd edə bilərik ki, son illərdə Azərbaycanda ən iri qeyri-neftqaz istehsal qurğuları məhz bu sahədə istismara verilmişdir. SOCAR Karbamid və "SOCAR Polimer"in istismara verilməsi ölkəmizdə yüksək texnologiyalar əsaslı və ixracyönlü kimya və neftkimya məhsullarının istehsalına və bu sahədə ixrac potensialının artırılmasına önəmli töhfə vermişdir. Bu iki iri emal müəssisəsində xammal təminatının fasiləsiz və tələb olunan səviyyədə həlli müqabilində istehsalın həcminin artırılması və ixrac potensialının 500-700 milyon ABŞ dolları həcminə qaldırılması imkanlarının olduğu qənaətindəyik. Hər iki müəssisədə istifadə edilən texnologiyaların istifadə edilməsində və istehsal proseslərinin tənzimlənməsində, idarəetmə mexanizmlərinin reallaşdırılmasında rəqəmsal mexanizmlərdən istifadəyə geniş önəm verilir və əksər proseslərin avtomatlaşdırılması təmin olunmuşdur. Ümumilikdə ölkəmizdə Rəqəmsal Hökumət layihəsi həyata keçirilmişdir və rəqəmsal hökumət konsepsiyasının bir qrup üstünlükləri diqqət çəkir. Vətəndaşların ehtiyaclarının daha yaxşı başa düşülməsi, xidmət sahələrinin genişləndirilməsi və daha səmərəli təmin edilməsi, onların əlçatan olması, bu sahədəki çətinliklərin aradan qaldırılması, xüsusilə dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, ölkənin müxtəlif xidmət sahələrində beynəlxalq təcrübənin daha uğurlu tətbiq olunması, mövcud xidmət modellərinin təkmilləşdirilməsi və yenilərinin hazırlanması, kağız daşıyıcılarının minimuma endirilməsi, bürokratik yanaşmaların aradan qaldırılması, məmur- vətəndaş təmasının azaldılması və s. məsələlərin üstün cəhətləri diqqət çəkir [6].

Hazırda Azərbaycanda sənaye sahələrinin inkişaf etdirilməsi, iqtisadiyyatın neft-qaz amilindən asılılığının azaldılması tədbirləri görülür. Başqa bir problem ölkə ixracının strukturunda neft və qaz məhsullarının payının 93 %-dən çox olmasıdır. Təəssüf ki, dövlət tərəfindən davamlı şəkildə dəstək mexanizmlərinə, güzəştlərə, o cümlədən vergi güzəştlərinə, subsidiyalara və s. imtiyazlara baxmayaraq qeyri-neftqaz sektoru sahələrində istehsalın həcminin artırılması və rəqabətqabiliyyətli ixrac məhsullarının strukturunun genişləndirilmə-

si təmin olunması prosesləri ləng gedir. Məsələn, Sumqayıt Sənaye Mərkəzində Sumqayıt Kimya Sənaye Parkı və Sumqayıt Texnologiyalar Parkının yaradılması və inkişaf etdirilməsinin təmin olunmasında dövlətin xüsusi rolunu qeyd edə bilərik. Belə ki, bu müasir iqtisadi fəaliyyət məkanlarında qeydiyyata alınan və fəaliyyət göstərən subyektlər 10 il ərzində vergi və gömrük rüsumlarından azaddırlar. Eyni zamanda, texnologiyaların və avadanlıqların, həmçinin nəqliyyat vasitələrinin, maşın və mexanizmlərin idxalı zamanı əlavə ödənişlər etmirlər. Bütün bunlara baxmayaraq, həmin iqtisadi fəaliyyət mexanizmlərində ixrac potensialına malik kimya və neftkimya müəssisələrinin sayı azdır. Halbuki, kimya və neftkimyanın əlavə istehsal və dəyər zənciri üzrə ölkəmizdə və regionda ciddi tələbat bazarı olan məhsulların istehsalının təşkili mümkündür. Bunun üçün əsaslandırılmış arqumentlər də vardır. Məsələn, bu regionda əvvəllər analoji məhsulların istehsal edilməsi, kadr potensialının hələ də güclü olması, ölkəmizdə bu istiqamətlərdə kadr hazırlığının müvafiq strukturlarının olması, universitet-sənaye əməkdaşlığı üçün ciddi zəminin mövcudluğu bunlara misaldır. Digər tərəfdən, ölkəmizdə mərkəzi strukturlar tərəfindən müvafiq layihələr həyata keçirilməkdədir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin "Texnopark"la bağlı yanaşmasında rezidentlər üçün müvafiq xidmətin göstərilməsi və şəraitin yaradılması prosedurları öz əksini tapmışdır [7]. Bunlarla yanaşı, həmin Agentlik tərəfindən Kiçik və orta biznesin rəqəmsallaşmasına dəstək məqsədilə müvafiq "digiMATE" platforması təşkil edilmişdir [8]. Bu rəqəmsal platformanın başlıca məqsədi kiçik və orta biznes subyektləri üçün rəqəmsal bələdçi funksiyasını yerinə yetirmək və həmin subyektlərin rəqəmsal yetkinlik səviyyəsinə çatmasına dəstək göstərməkdir. Məsələn, rəqəmsal yetkinlik indeksi vasitəsilə biznes subyektlərinin rəqəmsallaşma səviyələrinin ölçülməsi və qiymətləndirilməsi təmin edilə bilər. Bundan əlavə, onların fəaliyyətində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, təchizat zənciri üzrə daha etibarlı işlək mexanizmlərin daxil edilməsi və kibertəhlükəsizlik tədbirlərinin görülməsi, bulud həlləri və rəqəmsal marketinq sistemlərinin yaradılması xüsusi olaraq nəzərə alınmaqdadır.

Son illərdə ölkəmizin kimya və neftkimya müəssisələrində rəqəmsal mexanizmlərin həlli və yüksək texnologiyaların tətbiqi ilə bağlı sistemli layihələr həyata keçirilməkdədir. Bu sahədə ən iri emal qurğusu olan "EP-300" qurğusu (Sumqayıt Etilen-Polietilen zavodu) tamamilə modernizasiya edilmiş, əsas yarımfabrikatlar olan etilen və propilenin məqsədli çıxımları əhəmiyyətli səviyyədə artırılmışdır. Nəticədə SOCAR Polimer müəssisəsinin həmin xammallara olan tələbatının ödənilməsində ciddi irəliləyiş təmin olunmuşdur. Digər tərəfdən SOCAR-ın Türkiyədə fəaliyyət göstərən neftkimya müəssisələrində rəqəmsallaşma ilə bağlı tədbirlər genişləndirilməkdədir. STAR neft emalı zavodunda tətbiq edilən yüksək texnologiyalar əlavə gəlir gətirməyə imkan verir və bu məqsədlə qabaqcıl texnoloji avadanlıqların alınmasına 70 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb. Maraqlıdır ki, qısa zaman ərzində yatırılan sərmayələr özünü doğrultmuşdur və SOCAR Türkiyə ümumilikdə yeni rəqəmsallaşma mexanizmlərindən orta illik 43 milyon ABŞ dolları həcmində əlavə maliyyə mənbəyi formalaşdırmışdır [9]. Bu cür tətbiqlərin nəticəsində yüksək keyfiyyətli məhsul istehsalı artırılmaqla bərabər, həm də məhsuldarlıq və səmərəlilik yüksəlir. STAR müəssisəsi bunun üçün Türkiyənin qabaqcıl universitetləri ilə istehsal və proseslərin təkmilləşdirilməsi layihələri üzrə əməkdaşlıq edir. Bu baxımdan belə bir fikir diqqət çəkir ki, rəqəmsal transformasiyanı daim özünü yeniləyən bir proses olaraq qiymətləndirmək olar. Rəqəmsallaşma sənaye 4.0, davamlılıq və mobillik müasir dövrümüzün əsas fəaliyyət postulatları kimi daha çox ön plana çıxmaqdadır [10].

## YEKUN

Beləliklə, yaxın perspektivdə rəqəmsal transformasiyanın daha intensiv xarakter alacağını proqnozlaşdırmaq olar və bunun üçün bir sıra məqamlara xüsusi diqqət yetirilməsini vacib sayırıq, həmçinin bir qrup təkliflər irəli sürürük:

– Rəqəmsal transformasiyalarla bağlı dünya ölkələrinin təcrübəsinin dərindən öyrənilməsi və ölkəmizdə tətbiqinin sürətləndirilməsi tədbirlərinə ciddi zərurət vardır;

– Qlobal təsirlər şəraitində kimya və neftkimya sahəsinin istehsal-ixrac potensialının obyektiv qiymətləndirilməsi və rəqəmsal mexanizmlər hesabına bu sahənin inkişafının intensivləşdirilməsi üzrə Fəaliyyət Konsepsiyasının hazırlanmasına və həyata keçirilməsinə ehtiyac yaranmışdır;

– Azərbaycanın kimya və neftkimya sənayesi

sahəsində istehsal sahələrinin texnoloji səviyyəsinin yüksəldilməsi və ixracın strukturunun rəqabət qabiliyyətli, yüksək texnologiyalar tutumlu məhsullar hesabına genişləndirilməsindən ötrü rəqəmsal transformasiyaya keçidin sürətləndirilməsi təmin edilməlidir və s.

**Açar sözlər:** *Azərbaycan, kimya və neftkimya sahəsi, rəqəmsal transformasiya, rəqəmsallaşma, rəqəmsal mexanizmlər, istehsal-ixrac potensialı, istehsal-ixrac potensialının qiymətləndirilməsi, istehsal-ixrac potensialının gücləndirilməsi istiqamətləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012.- 156 s.*

*2. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*3. Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 27 aprel 2021-ci il https://president.az/az/articles/view/51299/print.*

*4. "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1325 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı. Bakı şəhəri, 7 may 2021-ci il, № 285s. https://e-qanun.az/framework/47489.*

*5. Azərbaycan Respublikası Prezidentinin "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-ci il 27 aprel tarixli 1325 nömrəli və "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 21 oktyabr 2022. Bakı şəhəri, 21 oktyabr 2022-ci il. https://president.az/az/articles/view/57662.*

*6. Rəqəmsal Hökumət. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. https://www.idda.az/digitalazerbaijan/az/page/digital-government.*

*7. Texnopark. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. https://www.idda.az/az/projects/our-projects/texnopark.*

*8. Kiçik və orta biznesin rəqəmsallaşmasına dəstək məqsədilə "digiMATE" platforması yaradılıb. 28-08-2024. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. https://www.idda.az/az/media/press/kicik-ve-orta-biznesin-reqemsallasmasina-destek-meqsedile-digimate-platformasi-yaradilib.*

*9. "SOCAR Türkiyə": "Rəqəmsallaşma ilə 43 milyon dollar əlavə maliyyə əldə edəcəyik".https://oxu.az/iqtisadiyyat/socar-turkiye-reqemsallasma-ile-43-milyon-dollar-elave-maliyye-elde-edeceyik.*

*10. "SOCAR Türkiyə" ilə "Türkcell" enerji sektorunda ilkə imza atıblar. 24.11.2022.*

**МУГАДДАС АЗИЗЗАДЕ**
***Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности***
***E-mail: muqeddes.azizzade080@gmail.com***

## НАПРАВЛЕНИЯ УСИЛЕНИЯ ПРОИЗВОДСТВЕННО-ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА ХИМИЧЕСКОГО И НЕФТЕХИМИЧЕСКОГО КОМПЛЕКСА В УСЛОВИЯХ ЦИФРОВЫХ ТРАНСФОРМАЦИЙ

В статье исследованы направления усиления производственно-экспортного потенциала химического и нефтехимического комплекса в условиях цифровых траhсформаций. Анализированы процессы расширения цифровых преобразований в мире. Систематизированы преимущества цифровых механизмов и электронных услуг. Исследованы процессы перехода к цифровой экономике в Азербайджане. Раскрыты стратегические аспекты процессов развития химического и нефтехимического комплекса страны на основе новых технологий. Отмечена важность оценки и усиления производственно-экспортного потенциала химического и нефтехимического комплекса. Приведены преимущества проектов перехода к цифровой среде на предприятиях SOCAR, действующих в нашей стране и в Турции. Подготовлены рекомендации и предложения по рассмотренным проблемам.

**Ключевые слова:** *Азербайджан, химическая и*

*нефтехимическая сфера, цифровая трансформация, цифровизация, цифровые механизмы, производственно-экспортный потенциал, оценка производственно-экспортного потенциала, направления укрепления производственно-экспортного потенциала.*

**MUGADDAS AZİZZADE**
***Doctoral student of Azerbaijan State Oil and Industry University.***
***E-mail: muqeddes.azizzade080@gmail.com***

## DIRECTIONS FOR STRENGTHENING THE PRODUCTION AND EXPORT POTENTIAL OF THE CHEMICAL AND PETROCHEMICAL COMPLEX IN THE CONDITIONS OF DIGITAL TRANSFORMATIONS

The article investigates the directions for strengthening the production and export potential of the chemical and petrochemical complex in the conditions of digital transformations. The processes of expanding digital transformations in the world are analyzed. The advantages of digital mechanisms and electronic services are systematized. The processes of transition to digital economy in Azerbaijan have been studied. The strategic aspects of the development processes of the country's chemical and petrochemical complex based on new technologies are revealed. The importance of assessing and strengthening the production and export potential of the chemical and petrochemical complex is noted. The advantages of projects for the transition to digital transformation at SOCAR enterprises operating in our country and Turkey are given. Recommendations and proposals are prepared on the issues considered.

**Key words:** *Azerbaijan, chemical and petrochemical sector, digital transformation, digitalization, digital mechanisms, production and export potential, assessment of production and export potential, directions for strengthening production and export potential.*

Fəlsəfə və Sosiologiya

UOT 101.1:316
https://doi.org/10.30546/3006-0346.2024.6.84.090

# SOSİAL-MƏDƏNİ TƏHSİL ASPEKTİNDƏ RƏQƏMSAL KOMPETENSİYALAR

**FAZİL RÜSTƏMOV**
*Azərbaycan Dillər Universiteti,*
*Azərbaycan Universiteti*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: rustemov_1969@mail.ru*

## I. Giriş

Sürətlə dəyişən müasir dünyada cəmiyyətin təhsil sistemi qlobal və milli əsasda inkişaf edən və dəyişən yeni təhsil paradiqmaları ilə üzləşir. Faktiki olaraq cəmiyyətin dəyişməsi və inkişafı ilə ayaqlaşa bilməyənlər çətin vəziyyətdə qalır. Təhsilin yeni paradiqmasına uyğunlaşan cəmiyyətlər yaş tələbini yerinə yetirməlidir. Cəmiyyətin mədəniyyətində baş verən dəyişiklik və inkişaflara paralel olaraq təhsilin məqsəd və vəzifələrinə uyğun olaraq səmərəli təhsil sisteminin olması mümkündür. Rəqəmsal dövrün tələbi olaraq, təhsil sistemləri sahəsində digər cəmiyyətlər qarşısında subyekt və səlahiyyət üstünlük təşkil edir. Rəqəmsal dövr təhsil idarəçiliyi təhsil menecerində olması lazım olan xüsusiyyətlərdən biridir. Təhsil meneceri rəqəmsal əsr, dövrünün dəyişən və inkişaf etdiyi fərz edilən mövzunun texnologiyası və bu sahədəki bilikləri ilə bu inkişafları və dəyişiklikləri izləməyin üstünlükləri və mənfi cəhətlərinin fərqində olan, mədəniyyətə təsirini hiss edən bir insan olmalıdır.

Bəşəriyyət tarix boyu bir neçə böyük dəyişikliklərlə qarşılaşmışdır. Bu kütləvi transformasiya, birincisi oturaq həyata keçidi, ikincisi sənaye cəmiyyətinə keçidi, üçüncüsü isə informasiya cəmiyyətinə keçiddir. Cəmiyyətdə dəyişiklik, informasiya və kommunikasiya texnologiyalarında inkişaflar baş verdi. Texnologiyanın inkişafı ilə paralel olaraq təhsilin aparılması üçün də yaşanan dəyişiklik fərdi öyrənmə ideyasına da təsir göstərmişdir. Təhsil insanın və cəmiyyətin əsas ehtiyaclarından biridir. Cəmiyyətlərin öz xüsusiyyətlərinə sahib olması lazım olan fərdləri yetişdirməyi hədəfləyir, cəmiyyətdəki fərdlər bu tələbi qarşılamaq üçün yeni dünya nizamının normalarına uyğun olaraq özlərini təkmilləşdirməyə çalışırlar. Bu inkişaf ölkənin təhsil və tədris proqramlarının yenidən qurulması ilə mümkün olur.

## II. Müasir cəmiyyətin rəqəmsal mədəniyyəti problemi

Müasir sosial inkişaf dövrü insan fəaliyyətinin demək olar ki, bütün sahələrinin geniş şəkildə rəqəmsallaşması ilə xarakterizə olunur. Müasir dünya tərəqqi və qloballaşma şəraitində informasiyanın əhəmiyyəti dəfələrlə artır. O, cəmiyyətin əsas resursuna çevrilir. İnformasiya təminatı isə rəqəmsal həllərin aşkar effektivliyinə görə bütün növ fəaliyyətlərin əsası kimi müəyyən edilir [3, s.71-72 ]. Rəqəmsal cəmiyyətin yeni mədəniyyətinin meydana çıxması haqqında getdikcə daha çox eşitmək olar ki, bu da qaçılmaz olaraq ümumi insan mədəniyyətinin mühüm hissəsinə çevriləcəkdir [2, s.11]. Ölkənin inkişaf dərəcəsi getdikcə daha çox informasiya inkişafının həcmi və keyfiyyəti, eləcə də texnoloji nailiyyətlərin həyata keçirilməsi yollarının müxtəlifliyi ilə əlaqələndirilir. İnformasiya resursları çərçivəsində aşağıdakı komponentləri qeyd etmək lazımdır: elektron kitabxanaların arxivləri, müxtəlif məlumat bazaları, kataloq və reyestrlər, kadastr məlumatları, elektron nəşrlər və digər informasiya həlləri. Böyük həcmdə məlumat böyük biznes qurumlarının əsasını təşkil edir ki, bu da bütün dövlətləri əhatə edə bilər [1, s.17 ].

İncəsənət və mədəniyyət rəqəmsal peşəkar səriştələrinin öyrənilməsi ali sosial-mədəni təhsilin metodologiyası, nəzəriyyəsi və texnologiyalarının ən aktual problemlərindən biridir [14]. Amerikanın dövlət xadimi və keçmiş prezidenti Con Adams demişdi: “İki təhsil var. Biri bizə necə dolanmağı, digəri isə necə yaşamağı öyrətməlidir” [14].

Universitet və mədəniyyət kolleclərinin bugünkü missiyası səriştəli və rəqabətqabiliyyətli, öz peşəsində səlis, yaradıcı və mobil, dəyişən cəmiyyət və mədəniyyətlərə uğurla uyğunlaşa bilən, səmərəli sosial və mədəni fəaliyyətlərə və peşəkar, ömür boyu təhsilə və özünü inkişaf etdirməyə qadir olan insanların yetişdirilməsindən ibarətdir [10, s.515]. Digər tərəfdən, problemin daha geniş aspektində müasir əmək bazarı dəyişən postindustrial rəqəmsal cəmiyyətdə yaşamaq və işləmək üçün yüksək sosial və peşəkar

mobilliyə və rəqəmsal mədəniyyətə malik əmək resurslarının mövcudluğunu tələb edir [4, s.7].

Rəqəmsal mədəniyyətin inkişafı probleminin praktiki həlli onun həyata keçirilməsi mexanizmlərini, habelə onlara səbəb olan şərtləri və amilləri başa düşmək üçün bu fenomenin mahiyyətinin dərin nəzəri əksini tələb edir. Rəqəmsal bacarıqlar, incəsənət və mədəniyyət sahəsində təhsilalanların rəqəmsal mədəniyyətinin özəyi kimi çoxsəviyyəli, mürəkkəb, fənlərarası bir hadisədir və buna görə də bir sıra elmlər (fəlsəfə, sosiologiya, psixologiya və pedaqogika və s.) baxımından hərtərəfli təhlilə ehtiyac duyur [7]. Eyni, rəqəmsallaşma şəraitində sosial və mədəni fəaliyyətlərdə spesifik dəyərlərin, mənaların, bacarıqların və fərdi peşəkar özünü təmsil etmə yollarının və təcrübələrinin sintezi kimi müəyyən edilə bilən rəqəmsal mədəniyyət probleminə aiddir.

Nəzəri təhlil bizi son onillikdə rəqəmsal bacarıqlar fenomeninin müxtəlif aspektlərinin uğurla öyrənildiyi qənaətinə gətirdi [13]. Hal-hazırda filosofların, sosioloqların, antropoloqların, psixoloqların və pedaqoqların müxtəlif anlayışlarında təqdim olunur.

Rəqəmsal cəmiyyətdə mədəni inkişafın əsas problemlərini nəzərdən keçirək. Rəqəmsal mədəniyyət aşağıdakı hadisələr ətrafında formalaşır: yeni ünsiyyət formatı, yeni jarqon və yazışma qaydaları, yeni media və ötürmə vasitələri, qadcetlərin və ictimaiyyətin inkişafı yolu ilə məlumatın artan aşkarlığı və əlçatanlığı və qlobal şəbəkəyə çıxış; aydın hüquqi sənədlərin olmaması, məlumatdan istifadə üçün bütün variantları təmin etmək mümkün olmaması; rəqəmsal resursların açıqlığı, konfliktlər, qarşılıqlı anlaşma çətinlikləri səbəbindən yaşlararası qarşılıqlı əlaqələrin intensivləşməsi.

Rəqəmsal cəmiyyət mədəniyyətinin inkişafındakı problemlərin səbəbləri, fikrimizcə, kommunikasiya vasitələrinin inkişafının kortəbiiliyindədir. Belə ki, sosial şəbəkələr, forumlar və bloqlar, çox sayda tendensiya və onların güclü təsiri var. Yeni nəslin rəqəmsal mühiti dərk etməsinin sürətlənmiş tempi ilə gənclərin bu sahənin inkişafına təsirini artırdı. Buna görə də dəyərlərin ötürülməsi ilə bağlı çətinliklər, yəni, şəbəkə jarqonunun yaranması, məlumatların təhlükəsizliyi məsələləri və ona münasibət, şəbəkə etiketinin formalaşmasından ibarətdir. Pedaqoji ictimaiyyət mədəni irsin propedevtikidir, ona görə də bu mühitdə yaranan çətinlikləri təhlil etmək lazımdır [6].

Pedaqoqlar üçün rəqəmsal mədəniyyətin inkişafındakı problemlərin səbəbləri aşağıdakılardır: yeni formatlara uyğunlaşmada çətinliklər, normativ sənədlərin olmaması; hüquqların və şəxsi azadlıqların kifayət qədər müdafiəsinin olmaması, statusun müdafiəsinin olmaması; dəyişikliklərə hazır olmamaq - qlobal şəbəkəyə çıxış; rəqəmsal mədəniyyət təkcə ünsiyyət mədəniyyətini deyil, həm də inkişaf etmiş emosional zəka tələb edir; emosional tükənmə çox nəzərə çarpan olur, bu ağır iş yükü altında nadir deyil; Tədrisin fərdiləşdirilməsi artır və hər bir tələbə ilə fərdi ünsiyyət zamanı iş yükü artır.

Söhbətlər zamanı müşahidə yolu ilə əldə etdiyimiz məlumatlara əsasən təcrid edə bildiyimiz tələbələrin rəqəmsal mədəniyyətinin inkişafındakı problemlərin səbəbləri: yumşaq kompetensiyaların, emosional intellektin, düşüncə və emosiyaları ifadə etmək bacarığının olmaması; böyüklərlə sağlam ünsiyyət təcrübəsinin olmaması; gənclik nihilizmi; eqoist istəkləri görmə və təhlil edə bilməməsi; nəzakəti yumşaqlıqla səhv salmaq istəyi, buna görə də manipulyasiya yaranır, şantaj ola bilər; istəkləri görmək və təhlil edə bilməmək, çox vaxt eqoist - özünü mərkəzləşdirmək, "yaxşı, sən-yaxşı" mövqeyini tuta bilməmək [5, s.131].

Bu vəziyyətdə aşağıdakı həlləri həyata keçirə bilərsiniz. Qlobal vəzifələrə münasibətdə: fənn sahəsini metodologiya baxımından nəzərdən keçirmək, tədqiqat aparmaq, subyektlər arasında qarşılıqlı əlaqələrin strukturunu öyrənmək; bu qarşılıqlı əlaqələri asanlaşdıran qaydaların yaradılması; qanunların qəbuluna və ya onların icrasına təşəbbüs göstərmək. Müəllimlərə gəldikdə: qanunvericilik bazasını dəyişdirmək, işçiləri uyğunlaşdırmaq, ünsiyyət vasitəsilə tələbələrin kommunikativ komponentini inkişaf etdirmək üçün ideyaları populyarlaşdırmaq və müəllimlər arasında emosional tükənmənin qarşısını almaq lazımdır.

## III. Rəqəmsal mühitdə təhsilin mədəniyyətə təsiri

Sosial dəyişikliyi nəzərdən keçirmək üçün nəzəri baxımdan mütəfəkkirlər sosial dəyişikliyin müxtəlif amillərin önündə olduğunu irəli sürmüşlər. Bu nöqtədə L.Uayt texnologiyası, K.Marks iqtisadiyyatı, M.Veber ideologiyası və inanc sistemi sosial dəyişikliyin əsas faktoru olaraq şərh edilir [9, s.43]. Sosial dəyişiklik anlayışına iki şəkildə yanaşmaq olar. İstiqamətdə irəlilədikcə sosial dəyişiklik anlayışı təhvil vermənin mənasını müəyyən edir. Əslində təhsillə sosial dəyişiklik arasında qarşılıqlı əlaqə

vardır. Təhsil, sosial dəyişiklik arasında qarşılıqlı əlaqədən daha çox bir istiqamətli əlaqə var. Burada səbəb-nəticə əlaqəsi olsa da, qarşılıqlı əlaqənin dərəcəsini təyin etmək çətindir [12, s.48].

Təhsil, yalnız mövcud mədəni dəyərləri yeni nəsillərə köçürərək ictimai davamlılığı təmin etmək, bunu edərkən təhsilalanın davranışını bioloji bir varlıq olaraq dəyişdirərək ictimai bir varlıq halına gətirir [8, s.106]. Təhsilin ən əsas məqsədi fərdin rifah səviyyəsini yüksəltmək, cəmiyyətin rifahını yüksəltməkdir. O zaman təhsil, ölkənin siyasi, sosial, iqtisadi, elmi qurumları istehsal gücünü artıran bir proses kimi görünə bilər. İnformasiya və kommunikasiya texnologiyalarının təsiri ilə təhsil sahəsində baş verən çevrilməni doğru anlamlandırmaq üçün istifadə edilən texnologiyanın, insanların dərk etmələri çox əhəmiyyətlidir. Bu dəyişiklik nəticəsində ortaya çıxan tələb, profilində əsas dəyişiklik və təhsil sistemi müəllimlərinin imkanları və qərar qəbul edənlər arasında tələbə, xüsusiyyətlərin uyğunsuzluqu ilə üzləşir. Rəqəmsal mədəniyyətlə necə davranmaq lazımdır? Rəqəmsal mədəniyyətin xüsusiyyətləri; təsirə məruz qalan daxili və sosial-iqtisadi səviyyələrin demoqrafik strukturu kimi ölkələrarası ictimai münasibətləri səciyyələndirir. Avropa ölkələrində aparılan tədqiqatlarda rəqəmsal mədəniyyətin mövcudluğuna təsir edən şərtlərin tədqiqatlar nəticəsində kifayət qədər heterojen şəkildə paylandığı bildirilir [11]. Rəqəmsal mədəniyyətin xüsusiyyətləri ölkədən ölkəyə və bölgədən bölgəyə heterojen olsa da, dəyişikliklərin başlanğıcı bütün dünyaya yayılsa da, dəyişənlər arasında sosial-iqtisadi vəziyyət fərqlərini ehtiva edir. Çünki dünya dünənin və sabahın tələb şərtlərinə uyğun olaraq çox sürətlə dəyişir, daha yüksək səviyyəli düşünmə bacarıqlarının qeyri-müəyyənlikləri ilə mübarizə aparmağa hazırlaşmaq lazımdır.

Həyatın bütün sahələrində olduğu kimi təhsildə də texnologiyanın ən əhəmiyyətli ölçüləri və müəllim və tələbələrin alt-üst etdiyi keyfiyyətlərin qaçınılmaz təsirləri olduğu aydındır. Bugünkü tələbələr rəqəmsal mədəniyyətdə müəllimlərə rəqəmsal immiqrantlar deyilir [11]. Texnologiyanın sürətli inkişafı səbəbiylə fərdlər arasında mədəni və sosioloji dəyişikliklərin yaşanması mümkündür. İndi müxtəlif coğrafi və sosioloji şəraitdə olan fərdlər, eləcə də yaşlarına görə texnologiyaya çıxış və istifadə imkanları da dəyişir.

Rəqəmsal əsrdə sosial təhsil və bəlkə də dəyişdirilərək gələcək nəsillərə ötürülməsi, ünsürləri qorunub saxlanması unudulacaq mühüm sosial siyasət məsələsi halına gələcəkdir. Bundan əlavə, siyasətçilər sosial icmaların gələcəyinin qısa və uzunmüddətli hədəflərini də müəyyən edir, təhsil siyasəti və məktəb konfiqurasiyaları buna uyğun tənzimlənməlidir. Ətraf mühiti cəmiyyət və dəyərlərin qloballaşmasının ön sıralarına çıxaran, təhsil və məktəb sistemlərini yenidən istiqamətləndirən, inkişaf etdirən və keçmişdə olduğundan daha çox inkişaf etdirən bütün cəmiyyətlər fərqli bir şəkildə konfiqurasiya edilmişdir [12, s.63]. Köhnə rəqəmsal üsullarla təhsil alan tələbələrin fərdləri ilə mövcud rəqəmsal dövrün yanlış olduğu söylənilə bilər. Bu vəziyyətdə müəllim və şagirdlərin bir-birini başa düşməsi, daha keyfiyyətli bir təhsildə uğursuzluğa səbəb ola bilər. Bu fərqi bağlayan bəzi müəllimlərin təhsili ilə bağlanması, özünü inkişaf etdirməsi, texnologiyadan dərsdə xüsusilə inteqrasiyalı fəaliyyətlərdə istifadə etmələri lazım olduğu iddia edilə bilər. Texnologiyanın çatdığı cəmiyyətlərdə mövcud texnologiya ilə heç vaxt qarşılaşa bilməyən cəmiyyətlərdə bu çərçivədə ayrı tutulması lazım olduğunu qeyd etmək lazımdır. Gələcəyə yönümlü təhsilin yeni dünya nizamının qurulması baxımından, fərdləri təsirli şəkildə yetişdirmək üçün fəaliyyət göstərən məlumatlar əhəmiyyət kəsb edir. Nəticə etibarilə təhsilin, bütün insanların və təşkilatların demokratik həyatı üzərində gerçək keyfiyyət və dəyərli bir məqsəd olduğunu fərdi, ictimai və dolayısı ilə tapır [8, s.108].

**IV. Nəticə**

Eksperimental işin nəticələri sosial-mədəni fəaliyyət, təhsili üzrə ixtisaslaşmış bakalavr və magistrlər arasında rəqəmsal səriştələrin inkişafına təkan verən tədris-pedaqoji şərait və vasitələrin təklif olunan dəstinin müsbət təsirini təsdiqlədi. Ümumilikdə, tədqiqat əsasında tələbələrin rəqəmsal kompetensiyalarına dair yeni nəzəri və praktiki biliklər əldə edilmişdir.

Əvvəlki miqyasda rəqəmsal məlumatların formalaşdırılması, sosial-iqtisadi sahədə ümumi konseptual sənədlərin idarə edilməsi, sosial-iqtisadi sahədə ümumi konseptual dəyişikliklərin həyata keçirilməsi. Prosesləri və nəticələri rəqəmsal iqtisadiyyat, siyasət, kommunikasiya, sosial həyat tərzi, sosial sistemlər idarə edir.

### ƏDƏBİYYAT SİYAHISI:

1. Алексейчева Е. Ю. Проблемы использования технологий информатизации в образовании // Новое в науке и образовании: сборник трудов международной ежегодной научно-практической конференции / ответственный редактор Ю. Н. Кондракова. Москва, Макс Пресс, 2018. с. 15–22.

2. Булгатова Ю. С., Дырхеев А. В. Информационные технологии как средство модернизации государственного управления в современном обществе // Вестник Бурятского государственного университета. Экономика и менеджмент. 2018. № 1. с. 8–15.

3. Булгатова Ю. С., Сандакова Л. Г., Цыренов Д. Д. Информационные технологии в управлении деятельностью бизнес-систем в условиях трансформации российского общества. Улан-Удэ, 2016. 136 с.

4. Кешелава, В.Г. Буданов, В.Ю. Румянцев, Введение в «цифровую» экономику (ВНИИ Геосистема, Москва, 2017, с. 6-8.

5. Лукинова, О. В. Цифровой этикет. Как не бесить друг друга в Интернете. Москва, Эксмо, 2020. 240 с.

6. Неупокоева Е.Е., Ломовцева Н.В. Цифровая культура в системе образования: проблемы и их причины, решения. // https: //elar. Rsvpu .ru/ bit stream/123456789/31760/1/978-5-91256-473-4_2020_050.pdf? ysclid= m2qo1i 3t6877748378.

7. Brundiers K., Wiek A., Education Sciences, 7(1), 39 (2017). https://doi.org/10.3390/educsci7010039

8. Dinçer, M. (2003The Power of Education In The Process of Social Change, Ege University Magazine, (3), 1: 102-112).

9. Ergün, M. (1994). Introduction to Sociology of Education. Ankara: Ocak Publications.

10. Farrell J.M., Adams J.(1989) The New England Quarterly 62.4, 505–528.

11. Prensky, M. (2009). H. Sapiens Digital: From Digital Immigrants and Digital Natives to Digital Wisdom, http://www.wisdompage.com/Prensky01.html.

12. Shishman, M. (2006). Introduction to Educational Sciences. Ankara: Pegem Publications.

13. Taskiran H.B., Digitalization of Culture and Art Communication: A Study on Digital Databases and Digital Publics, in Handbook of Research on Examining Cultural Policies Through Digital Communication, 144-160 (2019). https://doi.org/10.4018/978-1-5225-6998-5.ch007

14. The Agency of Strategic Initiatives, Atlas of New Professions 2030 // December 16, 2020. // http://atlas100.ru/about/

### XÜLASƏ

Məqalədə cəmiyyətin bütün vətəndaşlarına rəqəmsal mədəniyyətin öyrədilməsinin aktual problemləri müzakirə olunur. Həm cəmiyyətin, həm də fərdin rəqəmsal mədəniyyətinin səviyyəsi dövlətin inkişafı üçün həlledici olur. İnformasiya, cəmiyyətin ən mühüm komponentinə çevrilir, informasiya-kommunikasiya texnologiyaları isə rəqəmsal həllərin yüksək səmərəliliyi sayəsində bütün fəaliyyət növlərinin əsası kimi müəyyən edilir. Gələcəkdə əşyaların interneti, blokçeyn və s. kimi innovasiyalar əsas əhəmiyyət kəsb edəcək. Siz qaçılmaz olaraq ümumi bəşər mədəniyyətinin mühüm hissəsinə çevriləcək yeni rəqəmsal cəmiyyətin mədəniyyətinin yaranması haqqında getdikcə daha çox eşidə bilərsiniz. Rəqəmsal inkişafın xüsusilə mühüm rol oynadığı cəmiyyətin strukturunun və sosial qarşılıqlı əlaqənin təkmilləşdirilməsi yeni tipli iqtisadi reallığın meydana çıxmasını şərtləndirir.

**Açar sözlər:** *Təhsil, rəqəmsal mədəniyyət, cəmiyyət, rəqəmsallaşma, sosial-mədəni.*

**Фазиль Рустамов**

**Цифровые компетенции в аспекте социо-культурного образования**

### РЕЗЮМЕ

В статье рассматриваются актуальные вопросы обучения цифровой культуре всех граждан общества. Определяющим для развития государства становится уровень цифровой культуры как общества, так и личности. Информация становится важнейшей составляющей социума, при этом информационно-коммуникационные технологии определяются как основа всевозможных видов деятельности по причине высокой эффективности цифровых решений. В будущем ключевое значение будут иметь такие инновации, как интернет вещей, блокчейн и т. д. Поэтому обоснована необходимость формирования цифровой компетенции. Все чаще можно ус-

лышать о появлении новой культуры цифрового общества, которая неизбежно станет важной частью общей человеческой культуры. Совершенствование структуры социума и межсоциальных взаимодействий, в составе которых особенно значимая роль отводится цифровому развитию, обусловливает появление нового типа экономической реальности.

**Ключевые слова:** *Образование, цифровая культура, общество, цифровизация, социокультурный.*

**Fazil Rustamov**

**Digital competences in the aspect of socio-cultural education**

**SUMMARY**

The article discusses current issues of teaching digital culture to all citizens of society. The level of digital culture of both society and individuals becomes decisive for the development of the state. Information becomes the most important component of society, while information and communication technologies are defined as the basis for all kinds of activities due to the high efficiency of digital solutions. In the future, such innovations as the Internet of Things, blockchain, etc. will be of key importance. Therefore, the need to develop digital competence is justified. More and more often, one can hear about the emergence of a new culture of digital society, which will inevitably become an important part of the general human culture. Improvement of the structure of society and intersocial interactions, in which digital development plays a particularly significant role, determines the emergence of a new type of economic reality.

**Keywords:** *Education, digital culture, society, digitization, socio-cultural.*

UOT 316
https://doi.org/10.30546/3006-0346.2024.6.84.091

# DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM-TƏRBİYƏ ALAN UŞAQLARIN TƏHSİL PERSPEKTİVLƏRİNDƏ SOSİAL XİDMƏT EHTİYACLARI

**ELİZƏ İSMAYILOVA**
*Bakı Dövlət Universiteti,*
*sosial iş kafedrasının baş müəllimi, f.f.d.*

*E-mail: eliza_ismayilova@yahoo.com*
*elizaismayilova@bsu.edu.az*
*ORCİD- 0009-0004-9542-446X*

## Giriş

Ölkəmizdə uşaq hüquqları, onların sosial-ictimai və mədəni həyatının müdafiəsi ilə bağlı dövlət siyasəti, hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, müasir dövrün tələbləri əsasında təhsil alması və layiqli vətəndaş kimi formalaşması təhsil sahəsinin də prioritet mövzularından biridir. 19 may 1998-ci il tarixli 499-İQ saylı Azərbaycan Respublikasının "Uşaq Hüquqları" haqqinda qanununun 11-ci maddəsində qeyd olunub ki, "Uşağın tərbiyəsi ailədə və təhsil müəssisələrində aparılır" [1]. Bu mövzuda tədqiqatımın əsas məqsədi məhz dövlət üşaq müəssisəsində təlim-tərbiyə alan uşaqların təhsil perspektivlərində sosial xidmətin həyata keçirilməsində dövlət və qeyri-hökumət təşkilatlarının fəaliyyət istiqamətlərini təhlil etməklə ehtiyacların qiymətləndirilməsinə çalışmaqdır. Məlum olduğu kimi Birləşmiş Millətlər Təşkilatı tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilmiş Uşaq Hüquqları haqqında Konvensiyada, uşaqların hər cür istismardan və digər pis davranışlardan uzaq olaraq öz potensialını tam reallaşdırmaq hüququ vardır və uşaqların buna nail ola biləcək şəkildə təlim keçmələri nəzərdə tutulub. Uşaqların təhsil hüququnun təmin edilməsi, konvensiyaya daxil edilmiş bütün uşaq hüquqlarının həyata keçirilməsi, təşviqi, inkişafı və qorunmasında bu vacib şərtdir. Bu şərt, hüququn düzgün təmin olunması və hüquqa əsaslanan yanaşma ilə həyata keçirilə bilər. Hüquqlara əsaslanan təhsil yanaşmasında uşaqların yalnız məktəbə yazılması deyil, onların təhsildən bərabər şəraitdə faydalanması da əsas şərtdir. Bu yanaşmada təhsil sisteminə giriş, xüsusi ilə dövlət xüsusi internat tipli təhsil müəssisələrində təlim-tərbiyə alan uşaqlarla bağlı irəli çıxan problemlərin aradan qaldırılmasında qəbul olunmuş beynəlxalq və yerli qanunların tələbinə uyğun olaraq uşaqların sosial mudafiəsinə, sosiallaşmasına, onların öz potensiallarını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək zəruriyyətini yaratmışdır. Bu tələb həm də məktəbdə sosial işin aparılması zərurətini ortaya qoyur və məktəb sosial xidmətin həyata keçirilməsində təhsil tənzimləmələrində ayrı-seçkilik etmədən bütün uşaqların potensialını maksimum dərəcədə artırmaq səviyyəsini hədəfləməlidir. Bu kontekstdə məqalənin məqsədi uşaq hüquqları konvensiyasının, hüquqa əsaslanan təhsil yanaşmasının həyata keçirilməsində sosial xidmətin rolunun əhəmiyyətini müzakirə etməkdir.

Ölkəmizdə əhalinin, eləcə də çətin həyat şəraitinə məruz qalmış şəxslərin sosial rifahının yaxşılaşdırılması, cəmiyyət resurslarından tam şəkildə istifadə etmək bacarıqlarına malik olmayanların həyat fəaliyyətində inkişafa doğru dəyişikliklərə nail olmaq məqsədilə 30 dekabr 2011-ci il tarixli 275-İVQ saylı "Sosial xidmət haqqında" qanun qəbul olundu. Bu qanundan irəli gələn sosial sahələrdə yeni xidmət modelləri və yanaşmaları meydana gəldi. Müasir Azərbaycanda sosial xidmət sahələrində çox böyük islahatlar həyata keçirilməsinə baxmayaraq, cəmiyyətin gələcək sağlam həyatının əsasını təşkil edən təhsil-məktəb-şagird kontekstində "məktəbdə sosial xidmət" işi haqqında, demək olar ki, söhbət getmir. Təhsil və Elm Nazirliyi tərəfindən həyata keçirilən "Məktəblinin dostu" pilot layihəsi Bakı və Abşeron rayonu üzrə tam orta məktəblərdə şagird-müəllim-valideyn üçbucağı formatında fəaliyyət göstərir, lakin bu layihə uşaqların sosial problemləri ilə bağlı hər-hansı bir ciddi fəaliyyəti həyata keçirmir. Ölkəmizin ali təhsil ocaqlarında "sosial iş" ixtisası üzrə hazırlanan mütəxəssislərə "təhsildə sosial iş" fənni tədris olunur. Bu isə o deməkdir ki, dövlətin sosial siyasətində sosial sferanın bütün sahələrini nəzərə alaraq, xüsusilə "məktəbdə sosial xidmət"in həyata keçirilməsi müasir dövrün aktual məsələlərindən biridir. Qanunda hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır. Bu hüquqdan irəli gələrək dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqlara xüsusi qayğı, sevgi hissi, dostluq münasibətlərinin qurulması, vətən sevgisi kimi xüsusiyyətlərin aşılanması

onların kiçik yaşlarından, təhsil illərində - məktəb həyatından başladığı hər kəsə bəllidir. Valideyn himayəsindən məhrum olmuş uşaqların təlim-tərbiyə aldıqları xüsusi internat tipli müəssisələrdə onların doğma-isti valideyn ocağı və sevgisindən uzaq olan bir mühitdə böyüdüklərini nəzərə alaraq, məhz "məktəbdə sosial xidmət" işinin həyata keçirilməsi məsələsinin nə qədər aktual və zəruru olduğunu görmək çox asandır. Son dövrlər valideyn himayəsindən məhrum olmuş uşaqların təlim-tərbiyə aldıqları müəssisələrdə uşaqların psixo-sosial hərəkət və davranışları ilə bağlı bəzi problemlər kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə geniş ictimaiyyətə çatdırılmışdır. Bu isə bizə onu çatdırır ki, müasir dövrdə bu tipli müəssisələrdə (internat evlərində) uşaqların təlim-tərbiyə işində "məktəb sosial xidmət"in həyata keçirilməsi zərurəti yaranıb. Bu tip müəssisələrdə yaşayan uşaqların problemləri göz ardına alındıqca onlar artacaq və zaman gəldiyində problemi vaxtında həll olunmamış uşaqlar cəmiyyətin risk qruplarına çevriləcəklər. Bildiyimiz kimi bir çox uşağın psixo-sosial problemləri həll olunmadıqca, onların cinayətə sürüklənməyə meylləri güclənir. "Məktəb sosial xidməti" müasir dövrdə inkişaf etmiş cəmiyyətlərdə uşaqların risklərini erkən aşkar edərək cinayətə sürüklənməsinin qarşısını alır və onların reabilitasiya proseslərini komanda işi ilə çox səmərəli şəkildə həyata keçirə bilir.

Ölkəmizdə inteqrasiya təlimli internat müəssisələrinin sayı 29, orada təlim-tərbiyə olunan uşaqların sayı isə 11901 nəfərdir. Valideyn himayəsindən məhrum olan uşaqlar üçün nəzərdə tutulan müəssisələrin sayı - 3, orada təlim-tərbiyə olunan uşaqlartın sayı isə 409 nəfərdir. Eləcə də sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəbin sayı-9, orada təhsil alan uşaqların sayı isə-295 nəfərdir. Bunlardan əlavə, ölkəmizdə (Bakı şəhəri üzrə 11 məktəb olmaqla) 253 orta məktəb nəzdində xüsusi siniflərdə təhsil alan uşaqlar vardır ki, onların sosiallaşması, öz potensiallarının inkişaf etdirilməsi və digər gələcək sosial həyat tələbatlarının təmin olunması məqsədilə xüsusi sosial xidmətin həyata keçirilməsinə ehtiyac vardır. Qeyd olunan müəssisə, eləcə də orada təlim-tərbiyə alan uşaqların sayı, müasir dövrün tələblərindən doğan sosial xidmət modelləri, bu tip müəssisələrə "məktəb sosial xidmət"in həyata keçirilməsini zəruri edir. Hələ də geniş ictimaiyyətə qapalı olan bu tip müəssisələrdə uşaqların təlim-tərbiyə prosesində təbii olaraq yaranmış psixo-sosial problemlərin aradan qaldırılmasında bəs hansı üsullardan istifadə etməklə həll yolları tapmaq olar sualına cavab tapmağa çalışaq. "Sosial işin konsepsiyaları və metodları" əsərinin müəllifi, Koliforniya Universitetinin professoru Volter A. Firedlanderə görə "məktəb sosial xidmət"i ilk olaraq məktəbdə problem yaşayan və ya məktəb mühitində çətinlik çəkən şagirdlərin evlərini ziyarət etməklə şagirdlərin problemlərinin haradan qaynaqlandığını öyrənməyə çalışan və məktəb şərtlərinə əməl etməklə onların problemlərinə köməklik göstərən "ziyarətçi müəllimlərin xidməti" ilə başlanmışdır [2]. "Məktəb sosial xidmət" işinin diqqət mərkəzində olan problemlər, təkcə psixo-sosial səbəblərdən deyil, mədəni və iqtisadi səbəblərlə də bağlı ola bilər. Məktəblilərin uşaqlıq və yeniyetməlik dövrü ilə əlaqədar, ailə şəraitinə görə yaşadıqları müxtəlif problemləri, özlərinə aid lazım olan xidmətlərdən faydalana bilməmələri və beləliklə təhsil fəaliyyətini uğurlu həyata keçirə bilmədikləri səbəbindən təhsildən yayınma meylləri yaranır. Digər bir baxımdan məktəbdə şagirdlərin sosial münasibətləri pozulur, dərsə maraqları azalır, müvəfəqiyyət səviyyələri aşağı olur, belə olduğu zaman "məktəb sosial xidmət"ı, istər şagirdin ailəsi, dostu, istərsə də müəllimləri ilə birlikdə onun psixo-sosial mühitinə müdaxilə edərək problemi sistemli şəkildə həll etməyə çalışır. Ölkəmizdə inteqrasiya tipli məktəblərdə təhsil alan uşaqlar və onların ailələri ilə sosial işin tədqiqatçıları, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi Yaqut Şərifovanın "Xüsusi qayğıya möhtac uşaqların ailələri ilə sosial iş" məqaləsində müəllif "xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişafı və təlim prosesində, ailələrlə səmərəli əməkdaşlığın qurulması üçün müəllimlər və onların köməkçiləri, ailələrlə işləmə vərdişlərinə malik olmalı və onlarla mütəmadi səmərəli iş aparmalıdırlar" ifadəsində əslində müəllim köməkçisi və səmərəli işi aparanın- müasir məktəb sosial xidmətçisi olduğu aydin görünür [3]. Məktəblilərin təhsil müəssisələrində təhsillə bağlı və ya onların təhsil uğuruna mane olan qeyri-təhsil problemləri vardır. Bu problemlərin aradan qaldırılması üçün artıq inkişaf etmiş ölkələrdə "məktəb sosial xidmət" təlim-tərbiyə müəssisələrində rəsmi olaraq mütəxəssis işçilər kimi fəaliyyət göstərirlər. Misal olaraq Türkiyə Respublikasında bu məqsədi həyata keçirmək üçün Aile ve Sosyal Politikalar Bakanlığı ve Milli Eğitim Bakanlığı 2016-cı ildə birgə

qəbul etdikləri fəaliyyət proqramları vardır[4].

Dövlət uşaq müəssisələrində təhsil alan uşaqlara öz hüquqlarını əldə etmək və bütün potensiallarını maksimum dərəcədə artırmaq imkanı vermək, özlərini inkişaf etdirmək üçün onların təhsil hüquqları ilə yanaşı məktəbdənkənar təlimlərdən yararlanmaq haqları da vardır. Daha əvvəl də qeyd edildiyi kimi, təhsil hüququ sadəcə məktəbə yazılmaqla kifayətlənməməli, əsaslı yanaşma ilə uşaqların məktəbə davamiyyətini, məktəb uğurunu və keyfiyyətli təhsili təmin etməklə bərabər onların fərdi xüsusiyyətlərini nəzərə almaqla müvafiq təhsil mühiti və imkanları təmin etmək lazımdır. Bu imkanları ölkəmizdə hələlik Qeyri-Hokumət Təşkilatlarına Dəstək Şurası müəyyən qədər həyata keçirir. Suranın qrant layihələri vasitəsi ilə "İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyi tərəfindən "İnternat məzunu olmağa hazırlaşan gənclərlə iş" layihəsi çərçivəsində, gənclərə ünsiyyət qaydaları, etik normalar və milli-mənəvi dəyərlərin təbliği mövzularında seminar və təlimlər keçirilib. Layihə, Bakı şəhəri Mərdəkan kəndində yerləşən 2 nömrəli valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi, Buzovna qəsəbəsindəki 8 nömrəli inteqrasiya tipli internat məktəbi və Bilgəh qəsəbəsindəki 11 nömrəli inteqrasiya təlimli internat məktəbində reallaşdırılıb [5]. Göründüyü kimi cəmiyyətimizə xas olan xüsusiyyətlərdən irəli gələn və ehtiyacı olanlara yardım göstərmək, xüsusilə həssas əhalı qrupuna qayğı göstərmək ayrı-ayrı dövrlər istər fərdi şəkildə, istərsə də QHT fəaliyyəti ilə həyata keçirilmişdir və bu gün də davam edir. Qanun çərçivəsində həssas qrup kateqoriyasına daxil olan xüsusi tipli məktəblərdə təhsilalanların uşaq hüquqları QHT-nin fəaliyyəti səviyyəsində deyil, Təhsil Nazirliyinin dövlət siyasəti səviyyəsində təhsil sisteminə şamil olunmalıdır. Hazırda dünyanın inkişaf etmiş ölkələrində uşaq hüquqlarının müdafiəsi ilə əlaqəli bütün ümumtəhsil müəssisələr "məktəb sosial xidmət"i ilə təmin olunmuşdur. "Məktəbdə işləyən sosial işçilərin bir peşə-ixtisas hesab edilib-edilməyəcəyi bir əsr əvvəl ABŞ-da müzakirə olunmağa başlamışdır və son 20 ildə beynəlxalq səviyyədə tətbiq olunub. Hazırda dünyanın 49 ölkəsində tətbiq olunur və bu, uşaqların keyfiyyətli təhsilə çıxışını təmin etmək kimi missiyanı həyata keçirir" [6].

Ölkənin bütün təhsil sistemində təhsilalanlarına eyni təhsil imkanları təklif olunsa belə, yaşadıqları qeyri-adekvat sosial-iqtisadi və mədəni şərait, onların eyni səviyyədə təhsilə çatmasına mane olur. Bu vəziyyət dövlət uşaq müəssisələrində daha aydın və qabarıq şəkildə gözə çarpır. Bu isə yuxarıda qeyd olunan yerli və beynəlxalq səviyyədə qəbul olunmuş uşaq hüquqları ilə ziddiyyət təşkil edir və bərabərsizliklərin bir nəsildən digərinə ötürüldüyünü göstərir.

Sosial xidmət mütəxəssisləri məktəblilərin biopsixososial inkişafına dəstək verən, onların daha effektiv davranış xüsusiyyətlərinin aşkara çıxaran, eləcədə bilik-bacarıqlarının inkişafına yönəlmiş fəaliyyət proqramların hazırlanmasını təşkil etməklə onların məktəbə müntəzəm davamiyyətni və gələcək həyat yoluna düzgün yanaşmanı təmin etmiş olacaqlar. Günümüzdə bütün ümumtəhsil müəssisələrində, xüsusilə də dövlət uşaq müəssisələrində "məktəb sosial xidməti"nin həyata keçirilməsi niyə lazımdır sualını soruşanlara deyə bilərik ki, məktəblilərin son dövrlər daha çox mənfi təsirlərə məruz qalması, xüsusilə valideyn himayəsindən kənar uşaqların bu təsirlərdən daha çox əziyyət çəkməsi, uşaqların qarşılanmamış maddi və mənəvi ehtiyacları, onların məktəbə uyğunlaşmaması kimi hallar indiki məqamda belə bir ehtiyacın danılmaz olduğunu göstərir.

Ölkəmizdə əhalinin həssas təbəqəsinin sosial rifahi ilə bağlı bir çox yeni sosial xidmət sahələrinin inkişaf etməsinə baxmayaraq, bu həssas təbəqənin əsas kateqoriyasını təşkil edən uşaqlarla, xüsusilə dövlət uşaq müəssisələrində təlim-tərbiyə alanlarla bağlı sosial xidmətin həyata keçirilməsi hələ ki lazımı formada dəyərləndirilməmişdir. KİV və digər sosial şəbəkələr vasitəsiylə bu tip müəssisələrdə baş vermiş problemlər sosial xidmət sahəsinin mütəxəssisləri ilə həll yolu tapmaq əvəzinə, bu problemi orada yaşayan uşaqların "psixi və davranış pozuntusu" adı ilə digər müəssisələrə köçürülməsi məsələnin köklü həllindən uzaqlaşmağı göstərir. Halbuki, təhsil mühitində zorakılıq, cinayətə meyl, sui-istifadə, dəstə yaratmaq, məişət problemləri, fərqli inkişaf kimi çoxölçülü problemlərin həllində peşəkar yanaşmalara və komanda işinə ehtiyac vardır. Bu, müasir dövrün dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqlar üçün bir tələbdir. Bu tələbin yerinə yetirilməsində "məktəb sosial xidmət" mütəxəssisinin üzərinə düşən vəzifə və məsuliyyətlər nədən ibarət olmalıdır kimi bəzi məsələlərin acılmasına da ehtiyac vardır. Təhsildə sosial iş, uşaq

və yeniyetmələrlə sosial iş və ailə və uşaqlarla sosial işin əsasları kimi fənlərin tədrisi bizə imkan verir ki, sosial işçinin bu xidmət sahəsində onların rolu və təsirlərini tətbiq edək.

**Nəticə və tövsiyə**

Son dövrlər təhsil sisteminə müxtəlif prizmadan tənqidi baxışların olduğunu görürük. Müasir dövrün sosial- siyasi və ideoloji ambisiyaları sırasında, xroniki problemlər, struktur çatışmazlıqlar və bir çox problem dolayları arasında ilişib qalan və risk qrupuna çevrilmə ehtimalı böyük olan dövlət uşaq müəssisələrində təhsil alan uşaqların profili görünür. Bu kontekstdə xüsusi tipli internat məktəblərində təhsil alan şagirdlərə və onların ehtiyaclarına diqqət yetirən, onları gücləndirən və hər cür ədalətsizliyə qarşı müdafiə edən, onların inkişafını dəstəkləyən, şəxsiyyətini öz mühitində hesab edən, fərqliliklərə hörmət edən və ehtiyac duyulan resurslarla təmin edən çoxşaxəli bir sosial xidmət yanaşması lazımdır. Uşaqların ruhuna uyğun olaraq bütün digər hüquqlarından yararlanmalarına yol açan, xüsusi təhsilə ehtiyacı olan uşaqların sayının çox olduğu məktəblərdə və rayonlarda, harada olmasından asılı olmayaraq bu xidmətin həyata keçirilməsi zərurəti vardır və bu bizim gələcək sağlam cəmiyyətimiz üçün vacibdir.

**Acar sozlər:** *Uşaq hüquqları, məktəb, sosial xidmət, təhsil sistemi, internat məktəbi.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. https://e-qanun.az/framework/3292*

*2. https://archive.org/details/conceptsmethodso00frie/page/n11/mode/2up*

*https://openlibrary.org/authors/OL1759049A/Walter_A._Friedlander*

*3. https://adpk.edu.az/index.php/az/m%C9%99qal%C9%99l%C9%99r/212-x%C3%BCsusi-qay%C4%9F%C4%B1ya-m%C3%B6htac-u%C5%9Faqlar%C4%B1n-ail%C9%99l%C9%99ri-il%C9%99-i%C5%9F*

*4. file:///C:/Users/uSER/Desktop/Yeni%20kitablar/sempozyum%202015-insan%20de%C4%9Fer%20ve%20onurunu%20y%C3%BCceltmek.pdf*

*5. https://www.facebook.com/araz.ehmedov.98*

*6. Allen-Meares, P. (1996). Social work services in schools: A look at yesteryear and the future, Social Work in Education, 18(4), 202-208.*

**Eliza Ismayilova**

**Social service applications in the educational prospects of children educated in state child institutions**

**ABSTRACT**

I will analyze how urgent and necessary the issue of implementing "school social work" is and try to explain the importance of implementing this service in general schools operating in the entire education system, including special boarding schools in this article considering that children deprived of parental care grow up in special boarding-type institutions, where they are educated, in an environment far from their native warm parental home and love. Recently, some problems related to the psycho-social actions and behaviors of children in the institutions where children deprived of parental care are educated have been brought to the attention of the general public in the mass media and social networks. This tells us that actually, there is a need to implement "school social service" in the educational work of children in such institutions (boarding houses). As the problems of children living in such institutions are ignored, they will increase and when the time comes, children whose problems are not solved in time will become risk groups of society. As we know, if the psycho-social problems of many children are not solved, their tendency to commit crimes increases. “School social work” prevents children from committing crimes by detecting their risks early in modern developed societies and can implement their rehabilitation processes very effectively through teamwork. This will ensure the healthy future of every society and the efficient use of the investment made by the state in the education system.

**Keywords:** *Child rights, school, social service, education system, boarding school.*

**Елиза Исмайылова**

**Применение социальной службы в образовательных перспективах детей, воспитывающихся в государственных детских учреждениях**

**РЕЗЮМЕ**

Учитывая, что дети, лишённые родительской опеки, воспитываются в специальных ин-

тернатных учреждениях, где они растут вдали от тёплой родительской атмосферы и любви, в данной статье будет проанализирована актуальность и необходимость внедрения “социальной службы в школе”. Мы постараемся объяснить важность применения этой службы во всех общеобразовательных школах, функционирующих в рамках образовательной системы, включая специализированные интернатные школы.

В последние годы в учреждениях, где проходят обучение и воспитание дети, лишённые родительской опеки, стали широко обсуждаться проблемы, связанные с их психосоциальным поведением, как в средствах массовой информации, так и в социальных сетях. Это указывает на то, что в современных условиях возникает необходимость внедрения “школьной социальной службы” в работу интернатных домов. Если игнорировать проблемы детей, проживающих в таких учреждениях, они будут усугубляться, и со временем дети, чьи проблемы не были решены вовремя, станут частью группы риска в обществе.

Как известно, если психосоциальные проблемы многих детей остаются нерешёнными, у них усиливается склонность к правонарушениям. “Школьная социальная служба” в развитых обществах современности выявляет риски детей на ранних стадиях, предотвращает их вовлечение в преступную деятельность и эффективно проводит их реабилитацию с помощью командной работы. Это обеспечивает здоровое будущее общества и эффективное использование инвестиций государства в систему образования.

**Ключевые слова:** *права детей, школа, социальная служба, система образования, интернат.*

UOT 316
https://doi.org/10.30546/3006-0346.2024.6.84.093

# UŞAQLARINA ZORAKILIQ GÖSTƏRƏN VALİDEYNLƏRİN XÜSUSİYYƏTLƏRİ

**AYXAN QƏHRƏMANOV**
*Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı*
*E-mail: ayxanshahbazoglu@mail.ru*

Beynəlxalq və yerli tədqiqatlardan aydın olur ki, ailədaxili uşaqlara qarşı zorakılığın tərifini və konseptual çərçivəsini cızmaq üçün bir tərəfdən fərdin yaxın ətrafı ilə münasibətləri və psixoloji vəziyyətləri, digər tərəfdən də sosial mühit və onun bu mühitlə əlaqəsi nəzərə alınmalıdır. Bu səbəbdən ailədaxili zorakılığa təsir göstərə biləcək amilləri araşdırarkən, ailənin həm daxili, həm də xarici mədəni və ictimai mübarizəsini dərk etmək vacibdir. Çünki şəxsiyyətlərarası emosional münasibətdən ətraf mühitlə işgüzar münasibətlərə qədər bütün qarşılıqlı əlaqə formalarının və bu formaları müəyyən etdiyi düşünülən sosial və iqtisadi strukturların və bu strukturlar səbəbiylə yaşanan dəyişikliklərin zorakılıqdan istifadə meylinə təsir etdiyi düşünülür. Ona görə də zorakılığın yaranması və həyata keçirilməsini şərtləndirən bu amilləri bir tərəfdən sosial-mədəni və iqtisadi, digər tərəfdən isə psixoloji faktorlar kimi ayırd etmək və onlara diqqət yetirmək, zorakılıqdan istifadə edən valideynlərin xüsusiyyətlərini anlamaq üçün vacibdir.

ÜST 2003-cü il tarixli "Zorakılıq və sağlamlıq üzrə ümumdünya Hesabatı"nda zorakılığa səbəb olan amilləri aşağıdakı kimi sadalayır: "Valideynlər tərəfindən sərt intizam, uşaqları nəzarətsiz qoyma, zorakılığa məruz qalma, narkotik satışı, odlu silahlarla yaxın təmas, alkoqol və maddə asılılığı, hər cür bərabərsizlik, zəif polis sistemi, qadınlara qarşı ayrı-seçkilik" [13].

Bir çox tədqiqatçılar zorakılıq aktlarını formalaşdıran təsirləri anlamağa və bu yolla kimin zorakılıq göstərə biləcəyini təxmin etməyə çalışmışlar. Zorakılığı proqnozlaşdırmaq üçün istifadə edilən bu araşdırmalarda əldə edilən ən məşhur tapıntılar aşağıdakılardır: Zərər vermək niyyətinin yüksək səviyyədə olması, qurbanın olması, tez-tez və aydın təhdidlər etməsi, konkret planlar qurma bacarığı, zorakılıq vasitələrinə asanlıqla əl atmaq, nəzarəti itirmək barədə keçmişindən əldə edilən məlumat, daimi qəzəb, düşmənçilik və küskünlük hissi, zorakılığa baxmağı xoşlamaq, şəfqətsizlik, özünü qurban kimi görmə, uşaqlıqda pis rəftar və məhrumiyyət, sevgi və diqqətin olmaması, heyvanlara qarşı amansız olmaq, əvvəllər zorakılıq hərəkətləri göstərməsi və s.

Zorakılıq göstərən fərddə müxtəlif formalarda rast gəlinən bu xüsusiyyətlər ətraf mühit faktorları ilə qarşılıqlı təsir nəticəsində çox vaxt ortaya çıxan keyfiyyətlər olaraq görülür. Çünki zorakılıq fərdi səviyyədə fərdin artan aqressiv impulsları ilə daxili nəzarət mexanizmləri arasında tarazlıq pozulduğu zaman baş verir. Əksi olaraq problemə daha dərin baxsaq əgər, fərddə aqressiv meyillər və zorakı fantaziyalar ola bilər, lakin şəxs nəzarəti itirmədikcə bunlar hərəkətə çevrilməz, beləliklə, zorakılıq problemi yaranmaz. Üzvi və nevroloji pozğunluqlar, ətraf mühitdən gələn stimullar aqressiyanı üzə çıxaran impulsları gücləndirdiyi halda, beyində kimyəvi pozğunluqlar və insanın mənəvi dünyasının asanlıqla qırıla bilən olması idarəetmə sistemini zəiflədir. Ailədə yuxarıda qeyd olunan mənfi şəxsiyyət xüsusiyyətlərinə malik şəxslərin olması məişət zorakılığının yaranması və baş verməsinin əsas səbəblərindən biri hesab olunur [7].

Ailədaxili uşaq zorakılığının tədqiq edilməsi və müalicəsi sahəsində çalışmış K. Brovnenin (1991) qeyd etdiyi kimi, hər bir cəmiyyətdə valideyn-uşaq münasibətlərinin forma və standartına sosial və mədəni dəyərlər, həmçinin valideynlərin yaşı, təhsili, sosial-iqtisadi vəziyyəti, etnik qrupu və sosial təbəqəsi təsir göstərir. Bundan əlavə, valideynlərin şəxsiyyət xüsusiyyətləri, psixoloji problemləri, uşaqlıqda zorakılıq və laqeyd davranışlara məruz qalmaları bu əlaqədə təsirlidir. Brovnenin apardığı tədqiqatda zorakılıq edən valideynlər arasında psixoloji problemlərin nisbətinin 61% və zorakı olmayan valideynlər arasında 22% olduğunu ortaya qoydu. Ona görə də demək olar ki, ailədaxili zorakılıq hadisələri ailənin sosial-mədəni və iqtisadi şərtlərindən təsirlənsə də, digər tərəfdən ailə üzvlərinin psixoloji xüsusiyyətləri bu prosesə əhəmiyyətli təsir göstərir [12].

Əslində, görürük ki, ailədaxili uşaqlara qarşı zorakılığın səbəblərini araşdırmaq üçün aparılan demək olar ki, bütün tədqiqatlarda yuxarıda sadalanan faktorlar əsas faktorlar kimi nəzərə alınır və araşdırılır. Bu nöqteyi nəzərdən aşağıda uşaqlarına zorakılıq göstərən valideynlərin xüsusiyyətləri bir neçə başlıq altında birləşmişdir.

**Cins:** Bu sahədə Simmons, zorakılığın əsasən eyni cinsdən olan uşağa yönəldiyini tapmışdır. Yəni hər iki valideynin öz cinsdən olan övladına qarşı zorakılıq etməsi diqqətçəkən məqamdır. Bundan əlavə, ataların böyük uşağa qarşı, anaların isə kiçik uşağa qarşı daha çox fiziki zorakılıq göstərdiyi müşahidə edilir. Zorakılıq edən valideynin cinsiyyəti ilə uşağa dəyən zərər arasındakı əlaqəyə gəlincə, uşaqda ölümlə nəticələnə biləcək fiziki xəsarətləri törədənlərin daha çox atalar olduğu müşahidə edilir. Bunu kişi valideynin fiziki cəhətdən qadın valideyndən daha güclü olması ilə əlaqələndirən fikirlər vardır [1, 378 s].

**Yaş:** Valideynlərin, xüsusən də anaların yaşı çox gəncdir. Bu sahədə çalışan tədqiqatçılardan olan Smith (1988), zorakılıqda ittiham olunan anaların orta yaşının 22 olduğunu müəyyən etmişdir. Digər bir tədqiqatçı Hatçer (1973) bildirir ki, analıq hissi ananın yaşı ilə artır [4].

